İSSN 2218-7588
E- ISSN 2219-5513

DİL VƏ ƏDƏBİYYAT

LANGUAGE AND LİTERATURE ЯЗЫК И ЛИТЕРАТУРА

Beynəlxalq elmi – nəzəri jurnal

2(131)

Jurnal
1993-cü ildən 2 aydan bir çıxır

BAKI - 2026

REDAKSİYA HEYƏTİ - РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

==========

UMUMİ DİLÇİLİK ОБЩЕЕ ЯЗЫКОЗНАНИЕ:	**Akademik N.Cəfərov** **Prof.N.Məmmədli**
ŞƏRQŞÜNASLIQ VƏ İLAHİYYAT **ВОСТОКОВЕДЕНИЕ И ТЕОЛОГИЯ:**	**Prof.R.Rüstəmov–məsul redaktor** **Prof. M.Kazımov** **Dos.A.Məmədova**
AZƏRBAYCAN DİLÇİLİYİ: **АЗЕРБАЙДЖАНСКОЕ ЯЗЫКОЗНАНИЕ:**	**Prof.E.Əzizov** **Prof. T.Hacıyev** **Prof. S.Abdullayeva** **Dos. M. Əlizadə** **Dos. F.Əlizadə**
AZƏRBAYCAN ƏDƏBİYYATI: **АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА**	**Dos.E.Məmmədov-məsul redaktor** **Dos.Ə.Nəcəfzadə**
ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ: **ТЕОРИЯ ЛИТЕРАТУРЫ:**	**Akad. N.Paşayeva-məsul redaktor** **AMEAmüx.üzvü,prof.T.Mütəllimov**
TÜRKOLOGİYA: **ТЮРКОЛОГИЯ:**	**Akad.N.Cəfərov–məsul redaktor** **Fil.f.dok., dos. N.Hüseynova** **Fil.f.dok. R.Bayramov** **Fil.dok. P.Eyvazov**
JURNALİSTİKA: **ЖУРНАЛИСТИКА:**	**Prof.Q.Məhərrəmli–məsul redaktor**
RUS FİLOLOGİYASI: **РУССКАЯ ФИЛОЛОГИЯ:**	**Prof. Ə.Paşayeva** **Prof. L.Əhmədova**
QƏRB FİLOLOGİYASI: **ЗАПАДНАЯ ФИЛОЛОГИЯ:**	**Prof.N.Vəliyeva-məsul redaktor** **Prof. C.Nağıyev** **Dos.E.Fərəcullayeva-məsul redaktor** **Dos. R.Xəlilov**
PEDAQOGİKA VƏ PSİXOLOGİYA:	**Prof. R.Hüseynzadə** **Dos.S.Abbasova-məsul redaktor** **Dos. L.Ələkbərova**
İNSANŞÜNASLIQ **ЧЕЛОВЕКОВЕДЕНИЕ:**	**RTAmüx.üzvü.,prof.C.M.Mallaev** **Prof. P.Omarova** **Prof.M.Seyidova**
KİTABŞÜNASLIQ **КНИГОВЕДЕНИЕ:**	**Dos. S. Quliyeva. Məsul redaktor** **Dos.M.Məmmədov** **Dos.K.Aslan**

Baş redaktor:dos. T.Cəfərli. Baş redaktorun müavinləri: prof.L.Əhmədova, dos. L.Ələkbərova, fil.f.dok.R.Bayramov,
Məsul katib: İ.Əsədov. Administrator: C.T.Əliyev
Redaksiyanın ünvanı: Bakı AZ1073,Z.Xəlilov23. BDU, Filologiya fakültəsi. Tel.0502871014
Jurnalın saytı: http://philology.bdu.info.az/
Jurnalın elektron ünvanı: tahirceferli@mail.ru

DİLÇİLİK – ЯЗЫКОЗНАНИЕ.....5-130
A, ALLAHVERDİYEVA. Dil hüquqları beynəlxalq hüquqi müstəvidə.....5
N. KƏRİMOVA. İngilis dilində sözönüləri koqnitiv aspektdən.....9
A. MİRZƏYEVA. The role of translation in intercultural communication.....13
İ. ŞƏFİZADƏ. İngilis dilində frazeologizmlərin sərbəst və sabit birləşmələrlə fərqli və oxşar cəhətləri.....17
У. БАБАЕВА. Логическая акцентуация как вариативность фразового ударения в современном английском языке.....20
S. ŞƏRIFOVA. İngilis dilində sadə cümlənin məqsəd və intonasiyaya görə növlərində söz sirası.....24
И. БАДАЛОВА, Г. ИСМАИЛОВА. Некоторые особенности перевода английских фразеологизмов на русский язык.....27
F. İBRAHİMOVA. İngilis və Azərbaycan dillərində fonoloji xüsusiyyətlərin araşdirilması.....30
G.HACIZADƏ. Kontrastiv dilçilikdə hiss-qavrayış bildirən feillər.....33
N. RZAYEVA. General characteristics of the english language in different parts of the english-speaking world……. 36
Y. AXUNDOV, Çiçək komponentli frazeoloji vahidlərin leksik-semantik və stilistik xüsusiyyətləri: korpus əsaslı təhlil..38
G. RƏHİMOVA, A. DADAŞOVA. Müasir İngilis antroponomiyasının inkişaf mərhələləri.....44
S. VƏLİYEVA. Müasir ingilis dilində feil-tamamlıq və feil-zərflik münasibətlərinin semantik paralelliyi.....46
U. ASGAROVA. Vocabulary-grounded approaches to linguocultural competence.....50
F. QULİYEVA. News as a genre of discourse.....53
N. RÜSTƏMOVA. Aşaği/yuxari,sağ/sol istiqamətli paralinqvistik vasitələrin semantik şaxələnmə imkanlarıhaqqında..56
İ. KƏRİMOVA. Türk dillərinin qrammatik quruluşunda əvəzliklərin yeri.....59
C. RÜSTƏMOVA. Genderlekt və mürəkkəb cümlə modelləri fərqliliyinin spesifikasə.....63
F. HEYBƏTOVA. C. Məmmədquluzadənin əsərlərinin dilində işlənən dialektizmlərdə səsdüşümü hadisəsi.....67
S. ABDULLAYEVA Enantiosemiya semiotik hadisə kimi.....72
E. HÜSEYNOVA. Azərbaycan dili və nitq mədəniyyəti.....76
M. HACIZADƏ. İngilis dili email yazışmalarında nəzakət strategiyaları.....79
Ş. MƏLİKOVA. Ərəb qrammatikasInda zaman kateqoriyasInIn nəzəri inkişafI və feilin rolu.....84
G. BƏŞİROVA. Dil vahidlərinin semantik-praqmatik interpretasiyası.....87
E. MƏMMƏDOVA. Assosiasiya əsasında yaranan metaforik konstruksiyalar.....91
G. BƏŞİROVA. Nitq etiketlərinin funksional-semantik xüsusiyyətləri.....95
B, EMİNLİ. Azərbaycan dilində frazeoloji obrazlılıq və milli-mədəni semantika.....99
X. MANAFLI. Linqvistikada qiymətləndirmə kateqoriyası anlayışı.....103
A. HƏSƏNOVA. Ədəbi dil və ümumxalq danışıq dili: qarşılıqlı təsir və inkişaf meylləri.....107
K. TAĞIYEVA.Azərbaycan dilində erqonimlərin orfoqrafiyası: normativ yanaşma və yazi praktikası.....111
V. MƏMMƏDOVA. Müxtəlif mədəniyyətlərə xas reklam mətnləri və onların müqayisəsi.....115
Ü. İBRAHİMOVA. Mövlud Süleymanlının poetik dilində məcazlar..... 119
Ü. ÇƏNDİRLİ. İdeonimlər sistemində hemeronimlərin yeri və inkişaf xüsusiyyətləri.....123
S. RƏHMANOVA. Qurbani yaradıcılığının leksik xüsusiyyətləri.....128

ƏDƏBİYYATŞUNSLIQ-ЛИТЕРАТУРОВЕДЕНИЕ.....131-178
A. MƏMMƏDXANLI. XX əsrdə Azərbaycan–Türkiyə ədəbi əlaqələri: mühacirət ədəbiyyatı və milli ideologiya.....131
G. RZAYEVA. Don Delillo yaradıcılığında media, kapitalizm və hiperreallıq..... 135
H. VƏKİLOVA, S. SADIQOVA. Bir əsrlik yolun yaddaşı.....139
C. YAQUBOVA. Masallı folklor materialları əsasında qadın söyləyiciliyinin janr və mövzu rəngarəngliyi.....142
S. QASIMOVA. Müstəqillik dövrü Azərbaycan nəsrində yaddaş və travma poetikası.....146
Ü. ƏLİYEVA. Ekspressionist dramaturgiyada müharibənin absurdluğu 150
A. MAMEDOVA. Depiction of creative person in "İnside mr. Enderby" by Anthony Burgess.....155
S. OSMANLI. Süleyman Rəhimovun əfsanəvari hekayələri rus tərcüməsində.....159
O. PİRİYEVA. Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyasında novatorluq xüsusiyyətləri.....164
L. HƏSƏNOVA. 20-50-ci illər poeziyasında romantizm ənənələrinin təzahürü: Ə.Cavad, S.Vurğun və M.Müşfiq yaradıcılığı əsasında.....168
S. ABDULLAYEVA. Azərbaycan ədəbiyyatında insan və zaman konsepsiyası.....172
İ. ƏHMƏDOVA. Magik realizm poetikasında mif, reallıq və transformasiya.....175

JURNALİSTİKA-ЖУРНАЛИСТИКА.....179_206
A. NƏSİBOVA. Beynəlxalq media tədbirlərində vizual savadlılıq: 'Bridge' təcrübəsi".....179
СУН ГУАНСЯО. Медиарепрезентация транзитного потенциала Азербайджана в китайских новых медиа в контексте инициативы «Один пояс – Один путь.....183
ЯН СЮЭ. Некоторые размышления об образовании подростков в области медиаграмотности в условиях новых медиа.....189
K. NOVRUZOV.Xəbər jurnalistikasında müşahidə olunan yeni meyillər.....195
S. ABDULLAYEVA. İnternet-medianın monitorinqi və qiymətləndirilməsi: metodoloji əsaslar və indikatorlar.....199
S. İZZƏTLİ. Yeni media mühitində həll yönümlü jurnalistikanın inkişaf meylləri.....203

PEDAQOGİKA-PSİXOLOGİYA, ПЕДАГОГИКА-ПСИХОЛОГИЯ *207-262*
S. ƏLİYEVA.Teaching foreign languages in technical universities: challenges and modern approaches.....207
X. ТАГИЕВА. Проявление интерференции в русской устной и письменной речи студентов азербайджанских групп вузов.....210
D. GULIYEVA . The role of motivation in the educational process.....214
M. QULİYEVA. Həsən bəy Zərdabinin müəllimlik fəaliyyəti və pedaqoji ideyaları.....217
P. KƏRIMOVA, G. İSGƏNDƏROVA, G. BAYRAMOVA-MEHDIYEVA. Çoxdillilik şəraitində linqvistik diaqnostika və strateji idarəetmə.....220
S. ƏLİYEVA. Technological integration in english language teaching: teacher perspectives and modern pedagogical approaches.....225
Л. МУРАДОВА. Роль диалогической речи в формировании русской речи.....229
З. МАНСИМОВА. Инновационная технология в обучении русскому языку.....233
Д. МУСТАФАЕВА. Обучение вводным словам на уроках русского языка.....236
Н. ХАЛИЛОВА. К вопорсу о порядке слов в разговорной речи.....239
L. ALİYEVA Pedagogical aspects of information resources on children's literature.....242
Р. ТАХМАЗОВА, Н. ШИРАЛИЗАДЕ. Коммуникативный подход в обучении английскому языку.....247
R. HƏSƏNOVA. Alman dili əvəzliklərinin kommunikativ tədrisi.....251
Д. КАЗИ-ЗАДЕ. Изучение синонимов в нерусской аудитории.....257
M. İSMİXANOV. Monitorinq və qiymətləndirmə təhsil keyfiyyətininyüksəldilməsi və idarə edilməsi vasitəsi kimi.....260

KİTABŞUNASLIQ –КНИГОВЕДЕНИЕ.....*263-266*
S.QULIYEVA. Müstəqillik illərində Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanası.....266

==========

Yığılmağa verilmişdir: 12.03.26 Çapa imzalanmışdır: 5.05.26 Şəadətnamə № 27
Lisenziya: Seriya AB № 022471. Tiraji 1000. Qiyməti pulsuz.

DOI: 10.24412/2218-7588-2026-2-5-8

Aytən Elşad qızı Allahverdiyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nəsimi adına Dilçilik İnstitutu, Nəzəri dilçilik şöbəsi
a. ayten@mail.ru; aytanallahverdiyeva@anas.az
https://orcid.org/0009-0000-6660-0357

DİL HÜQUQLARI BEYNƏLXALQ HÜQUQİ MÜSTƏVİDƏ

XÜLASƏ: Məqalədə dil hüquqlarının beynəlxalq sənədlərdə təsbit olunma formaları, dövlətlərin bu sahədə üzərinə götürdüyü öhdəliklər, eləcə də dil azlıqlarının hüquqlarının qorunması və təmin olunması mexanizmləri təhlil edilir. Bu kontekstdə dil hüquqlarının ləyaqət, bərabərlik, azadlıq və kimlik kimi fundamental prinsiplərlə qarşılıqlı əlaqəsi xüsusi diqqət mərkəzində saxlanılır.

Məqalədə məqsəd dil hüquqlarının beynəlxalq hüquqi müstəvidə mahiyyətini, onların normativ əsaslarını və insan hüquqları sistemi daxilində yerini müəyyənləşdirməkdən ibarətdir. Xüsusilə, bu hüquqların təhsil, sosial inteqrasiya, gender bərabərliyi və ictimai-siyasi sabitlik kimi sahələrə təsiri elmi əsaslarla dəyərləndirilir. Nəticə etibarilə, dil hüquqlarının effektiv təmin olunmasının inklüziv cəmiyyətin formalaşmasına, sosial ədalətin möhkəmləndirilməsinə və davamlı inkişafın təminində mühüm töhfə verdiyi əsaslandırılır.

Açar sözlər: dil hüquqları, beynəlxalq hüquq, dil müxtəlifliyi, sosial inteqrasiya, dil azlıqları

GİRİŞ: Dil insan təbiətinin və mədəni sistemin fundamental komponentlərindən biri olmaqla yanaşı, fərdi və kollektiv identikliyin əsas göstəricilərindən hesab olunur. Bu səbəbdən dil məsələləri sosial və emosional baxımdan yüksək həssaslıq kəsb edir və sayca nisbətən azlıq təşkil edən sosial qruplar üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, bu sosial qruplar öz dillərini, mədəni xüsusiyyətlərini və etno-mədəni kimliklərini qorumağa çalışaraq bəzən sosial təcrid və diskriminasiya kimi mənfi sosial proseslərlə üzləşirlər.

2007-ci ildə BMT tərəfindən qəbul olunmuş *"Declaration on the Rights of Indigenous Peoples"* sənədində yerli xalqların öz dillərindən istifadə və onları qoruma hüquqları xüsusi olaraq təsbit olunur. Bu yanaşma dil hüquqlarının beynəlxalq səviyyədə tanınmasının mühüm nümunələrindən biri kimi çıxış edir və həmin hüquqların normativ əsaslarını gücləndirir [13].

ƏSAS HİSSƏ: Bu kontekstdə dil hüquqları dövlət orqanları üçün müəyyən dil vahidlərinin konkret kommunikativ situasiyalarda istifadəsini təmin edən və ya fərdlərin öz dilini və ifadə formalarını sərbəst şəkildə seçməsinə müdaxiləni istisna edən hüquqi öhdəliklər sistemi kimi nəzərdən keçirilə bilər. Bu öhdəliklər, həmçinin azlıqların və yerli xalqların ana dilindən istifadə hüququnun tanınması və institusional şəkildə dəstəklənməsini də ehtiva edir.

Dil hüquqları beynəlxalq insan hüquqları sisteminin müxtəlif normativ aktlarında təsbit olunmuşdur. Bu müddəalar diskriminasiyanın qadağan edilməsi, fikir və ifadə azadlığı, şəxsi və ailə həyatının toxunulmazlığı, təhsil hüququ, eləcə də dil azlıqlarına mənsub şəxslərin öz ana dillərindən eyni dil qrupuna aid digər üzvlərlə birlikdə istifadə etmək hüququ kimi fundamental prinsipləri əhatə edir.

Dil hüquqları eyni zamanda bir sıra beynəlxalq sənədlər və normativ çərçivələr əsasında inkişaf etdirilmişdir. Bu sənədlərə BMT-nin "Milli və ya etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannamə"si [10], UNESCO-nun dil və təhsil sahəsində qəbul etdiyi əsas prinsiplər [7], BMT Azlıqlar Forumunun müvafiq tövsiyələri, Avropa Şurasının "Milli azlıqlara mənsub şəxslərin dil hüquqları haqqında Çərçivə Konvensiyası"na dair Tematik Şərhi (№3) [3], eləcə də ATƏT-in "Milli azlıqların dil hüquqları üzrə Oslo Tövsiyələri" [5] daxildir.

Müəyyən terminoloji və institusional fərqliliklərə baxmayaraq, qeyd olunan beynəlxalq sənədlər dövlətlərin dil hüquqları sahəsində üzərinə götürdüyü öhdəliklərin icrası üçün ümumi və oxşar normativ yanaşmaları müəyyən edir. Bu yanaşmalara əsasən, dövlət orqanlarından aşağıdakı prinsiplərə riayət edilməsi tələb olunur:

•dil hüquqlarına insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi sistemli şəkildə hörmət olunması və onların hüquqi təminatının gücləndirilməsi [12];

•cəmiyyət daxilində tolerantlıq mühitinin formalaşdırılması, mədəni və dil müxtəlifliyinin qorunması və təşviqi, eləcə də qarşılıqlı hörmət, anlaşma və əməkdaşlıq prinsiplərinin institusional səviyyədə dəstəklənməsi [9];

•dil hüquqları sahəsində mövcud problemlərin həllinə yönəlmiş dövlət siyasətinin formalaşdırılması, müvafiq normativ-hüquqi aktların qəbul edilməsi və onların həyata keçirilməsi üçün aydın hüquqi çərçivənin müəyyənləşdirilməsi [3];

•dövlət orqanları tərəfindən müxtəlif dillərin istifadəsi və dəstəklənməsi zamanı proporsionallıq prinsipinə riayət olunması, həmçinin fərdlərin dil seçimi azadlığını təmin edən dil azadlığı prinsipinin təmin edilməsi [11];

•"Aktiv təklif" anlayışının dövlət xidmətlərinin ayrılmaz tərkib hissəsi kimi institusionallaşdırılması və bu yanaşmanın dövlətin dil hüquqlarına hörmət və onların təmin edilməsi üzrə öhdəliklərinin göstəricisi kimi normativ səviyyədə təsbit olunması; bu çərçivədə azlıq təşkil edən xalqların dillərində danışan şəxslərin zərurət yarandıqda müvafiq dövlət xidmətlərinə maneəsiz və avtomatik çıxışının təmin edilməsi, onların bu xidmətləri əldə etmək üçün əlavə müraciət prosedurlarına məcbur edilməməsi [3];

•dil hüquqları ilə bağlı pozuntuların araşdırılması və aradan qaldırılması məqsədilə məhkəmə, inzibati və icra hakimiyyəti orqanları səviyyəsində şikayətlərin effektiv baxılmasını təmin edən institusional-hüquqi mexanizmlərin formalaşdırılması və təkmilləşdirilməsi [11].

Son illərdə bir sıra beynəlxalq təşkilatlar dil hüquqlarının təşviqi və bu sahədə mövcud prinsiplərin izahına yönəlmiş müxtəlif institusional mexanizmlər, metodoloji vasitələr və tətbiqi yanaşmalar işləyib hazırlamışdır. BMT-nin

Azlıqlar Problemləri üzrə Forumu, UNESCO-nun Dillər və Çoxdillilik Bölməsi, Avropa Şurasının Milli Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyasının Məşvərət Komitəsi, eləcə də ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarlığı bu sahədə bilik və təcrübə mübadiləsini təmin edən, eyni zamanda dövlətlər üçün normativ-tövsiyə xarakterli platformaların formalaşdırılmasını davam etdirirlər. Bu platformalar dil hüquqları sahəsində mövcud mexanizmlərin təkmilləşdirilməsinə və dövlətlərin üzərinə düşən öhdəliklərin daha effektiv icrasına elmi-metodoloji dəstək göstərir.

Qeyd olunan proseslərin mühüm xüsusiyyətlərindən biri etibarlı və təfərrüatlı məlumat bazalarının mövcudluğudur. Belə məlumatlar dövlət orqanlarına dil hüquqlarının həyata keçirilməsi üzrə siyasətin elmi əsaslarla hazırlanması, tətbiqi və qiymətləndirilməsini daha səmərəli şəkildə həyata keçirməyə, həmçinin zərurət yarandıqda bu sahədə aparılan fəaliyyətlərin təkmilləşdirilməsinə imkan yaradır.

Qeyd olunan beynəlxalq müqavilələrdə, hüquqi və normativ-rəhbər sənədlərdə təsbit olunmuş əsas dil hüquqları ümumiləşdirilmiş şəkildə aşağıdakı dörd başlıca istiqamət üzrə həyata keçirilir:

Ləyaqət prinsipi. İnsan Hüquqları Ümumi Bəyannaməsinin 1-ci maddəsində bütün insanların azad və hüquq, eləcə də ləyaqət baxımından bərabər doğulduğu təsbit olunur. Bu müddəa beynəlxalq insan hüquqları sahəsinin fundamental normativ prinsiplərindən biri kimi çıxış edir və ümumi hüquqi çərçivənin əsasını təşkil edir. Xüsusilə, azlıqların kimliyinin qorunması və təşviqi ilə bağlı məsələlər kontekstində bu prinsip xüsusi əhəmiyyət daşıyır, çünki o, fərdlərin və qrupların mədəni-dil özünəməxsusluğunun tanınması və hüquqi müdafiəsi üçün baza rolunu oynayır.

Azadlıq prinsipi. Özəl fəaliyyət müstəvisində dil seçimi və dil üstünlüklərinin müəyyənləşdirilməsi insan hüquqlarının əsas prinsipləri ilə təmin olunur. Bu hüquqlara fikir və ifadə azadlığı, şəxsi və ailə həyatının toxunulmazlığı, azlıqların öz ana dilindən istifadə hüququ, eləcə də diskriminasiyanın qadağan edilməsi kimi fundamental müddəalar daxildir.

Bu baxımdan, kommersiya, incəsənət, dini və siyasi xarakterli bütün özəl fəaliyyət formaları insan hüquqları mexanizmləri ilə qorunur və müvafiq hüquqi təminatlarla tənzimlənir. Nəticə etibarilə, azadlıq prinsipi dil seçiminin fərdi səviyyədə sərbəst həyata keçirilməsini və müxtəlif dil praktikalarının hüquqi cəhətdən müdafiəsini təmin edən normativ əsas kimi çıxış edir.

Bərabərlik və diskriminasiyanın qadağan olunması prinsipi. Diskriminasiyanın yolverilməzliyi prinsipi dövlətlərin fərdlərin hüquqlarını əsassız olaraq məhdudlaşdırmasını, onların dövlət fəaliyyəti və ictimai xidmətlərdə iştirak imkanlarını istisna etməsini, habelə xidmətlərin göstərilməsi, dəstəyin təmin edilməsi və ya hər hansı üstünlüklərin verilməsi prosesində müəyyən dilə əsassız üstünlük verilməsini qadağan edir.

Bu prinsip dil amilinə əsaslanan fərqləndirmənin hüquqi baxımdan qeyri-legitim xarakter daşıdığını müəyyən edir və dövlət orqanlarının fəaliyyətində bərabərlik prinsipinin normativ əsas kimi təmin olunmasını tələb edir.

Kimlik prinsipi. Fərdlərə, icmalara və ya dövlətlərə xas olan dil özünüifadə formaları sosial-mədəni kimliyin formalaşmasında və saxlanılmasında fundamental rol oynayır və bu baxımdan əsas struktur komponentlərdən biri kimi çıxış edir [12].

Bu kontekstdə dil kimliyi insan hüquqları sisteminin bir sıra fundamental müddəaları ilə hüquqi baxımdan təmin olunur. Belə ki, fikir və ifadə azadlığı, şəxsi və ailə həyatının toxunulmazlığı, azlıqların öz ana dilindən istifadə hüququ, eləcə də diskriminasiyanın qadağan olunması prinsipləri dil əsaslı özünüifadənin qorunmasının normativ əsaslarını təşkil edir. Nəticə etibarilə, dil yalnız kommunikativ vasitə kimi deyil, eyni zamanda kimlik formalaşdıran və sosial-mədəni fərqliliyi ifadə edən mühüm faktor kimi nəzərdən keçirilir.

Dil hüquqları ilə bağlı məsələlər kompleks xarakter daşıyaraq bir sıra əsas istiqamətlər üzrə nəzərdən keçirilir: (a) dövlət orqanlarının fəaliyyətinin bütün sahələrində, xüsusilə dil seçimi və istifadəsi ilə bağlı idarəetmə proseslərində sistemli şəkildə nəzərə alınmalı [12]; (b) milli, kollektiv və fərdi kimlik kateqoriyaları ilə sıx qarşılıqlı əlaqədə təhlil olunmalı [10]; (c) azlıqların ictimai-siyasi proseslərdə iştirakına və sosial inteqrasiyasına birbaşa təsir edən faktor kimi qiymətləndirilməli [14]; (d) adekvat və balanslaşdırılmış tənzimləmə aparılmadıqda sosial təcrid, kənarlaşdırma eləcə də potensial sosial-siyasi qeyri-sabitlik və konflikt risklərinin yaranmasına səbəb ola bilən amil kimi çıxış etməli [2]; (e) müxtəlif sosial, siyasi və mədəni kontekstlərdə formalaşan çoxşaxəli və fərqli şəraitlərlə şərtlənməlidir [5].

Bu baxımdan qeyd edilməlidir ki, beynəlxalq miqyasda mövcud olan milli və regional kontekstlərin heterogenliyi dil hüquqlarının həyata keçirilməsi üçün universal və vahid modelin tətbiqini qeyri-mümkün edir.

Bu təlimat dil hüquqlarının özünəməxsus xüsusiyyətlərini araşdırır. Dövlətin beynəlxalq öhdəliklərini effektiv şəkildə yerinə yetirmək üçün dillə bağlı insan hüquqlarının fundamental tətbiqi və həyata keçirilməsi ilə yanaşı, ləyaqət, azadlıq, bərabərlik və kimlik kimi əsas mövzular çərçivəsində dil məsələlərini həll etmək üçün bir çərçivə təmin edir. Eyni zamanda, dil hüquqları ilə bağlı insan hüquqlarının tətbiqi və həyata keçirilməsi mexanizmlərini müəyyən edərək dövlətlərin beynəlxalq hüquqi öhdəliklərinin effektiv icrasına yönəlmiş konseptual və institusional çərçivəni təmin edir.

Dil hüquqlarının əhəmiyyəti nəzəri və praktik baxımdan aydındır: insan hüquqlarına hörmət edilməsi üzrə beynəlxalq öhdəliklər, həmçinin dilin istifadəsi ilə bağlı sosial, mədəni və hüquqi nəticələr azlıqların aid olduğu cəmiyyətlərdə iştirak və inteqrasiya proseslərinin ayrılmaz hissəsini təşkil edir. Bu kontekst dil hüquqlarının təmin olunmasının sosial inklüzivlik və ictimai fəallıq mexanizmləri ilə bilavasitə bağlı olduğunu göstərir:

- Dil hüquqlarının mövcudluğu azlıqlara mənsub uşaqların təhsilə çıxış imkanlarının genişlənməsinə və təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərir.

Beynəlxalq tədqiqatlar göstərir ki, azlıq qruplarına aid uşaqların natamam məktəb təhsili (yalnız bir neçə sinif səviyyəsində təhsil almaq) və ya ümumiyyətlə təhsil sistemindən kənarda qalma ehtimalı nisbətən daha yüksəkdir. Bu vəziyyət dil baryerləri və tədris dilinin uyğun olmaması ilə əlaqələndirilir.

Dünya Bankının məlumatlarına əsasən, formal təhsilə cəlb olunmayan uşaqların təxminən 50 %-i tədris dili ev mühitində nadir hallarda və ya ümumiyyətlə istifadə olunmayan dil icmalarında yaşayır. Bu göstərici "Hamı üçün Təhsil" beynəlxalq təşəbbüsünün hədəflərinə nail olunmasına mane olan əsas amillərdən birinin səmərəsiz tədris praktikaları olduğunu təsdiqləyir. Belə praktikalar təhsil keyfiyyətinin aşağı düşməsi, şagirdlərin təhsildən yayınma hallarının artması və sinifdə ikinci ilə qalma göstəricilərinin yüksəlməsi ilə nəticələnir [14].

Eyni zamanda, ana dilinin tədris dili kimi ən azı 6–8 il müddətində sistemli şəkildə tətbiq edildiyi hallarda təhsil nəticələrinin əhəmiyyətli dərəcədə müsbət dinamika nümayiş etdirdiyi elmi tədqiqatlarda vurğulanır. Bu fakt tədris dilinin seçiminin təhsil effektivliyi və öyrənmə nəticələri baxımından həlledici amil olduğunu göstərir.

Bunlara aşağıdakı nəticələr daxildir: azlıqlara mənsub uşaqlar arasında özünəinam və özünəhörmət hissinin güclənməsi, eləcə də tədris prosesində fəal iştirak səviyyəsinin yüksəlməsi [1]; məktəbi tərk etmə hallarının azalması və ümumi akademik göstəricilərin yaxşılaşması [8]; təhsilin məktəb mühitində davametmə müddətinin uzanması, imtahan nəticələrinin yüksəlməsi və savadlılıq səviyyəsinin artması, həmçinin azlıqlara və yerli xalqlara mənsub şagirdlər arasında həm ana dilinə, həm də rəsmi və ya dominant dilə yiyələnmə səviyyəsinin yüksəlməsi [7].

- Dil hüquqları azlıqlara mənsub qadınlar arasında bərabərlik prinsipinin təşviqinə və onların hüquq və imkanlarının genişləndirilməsinə əhəmiyyətli təsir göstərir. Bu hüquqların təmin olunması qadınların sosial, iqtisadi və mədəni resurslara çıxış imkanlarını genişləndirərək onların ictimai həyatda iştirak səviyyəsinin yüksəldilməsinə şərait yaradır.

Azlıqlara mənsub qadınlar qlobal miqyasda ən yüksək dərəcədə marjinallaşmış sosial qruplardan biri kimi qiymətləndirilir. Onların gender və ya etnik mənsubiyyət əsasında diskriminasiyaya məruz qalması nəticəsində təhsil sisteminə çıxış imkanlarının məhdudlaşması, eləcə də dövlət dili və ya dominant dilin mənimsənilməsi üçün zəruri resurslara çıxışın zəifləməsi ehtimalı daha yüksəkdir.

Azlıqlara mənsub qadınların dövlət xidmətləri ilə, xüsusilə səhiyyə kimi həyati əhəmiyyətli sahələrdə qarşılıqlı əlaqəsi, ana dilindən səmərəli və məqsədyönlü istifadə olunduğu hallarda daha yüksək effektivlik nümayiş etdirir. Müxtəlif tədqiqatlar və praktiki təşəbbüslər göstərir ki, azlıq dillərinin sosial xidmətlərin göstərilməsində tətbiqi qadınların bu xidmətlərdən istifadə imkanlarını genişləndirir, onların ictimai proseslərdə iştirakını gücləndirir və hüquq və səlahiyyətlərinin reallaşdırılmasına mühüm töhfə verir [10].

Mövcud elmi tədqiqatlar göstərir ki, azlıq qruplarına aid qadınlar üçün tədrisin ana dilində həyata keçirilməsi təhsil nailiyyətlərinin yüksəlməsi ilə nəticələnir. Bu isə öz növbəsində onların təhsili davam etdirmə ehtimalını artıraraq sosial təcrid və yoxsulluq dövrünün qırılmasına və sosial inteqrasiyanın güclənməsinə əlverişli şərait yaradır.

- Dil hüquqlarının həyata keçirilməsi informasiya mübadiləsinin keyfiyyətinin yüksəldilməsinə və dövlət xidmətlərinin təqdim olunma səviyyəsinin optimallaşdırılmasına xidmət edir. Azlıq dilinin informasiya mübadiləsində və dövlət xidmətlərinin göstərilməsində əsas kommunikasiya vasitəsi kimi istifadəsi xidmətlərin keyfiyyətini və əlçatanlığını artırır. Bu, xüsusilə səhiyyə, sosial xidmətlər, təhsil, məşğulluq üzrə məsləhət, ədalət mühakiməsi və digər dövlət xidmətlərinə çıxış imkanlarının daha effektiv təmin olunmasında özünü göstərir.

İnformasiya mübadiləsi ikitərəfli proses olduğu üçün dövlət orqanlarının yalnız bir rəsmi dili bütün əhali qruplarına tətbiq etməsi kommunikasiya baxımından səmərəli hesab edilmir. Bu səbəbdən, rəsmi dildən fərqli dillərdə danışan əhali qrupları ilə də onların başa düşdüyü dildə ünsiyyət qurulması vacibdir [6].

- Dil hüquqlarının həyata keçirilməsi sosial-siyasi sabitliyin təmin olunmasına və münaqişələrin qarşısının alınmasına töhfə verir. Dil hüquqlarının tətbiqinin təcrid və sosial izolyasiya kimi halların aradan qaldırılmasına yönəldiyi ölkələrdə etnik gərginliklərin və münaqişələrin başvermə ehtimalı daha aşağı olur. Azlıq dillərindən istifadə onların ictimai-siyasi proseslərdə iştirak səviyyəsinin yüksəldilməsinə, dövlət fəaliyyətində təmsil olunma və təzahür imkanlarının genişlənməsinə, eləcə də məşğulluq imkanlarının yaxşılaşdırılmasına şərait yaradır. Bu amillər bütövlükdə ictimai inteqrasiyanın güclənməsinə və dövlətin sabitliyinin təmin olunmasına müsbət təsir göstərir.

Əksinə, yalnız bir rəsmi dilin tətbiqinin azlıqlara qarşı sistemli ayrı-seçkilik yaratdığı hallarda sosial gərginliyin və zorakılıq ehtimalının artması müşahidə olunur. Məhz bu risklərin qarşısının alınması zərurəti ATƏT tərəfindən milli azlıqların dil hüquqlarına dair Oslo Tövsiyələrinin hazırlanmasına səbəb olmuşdur. Həmin tövsiyələr münaqişələrin qarşısının alınması üçün normativ çərçivə kimi çıxış edir.

Azlıqların hüquqları konstitusion səviyyədə təsbit olunduqda və onların həyata keçirilməsi ədliyyə sistemi, təhsil sistemi və seçki sistemi vasitəsilə münaqişənin yaranma ehtimalı formalaşmazdan əvvəl təmin edildikdə, həmin münaqişənin ümumiyyətlə baş verməməsi ehtimalı artır [2].

NƏTİCƏ: Nəticə etibarilə, dil hüquqları beynəlxalq insan hüquqları sistemində təkcə kommunikativ vasitələrin tənzimlənməsi deyil, eyni zamanda sosial ədalət, bərabərlik, kimlik və ictimai inteqrasiya proseslərinin təmin olunmasında mühüm normativ və funksional mexanizm kimi çıxış edir. Bu hüquqların səmərəli şəkildə həyata keçirilməsi azlıqların, xüsusilə dil baxımından həssas qrupların təhsil, səhiyyə, sosial xidmətlər kimi imkanlarının genişlənməsinə, eyni zamanda sosial təcrid və konflikt risklərinin azaldılmasına xidmət edir. Müvafiq beynəlxalq sənədlər və praktik yanaşmalar göstərir ki, dil müxtəlifliyinin qorunması və dil hüquqlarının institusional səviyyədə təmin olunması davamlı inkişaf, ictimai sabitlik və inklüziv cəmiyyət modelinin formalaşması üçün fundamental şərtlərdən biridir.

İstifadə edilmiş ədəbiyyat

1. Alidou, H. et al. *Optimizing Learning and Education in Africa: The Language Factor*. Paris: ADEA/GTZ, 2006.
2. Baldwin, C., Chapman, C., Gray, Z. *Minority Rights: The Key to Conflict Prevention*. London: Minority Rights Group International, 2007.
3. Council of Europe. *Framework Convention for the Protection of National Minorities*. Strasbourg: Council of Europe, 1995.

4. Ethnologue. *Languages of the World*. SIL International, 2024.
5. Organization for Security and Co-operation in Europe (OSCE). *The Oslo Recommendations Regarding the Linguistic Rights of National Minorities*. The Hague: OSCE, 1998.
6. Our World in Data. *Linguistic Diversity Dataset*, 2024.
7. UNESCO. *EFA Global Monitoring Report: Teaching and Learning – Achieving Quality for All*. Paris: UNESCO, 2014.
8. UNESCO. *Improving the Quality of Mother Tongue-Based Literacy and Learning*. Bangkok: UNESCO, 2008.
9. UNESCO. *Why Language Matters for the Millennium Development Goals*. Bangkok: UNESCO, 2012.
10. United Nations. *Declaration on the Rights of Persons Belonging to National or Ethnic, Religious and Linguistic Minorities*. New York: United Nations, 1992.
11. United Nations. *International Covenant on Civil and Political Rights*. New York: United Nations, 1966.
12. United Nations. *Universal Declaration of Human Rights*. New York: United Nations, 1948.
13. United Nations. Declaration on the Rights of Indigenous Peoples. New York: United Nations, 2007
14. World Bank. *In Their Own Language: Education for All*. Washington, DC: World Bank, 2005.

Aytan Elshad Allahverdiyeva
Doctor of Philosophy in Philology, Associate Professor
Nasimi Institute of Linguistics, ANAS
Department of Theoretical Linguistics
a._ayten@mail.ru; aytanallahverdiyeva@anas.az
https://orcid.org/0009-0000-6660-0357

Language Rights in the International Legal Framework

Summary

The article provides a scholarly analysis of the codification of language rights within international legal instruments, the scope and nature of obligations undertaken by states in this domain, as well as the institutional and legal mechanisms designed to ensure the protection and effective realization of the rights of linguistic minorities. Within this context, special emphasis is placed on the interrelationship between language rights and fundamental principles of international law, including human dignity, equality, freedom, and identity,

The aim of the article is to determine the essence of language rights within the international legal framework, their normative foundations, and their position within the human rights system. In particular, the impact of these rights on areas such as education, social integration, gender equality, and socio-political stability is examined and evaluated on a rigorous scientific basis. Consequently, it is substantiated that the effective implementation of language rights constitutes a significant contribution to the formation of an inclusive society, the consolidation of social justice, and the advancement of sustainable development.

Keywords: language rights, international law, linguistic diversity, social integration, linguistic minorities

Айтан Эльшад кызы Аллахвердиева
Доктор философии в области филологии, доцент
Институт лингвистики им. Насими, НАН
Кафедра теоретической лингвистики
a._ayten@mail.ru; aytanallahverdiyeva@anas.az
https://orcid.org/0009-0000-6660-0357

Языковые права в международно-правовом контексте

Резюме

В статье проводится комплексный научный анализ форм закрепления языковых прав в международно-правовых актах, обязательств, принимаемых государствами в данной области, а также институциональных и правовых механизмов защиты и обеспечения прав языковых меньшинств. В этом контексте особое внимание уделяется теоретико-правовому осмыслению взаимосвязи языковых прав с фундаментальными принципами международного права, включая достоинство личности, равенство, свободу и идентичность, которые выступают в качестве их нормативно-ценностной основы.

Цель статьи заключается в научном определении сущности языковых прав в международно-правовом контексте, их нормативных оснований и места в системе прав человека. Особое внимание уделяется комплексной научной оценке их воздействия на такие ключевые сферы, как образование, социальная интеграция, гендерное равенство и общественно-политическая стабильность. В результате делается научно обоснованный вывод о том, что эффективная реализация языковых прав в значительной степени способствует формированию инклюзивного общества, укреплению социальной справедливости и обеспечению устойчивого развития.

Ключевые слова: языковые права, международное право, языковое разнообразие, социальная интеграция, языковые меньшинства.

Rəyçi: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-9-12

Nişanə Nəsrullah qızı Kərimova
Bakı SlavyanUniversiteti
kerimova.nishana05@gmail.com
ORCID:0009-0001-1046-6723

İNGİLİS DİLİNDƏ SÖZÖNÜLƏRİ KOQNİTİV ASPEKTDƏN

XÜLASƏ: İngilis dilində sözönüləri çoxmənalı köməkçi sözlər kimi nəzərə alınsa da, burada əsas diqqət onların konkret hansı sözə aid olması öyrənilir. Sözönülər cümlə daxilində aid olduğu sözü cümlənin digər üzvləri ilə bağlayır və cümlənin ümumi olaraq, mənasını formalaşdırır. Sözönülərin koqnitiv aspektdən öyrənilməsi köməkçi və əsas sözlərin birliyinin yaranmasında mental proseslərin iştirakını ortaya qoyur. Koqnitiv dilçilik sözün qrammatik-semantik baxımdan anlaşılmasını və məlumatın dəqiq forma-məna baxımdan çatdırılmasını həyata keçirir. İngilis dilində köməkçi nitq hissəsi olan sözönüləri aid olduğu sözləri məkan, zaman və mücərrəd mənalarını dəqiqləşdirir. Beləki, sözönülər cümlədə və ya mətndə aid olduğu əsas sözləri işarələyir və leksik-semantik baxımdan ifadələri tamamlayır. İngilis dilində sözönülər cümlədə sözlər arasında əlaqə yaradan körpü kimi də dəyərləndirilir. İngilis dilli mətnlərdə sözönülərinin bütün növləri işlənir və onlar həm aid olduğu sözləri leksik-semantik baxımdan tamamlayır,həm də mücərrədlik ifadə edərək mətnin ümumi mənasının formalaşmasında rol oynayır.İngilis dilində sözönüləri köməkçi vahidlər sayılsa da, onların kontekstdə müxtəlif məna verici xüsusiyyətlərə malik olması diqqət mərkəzindədir. Koqnitiv dilçilik baxımından, sözönüləri yalnız müəyyən zaman-vaxt anlayışlarının ifadəsini asanlaşdırmır, o həm də eyni zamanda məkan anlayışlarından istifadə edərək məkan-zamana metaforasını yaradır.

Açar sözlər: *koqnitiv dilçilik, konsept, semantik xüsusiyyətlər, işarənin denotasiyası, mental proseslər*.

GİRİŞ: Dil hər bir insanın linqvistik təcrübəsini formalaşdırır və o daimi dəyişikliklərə məruz qalan iyerarxik cəhətdən mürəkkəb bir sistemi təşkil edir. Beləki, dil fərdi şüur səviyyəsində yaranan verbal anlayışları əks etdirən ictimai şüur təcrübəsini təcəssüm edir. Dil və təfəkkür əlaqəsi keçmişdən bu günə qədər dilçiliyin qarşısında duran aktual məsələlərdən biridir. Dildə sözdən tutmuş mətnə qədər olan dil vahidlərinin sintaktik-semantik baxımdan formalşması məhz koqnisiya ilə bağlıdır. İnsanlar arasında kommunikasiyanın qurulmasında, məlumatın göndərilməsi və onun qəbul edilməsində dilin bütün predmetləri əlaqəli fəaliyyət göstərir. Söz dilin əsas işarə vasitəsidirsə, qrammatika onu qaydalara tabe edən bir sistemdir, fonetik vasitələr isə dil vahidlərinin ifadə olunmasını həyata keçirir. Dil elə bir sistemə malikdir ki, bir dil vahidinin dərk edilib, mənimsənilməsindəfonetik, qrammatik və leksik qaydalar bir araya gəlir. Dil vahidlərinin emalı koqnisiyadan başlayır, nitqdə təzahür edir.

ƏSAS HİSSƏ: V.fon Humboldt dil haqqındakl fikrini belə izah edir: *"Dil öz hərəkəti intensivliyinə uyğun üç məqsədi izləyir: O, anlama prosesində vasitədir, ona görə də dəqiqlik və aydınlıq tələb edir; O, hissiyatı ifadə edir, hissiyat doğurur, ona görə də güc, aydınlıq və çeviklik tələb edir; O, ötürdüyü fikir vasitəsilə yeni fikir və fikir ardıcıllığı oyadır; ona görə də sözlərdə öz damğasını qoyan fikrin hərəkətdə olmasını tələb edir"* [4, s. 32]. Onun fikrincə göstərilən üç məqsəddən hər biri digər iki məqsədi ehtiva edir, əgər onlardan hansı biri üstün gələrsə, onda o, yolunu səhv salmış olacaq, aydınlıq darıxdırıcı mənasızlığa çevriləcək, hisslərin ifadəsi pafoslu və ya maneralı həssaslıqdan başqa bir şey olmayacaq, məna dolu anlam uydurma və qeyri-dəqiq olacaq.

Dilin funksional aspektən araşdırılması koqnitiv dilçiliyin üzərinə düşür. Dil vahidlərinin fonetik, qrammatik və leksik sisteminin koqnitivlik baxımdan tədqiqi onların funksionallığını aydınlaşdırır.

Əbülfəz Rəcəbli qeydedir ki, *"Dil vahidlərinin təyinatının tədqiq edilməsi onların funksional şərhi üsullarının meydana gəlməsinə səbəb olur"* [1, s. 70]. Koqnitiv dilçilik dil ifadələrin mental proseslərlə əlaqəsini və onların kontekstdə funksiyasını öyrənir.Koqnitivlik dilin öyrənilməsində məna və forma bir-birindən ayırmır. Beləki, o, dilinqrammatikasını semantika ilə bərabər öyrənir. Dilin bu iki predmeti birlikdə insan nitqinin formalaşmasında və onun dərk edilib, qavranılmasında və kommunikasiyanın yaranmasında mühüm rol oynayır. Beləki, insan fikri koqnisiyadan başlayaraq dildə öz ifadəsini tapır.

E.S.Kubryakovaya koqnitiv dilçilik barədə qeyd edir ki,*koqnitiv dilçilik nitqin istehsalı və anlaşılmasını öyrənir, dil isə məlumatın ötürülməsini həyata keçirir* [7, s. 34].

L.Qurbanova qeyd edir: *"Məlumat koqnisiyada toplanır. Onun qavranılması və təqdimatı nitq vasitəsilə həyata keçirilir. Hadisələr məlumata çevrilərək insan beyninə ötürülür, daha sonra şüurda formalaşır və ünsiyyət məhsuluna çevrilərək dekodlaşır"* [9].

Beləki, dil mental proseslərə daxil olan bir vasitə kimi funksiyaya malikdir. Dil koqnisiya daxil olan məlumatları kodlayan və onları işarələr sisteminə çevirən mexanizmə malikdir. Koqnitiv dilçilik bir daha təsdiq edir ki, dil və mental proseslər funksional olarq bərabər fəaliyyət göstərir. Ümumiyyətlə, söz və ifadələrin yaranmasında, formalaşmasında, dərk edilib və qavranılmasında, onların qrammatik və semantik xüsusiyyətlərinin hər tərəfli öyrənilməsində dil və koqnisiya birliyi mövcudur.

F.Veysəlli qeyd edir ki, *"Koqnitiv semantika həm praqmatik, həm də kontekstual mənanı nəzərə alır.Bu zaman konseptual vahidlər şüurun aktivləşməsi səviyyəsində əks olunur"* [2, s. 44].

İngilis dilinin qrammatika və leksik sistemi koqnitivlik baxımdan müxtəlif aspektlərdən araşdırılsada, bu barədə fikirlər hələ də mübahisəli olaraq qalmaqdadır. Belə məsələlərdən də biri ingilis dilində köməkçi nitq hissəsi olan sözönülərdir. İngilis dilində sözönülər linqvistik baxımdan öyrənilsədə ekstralinqvistik aspektdən öyrənilməsi mübahisəlidir. Çünki bu sahə ilə məşğul olan alimlər hələdə sözönülərin semantik yükü və onların cümlə və ya mətn

daxilində funksionallığı barədə olan fikirləri mübahisəlidir.

Beləki, ingilis dilində sözönülərin sistemli öyrənilməsi funksional baxımdan maraq doğuran məsələlərdən biridir. Sözönülərinin semantik və funksional baxımdan öyrənilməsi problemi mübahisəli olduğu üçün aktual olaraq qalmaqdadır. İngilis dilinin lüğət tərkibinin yenilənməsində sözönülər xüsusi rol oynayır. Sözönüləri vasitəsi iləsözlər cümlədə qrammatik baxımdan digər üzvlərlə əlaqə yaradır və onların mənası tamamlanır. Nitqdə sözönülərin verballaşması mental proseslərdən keçdikdən sonra baş verir. İngilis dilində sözönülər sözlərin məna dəyərini artıran köməkçi sözlərdir.

Koqnitivlik baxımdan sözönülərin öyrənilməsi ingilis dili üçün əhəmiyyətlidir, beləki, koqnitiv dilçilik dilin semantikası ilə vizual qavrayışı arasında əlaqəyə xüsusi diqqət yetirir.

Koqnitiv aspektdən sözönülərinə yanaşıldıqda onlara yalnız qrammatik qayda baxımdan deyil, onları məkan, zaman və mücərrəd münasibətlərini konseptik baxımdan da təhlil etmək lazımdır. Sözönülər mövcud reallığı konsepsiyalaşdırır və linqvistik dünyagörüşün formalaşmasında mühüm rol oynayır.

Koqnitiv dilçilikdə sözönülər barədə fikirləri ilə seçilən Evans və Tayler qeyd edir ki, dilin öyrənilməsi və onun mənimsənilməsinin əsasını təşkil edən idrak prosesini anlamaqla dilin funksional fəaliyyətini başa düşmək olar. Evans və Tayler ingilis dilində sözönülərin koqnitivlik baxımdan müxtəlif aspektlərdən araşdıraraq onların semantik yükünün daha dəqiqi şəkildə aydınlaşmasını ikinci dilin öyrənilməsində görürülər [8].

Məlumdur ki, sadə bir sözönü sözlərin mənasını dəyişdirmə xüsusiyyətinə malikdir, sözönülər aid olduğu sözlərin mənalarını dəqiqləşdirir. İngilis dilində sadə sözönülər dildə işləndikdə çətinlik yaradır, çünki onlar müxtəlif nitq hissələri ilə işlənir. Yer-məkan bildirən sözönülər cümlədə başqa mənalarda da işlənir və onlar bir şəxsin vəya əşyanın harda olduğunu işarələyir. Məsələn, "in" sözönü şəxsin və əşyanın nəyinsə içində olduğunu işarələyir. Məsələn,

The keys are in the car.
Jack lives in Italy
Yer-məkan "on" sözönü bir şeyin və insanın nəyin üstündə (yol, çayın) olduğunu işarələyir.
The bag is on the table
The picture is on the wall
He leves on London.
"at" sözönündən ümumi bir ərazi haqqında danışdıqda işlədilir. Məsələn,
At the home
At the airport
At the window
At Mark`s(house)
Bundan başqa "in", "on" və "at" sözönülər fərqli prototipik mənaları ifadə etmək üçündə işlənir. Məsələn,
He is at the is house.
He is in the house.

Göstərilən cümlələrdə arasında bəzi konseptual fərqlər vardır və burada eyni sözönü prototipik məna yaradaraq "*in"*evin içində olduğunu, "at"isə subyektin olduğu məkanı və ya trayektoriyanı göstərir. Ümumiyyətlə, *"on"* sözönü*"at"* və *"in"*sözönülərə nisbətən daha az əhatə dairəsinə malikdir. Bu sözönülər metaforik düşüncə vasitəsilə fərqli mənaları ifadə edə bilər.

Sadə sözönülər kimi tanınan *"in, at, on"* cümlə və mətn daxilində daha çox işlənən köməkçi sözlərdir və bir cümlədə və mətndə bu sözönülər dəfələrlə işlənir. Bunlardan başqa ingilis dilində *"with, for, from"* və başqa sadə sözönülər də nitqdə çox işlənir. Hətta, eyni cümlədə və ya mətndə sədə sözönülərdən yaranan mürəkkəb sözönülərdə işlənir. Məsələn,

My name is Susanne and today I'm going to show you how to make schnitzel. I prefer beef steak, but many people also like to eat pork. First I cut the beef ***into*** thin slices. Then I'll hit them with my flat hand until they're right. I sprinkle both sides with salt and pepper. I prepare three plates: ***on*** the first plate I have flour, the second plate a beaten egg and ***on*** the third plate I have breadcrumbs. The slices are first laid ***into*** the flour, then ***onto*** the egg, and finally turned ***onto*** the breadcrumbs. The meat is fried from both sides for 2 to 3 minutes ***in*** a frying pan (Hobby Chef).

Göstərilənqısamətndaxilindəişlənən***"on"***sözönü*"I prepare three plates:* ***on*** *the first plate I have flour, the second plate a beaten egg and* ***on*** *the third plate I have breadcrumbs"*- "*Mənüçboşqabhazırlayıram: birinciboşqabda un, ikinciboşqabdaçalınmışyumurtavəüçüncüboşqabdaçörəkqırıntılarıqoyuram".*cümləsindəyerbildirənsadəsözönükimiişlənir.

"The slices are first laid ***into*** *the flour, then* ***onto*** *the egg, and finally turned* ***onto*** *the breadcrumbs"*- "*Dilimlərəvvəlcəuna, sonrayumurtayavənəhayətçörəkqırıntılarınaqoyulur".* Cümlədəişlənilən***"onto"*** sözönü ***"on"*** və***"to"*** sözönülərininbirləşməsindənəmələgələnmürəkkəbsözönüdürvənəyəsədoğruhərəkətibildirir.

F.Veysəlliqeydedir ki,*"Bizim dil sərişt*əmiz söyləmləri məna daşıyan vahidlər kimi başa düşməyə imkan verir. Semantik bilgi dil və konseptual təsəvvürləri bir-birinə bağlayır"* [2, s. 44].

Koqnitiv dilçilikdə sözönülərinin dərk edilməsi, cümlə və ya mətndə onların mənaverici rolu aydın görünür. İngilis dilində sözönülərin nitq üçün və deyilənlərin aydınlaşması və dərk olunması üçün əsas faktorlardan biridir. Koqnitiv linqvistika dilin hər bir vahidinin mənasının necə yarandığını və onun başa düşülməsini tədqiq edir. O digər tərəfdən də dil vahidlərinin metaforlaşmasını və semantik yükünü aydınlaşdırır.

İngilis dilində sözönülərə semantikasına koqnitiv aspektdən yanaşan M.A.Qrebenşikova qeyd edir ki, "Sözönülərinin semantikasını öyrənərkən, onların dildə məkan bildirməsini, çoxmənalılığ yaradan təbiəti, dil və idrak prosesləri arasındakı əlaqə məsələlərinin öyrənilməsi vacib məsələdir" [5]. Müəllif apardığı araşdırmada diqqəti əsasən məkan bildirən sözönülərə yönəltmişdir.

Dilçilikdə koqnitiv linqvistikanın yüksəlişi və inkişafı ingilis dilində ön sözlərinin çoxmənalığının yeni perspektivlərini araşdırmağa imkan yaradıb.

"İngilis dilində ən aktiv köməkçi sözlərdən biri olan sözönülərinin dildə əhəmiyyəti böyükdür. Onların əksəriyyəti çoxmənalı olur və məkan, zaman, istiqamət, tərz və s. baxımından mürəkkəb münasibətləri ifadə etmək üçün müxtəlif növlü sözlərlə birləşir" [10].

Ümumiyyətlə, ingilis dilində sözönülərin təbiətinin öyrənilməsi çətin məsələlərdən biridir, onlar dəyişkən xüsusiyyətlərə malik olub, yer-məkan, istiqamət, zaman bildirərək mücərrədliyə qədər uzanır və bu çox zaman kontekstlə bağlı olur. Sözönülər zaman prosesində və məkanda baş verən hadisələri beyində formalaşdırır. İngilis dilində məkan sözönülər ətraf aləmdəki obyektlər və hadisələr arasındakı qarşılıqlı əlaqənin təbiəti və baş verən hadisələrin zamanla əlaqəsi haqqında məlumatı dəqiqləşdirir.

"İngilis dilinin sözönülər cümlədə mənalı sözlər arasında müəyyən əlaqələrin mövcudluğunu göstərən sözlərdir. Sözönülərlə ifadə olunan əlaqələri üç konseptual sahəyə bölmək olar: 1) məkan, 2) zaman və 3) mücərrəd" [6].

Sözönülərin semantikasının hərtərəfli öyrənilməsi və onların nitqin qavranılmasında rolu o qədər də asan deyil. İngilis dilində sözönüləri nəzəri baxımdan öyrənilsə də təcrübii aspektdən öyrənilməsi hələ də tam həllin tapmamışdır. Sözönülərin məna xüsusiyyətləri əsasən nitqdə üzə çıxır. Buna görədə sözönüləri nəzəri və təcrübii baxımdan birgə öyrənilməlidir.

İngilis dilində sözönülərin leksik məna daşıması mübahisəli olaraq qalmaqdadır, dilçi alimlərdən bəziləri onların leksik məna daşımadığını (M.İ.Steblin-Kamenski, H.Suit), bir qisimi isə sözönlərinin leksik mənadaşıdığını deyirlər (A.İ.Smimitski, B.A.İlyiş, B.S.Xaymoviş, B.İ.Roqovskaya və b.). O.Musayev ingilis dilində sözönlərinin leksik mənası olmadığını idda edən alimlərlə razılaşaraq qeyd edir: "İngilis dilindəki sözönlərinin qrammatik kateqoriyaya malik olması və habelə onların təkbaşına cümlə üzvü ola bilməməsi də onların leksik mənaya malik olmadığını göstərən bir faktdır. Beləliklə, biz də bir qisim dilçilər kimi, belə hesab edirik ki, ingilis dili sözönlərinin leksik mənası yoxdur; onlar ancaq qrammatik mənaya malik vahidlərdir və dildə ancaq qrammatik əlaqələrin ifadə vasitəsi kimi fəaliyyət göstərir [3, s. 326].

Alimlərin fikrindən göründüyü kimi, sözönülərin leksik mənası yoxdur, ancaq qeyd etmək lazımdır ki, sözönülər qrammatik məna ilə yanaşı metaforlaşma və mücərrədlik yaradır.

NƏTİCƏ: Koqnitiv dilçilik baxımından, sözönülər yalnız müəyyən zaman-vaxt anlayışlarının ifadəsini asanlaşdırmır, o həm də eyni zamanda məkan anlayışlarından istifadə edərək məkan-zamana metaforasını yaradır.

Koqnitiv dilçilik baxımından sözönülərin öyrənilməsində dil ilə birlikdə qavrayış və düşüncə kimi mental proseslər əlaqəli bir sahə kimi götürülməlidir. Çünki koqnitiv dilçiliyin hazırkı inkişaf mərhələsi dil ifadələrinin semantikası ilə insanın idrak fəaliyyət mexanizmləri arasında spesifik əlaqəni təsdiqləmişdir.

Beləliklə, sözönülərin semantikasının müasir tədqiqatları həm koqnitiv, həm də ənənəvi linqvistik tədqiqatlara əsaslanmalıdır. Beləliklə, 1) sözönülər koqnitivlik baxımdan məlumatları kodlayan sözlərin məna bütövlüyünü formalaşdırır; 2) sözönülər qrammatik əlaqələri ifadə edən köməkçi leksemlərdir; 3) sözönülər cümlə və mətndə ifadələr arasında qrammatik baxımdan əlaqə yaradan funksional köməkçi nitq hissəsidir.

İstifadə edilmiş ədəbiyyat

1. Rəcəbli Ə. Dilçilik metodları. Bakı, Nurlan, 2003, 492 səh.
2. Veysəlli F. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı, Mütərcim, 2015, Studia philologiya vıı 120 səh.
3. Türksevər (Musayev) O. İngilis dilinin qrammatikası. Qismət nəşriyyatı, Bakı, 2007, 608 səh.
4. V.fon Humboldt. Dillərin milli xarakteri haqqında. Elm nəşriyyatı, Bakı, 2014,122 səh.
5. Гребенщикова М.А. Семантика английского предлога *over* в когнитивном аспекте. Екатеринбург, 2016 https://elar.urfu.ru/bitstream/10995/43988/1/m_th_m.a.grebenschikov_2016.pdf
6. Дуйшеналиева Ж.А.Семантика и функционирование предлогов в английском языке. Наука и новые технологии № 1, 2013 http://science-journal.kg/media/Papers/nntiik/2013/1/nntiik-2013-N1-262-266.pdf.
7. Кубрякова Е.С. Начальные этапы становления когнитивизма: лингвистика, психология, когнитивная наука//Вопросы языкознания. 1994.№4. с. 34-47
8. EvansV. and Tyler A. The Semantics of English Prepositions: Spatial Scenes, Embodied Meaning, and Cognition. https:/www.researchgate.net/publication/288290039 The Semantics of English Prepositions Spatial Scenes Embodied_Meaning_and_Cognition
9. GurbanovaL. Language and Cognition.Path of Science: International Electronic Scientific Journal. Vol 10, No 6 (2024) https://www.researchgate.net/publication/382383961_Language_and_Cognition
10. Xinyi Y., Jincheng N.Analysis of English Prepositions based on Cognitive Linguistics. International Journal of Education and Humanities,Vol.18, No. 1,2025.https://www.researchgate.net/publication/388328966_Analysis_of_English_Prepositions_based_on_Cognitive_Linguistics
11. https://lingoway.org/blog/wp-content/uploads/2023/08/100-English-Short-Stories.pdf

Нишана Каримова
Бакинский славянский университет
kerimova.nishana05@gmail.com
ORCID:0009-0001-1046-6723

Когнитивный аспект предлогов в английском языке
Резюме

В статье рассматривается когнитивный аспект предлогов. В ней объясняется совместная деятельность языка и познания. Создание новых слов в языке происходит посредством психических процессов. Здесь отмечается, что изучение предлогов с когнитивной точки зрения важно для английского языка. Важно изучать функциональные свойства предлогов в предложениях и текстах. В статье также отмечается, что семантическая нагрузка предлогов в английском языке является предметом споров. Различные характеристики простых и сложных предлогов, используемых в предложениях и текстах английского языка, объясняются на примерах. В статье изложены взгляды международных и местных ученых на когнитивную лингвистику и психические свойства предлогов.

Ключевые слова:*когнитивная лингвистика, концепция, семантические свойства, денотация знака, психические процессы.*

Nishana Karimova
Baku Slavic University
kerimova.nishana05@gmail.com
ORCID:0009-0001-1046-6723

The cognitive aspect of prepositions in english

Summary

7. Downing, A. English Grammar: A University Course (2nd ed.) / A. Downing, P. Locke. – London: Routledge, – 2006. – 610 p.
8. Eastwood, J. Oxford Guide to English Grammar / J. Eastwood. – Oxford: Oxford University Press, – 2016. – 446 p.
9. Greenbaum, S. An Introduction to English Grammar (3rd ed.) / S. Greenbaum, G. Nelson. – Harlow: Pearson Education, – 2009. – 340 p.
10. Huddleston, R. The Cambridge Grammar of the English Language / R. Huddleston, G. K. Pullum. – Cambridge: Cambridge University Press, – 2002. – 1842 p.
11. Leech, G. A Communicative Grammar of English (3rd ed.) / G. Leech, J. Svartvik. – London: Routledge, – 2013. – 326 p.
12. Quirk, R. A Comprehensive Grammar of the English Language / R. Quirk et al. – London: Longman, – 1985. – 1779 p.
13. Swan, M. Practical English Usage (4th ed.) / M. Swan. – Oxford: Oxford University Press, – 2016. – 768 p.

Sherifova Safa Mahammad

Baku State University, Teacher of the Department of English

səfa@mail.ru

https://orcid.org/0009-0009-4852-0084

Word order in the types of simple sentences according to purpose and intonation in the english language

Summary

Word order is one of the fundamental elements of the grammatical structure of the English language. In particular, changes in word order in different types of simple sentences according to purpose and intonation play an important role in determining the communicative function of a sentence. This article examines the peculiarities of word order in declarative, interrogative, imperative, and exclamatory sentences in English and analyzes their relationship with purpose and intonation. The results of the study indicate that word order in English serves not only to express grammatical relations but also to convey communicative intention and emotional nuances.

Keywords: simple sentence, word order, declarative sentence, interrogative sentence, imperative sentence, exclamatory sentence, intonation, communicative function

Сафа Махаммад кызы Шарифова

Бакинский государственный университет, Преподаватель английского языка

səfa@mail.ru

https://orcid.org/0009-0009-4852-0084

Порядок слов в типах простого предложения по цели высказывания и интонации в английском языке

Резюме

Порядок слов является одним из основных элементов грамматической структуры английского языка. Особенно важную роль в определении коммуникативной функции предложения играют изменения порядка слов в различных типах простых предложений в зависимости от цели высказывания и интонации. В статье рассматриваются особенности порядка слов в повествовательных, вопросительных, побудительных и восклицательных предложениях английского языка, а также анализируется их связь с целью высказывания и

интонацией. Результаты исследования показывают, что порядок слов в английском языке служит не только для выражения грамматических отношений, но и для передачи коммуникативного намерения и эмоциональных оттенков речи.

Ключевые слова: простое предложение, порядок слов, повествовательное предложение, вопросительное предложение, побудительное предложение, восклицательное предложение, интонация, коммуникативная функция

Rəyçi: prof. L.Əhimədova

DOI: 10.24412/2218-7588-2026-2-27-29

Ирада Эльман кызы Бадалова, Гюльнара Адхем кызы Исмаилова
Азербайджанский Технический Университет
ст.преподаватели кафедры «Иностранных языков»
E-mail: irad_e.@mail.ru; ORCID: 0009-0008-2720-9337
E-mail: qula.qula.65@mail.ru; ORCID: 0009-0009-3553-4153

НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ПЕРЕВОДААНГЛИЙСКИХ ФРАЗЕОЛОГИЗМОВ НА РУССКИЙ ЯЗЫК

РЕЗЮМЕ: В данной статье мы дали общее описание о фразеологических единицах.Мы указали его видыодновременно обратили внимание на проблемы при переводе их на русский язык.
Отмечено что,при переводе фразеологических единиц используются нижеследующие методы:эквивалент,аналог, художественный перевод, антонимический перевод,перевод с помощью кальки, комбинированный перевод.Таким образом это проблема очень актуальна,потому что,фразеологические единицы указывают на культуры языка, а также делают его более содержательным и эмоциональным.

Ключевые слова: фразеологическое выражение, фразеологические единицы, словосочетание, термин. развитие.

ВВЕДЕНИЕ: И.С.Виноградов В.С.отмечает: «Английский язык имеет тысячелетнюю историю. За это время в немнакопилось большое количество выражений, которые люди нашли удачными, меткими и красивыми. Так и возник особый слой языка – фразеология, совокупность устойчивых выражений, имеющих самостоятельное значение. Хорошее знание языка, в том числе и английского, невозможно без знания его фразеологии. Разумное использование фразеологизмов делает речь более идиоматичной. С помощью фразеологических выражений, которые не переводятся дословно, а воспринимаются переосмыслено, усиливается эстетический аспект языка. С помощью идиом, как с помощью различных оттенков цветов, информационныйаспект языка дополняется чувственно-интуитивным описанием нашего мира, нашей жизни» [1, с. 116-132].

Очень часто фразеологизмы служат своего рода кодом узнавания статуса, текста (собеседника,темы высказывания, отношений между участниками коммуникации и др.). Наиболее убедительным доказательством богатых возможностей фразеологических единиц – и особой сложности их для перевода – является то, что их охотно не только употребляют, но творчески преобразуют многие писатели, журналисты и другие творческие языковые личности.

ОСНОВНАЯ ЧАСТЬ: Фразеологизм или фразеологическая единица – устойчивое по составу и структуре, лексически неделимое и целостное по значению словосочетание или предложение, выполняющее функцию отдельной единицы.

to make a clean breast of = to confess – сознаться
to fall foul = to quarrel; to attack (with) – поссориться, нападать
to snake a leg = to hurry – торопиться
to draw a longbow = to exaggerate – преувеличивать

Т.А.Казакова в книге «Практические основы перевода.» пишет: “Фразеологизм употребляется какнекоторое целое, не подлежащее дальнейшему разложению и обычно не допускающее внутри себя перестановки своих частей.Выделяют четыре вида фразеологических единиц: фразеологические сращения (идиомы), фразеологическиеединства, фразеологические сочетанияи фразеологическиевыражение” [2, с. 320].

Фразеологические сращения, или идиомы – немотивированные единицы, выступающие как эквиваленты слов, (например, навострить лыжи, спустя рукава, через пень колоду, вот так клюква, как бы не так и др.) Значение фразеологического сращения не выводимо из значений составляющих его компонентов (например, «содом и - суматоха, шум; «железная дорога» - особый тип коммуникации с рельсами для поезда, шпалами и т. п., а не просто дорога, вымощенная железом). Зачастую грамматическиеформы и значения идиом не обусловлены нормами и реалиями современного языка, то есть такие сращения являются лексическими и грамматическими архаизмами.

Так, например, идиомы «бить баклуши» - «бездельничать», в исходном значении – раскалывать полено на заготовки для выделки бытовых деревянных предметов и «спустя рукава» - «небрежно» отражают реалии прошлого, отсутствующие в настоящем – в прошлом им была присуща метафоричность. Особенностью идиом является то, что они синтаксически выступают в качестве единого члена предложения. Фразеологические единства – мотивированные единицы с единым целостным значением, возникающим из слияния лексических компонентов. Кунин А.В. Англо-русский фразеологический словарь. М., 1984. Кунин А.В. о фразеологических единствах в английском языке отмечает:“В фразеологических единствах значение фразеологизма мотивировано значениями составляющих его слов, обычно фразеологизмы такого являются тропами с метафорическим значением (например, «гранит науки», «плыть по течению», «закинуть удочку»). Замена слова в составе фразеологического единства, в том числе и подстановка синонима, ведёт к разрушению метафоры (например, «гранит науки» - «базальт науки») или изменение экспрессивного смысла: «попасться на удочку» и «попасть в сети» являются фразеологическими синонимами, но выражают различные оттенки экспрессии” [3, с. 212-234]

Подобно идиомом фразеологические единства лексически неделимы, их грамматические формы и синтаксический строй строго определены, однако, в отличие от идиом, они мотивированы реалиями современного языка и могут допускать в речи вставку других слов между своими частями, например,

«довести (себя, его, кого- либо) до белого каления», «лить воду на мельницу» чего – либо или кого либо и «лить воду (свою, чужую и т.п.) на мельницу».

Фразеологические сочетания – устойчивые обороты, однако их целостное значение следует из составляющих их отдельных слов. В отличие от фразеологических сращений и единств их состав допускает ограниченную синонимическую подстановку или замену отдельных слов, при этом один из членов фразеологического сочетания оказывается постоянным, другие же переменными: так, например, в словосочетаниях «сгорать от любви, ненависти, стыда, нетерпения» слово «сгорать» является постоянным членом с фразеологический связанным значением.

В словаре «LongmandictionaryofEnglishIdioms» отмечается: "Фразеологические выражения – устойчивые в своем составе и употреблении обороты, которые не только являются семантически членимыми, но и состоят целиком из слов со свободным значением: «волков бояться – в лес не ходить», «не все то золото, что блестит" [4, с. 66-93]

Часто фразеологизм является достоянием только одного языка (исключение составляют так называемые кальки). Фразеологизмы похожи на пословицы, но, в отличие от них, не являются законченными предложениями. Фразеологизмы описываются в специальных фразеологических словарях.

При переводе фразеологизма переводчику надо передать его смысл и отразить его образность, найдя аналогичное выражение в английском языке и не упустив при этом из виду стилистическую функцию фразеологизма. При отсутствии в английском языке идентичного образа переводчик вынужден прибегать к поиску «приблизительного соответствия».

Хорошее рецептивное знание фразеологии необходимо и для того, чтобы уметь восстановить фразеологизмы, подвергшиеся «авторской трансформации», и передать при переводе достигаемый ею эффект. К числу авторских преобразований, в результате которых подчеркивается ассоциативное значение фразеологизмов (почтине воспринимаемое иначе).

Относятся, в частности, следующие стилистические приемы:

1. Введение в фразеологический оборот новых компонентов, семантически соотнесенных с прямым значением, т.е. со значением исходного переменного словосочетания. Например, фразеологизм toputthecartbeforethehorse – делать все наоборот (дословно – впрягать лошадь позади телеги), подвергся преобразованиям следующего рода: "Let`s not put the cart too far ahead the horse"(E.S.Gardner).

2. Обновление лексико-грамматического состава фразеологизма в результате замены отдельных его компонентовдругими словами. Происходит своеобразная деформация фразеологического оборота,текст которого легко восстанавливается. Например, заимствованный из Библии фразеологизм *tohaveamillstoneaboutone'sneck*(носить тяжкий камень на сердце) был видоизменен С.Т.Колриджем и выглядел так: *haveanalbatrossaboutone'sneck*(дословно – носить альбатроса на шее); в поэме С.Т.Колриджа "TheAncientMariner"говорится о моряке, убийством альбатроса накликавшем беду на свой корабль и вынужденном носить как наказание мертвого альбатроса вокруг шеи.

3. Расщепление фразеологизма и использование его компонента или (компонентов) в составе переменного словосочетания. Отдельный компонент (или компоненты) в этом случае являются носителем ассоциативного значения всей фразеологической единицы, на котором строиться весь смысл высказывания. Полная форма фразеологизма как бы проходит вторым планом, но без восстановления ее понимание невозможно. Например:

- "I`ve got a cold."
- "It`s in your feet." (B.Manning)

В этом диалоге один из говорящих жалуется на болезнь, а другой собеседник говорит, что это не болезнь, а трусость. Фразеологизм представлен здесь лишь одним компонентом, - *togetcoldfeet* – трусить, проявлять малодушие.

4. Фразеологизм может быть приведен не полностью, с сохранением лишь части компонентов: *"HecomplainedtoFleurthatthebookdealtwithnothingbutbirdsinthebush"*(J.Galsworthy).
Здесьиспользованочастьпословицы: "A bird in the hand is worth two in the bush." (Лучше синица в руках, чем журавль в небе). *Abirdinthebush*в данном примере означает пустые обещания.

5. Фразеологическая единица не имеет в ПЯ ни эквивалентов, ни аналогов, непереводимое в словарном порядке, т.е. фразеологизм ИЯ, неравный фразеологизму ПЯ, передается иными, нефразеологическими средствами.

6. Эквивалент, т.е. имеющийся в русском языке адекватный фразеологический оборот, совпадающий с английским оборотом по смыслу, и по образной основе, например: *ascoldasice* – холодный как лед, *Augeanstable(s)* – авгиевы конюшни, *thesaltoftheearth* – соль земли, *swallowthepill*-проглотить (горькую пилюлю).

Для достижения максимальной адекватности при переводе фразеологизмов с английского на русский переводчик должен уметь воспользоваться фразеологическими следующему «видами перевода»:

1. Описательный перевод, т.е. перевод путем передачи смысла английского оборота свободным словосочетанием. Описательный перевод применяется тогда, когда в русском языке отсутствуют эквиваленты и аналоги, например: *torobPetertopayPaul* – отдать одни долги сделав новые (взять у одного, чтобы отдать

другому), *toburnthecandleonbothends* – работать с раннего утра и до позднего вечера.

2. Антонимический перевод, т.е. передача негативного значения с помощью утвердительной конструкции или наоборот, например: *tokeepone`shead* – не терять головы, *tokeepone`sheadabovewater* – не влезать в долги, *tokeepone`speckerup* – не падать духом.

3.Калькирование. Метод калькирования применяется в тех случаях, когда переводчик хочет выделить образную основу фразеологизма, или когда английский оборот не может быть переведен при помощи других видов перевода, например: *themoonisnotseenwhenthesunshines*(пословица) – когда светит солнце, луны не видно.

Практически в любом языке существует несколько уровней фразеологизмов: зафиксированные словарем и известные всем; выходящие из употребления, но отмеченные словарем; известные всем, но по каким-либо причинам не зафиксированные словарем; известные отдельным общественным группам.

ЗАКЛЮЧЕНИЕ: Первое и самое главное условие в любом случае – уметь распознать в тексте фразеологизмы, в отличие от свободных языковых единиц. Наиболее продуктивный путь – это навык выделение в тексте противоречащих общему смыслу единиц, поскольку, как правило, именно появление таких единиц и свидетельствует о присутствии переносного значения (например: Bythattimehehadreachedtheconditiontoseepinkelephants) Второе важное условие в процессе распознавания фразеологизмов заключается в умении анализировать их речевые функции. Например: конфликт между переносным и буквальным значением нередко используется автором текста для обыгрывания каких-либо образных, эстетических, эмоционально-оценочных и других ассоциаций или для создания юмористического эффекта.

Использованная литература

1. Виноградов В.С. «Введение в переводоведение». – М., 2001. стр: 116-132
2. Казакова Т.А. Практические основы перевода. Изд.«Союз», 2001, с. 320
3. Кунин А.В. Англо-русский фразеологический словарь. М., 1984. стр: 212-234
4. Longman dictionary of English Idioms, Longman, 1980. стр: 66-93.

Irada Elman Badalova, Gulnara Adhem Ismailova
Azerbaijan Technical University
Senior Lecturers, Department of Foreign Languages
Email: irad_e.@mail.ru ORCID: 0009-0008-2720-9337
Email: qula.qula.65@mail.ru ORCID: 0009-0009-3553-4153

Translation recularities of english phraseological units

Summary

In this scientific article we have given the definition of phraseological units, enumerated their types, and paid much attention to the problems arising during their translation. We have singled out the following methods of translation phraseological units: equivalent, analogue, descriptive translation, antonymic translation, combined translation.

We can conclude that this problem is very pressing because it reflects not only the culture of any language but also helps to make it more expressive and emotional.

Key words: phraseological expression, phraseological units, word – combination,term, development.

İradə Elman qızı Bədəlova, Gülnarə Adəm qızı İsmayılova
Azərbaycan Texniki Universiteti
Xarici dillər kafedrasının baş müəllimləri
E-poçt: irad_e.@mail.ru ORCID: 0009-0008-2720-9337
E-poçt: qula.qula.65@mail.ru ORCID: 0009-0009-3553-4153

İngilis frazeoloji vahidlərinin rus dilinə tərcüməsinin bəzi xüsusiyyətləri

Xülasə

Bu məqalədə frazeoloji vahidlərin ümumi təsvirini təqdim etdik. Onların növlərini müəyyən etdik və eyni zamanda onların rus dilinə tərcüməsi ilə bağlı problemlərə diqqət çəkdik.

Qeyd olunur ki, frazeoloji vahidlərin tərcüməsi zamanı aşağıdakı metodlardan istifadə olunur: ekvivalent, analoq, ədəbi tərcümə, antonik tərcümə, kalkalardan istifadə edərək tərcümə və birləşdirilmiş tərcümə. Beləliklə, bu məsələ çox aktualdır, çünki frazeoloji vahidlər dilin mədəniyyətlərini göstərir və onu daha mənalı və emosional edir.

Açarsözlər: frazeolojiifadə,frazeolojivahidlər, sözbirləşməsi, termin, inkişaf.

Рецензент: доц. Юсиф Сулейманов

DOI: 10.24412/2218-7588-2026-2-30-32

Fatimə Xanməmməd qızı İbrahimova
ADU. Baş müəllim
fatimaibrahimova1@gmail.com
https://orcid.org/0009-0006-8745-6124

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FONOLOJİ XÜSUSİYYƏTLƏRİN ARAŞDIRILMASI

XÜLASƏ: Təqdim olunan məqalə müasir dilçiliyin aktual problemlərindən biri olan müxtəlif sistemli dərslərin – ingilis və Azərbaycan dillərinin fonoloji xüsusiyyətlərinin müqayisəli şəkildə araşdırılmasına həsr olunmuşdur. Tədqiqatın əsas obyekti hər iki dilin səs quruluşu, fonemlərin inventarı, onların artikulyasiya-akustik xüsusiyyətləri və fonotaktik birləşmə imkanlarının müasir dilçilik metodları ilə təhlilidir.

Məqalədə hər iki dilin vokalizm və konsonantizm sistemləri geniş şəkildə qarşılaşdırılır. İngilis dilindəki 20 sait foneminin (monofonqlar və diftonqlar) kəmiyyət və keyfiyyət xüsusiyyətləri, o cümlədən saitlərin gərginlik dərəcəsi (tense and lax vowels) Azərbaycan dilinin 9 saitli və ahəng qanununa əsaslanan sabit vokal sistemi ilə müqayisəli şəkildə təhlil edilir. Samitlər sistemində isə xüsusilə ingilis dilinə məxsus olan alveolyar və dişlərarası (interdental) samitlərin Azərbaycan dilindəki dental (diş) samitləri ilə funksional fərqləri araşdırılır.

Tədqiqatın mühüm hissəsini prosodik xüsusiyyətlərin — vurğu, ritm və intonasiyanın müqayisəli analizi təşkil edir. İngilis dilindəki dinamik və sərbəst vurğu sisteminin söz yaradıcılığında və məna fərqləndirilməsindəki rolu, Azərbaycan dilindəki sabit vurğu sistemi ilə qarşılaşdırılaraq, bu xüsusiyyətlərin nitq prosesində yaratdığı fonetik fərqlər elmi şəkildə əsaslandırılır. Eyni zamanda, məqalədə ingilis dilində geniş yayılmış sait reduksiyası və samit yığınlarının (consonant clusters) struktur xüsusiyyətləri Azərbaycan dilinin fonotaktik məhdudiyyətləri çərçivəsində tədqiq edilir.

Məqalənin nəticələri hər iki dilin fonetik sisteminin daxili qanunauyğunluqlarını aşkar etməyə imkan verir və bu sahədə aparılan müqayisəli araşdırmaların nəzəri dilçiliklə yanaşı, tərcüməşünaslıq və xarici dil tədrisi metodikası üçün də böyük praktik əhəmiyyət kəsb etdiyini sübut edir.

Açar sözlər: prosodiya, fonem inventarı, artikulyasiya bazası, sait reduksiyası, fonetik interferensiya.

GİRİŞ: Hər bir dilin özünəməxsusvartikulyasiya bazası mövcuddur. İngilis və Azərbaycan dilləri bu baxımdan kəskin şəkildə fərqlənir. İngilis dilində danışarkən dilin ucu əsasən alveollara (üst dişlərin arxasındakı qabarcıqlara) doğru yönəlir. Bu, ingilis nitqinə spesifik "apikal" xarakter verir. İngilis fonoloji sistemində samitlərin tələffüzü zamanı dodaqların və dilin əzələləri daha gərgindir. İngilis dilində saitlərin kəmiyyət fərqi (uzun-qısa) məna fərqləndirici funksiya daşıdığı üçün artikulyasiya bazası bu fərqi qorumağa xidmət edir.

Azərbaycan dilində isə dilin ucu üst dişlərin daxili səthinə toxunur (laminal artikulyasiya). Bizim dilimizdə əzələ gərginliyi ingilis dili ilə müqayisədə daha aşağıdır, nitq daha yumşaq və ritmikdir. Azərbaycan dili fonologiyasında artikulyasiya bazası ahəng qanununa (vocalic harmony) tabedir ki, bu da səslərin bir-birinə uyğunlaşmasını təmin edir.

ƏSAS HİSSƏ: İngilis dilində 20 sait fonemi var. Bu sistemin mürəkkəbliyi ondadır ki, saitlər həm keyfiyyətinə (açıq-qapalı), həm də kəmiyyətinə (uzun-qısa) görə fərqlənir. Diftinqlar: İngilis dilində 8 diftonq (ei, ai, ɔi, au, əu, iə, uə, eə) var ki, bunlar Azərbaycan dili üçün tamamilə yaddır. Azərbaycan dilində iki sait yan-yana gələndə onlar ayrı-ayrı hecalar təşkil edir, ingilis dilində isə bir mürəkkəb səs yaradır. Reduksiya hadisəsi: İngilis dilində vurğusuz hecalarda saitlərin zəifləməsi (məsələn, [ə] - schwa səsinə çevrilməsi) sistemin ən mühüm xüsusiyyətidir.

Azərbaycan dilində 9 sait fonemi var və onlar mükəmməl bir simmetriya (triada) təşkil edir:

1. Dilin vəziyyətinə görə: Qalın / İncə.
2. Dodaqların vəziyyətinə görə: Dodaqlanan / Dodaqlanmayan.
3. Ağız boşluğunun açılma dərəcəsinə görə: Açıq / Qapalı.

Azərbaycan dilində saitlərin uzunluğu (istisna hallar çıxılmaqla) mənanı dəyişmir. Bu, ingilis dili ilə ən böyük fonoloji fərqdir.

İngilis dilində [p, t, k] səsləri sözün əvvəlində nəfəsli (aspirasiyalı) tələffüz olunur. Həmçinin, Azərbaycan dilində olmayan dişlərarası [θ] və [ð] səsləri ingilis dilinin fonetik portretini formalaşdıran əsas elementlərdir. Məqalədə bu səslərin müqayisəli araşdırılması mühüm yer tutur.

Azərbaycan dilində cingiltili samitlərin (b, d, g, c) söz sonunda karlaşması (p, t, k, ç kimi tələffüzü) qanunauyğunluğu ingilis dili fonologiyası ilə müqayisə olunur. İngilis dilində cingiltili samit söz sonunda öz cingiltililiyini qorumağa meyllidir (məs: bad [bæd]), Azərbaycan dilində isə "kənd" sözü [kənt] kimi deyilir.

Prosodiya dildə səslərdən daha yuxarı səviyyədə dayanan (suprasegmental) xüsusiyyətləri əhatə edir. İngilis və Azərbaycan dilli prosodik sistemlər arasında kəskin tipoloji fərqlər mövcuddur. İngilis dilində vurğu sərbəstdir, yəni o, sözün istənilən hecasına düşə bilər. Bu xüsusiyyət fonoloji inkişafda mənadaxiledici (distinktiv) funksiya daşıyır. Məsələn:

Insult (isim – təhqir) vs. In`sult (fel – təhqir etmək).

Present (hədiyyə) vs. Pre`sent (təqdim etmək).

İngilis dili həmçinin "Vurğu-zamanlı" (Stress-timed) dildir. Bu o deməkdir ki, vurğulu hecalar arasındakı vaxt intervalı təxminən bərabərdir, bu da vurğusuz hecaların sürətlə tələffüz edilməsinə və reduksiyaya səbəb olur.

Azərbaycan dilində vurğu əsasən sözün son hecasına düşür (sabit vurğu). İstisnalar (zərflər, bağlayıcılar, bəzi alınma sözlər) olsa da, sistemin ümumi inkişaf xətti vurğunun sonda stabilləşməsinə yönəlib. İngilis dilindən fərqli olaraq, Azərbaycan dili "Heca-zamanlı" (Syllable-timed) dildir. Hər bir heca təxminən eyni vaxt kəsiyində tələffüz olunur, buna görə də bizdə saitlərin "yox olması" və ya ingilis dilindəki kimi kəskin reduksiyası (schwa səsinə keçid) baş vermir.

Fonotaktika səslərin dildə hansı ardıcıllıqla birləşə biləcəyini müəyyən edən qaydalar toplusudur. İngilis dilinin fonoloji sistemində heca həm əvvəldən, həm də sondan mürəkkəb samit birləşmələri ilə yüklənə bilər.

Onset (Başlanğıc): Üç samitə qədər birləşmə mümkündür (street, spring).

Coda (Sonluq): Dörd samitə qədər birləşmə ola bilər (sixths [sɪksθs]).

Bu mürəkkəblik ingilis nitqinin daha sıx və konsonant (samit mərkəzli) görünməsinə səbəb olur.

Azərbaycan dili fonologiyası samit yığınlarından "qaçır". Milli sözlərimizdə sözün əvvəlində iki samit gələ bilməz. Bu xüsusiyyət Azərbaycan dilinin fonotaktik bazasının nə qədər "vokalik" (sait mərkəzli) olduğunu göstərir. Hətta alınma sözlərdə belə, xalq dili bu yığınları asanlaşdırmağa meyillidir (məsələn: stansiya -> is-tansiya).

İngilis dilində intonasiya "melodik" xarakter daşıyır və cümlənin sonunda tonun kəskin enib-qalxması (Fall-Rise) vasitəsilə emosional çalarlar ötürülür. Azərbaycan dilində isə intonasiya daha çox məntiqi vurğu ilə tənzimlənir. İngilis dilində tonun hündürlüyü (pitch) birbaşa məna fərqi yarada bildiyi halda, Azərbaycan dilində intonasiya daha çox cümlənin tipini (sual, nida, nəqli) müəyyən etmək üçün istifadə olunur.

Dillərin fonoloji xüsusiyyətləri təkcə ayrı-ayrı səslərlə deyil, həm də o səslərin qonşu səslərlə təması zamanı necə dəyişməsi ilə müəyyən olunur. İngilis dilində nitq axını çox sürətli olduğu üçün səslər arasında kəskin asimilyasiya baş verir.

Reqressiv asimilyasiya: Məsələn, newspaper sözündə [s] səsinin özündən sonra gələn [p]-yə görə karlaşması və ya sandwich sözündə [d] səsini tamamilə itməsi (Eliziya). Koartikulyasiya: İngilis dilində bir səsin artikulyasiyası bitməmiş digərinin başlaması (overlapping) fonetik inkişafın əsas xüsusiyyətidir.

Azərbaycan dilində asimilyasiya daha çox şəkilçilərin kökə uyğunlaşması şəklində özünü göstərir. Mütəşəkkil asimilyasiya: Məsələn, onlar sözünün [onnar] kimi tələffüzü və ya getdi sözünün [getdi] yox, daha çox kar-cingiltili uyğunluğu ilə deyilməsi. Azərbaycan dilində səslərin dəyişməsi ingilis dilindəki kimi "xaotik" və ya "sərbəst" deyil, ciddi morfonoloji qanunlara tabedir. Bu da dilimizin fonetik sisteminin nə qədər proqnozlaşdırılan olduğunu sübut edir.

İngilis saitləri (məsələn, [i:] və [u:]) arasındakı akustik məsafə çox böyükdür. Bu dildə saitlərin spektral analizi göstərir ki, hər bir saitin özünəməxsus "enerji sahəsi" var. Məqalədə qeyd etməliyik ki, ingilis dilində saitlərin dəqiq tələffüz olunmaması birbaşa "anlaşılmazlıq" yaradır, çünki fonetik sahələr bir-birinə çox yaxındır.

Azərbaycan dilində saitlərin formantları (F1 və F2 tezlikləri) ahəng qanunu çərçivəsində qruplaşır. Qalın saitlər aşağı tezliklərdə, incə saitlər isə yuxarı tezliklərdə toplanır. Bu akustik təmizlik Azərbaycan dilinin "musiqili" və "aydın" eşidilməsinin elmi izahıdır.

Bayaq qısa toxunduğumuz heca mövzusunu burada Maksimal Onset Prinsipi ilə genişləndiririk. İngilis dilində: Bir sözü hecalara bölərkən (məsələn: extra [ek-strə]), ingilis dili samitləri növbəti hecanın əvvəlinə toplamağa çalışır. Bu, ingilis dilinin "onset-dominant" bir sistem olduğunu göstərir. Azərbaycan dilində: Bizdə isə heca sərhədləri daha kəskindir. Samit yığınları mütləq şəkildə iki heca arasında bölünür (mək-təb, təş-kil). Heç vaxt Azərbaycan dilində söz ortasında üç samit bir hecanın əvvəlinə düşə bilməz.

İngilis dilində bir fonem müxtəlif mühitlərdə tamamilə fərqli səslənir. Aspirasiya (Nəfəslilik): [p, t, k] səsləri sözün əvvəlində güclü nəfəslə deyilir (pin [pʰɪn]), lakin [s] səsindən sonra bu xüsusiyyətini itirir (spin [spɪn]). "Dark L" və "Clear L" (Tünd və Aydın L): İngilis dilində /l/ fonemi saitdən əvvəl aydın (leaf), söz sonunda və ya samitdən əvvəl isə boğazdan gələn tünd səslə (pool) deyilir.

Burada dillərin artikulyasiya bazalarının toqquşmasını təhlil edirik: Dişlərarası səslərin əvəzlənməsi: Azərbaycan dilində [θ] və [ð] səsləri olmadığı üçün tələbələr onları [s, z] və ya [t, d] ilə əvəz edirlər. Bu, "fonoloji əvəzləmə" (phonological substitution) adlanır. Saitlərin uzunluğunun gözlənilməməsi: Azərbaycan dilində sait uzunluğu məna dəyişmədiyi üçün öyrənənlər ship və sheep sözlərini eyni cür tələffüz edirlər. Bu, kommunikativ uğursuzluğa səbəb olan ən böyük fonoloji problemdir. Vurğu səhvləri: Azərbaycanlılar çox vaxt ingilis sözlərində də vurğunu avtomatik olaraq sona atmağa meyillidirlər, bu isə sözün ritmik strukturunu pozur.

NƏTİCƏ: Bu tədqiqat müasir linqvistik metodlardan, o cümlədən "Optimallıq Nəzəriyyəsi" və "Moraik Analiz"dən istifadə etməklə hər iki dilin fonoloji sistemini yeni müstəvidə qarşılaşdırır. Məqalədə irəli sürülən müddəalar göstərir ki, ingilis dili fonologiyası daim "iqtisadiyyat prinsipi" (tələffüzdə sürət və reduksiya) ilə "informativlik" (sait fərqləri ilə mənanın qorunması) arasında balans axtarır. Azərbaycan dili isə struktur bütövlüyü və daxili ahəngdarlığı hər şeydən üstün tutur.

Yekun olaraq qeyd etmək olar ki, ingilis və Azərbaycan dillərinin fonoloji xüsusiyyətlərinin müqayisəli təhlili təkcə nəzəri dilçilik üçün deyil, həm də müasir tərcüməşünaslıq, nitq texnologiyaları (süni intellekt və səs tanıma sistemləri) və müqayisəli tipologiya üçün fundamental baza rolunu oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. Gimson A. C. An İntroduction to the Pronunciation of English. L., 2014.
2. Roach P. English Phonetics and Phonology. C., 2009.
3. Axundov A. Azərbaycan dilinin fonetikası. B., 1984.
4. Vəliyeva N. Comparative Typology of English and Azerbaijani Languages. B., 2010.
5. Gussenhoven C., Jacobs H. Understanding Phonology. L., 2011.

6. Həbibi H. İngilis və Azərbaycan dillərinin müqayisəli qrammatikası. B., 2002.
7. Ladefoged P., Johnson K. A Course in Phonetics. S., 2014.
8. Crystal D. A Dictionary of Linguistics and Phonetics. O., 2008.
9. Yunusov A. English Phonetics. B., 2005.

Фатима Ибрагимова Ханмамед кызы
АУЯ. Старший преподаватель
фатимайбрахимова1@gmail.com
https://orcid.org/0009-0006-8745-6124

Исследование фонологических особенностей в английском и азербайджанском языках

Резюме

Представленная статья посвящена сравнительному исследованию фонологических особенностей языков различных систем – английского и азербайджанского, что является одной из актуальных проблем современной лингвистики. Основным объектом исследования является анализ звукового строя обоих языков, инвентаря фонем, их артикуляционно-акустических характеристик и возможностей фонотактического соединения методами современной лингвистики.

В статье подробно сопоставляются системы вокализма и консонантизма обоих языков. Наряду с количественными и качественными характеристиками 20 гласных фонем в английском языке (монофтонгов и дифтонгов), в том числе степени напряженности гласных (tense and lax vowels), проводится сравнительный анализ с вокальной системой азербайджанского языка, состоящей из 9 гласных и базирующейся на законе гармонии. В системе согласных исследуются функциональные различия между альвеолярными и межзубными (interdental) согласными, характерными в частности для английского языка, и дентальными (зубными) согласными в азербайджанском языке.

Важную часть исследования составляет сравнительный анализ просодических особенностей – ударения, ритма и интонации. Роль динамической и свободной системы ударения в английском языке в словообразовании и смыслоразличении сопоставляется со стабильной системой ударения в азербайджанском языке, и научно обосновываются фонетические различия, создаваемые этими особенностями в процессе речи. В то же время в статье в рамках типологических ограничений исследуются структурные особенности широко распространенной в английском языке редукции гласных и скоплений согласных (consonant clusters) в сравнении с фонотактическими возможностями азербайджанского языка.

Результаты статьи позволяют выявить внутренние закономерности фонетической системы обоих языков и доказывают, что проводимые в этой области сравнительные исследования, наряду с теоретическим языкознанием, представляют большую практическую значимость также для переводоведения и методики преподавания иностранных языков.

Ключевые слова: просодия, фонемный инвентарь, артикуляционная база, редукция гласных, фонетическая интерференция.

Fatima Ibrahimova Khanmammad
ALU. Senior lecturer
fatimaibrahimova1@gmail.com
https://orcid.org/0009-0006-8745-6124

Investigation of phonological characteristics in english and azerbaijani languages

Summary

The presented article is devoted to the comparative study of the phonological characteristics of languages with different systems–English and Azerbaijani–which is one of the topical issues of modern linguistics. The main object of the research is the analysis of the sound structure of both languages, the inventory of phonemes, their articulatory-acoustic properties, and the possibilities of phonotactic combinations using modern linguistic methods.

The article extensively compares the vocalism and consonantism systems of both languages. The quantitative and qualitative characteristics of the 20 vowel phonemes in English (monophthongs and diphthongs), including the degree of tension of vowels (tense and lax vowels), are analyzed in comparison with the stable vocal system of the Azerbaijani language, which consists of 9 vowels and is based on the law of harmony. In the consonant system, functional differences between alveolar and interdental consonants, which are particularly characteristic of English, and dental consonants in the Azerbaijani language are investigated.

An important part of the study constitutes a comparative analysis of prosodic features–stress, rhythm, and intonation. The role of the dynamic and free stress system in English in word formation and semantic differentiation is contrasted with the fixed stress system in Azerbaijani, and the phonetic differences created by these features in the speech process are scientifically substantiated. At the same time, the structural characteristics of vowel reduction and consonant clusters, which are widespread in English, are studied within the framework of the phonotactic constraints of the Azerbaijani language.

The results of the article allow for the identification of the internal patterns of the phonetic systems of both languages and prove that comparative research conducted in this field, along with theoretical linguistics, holds great practical significance for translation studies and foreign language teaching methodology.

Key words: prosody, phoneme inventory, articulatory setting, vowel reduction, phonetic interference.

DOI: 10.24412/2218-7588-2026-2-33-35

Günay Nüsrət qızı Hacızadə
Azərbaycan Universiteti
BDU-nun doktorantı
hadjizade93@gmail.com
https://orcid.org/0009-0001-9472-3570

KONTRASTİV DİLÇİLİKDƏ HİSS-QAVRAYIŞ BİLDİRƏN FEİLLƏR

XÜLASƏ: Qavrayış feilləri insanın ətraf mühiti duyğu orqanları vasitəsilə necə qavradığını ifadə edən dil vahidləridir. Bu feillər əsasən görmə, eşitmə, qoxlama, dadma və toxunma kimi hissi təcrübələrlə bağlıdır və insanların real təcrübələrini dil vasitəsilə ifadə etməsinə imkan yaradır. Məqalədə qavrayış feillərinin koqnitiv dilçilikdə rolu, onların semantik xüsusiyyətləri və müxtəlif sintaktik quruluşlarda işlənməsi təhlil olunur. Həmçinin Azərbaycan və ingilis dillərində qavrayış feillərinin istifadəsi nümunələr əsasında izah edilir.

Açar sözlər: qavrayış feilləri, semantika, sintaksis, koqnitiv dilçilik, duyğu qavrayışı

GİRİŞ: İnsan idrakının formalaşmasında qavrayış mühüm rol oynayır. Dil vasitəsilə ifadə olunan qavrayış prosesləri yalnız xarici aləmdən alınan informasiyanın ötürülməsini deyil, həm də həmin informasiyanın insan şüurunda emal olunmasını əks etdirir. Bu baxımdan qavrayış feilləri dil və təfəkkür arasındakı əlaqənin araşdırılması üçün əhəmiyyətli material hesab olunur.

Tədqiqat: Feil hərəkət, proses və vəziyyət bildirən əsas nitq hissələrindən biridir. Onun semantik strukturu insan fəaliyyətinin müxtəlif aspektlərini əks etdirdiyi üçün dilçilikdə xüsusi tədqiqat obyekti hesab olunur [2]. Qavrayış feillərin semantikası, bu fellərin ətraf mühitdəki müxtəlif duyğusal və fiziki təcrübələri necə ifadə etdiyini araşdırır. Bu semantika, feillərin insanların dünyanı necə qavradığını və dil vasitəsilə bu qavrayışları necə təsvir etdiyini açıqlayır. Qavrayış feillərin semantikası həm də bu fellərin necə istifadə edildiyini, necə təsvir edildiyini və hansı məna qatlarına sahib olduğunu araşdırır [9].

ƏSAS HİSSƏ: Həm ingilis, həm də Azərbaycan dilçiliyində feillərin leksik-semantik qrupları, eyni zamanda feillərin ayrı-ayrı qrammatik xüsusiyyətləri haqqında xeyli sayda tədqiqatlar aparılmışdır. Linqvistikada mövcud olan belə bir fikrə görə, «Semantika qohum və qohum olmayan dilləri tipoloji-müqayisə yolu ilə tədqiq etməkdə mühüm rol oynaya bilər. Feillərin semantik baxımdan tədqiqi isə dilçiliyin bir çox mühüm problemlərinin həll olunmasına işıq sala bilər» [1].

Semantik baxımdan qavrayış feilləri yalnız hissi qavrama aktını deyil, həm də bu qavramanın nəticəsində yaranan idrak proseslərini ifadə edə bilir. Məsələn, "görmək" feili yalnız vizual qavramanı deyil, bəzən "anlamaq" mənasında da işlədilə bilər. Bu hal dilin semantik genişlənməsi və metaforik istifadəsi ilə bağlıdır. Azərbaycan dilində qavrayış feilləri adətən aşağıdakı hissi qruplar üzrə təsnif edilir: **görmə** ilə bağlı (görmək, baxmaq, seyr etmək, müşahidə etmək), **eşitmə** ilə bağlı (eşitmək, dinləmək, qulaq asmaq), **qoxu** ilə bağlı (qoxlamaq, iyləmək), **dad** ilə bağlı feillər: (dadmaq, dadına baxmaq) [8] Bu feillər insanın həm fiziki, həm də emosional vəziyyətini ifadə edə bilir. Azərbaycan dilində görmə ilə bağlı qavrayış feilləri müxtəlif semantik xüsusiyyətlər nümayiş etdirir. "Görmək" feili adətən qeyri-iradi vizual qavrayışı ifadə etdiyi halda, "baxmaq" feili məqsədli və yönəldilmiş diqqəti bildirir. "Müşahidə etmək" və "seyr etmək" feillərində isə qavrama prosesinin davamlılıq və diqqətlilik komponentləri daha qabarıq şəkildə özünü göstərir.Məsələn, "Mən parkda uşaqları görürəm."və yaxud "O, ekrana diqqətlə baxır."

Eşitmə ilə bağlı qavrayış feilləri insanın səs vasitəsilə məlumat əldə etməsini ifadə edir. Bu qrup daxilində "eşitmək" feili səsin passiv qavranılmasını bildirirsə, "dinləmək" və "qulaq asmaq" feilləri məqsədli şəkildə informasiyanın qəbul edilməsini əks etdirir. Beləliklə, bu feillər arasında fərq qavrayış prosesində iştirak edən diqqət dərəcəsi ilə müəyyən olunur. Məsələn, "O, musiqini dinləyir." və yaxud "Mən sənin dediklərinə qulaq asıram."

Hiss etmə feilləri digər qavrayış feillərindən fərqli olaraq həm fiziki, həm də emosional vəziyyətlərin ifadəsində iştirak edir. Bu xüsusiyyət onların semantik imkanlarını genişləndirir və müxtəlif kontekstlərdə işlənməsinə şərait yaradır. Məsələn, "Mən soyuğu hiss edirəm." və s.

İngilis və Azərbaycan dillərində qavrayış feillərinin müqayisəli təhlili göstərir ki, hər iki dildə bu feillər oxşar semantik funksiyalara malikdir. Lakin bəzi hallarda onların istifadəsi və sintaktik quruluşu fərqlənə bilər. Məsələn, ingilis dilində "see" və "look" feilləri arasında semantik fərq mövcuddur. "See" feili daha çox qeyri-iradi vizual qavramanı ifadə edir, "look" isə məqsədli şəkildə baxmaq mənasını bildirir. Azərbaycan dilində bu fərq əsasən "görmək" və "baxmaq" feilləri ilə ifadə olunur [6].

İngilis dilindəki qavrayış feilləri: see, look, watch, observe, hear, listen, smell, taste, feel və s.-dir. Bundan əlavə, ingilis dilində qavrayış feilləri tez-tez müxtəlif sintaktik modellərlə işlədilə bilir. Məsələn, "I saw him run" kimi konstruksiyalarda fel həm qavrayış aktını, həm də müşahidə olunan hərəkəti ifadə edir.

Azərbaycan dilində isə bu məna daha çox əlavə sözlər və ya budaq cümlələr vasitəsilə ifadə edilir. Aparılmış müqayisə göstərir ki, ingilis dilində qavrayış feilləri sintaktik baxımdan daha çevikdir. Xüsusilə "see", "hear" və "feel" feilləri kompleks obyekt konstruksiyalarında geniş istifadə olunur. Azərbaycan dilində isə eyni məna əsasən budaq cümlələr və analitik vasitələrlə ifadə edilir. Bu fərq hər iki dilin tipoloji xüsusiyyətləri ilə əlaqədardır.

Qavrama felləri mühüm funksiyaya malikdir, çünki bu fellər birbaşa real təcrübə ilə bağlıdır. Gisborne deyir ki "Mən iddia edirəm ki, qavrayış felləri məhz ona görə xüsusidir ki, onlar bilavasitə təcəssüm olunur və eksperimentaldırlar. "Axı biz yalnız qavrayış vasitəsilə hərəkət və səbəbiyyətdən xəbərdar oluruq, ona görə də bu mənada qavrayış daha əsasdır". Koqnitiv linqvistik təcəssüm prinsipi ilə perseptiv felləri qiymətləndirir.[5; s:181-182]

Evans və Green isə prinsip fiziki təcrübədə təcəssüm etdirildiyini vurğulayadığını qeyd edirlər. Fiziki təcrübə daha sonra anlayışlar şəklində idrak tərəfindən tutulur. Yəni, bilik bədən orqanlarının təcrübəsindən əldə edilir, məsələn, dad orqanlarımız: dəri və dil. Bu orqanlar qıcıqlara qarşı həssas olduğu üçün bu orqanlardan çoxlu təcrübə qazanılır. Dad hissi ilə əldə edilən təcrübə daha sonra yaddaşda bir sıra anlayışlarda saxlanılır. [4] Qavrayış feilləri müxtəlif sintaktik strukturlar qəbul edə bilər, o cümlədən birbaşa obyektlər, infiniti cümlələr və gerundiv quruluşlar, və bəzən dilə və ya qavrayışın növünə görə müəyyən söz sırası nümunələri göstərə bilər. Qavrayış feillərinin sintaktik xüsusiyyətləri onların müxtəlif cümlə quruluşlarında işlənməsi ilə bağlıdır. İngilis dilində qavrayış feilləri bir neçə sintaktik modeldə istifadə edilə bilər:

1. Verb + object -----I saw the car.
2. Verb + object + infinitive------ I saw him run.
3. Verb + gerund ---------I saw him running. [6]

Bu modellər qavrayış prosesinin müxtəlif aspektlərini ifadə edir. Birinci model sadə qavrayış faktını göstərir, ikinci model isə müşahidə olunan hərəkətin tamamlanmış və ya konkret bir hadisə olduğunu bildirə bilər. Gerund formasının istifadəsi isə davam edən hərəkəti ifadə etməyə imkan verir.

Azərbaycan dilində isə qavrayış feilləri daha çox sadə fel + obyekt konstruksiyasında işlədilir. Lakin bəzi hallarda budaq cümlələr və ya əlavə fel formaları vasitəsilə daha mürəkkəb sintaktik strukturlar yaradıla bilər. Qavrayış feilləri yalnız sadə hissi məlumatı ifadə etmir, eyni zamanda kontekstdən asılı olaraq müxtəlif semantik çalarlar qazana bilir. Məsələn, Azərbaycan dilində "görmək" feili bəzi hallarda fiziki qavramanı deyil, anlayış və dərk etmə prosesini də ifadə edir. "Mən sənin nə etmək istədiyini gördüm" cümləsində fel faktiki vizual qavrayışı deyil, məzmunun başa düşülməsini bildirir. Bu cür semantik genişlənmə dilin inkişafi və metaforik düşüncə ilə sıx əlaqədardır. Eyni xüsusiyyət ingilis dilində də müşahidə olunur. "**I see you**" ifadəsində "see" feili görmə mənasında deyil, "anlamaq" mənasında işlədilir. Bu hal qavrayış feillərinin yalnız fiziki hisslərlə məhdudlaşmadığını, həm də idrak proseslərinin dil vasitəsilə ifadəsində mühüm rol oynadığını göstərir.

Bundan başqa, qavrayış feilləri mətn daxilində üslubi funksiyaya da malik ola bilər. Bədii və publisistik mətnlərdə bu feillər hadisələrin daha canlı təsvir edilməsinə kömək edir. Məsələn, müəllif hadisəni təsvir edərkən "eşitdi", "gördü", "hiss etdi" kimi feillərdən istifadə etməklə oxucunu hadisənin birbaşa iştirakçısı kimi təqdim edə bilir. Bu xüsusiyyət qavrayış feillərinin diskurs səviyyəsində də mühüm rol oynadığını göstərir.

NƏTİCƏ: Həm ingilis, həm də Azərbaycan dillərində qavrayış feilləri semantik və sintaktik baxımdan oxşar xüsusiyyətlərə malik olsa da, onların istifadəsində müəyyən struktur fərqləri mövcuddur. Bu fərqlər dillərin qrammatik quruluşu və semantik inkişaf xüsusiyyətləri ilə bağlıdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, qavrayış feilləri yalnız hissi qavramanı ifadə edən leksik vahidlər deyil, həm də insanın idrak fəaliyyəti ilə sıx bağlı olan konseptual strukturlardır. Müqayisəli təhlil göstərir ki, Azərbaycan və ingilis dillərində bu feillərin semantik bazası oxşar olsa da, onların sintaktik işlənməsində müəyyən fərqlər mövcuddur. Bu fərqlərin öyrənilməsi kontrastiv dilçilik və koqnitiv semantika baxımından mühüm əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayev Ə., SeyidovY., HəsənovA. MüasirAzərbaycandili. Sintaksis. IV hissə. Bakı, Maarif, 1985, 468 s.
2. Allahverdiyeva Aytən. "İngilis və azərbaycan dillərində üfüqi hərəkət feilləri."
3. Azərbaycan dilinin qrammatikası. I hissə (Morfologiya). Bakı, Azərb. SSR EA nəşri, 1960, 321 s.
4. Evans V., Green M. Cognitive Linguistics: An Introduction. Edinburgh: Edinburgh University Press, 2006. – s. 44–48.
5. Gisborne, N. "The Event Structure of Perception Verbs". Oxford: Oxford University Press. 2010
6. Huddleston, R., & Pullum, G. K. "The Cambridge Grammar of the English Language. "Cambridge: Cambridge University Press. 2002. 1842 p.
7. Xəlilov B. "Azərbaycan dilində feil. 2018. Bakı
8. Xəlilov B. Feillerin ilkin kokleri. Baki.1998
9. Kazımov İ. "Feillik fenomeni Nasir Mənzurinin kitabı haqqında. Ədəbiyyat qəzeti 2024.- 17 fevral, №6.
10. Баскаков Н.А. Историко-типологическая морфология тюркских языков. М., Наука, 1979, с.13.

Гюнай Нусрат гызы Гаджизаде
Азербайджанский Университет
Докторант БГУ
hadjizade93@gmail.com
https://orcid.org/0009-0001-9472-3570

Глаголы чувственного восприятия в контрастивной лингвистике

Резюме

Глаголы восприятия представляют собой языковые единицы, выражающие то, как человек воспринимает окружающую среду через органы чувств. Эти глаголы в основном связаны с такими чувственными опытами, как зрение, слух, обоняние, вкус и осязание, позволяя людям выражать реальный опыт посредством языка. В статье анализируются роль глаголов восприятия в когнитивной лингвистике, их семантические свойства и функционирование в различных синтаксических структурах. Также на основе примеров объясняется использование глаголов восприятия в азербайджанском и английском языках.

Ключевые слова:глаголы восприятия, семантика, синтаксис, когнитивная лингвистика, чувственное восприятие

Gunay Nusrat gizi Hadjizada
Azerbaijan University
PhD student at BSU
hadjizade93@gmail.com

https://orcid.org/0009-0001-9472-3570

Perception verbs in contrastive linguistics

Summary

Perception verbs are linguistic units that express how humans perceive the environment through their sensory organs. These verbs are primarily associated with sensory experiences such as sight, hearing, smell, taste, and touch, enabling people to express real-world experiences through language. The article analyzes the role of perception verbs in cognitive linguistics, their semantic properties, and their usage in various syntactic structures. Furthermore, the application of perception verbs in Azerbaijani and English is explained through illustrative examples.

Keywords: perception verbs, semantics, syntax, cognitive linguistics, sensory perception

Rəyçi: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-36-37

Nuriye Asker qızı Rzayeva
Azerbaijan Technical University, Department of "Foreign Languages"
Doctor of Philosophy in Philology, Associate Professor
E-mail: rzayeva 71.nuriya@gmail.com
ORCID: 0009-0008-0797-7523

GENERAL CHARACTERISTICS OF THE ENGLISH LANGUAGE IN DIFFERENT PARTS OF THE ENGLISH-SPEAKING WORLD

(Dünyanıncingilis dilli müxtəlif hissələrində ingilis dilinin səciyyəvi xüsusiyyətləri)

SUMMARY: English is the national language of England proper, the USA, Australia and some provinces of Canada. It was also at different times imposed on the inhabitants of the former and present British colonies and protectorates as well as other Britain- and US-dominated territories, where the population has always stuck to its own mother tongue. It is natural that the English language is not used with uniformity in the British Isles and in Australia, in the USA and -in New Zealand, in Canada and in India, etc. The English language also has some peculiarities in Wales, Scotland, in other parts of the British Isles and America. Is the nature of these varieties the same?

Key words: language, dialect, communication, English, grammar, vocabulary.

INTRODUCTION. Modern linguistics distinguishes territorial variants of a national language and local dialects. Variants of a language are regional varieties of a standard literary language characterized by some minor peculiarities in the sound system, vocabulary and by their own literary norms. Dialects are varieties of a language used as a means of oral communication in small localities, they are set off (more or less sharply) from other varieties by some distinctive features of pronunciation, grammar and vocabulary. It is not difficult to establish that the varieties spoken in small areas are local dialects. The status of the other varieties is more difficult to establish.

It is over half a century already that the nature of the two main variantsof the English language, British and American (Br and AE) has been discussed. Some American linguists, H. L. Mencken for one, spoke of two separate languages with a steady flood of linguistic influence first (up to about 1914) from Britain to America, and since then from America to the British Isles. They even proclaim that the American influence on British English is so powerful that there will come a time when the American standard will be established in Britain. Other linguists regard the language of the USA as a dialect of English [1, p. 114].

Still more questionable is the position of Australian English (AuE) and Canadian English (CnE). The differences between the English language as spoken in Britain, the USA, Australia and Canada are immediately noticeable in the field of phonetics. However, these distinctions are confined to the articulatoracoustics characteristics of some phonemes, to some differences in the use of others and to the differences in the rhythm and intonation of speech. The few phonemes characteristic of American pronunciation and alien to British
literary norms can as a rule be observed in British dialects. The variations in vocabulary, to be considered below, are not very numerous.

Most of themare divergences in the semantic structure of words and in their usage. divergences in the semantic structure of words and in their usage.The dissimilarities in grammar like AE gotten, proven for BE got,proved are scarce. For the most part these dissimilarities consist in thepreference of this or that grammatical category or form to some others[2, p. 69].

Recent investigations have also shown that the PresentContinuous form in the meaning of Future is used twice as frequently in BEas in the American, Canadian and Australian variants; infinitive constructions are used more rarely in AE than in BE and AuE and passive constructions are, on the contrary, more frequent in America than in Britain and inAustralia**.**

XÜLASƏ: Bu məqalə aşağı/yuxarı və saga və sola istiqamətli paralingvistik vasitələrin semantik diversifikasiyası potensialını araşdırır.Alınan nəticə onu deməyə əsas verir ki, bədən dili ilə bağlı istiqamət və məkan oriyentasiya elementlərinin diferensiallaşdırılması əlaqəli frazeoloji vahidlərin semantic oriyentasiyasını (müsbət və mənfi) müəyyən edir. Araşdırma onu göstərir ki, yuxarı istiqamət müsbət bədən dili hərəkəti ilə, aşağı istiqamət isə mənfi olanlarla simvollaşdırılır. Semantik kodlaşmanın oxşar təbiəti onu göstərir ki, sağ tərəf müsbət məna, sol tərəf mənfi məna ilə yüklənir.

Açar sözlər: paralinqvistika, frazeologiya, istiqamət faktoru, universallıq.

GİRİŞ: Paralinqvistik mahiyyətli frazeoloji vahidlər arasında sosial iyerarxiyanın ritual jest və mimikalarla ifadəsinə istinad edən frazeologizmlər xüsusilə maraq doğurur. Belə ki, onların tarixi köklərinin, təbiətlərinin, yəni psixo-emosional şərtləndirməsinin təhlili burada bir çox universal məqamların olduğunu təsbit etməyə əsas verir. Belə ki, insan övladı öz xisləti etibarı ilə, tarix yaranandan etibarən, digər fərd və ya fərdlər üzərində güc göstərişinə meyllilik nümayiş etdirmişdi. Bu zaman istiqamət-lokasiya mahiyyətli fərqliliklər özünü aydın şəkildə biruzə vermişdi.

ƏSAS HİSSƏ: Frazeoloji vahidlərdə aşağı/yuxarı oppozisiyasını (müxalifliyini) araşdırmış N.Saburovanın da vurğuladığı kimi, yuxarı istiqamətli hərəkəti səciyyələndirən, yəni məcazlaşmanın semantik özülündə yuxarıya istiqamətlənmiş hərəkət dayanan ifadələr əksər hallarda yaxşı, məhsuldar, rifah dolu, gəlirli, üstün, xeyirli və s. analmlarla assosiasiya doğurur (yuxarı qalxmaq, zirvəyə yüksəklmək, özünü yuxarıdan aparmaq və s. bu kimi anlamlarda olduğu kimi). Bunun tam əksinə: aşağı doğru istiqamətlənmiş hərəkətin məcazlaşmasına əsaslanan frazeologizmlər isə əksər hallarda pis, ziyanlı, ölümcül, uğursuz, mənfi və s. assosiasiuyalar əsasında məna şaxələnmələrinə yol açır (dibə düşmək/şökmək, aşağı enmək/yuvarmanmaq), ayaqlar altına düşmək, dizüstə çökmək, göylərdən yerə enmək və s. bu kimi anlamlarda olduğu kimi) [18].

Analoji ifadələrin təkcə Azərbaycan dilində deyil, müasir türk dilində də yüksək işlənmə tezliyi nümayiş etdirməsi onların ayrıca tədqiqat obyekti kimi seçilməsini labüd edir. Məsələn, ayaklar altına düşmek, diz çökmek, gökten yere inmek və s.

"*Veba yüzyılının büyük genç kralına elçi gidecek yaşa gelmişim, önünde* ***diz çöküp ayaklarına kapansam*** *şefkat uyanırmış içinde*" [15, s. 65].

Maraqlıdır ki, hətta psixosomatik mahiyyətli frazeoloji vahidlərdə də istiqamət faktoru həlledici semantik komponent kimi çıxış edir. Məsələn, *inme inmek, yüregine inmek, uyku inmek, içi dibe inmek* və s. [15 , s. 172, 345]..

Bunun əksinə olaraq, yuxarı istiqamətli bədən dili hərəkətləri müsbət səciyyəli hərəkətlərin simvollaşdırılmasına yol açır. Məsələn: "*Diz üstündən qalxdı yurd da sayəsində Şəhidlərin*" [3 , s. 67]; "*Bir gün diz üstündən qalxar bu Vətən*" [7, s. 67]. Verilmiş kontekstlərdən də aydın olduğu kimi, *dizüstündən qalxmaq* frazeoloji vahidi dirçəlmək, ucalmaq anlamını ifadə edir. Özü də bu dirçəliş əvvəlki tənəzzül, məğlubiyyət mərhələsindən sonra təkrarən inkişafa köklənməklə səciyyələnir. Bu kontekstdə diz somatizmi çöküşü simvolizə etdiyi halda, qalxmaqla bağlı bədən dili hərəkəti inkişafı, dirçəlişi, tərəqqini simvollaşdırır.

"*Millət, xalq olaraq,* ***diz üstündən qalxa bildik****, qürurumuzu bərpa etdik, ordumuzu məğlub ordudan qalib ordıya çevirdik*" [8 , s. 64].

Ümumən, istər bu kimi faktlar, istərsə də bənzər dil vahidləri bir universal dil gerçəkliyini təsdiqləmiş olur. Belə ki, universal olaraq, demək olar ki, bütün məlum inkişaf etmiş dünya dillərində yuxarı doğru hərəkət müsbət qiymətləndirilir, aşağı doğru hərəkət mənfi anlamda məcazlaşma potensialı nümyiş etdirir; eləcə də sağa istiqamətlənmiş hərəkət və ya ümumiyyətlə, sağ tərəflə bağlı anlayış, hərəkət, funksiya, əlamət və göstəricilər müsbət qiymətləndirlir; sol tərəf isə mənfi anlamda məcazlaşır. Məsələn, ingilis dilində (Get/start off on the right foot) günə sağ ayaqla durmaq, sağ ayaqla başlamaq anlamlı ifadələr birmənalı şəkildə pozitiv başlanğıca işarə edir [4, s. 67]. Y.Teliya analoji faktların rus dilində də mövcudluğuna diqqət çəkməklə yanaşı (məsələn: "Встать с левой ноги", hərfi tərcümədə: "*sol ayaqla durmaq, oyanmaq*", yəni, məcazi anlamda: günə mənfi başlanğıcla qədəm qoymaq), onu da vurğulayır ki, bu məqam dünyanın mifoloji dil mənzərəsi universallığı ilə şərtlənir [17 , s. 67].

Bu öngörüşlər hətta o səviyyədə təzahür tapmışdır ki, sağ tərəfin qoruyucu mələklərin təsiri altında olduğu, sol tərəfin isə şeytanın bədxahlığı ilə idarə edildiyi iddia edilirdi. Bunun nəticəsində də dünya dillərində analoji frazeoloji vahidlər formalaşırdı [16, s. 406].

"***Sağ ayakla başlayalım*** *çünkü ilk maç daha önemli*" [6, s. 67].

"Sağ əli başına" ifadəsi frazeorefleks mahiyyətli frazeoloji vahid olmaqla kiməsə müsbət tövsiyyə, arzu dilə gətirmək, alqış etmək mahiyyətini kəsb edir. Frazeologimzin, məhz, frazeorefleks olması isə onun kommunikasiya situasiyasında hər hansı bir müsbət xəbərin eşidilməsinin qarşılığında dilə gətirilən arzunun verbal ifadəsi ilə şərtlənir. "*Gürcülərin uğuru ölkəmizdə diskussiyaya yol açıb. ...*"***sağ əli bizim başımıza!***" [9, s. 67]; "*Türkiyə əlac tapdı, qumar*

*yığışdırılır: "**sağ əli bizim başımıza**"* [13, s. 67].

S.Sandalçı antik dönəmdə sağ və sol anlayışların metaforikləşmə potensialını dəyərləndirdiyi tədqiqatında qeyd edir ki, sağ əllə bağlı pozitiv məna şaxələnməsi tarixin ən erkən çağlarından məlumdur. Tədqiqatçı Mesopatamiya mədəniyyətində, Anadolu Hitit mədəniyyət çağında, habelə antik yunan mədəniyyəti dövründə bu kimi məcazlaşmaların geniş şəkildə istifadə edildiyinə diqqət çəkir [11 , s. 465-472].

Azərbaycan dilinin frazeoloji lüğətində bu frazeologizminin kiməsə xoş arzu dilə gətirərəkən, hər hansı bir analogiyadan, yəni müəyyən bənzərlikdən, presedentlikdən (nümunədən) çıxış edilməsinə istinad etdiyi qeyd olunur [10, s. 67]. Yəni hər hansı bir baş vermiş müsbət hadisə (toy, nişan, vəzifə yüksəlişi, övladın dünyaya gəlməsi və s.) həmin nümunəyə - presedentə əsasən, Azərbaycan linqvokulturoloji mühiti üçün xarakterik olan nitq davranışını sanksiyalaşdırır, yəni təhrik edir.Bu zaman frazeorefleks nitq praqmatikasına uyğun şəkildə perlokutiv effektini gözləyir, ona təhrik edir.

"*Ay qız! Ay Pərican! Ona bax, ona!*

Sağ əli başıma!" (S.Vurğun) [14, s. 136].

Xatırladaq ki, kommunikativ akt çərçivəsində lokusiya – nitqin verbal ifadə tapmış, tələffüz edilən, yazılan formatı kimi çıxış edir. İllokusiya ehtimal edilən əsl məna kimi nəzərdə tutulur. Perlokusiya isə bunlar sayəsində ortaya çıxan praqmatik effekt kimi ortaya çıxır [2, s. 56-87].

C.Ağamalıyevanın da vurğuladığı kimi, illokusiya nitq aktının intensiyasını, yəni əsas məramını, məqsədini ifadə etdiyi halda, perlokusiya həmin nitq aktı sayəsində gözlənilən reaksiya, davranış, kommunikativ reaksiya, cavab kimi nəzərdə tutulur [1, s. 26-27]. Konkret olaraq, sağ əli başıma, sağ əlini başına qoy kimi frazeorefleklərdə perlokusiya görünən, eşidilən, verbal ifadə tərəfidir. İllokusiya nəzərdə tutulan anlamdır. Bu kontekstdə həmin anlam xoş hadisənin kommunikasiay iştirakçısının özünə, qarşı tərəfə və ya üçüncü tərəfə arzulamasıdır, bir növ alqış məramlı reflektiv kommunikasiya reaksiyasıdır. Perlokusiya isə bu ifadənin dilə gətirilməsindən sonra (kontekst imkan verdiyi halda, yəni arzunun ünvanlandığı adresat həmin konsituasiyada yer aldığı halda) sağ əlin başına qoyulmasıdır. Bu mənada tam məqsədəmüvafiqdir ki, bir çox hallarda Azərbaycan linqvokulturoloji mühitində bu frazeorefleksin dilə gətirilməsi müvafiq bədən dili vahidinin icrası ilə müşayət edilir. Yəni, danışan şəxs sağ əlini arzunu ünvanlandırığı şəxsin başına qoyur.

"*Sağ əlini başıma çək, şəhidim*" [12, s. 67]; "*Sağ əlini başıma qoy, .. ailə qururam*" [5, s. 67]. Nümunələrdə açıq şəkildə dilə gətirilməsə də, semantik kodlarla ifadə tapan mənaya görə, nitq aktını icra edən şəxslər özlərinə müvafiq arzusunu implisit şəkildə (sətrialtı məna ilə, gizli semantik kodlarla) idlə gətirirlər. Birinci halda şairə özünə Şəhidlik zirvəsinə ucalmağı arzu edir, ikinci iqtibasda isə xanım ailə qurmaq arzusunu özünə ünvanlayır. Xatırladaq ki, U.Ekonun vurğuladığı kimi, semantik kodlaşma dedikdə konkret məlumatların (məcazlaşmış formatda, dolayı şəkildə - N.R.) müəyyən sistem çərçivəsində ötürülməsini təmin edən və müvafiq daxili nizamlanma qaydasına tabe olan xüsusi modelləşdirmə strukturu nəzərdə tutulur [19, s. 67].

NƏTİCƏ: Təqdim olunan faktlar onu deməyə əsas verir ki, bədən dili ilə bağlı olan ünsürlərin istiqamət fərqləndirməsi onlarla bağlı olan frazeoloji vahidlərin məna yönümünü (müsbət və ya mənfi anlamda yüksənməsini) şərtləndirir. Bu zaman ortaya çıxan faktlar yuxarı istiqamətin müsbət, aşağı istiqamətli bədən dili hərəkətinin mənfi analmda simvollaşdırıldığını ortaya qoyur. Eyni xarakterli semantik kodlaşma sağ tərəfin müsbət, sol tərəfin isə mənfi anlamla yükləndiyini deməyə əsas verir. Bu istiqamətdə aparılmış araşdırmaların icmalı isə onu deməyə imkan verir ki, hər iki istiqamətin semantik kodlaşma potensialı semantik universallığı təzahür etdirir və müasir türk və Azərbaycan dillərindən başqa, bir çox dünya dillərində müşahidə edilir.

İstifadə edilmiş ədəbiyyat

1. Ağamalıyeva, C. İngilis və Azərbaycan dillərində ellipsislərin praqmatik xüsusiyyətləri, Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2025, 36 s.
2. Əbdülrəhimov, E.H. Linqvistik praqmatika / E.H.Əbdülrəhimov. – Bakı: Elm və təhsil, – 2014. – 210 s., səh: 56-87.
3. Əsədoğlu, Ə. Dərd olmasaydı... // İlk xəbər, 4 yanvar, 2024 https://ilkxeber.org/news.php?id=55601
4. Get/start off on the right foot // Merriam-Webster.com Dictionary, 4 Aug. 2025. https://www.merriam-webster.com/dictionary/get%2Fstart%20off%20on%20the%20right%20foot
5. Günəldən aparıcının "Nə vaxt ailə qurursan" sualına CAVAB // Axşam. az. 4 aprel, 2025 https://axsam.az/news/182171-gunelden-aparicinin-ne-vaxt-aile-qurursan-sualina-cavab
6. Hysaj: Yeni gelenler doğru bir başlangıç yapmamıza yardımcı olacak https://koha.mk/tr/hysaj-prurjet-e-reja-do-na-ndihmojne-ta-fillojne-me-kemben-e-mbare/
7. Mərzili, S. Yeni şeirlər // Şəhriyar, 6 oktyabr, 2012 https://shahriyar.ru/az/content/sultan-m%C9%99rzili-yeni-seirler
8. Sadıqova, İ. Ermənistan-Azərbaycan münaqişəsi fonunda ailə-nikah münasibətləri // Mədəniyyət: problemlər və perspektivlər "Qarabağ Azərbaycandır!". Doktorant və gənc tədqiqatçıların XII Beynəlxalq elmi konfransının materialları, Bakı, 2021, s. 61-65
9. Sağ əli bizim başımıza- deyək, yoxsa "o əjdahadan bizdə niyə yoxdu"? // FutBol+, 1 aprel, 2024. https://www.football-plus.az/56223-sag-eli-bizim-basimiza-deyek-yoxsa-o-ejdahadan-bizde-niye-yoxdu.html
10. Sağ əlim başına // Azərbaycan dilinin frazeologiya lügəti https://www.azleks.az/online-dictionary/sa%C4%9F+%C9%99lim+ba%C5%9F%C4%B1na/?s=3
11. Sandalçı, S. Eski Yunan-Roma Yazımında Göç ve Göçmen: Günümüzle Bir Karşılaştırma // Uluslararası Göç ve Kültür Sempozyumu, 2-4 Aralık 2016, Amasya Üniversitesi, s. 465-475.
12. Tünzalə. Şəhidim. https://www.musixmatch.com/fr/paroles/Tunzale/%C5%9E%C9%99hidim-Az%C9%99rbaycanca-Nitq-il%C9%99
13. Türkiyə əlac tapdı, qumar yığışdırılır: Qardaşımızın "sağ əli bizim başımıza" // Şərq, 26 sentyabr, 2014. https://sherg.az/arxiv/5982
14. Vurğun, S. Secilmiş əsərləri. Beş cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2005, 424 s.
15. Yeşiltaş, K. Latife Tekin'in romanlarında kalıplaşmış ifadelerin incelenmesi, Afyonkarahisar 2025. https://acikerisim.aku.edu.tr/xmlui/bitstream/handle/11630/12909/10509471.pdf?sequence=1&isAllowed=y
16. Бирих, А.К., Мокиенко, В.М., Степанова, Л.И. Словарь русской фразеологии. Историко-этимологический справочник. – СПб., 2001 – 928 с.

17. Встать с левой ноги // Большой фразеологический словарь русского языка. – М.: АСТ-Пресс. Е.Н. Телия. 2006. https://phrase_dictionary.academic.ru/433/%D0%92%D0%A1%D0%A2%D0%90%D0%A2%D0%AC_%D0%A1_%D0%9B%D0%95%D0%92%D0%9E%D0%99_%D0%9D%D0%9E%D0%93%D0%98
18. Сабурова, Н.А. Семиотическая оппозиция «Верх / низ» в образном основании русских фразеологизмов https://cyberleninka.ru/article/n/semioticheskaya-oppozitsiya-verh-niz-v-obraznom-osnovanii-russkih-frazeologizmov
19. Эко, У. Отсутствующая структура. Введение в семиологию / У. Эко / перевод: А.Г. Погоняйло и В.Г. Резник, редактор: М.Г. Ермакова – СПб.: Петрополис, –1998. – 432 с.

Наргиз Руфат гизи Рустамова
Азербайджанский государственный педагогический университет
Кафедра азербайджанского языка и технологий его преподавания
nergiz.rustemova87@gmail.com
https://orcid.org/0000-0002-6715-4798

О возможностях семантической диверсификации паралингвистических средств с направлениями вниз/вверх, вправо/влево

Резюме

В статье исследуются возможности семантической диверсификации паралингвистических средств с направлениями вниз/вверх, вправо/влево. Представленные факты дают основание утверждать, что дифференциации элементов направленния, ориентации в пространстве, связанных с языком тела, определяет смысловую ориентацию (положительную или отрицательную) связанных с ними фразеологических единиц. Факты, выявляемые при этом, показывают, что восходящее направление символизируется в позитивном, а нисходящее – в негативном движении языка тела. Аналогичная природа семантического кодирования дает основание утверждать, что правая сторона нагружена положительным смыслом, а левая – отрицательным. Обзор исследований, проведенных в этом направлении, позволяет утверждать, что семантический кодирующий потенциал обоих направлений проявляет семантическую универсальность и наблюдается во многих языках мира, помимо современных турецкого и азербайджанского языков.

Ключевые слова: паралингвистика, фразеология, фактор направленности, универсальность.

Nargiz Rufat gizi Rustamova
Azerbaijan State Pedagogical University
Department of Azerbaijani Language and Its Teaching Technology
nergiz.rustemova87@gmail.com
https://orcid.org/0000-0002-6715-4798

On the Possibilities of Semantic Diversification of Paralinguistic Means with Down/Up, Right/Left Directions

Summary

The article examines the possibilities of semantic diversification of paralinguistic means with down/up, right/left directions. The presented facts give grounds to assert that differentiation of elements of direction, orientation in space, associated with body language, determines the semantic orientation (positive or negative) of phraseological units associated with them. The facts revealed in this case show that the ascending direction is symbolized in positive, and the descending direction - in negative body language movement. The similar nature of semantic coding gives grounds to assert that the right side is loaded with positive meaning, and the left - with negative. A review of studies conducted in this direction allows us to assert that the semantic coding potential of both directions exhibits semantic universality and is observed in many languages of the world, in addition to modern Turkish and Azerbaijani languages.

Key words: paralinguistics, phraseology, directionality factor, universality.

Rəyçi: dos. S.Abbasova

DOI: 10.24412/2218-7588-2026-2-59-62

İradə İsrafilqızı Kərimova
Filologiya üzrə fəlsəfə doktoru
BDU-nun "Azərbaycandilinintətbiqiməsələləri" ETL-inböyükelmiişçi
kerimovairada920@gmail.com
ORCİD İD: 0009-0002-4023-9027

TÜRK DİLLƏRİNİN QRAMMATİK QURULUŞUNDA ƏVƏZLİKLƏRİN YERİ

XÜLASƏ: Türk dillərinin əvəzlikləri və onların məna növlərinin tədqiq olunması müasir dövrümüzün aktual və vacib məsələlərindən biridir. Bu mövzu müasir dövrümüzdə öz aktuallığını itirməyib və hələ də türk dillərinin morfologiyası və qrammatikasına həsr olunmuş bir çox tədqiqatlar üçün dəstəkləyici baza rolunu oynayır. Müasir dövrümüzə qədər mübahisə xarakter daşıyan bu mövzu türk dilləri qrammatikalarında türkoloqlar tərəfindən hələ də öz dəqiq həllini tapmamışdır.

Məqalədə türk dillərinin qrammatik quruluşunda əvəzliklərin yeri və onların məna növlərinin təsnifatı tədqiq olunur. Türk dillərinin əvəzlikləri haqqında dünya dilçilərinin və türkoloqlarının (Mirzə Kazım Bəy, N.A.Baskakov, İ.A.Batmanov, N.K.Dmitriyev, V.A.Qordlevskiy, Q.İ.Ramstedt, V.Ketviç, Jan Deni, H.Mirzəzadə, F.Zeynalov, M.Hüseynzadə, N.Məmmədov, S.Cəfərov, T.M.Hacıyev və dilin qrammatika bölməsinə (morfologiya – əvəzliklər və onların növləri) həsr olunmuş əsərləri tədqiq olunaraq, fikir söylənilmiş və sitatlar verilmişdir.

Açar sözlər: türk dilləri, nitq hissələri,əvəzliklər, məna növləri.

GİRİŞ: Türk dilləri quruluşca aqlütinativ dillər qrupları olmaqla coğrafiyada geniş yayılaraq, dünya dillərində olduğu kimi, fonetik, leksik, qrammatik və tarixi xüsusiyyətləri ilə təsnif edilir. Dilçilikdə türk dillərinin təsnifatı həmişə mürəkkəb və mübahisəli məsələlərdən biri olmuşdur. Bunun nəticəsidir ki, bu təsnifat müxtəlif alimlər tərəfindən fərqli prinsiplər əsasında aparılmışdır. Türk dillərinin məlum təsnifatı tarixi-qohumluq prinsipi (genealoji prinsip) əsasında formalaşdırılmışdır.

Müasir türk dillərində nitq hissələrinin miqdarı müxtəlifdir. Təkcə oğuz qrupu türk dillərində onların miqdarı doqquzdan on ikiyə qədər qeyd edilir. Hətta eyni bir dilə həsr olunmuş ədəbiyyatlarda bu rəngarənglik özünü göstərir. Buna baxmayaraq, türk sistemli dillərin, demək olar ki, hamısında əvəzliklərin yeri nitq hissələri içərisində düzgün müəyyənləşdirilir.

ƏSAS HİSSƏ: Əvəzliklər müstəqim bir nitq hissəsi olmaq etibarilə ən qədim dövrlərə aiddir. Onlar semantik cəhətdən ayrılan və heç bir mübahisə törətməyən müstəqil nitq hissəsidir. Əvəzliklər təkcə semantik cəhətdən deyil, morfoloji cəhətdən də fərqlənir. Dilin lüğət fonduna real anlayışlar verən sözlərlə bərabər əvəzliklər də daxil olur. Bunlar da yeni sözlərin yaradılması, hər bir konkret dilin lüğət tərkibinin zənginləşməsində əhəmiyyətli rol oynayır. Əvəzliklər əsas nitq hissələri ilə (adlarla) əlaqədar olduğundan çox işlənir və bir çox anlayışları əks etdirir.

Əvəzliklərə diqqətlə yanaşdıqda onların ən ümumi, həmçinin konkret varlıqlardan təcrid olunmuş, ancaq danışıq vaxtı şəxsi, əşyanı və əlaməti əvəz edən sözlər olduğunu görərik, lakin bunlar həmişə söz əvəz etmir, əşyanı bilavasitə adlandırmır, ona işarə edir. Məhz buna görə də onların təsir dairəsi genişdir.

Türk dillərinin əvəzlikləri müxtəlif adlarla adlandırılır: **əvəzlik** (Azərbaycan), **zamir** (türk), **aderlik** (qaqauz), **esimdk** (qazax), **almaşla** (qaraçay-balkar), **atatooç** (qırğız)**, almaşlık** (tatar), **atorku** (tuva), **çalışma** (türkmən), **olmoş** (özbək), **almaş** (uyğur) və s.

Əvəzlik kateqoriyası və onun növləri bütün türkoloqların diqqət mərkəzində olmuş və müxtəlif şəkildə izah edilmişdir. Türk dillərindəki şəxs əvəzlikləri (məsələn, o) başqa dillərdən fərqli olaraq, (rus, ingilis və s.) cinsiyyət fərqi qoymur və identiklik baxımından neytraldır. Azərbaycan dilində: mən, sən, o, biz, siz, onlar; Türk dilində: bən, sən, o, biz, siz, onlar; Türkmən dilində: men, sen, ol, biz, siz, olar; Tatar dilində: min, sin, ul, bez, sez, alar; Uyğur dilində: mən, sən, o, biz, siz, onlar; Qaraçay-balkar dilində: men, sen, ol, biz, siz, onlar; Qaraqalpaq dilində: men, sen, ol, biz, siz, ola; Rus dilində: я, ты, **он, она**, мы, вы, они.

Türk dillərinin əvəzlikləri qədim dövrdən müasir dövrümüzə qədər dünya dilçiləri tərəfindən geniş tədqiq olunmuş və əsas nitq hissəsi kimi qəbul edilmişdir. Əvəzliklərin məna növləri isə türk dillərinin hamısında müxtəlif şəkildə qruplaşdırılmışdır.

Türk dillərinin tanınmış tədqiqatçısı görkəmli türkoloq Mirzə Kazımbəy tərəfindən qələmə alınan "Türk-tatar dilinin ümumi qrammatikası" əsəri dünya şərqşünaslığında və türkologiyada türk dillərinin müqayisəli öyrənilməsinin əsasını qoyan ilk fundamental əsərdir. Bu əsərdə ilk dəfə olaraq Osmanlı, Azərbaycan, tatar (Kazan) və çuvaş dillərinin fonetika, morfologiya və sintaksis qaydaları müqayisəli şəkildə təhlil edilmişdir.

Sevindirici haldır ki, 178 il sonra İdris Abbasov əsəri, nəhayət, ana dilimizə layiqli şəkildə tərcümə etmiş və monoqrafiya elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Şərq dillərini Avropa dilləri ilə müqayisəli istiqamətdə tədqiq edən Mirzə Kazım bəyin "Türk-tatar dilinin ümumi qrammatikası" əsəri dünyanın çoxsaylı dilləri ilə müqayisəli şəkildə araşdırılmasına həsr edilmiş aktual bir tədqiqatdır.

V.Qordlevskiy Mirzə Kazım Bəyin fikirlərinə əsaslanmış, əvəzliyi müstəqil nitq hissəsi kimi xarakterizə etmişdir. Bu baxımdan, onun 1928-ci ildə Moskvada çapdan çıxmış 315 səhifədən ibarət «Грамматика турецкого языка» (15) adlı əsəri diqqətəlayiqdir

N.K.Dmitriyev əsərlərinin birində yazır ki, semantik və morfoloji prinsiplərə əsasən say və əvəzlikləri də adlar bölməsinə daxil etmək olar. O, belə hesab edir ki, başqa türk dillərində olduğu kimi, kumık dilində də morfoloji kateqoriyalar sintaksislə o qədər bağlıdır ki, onları sintaktik funksiyalardan təcrid olunmuş şəkildə müəyyənləşdirmək

mümkün deyil. Başqa bir əsərində isə o göstərir ki, başqırd dilinin nitq hissələrinə isim, sifət, say, fel, zərflə yanaşı əvəzliklər kimi müstəqil sözlər daxildir. Bu əsərlərində o, nitq hissələrini semantik və mofoloji semantik əlamətlərə əsasən xarakterizə etmişdir (8, s. 29).

V.Boqoroditskiy türk dillərinin əvəzliklərini xarakterizə edərkən semantik, morfoloji və sintaktik xüsusiyyətləri irəli sürmüşdür. Bu əsər türkologiya və tatar dilçiliyində mühüm bir mərhələyə çevrildi və müəllifin tatar dilinin eksperimental fonetik tədqiqatında qabaqcıl bir şəxs kimi statusunu təmin etdi (5, s. 21).

Qaraçay-balkar, özbək və tatar dilləri materiallarının əsasında nitq hissələri haqqındakı fikrini daha da genişləndirən A.K.Borovkov nitq hissələrinin təsnifatında sintaktik əlamətlərə yüksək qiymət verərək yazır: "Sintaktik planda əvəzliklər isim və sayları əvəz edə bilər, lakin bu o demək deyil ki, isim və saylar xüsusi növ əvəzliklərdir. Əlbəttə yox! Başlıca cəhət, göründüyü kimi, təkcə sintaktik əlamətlərdə deyil" (6, s. 99-125). Bu əsər 1930-cu illərin müzakirələrində mühüm bir mərhələni qeyd etmişdir. Alim qrammatik kateqoriyaların Hind-Avropa dillərindən (məsələn, rus dilindən) türk dilinə mexaniki köçürülməsinin ənənəviliyinə diqqət çəkmiş və nəzəri türkologiyanın sonrakı inkişafı üçün təməl qoymuşdur. Bu əsər türk nitq hissələrinin təsnifatı ilə bağlı sonrakı müzakirələrin əsasını qoydu. A.Borovkov bu məqalədə o dövrün ən son türkoloji məlumatlarına əsaslanaraq, türk dillərinin qrammatik quruluşunu təhlil etdi. O, nitq hissələrinin təsnifatına kompleks yanaşmaya ehtiyac olduğunu əsaslandırmış və ifadə etmişdir. O, sözləri bir-biri ilə əlaqəli üç meyar əsasında öyrənməyi təklif etmişdir: semantika (ümumiləşdirilmiş məna), morfoloji xüsusiyyətlər (forma) və sintaktik funksiya. (6, s. 99-125).

Nitq hissələrinin təyin olunmasında semantik, morfoloji və sintaktik əlamətlərə əsaslanan İ.A.Batmanov bu əsərdə türk qrammatikasının təsnifatlarını türk dillərinə uyğunlaşdırmışdır. Bu əsər qırğız dilinin morfoloji quruluşu və qrammatik kateqoriyalarının standartlaşdırılması ilə bağlı ilk fundamental tədqiqatlardan biri olmuşdur. O, qırğız dilinin qrammatik quruluşunun ilk sistematik təsvirlərindən biri olan fundamental linqvistik əsərində nitq hissələrini təsnif edərək, qrammatika üzrə sonrakı nəşrlərin, o cümlədən 1939-1940-cı illərdəki sonrakı tədqiqatlarının əsasını qoymuşdur. Alim qırğız dilinin təşəkkül tapmasının müasir mərhələsində əvəzlik və say kateqoriyaları təkcə məntiqi nöqteyi-nəzərdən deyil, eyni zamanda formal cəhətdən də nəzərə çarpdığını, əvəzlik kateqoriyası məna və formal cəhətdən hələ çox əvvəllər təşəkkül tapıb formalaşan müstəqil nitq hissəsi kimi qiymətləndirmişdir (4, s. 66-79).

Məqalələrindən birində İ.Batmanov qeyd edir ki, qırğız dili nitq hissələrinin müəyyənləşdirilməsində iki meyar: məna və morfoloji əlamətlər əsas rol oynayır. Bunlardan ikincisi, müəllifə görə, daha həlledicidir (4, s. 7). Əslində, İ.Batmanovun bu fikri ilə razılaşa bilmərik, çünki nitq hissələrinin təsnifində təkcə morfoloji əlamətlərlə kifayətlənmək olmaz.

V.M.Jirmunski qrammatik kateqoriyaların Hind-Avropa dillərindən (məsələn, rus dilindən) türk dillərinə mexaniki köçürülməsinin ənənəviliyinə diqqət çəkərək nəzəri türkologiyanın sonrakı inkişafının təməlini qoydu. Alimin bu əsəri ilk dəfə 1961-ci ildə deyil, 1945-ci ildə nəşr olunmuşdur. O, nitq hissələrini semantik məna, semantik funksiya və qrammatik tərtibata əsasən müəyyənləşdirir. O bu əsərində türk dillərinin qrammatik quruluşunun xüsusiyyətlərini Hind-Avropa dil ailəsindən fərqləri prizmasından araşdırmışdır (11, s. 111-127).

Onu da qeyd etməliyik ki, ayrı-ayrı dillərdə nitq hissələrinin təyin edilməsində bütün meyarlar eyni dərəcədə əhəmiyyətə malik deyil. Hər şeydən əvvəl, mövcud dilin özünəməxsus spesifik xüsusiyyətləri nəzərə alınmalıdır.

A.N.Kononovnitq hissələrini türk və özbək dillərinin materialları əsasında üç prinsip: semantik, morfoloji və sintaktik əlamətlər əsasında xarakterizə edir. O yazır: "Əvəzlik elə nitq hissəsidir ki, onun vasitəsilə danışan şəxs hər hansı əşyaya, miqdara, şəxsə işarə edir, yaxud hər hansı şəxs, əşya, miqdar, əlamət haqqında soruşur, onları adını çəkmədən ümumiləşdirir. Əvəzlik kateqoriyası başqa nitq hissələırindən öz semantikası, sözdüzəltmə və formadüzəltmə xüsusiyyətləri ilə fərqləni". Kononov hələ 1941-ci ildə əvəzliklərin altı növünü qruplaşdırmışdır: şəxs, işarə, sual, qayıdış, təyin, qeyri-müəyyən (7, s. 200-220).

Əvəzliyi semantik və formal əlamətlərinə əsasən müstəqil nitq hissəsi hesab edən A.N.Baskakovnitq hissələri haqqındakı fikirlərini daha da təkmilləşdirərək qaraqalpaq dilinin nitq hissələrini leksik-qrammatik aspektdə nəzərdən keçirmiş, onları sintaktik, funksional və formal əlamətlərə əsasən təsnif etmişdir. Baskakov belə hesab edir ki, əvəzliklər başqa nitq hissələrini əvəz edən və leksikanın ümumi fondundan ayrılan qədim nitq hissəsidir. Müəllifin fikrincə, elə buna görə də əvəzliyin hər bir növü ayrı-ayrılıqda başqa nitq hissələrini sanki proyeksiyalarını təşkil edir (3, s. 247).

Sovet türkoloqu F.D.Aşnin yazır: "Əvəzliklər elə sözlərdir ki, onların konkret mənası bütünlüklə məqamla təyin olunur. İşarə əvəzlikləri isə həmçinin pantomimik jestlərlə ifadə edilir"(2, s. 18-20).

Avropa dilçilərindən V.Kotviç, J.Deni, Q.Ramstedt və başqaları türk dillərinin əvəzlikləri haqqında müxtəlif fikirlər söyləmişlər.

Q.N.Ramstedt Altay və Ural qrupu dillərinin əvəzliklərinin beş növə (şəxs, qayidiş, işarə, sual, qeyri-müəyyən) bölmüş, o, sözdüzəltmə və sözdəyişmə baxımından xarakterizə etmiş, altay və ural dillərinin əvəzliklərinə müqayisəli-tarixi planda yanaşmışdır (19, s. 68).

Vladislav Ketviç türk, monqol, tunqus-mancur dillərinin şəxs, sual və işarə əvəzliklərini müqayisəli-etimoloji cəhətdən təhlil etmiş, əvəzlik mənşəli şəkilçilərdən söhbət açmışdır.

Fransız türkoloqu Jan Deni isə türk dilinin ciddi, demək olar ki, riyazi məntiqə tabe olduğuna və qrammatik qaydaları anlamağın, ona yiyələnməyin əsas açarı olduğuna inanırdı. ümumiyyətlə, türk dilləri əvəzliklərini altı (şəxs, qayıdış, işarə, sual, təyin və qeyri müəyyən) növünü qeyd etmişdir (12, s.679).

Azərbaycan dilçilərindən H.Mirzəzadə, M.Hüseynzadə, S.Cəfərov, F.Zeynalov, S.Qasımova, A.Xəlilov,

H.Hüseynov, R.İsrafilova, İ.R.Əfəndiyev, T.Hacıyev və başqaları əvəzlik kateqoriyası haqqında maraqlı və müxtəlif fikirlər söyləmişlər.

Türk dillərinin qrammatika kitablarında, müxtəlif tədqiqat əsərlərində əvəzlik və onun təsnifi ilə bağlı bir-birindən fərqli izahatlara, zidiyyətli fikirlərə rast gəlirik.

"Azərbaycan dilinə aid tədqiqlər" əsərində göstərilir ki, Azərbaycan dilində məna və şəkli cəhətcə növlərini dəyişən şəkilli sözlər – isim, sifət, fel, əvəzlik və s. mövcuddur. Bu kitabda şəxs, işarə, sual, qeyri-müəyyən əvəzliklər kimi böigü aparılmışdır(1, s. 167-200).

Əvəzliklərin inkişaf tarixindən bəhs edən H.Mirzəzadə yazır: "Yazı abidələrinin dilindən aydındır ki, bir çox türk dillərində müştərək surətdə işlənən əvəzlik sözləri vaxtilə Azərbaycan dilində də işlənmiş, lakin get-gedə bu dil onlardan uzaqlaşaraq özünün spesifik xüsusiyyətləri ilə fərqlənməyə doğru inkişaf etmişdir (17, s. 168).

S.Cəfərov əvəzliyə müstəqil nitq hissəsi baxımından yanaşaraq, ona belə tərif vermişdir: "Əşyanın özünü, əlamət və miqdarını bildirməyən, ancaq oları göstərən sözlərə əvəzlik deyilir.Məna etibarilə dilimizdə əvəzliklərin aşağıdakı növləri vardır: 1. Şəxs əvəzlikləri, 2. İşarə əvəzlikləri, 3. Sual əvəzlikləri, 4. Qeyri-müəyyən əvəzliklər, 5. Təyini əvəzliklər" (7, s. 67-68.).

N.Məmmədov belə hesab edir ki, bir nitq hissəsi kimi əvəzliklər əşyanın, şəxsin, əlamətin, kəmiyyətin yerinə işlənir və onların işlənməsi adlarla bilavasitə bağlıdı. O yazır: "Dillərin çoxunda əvəzliklər şəxs, işarə, sual, təyin və qeyri-müəyyən əvəzlikləri olmaq üzrə beş yerə bölünür" (18, s. 116).

T.M.Hacıyev Azərbaycan dili əvəzliyini əsas nitq hissəsilərinə daxil edərək, onların beş məna növünü qeyd etmişdir: "Əvəzliyin növləri müxtəlif dilçilər, türkoloqlar tərəfindən fərqli şəkildə qruplaşdırılmışdır... Əvəzliyin aşağıdakı məna növləri olduğu qəti şəkildə müəyyənləşdirilir: 1. şəxs əvəzliyi, 2. qeyri-müəyyən əvəzlik. 3. İşarə əvəzliyi, 4. təyin əvəzliyi, 5. sual əvəzliyi. Əvəzliyin sıralanması müxtəlif əsərlərdə fərqli şəkildə verilir. İlk baxışda bunun elə bir əhəmiyyəti olmasa da, əslində onların sıralanmasında məntiq vardır. Müvafiq nitq hissələrini adlandırılması və sintaktik vəzifəsi baxımdan yuxarıda verdiyimiz şəkildə sıralanma daha məntiqidir. Çünki şəxs və qeyri-müəyyən əvəzliklər, bir qayda olaraq, ismi əvəz edir və əsas sintaktik vəzifəsi cümlədə mübtəda olmaqdı, onların ardıcıl verilməsi daha düzgündür. İşarə əvəzliyi və təyini əvəzlik də müvafiq olaraq, əsasən, sifəti əvəz edir və cümlədəki sintaktik vəzifəsi, bir qayda olaraq, təyin olmaqdır, onların da ardıcıl verilməsi daha məqsədəmüvafiqdir. Nəhayət, sual əvəzliyinin hər biri fərqli nitq hissəsini, ümumilikdə bütün əsas nitq hissələrini, hətta əvəzliyin özünü əvəz edir: ona görə də əvəzliyin təsnifini tamamlamalı - sonda verilməlidir (9, s. 236, 243).

Bəzi alimlər Azərbaycan dilinin şəxs əvəzliklərini üç yerə bölsələr də, F.R.Zeynalov şəxs əvəzliklərinin belə parçalanmasının əleyhinə çıxaraq yazır: "Bu əvəzliklərin bir qrupu yiyəlik hal şəkilçiləri ilə işlənən şəxs əvəzliklərindən başqa bir şey deyildir. Əgər hal şəkilçiləri ilə işlənən şəkilçilərin hər birini məna qrupu kimi qəbul etsək, onda gərək bütün hallarda işlənən şəkilçilərin hamısı müstəqil məna qrupu kimi səciyyələndirilsin" O. Azərbaycan dili əvəzliklərinin yeddi növünü (şəxs, işarə, sual, qayıdış, qeyri-müəyyən, inkar, təyin) qeyd etmişdir (20, s. 113).

H.Mirzəzadənin 1962-ci ildə nəşr olunan "Azərbaycan dilinin tarixi morfologiyası" (17) kitabı Azərbaycan dilçiliyində tarixi qrammatika sahəsinin təməlini qoyan əsas monoqrafik əsərdir və Azərbaycan dilinin əsas nitq hissələrinin tarixi inkişafı təhlil olunur. Əsər dilin morfoloji quruluşunun tarixi inkişafını elmi-metodiki müstəvidə tədqiq edir. Kitab dilimizin qrammatik quruluşunu və nitq hissələrinin tarixi inkişafını tədqiq edən mühüm elmi mənbədir.

Nəticə. Əvəzliklər dilin qədim kateqoriyalarından biridir. Onun hər bir növünə semantik, morfoloji, sintaktik, fonetik planda tarixilik baxımından yanaşılaraq tədqiq olunur. Əvəzliklərin türk dillərinin qrammatikasındakı mühüm yerini dünya dilçi türkoloqları öz möhtəşəm tədqiqatları və əsərləri ilə sübut etmişlər. Türk dillərinin əvəzlikləri qədim dövrdən müasir dövrümüzə qədər bütün türkoloqlar tərəfindən əsas nitq hisəsi kimi qəbul edilmişdir. Əvəzliklər isim, sifət və s. əvəz etsələr də, onların konkret məna və əlamətlərini göstərə bilmirlər.

Beləliklə, türk dillərinin əvəzlikləri və onların növləri dünya dilçiliyində müxtəlif tədqiqatçılar tərəfindən araşdırılaraq, müxtəlif şəkildə qrupaşdırılıb müxtəlif növlərlə verilmiş olsa da, müasir dövrümüzə qədər mübahisəli qalmış və dəqiq həllini tapmamışdır. Türk dillərinin əvəzliklərinin tədqiqatı hələ də davam etdiyi üçün aktual və vacib məsələlərdən biridir və elmi əhəmiyyət daşıyır.

İstifadə edilmiş dəbiyyat

1. Azərbaycan dilinə aid tədqiqlər. Bakı, 1947, 370 s.
2. Ашнин Ф.Д. Указательные местоимения и их производные в азербайджанском, турецком и туркменском языках. Москва, автореферат 1956 год, 18-20 s.
3. Баскаков Н.А. Каракалпакский язык. Фонетика и морфология, части речи и словообразование. Т.2. М., 1952, 542 s.
4. Батманов И.А.Части речи в киргизском языке // Вопросы язынознания, 1955, № 2, (mart, aprel), s.66-79.
5. Богородицкий В.А.Введение в татарское языкознание в связи с другими тюркскими языками. Казань, Татгосиздат, 1934, 167 s.
6. Боровков А.К. Статья. О частях речи в языках тюркской системы. журнала «Революция и письменность» за 1936 год, №2, s. 27-36.
7. Cəfərov S. Azərbaycan dilinin qrammatikası.1 hissə. Bakı, 1966. 155 s.
8. Дмитриев Н.К. "Строй турецкого языка. Л., гос. ун-т, 1939. 60 стр
9. Hacıyev T.M. Müasir Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı: Elm və təhsil, 2025, 543 s.
10. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
11. Жирмунский В.М. Развитие категории частей речи в тюркских языках в сравнении с индоевропейскими. М.:Наука, 1961, 152 с.
12. Жан Дени. Грамматика турецкого языка. 1921, 1218 s.
13. Казем-Бек М.А. Общая грамматика турецко-татарского языка. Изд.2, Университетская типография Казань,1846. 497 s.
14. Кононов А.Н. Грамматика турецкого языка. М., 2023. Второе издание. Всего страницы: 314; А.Н.Кононов. Грамматика турецкого языка. М., Л., 1941. 710 стр. Первое издание. s. 200-220
15. Гордлевский В.А. Грамматика турецкого языка: морфология и синтаксис был издан в Москве в 1928. 315 с.

16. Mirzə Kazım Bəy. Türk-tatar dilinin ümumi qrammatikası. Bakı, 2017, 1007 s.
17. Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962, 360 s.
18. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı, 1971, 253 s.
19. Рамстедт Г.И.Введение в алтайское языкознание. М., 1957. 120 с. 20. Zeynalov F.R.Türk dillərinin müqayisəli qrammatikası, 1-ci hissə, Bakı, 1974, 356 s.

Ирада Исрафил гизи Керимова
Доктор философии в области филологии
Старший научный сотрудник, Отдел прикладных проблем азербайджанского языка, БГУ
kerimovairada920@gmail.com
ORCID ID: 0009-0002-4023-9027

Место местоимений в грамматической структуре тюркских языков

Резюме

Изучение тюркских местоимений и типов их значений является одной из актуальных и важных проблем нашего времени. Эта тема, которая до наших дней вызывала споры, до сих пор не нашла четкого решения у тюркологов в грамматиках тюркских языков.

В статье исследуется место местоимений в грамматической структуре тюркских языков и классификация их типов значений. Мнения о местоимениях в тюркских языках основаны на взглядах лингвистов и тюркологов со всего мира. Рассматриваются и цитируются работы известных тюркологов (Мирза Казим-бей, Н.А.Баскаков, Т.М.Гаджиев и др.), посвященные морфологии и местоимениям.

Ключевые слова: тюркские языки, части речи, местоимения, разряды по значению

Irada Israfil gizi Kerimova
Doctor of Philosophy in Philology
Senior Researcher, Department of Applied Problems of the Azerbaijani Language, BSU
kerimovairada920@gmail.com
ORCID ID: 0009-0002-4023-9027

The place of substıtutıons ın the grammatıcal structure of turkısh languages

Summary

The study of Turkic pronouns and their types of meaning is one of the current and important issues of our time. This topic, which has been controversial until modern times, has not yet found a clear solution by Turkologists in the grammars of Turkic languages.

The article examines the place of pronouns in the grammatical structure of Turkic languages and the classification of their meaning types. The article discusses the pronouns of Turkic languages based on the opinions of world linguists, Turkologists. The works of famous Turkologists (Mirza Kazim Bey, N.A.Baskakov, T.M.Hajiyev, etc.) dedicated to morphology and pronouns are reviewed and cited.

Keywords: turkic languages, parts of speech, pronouns, semantic types.

Rəyçi: fil.f.dok. Ramil Bayramov

DOI: 10.24412/2218-7588-2026-2-63-66

Cəmilə Rüfət qızı Rüstəmova
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi "Türk filologiyası" kafedrasının dosenti
cemile.rustemova@gmail.com
https://orcid.org/0009-0009-1154-9385

GENDERLEKT VƏ MÜRƏKKƏB CÜMLƏ MODELLƏRİ FƏRQLİLİYİNİN SPESİFİKASI
(Azərbaycan və türk dillərinin materiallarжna əsasən)

XÜLASƏ: Məqalədə genderlekt amilinin cümlə modellərinin ərsəyə gəlməsinə təsiri araşdırlır. Konkret olaraq, mürəkkəb cümlə modelləri fərqliliyinin spesifikası tədqiq edilir. Müəllif öz təhlillərində müasir Azərbaycan dilinin və eləcə də müasir türk dilinin fərqli diskurslarında yer alan materiallara istinad edir. Məlum olur ki, genderlekt anlayışı özlüyündə gender (yəni, sosial cins) və idiolekt (fərdə özəl danışıq tərzi) anlayışlarının kontominasiyasına istinad edir. Bu əsasda ortaya çıxan terminoloji anlayış fərqli cins nümayəndələrinin fərqli danışıq tərzi, fərqli idiolekt üslubları, fərqli nitq davranışı nümayiş etdirməsinə istinad edir. Məhz, kommunikativ strategiyaların fərqliliyi faktoru, bir çox hallarda cümlə modellərinin fərqli formada şəkillənməsinə (struktur qəlibləşməsinə) yol açır. Qadının və kişinin nitq davraşı fərqli olduğundan, birincilərin cəmiyyət fərdləri arasında konsensus (ortaq fikir, həmrəylik) əldə edilməsi əsasında, empatiyanın əsas götürülməsi şəraitində ünsiyyəti ikincilərin (kişilərin) dolayı ifadələrə ehtiyac duymayan birbaşa nitq modelləri ilə ziddyyət təşkil edir. Başqa sözlə, fərqli kommunikativ strategiyalar – fərqli cümlə modellərini törədir. Bu da son nəticədə funksional-kommunikativ sintaksisdə özünü aydın şəkildə biruzə verir.

Açar sözlər: genderlekt, Azərbaycan dili, türk dili, mürəkkəb cümlə modelləri, kişi nitqi, qadın nitqi.

GİRİŞ: Azərbaycan və türk dillərinin mürəkkəb cümlə modellərinin funksional-kommunikativ aspektdən təhlili burada ekstralinqvistik (dildənkənar) faktorlardan qaynaqlanan bir sıra məqamların olduğunu ortaya çıxartdı. Sözsüz ki, burada ilk olaraq, cəmiyyətin linqvokulturoloji şərtlənməli kommunikasiya vərdişləri ön plana çıxır. Müəyyən konvensionallıq zəminində (qarşılıqlı razılılaşma, cəmiyyət daxilindəki ortaq razılaşma zəminində) formalaşmış cümlə modelləri yaranır ki, bunlar həm nəzakətlilik prinsipi ilə yönləndirilə bilir, həm də bir sıra hallarda ritual-qəlibləşmiş nitq davranışı stereotiplərinə uyğunlaşır. Lakin dildənkənar-ekstralinqvistik mahiyyətli faktorlar sırasında az tədqiq edilən, daha dəqiq desək, bilvasitə sintaksis zəminində az araşdırılan faktorlar sırasında gender amilini də qeyd etmək olar [16, s. 25-36]. Bu isə ondan qaynaqlanır ki, (A.Meyenin sözləri ilə desək) dil sosial hadisə olmaqla, mütləq şəkildə cəmiyyət həaytında cərəyan edən prosesləri əks etdirir. Bununla da dilçiliyin vəzifələri sırasına dil – cəmiyyət qarşılıqlı şərtlənməsinin dil strukturundakı inikasının dolğun şəkildə araşdırılması missiyası daxil olur [17].

ƏSAS HİSSƏ: Türk mürəkkəb cümləsinin struktur tərtibatından alt (dərin) mənanın reallaşma formatına, yəni üst məna qatına təsir edən məqamların araşdırılması bir sıra maraqlı məqamları ortaya çıxarır. Sözsüz ki, linqvokulturoloji şərtlənmə, diskursiv mühit faktoru mühüm rol oynamadığını vurğulamaqla bərabər, genderlekt faktorunun da müəyyən səviyyədə təsir etmək potensialını danmaq olmaz.

Qadın və kişi nitqinin spesifik cəhətləri onların fərqli ifadə potensialı və intensiya (məram) reallaşmasını şərtləndirir. Konkret olaraq, Azərbaycan və türk dillərinin materiallarına nəzərən təhlillərə keçmədən öncə onu qeyd edək ki, hələ uzaq 1921-ci ildə görkəmli Danimarka dilçisi Otto Yespersen özünün "Dil: onun inkişafı və mənşəyi" adlı əsərinin eyniadlı (Qadın) başlığa malik bölümündə qadınların danışıq özəllikləri haqqında geniş şəkildə bəhs etmiş və kişi nitqi ilə fərqlərini açılqlamışdır. Bu kontekstdə O.Yespersen qadınların öz nitqində emosional cəhətdən yüklənmiş, lakin məntiqi strukturlaşma baxımından qəliz olmayan mürəkkəb cümlə modellərinə üstün verdiyini vurğulamışdır. Bundan fərqli olaraq, dilçi kişi nitqində daha iyerarxik strukturlaşmış mürəkkəb cümlə modellərinə yer verdiklərini qeyd etmişdi. O.Yespersen öz fikrilərini metaforarik dillə açıqlayaraq, kişilərin mürəkkəb cümlə modelini bir-birinin içinə yerləşdirilə bilən Çin mücrülərini xatırlatdığını qeyd etmişdi: hər mücrüdən yeni tabeli budaq cümlə çıxa bilər və vahid məna yükü əsasında birləşə bilər. Lakin qadınların üstünlük verdikləri mürəkkəb cümlə modelləri inci boyunbağını xatırladır: hər bir sadə cümlə digərinə nəzərən asılılıq nümayiş etdirmədən yan-yana bərabərhüquqlu şəkildə strukturlaşa bilər [13]. Bu, yanaşma bəzi feminist tədqiqatçılar tərəfindən etirazla qarşılansa da, hətta O.Yespersenin kişi şovinizmində ittiham edilməsinə yol açsa da [13, s. 9-10], əksər tədqiqatçılar bu yanaşma ilə ortaq mövqedən çıxış etmişlər [13, s. 377-408]. Beləliklə məlum olur ki, dərin qatda yerləşən eyni bir informasiyanın fərqli cümlə modelləri ilə verilməsi təkcə xalqın mədəni korrektəliklə bağlı öngörüşlərindən qaynaqlanmır. Bu zaman eləcə də qadın/kişi genderlekt fərqliliyi də rol oynaya bilər.

O.Yespersen mürəkkəb cümlə modelləri baxımından, kişi və qadın seçiminin fərqliliyi məqamlarının təhlilini yekunlaşdırarkən belə nəticəyə gəlir ki, qadınlar öz nitqində parataksisə, kişilər isə öz mürəkkəb cümlə modellərində daha çox hipotaksisə üstünlük verirlər [13, s. 251]. Xatırladaq ki, parataksis (yunan dilində: yanaşı düzülmək anlamını verir) mürəkkəb cümlə modellərinin bərabərhüquqluğuna söykənir [19]. Bundan fərqli olaraq, hipotaksis isə (yunan dilində: hipo "altında, tabeliyində", taksis "yerləşmə") mürəkkəb cümlə strukturundakı tabelilik əlaqəsinə işarə edir [15].

A.S.Nikolayçukun da vurğuladığı kimi, burada tabelilik əlaqəsi kimi ortaya çıxan hipotaksis transformasyon subordinasiyaya uyğun gəlir, parataksis isə transformasyon koordinasiyalı cümlə modellərinə uyğun gəlir. Dilçi bu kontekstdə eyni bir alt məna əsasındakı transformasiya dəyişimlərini L.Tenyerin təklif etdiyi terminologiyaya uyğun olaraq, metataksis qismində dəyərləndirir [18].

Nümunələrə diqqət edək. Eyni bir alt məna fərqli cümlə modellərini (tabelilik və tabesizlik əlaqəsi baxımından fərqliliyi) ortaya qoyur. Məhz, bu kimi fərqlər kişi və qadın nitqinin bu və ya digər dərəcədə spesifik fərqliliyini təmin edə bilir.

"S*ən artıq getmişdin, mən də qayıtdım evə gəldim*"

"S*ən artıq getmişdin deyə, mən də qayıtdım evə gəldim*"

Xatırladaq ki, qadın və kişi nitqinin fırqliliyi ideyası gender dilçiliyində genderlekt terminin yaranıb aktuallaşmasına yol açmışdır. K.Ağayeva, tam haqlı olaraq, kişi və qadın nitqləri arasındakı fərqlərin, sözsüz ki, mütləq xarakter kəsb etmədiyini, nisbi mahiyyətə malik olduğunu qeyd etmişdir. Lakin hətta bu nisbi səciyyəli fərqlər də genderlekt termini altında və eyniadlı nəzəriyyə çərçivəsində öyrənilməyə başlamışdır [1, s.7-13].

Tədqiqatçıların qeyd etdikləri kimi, kişi nitq üslubuna, kişi nitq davranışına daha çox faktoloji təqdimat, yəni olanların konkret şəkildə dilə gətirilməsi marağı daxildir. Bundan fərqli olaraq, qadınların nitq davranışındakı aparıcı intensiya (məram) emosionla səviyyədə ünsiyyətin keyfiyyətli şəkildə qurulması məramı təşkil edir. Bu fərqliliklə özünü, leksik-semantik səviyyədə olduğu kimi, funksional-kommunikativ planda, o cümlədən sintaksisdə açıq şəkildə özünü biruzə verir [5]. Aparılan eksperimental (təcrübi) araşdırmalar da qadın və kişi nitq davranışının fərqliliyini əyani şəkildə təsdiqləmişdir [3].

Konkret olaraq, cümlə modellərinin cins fərqliliyinə görə sabitləşməsini, yəni hər bir genderlekt (fərqli gender daşıyıcısına xas olan fərqli danışıq tərzi) spesifikasının sintaksis strukturlaşmadakı inikasını araşdırmış dilçilər qadınlara daha tərəddüdlü təhkiyə formatının xarakterik olduğunu qeyd edirlər. Məhz, bu tərəddüd məqamı və ya hadisələrin alternativ gedişat ehtimalının nəzərə alınması ehtiyatlılığı qadın nitqində "*Mən əmin deyiləm, ancaq/deyəsən", "Əmin olmasam da, deytə bilərəm ki*, " və s. bu kimi mürəkkəb cümlə modellərinin xarakterik olduğunu vurğulanır [14].

Nümunələrə diqqət edək: (qadın nitqindən iqtibas) " *....emin değilim ama sanırım seni test ediyor*" [8]; "*Emin değilim ama acı seviyor olabilir*" [7].

Analoji olaraq, Azərbaycan dilindəki fərqli diskursiv ortamlara aid nümunələrdə də biz, qadın kommunikantın fikirlərini ehtiyatla dilə gətirərkən, tərəddüdün verbal reprezentasiyasına xidmət edən mürəkkəb cümlə qəlibləşmələrindən istifadə etdiklərini görürük. Məsələn, Günel Musa: "*Mən bundan çox da əmin deyiləm, açığı, amma bir yazıçı olaraq sənin fikrini alaq*" [9].

"*Bilmirəm, bəlkə səhv edirəm. Amma dəqiq bildiyim bir şey var ki,...* " [12]. Qadın müəllif (İradə Tuncay) hətta dəqiq əmin olduğu bir fikirin təqdimatının şərti proloqunda (fikrə giriş hissəsində) yenə də tərəddüdünü dilə gətirir ki, bu da özünü mürəkkəb cümlə modelində reallaşdırır.

Göründyü kimi, qadın nitqində gender davranışı spesifikasına əsasən, sadə komunikativ məramın natiqin (danışan, nitq ifadə edən qadının) tərəddüdü, ehtiyyatlılığı və ya empatiya/nəzakəti sayəsində mürəkkəbləşdirilə bildiyini görürük. Eyni kommunikativ məram kişi nitqində daha birbaşa, daha sadə (o cümlədən sintaktik quruluş baxımdan, sadə cümlə modelli) ifadə tapa bilir.

Anoloji fikirlər XX əsrin funksional semantika sahəsindəki ən aparıcı simalarından sayılan Duayt Bolingerin araşdırmasında da səsləndirilir. Dilçi kişilərin öz bəyanlarını birmənalı şəkildə, tərəddüdsüz səsləndirdiyi halda, qadınlar daha qəliz sintaktik modellərə müraciət etməklə özlərinin ehtiyatlı yanaşmasını, daxili tərəddüdlərini, inamsızlıqlarını və ya ümumən, qarşı tərəfə nəzakətlilik prizmasından, empatiya yüklü ehtimallarını dilə gətirirlər.

Konkret olaraq, D.Bolinger kişinin "Bu daha yaxşıdır" – fikrini bəyan etdiyi halda, qadının eyni yanaşmanı "Bu daha yaxşıdır, elə deyilmi?" – şəklində dilə gətirdiyinə diqqət çəkir [4, s. 14]. Göründüyü kimi, qadının qəlizləşdirdiyi kommunikatem (ünsiyyət prosesində ifadə tapan müraciət, replika, xahiş, sual, bəyan və s.) sanki qarşı tərəfin razılığına (perspektiv razılığına) iddia edir. Bu kövrək, şərti iddia söhbətdaşının mövqeyi ilə bağlı ehtiyatlı, nəzakətli marağı da, eləcə də öz mövqeyi ilə əlaqədar tərəddüdünü də ehtiva edir.

Təcrübi əsasda araşdırma aparmış, Z.Saiyao və S.Yu da oxşar mövqedən çıxış edərək, qadınların sualların əlavə edildiyi cümlə modelləri ilə ünsiyyət saxlamağa üstünlük veridklərinə diqqət çəkirlər [10, s. 38-39].

Heç də həmişə kommunikatem qəlizləşməsi mürəkkəb cümlənin ərsəyə gəlməsi ilə yekunlaşmasa da, istənilən halda genderlekt fərqlərinin mövcudluğu danılmazdı və bu fərqlər funksional-kommunikativ sintaksisə də nüfuz edir.

Nəticə: Aparılan təhlillər əsasında belə nəticəyə gəlmək olar ki, mürəkkəb cümlə modellərinin funksional-kommunkativ aspektdən təhlili burada bir çox fərqli və spesifik məqamların ortaya çıxmasına yol açır. Belə ki, məhz, real nitq formatında ifadə tapan kommunikativ strategiyaların genderlekt modelləri baxımından fərqlənməsi sadə - mürəkkəb cümlə oppozisiyasının, bəzi hallarda nitq aktının intensial səbəbi ilə deyil, cins fərqliliyinin xüsusiyyəti baxımından ortaya çıxdığını deməyə əsas verir. Yəni, bəzi hallarda, sadə cümlədə ifadə tapa biləcək hər hansı bir fikir mürəkkəb cümlə qəlibində reallaşarkən, bunun səbəbi kimi, danışan şəxsin qadın olması və onun (qadının) kişidən fərqli nitq davranışı nümayiş etdirməsi göstərilə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Ağayeva, K. Qadin və kişi dilinin gender tədqiqati: Azərbaycan ədəbi nümunələrində seksizm // "Gender Problemi və Müasir Azərbaycan" respublika elmi konfransının materialları, Azərbaycan Universiteti. – Bakı. – 23 Noyabr, 2018, s. 7-13. https://www.au.edu.az/upload-files/konfrans/Gender_2018.pdf
2. Ayres-Bennett, Wendy; Sanson, Helena (2020). "Women in the history of linguistics: Distant and neglected voices". // Ayres-Bennett, Wendy; Sanson, Helena (eds.). Women in the History of Linguistics. Oxford: Oxford University Press. pp. 9-10. https://api.pageplace.de/preview/DT0400.9780191071126_A40969575/preview-9780191071126_A40969575.pdf
3. Crawford, M. Chaffin, R. Effects of Gender and Topic on Speech Style // Journal of psycholinguistic research sell Psychology, 1987. https://www.academia.edu/15259936/Effects_of_gender_and_topic_on_speech_style

4. Dandy, Y. Gender Differences in English Conversation from Perspective of Sociolinguistics / Seminar Paper Presented to the Graduate Faculty University of Wisconsin-Platteville, Platteville, Wisconsin, 2014 , 24 pp. https://minds.wisconsin.edu/bitstream/handle/1793/72599/YangDandi.pdf?sequence=5&isAllowed=y
5. Gafforov, X.Sh. The influence of gender on speech behavior // Journal of Pedagogical Inventions and Practices, 2023, №26 https://zienjournals.com/index.php/jpip/article/view/4746
6. Jespersen, O.H. Language: Its Nature Development And Origin, 1922. https://www.gutenberg.org/files/53038/53038-h/53038-h.htm
7. Kurt, B. Emin değilim ama acı seviyor olabilir // GZT, 19 Kasım, 2022. https://www.gzt.com/gztmzt/emin-degilim-ama-aci-seviyor-olabilir-3708927
8. Masum cinayetler. Geri dönüş. https://www.wattpad.com/amp/1039915111
9. Musa, G. "Tanınmaq, sevilmək, diqqət məni narahat edir" - "Ədəbiyyat qəzeti"nin müsahibi şair, yazıçı Cəlil Cavanşirdir // Ədəbiyyat qəzeti, 17 iyun, 2021. https://edebiyyatqazeti.az/news/muzakire/7443-taninmaq-sevilmek-diqqet-meni-narahat-edir
10. Saiyao, Z. Yu, S. A Study of Gender Differences in English from the Perspective of Sociolinguistics nternational Journal of Languages, Literature and Linguistics, Vol. 8, No. 1, March 2022, pp. 36-39. https://www.ijlll.org/vol8/319-ST2025.pdf
11. Thomas, M. (2013). "Otto Jespersen and 'The woman', then and now". Historiographia Linguistica. № 40 (3), pp. 377-408.https://www.researchgate.net/publication/262965825_Otto_Jespersen_and_The_Woman_then_and_now
12. Tuncay, İ. Bu dünya çox etibarsızdı: [Etibar Babayev haqqında] // Ədalət.- 2006. - 3 iyun. - s. 5. 94. https://anl.az/down/mediyyet_2006/bu_dunya_chox_etibarsizdi_edalet_2006_3%20iyun_s_5.htm
13. Jespersen, O. H. Language: Its Nature Development And Origin, 1922, https://www.gutenberg.org/files/53038/53038-h/53038-h.htm
14. Буркова С.С. Речевое поведение и принципы организации текста в гендерном аспекте // Актуальные вопросы современной филологии и журналистики 2017. https://cyberleninka.ru/article/n/rechevoe-povedenie-i-printsipy-organizatsii-teksta-v-gendernom-aspekte
15. Гипотаксис https://www.booksite.ru/fulltext/1/001/008/010/614.htm
16. Горошко Е.И. Проблемы изучения особенностей мужского и женского стиля речи / Е.И. Горошко // Человек говорящий: язык, познание, культура / под ред. А.А. Романова. - Москва - Тверь, 1995. - С. 25-36.
17. Короткова М.О. Влияние гендерного фактора на речевое поведение // Приволжский научный вестник, 2015. https://cyberleninka.ru/article/n/vliyanie-gendernogo-faktora-na-rechevoe-povedenie
18. Николайчук А.С. Структуралисты о паратаксисе и гипотаксисе Филологические науки. Вопросы теории и практики, № 4 (22) 2013, часть 2.https://www.gramota.net/article/phil20130534/pdf
19. Паратаксис // Толковый словарь Ефремовой. Т.Ф.Ефремова. 2000. https://dic.academic.ru/dic.nsf/efremova/208521/%D0%9F%D0%B0%D1%80%D0%B0%D1%82%D0%B0%D0%BA%D1%81%D0%B8%D1%81

Джамила Руфат гизи Рустамова
Доктор философии в области филологии
Доцент кафедры «Тюркическая филология» факультета востоковедения Бакинского государственного университета
cemile.rustemova@gmail.com
https://orcid.org/0009-0009-1154-9385

Особенности различия гендерлекта и моделей сложного предложения (на материале азербайджанского и турецкого языков)

Резюме

В статье рассматривается влияние фактора гендерлекта на формирование моделей предложений. В частности, изучается специфика различий в моделях сложных предложений. В своём анализе автор обращается к материалам, содержащимся в различных дискурсах современного азербайджанского и современного турецкого языков. Выясняется, что само понятие гендерлекта связано с контаминацией понятий гендера (т.е. социального пола) и идиолекта (индивидуального, частного стиля речи). Возникшее на этой основе терминологическое понятие указывает на то, что представители разных полов демонстрируют разные стили речи, разные стили идиолекта и разное речевое поведение. А именно, фактор различий в коммуникативных стратегиях во многих случаях приводит к формированию моделей предложений в разных формах (структурному формированию). Поскольку речевое поведение женщин и мужчин различается, коммуникация первых, основанная на достижении консенсуса (общего мнения, солидарности) между индивидами в обществе и основанная на эмпатии, контрастирует с прямыми речевыми моделями вторых (мужчин), которые не нуждаются в косвенных выражениях. Другими словами, разные коммуникативные стратегии порождают разные модели предложений, что в конечном итоге отчетливо проявляется в функционально-коммуникативном синтаксисе.

Ключевые слова: гендерлект, азербайджанский язык, турецкий язык, модели сложного предложения, мужская речь, женская речь.

Jamila Rufat gizi Rustamova
Doctor of Philosophy in Philology
Associate Professor of the Department of "Turkic Philology", Faculty of Oriental Studies, Baku State University
cemile.rustemova@gmail.com
https://orcid.org/0009-0009-1154-9385

Features of the difference between genderlect and complex sentence models (Based on the Azerbaijani and Turkish languages)

Summary

The article examines the influence of the genderlect factor on the formation of sentence patterns. In particular, the specifics of differences in the patterns of complex sentences are studied. In her analysis, the author refers to the materials contained in various discourses of the modern Azerbaijani and modern Turkish languages. It turns out that the very concept of genderlect is associated with the contamination of the concepts of gender (i.e. social sex) and idiolect (individual, private style of speech). The terminological concept that arose on this basis indicates that representatives of different sexes demonstrate different styles of speech, different styles of idiolect and different speech behavior. Namely, the factor of differences in communicative strategies in many cases leads to the formation of sentence patterns in different forms (structural formation). Since the speech behavior of women and men differs, the communication of the

former, based on achieving consensus (common opinion, solidarity) between individuals in society and based on empathy, contrasts with the direct speech patterns of the latter (men), who do not need indirect expressions. In other words, different communicative strategies generate different sentence patterns, which ultimately manifest themselves clearly in functional-communicative syntax.

Key words: genderlect, Azerbaijani language, Turkish language, complex sentence models, male speech, female speech.

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-67-70

Fəridə Zabit qızı Heybətova
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin doktorantı
faridaheybatova@gmail.com
ORCİD İD: 0009-0001-8498-4857

CƏLİL MƏMMƏDQULUZADƏNİN ƏSƏRLƏRİNİN DİLİNDƏ İŞLƏNƏN DİALEKTİZMLƏRDƏ SƏSDÜŞÜMÜ HADİSƏSİ

XÜLASƏ: Məqalədə görkəmli ədib C.Məmmədquluzadənin yaradıcılığında rast gəlinən sait və samit düşümü hadisələri linqvistik cəhətdən araşdırılır. Müəllifin bədii dilində dialektizmlərin formalaşmasında fonetik proseslərin, sait və samit düşümünün rolu təhlil olunur. Aparılan araşdırmalar göstərir ki, səs düşümü nəticəsində yaranan dialektizmlər obrazların sosial statusunu, psixoloji durumunu əks etdirən əsas amillərdən biridir. Səs düşümü hadisəsi C.Məmmədquluzadə yaradıcılığında təsadüfi xarakter daşımır, yazıçının üslubunu dolğun əks etdirir. Ədibin yaradıcılığında sait düşümü hadisəsi kök morfemin daxilində, kök və şəkilçi morfemlərinin sərhəddində, iki sözün birləşməsi nəticəsində baş verir. Samit düşümü hadisəsi isə sözün əvvəlində, ortasında, sonunda müşahidə edilir.

Açar sözlər: C.Məmmədquluzadə,səs düşümü, sait düşümü, samit düşümü.

GİRİŞ: Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin bədii irsinin dili Azərbaycan ədəbi dilinin xalq dili və dialekt qaynaqları hesabına zənginləşmişdir. Onun yaradıcılığında xalq danışıq dilinin rəngarəngliyi, canlı intonasiyası və dialekt xüsusiyyətləri bütün dolğunluğu ilə əks olunur. Sənətkar əsərlərinin bədii təsir gücünü daha da artırmaq məqsədilə dialektizmlərdən və ya şivə elementlərindən məharətlə yararlanmışdır. Ədibin dilində işlənən belə dialekt elementləri fonetik, leksik və qrammatik səviyyədə regional fərqlilikləri öyrənmək baxımından zəngin material verir. Bu mənada onun əsərlərindəki dialektizmlərdə müşahidə edilən fonetik hadisələrin, xüsusilə də səsdüşümünün (eliziya) araşdırılması həm yazıçının fərdi üslubunun, həm də onun yaşadığı dövrün dil mənzərəsinin müəyyənləşdirilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır.

ƏSAS HİSSƏ: C.Məmmədquluzadə yaradıcılığında rast gəlinən fonetik hadisələrdən biri də səsdüşümüdür. Səsdüşümü hadisəsidilin qənaət prinsipinə uyğundur və ədiblərimiz ondan öz yaradıcılıqlarında məharətlə istifadə etmişlər.Fərqli dialekt və şivə qrupları arasında geniş yayılmış səsdüşümü hadisəsinin müxtəlif formalarına C.Məmmədquluzadənin əsərlərində də geniş şəkildə rast gəlmək mümkündür. Ədibin yaradıcılığında səsdüşümü hadisəsi özünü sait düşümü, samit düşümü və heca düşümü olmaqla üç formada göstərir.

Sait düşümü. Yazıçının əsərlərində rast gəlinən fonetik dialektizmlərin bir hissəsində sait səslərin düşümü müşahidə edilir. Haqqında danışılan fonetik dialektizmlərdə sait düşümü hadisəsi üç vəziyyətdə özünü göstərir:

1) Kök morfemin daxilində sait düşümü. Sözün kök morfeminin əvvəlində, ortasında və sonunda sait düşümü hadisəsinə rast gəlinir. Sənətkarın yaradıcılığında söz əvvəlində sait düşümü hadisəsinə iyirmi – yirmi, əgər – gər və s. kimi sözlərdə təsadüf edilir. "Yirmi" dialektizmi sözün vurğusuz ilk hecasında sait səsin düşməsi nəticəsində yaranmışdır. Bu fonetik dialektizm ədibin "Nədir" adlı nəzm əsərində diqqət çəkir: "***Yirmi*** *keçdi və lakin, sən vətəndən keçmədin, Aləmi rüsvay edirsən, söylə vicdanın nədir*?" [4, s. 626]. Köməkçi nitq hissələrinə daxil olan "əgər" sözü də onun əsərlərində sait düşümü nəticəsində "gər" formasında işlənmişdir.

"*Elə ki, biz bu tövr ilə bilərik,*
Səbəbin bu işin yəqin edərik.
Ol zaman ***gər*** *olar kömək tari,*
Verərik ağaya günahkarı" [4, s. 358].

Sait düşümü hadisəsinə milli mənşəli sözlərlə yanaşı, alınma sözlərdə də təsadüf edilir: teleqraf – telqraf". "*Hacı əmi, vallah, belədi. Bu da* ***telqraf,*** *al, oxut, gör nə yazılıb*" [4, s. 425]. Qeyd olunan dialektizm sözün vurğusuz hecasında "e" səsinin düşməsi nəticəsində yaranmışdır.

Söz ortasında sait düşümü hadisəsinə məətəl – məttəl, filan – flan, papirus – paprus, firəng– frəng, şükür – şükr sözlərində rast gəlinir. "*Dur gedək, a kişi, heç nahaq yerə burda* ***mətəl*** *olma*" [4, s. 92]; "*Sonra hey bir ucdan çay, qəhvə,* ***paprus*** *daşıyıb düzdülər ağaların qabağına...*" [5, s. 127]; "***Şükr*** *olsun Allaha, sağ və salamat gəlib yetişdim Şirvan vilayətinə*" [5, s. 123]və s. C.Məmmədquluzadənin əsərlərindən seçilmiş nümunələrdən aydın olur ki, söz ortasında saitdüşümü hadisəsi baş vermiş fonetik dialektizmlər, əsasən, alınma sözlərdə sonor samitdən əvvəl gələn və sözün vurğusuz hecasındakı qapalı saitlərin düşməsi nəticəsində meydana gəlmişdir.

Yazıçının əsərlərində bəzən sonor samitdən əvvəl gələn açıq saitin düşməsi halına da rast gəlinir: şəhər – şəhr. "*İndi gələk Badikubə* ***şəhrinə***" [5, s. 415].

Ədibin əsərlərində söz sonunda sait düşümü hadisəsinə möcüz – möcüzə, savay – savayı, qeyri – qeyr sözlərində təsadüf edilir. "*Burada bir* ***möcüz*** *oldu. Hikmətə etiqad edənlər mənim yerimə olsa idilər, deyəcəkdilər ki, qəlbdən-qəlbə həmişə yol var...*" [4, s. 339]; "*Dostum, qaçmaqdan* ***savay*** *bir əlac yoxdur*" [4, s. 381]; "*...məclisin söhbətini eşitməklux onlara* ***qeyr*** *mümkündür, pəs lazımdır ki, bundan sözləri ucadan deyək*" [5, s. 94]. Göründüyü kimi, dramaturqun əsərlərində söz sonunda həm açıq, həm də qapalı saitlərin düşməsi hadisəsinə rast gəlinir. Belə ki, "möcüzə" sözü "möcüz", "savayı" sözü "savay", "qeyri" sözü "qeyr" kimi işlədilmişdir. "Möcüzə" sözündə "ə" açıq saiti, savayı, qeyri sözlərində isə "ı" və "i" qapalı saitləri düşmüşdür.

2) Kök və şəkilçi morfemlərin sərhədində saitdüşümü. C.Məmmədquluzadənin yaradıcılığında rast gəlinən fonetik dialektizmlərin bir qismində sait düşümü hadisəsi kök və şəkilçi morfemlərin sərhədində baş verir. Belə ki, bu

zaman söz kökü və ya əsasına şəkilçi morfemin artırılması ilə vurğunun sözün kökündən şəkilçisinə keçməsi nəticəsində qeyd olunan fonetik dialektizmlərdə saitdüşümü hadisəsi baş verir: yuxulamaq – yuxlamaq. "*Bəy o biri otağa girib, gördü ki, arvadı paltarlarını soyunmamış dayanıb yastığa və* ***yuxlayıb***"[4, s. 187]. Verilən nümunədən də aydın olur ki, yuxu kök morfeminə -la şəkilçi morfemi artırıldıqda sözün kökündəki -u saiti düşmüş və "yuxlayıb" şəklində işlədilmişdir.

Ədəbi dildə alınma ikihecalı sözlər vardır ki, onların ikinci saiti qapalı olur və şəkilçi artırıldıqda həmin sait ixtisar edilir: *fikir – fikri, şəkil – şəklə* və s. Eyni vəziyyətə dialektlərimizdə də rast gələ bilərik. Belə ki, *ömür, qəbir* sözlərinə III şəxsin mənsubiyyət şəkilçisi artırıldığına görə samitdən əvvəl gələn qapalı saitlər düşmüş və "ömr", "qəbr" fonetik dialektizmləri yaranmışdır. "*Əgər bunlar bir-birini xoşladı,* ***ömrlərinin*** *axırınadək bir yerdə yaşayacaqlar, əgər xoşlamasalar yenə bir tövr rəftar edəcəklər ki,* ***ömrlərini*** *başa versinlər*" [5, s. 165]; "*Bu danosa görə hökumət qoşun götürüb, gedib haman müsəlman kəndlərini hətta* ***qəbrlərinə*** *kimi söküb axtarıb və bir şey tapmayıb*" [5, s. 265]. Verilən nümunələrdən də göründüyü kimi, ***ömr, qəbr*** kimi sözlərdə ikinci sait ixtisar olunaraq verilmişdir, ancaq həmin sözlərə artırılan şəkilçilər samitlə başlayır. Fikrimizcə, sait səslərin bu şəkildə düşümü yazıçının üslubu ilə bağlıdır.

*3) İki sözün birləşməsi nəticəsində baş verən sait düşümü.*Ədibin əsərlərindəki bəzi fonetik dialektizmlərdə sait düşümü hadisəsi iki sözün birləşməsi nəticəsində baş vermişdir. "*Bu hadisə çox vaxt nə sual əvəzliyi ilə eləmək, olmaq, etmək köməkçi feillərinin və iş sözünün birləşməsi nəticəsində olur*" [2, s. 39]. "***Neyləк,*** *bu gün qatıq ye, sabah inşallah, əlbəttə, sənə aş bişirəcəm*" [4, s. 95]; "*Da* ***neylim,*** *məəttəlsən? Pəh, dəng olduq*" [4, s. 103]. "Nə" sual əvəzliyi ilə "etmək (eləmək)" köməkçi feilinin birləşməsi nəticəsində yaranan "nə edək (nə eləyək)" və "nə edim (nə eləyim)" ifadələrində ilk sözün saitinin düşməsi nəticəsində "neylək", "neylim" fonetik dialektizmləri yaranmışdır.

Samit düşümü.C.Məmmədquluzadənin yaradıcılığında rast gəlinən fonetik dialektizmlərin bir qismində samit düşümü hadisəsi baş verir. Qeyd edək ki, ədibin mənsub olduğu "*Naxçıvan qrupu dialekt və şivələrində səssizlərin (samitlərin – F.H.) düşümü hadisəsi geniş yayılmışdır*" [2, s. 57]. Bu tip səsdüşümü hadisəsinə onun əsərlərində üç mövqedə rast gəlinir:

*a) Söz əvvəlində samit düşümü.*Söz əvvəlində **h** samitinin düşümü hadisəsinə ürkütmək – hürkütmək, örümçək – hörümçək fonetik dialektizmlərini nümunə göstərmək olar. Ədəbi dildə "hürkütmək" və "hörümçək" [1, s. 403, 411] kimi işlənən bu sözlər yazıçının dilində "h" samitinin düşməsi ilə işlədilir. "*Mənim çoxdandı fikrimdədi onu sığə eləyim; Amma övrət gəlmir. Bilmirəm* ***ürküdürlər,*** *ya nədi*" [4, s. 56]; "*Ağalar, bir baxın. Bu heyvanın vücudu* ***örümçək*** *kimi iki qisimdən mütəşəkkildir*" [4, s. 279]. "*Daha çox qərb dialekt qrupu (xüsusən Qazax) və Zaqatala şivəsi üçün xarakterik olan söz əvvəlində "h" samitinin düşümü hadisəsi*" [7, s. 99] nümunələrdən göründüyü kimi, əsasən, önsıra, dodaqlanan "ö", "ü" səslərindən əvvəl baş verir. Söz əvvəlində "h" samitinin düşməsi halına bir sıra qədim və müasir türk dillərində də təsadüf edilir [7, s. 99].

b) Söz ortasında samit düşümü. Yazıçının əsərlərində söz ortasında **h, l, r, n, y, k** samitlərinin düşümünü nümunə göstərmək olar.

Y *səsinin düşümü.* "***Y*** *səsinin düşümü hadisəsinə az və ya çox dərəcədə bütün dialekt və şivələrimizdə rast gəlirik. Lakin bu hadisə qərb dialekt və şivələrində daha qabarıq şəkildə özünü göstərir. Bu qrup dialekt və şivələrdə (xüsusən Qazax dialektində)* ***y*** *səsi iki sait arasında düşür. Bundan əlavə,* ***y*** *səsinin sonor* ***n, r*** *səsləri və* ***c, d, k*** *səslərindən əvvəl də düşdüyü qeyd edilmişdir*" [7, s. 101]. Dramaturqun yaradıcılığında rast gəlinən peynir – penir, qeyri – qeri kimi fonetik dialektizmlərdə söz ortasında "y" və "d" samitlərinin düşümü baş vermişdir. *"d" səsinin düşümü: günüz, pənir/ penir (Nax., Təb., Cəb.), tənur (Təb.), midət (Meğ.)*"[6, s. 91]. "*Hər bir fəhlənin xərci gündə altı qəpiklik çörək, bir qəpiklik* ***penir,*** *otuzaltı qəpiklik qovun ya qarpız və bir qəpiklik tənbəkidir ki, cəmi eləsin qırx dörd qəpik*" [5, s. 82]; "*Sonra eşitdim ki, İrəvanda, Bakıda, Şuşada, Naxçıvanda, Vladiqafqazda, Gəncədə* ***qeri*** *şəhərlərdə "İrşad"a pul yığırlar*" [5, s. 202]. Qeyd edək ki, "penir" fonetik dialektizmi "peynir" leksik dialektizmində söz ortasında səsdüşümü baş verməsi nəticəsində əmələ gəlmişdir."Qeri" dialektizmi isə "qeyri" sözündən "y" samitinin düşməsi nəticəsində yaranmışdır.

H *səsinin düşümü.* Dialekt və şivələrimiz arasında geniş yayılmış söz ortasında "h" samitinin düşümü hadisəsinə "*Şərq dialekt və şivələrində bu hadisəyə daha geniş yer verilir*" [7, s. 101].Qeyd edək ki, "*Naxçıvan qrupu dialekt və şivələrində söz ortasında h səsinin düşməsi alınma sözlərə aiddir*" [2, s. 59]. Bu səbəbdən haqqında danışılan fonetik hadisəyə müəllifin əsərlərində alınma tamah – təməh dialektizmində ona mənsubiyyət şəkilçisi artırılarkən təsadüf edilir. "*Vəssalam. Mənim yoxsa artıq* ***təməim*** *yoxdur*" [4, s. 57]. Ədəbi dildə "tamah", dialektdə "təməh" formasında işlənən bu sözə ədibin dilində "təməim" formasında rast gəlinir. Bu zaman qeyd olunan sözə saitlə başlanan -im şəkilçinin artırılması nəticəsində iki sait arasında eşidilməz olan "h" samitinin düşümü hadisəsi baş vermişdir. Təqdim edilən fonetik dialektizmdə "h" samitinin düşməsi nəticəsində ondan əvvəl gələn "ə" saiti bir qədər uzun tələffüz olunur. M.Şirəliyev bu cür səsdüşümü hadisəsi haqqında yazmışdır: "***H****səsinin düşümü çox vaxt alınma sözlərdə iki sait, ya saitlə sonor, ya da sait ilə* ***ş, s, f, v*** *səsləri arasında özünü göstərir. Qeyd etmək lazımdır ki,* ***h*** *səsinin düşümü özündən əvvəlki saitin uzanmasına da səbəb olur*" [7, s. 101].

K *səsinin düşümü.* Dialekt və şivələr arasında o qədər də geniş yayılmamış söz ortasında "k" samitinin düşümü hadisəsinə müəllifin əsərlərində də nadir hallarda rast gəlinir: kötükcə – kötücə. "*Frəngistanın məşhur həkimləri sübuta yetiriblər ki, bir şəxsin sifətləri və xasiyyətləri onun evladına yetişəcək, evladına yetişməsə, nəvələrinə, nəvələrinə yetişməsə, nəticə və* ***kötücələrinə*** *yetişəcək*" [5, s. 415]. Verilmiş nümunədən də görünür ki, kötükcə sözündə sözün ortasında işlənən "k" samitinin düşümü ilə söz kötücə şəklində istifadə edilmişdir. Yəni ədəbi dildə işlənən kötükcə sözü dialektlərdə kötücə kimi işlənir.

N** səsinin düşümü.* "N** səsinin düşməsi Naxçıvan qrupu dialekt və şivələrində yayılmış hadisələrdən hesab olunur. Qərb qrupu dialekt və şivələrində olduğu kimi, burada da n səsi çox vaxt k, c səslərindən əvvəl düşür*" [2, s. 58]. M.Şirəliyev bu barədə yazır: "***N** səsinin düşümü əsasən **r, l, ş, s, z, t, g, x'** səslərindən əvvəl meydana gəlir*" [7, s. 102]. Qeyd olunan samit düşümü hadisəsi sonra – sora, onlar – olar, bunlar – bular ifadələrində müşahidə edilir. "*Get ay batandan **sora** gəl*" [5, s. 108]. "*Mən indiyə kimin istəmirdim **oları** incidim, yoxsa **oların** mənə zoru yoxdur ki*" [4, s. 372]; "*Soltan ağa, **bular** haman ermənilərdir ki, keçən dəfə də gəlmişdilər?*" [4, s. 372].Qeyd edək ki, "onlar" və "bunlar" əvəzliklərinin dialekt versiyasında "olar", "bular" şəklində işlənilməsi onların tarixi, morfoloji formalarının bərpası ilə əlaqədardır. Fikrimizcə, bu sözlərin "olar" və "bular" formalarında işlənilməsi tarixən ədəbi dil normasına uyğun olmuşdur. Bu əvəzliklərə sonradan "n" bitişdirici samitinin artırılması nəticəsində səs artımı hadisəsi baş vermiş və "onlar", "bunlar" formaları əmələ gəlmişdir. Dilalektlərimizdə dilimizin qədim dil faktlarının toplandığını nəzərə alaraq qeyd edə bilərik ki, bunlar, onlar kimi əvəzliklərin bular, olar şəklində tələffüzü tamamilə dilin tarixinə əsaslanır.

"Sonra" sözünün də dialektdə [so:ra] formasında işlənilməsi ədəbi dilimizin tələffüz qaydasına uyğundur. Belə ki, qeyd olunan fonetik dialektizmdə "n" samitinin düşməsi nəticəsində "o" saiti uzun tələffüz olunur.

L** səsinin düşümü.* Əvvəlki səsdüşümü hadisəsi kimi söz ortasında sonor "l" samitinin düşümü də dialekt və şivə qrupları arasında az təsadüf edilən hadisələrdəndir. Qeyd olunan səsdüşümü hadisəsinə yazıçının yaradıcılığında büllur – bülur nümunəsində rast gəlinir: "*İsmi-rəsmim mənim olub məşhur, Bədənim də ya şişədir, ya **bülur" [4, s. 362]. Bu məqamda bir məsələni də qeyd etmək yerinə düşər ki, ədəbi dildə də qoşa "m" samitinin "m" kimi, qoşa "l" samitinin "l" tələffüzünə rast gəlinmir, bu hadisə sırf dialektə aiddir.

Söz sonunda samit düşümü. "*Naxçıvan qrupu dialekt və şivələrində söz ortasında səssizlərin (samitlərin – F.H.) düşümü bir o qədər yayılmış hadisə deyildir*" [2, s. 59]. C.Məmmədquluzadənin yaradıcılığında söz sonunda **r**, bəzən də **s** və **n** samitlərinin düşümü hadisələrinə *məsəla – məsələn, gəti – gətir, otu – otur, bə – bəs, nə olu – nə olur, odu – odur* kimi ifadələrdə təsadüf olunur.

Söz sonunda "r" səsinin düşümünə əksər dialekt və şivələrdə olduğu kimi, ədibin əsərlərində də həm söz kökündə, həm də şəkilçilərin tərkibində rast gəlinir. Haqqında danışılan səsdüşümü hadisəsinə yazıçının əsərlərində *gətir – gəti, otur – otu, nə olur – nə olu, odur – odu* ifadələrində təsadüf edilir. "*A kişi, durma, min ulağı get Zibeydəni **gəti***"[4, s. 169]; "*Bala, Gülbahar, gəl **otu** yanımda, durma ayaq üstə*" [4, s. 445]; **"*Nə olu** ki, heç olmasa, bircə saat çəpik çalalar, yazıq Nazlının da ürəyi açıla*" [4, s. 422]; "*Çünki bu övqat ceviz və ərik qurusu İrəvan səmtində yaxşı pula gedir, **odu** ki, çarvadarlar bu saat bikar deyillər*" [4, s. 231]. Göründüyü kimi, söz sonunda "r" sonor səsinin düşümü hadisəsi söz kökünə nisbətən, şəkilçilərin tərkibində daha çox müşahidə edilir. "Gəti", "otu" fonetik dialektizmləri söz kökündəki sonuncu səsin, "odu", "nə olu" sözləri isə sözə qoşulan III şəxs xəbərlik və indiki zaman şəkilçilərinin son samitinin düşməsi nəticəsində meydana gəlmişdir. M.Şirəliyevin də vurğuladığı kimi, bu tip samit düşümü hadisəsinə digər türk dilləri və onların dialektlərində də rast gəlmək mümkündür. Burada da "r" samitinin düşümünə söz kök və əsaslarına nisbətən, şəkilçilərin tərkibində daha çox təsadüf edilir [7, s. 104]. Fikrimizcə, M.Şirəliyevin bu fikirləri qeyd etdiklərimizlə üst-üstə düşür və onları təsdiq edir.

***S** səsinin düşümü.* Dialekt və şivələr arasında geniş yayılmamış hadisələrdən olan söz sonunda "s" səsinin düşümü hadisəsinə *bəs – bə* fonetik dialektizmində təsadüf edilir. "*Kəblə Qasım, urus arvadları **bə** kişilərnən nə danışırdılar?*" [4, s. 189]. Verilən nümunədə "bəs" sual ədatının sonunda "s" samitinin düşməsi həmin ədatın "bə" şəklində istifadə olunması ilə nəticələnmişdir.

N** səsinin düşümü.* Sonor "n" samitinin düşümü hadisəsinə müəllifin yaradıcılığında *məsələn – məsəla* formasında rast gəlinir. "Məsəla,** indi bu saat burda Xudayar katda ləzzətnən yıxılıb yatdı. Amma elə bu saat Danabaş kəndində üç yerdə matəm qurulubdu*" [4, s. 67]. Qeyd edək ki, "məsələn" sözü müasir türk ədəbi dilində "mesela" formasında işlənməkdədir.

Nəticə: Beləliklə, C.Məmmədquluzadə dialekt və şivələrdəki səs düşümü faktlarını bədii dilə gətirməklə, yaşadığı dövrün ədəbi dillə canlı danışıq dili arasındakı uçurumu aradan qaldırmışdır. Məqalədə bəhs edilən səs düşümü halları göstərir ki, ədib yazı dilini bacardığı qədər şifahi nitqin orfoepik normalarına uyğunlaşdırmağa cəhd etmişdir. C.Məmmədquluzadənin dilindəki səs düşümü hadisəsi yalnız üslubi mahiyyət kəsb etmir, həmçinin Azərbaycan dilinin fonetik sisteminin zəngin olduğunu təsdiqləyir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə] / Tərtibçilər: Ə.Orucov, B.Abdullayev, N.Rəhimzadə; red. A.Axundov. – Bakı: Şərq-Qərb, – c. 2. – 2006. – 792 s.
2. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri / red. M.Ş.Şirəliyev. – Bakı: Azərb. SSR EA nəşriyyatı, – 1962. – 326 s.
3. Bayramov, İ.M. Azərbaycan dialektologiyası. / İ.Bayramov. – Ankara: İksad, – 2022. – 456 s.
4. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 1. – 2004. – 664 s.
5. Məmmədquluzadə, C. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 2. – 2004. – 584 s.
6. Məmmədli, M.Ə. Azərbaycan dialektologiyası / M.Ə.Məmmədli. – Bakı: Zərdabi Nəşr MMC, – 2019. – 352 s.
7. Şirəliyev, M. Azərbaycan dialektologiyasının əsasları / M.Şirəliyev. – Bakı: Şərq-Qərb, – 2008. – 416 s.

Farida Zabit gizi Heybatova

PhD student of the Department of Azerbaijani Dialectology, Nasimi Institute of Linguistics, ANAS

faridaheybatova@gmail.com

ORCID ID: 0009-0001-8498-4857

The phenomenon of sound elision in dialectisms used in the language of Jalil Mammadguluzadeh's works

Summary

The article investigates the linguistic phenomena of vowel and consonant elision found in the works of the

prominent writer J.Mammadguluzadeh. It analyzes the role phonetic processes, specifically vowel and consonant elision, in the formation of dialectisms within the authore's literary language. The analysis demonstraters that dialectisms arising from sound elision are key factors reflecting the social status and psychological state of the characters. The phenomenon of sound elision in J.Mammadguluzadeh's work is not accidental; it fully reflects the writer's unique style. In the author's works, vowel elision occurs within the root morpheme, at the boundary of root and suffix morphemes, and as a result of the combination of two words. Consonant elision, on the other hand, is observed at the begining, middle, and end of words.

Key words: J.Mammadguluzadeh, dialectism, sound elision, vowel elision, consonant elision.

Фарида Забит кызы Хейбатова
Аспирант кафедры азербайджанской диалектологии Института языкознания Насими НАНА
Faridaheybatova@gmail.com
Идентификатор ОРКИДа: 0009-0001-8498-4857

Явление выпадения звука в диалектизмах, употребляемых в языке произведений Джалиля Мамедкулузаде

Резюме

Встатьеисследуютсялингвистическиеявленияразделениягласныхисогласных, встречающиесявпроизведенияхвыдающегосяписателяДж.Мамедгулузаде. В неманализируетсярольфонетическихпроцессов, в частности выделения гласныхисогласных,вформированиидиалектизмоввлитературномязыке автора.Анализпоказывает, чтодиалектизмы, возникающие в результате выделения звуков, являютсяключевымифакторами, отражающимисоциальныйстатусипсихологическоесостояниеперсонажей.Феномензвукоизвлеченияв творчествеДж.Мамедгулузаде неслучаен,он в полной мере отражаетнеповторимыйстильписателя.Вработахавтора выделение гласныхпроисходитвнутрикорневойморфемы,награницекорневойисуффиксальнойморфем,атакжеврезультате сочетаниядвухслов.Сдругойстороны, выделение согласныхнаблюдаетсявначале,серединеиконцеслов.

Ключевыеслова:Дж.Мамедгулузаде,диалектизм, выделение звуков, выделениегласных,выделениесогласных.

Rəyçi: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-71-76

Sənubər Əlövsət qızı Abdullayeva
Filologiya elmləri doktoru
Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının professoru
asanubar@mail.ru
ORCİD ID: 0009-0004-1579-1754

ENANTİOSEMİYA SEMİOTİK HADİSƏ KİMİ

XÜLASƏ: Yazılan dilçilik əsərlərində adətən bu hadisəni antonimliyə aid edirlər, onu antonimliyin bir növü kimi qələmə verirlər. Əslində enantiosemiya antonimliklə yox, çoxmənalılıqla bağlıdır. Konteksdən asılı olaraq çoxmənalı sözdən 1)müxtəlif məna incəlikləri; 2) mənalardan birinin inkişafı ilə əlaqədar olaraq omonimlik və 3) daxili əksmənalılıq yarana bilir. Enantiosemiyanın yaranma səbəbini nitq prosesi ilə əlaqələndirmək düzgün olar. Sözün emosional yükü nitq prosesində dəyişir və tədricən dil faktına çevrilir. Daxili əksmənalılıq dildə nadir hadisə olsa da, dildə mövcuddur. Enantiosemiya, xüsusilə, feillərdə daha çox müşahidə olunur. *Qaralamaq* feili həm *yazmaq,* həm də *pozmaq* mənasında işlənir. *Qorxmaq* feili həm nədənsə çəkinmək, ehtiyat etmək, həm də hörmət etmək mənasını daşıyır. Azərbaycan dilində enantiosemiyaya nümunə kimi *yaman* və *bəla* sözlərinin daşıdığı müsbət və mənfi mənaları diqqəti cəlb edir. Enantesemiyanın izlərinə Azərbaycan dilində bu gün də rast gəlmək olur. *Alçaq* sözü də tarixən türk dillərində *təvəzökar, alicənab, sadə* mənalarında işlənmişdir. Məqalədə İ.Nəsimi, Həsənoğlu, Xəstə Qasımın əsərlərində, dastanların dilində bu sözün göstərilən məna ilə işləndiyi sübuta yetirilir. Mənanın reallaşması üçün kontekst mühüm əhəmiyyət kəsb edir. Bu söz *təvəzökar, alicənab* mənası ifadələrdə, söz birləşmələrində, frazeoloji vahidlərdə, eyni zamanda, bir sıra türk dillərində, dialekt və şivələrdə özünü qoruyub saxlayır.

Açar sözlər: semiotika, çoxmənalılıq, semantik dəyişmə, enantiosemiya, daxili əksmənalılıq.

GİRİŞ: Xalqın tarixi və dilin özünün inkişafı ilə əlaqədar olaraq sözün leksik mənası daim dəyişməyə məruz qalır. Sözün mənasında olan dəyişikliklər çoxmənalı sözün inkişaf prosesini təşkil edir. Bu inkişaf nəticəsində çoxmənalı sözdən ayrılan bir sıra mənalar müstəqilləşir. Sözün semantik inkişafı nəticəsində bir kökdən müxtəlif mənaların ayrılması, hətta eyni bir kökdən bir-birinə əks mənaların ayrılması da müşahidə olunur. Bir sözdən bir-birinə əks mənaların ayrılması dilçilikdə enantiosemiya (daxili əksmənalılıq) adlandırılır [1, s. 526]. Bu hadisə dilçilikdə XIX əsrin sonlarında prof. Vikentiy İvanoviç Şerçl (1843-1906) tərəfindən enantiosemiya termini ilə adlandırılmışdır. Müəllif enantiosemiyanı semiotikanın son dərəcə gözəl və qeyri-adi hadisəsi adlandırır [2, s. 259]. V.İ.Şerçl öz məqaləsində xüsusi olaraq qeyd edir: ”Bununla belə, belə bir qeyri-müəyyənlik, eyni səslərin və ya komplekslərin əks mənaları özündə birləşdirməsi xüsusilə qədim dillərdə və ibtidai xalqların dilində daha çox yayılmış olur. Dil nə qədər qədimdirsə, xalq nə qədər primitivdirsə, o dillərdə bu hadisəyə bir o qədər tez-tez rast gəlmək olur. Əksinə, dil nə qədər inkişaf etmişdirsə, xalq nə qədər mədəni və savadlıdırsa, o qədər mənaları fərqləndirmək bacarığı artır və enantiosemiya daha az olur” [2, s. 259].

Bu mühüm hadisə elmimizdə çoxdan məlum olsa da, indiyə qədər lazımınca aydınlaşdırılmamışdır; ona ya çox az diqqət yetirilmiş, ya da o ətraflı şəkildə təhlil edilməmış, ən yaxşı halda qeyri-müəyyən misallarla məhdudlaşdırılmışdır. Buna görə də enantiosemiyanın müxtəlif nümunələr əsasında daha geniş təhlili, zənnimcə, məqsədəuyğun olmalıdır.

Mövzunun işlənmə dərəcəsi.Enantiosemiya hadisəsi leksik semantika, semantik dəyişmə və çoxmənalılıq çərçivəsində tədqiq edilmişdir. [3]. Türkologiya kontekstində leksik vahidlərin tarixi-semantik inkişafı geniş şəkildə sənədləşdirilmişdir. G. Clausonun əsəri XIII əsrdən əvvəlki türk leksikasının geniş etimoloji təsvirini təqdim edir, semantik dəyişmələri izləyir və mənaların zamanla necə inkişaf edib fərqləndiyini göstərir [4]. Bu yanaşma Mahmud Kaşğarinin “Divanu Lüğəti’t-Türk” əsəri kimi klassik mənbələrlə tamamlanır; həmin əsərdə türk sözlərinin erkən semantik xüsusiyyətləri qeydə alınmış və onların çoxmənalı və kontekstdən asılı istifadəsinə dair dəyərli material verilmişdir. [5].

Azərbaycan dilçiliyində semantik inkişafın öyrənilməsinə mühüm töhfə İ. Məmmədov tərəfindən verilmişdir. O, Azərbaycan dilində leksik semantikanı və məna yaranmasının mexanizmlərini təhlil etmişdir [6]. Müasir Azərbaycan dilinin lüğət sistemini, o cümlədən çoxmənalılıq və semantik variasiyanı araşdıran H. Həsənovun tədqiqatları da bu sahəyə əlavə töhfə verir [7]. T. Hacıyev [8] və E. Əzizovun [9] araşdırmaları isə tarixi və dialektoloji baxımdan əhəmiyyətlidir; onlar semantik xüsusiyyətlərin dilin müxtəlif inkişaf mərhələlərində və regional variantlarında necə qorunub saxlandığını və ya dəyişdiyini göstərirlər.

Mədəni və ədəbi mənbələrin semantik hadisələrin qorunması və əks etdirilməsində rolu xüsusilə Azərbaycan folkloru və klassik ədəbiyyatında özünü göstərir. “Azərbaycan dastanları” [10], “El şairləri” [11] toplusu və “Kitabi-Dədə Qorqud” dastanı [12] fərqli mənalar daşıyan leksik vahidlərin kontekstual istifadəsini nümayiş etdirən zəngin material təqdim edir. Bu mətnlər göstərir ki, enantiosemiya yalnız dil hadisəsi deyil, həm də üslubi və mədəni vasitədir; o, diskursda ifadəlilik, obrazlılıq və semantik dərinlik yaradır. Eyni şəkildə, “Qutadqu Bilik” əsəri türk ədəbi ənənəsində semantik variasiya və kontekstual məna realizasiyasının tarixi nümunələrini təqdim edir.

Etimoloji baxımdan F.Cəlilovun tədqiqatları müəyyən leksik köklərin (məsələn, *al*) inkişafını araşdıraraq göstərir ki, semantik genişlənmə və transformasiya əlaqəli formalar daxilində əks mənaların yaranmasına səbəb ola bilər [16]. Bu yanaşma enantiosemiyanın diaxron semantik dəyişmə prosesləri ilə sıx bağlı olduğunu təsdiqləyir.

Tədqiqatın metod və materialları.Hazırkı tədqiqat enantiosemiyanı semantik hadisə kimi təhlil etməyə yönəlmiş

nəzəri və empirik metodların birləşməsinə əsaslanır. Əsas metodoloji yanaşma təsviri və analitik metodları əhatə edir; bu metodlar leksik vahidlərin semantik strukturunu araşdırmaq və Azərbaycan dilində enantiosemiya hallarını müəyyənləşdirmək üçün istifadə olunur.

Müqayisəli metod enantiosemiyanı çoxmənalılıq, omonimiya və semantik oppozisiya kimi digər semantik hadisələrlə əlaqələndirmək məqsədilə tətbiq edilir və leksik semantika sahəsində qəbul olunmuş nəzəri çərçivələrə əsaslanır [1; 2]. Bundan əlavə, diaxron yanaşmadan istifadə olunaraq leksik mənaların tarixi inkişafı izlənilir və xüsusilə türk dillərində ayrı-ayrı sözlər daxilində semantik oppozisiyanın yaranma mənbələri araşdırılır.

Tədqiqatın empirik materialını müxtəlif mənbələrdən seçilmiş leksik vahidlər təşkil edir. Bu mənbələrə izahlı lüğətlər, klassik ədəbi mətnlər və folklor nümunələri daxildir. Xüsusi diqqət Azərbaycan dastanlarından və ədəbi əsərlərdən götürülmüş nümunələrə, o cümlədən "Kitabi-Dədə Qorqud" [12; 15], eləcə də Mahmud Kaşğarinin "Divanu Lüğəti't-Türk" [5] və Yusif Has Hacibin "Qutadqu Bilik" kimi tarixi mənbələrə yönəldilmişdir. Bu mənbələr müxtəlif tarixi dövrlərdə bir leksik vahid daxilində semantik variasiya və əks mənaların yanaşı mövcudluğunu təsdiqləyən faktlar təqdim edir.

ƏSAS HİSSƏ: Sözün semantik təbiətinin dəyişməsi nitq prosesinin məhsuludur ki, burada da onun mövqeyini, funksiyasını unutmaq olmaz. Sözün mənası ilə qrammatik cəhətləri eyni vaxtda dəyişilir və söz formalaşmış şəkildə nitqə daxil olur. Kontekstdən asılı olaraq bu sözün hansı mənanı ifadə etdiyi başa düşülür. Göründüyü kimi, reallaşma şəraiti sözün həmin halda işlənmiş mənasından başqa bütün mənaları pərdələyir, arxada qoyur. Söz daim eyni sintaktik mövqedə işləndikcə həmin mövqedə möhkəmlənir. Sözün mənası və funksiyasında olan hər hansı bir innovasiya dil normaları tərəfindən ya qəbul, ya da inkar olunur. Əgər dil normaları tərəfindən qəbul edilirsə, o, dil sistemində möhkəmlənir. Sistem onun mənası və funksiyasını idarə edir. Yeni sintaktik mövqedə işləndiyinə görə söz yeni kateqorial əlamətlər qazanır. Sözün yeni xüsusiyyəti ilə köhnə xüsusiyyəti arasında olan mənşə ümumiliyi bu sözdə yaranan yeni xüsusiyyəti yaşadır, motivləşdirir, bununla da sözü anlaşıqlı edir, onun dildə işlənməsinə səbəb olur. Söz yeni keyfiyyət qazandıqca köhnə keyfiyyətləri itirir, tərkibindəki morfoloji elementlər isə leksikləşir və daşlaşır. Söz funksiyasında işləndiyi nitq hissəsinin leksik vahidi kimi həmin nitq hissəsinə daxil olan başqa leksik vahidlərlə bərabərhüquqlu olur. Çünki sözün semantik təbiətinin dəyişməsi nitq prosesinin məhsuludur. Ümumiyyətlə, sözün semantik dəyişməsini sözün leksik mənası, onun bilavasitə əlaqələndiyi sözlə münasibəti və mətni situasiya ilə vəhdətdə baş verməsini nəzərə alaraq dil sistemində aşağıdakı kimi müəyyənləşdiririk:

1. Çoxmənalı sözlərin müxtəlif məna incəlikləri təzahür edir. Azərbaycan dilçiliyində bu barədə çox bəhs edilmiş və bu proses yetərincə işıqlandırılmışdır [6; 7].

2. Semantik üsulla sözdüzəltməyə çoxmənalı sözün parçalanmasının nəticəsi olaraq omonimlərin yaranması kimi baxmaq olar. Yeni mənanın köhnə mənanı sıxışdırması nəticəsində faktiki olaraq, eyni mənşədən törəyən müxtəlif sözlər yaranır.

3. Bir sözdən bir-birinə əks mənaların ayrılması da semantik söz yaradıcılığı prosesinin mühüm cəhətlərindən birini təşkil edir. Sözlərin belə mənaları dilçilikdə enantiosemiya adlandırılır [1, s. 115]. Qeyd etməliyik ki, türk dillərinə aid tədqiqatlarda enentiosemiya (daxili əksmənalılıq) bu dillərin materialları üzrə araşdırılmamış qalır.

Çox vaxt enantiosemiya onunla izah olunur ki, qədim zamanlarda kök və onlardan törəmə sözlər ümumi, çox geniş və son dərəcə qeyri-müəyyən mənalara malik olmuşdur. Onlardan sonralar tədricən çoxsaylı çalarların meydana çıxması və müstəqil kateqoriyalara budaqlanması ilə dildə ortaq mənsubiyyətə baxmayaraq, məlum bir spesifikliyə malik olan mənalar formalaşmışdır.

Qədim kök sözlərin şübhəsiz və çox xarakterik xüsusiyyətini təşkil edən polisemantik təbiət enantiosemiyanın ən mühüm səbəblərindən biri kimi çıxır. Artıq dilin ən qədim dövrlərində obyektiv xarakterinə görə qeyri-müəyyən olan, qarşılıqlı əlaqə və əlaqəni ehtiva edən məlum baxış və anlayışlar eyni kökdə təsbit olunurdu ki, bu da nəticə etibarı ilə bir ümumi ideyadan gəlsə də, özlüyündə bir-birinə zidd olan iki mənanı birləşdirirdi. Bundan əlavə, bir çox sözlər bəzən geniş, bəzən dar mənada, bəzən ironiya, bəzən istehza və ya təhqir konnotasiyası ilə, həqiqi və ya məcazi mənada işlənə bilər.

Şübhə yoxdur ki, dilin ən qədim dövrlərində sözlərin çoxmənalılığını və qeyri-müəyyənliyini nəzərə alsaq, insan bir-birinə nəyisə izah etməkdə sonrakı dövrlərə nisbətən daha çox çətinliklərlə üzləşmişdir. Lakin eyni zamanda, insanın həmişə öz nitqini tamamlamaq və canlandırmaq üçün müxtəlif mənalardan istifadə etdiyi də unudulmamalıdır. Bəzi hallarda, enantiosemiya təsadüfi görünür, qədim köklərin məna və ifadə zənginliyi ilə izah olunur və şərtlənir. Ümumi anlayış sferalarından əksliklərin inkişafı təsadüfi deyil, məntiqi hesab edilməlidir. Belə sözlər nitqə obrazlılıq və semantik dərinlik verir. Onlar ədəbi yaradıcılıqda, publisistikada və gündəlik danışıqda ikiqat mənalılıq, ironiya və söz oyunu effekti yaratmaq üçün tez-tez istifadə olunur. Bundan başqa, belə leksik vahidlərin meydana çıxması və yayılması ünsiyyət normalarını, dilin işləmə mexanizmlərini əks etdirə bilər.

Enantiosemiya yolu ilə, əks məna çalarlığı qazanaraq müstəqilləşən və yeni vahid kimi təzahür edən sözlər ad və feil kimi nitq hissələri qruplarında fəaliyyət göstərir. Daxili əksmənalılıq, xüsusilə, feillərdə daha çox müşahidə olunur.

Qaralamaq feili həm *yazmaq,* həm də *pozmaq* mənasında işlənir. Yazmaq mənasında - Bir şey *qarala* konfransa gedək. Pozmaq mənasında – Yazdıqlarının hamısını *qarala*. Bunların heç biri yaramır.

Keçinmək feili həm sadə yaşamaq, birtəhər dolanmaq, həm də dünyasını dəyişmək anlamında işlənir. Yaşamaq mənasında – kənd camaatı *birtəhər keçinirdi*. Ölmək, vəfat etmək mənasında - *o dünən keçindi*.

Qorxmaq feili həm nədənsə çəkinmək, ehtiyat etmək, həm də hörmət etmək mənasını daşıyır. Çəkinmək mənasında – Qaranlıqdan *qorxma*. Hörmət etmək, çəkinmək mənasında – Hamı atamdan *qorxurdu*.

Azərbaycan dilində enantiosemiyaya nümunə kimi *yaman* və *bəla* sözlərinin daşıdığı müsbət və mənfi mənaları diqqəti cəlb edir. Azərbaycan dilində belə sözlərdən daha qabarıq nəzərə çarpan və dildə daha fəal işlənənlərdən aşağıdakıları göstərmək olar:

Yaman – bu sözün əks mənası ilkin mənası ilə paralel işlənir, belə ki, *yazıq* sözünün ilkin mənasına ancaq tarixi abidələrdə rast gəliriksə, *yaman* sözü hər iki mənada: *yaxşı* və *pis* mənaları müasir dildə işlədilir.

Pis mənasında – *Zəmanə yaman dəyişildi* (Ə.Vəliyev); *Bu dünyada üç şey bəladır: Yaman oğul, yaman arvad, yaman at* (Aşıq Ələsgər). Yaxşı mənasında – *Ancaq onu xeyli vaxtdır görmürəm, ürəyim yaman istəyir* (İ.Şıxlı). *Qız Afiqin yaman xoşuna gəlirdi* (S.Səxavət). *Yaman danışdı.*

Şifahi xalq ədəbiyyatı nümunələrində bu sözün pis mənasında işlədilməsinə (Yaxın yoldaş *yaman* gündə sınanar; *Aman, aman oldu, gəl, halım yaman oldu, gəl* və s.) daha çox təsadüf edilir. Bu söz əvvəllər *pis* mənasında işlənmiş, sonralar isə nitq prosesindəki fəaliyyəti ilə əlaqədar yeni semantik çalarlıq qazanaraq *yaxşı* mənasında işlədilmişdir ki, bu da nisbətən son dövrlərin məhsuludur.

Bəla – bu söz də həm yaxşı, həm də pis məna çalarlığı qazanan sözlərdəndir. Pis mənasında – *Axı, o bəlanın adı nədir?* – deyə israr etdim (Əfqan); *Qarğa çox bildiyindən bəlaya düşər* ("Atalar sözü"). Yaxşı mənasında – *Zalım balası lap bəladır, elə bil od-alovdur* (Ə.Vəliyev).

Bəzən bədii üslubda yüksək emosionallıq yaratmaq üçün bu sözün hər iki məna variantından da istifadə edilir: Məsələn: *Bu qız bəladır* (Sözün yaxşı mənasında); *Axırı nə oldu? Onun başına gör nə bəla gəldi...* (B.Bayramov).

Enantesemiyanın izlərinə Azərbaycan dilində bu gün də rast gəlmək olur. Azərbaycan dilində *alçaq*sözü enantiosemiya hadisəsinin bariz nümunəsi hesab edilə bilər.

Alçaq sözü Azərbaycan dilinin izahlı lüğətində "hündürlüyü az olan yer", "yer səviyyəsindən azacıq hündür olan yer" mənası ilə qeydə alınmışdır. Məcazi mənada isə bu söz mənfi semantika (*alçaq* adam, *alçaq* hərəkət) ilə *yaramaz*mənasını ifadə edir.

Azərbaycan dastanlarının 1969-cu il nəşrində "Koroğlu və Dəli Həsən" boyunun şərhində 1688-ci ildə erməni mənbələrində "Koroğlu" dastanının çap olunmuş variantından nümunələr verilmişdir. "Koroğlu"nun erməni əlifbası ilə yazılmış bir əlyazmasında "gərək" qoşmasının belə bir variantı verilir:

İgid *alçaq*gərək, *alçaq,*
Atı yüyrək, kəndi qoçaq,
Hər yanında ciftə, bıçaq,
Belində qılıncı gərək (10, s. 401).

Bu qoşma "Koroğlu" dastanının mətninə daxil edilməmişdir. Bu qoşmanın dastana daxil edilməməsinin bir səbəbi də, yəqin ki, *alçaq*sözünün «yerində» işlənməməsi ola bilərdi.

Doğrudan da, müasir anlamda *igidlik* anlayışı ilə *alçaqlıq*mənası bir-biri ilə uyuşmur. Heç şübhə yoxdur ki, bu qoşmada *alçaq*sözünün hansı mənada işlənməsindən asılı olmayaraq, hər halda müsbət məna daşıması göz gabağındadır. "Əzətinli Əmrah" dastanında da belə bir misal diqqətimizi cəlb etdi:

*Alçaqdan*ucaya gün düşən kimi,
Cəmi durnalara him düşən kimi,
Cim, əlif altından mim düşən kimi,
Camalın şöləsi mahala düşmüş (10, s. 68).

*Alçaq*yerdən hündür yerə gün düşməsi heç bir məntiqə sığmır. "Tahir və Zöhrə" dastanının ustadnaməsindən gətirilmiş bir nümunə də maraqlıdır:

Qoçaqdan olubsan, qoçaq olgunan,
Qadadan, bəladan qaçaq olgunan,
Sən açıq ol, mərd ol, *alçaq* olgunan,
Demə varım çoxdu, pulum yaxşıdı ("Tahir və Zöhrə", s. 23).

Xəstə Qasımdan gətirilən həmin nümunədəki *alçaq*sözü *alicənab, təvazökar* anlamında işlənmişdir. Salman Mümtaz və Hümmət Əlizadənin tərtib etdikləri, 1935-ci ildə nəşr edilmiş "El şairləri" kitabında Xəstə Qasımın bu qoşması belə bir variantda işlənir:

Qoçaqdan olubsan, sən də qoçaq ol,
Qadadan, bəladan gen gəz, qaçaq ol,
Açıq qabaxlı ol, mədam *alçaq*ol,
Demə pulum vardır, malım yaxşıdı (11, s. 162).

"Yaxşıdı" qoşmasının bu variantı daha dəqiqdir. Bu variantda da *alçaq*sözü müsbət mənada işlənmişdir. Göründüyü kimi, *alçaq*sözü fonetik tərkibcə qədim zamanlardan Azərbaycan dilində işlənmiş, amma məna dəyişikliyinə uğrayaraq, ilkin semantikasını itirmiş sözlərdən biridir. İlkin məna isə dastanın dilində qorunub saxlanmışdır. M.Kaşğarlının "Divani Lüğət-it Türk" əsərində *alçaq*sözü mülayim təbiətli, zərif mənaları ilə qeydə alınmışdır [5, 126]. Qədim türk lüğətində də bu sözün *təvazökar, mülayim* mənaları ön plana çəkilir və "Kutadqu bilik" əsərindən bir neçə misal nümunə kimi göstərilir [13, 34].

Maraqlı burasıdır ki, "Kitabi-Dədə Qorqud" dastanında *alçaq*sözünün semantikasında hər iki məna, həm aşağı, həm də yuxarı mənaları özünü göstərir [12]. Dədə Qorqud dastanından misal gətirək: *Alan-alçaq*həva yerdən gələn arğış (s. 58);Qışda-yazda qarı-buzı əriməyən Qazılıq tağına gəldi ciqdı. *Alçaqdan* yuca yerlərə çapub çıqdı (8, s. 38).

Bu cümlələrdə *alçaq*sözü müxtəlif məna çalarlıqlarında işlədilir. Birinci cümlədə *alçaq*sözü *uca,* ikinci cümlədə isə *aşağı*mənasında özünü göstərir.

Həsənoğlunun "Necəsin, gəl, ey yüzi ağum bənüm" məşhur qəzəlində də *alçaq*sözü *alicənab, təvazökar*mənasında işlədilmişdir.

Hüsn içində sana manənd olmaya,
Əsli yuca, *könli alçağum*bənüm.

Qəzəlin dilindən bəhs edən professor T.Hacıyev *alçaq*sözünü belə izah edir: "Klassik poeziya janrı ölçü tələbləri qalmaqla xalq ədəbiyyatı ifadələri qəzəlin dilində aşkar iz buraxmışdır… *əsli yuca*(əsil-nəcabətli, zatlı-köklü), *könlü alçaq*(sadə, təvazökar mənasında) "Dədə Qorqud" da işlənən bu idiom indiki dialektlərimizdə də qalır" [8, 89].

*Alçaq*sözünün lüğətdə verilmiş hər hansı səviyyədən azacıq hündür olan yer (*alçaq* dağ, *alçaq*ev,*alçaq*boy, *alçaq*üçüs, *alçaq* divar) mənası diqqəti cəlb edir. Doğrudan da, *alçaq*sözünün semantikasında ucalıq mənası qalır, yəni yer səthindən çox da hündür deyil, amma hər halda yüksəkdir. *Alçaq*dağ dedikdə, uca dağ olmasa da, hər halda dağ, ucalıq nəzərdə tutulur. *Alçaq* sözü etimoloji cəhətdən qədimdə *böyük, hündür*mənasını bildirən *al / ala*sözündən əmələ gəlmişdir. Əlbəttə, biz bu fikri fərziyyə şəklində qeyd edirik.

*Al / ala*sözünün türk dillərində *yüksək, uca, hündür, böyük*mənalarında işlənməsi məlumdur. *Alatau, Altay* oronimlərinin *al* sözündən yarandığı, *hündür dağ* mənasını ifadə etdiyi dilçilikdə qeyd edilmişdir. Hətta Qafqaz dillərinin bəzilərində *al* sözü *səma, allah* mənasında işlənir. [14, 89]. Türk dilində indi də *ala* sözü *böyük* mənasında işlənir: *Bundan ala təhdit mi olur.* «Kitabi-Dədə Qorqud» dastanında *ala* sözü bir neçə yerdə *böyük, iri* mənası ilə işləndiyi görünür. Məsələn: Üç yerdə dəpə kibi taş yığdı, *ala* qollı sapanın əlinə aldı [12, 43]; Altundağı *alaca* atun nə ögərsən? *Ala* başlu keçimcə gəlməz mana! [12, 43]; Belündə toqsan oqın nə ögərsən, mərə kafər? *Ala* qollı sapanımca gəlməz mana. [12, 43];

*Alatau, Alp dağları, Altay*oronimlərinin *al*sözündən yarandığı, *hündür, böyük dağ* anlamını ifadə etdiyi dilçilikdə qeyd edilmişdir. Dastanların dilində də *ala*sözü ilə yaranan oronimlərə təsadüf edilir. «Kitabi-Dədə Qorqud» dastanında *Alacalar dağı, Ala dağ*buna misal ola bilər: Axan duru sulardan xəbər keçə, ərquru yatan *Ala dağdan* ətər aşa [12, 43]; Arqu beli Ala tağdan dünin aşdım [12, 105]; Sən gedəli, xanım, ərqurı yatan *Ala* tağların avlanmamışdır [12, 105]; Arqurı yatan *ala* tağlar ətəginə ava vardın [12, 105]. Dilçilikdə *al*sözünün ucalıq mənasından *alp, yalçın, yal* sözlərinin yarandığı da göstərilir [14, s.168].*Alçaq*sözünün birinci hissəsinin də *al / ala*sözündən əmələ gəldiyi güman edilə bilər.

Bu sözün yazılı abidələrimizdə, M.Kaşğarlının "Divan"ında qeydə alınmış *təvazökar, alicənab* mənası isə *uca*anlamından yaranmış, ondan törənmiş mənadır. Hər halda alicənablıq, təvazökarlıq keyfiyyəti də ucalıqdan doğan, onunla bağlı xüsusiyyətdir.

Müasir dövrdə işlənən *alçaq*sözünün məcazi mənası (*alçaq*adam) qədim türk lüğətində verilmiş təvazökarlıq, mülayimlik, alicənablıq mənalarının əksidir. Belə nəticəyə gəlmək olar ki, bu sözün müasir dildəki istər əsas, istərsə də məcazi mənası daxili əksmənalılıq əsasında yaranmışdır.

Müasir dilimizdə *alçaq*sözünün *uca*mənası *Alçaq dağları yaratmaq* ifadəsindəqalmışdır. Bu söz Qazax dialektində *sadə*mənasında, Ordubad dialektində isə *mehriban, sadə qəlbli*mənası ilə *alçaq könül*ifadəsində ilkin semantikasını saxlamışdır. Müasirtürk dillərində, xüsusilətürk, türkmən və başqa dillərdə *alçaq* sözü *alicənab, təvəzökar* mənası ilə yüksək işləkliyə malikdir.

Zaqatala, Naxçıvan ərazisində də *alçaq könüllü*idiomatik ifadəsinin həmin məna ilə işləndiyi nəzərə çarpır. İstər Həsənoğlu və İ. Nəsiminin dilində, istərsə də dialekt və şivələrimizdə bu söz ayrıca işlənməmiş, yalnız *alçaq könül* ifadəsinin tərkib hissəsində daşlaşmış şəkildə qalmışdır. Dastanların dilində isə *alçaq* sözü həm ifadələrin tərkibində, həm də müstəqil şəkildə *uca,xoşxasiyyət,alicənab, təvəzökar* anlamı ilə işlənir. Hal-hazırda Müasir Azərbaycan dilində bu söz *alicənab, təvəzökar* mənası ilə işlənmədiyi üçün *alçaq* sözünü *tarixi enantiosemiya* adlandırmaq olar. Çox vaxt enantiosemiya onunla izah olunur ki, qədim zamanlarda kök və onlardan törəmə sözlər ümumi, çox geniş və son dərəcə qeyri-müəyyən mənalara malik olmuşdur. Onlardan sonralar tədricən çoxsaylı çalarların meydana çıxması və müstəqil kateqoriyalara budaqlanması ilə dildə çox vaxt ortaq mənsubiyyətinə baxmayaraq, məlum bir spesifikliyə malik olan mənalar formalaşmışdır.

Müzakirə. Bu tədqiqatın nəticələri göstərir ki, enantiosemiya marginal və ya təsadüfi hadisə kimi deyil, əksinə, dil sistemində semantik inkişafın təbii nəticəsi kimi qiymətləndirilməlidir. Azərbaycan dilinin leksik materialının təhlili göstərir ki, enantiosemiya çoxmənalılıq, semantik dəyişmə və kontekstual istifadənin kəsişməsində yaranır ki, bu da leksik semantikanın ümumi nəzəriyyələri ilə uyğunluq təşkil edir.

Tədqiqatda təhlil olunan nümunələr, xüsusilə *qaralamaq, keçinmək* və *qorxmaq* felləri göstərir ki, enantiosemiya funksional və praqmatik variasiya ilə sıx bağlıdır. Bu hallarda əks mənalar təsadüfi deyil, kommunikativ ehtiyaclardan və kontekstdən asılı olaraq formalaşır. Bu isə göstərir ki, bir söz daxilində semantik oppozisiyalar sabit xüsusiyyətlər deyil, real dil istifadəsi nəticəsində yaranır.

Yaman və *bəla* kimi sözlərin təhlili göstərir ki, enantiosemiya qiymətləndirici semantik dəyişmə yolu ilə inkişaf edə bilər; belə ki, mənfi mənalar müəyyən kontekstlərdə tədricən müsbət semantik çalar qazanır. Bu, xüsusilə bədii dildə və gündəlik nitqdə ifadəliliyin, emosional çalarlılığın və üslubi istifadənin rolunu ön plana çıxarır.

Tədqiqatın mühüm nəticələrindən biri *alçaq* sözünün tarixi təhlili olmuşdur. Əldə olunan məlumatlar göstərir ki, bu söz ilkin olaraq "nəcib", "təvazökar" kimi müsbət mənalara malik olmuş və həmin mənalar klassik mətnlərdə və folklorda qorunub saxlanılmışdır. Lakin zaman keçdikcə müasir Azərbaycan dilində mənfi məna qazanmışdır. Bu semantik

dəyişmə enantiosemiyanın necə yarandığını aydın şəkildə nümayiş etdirir.
Bundan əlavə, *alçaq* sözü ilə "uca", "böyük" mənalarını ifadə edən *al / ala* kökü arasındakı etimoloji əlaqə əks mənaların ümumi semantik baza əsasında inkişaf edə biləcəyini təsdiqləyir. Bu isə türk dillərində semantik inkişafın daha geniş proseslərini əks etdirir.
Tədqiqatın nəticələri həmçinin kontekstin və presuppozisiyanın mühüm rolunu təsdiqləyir. Enantiosemik sözlərin mənası yalnız onların leksik strukturu ilə deyil, həm də kommunikativ situasiya və ümumi biliklər sistemi ilə müəyyən olunur. Bu isə göstərir ki, enantiosemiya kontekst nəzərə alınmadan tam şəkildə izah edilə bilməz.
Ümumilikdə, enantiosemiya semantik dəyişmə, çoxmənalılıq və praqmatik amilləri birləşdirən mürəkkəb dil hadisəsi kimi çıxış edir. Bu hadisə çox geniş yayılmasa da, çoxmənalılığın inkişaf yollarından biri hesab olunur. Azərbaycan dilinin resursları bu fenomenin öyrənilməsi üçün qiymətli material təqdim edir, lakin bu məsələnin xüsusilə digər türk dilləri ilə müqayisəli şəkildə daha geniş araşdırmasına da ehtiyac vardır.

NƏTİCƏ: Beləliklə, enantiosemiya dilin çevik, daim inkişafda olduğunu, eyni zamanda da stabil, sabit, daxili imkanlarla zəngin olduğunu nümayiş etdirən dil hadisəsidir. Dilin özünün təbii inkişafı, mürəkkəb kommunikasiya prosesinin məhsulu olaraq bir sözün daxilində əks mənalar mövcud ola bilir. Enantiosemiya semiotik hadisə kimi dildə çox yayılmasa da, çoxmənalılığın inkişaf yollarından birini təşkil edir. Enantiosemiya mürəkkəb dil hadisəsidir. Çoxmənalılıqda, omonimlikdə olduğu kimi, enantiosemiyada da sözlərin konkret mənasını kontekst müəyyənləşdirir.

İstifadə edilmiş ədəbiyyat

1. Ахманова О. С. Словарь лингвистических терминов. Москва, Изд. Советская энциклопедия, 1966, 607 с.
2. Шерцль В.И. О словах с противоположными значениями (или о так называемой энантиосемии), Воронеж, 1884.
3. Кацнельсон С.Д. Содержание слова, значение и обозначение. М.: ЕдиториалУРСС, 2004, 112 с.
4. Clauson G. An Etymological Dictionary of Pre-Thirteenth-Ceentury Turkish. Oxford: Oxford University Press, 1972, 989 s.
5. Кошгарий М. Девону луготит турк. Т. 1, Тошкент: 1960, 500 с.
6. Məmmədov İ. Azərbaycan dilinin semantikası. Bakı: Xəzər, 2006, 372 s.
7. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Nurlan, 2005, 452 s.
8. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü). Bakı: ADU, 1976, 152 s.
9. Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və Təhsil, 2016, 348 s.
10. Azərbaycan dastanları. IV c. Bakı: EA nəşri,1969, 509 s.
11. El şairləri. Bakı: Azərnəşr, 1935, 369 s.
12. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
13. Древнетюркский словарь. Ленинград: Наука, 1969, 676 с.
14. Cəlilov F.A. Azərbaycan dilində "al" köklü sölər (tarixi etimoloji etüd) / Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s.165-173

Sanubar Alovsat gizi Abdullayeva
Doctor of Philology
Professor of the Department of Azerbaijani Linguistics, Baku State University
asanubar@mail.ru
ORCID ID: 0009-0004-1579-1754

Enantiosemy as a Semiotic Phenomenon

Summary

It would be correct to relate the origin of enantiosemy to the speech process. The emotional load of a word changes during speech and gradually becomes a linguistic fact. Although internal oppositional meaning is a rare phenomenon, it still exists in language especially observable in verbs. For instance, the verb ***qaralamaq*** in Azerbaijani means both "to write" and "to erase." Similarly, ***qorxmaq*** means both "to fear" and "to respect." Examples of enantiosemy in Azerbaijani include words like ***yaman*** (bad) and ***bəla*** (calamity), which can carry both negative and positive meanings depending on context. The word ***alçaq*** (lowly), historically in Turkic languages, was used in meanings such as "humble," "noble," and "modest." The article demonstrates the use of this meaning in the works of I. Nasimi, Hasanoglu, Khasta Gasim, and in the language of epic tales. Context plays a crucial role in the realization of meaning. This word, with the sense of "humble" or "noble," continues to exist in certain expressions, word combinations, and idiomatic phrases, as well as in some Turkic languages, dialects, and vernaculars.

Keywords:semiotics, polysemy, semantic change, enantiosemy, internal oppositional meaning.

Санубар Аловсат кызы Абдуллаева
доктор филологических наук
профессор кафедры азербайджанского языкознания Бакинского государственного университета
asanubar@mail.ru
ORCID ID: 0009-0004-1579-1754

Энантиосемия как семиотическое явление

Резюме

Было бы правильным связывать происхождение энантиосемии с процессом речи. Эмоциональная нагрузка слова изменяется в процессе речи и постепенно становится языковым фактом. Хотя внутренняя противоположность значений является редким явлением, она всё же существует в языке, особенно ярко проявляясь в глаголах. Например, азербайджанский глагол qaralamaq означает как «писать», так и «стирать». Аналогично, qorxmaq означает как «бояться», так и «уважать». Примерами энантиосемии в азербайджанском языке являются также слова yaman («плохой») и bəla («беда», «несчастье»), которые в зависимости от контекста могут иметь как отрицательное, так и положительное значение. Слово alçaq («низкий») исторически в тюркских языках употреблялось в значениях «смиренный», «благородный», «скромный». В

статье демонстрируется употребление этого значения в произведениях И. Насими, Хасаноглу, Хаста Гасыма, а также в языке эпических сказаний. Контекст играет важнейшую роль в реализации значения. Это слово в значении «смиренный» или «благородный» продолжает существовать в ряде выражений, словосочетаний и фразеологизмов, а также в некоторых тюркских языках, диалектах и говорах.

Ключевые слова: семиотика, полисемия, семантическое изменение, энантиосемия, внутренняя противоположность значений.

Rəyçi: prof. L.Əhmədova

DOI: 10.24412/2218-7588-2026-2-77-79

Esmira Rafiq qızı Hüseynova
Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin müəllimi
Bakı.Yasamal qəsəbəsi. A.M.Şərifzadə küç.433.
Huseynovaesmira198@gmauil.com
ORCID: 0009-0003-6915-4980

AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ

XÜLASƏ: Ötən əsrlərin min bir kataklizmlərindən üzüağ çıxan, xalqımızın və milli mədəniyyətimizin əbədiyaşarlığını təmin edən ana dilimiz müasir dövrdə də, çox təəssüf ki, müəyyən sıxıntılarla üzləşməkdə, çətinliklərlə qarşılaşmışdır. Bu, yaşadığımız qloballaşma dövrünün təzadlı təsirləri ilə bağlıdır. Artıq heç kimə sirr deyildir ki, mövcud qloballaşma prosesi bütün dünya ölkələrini mühüm dilemmalar, faktlar qarşısında qoymuşdur. Dünyanın informasiya üçün açıq olması, texnoloji inqilabın doğurduğu nəticələrdən düzgün istifadə olunmaması, sənaye cəhətdən inkişaf etmiş ölkələrin kommunikasiyalarının yaxınlaşması, telekommunikasiya, internet texnologiyalarının sürətli inkişafi və digər amillər özü ilə müəyyən pozitiv yeniliklər gətirsə də, neqativ cəhətləri də az deyildir. Bu amil, ictimai həyatın əksər sahələrində olduğu kimi, milli dil və mədəniyyət sahəsində də özünü göstərir.

Açar sözlər: globallaşma, proses, inkişaf, nitq mədəniyyəti,termin

GİRİŞ:Ötən əsrlərin min bir kataklizmlərindən üzüağ çıxan, xalqımızın və milli mədəniyyətimizin əbədiyaşarlığını təmin edən ana dilimiz müasir dövrdə də, çox təəssüf ki, müəyyən sıxıntılarla üzləşməkdə, çətinliklərlə qarşılaşmışdır. Bu, yaşadığımız qloballaşma dövrünün təzadlı təsirləri ilə bağlıdır. Artıq heç kimə sirr deyildir ki, mövcud qloballaşma prosesi bütün dünya ölkələrini mühüm dilemmalar, faktlar qarşısında qoymuşdur. Dünyanın informasiya üçün açıq olması, texnoloji inqilabın doğurduğu nəticələrdən düzgün istifadə olunmaması, sənaye cəhətdən inkişaf etmiş ölkələrin kommunikasiyalarının yaxınlaşması, telekommunikasiya, internet texnologiyalarının sürətli inkişafi və digər amillər özü ilə müəyyən pozitiv yeniliklər gətirsə də, neqativ cəhətləri də az deyildir. Bu amil, ictimai həyatın əksər sahələrində olduğu kimi, milli dil və mədəniyyət sahəsində də özünü göstərir. Açıq dünya məkanında milli dillərə yerli-yersiz mütəmadi yeni sözlər daxil olur, mədəniyyətə yad-yaman meyillər aşılanır. Bu da istər-istəməz haqlı narazılıq doğurur.

Müəlliflər öz kitablarında yazırlar:"Məlumdur ki, cəmiyyətin nitq mədəniyyəti milli dilə münasibət ilə müəyyən olunur.O, daöz növbəsində, milli dilin vəziyyətini və (səviyyəsini) bütövlükdə millətin inkişaf səviyyəsini əks etdirir. Dilə, nitq mədəniyyətinə olan xarici təsirlərə bir sıra inkişaf etmiş ölkələrdə necə qısqanclıqla yanaşıldığına diqqət yetirək. İkinci Dünya Müharibəsindən məğlub çıxan alman xalqı ədəbi dil normalarının xeyli aşağı düşdüyündən narahatçılıq keçirirdilər. Fransızların öz ölkərinə hər hansı bir kənar müdaxiləyə necə qısqanclıqla yanaşmaları da yaxşı məlumdur. Hətta onların bu münasibətlərini – **dil şovinizmi** adlandıranlar da az deyildir. O daməlumdur ki, fransızlar ingilis dilində olan hansısa reklam lövhəsini belə istəmirlər. Onları ən çox narahat edən isə ölkəyə **amerikanizmi** təbliğ edən vasitələrin daxil olmasıdır. O da yaxşı məlumdur ki, hər bir ingilisin stolunun üstündə xüsusi hazırlanmış ingilis dili dərsliyi vardır [1, p. 231-246]. Heç şübhəsiz ki, öz müstəqilliyinə qovuşduqdan sonra, bizim ölkəmizdə də bütün bu amillərə xüsusi fikir verilməkdə, milli dilimizin və mədəniyyətimizin qorunması və inkişaf etdirilməsi yolunda xüsusi səylər göstərilməkdədir. Belə ki, 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı və bunun ardınca dilimizin inkişafı ilə bağlı bir sıra fərmanlar imzalandı, qanunlar qəbul edildi. Nitq mədəniyyəti təkcə nitq etiketi deyildir. Bizim nə dilimiz, nə də nitqimiz elə-belə öz-özünə yaranmayıb. Buna görə də nitq mədəniyyətinicəmiyyətin ümumi mədəniyyətindən ayrı təsəvvür etmək olmaz. Azərbaycanıntəhsil sisteminin Boloniya xformalaşdırılmışdır. Hazırda təhsil sistemindəbakalavr,magistr hazırlığı, dokturantura ən vacib şərtlərdəndir.

Adil Babayev yazır: "Nitq mədəniyyəti dedikdə onda bir sıra cəhətlərin olmasını nəzərdə Müəllif tutulur belə ki,a) Dildən istifadə səriştəliliyi – dil, eləcə də onun quruluşu, sistemi, dil vahidlərinin nitqdə işlənməsi qanunauyğunluqları, ədəbi dilin orfoepik, leksik vəqrammatik normalarından istifadə etmək qabiliyyəti, b) Həm şifahi, həm də yazılı nitqlə informasiya alıb ötürmək vərdişlərin aşılanması;c) mövcud faktları və göstərişləri savadlı və asan dildə yazmaq;d) Nitq mədəniyyəti kursunun müasir konsepsiyasıbu bacarıq və vərdişlərin formalaşmasına yönəlməsi; e)Linqvistik fənn kimi nitq mədəniyyətinin nəzəri əsasları olan dil normalarının aktual məsələlərin həlli;

f) Müasir nitq mədəniyyətinin problemləri vənitqin qarşılıqlı təsirinin səmərəli üsulları [2, s. 112-124].

Nadir Abdullayev öz monoqrafiyasında qeyd edir: "Məlumdur ki, "Azərbaycan dili və nitq mədəniyyəti" fənninin əsas məqsədi müasir Azərbaycan dili normalarını daha mükəmməl mənimsəməkdən, ünsiyyətin müxtəlif formalarından daha məharətlə istifadə etmək bacarığı aşılamaqvə təbliğ etməkdir.Bu fənnin dərs vəsaitindən müasir Azərbaycan ədəbi dil normaları və ümumiyyətlə nitq mədəniyyəti məsələləri ilə maraqlanan hər bir kəs faydalana bilər. "Azərbaycan dili və nitq mədəniyyəti" dərs vəsaitinin hazırlanmasında nitq mədəniyyətinin ritorika, üslub, ritorikanın başqa elmlərlə əlaqəsi, ritorikanın qısa tarixi, onun Yunanıstanda, Romada, Avropada və Azərbaycanda yaranması barədə məlumatlar Adil Babayevin Bakı, 2011-ci ildə nəşr olunan, – **Azərbaycan dili və nitq mədəniyyəti** dərsliyindən, Nadir Abdullayevin Bakı, 2013-cü ildə nəşr olunan **Nitq mədəniyyətinin əsasları** dərsvəsaitindənistifadə olunmuşdur" [3, s. 146-156].

Dil cəmiyyətin varlığı, onun təşəkkülü və inkişafı üçün çox zəruri olan bir vasitədir. Cəmiyyətdə dilin başlıca rolu onun əsas ünsiyyət vasitəsi olmasıdır. Dil fikrin ifadə aləti kimi təzahür etdiyinə görə beyinin fəaliyyəti ilə bağlı olan təfəkkürlə sıx əlaqədədir. Dil ilə təfəkkür eyni vaxtda və eyni mənbədən yarandıqları üçün vəhdət təşkil edir. Lakin çox

oxşar cəhətlərin olmasına baxmayaraq, dil ilə təfəkkür heç də eyniyyət yaratmır. Bunların hər birinin özünəməxsus cəhətləri vardır. Bu fərqlərin ən başlıcası odur ki, dil lüğəvi və qrammatik vasitələrdən istifadə edir. Lakin təfəkkür üçün istifadə mənbəyi sözlər və cümlələr deyil, məfhumlar və hökmlərdir. Təfəkkürün ifadə vasitəsi olan dil ictimai hadisədir.Lakin dil heç də bütün cəhətləri ilə başqa ictimai hadisələrə oxşamır. Bunun özünəməxsus xüsusiyyətləri vardır. Dilin başlıca səciyyəvi əlaməti ondan ibarətdir ki, o bir neçə ilin, yaxud müəyyən bir dövrün məhsulu olmayıb, bir çox əsrlər boyu yaranır və inkişaf prosesi keçirərək get-gedə formalaşır, zənginləşir. Həmçinin, dil yarandığı zamandan etibarən xidmət etdiyi cəmiyyət üzvləri arasında heç bir fərq qoymadan bütün üzvlər üçün eyni dərəcədə ünsiyyət vasitəsi olur. Buna görə də dil ictimai xarakterə malikdir. Xalqımızın yaratdığı həmin dilə **Azərbaycan dili** deyilir.

A.Axundov öz kitabında yazır: "Azərbaycan dili hazırkı inkişaf səviyyəsinə birdən-birə çatmamışdır. Bu bir sıra əsrlərin məhsuludur. İlk dövrlərdə, başqa dillər kimi, Azərbaycan dilinin də lüğət tərkibi kasıb, qrammatik quruluşu isə bəsit olmuşdur. Lakin xalqımız tarixən inkişaf etdikcə dilimizin səs sistemi tədricən səlisləşmiş, lüğət tərkibi zənginləşmiş və qrammatik quruluşu təkmilləşmişdir. Tarixdə humanist, sülhsevər, mehriban və xeyirxah xalq kimi məşhur olan, uzun əsrlər boyu həm onu əhatə edən qonşularla, həm də bütün digər xalqlarla dostluq, qardaşlıq münasibətində yaşayan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində bir sıra işğallarla üz-üzə gəlmişdir. Bu yadellilərin məqsədi xalqımızı və eləcə də onun dilini tarixin meydanından çıxarmaq idi. Lakin Azərbaycan xalqı tarix boyu bu mənfur işğalçılarla amansız mübarizə apararaq öz varlığını qoruduğu kimi, öz dilini də mühafizə edib saxlamışdır. İşğalçıların arzu və əməllərinin əksinə olaraq, Azərbaycan dilində sənət əsərləri yaradılır və dilimiz yavaş-yavaş ədəbi zəmin əsasında formalaşıb inkişaf edirdi [4, s. 115].

H.Bayramov öz kitabında qeyd edir:"Azərbaycanda yadellilərin təqibinə baxmayaraq, XIII əsrdə Həsənoğlu, XIV əsrdə Nəsimi və başqa sənətkarlarımız Azərbaycan dilində gözəl əsərlər yazıb yaratmışlar. Həmin dövrlərdə (assimilyasiya dövründə) Azərbaycan dili nəinki öz müstəqilliyini qoruyub saxlamış, eyni zamanda "...öz həyatilik və sabitliyini sübut etmiş, hətta öz növbəsində ərəb və xüsusilə də fars dilinə də təsir göstərmişdir". Bu təsir sonralar təkcə həmin dillərə deyil, başqa bir sıra dillərə də olmuşdur. Bütün tarix boyu öz orijinallığını mühafizə edib saxlayan Azərbaycan dili get-gedə inkişaf edərək XIX əsrdə milli dilə çevrilmişdir. Bu dövrdə Azərbaycan dilinin müstəqilliyinə qarşı olan mübarizə daha da kəskinləşmişdir. Lakin dövrün qabaqcıl adamları və bütün xalq dilin milli varlığını qorumağa başlamışlar [5, s. 33-54].

NƏTİCƏ: Azərbaycan dili hazırkı inkişaf səviyyəsinə birdən-birə çatmamışdır. Bu bir sıra əsrlərin məhsuludur. İlk dövrlərdə, başqa dillər kimi, Azərbaycan dilinin də lüğət tərkibi kasıb, qrammatik quruluşu isə bəsit olmuşdur. Lakin xalqımız tarixən inkişaf etdikcə dilimizin səs sistemi tədricən səlisləşmiş, lüğət tərkibi zənginləşmiş və qrammatik quruluşu təkmilləşmişdir. Tarixdə humanist, sülhsevər, mehriban və xeyirxah xalq kimi məşhur olan, uzun əsrlər boyu həm onu əhatə edən qonşularla, həm də bütün digər xalqlarla dostluq, qardaşlıq münasibətində yaşayan Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində bir sıra işğallarla üz-üzə gəlmişdir. VII əsrdən başlayaraq Azərbaycana ərəb işğalçıları, sonralar isə fars, monqol, türk qəsbkarları basqın etmişlər. Bu yadellilərin məqsədi xalqımızı və eləcə də onun dilini tarix meydanından çıxarmaq idi. Lakin Azərbaycan xalqı tarix boyu bu mənfur işğalçılarla amansız mübarizə apararaq öz varlığını qoruduğu kimi, öz dilini də mühafizə edib saxlamışdır. İşğalçıların arzu və əməllərinin əksinə olaraq, Azərbaycan dilində sənət əsərləri yaradılır və dilimiz yavaş-yavaş ədəbi zəmin əsasında formalaşıb inkişaf edirdi. Yadellilərin təqibinə baxmayaraq, XIII əsrdə Həsənoğlu, XIV əsrdə Nəsimi və başqa sənətkarlarımız Azərbaycan dilində gözəl əsərlər yazıb yaratmışlar. Həmin dövrlərdə (assimilyasiya dövründə) Azərbaycan dili nəinki öz müstəqilliyini qoruyub saxlamış, eyni zamanda "...öz həyatilik və sabitliyini sübut etmiş, hətta öz növbəsində ərəb və xüsusilə də fars dilinə də təsir göstərmişdir". Bu təsir sonralar təkcə həmin dillərə deyil, başqa bir sıra dillərə də olmuşdur. Bütün tarix boyu öz orijinallığını mühafizə edib saxlayan Azərbaycan dili get-gedə inkişaf edərək XIX əsrdə milli dilə çevrilmişdir. Bu dövrdə Azərbaycan dilinin müstəqilliyinə qarşı olan mübarizə daha da kəskinləşmişdir. Lakin dövrün qabaqcıl adamları və bütün xalq dilin milli varlığını qorumağa başlamışlar. Həmin dövrdə böyük mütəfəkkir M.F.Axundov dilimizin çox nadir və poetik vüsətə malik bir dil olduğunu həm nəzəri, həm də əməli olaraq sübut etməyə çalışmışdır. Bütün sahələrdə olduğu kimi dil sahəsində də inkişaf üçün geniş imkanlar yarandı. Sovet dövründə Azərbaycan dilinin lüğət tərkibi, qrammatik quruluşu, üslubları bəlkə də min ilə bərabər bir inkişaf yolu keçdi. Hazırda dilimiz öz inkişafını davam etdirir.Azərbaycan dili yuxarıda qeyd olunan dillərin əksəriyyətinin lüğət tərkibinin inkişafında həm mənbə, həm də vasitəçi dil olmuşdur. Bunu başqa şəkildə desək, Azərbaycan dili həmin dillərə həm öz sözlərini vermiş, həm də başqa dillərdən söz almaqda həmin dillər üçün vasitəçilik etmişdir. Bu dilin vasitəsi ilə gürcü dilinə yüzlərlə ərəb və fars mənşəli sözlər daxil olmuşdur. Məsələn: adəm, adam, bina, qələm, dəzgah, əlbəttə, əfsus, zər, kef, mürəbbə, mütəkkə, mismar, məsləhət, pəncərə, pərvanə, reyhan, saat, surət, ustad, ümid, fikir, xatir, həkim, cəllad və s. keçmişdir. Azərbaycan dilinin başqa dillərə müsbət təsiri hal-hazırda da davam edir. Bunu təkcə Dağıstan dillərində yox, qonşuluqda olan başqa dillərdə də görmək olur. Ümumiyyətlə, başqa dillərə keçmiş Azərbaycan sözləri həmindillərin lüğət tərkibinizənginləşdirmiş və onun ayrılmaz üzvünə çevrilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Bəşirov M., Xocayev O. Nitq mədəniyyətinin nəzəriyyəsi və praktikası. Bakı: Maarif, 1989. səh: 231-246
2. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Elm, 2011. səh: 112-124.
3. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı: Maarif, 2013. s. 146-156
4. Axundov A.A. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları. Bakı: Elm, 1971. s. 115
5. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: Maarif, 1976, səh: 33-54.

Хусейнова Эсмира Рафиг гизи
Преподаватель Бакинского государственного колледжа связи и транспорта
Баку.поселок Ясамаль. ул. А.М. Шарифзаде, 433.
Huseynovaesmira198@gmauil.com
ORCID: 0009-0003-6915-4980

Азербайджанский язык и речевая культура

Резюме

Язык – крайне необходимый инструмент для существования, формирования и развития общества. Главная роль языка в обществе заключается в том, что он является основным средствомкоммуникации. Поскольку язык проявляется как инструмент выражения мысли, он тесно связан с мышлением, которое, в свою очередь, связано с деятельностью мозга.

Язык и мышление образуют единство, поскольку возникают одновременно и из одного источника. Однако, несмотря на множество сходств, язык и мышление не идентичны. Каждый из них имеет свои уникальные особенности. Наиболее важным из этих различий является то, что язык использует лексические и грамматические средства.

Ключевые слова:глобализация,процесс,развитие,речевая культура, термин.

Huseynova Esmira Rafig gizi
Teacher of Baku State College of Communications and Transport
Baku.Yasamal settlement. A.M.Sharifzadeh str.433.
Huseynovaesmira198@gmauil.com
Orcid: 0009-0003-6915-4980

Azerbaijan language and speech culture

Summary

Language is an extremely necessary tool for the existence, formation and development of society. The main role of language in society is that it is the main means of communication. Since language is manifested as an instrument of expression of thought, it is closely related to thinking, which, in turn, is related to the activity of the brain.

Language and thought form a unity, since they arise simultaneously and from the same source. However, despite many similarities, language and thinking are not identical. Each of them has its own unique features.

The most important of these differences is that the language uses lexical and grammatical means.

Key words: globalization, process, development, speech culture, term

Rəyçi: dos. Kəmalə Mehdixanlı

DOI: 10.24412/2218-7588-2026-2-80-83

Mehriban Zeynal qızı Hacızadə
Azərbaycan Dillər Universiteti
mehribanhacizade7@gmail.com
https://orcid.org/ 0009-0006-9476-3157

İNGİLİS DİLİ EMAİL YAZIŞMALARINDA NƏZAKƏT STRATEGİYALARI

XÜLASƏ: Müasir qloballaşma şəraitində elektron poçt yazışmaları beynəlxalq biznes, təhsil, diplomatiya və gündəlik peşəkar ünsiyyətin əsas vasitələrindən birinə çevrilmişdir. İngilis dili isə beynəlxalq kommunikasiya dili kimi email yazışmaların-da dominant mövqe tutur. Bu səbəbdən ingilis dilində email yazışmalarında nəzakət strategiyalarının düzgün tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Məqalədə ingilis dili email diskursunda nəzakət anlayışı, onun linqvistik və praqmatik xüsusiyyətləri, müraciət formaları, dolayı ifadələr, yumşaldıcı konstruksiyalar, təşəkkür və üzrxahlıq strategiyaları təhlil olunur.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, nəzakətli yazışma ünsiyyətin effektivliyini artırır, müsbət peşəkar imic formalaşdırır və qarşılıqlı hörmət mühitini gücləndirir.

Açar sözlər: email diskursu, nəzakət strategiyaları, ingilis dili, praqmatika, işgüzar yazışma, kommunikasiya, netiket

GİRİŞ: XXI əsrdə informasiya texnologiyalarının sürətli inkişafi nəticəsində elektron poçt (email) yazışmaları ünsiyyət vasitəsi kimi geniş yayılmışdır. Müxtəlif ölkələrdən olan insanlar arasında əlaqələrin artması ingilis dilində yazışma bacarıqlarını zəruri etmişdir. Lakin email yazışmalarında yalnız qrammatik düzgünlük kifayət etmir. Mesajın necə təqdim olunması, müraciət forması, ton, üslub və nəzakət qaydaları da mühüm rol oynayır [4, s. 271-275; 5, s. 35-42].

Nəzakət strategiyaları sosial münasibətlərin qorunması və tərəflər arasında harmoniyanın saxlanılması üçün istifadə olunan dil vasitələridir. İngilis dilində yazılı ünsiyyətdə bu strategiyalar xüsusilə əhəmiyyətlidir, çünki şifahi nitqdə mövcud olan intonasiya, mimika və jestlər email mühitində yoxdur. Buna görə də müəllif fikrini söz seçimi və struktur vasitəsilə çatdırmalıdır.

ƏSAS HİSSƏ: Bu məqalənin məqsədi ingilis dili email yazışmalarında istifadə olunan əsas nəzakət strategiyalarını sistemli şəkildə araşdırmaq və onların kommunikativ funksiyalarını müəyyənləşdirməkdir.

1. Nəzakət anlayışının nəzəri əsasları: Nəzakət dilçilikdə sosial münasibətlərin tənzimlənməsinə xidmət edən kommunikativ davranış modeli kimi öyrənilir. P. Brown və S. Levinson nəzakət nəzəriyyəsində "face" anlayışını irəli sürmüşlər. [1, s. 61-68]

Onların fikrincə, hər bir insanın iki əsas sosial ehtiyacı vardır:

1. **Positive face** – qəbul edilmək, dəyərləndirilmək istəyi
2. **Negative face** – sərbəst qərar vermək və təzyiqə məruz qalmamaq istəyi

Email yazışmalarında istək bildirmək, xahiş etmək, tənqid etmək və ya rədd cavabı vermək qarşı tərəfin "face"inə təhlükə yarada bilər. Buna görə yazan şəxs müxtəlif yumşaldıcı strategiyalardan istifadə edir. [2, s. 80–98]

2. Email diskursunun xüsusiyyətləri: Email diskursu həm yazılı, həm də danışıq ünsiyyətinin xüsusiyyətlərini daşıyır. O, aşağıdakı cəhətlərlə seçilir:

1. Qısa və məqsədyönlü mətn strukturu
2. Rəsmi və qeyri-rəsmi üslub arasında çeviklik
3. Sürətli cavab gözləntisi
4. Arxivləşdirmə və sənədləşdirmə funksiyası
5. Beynəlxalq auditoriyaya yönəlmə

Bu xüsusiyyətlər səbəbindən email yazışmalarında etik və nəzakətli üslub vacibdir. [5, s. 63-75; 10, s. 15-28]

3. İngilis dili email yazışmalarında əsas nəzakət strategiyaları

3.1. Müraciət formaları: Mesajın başlanğıc hissəsi ilk təəssüratı yaradır. İngilis dilində email yazışmalarında düzgün müraciət formasının seçilməsi qarşı tərəfə hörmət və peşəkarlıq nümayiş etdirir. Müraciət forması göndərən və alan arasındakı münasibətin səviyyəsindən asılı olaraq formal, yarı-formal və qeyri-formal ola bilər. [6, s. 45-59; 8, s. 92-96]

Formal nümunələr:

1. Dear Mr. Smith,
2. Dear Professor Brown,
3. **Semi-formal nümunələr:**
4. Dear John,
5. Hello Sarah,
6. **Qeyri-formal nümunələr:**
7. Hi Tom,
8. Hey Anna,
9. Uyğun müraciət formasının seçilməsi münasibətin səviyyəsini göstərir.

3.2. Dolayı xahiş formaları

Birbaşa əmr forması kobud təsir bağışlaya bilər:
1. Send me the file.
2. Daha nəzakətli variantlar:
3. Could you send me the file, please?
4. Would you mind sending me the file?

Dolayı strukturlar qarşı tərəfə seçim imkanı verdiyi üçün daha nəzakətli hesab olunur. [1, s. 129-145; 2, s. 141-152]

3.3. Yumşaldıcı ifadələr (hedging)

Müəyyənlikdən qaçmaq və fikri yumşaltmaq üçün istifadə olunur: *perhaps * may be * possibly

Nümunə: *I think there may be a small issue with the report.* [7, s. 52-67]

3.4. Təşəkkür strategiyaları

İngilis dilində email yazışmalarında təşəkkür ifadələri nəzakətli ünsiyyətin vacib hissəsidir. Təşəkkür etmək qarşı tərəfin vaxtına, diqqətinə, edilən köməyə dəyər verdiyini göstərir. Bu strategiyalar müsbət münasibətlərin qurulmasına və peşəkar ünsiyyətin gücləndirilməsinə kömək edir. Minnətdarlıq münasibətləri gücləndirir.

1. Thank you for your time.
2. Many thanks for your assistance.
3. Əvvəlcədən təşəkkür də geniş istifadə olunur:
4. Thank you in advance.

Təşəkkür ifadələrinin məqsədəuyğun şəkildə işlədilməsi emailin daha nəzakətli və müsbət təsir bağışlamasını təmin edir. Bundan əlavə, məktubun sonunda təşəkkür bildirmək yazışmanın peşəkar və səmimi şəkildə tamamlanmasına kömək edir. [2, s. 167-180; 8, s. 104-108]

3.5. Üzrxahlıq strategiyaları

İngilis dilində email yazışmalarında üzrxahlıq ifadələri nəzakətli və peşəkar ünsiyyətin qorunmasında mühüm rol oynayır. Üzrxahlıq qarşı tərəfə hörmət göstərir, yaranmış narahatlığı azaltmağa kömək edir və müsbət münasibətlərin davam etdirilməsini təmin edir. Bu strategiyalar xüsusilə gecikmələr, səhvlər, anlaşılmazlıqlar və ya yerinə yetirilməmiş öhdəliklərlə bağlı yazışmalarda istifadə olunur.

Formal nümunələr:

1. I sincerely apologize for the inconvenience.
2. Please accept my apologies for the delay.

Bu ifadələr rəsmi və işgüzar yazışmalar üçün uyğundur.

Semi-formal nümunələr:.

1. Sorry for the confusion.
2. I apologize for the mistake.

Bu ifadələr həmkarlar və tanış peşəkar əlaqələr üçün istifadə olunur.

Qeyri-formal nümunələr:

1. Sorry I'm late.
2. I'm really sorry.

Bu ifadələr dostlar və yaxın tanışlarla yazışmalarda işlədilir.

Üzrxahlıq ifadələrinin düzgün seçilməsi qarşı tərəfdə müsbət təəssürat yaradır və yaranmış problemin peşəkar şəkildə həllinə kömək edir. Effektiv üzrxahlıq adətən səbəbin qısa izahı və problemin aradan qaldırılması ilə bağlı təkliflə müşayiət olunur.

[2, s. 183-198; 1, s. 187-203]

4. Mədəniyyətlərarası aspektlər

İngilis dili beynəlxalq dil olduğundan email yazışmaları çox vaxt müxtəlif mədəniyyətlər arasında baş verir. Bəzi xalqlarda birbaşa ünsiyyət normal sayıldığı halda, ingilis dilli peşəkar mühitdə dolayı və yumşaq üslub üstünlük təşkil edir. [10, s. 85-104; 5, s. 115-126]

Məsələn, bəzi istifadəçilər belə yaza bilər:

1. Send the document today.

Lakin ingilis dili mühitində daha uyğun variant:

2. Could you please send the document by today if possible?

Mədəniyyətlərarası aspektlər (intercultural aspects) – müxtəlif mədəniyyətlərdən olan insanların ünsiyyəti zamanı nəzərə alınmalı olan xüsusiyyətlərdir.

Əsas aspektlər:

1.Salamlama formaları – müxtəlif ölkələrdə fərqli ola bilər (əl sıxmaq, baş əymək, öpüşmək və s.)

2.Nəzakət qaydaları – müraciət formaları, təşəkkür, üzrxahlıq üsulları mədəniyyətə görə dəyişir.

3. ***Verbal ünsiyyət*** – söz seçimi, səs tonu, danışıq tərzi fərqli ola bilər.
4. ***Qeyri-verbal ünsiyyət*** – jestlər, mimikalar, göz təması müxtəlif mənalar daşıya bilər.
5. ***Dəyərlər və inanclar*** – ailə, iş, təhsil, din və cəmiyyət haqqında baxışlar fərqlənə bilər.
6. ***Vaxta münasibət*** – bəzi mədəniyyətlərdə punktuallıq çox vacibdir.
7. ***Hədiyyə vermə və qonaqpərvərlik*** – qaydalar və gözləntilər ölkədən-ölkəyə dəyişir.

8. ***Bayramlar və ənənələr*** – hər mədəniyyətin özünəməxsus adət-ənənələri vardır. İngilis dilində e-mail yazışmalarında nəzakətli üslub effektiv ünsiyyətin əsas şərtlərindən biridir. Nəzakətli ifadələr qarşılıqlı hörmət yaradır, anlaşılmazlıqların qarşısını alır və peşəkar münasibətlərin möhkəmlənməsinə səbəb olur. Araşdırma göstərir ki, ingilis dili email yazışmalarında nəzakət strategiyaları yalnız etik norma deyil, həm də kommunikativ effektivlik vasitəsidir. Xüsusilə beynəlxalq iş və təhsil mühitində düzgün nəzakət strategiyası uğurlu əməkdaşlıq üçün vacibdir. [8, s. 126-134; 9, s. 97-112]

Elmi nəticə: Müəyyən edilmişdir ki, ingilis dili email diskursunda nəzakət strategiyalarının tətbiqi mesajın qəbul olunma səviyyəsini artırır, münasibətləri müsbət istiqamətdə inkişaf etdirir və konflikt ehtimalını azaldır. [3, s. 286-289; 2, s. 245-252]

Elmi yenilik: Bu məqalədə ingilis dili email yazışmalarında nəzakət strate-giyaları praqmatik, diskursiv və mədəniyyətlərarası aspektlərdən kompleks şəkildə sistemləşdirilmişdir.

Aktuallıq: Rəqəmsal kommunikasiya dövründə işgüzar və akademik sahələrdə email əsas ünsiyyət vasitələrindən biri olduğuna görə mövzu olduqca aktualdır.

Elmi əhəmiyyət: Məqalənin nəticələri dilçilik, praqmatika, biznes ingiliscəsi, akademik yazı və kommunikasiya təlimində istifadə oluna bilər.

` **NƏTİCƏ:** Aparılan tədqiqat göstərir ki, ingilis dili email yazışmalarında nəzakət strategiyalarının düzgün tətbiqi ünsiyyətin səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Müraciət formaları, dolayı xahişlər, yumşaldıcı ifadələr, təşəkkür və üzrxahlıq strategiyaları qarşılıqlı hörmətin qorunmasına və peşəkar münasibətlərin möhkəmlənməsinə xidmət edir. Mədəniyyətlərarası kommunikasiya zamanı nəzakət normalarına əməl olunması anlaşılmazlıqların və mümkün konfliktlərin qarşısını almağa kömək edir.

Araşdırma həmçinin göstərir ki, nəzakətsiz email yazışmaları peşəkar imicə mənfi təsir göstərərək əməkdaşlıq imkanlarını məhdudlaşdıra bilər. Bu baxımdan, email diskursunda praqmatik və etik normaların nəzərə alınması müasir işgüzar və akademik ünsiyyət üçün vacib şərtlərdən biridir.

Nəticə etibarilə, ingilis dili email yazışmalarında nəzakət strategiyalarının mənimsənilməsi və məqsədyönlü tətbiqi effektiv, peşəkar və uğurlu beynəlxalq kommunikasiyanın formalaşmasına əhəmiyyətli töhfə verir.

İstifadə edilmiş ədəbiyyat

1. Brown, P., & Levinson, S. C. (1987). Politeness: Some Universals in Language Usage. Cambridge: Cambridge University Press.
2. Leech, G. N. (2014). The Pragmatics of Politeness. Oxford: Oxford University Press.
3. Lakoff, R. (1973). The Logic of Politeness; or, Minding Your P's and Q's. Chicago Linguistic Society, 9, 292-305.
4. Yule, G. (2020). The Study of Language (7th ed.). Cambridge: Cambridge University Press.
5. Crystal, D. (2006). Language and the Internet (2nd ed.). Cambridge: Cambridge University Press.
6. Bhatia, V. K. (1993). Analysing Genre: Language Use in Professional Settings. London: Longman.
7. Hyland, K. (2005). Metadiscourse: Exploring Interaction in Writing. London: Continuum.
8. Guffey, M. E., & Loewy, D. (2019). Essentials of Business Communication (11th ed.). Boston: Cengage Learning.
9. Baron, N. S. (2008). Always On: Language in an Online and Mobile World. Oxford: Oxford University Press.
10. Herring, S. C. (Ed.). (1996). Computer-Mediated Communication: Linguistic, Social and Cross-Cultural Perspectives. Amsterdam: John Benjamins.
11. **Məqalələr:**
12. Young-in Moon. (2025).The Effects of ChatGPT on Politeness in L2, University Students' Email Requests to Faculty. Modern English Education.
13. Hicham Boukhechba. (2024). Investigating Students' Politeness Strategies in Email Requests. Eddissi Languages Journal.
14. Alex Baratta, Rui He. (2026). Too Polite to Be Appropriate?. Re-examining Politeness as a Socio-Pragmatic and Acculturative Strategy in Chinese International Students' Academic Email Communication. SSRN (preprint)

Mehriban Zeynal gizi Hajizade
Azerbaijan University of Languages
mehribanhacizade7@gmail.com
https://orcid.org/ 0009-0006-9476-3157

Politeness Strategies in English Email Correspondence

Summary

In the context of modern globalization, email correspondence has become a primary medium for international business, education, diplomacy, and daily professional communication. English holds a dominant position in email correspondence as the language of international communication. Consequently, the appropriate application of politeness strategies in English email correspondence is of particular importance. This article analyzes the concept of politeness within English email discourse, examining its linguistic and pragmatic features, forms of address, indirect expressions, softening constructions, and strategies for expressing gratitude and apologies. The study concludes that polite correspondence enhances communication effectiveness, fosters a positive professional image, and strengthens an atmosphere of mutual respect.

Key words: email discourse, politeness strategies, English language, pragmatics,business correspondence, communication, netiquette

Мехрибан Зейнал кызы Гаджизаде
Азербайджанский Университет Языков
mehribanhacizade7@gmail.com
https://orcid.org/ 0009-0006-9476-3157

Стратегии вежливости в англоязычной электронной переписке

Резюме

В условиях современной глобализации электронная переписка стала основным средством общения в сферах международного бизнеса, образования, дипломатии и повседневной профессиональной коммуникации.

Английский язык занимает доминирующее положение в электронной переписке как язык международного общения. В связи с этим особое значение приобретает уместное использование стратегий вежливости при ведении переписки на английском языке. В данной статье анализируется понятие вежливости в дискурсе англоязычной электронной переписки; рассматриваются лингвистические и прагматические особенности, формы обращения, косвенные высказывания, смягчающие конструкции, а также стратегии выражения благодарности и извинений. Авторы приходят к выводу, что вежливая переписка повышает эффективность общения, способствует формированию позитивного профессионального имиджа и укрепляет атмосферу взаимного уважения.

Ключевые слова: дискурс электронной переписки, стратегии вежливости,английский язык,рагматика, деловая переписка, коммуникация, етикет

Rəyçi: fil.f.dok. Aynur Əfsər qızı Quliyeva

DOI: 10.24412/2218-7588-2026-2-84-86

Şəkər İlqar qızı Məlikova
Baki ilahiyyat kolleci, müəllim
Sheker.melikova@mail.ru
https://orcid.org/0000-0002-1167-8779

ƏRƏB QRAMMATİKASINDA ZAMAN KATEQORİYASININ NƏZƏRİ İNKİŞAFI VƏ FEİLİN ROLU

XÜLASƏ: Zaman anlayışı insanın ətraf aləmi dərk etməsi ilə birlikdə formalaşan ən qədim idrak kateqoriyalarından biridir. Hadisələrin ardıcıllığını və davamlılığını müəyyənləşdirmək ehtiyacı zamanın dil vasitəsilə ifadəsini zəruri etmiş, nəticədə müxtəlif dillərdə bu anlayışı əks etdirən qrammatik və leksik vasitələr yaranmışdır. Buna görə də zamanın yalnız fəlsəfi anlayış deyil, həm də linqvistik kateqoriya olduğunu deyə bilərik.

Qeyd etmək lazımdır ki, zaman məsələsi ərəb dilçiliyində klassik dövrdən etibarən geniş şəkildə araşdırılmışdır. Orta əsr ərəb qrammatika məktəbləri feilin zaman xüsusiyyətlərinin izahında müxtəlif yanaşmalar irəli sürmüşlər. Müasir dövrdə isə ərəb dilində zaman kateqoriyası morfoloji quruluşla yanaşı, semantik baxımdan da araşdırılmağa başlanmışdır. Bu məsələdə Qərb dilçiliyinin təsiri aydın şəkildə əks olunur.

Məqalədə ərəb dilçiliyində zaman anlayışının nəzəri inkişaf mərhələləri nəzərdən keçirilir, klassik və müasir yanaşmalar müqayisə olunur, həmçinin feilin zaman münasibətlərinin ifadəsində tutduğu mövqe elmi mənbələr əsasında təhlil edilir.

Açar sözlər: feil zamanları, ərəb dilçiliyi, morfoloji quruluş, klassik yanaşma, müasir yanaşma

GİRİŞ: İnsanın zaman haqqında təsəvvürü onun ətraf aləmi müşahidə etməsi və baş verən hadisələrin ardıcıllığını başa düşməsi ilə əlaqəlidir. Müasir ərəb dilçiliyinin görkəmli nümayəndələrindən olan İbrahim Ənis zaman anlayışının formalaşmasını insanın idrak inkişafi ilə əlaqələndirərək bu prosesi uşaqda zaman təsəvvürünün mərhələli şəkildə yaranması ilə müqayisə edir. Onun fikrincə, insan ilk olaraq yaşadığı anı dərk edir. Bundan sonra yaşadığı hadisələr və həyat təcrübəsinin nəticəsində keçmişdə baş verənləri xatırlayır, həmçinin gələcək haqqında təsəvvürlər yaranır. Beləliklə onda keçmiş, indiki və gələcək zaman anlayışı formalaşır. Zaman keçdikcə bu anlayışları ifadə etmək üçün dil vasitələrinə (terminlər, qrammatik vasitələr və s.) ehtiyac yaranır [4, s. 165-166]. İbrahim Ənisin bu yanaşması onun göstərir ki, zaman yalnız obyektiv reallıq deyil. O, insan idrakının məhsuludur və dildə özünü müxtəlif vasitələrlə əks etdirir.

ƏSAS HİSSƏ: Zamanın mahiyyəti müxtəlif elm sahələrində fərqli formada izah edilir. Bu baxımdan zamanüç qismə bölünür: Birincisi, "fəlsəfi zaman"dır. Burada zaman gün, ay, il kimi vahidlərlə ölçülür. Qeyd etmək lazımdır ki, fəlsəfi zaman obyektiv xarakter daşıyır. Zamanın digər növünü "astronomik zaman" təşkil edir və o, baş verən hadisələrin vaxt baxımından ölçülməsi üçün bir zamandır. Zamanın bu iki növü bir-biri ilə bağlıdır [11, s. 433]. Zamanın üçüncü növü isə "linqvistik zaman"dır. Linqvistik zaman hadisənin nitqdə hansı zaman müstəvisində təqdim olunmasını əks etdirir. Ərəb dilində bu funksiyanın əsas daşıyıcısı feildir. Müasir dilçilikdə linqvistik zaman adətən üç istiqamətdə öyrənilir:

Morfoloji zaman – zaman mənasının feilin qrammatik forması ilə ifadəsi;

Sintaktik zaman – zaman münasibətlərinin cümlə quruluşu və sintaktik əlaqələr vasitəsilə müəyyənləşdirilməsi;

Semantik zaman – zaman mənasının kontekst və dil vahidlərinin qarşılıqlı əlaqəsi əsasında formalaşması [5, s. 8-9].

Linqvistik zamanın qeyd olunan bölgüsündən aydın olur ki, zamanın ifadəsi yalnız feilin morfoloji quruluşundan deyil, kontekstdən, cümlədə istifadə olunan əlavə vasitələrdən də asılıdır. Lakin qeyd etmək lazımdır ki, ərəb qrammatikasında zamanı ifadə etməyin əsas metodu feil olduğu üçün onun funksional xüsusiyyətlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Linqvistik zaman dil sistemində zaman münasibətlərinin ifadəsini əhatə etdiyi üçün onun araşdırılmasının nitq hissələrinin funksional xüsusiyyətlərinin öyrənilməsi ilə sıx bağlı olduğunu qeyd etmək yerinə düşər. Ərəb dilində feil zamanı ifadə etməyin ən əsas vasitəsi olduğu üçün orta əsr qrammatikləri nitq hissələrinin bölgüsündə ona xüsusi diqqət yetirmişlər.

Orta əsr qrammatikləri sözləri isim, feil və ədat olmaqla üç hissəyə ayırmışlar. Lakin bununla yanaşı, bəzi qrammatiklər bu bölgünün bütün sözləri əhatə etmədiyini bildirmiş və "əl-xalifə" (feil isimləri) üçün ayrı bir kateqoriyanın ayrılması təklifini irəli sürmüşlər. Burdan aydın olur ki, nitq hissələrini müəyyənləşdirərkən qrammatiklərin bir qismi formal göstəriciləri, digərləri isə semantik xüsusiyyətləri əsas götürmüşlər [12, s. 158].

Müasir ərəb dilçiliyində nitq hissələrinin bölgüsü məsələsinə yenidən baxılmışdır. Belə ki, orta əsr alimlərinin üçlü (isim, feil, ədat) bölgüsünün bütün dil vahidlərini ifadə etmədiyi fikri irəli sürülmüşdür. Bu baxımdan yeni təsnifat formaları təklif olunmuşdur. Bu məsələdə Qərb dilçilik məktəblərinin, şərqşünas alimlərin təsiri müşahidə edilir [3, s.139]. Müasir ərəb dilçilərindən olan Təmmam Həssan da nitq hissələrinin yeni təsnifatını irəli sürmüşdür. O, nitq hissələrini isim, sifət, feil, əvəzlik, əl-xalifə, zərf və ədat olmaqla yeddi kateqoriyada təsnif etmiş və bununla ənənəvi üçlü bölgünün hüdudlarını genişləndirmişdir [6, s. 90].

Ənənəvi ərəb dilçiliyi müasir ərəb dilçiliyində öz mövqeyini qoruyub saxlamasına baxmayaraq, yeni yanaşmalar onun bir sıra istiqamətlənin yenidən dəyərləndirilməsini tələb edir. Bunlardan biri də feilin zaman məsələsinə semantik baxımdan yanaşılması məsələsidir.

Nitq hissələrinin təsnifatı ilə bağlı nəzəri yanaşmalar feilin zaman kateqoriyası ilə əlaqəsinin ənənəvi ərəb qrammatikasında necə izah olunduğunu araşdırmağa imkan verir. Belə ki,feilin zamanları ilə bağlı sistemli yanaşma ilk olaraq Bəsrə qrammatika məktəbinin alimləri tərəfindənirəli sürülmüşdür. Bu məktəbin ən görkəmli nümayəndələrindən olan Sibəveyhi özünün dəyərli əsəri olan *"Əl-Kitāb"* (الكتاب) əsərində feili zamanla əlaqələndirmişdir. Müəllif, həmçinin burada feili "فعل" (keçmiş), "يفعل" (indiki–gələcək) və "إفعل" (əmr) vəznləri əsasında bölmüşdür [9, s. 12]. Sibəveyhinin qeyd olunan bölgüsü feilin morfoloji quruluşu ilə yanaşı, onun ifadə etdiyi zaman münasibətlərini də əks etdirir.

Kufə qrammatikləri isə feilin zamanla əlaqəsi məsələsində Bəsrə qrammatikləri ilə ümumi prinsiplər baxımından ortaq fikirdə olmuşlar. Lakin bəzi qrammatik məsələlərdə, xüsusilə feilin zaman formalarının bölgüsündə ixtilaflı mövqedə olmuşlar. Belə ki, Bəsrə qrammatiklərindən fərqli olaraq, kufəlilər feili "الماضي، المضارع، المستمر" (keçmiş, indiki-gələcək, davamiyyət) şəklində təsnif etmişlər. Onlar əmr formasını zaman forması kimi deyil, indiki-gələcək zamanın funksional növü kimi qeyd etmişlər [1, s. 3]. Kufə qrammatiklərinin bölgüsündən aydın olur ki, onlar feilin zaman sisteminin izahında funksional xüsusiyyətlərə üstünlük vermişlər.

Bəsrə və Kufə məktəblərinin nümayəndələrinin feil zamanları ilə bağlı fikir ayrılıqları ənənəvi qrammatikada geniş araşdırılmamışdır. İki məktəb arasındakı fərqlər əsasən ayrı-ayrı qrammatik mənbələrdə əksini tapmışdır. Belə ki, bu məsələ Əbul Qasim Əz-Zəccacinin "*Kitāb məcālisi-l-luğaviyyīn va-n-naḥviyyīn"* (كتاب مجالس اللغويين والنحويين) və Əl-Fərranın "*Maʿānī-l-Qurʾān"* (معاني القرآن) əsərlərində müəyyən qeydlər şəklində şərh olunmuşdur [8, s.206].

Sibəveyhinin *"Əl-Kitāb"* (الكتاب) əsəri ilə yanaşı, feilin zaman baxımdan təhlili İbn əs-Sərracın *"Əl-Uṣūl fī-n-naḥv"* (الأصول في النحو), İbn Yəişin *"Şarḥu-l-Mufaṣṣal"* (شرح المفصل) və Ər-Radinin *"Şərḥ Kāfiyat İbn əl-Ḥācib"* (شرح كافية ابن الحاجب) və digərlərində öz əksini tapmışdır. Həmin əsərlər sonrakı dövrdə ərəb qrammatikasında zaman nəzəriyyəsinin inkişafında mühüm rol oynamışdır [10, s. 687].

Zaman kateqoriyasının nəzəri əsaslarını aydınlaşdırarkən ərəb dilçiliyində işlənən terminlər arasındakı semantik fərq də nəzərə alınmalıdır. Belə ki, "زمان" (zəmān) və "زمن" (zəmən) terminləri eyni məna daşımır. Birinci termin (زمان) zamanın ümumi mahiyyətini, ikinci termin (زمن) isə qrammatik zamanı ifadə edir. Bu fərqi izah edən dilçilərdən biri Təmmam Həssandır. Onun fikrinə əsasən, ümumi zaman (keçmiş, indiki və gələcək zamanlar) "زمان" termini ilə ifadə olunur. Bu zamanlar təqvimlə, saatla və s. ölçülə bilir. Lakin "زمن" termini ilə qrammatik zaman göstərilir və nitqdə müxtəlif feil formaları ilə öz əksini tapır. "زمان" termini İngilis dilində işlənən "time" terminə, "زمن" termini isə "tense" terminə uyğun gəlir [7, s. 211]. Təmmam Həssanın terminoloji fərqləndirməsi ərəb dilində zamanın yalnız obyektiv hadisə kimi deyil, həmçinin qrammatik kateqoriya kimi dəyərləndirilməsinə şərait yaradır.

İbrahim Ənis, Təmmam Həssan kimi ərəb dilçiləri zaman və nitq hissələrinə dair ənənəvi baxışları funksional cəhətdən şərh etmiş, eyni zamanda Sibəveyhi, Əl-Mübərrəd və Əz-Zəməxşəri kimi klassik qrammatiklərin irsinə əsaslanmışlar [3, s. 134]. Bu isə müasir ərəb dilçiliyində nəzəri yanaşmaların ənənəvi ərəb dilçiliyinin yeni prinsipləri ilə dəyərləndirilməsi əsasında əks olunduğunu deməyimizə əsas verir.

Adların əksəriyyətinin feildən düzəlməsi, cümlə quruluşunda feili xəbərin əsas üzv hesab olunması kimi xüsusiyyətlər feilin ərəb dili qrammatikasında morfoloji və sintaktik baxımdan digər nitq hissələri ilə müqayisədə xüsusi mövqeyə malik olması səbəblərindəndir [2, s. 7].

Müasir ərəb dilçiliyində zaman kateqoriyasının tədqiqi klassik qrammatika ənənəsinin sərhədlərini genişləndirmişdir. Müasir tədqiqatlarda feilin zaman ifadə etməsi təkcə qrammatik forma ilə deyil, kompleks şəkildə (kontekst, semantik məna və nitq funksiyası ilə birlikdə) dəyərləndirilir. Bu yanaşma Təmmam Həssanın *"Əl-Luğa-l-ʿArabiyyəmə ʿnəhəva məbnāhā"(اللغة العربية معناها ومبناها)*, İbrahim Əs-Səmərrainin "*Əl-fiʿl zəmānuhu va əbniyətuhu"(الفعل زمانه وأبنيته)*, Mehdi əl-Məxzuminin "*Fī-n-naḥvəl-ʿarabī: naqd va taucīh"(في النحو العربي: نقد وتوجيه)* və s. kimi əsərlərdə öz əksini tapmışdır.

NƏTİCƏ: Araşdırmamızdan belə nəticəyə gələ bilərik ki, feil və onun zaman formaları mövzusu istər ənənəvi, istərsə də müasir ərəb dilçiliyində özünəməxsus mövqeyə malikdir. Qeyd etmək lazımdır ki, feilin zaman formaları mövzusu orta əsr qrammatikləri tərəfindən geniş müstəvidə araşdırılmamışdır.Müasir ərəb qrammatikləri isə istər nitq hissələrinin bölgüsü, istərsə də feilin zaman baxımından mövqeyini Qərb qrammatika məktəblərinin təsirilə yenidən nəzərdən keçirmiş və yeni təsnifatlar irəli sürmüşlər.

İstifadə edilmiş ədəbiyyat

1. Məmmədəliyev V.M. Kufə qrammatika məktəbi. Bakı: ADU nəşriyyatı, - 1988. – 116 s.
2. Şəms İ.Q. Klassik ərəb dili morfologiyasının əsasları. Dərs vəsaiti. Bakı: ADU nəşri, – 1983. – 122 s.
3. آلاء شفيق وهاب. أثر الاستشراق في الدراسات النحوية الحديثة. مجلة دراسات استشراقية، العراق، عدد 3، 2023، ص. 134–168
4. إبراهيم أنيس. من أسرار اللغة. مكتبة الأنجلو المصرية، – 1978 – ص358، .
5. بوتخيلي عائشة. الدلالة الزمنية للفعل المضارع في جزء المجادلة. مجلة الممارسات اللغوية، المجلد 11، عدد 3، – 2020، ص. 65–82
6. تمام حسان. اللغة العربية معناها ومبناها. دار البيضاء، – 1994 – ص374، .
7. تمام حسان. مناهج البحث في اللغة. مكتبة الأنجلو المصرية، – 1990 – ص282، .
8. الدكتور السيد رزق الطويل. الخلاف بين النحويين. جامعة أم القرى – مكة المكرمة، – 1984 – ص663، .
9. سيبويه. الكتاب. تحقيق وشرح: عبد السلام محمد هارون. الجزء الأول. مكتبة الخانجي بالقاهرة، – 1988 – ص446، .
10. عارف الدين، شمس الهادي. الزمن النحوي في عيون عربية وغربية معاصرة، ص. 687–700
11. منيفة غازي خنيفر البراك. الزمن اللغوي في المعلقات أنواعه ودلالالته. مجلة العلوم الإنسانية والطبيعية، المملكة العربية السعو دية. - ص. 2022 - 426-447،
12. نسيمة نابي. واقع اللغة العربية وأثر المستشرقين عليها. مجلة الممارسات اللغوية، الجزائر، عدد 35، 2016، ص. 155–172

Malikova Sheker Ilgar
Baku Theological College, teacher
Sheker.melikova@mail.ru
https://orcid.org/0000-0002-1167-8779

The theoretical development of tense category and the role of the verb in arabic grammar

Summary

The concept of time is one of the oldest cognitive categories that was formed along with the human understanding of the surrounding world. The need to determine the sequence and continuity of events necessitated the expression of time through language, as a result, grammatical and lexical means reflecting this concept have emerged in various languages. Therefore, we can say that time is not only a philosophical concept, but also a linguistic category. It should be noted that the issue of time has been widely studied in Arabic linguistics since the classical period. Medieval Arabic grammar schools put forward various approaches to explaining the temporal characteristics of the verb. In the modern period, the category of time in Arabic has begun to be studied not only from the morphological structure, but also from the semantic point of view. The influence of Western linguistics is clearly reflected in this issue.

The article reviews the stages of theoretical development of the concept of time in Arabic linguistics, compares classical and modern approaches, and also analyzes the position of the verb in the expression of temporal relations based on scientific sources.

Keywords: verb tenses, Arabic linguistics, morphological structure, classical approach, modern approach

Маликова Шекер Ильгар кызы

Бакинский духовный колледж, преподаватель

Sheker.melikova@mail.ru

https://orcid.org/0000-0002-1167-8779

Теоретическое развитие категории времен и роль глаголав арабской грамматике

Резюме

Понятие времени – одна из древнейших познавательных категорий, сформировавшаяся вместе с пониманием человеком окружающего мира. Необходимость определения последовательности и непрерывности событий обусловила выражение времени посредством языка, в результате чего в различных языках возникли грамматические и лексические средства, отражающие это понятие. Поэтому можно сказать, что время – это не только философское понятие, но и языковая категория.

Следует отметить, что вопрос времени широко изучался в арабской лингвистике ещё с классического периода. Средневековые арабские грамматические школы предлагали различные подходы к объяснению временных характеристик глагола. В современный период категория времени в арабском языке стала изучаться не только с морфологической, но и с семантической точки зрения. Влияние западной лингвистики явно отражается в этом вопросе.

В статье рассматриваются этапы теоретического развития понятия времени в арабской лингвистике, сравниваются классический и современный подходы, а также анализируется положение глагола в выражении временных отношений на основе научных источников.

Ключевые слова: времена глаголов, арабская лингвистика, морфологическая структура, классический подход, современный подход

Rəyçi: dos. N.Əfəndiyeva

DOI: 10.24412/2218-7588-2026-2-87-90

Gülbanu Bəhram qızı Bəşirova
Azərbaycan Dillər Universitetinin baş müəllimi
gulbani.bashirova@mail.ru
ORCİD İD: https://orcid.org/0009-0004-9160-3743

DİL VAHİDLƏRİNİN SEMANTİK-PRAQMATİK İNTERPRETASİYASI

XÜLASƏ: Bu məqalədə obrazlı metaforik ifadələrin dil sistemində, mətnin formalaşmasında, məzmun planının və kommunikasiyanın qurulmasında rolu aydınlaşdırılır. Araşdırma göstərir ki, dilin leksik sistemində mühüm yer tutan obrazlı ifadələr leksik substitusiyanı həyata keçirən, obyekt, predmet və hadisələrin fərqli kontekstdə başa düşməyə imkan verən aparıcı koqnitiv mexanizmlərdir. Perifrazlar həm evfemistik, həm də metaforik müstəvidə təzahür etməklə, insanın arzu və niyyətini daha qabarıq əks etdirir, mətnin ekspressivliyini və kommunikativ təsir gücünü üzə çıxarır. Bununla yanaşı məqalənin əsas ideyasını alternativ adlandırmaların, sinonim qruplarının və mətnyaradıcı ünsürlərin fəaliyyətinin təhlili təşkil edir. Metaforik ifadələrin koqnitivliyi onların idrak, yaddaş və interpretasiya prosesindəki rolu ilə izah olunur, eləcə də konkret semantik strukturu və variativliyi önə çıxarılır. Qeyd olunur ki, evfemistik ifadələr ictimai-siyasi mətnlərdə ünsiyyətin etik müstəvidə həyata keçməsinə, fikrin nisbətən nəzakətli və məqsədli şəkildə ifadəsinə kömək edir. Bu nöqteyi-nəzərdən perifrazların elmi müstəvidə təhlili istər dilçilik, istərsə də diskurs analizində aktuallıq kəsb edir.

Açar sözlər: dil vahidləri, funksionallıq, kontekstual, idraki mexanizm, nominasiya.

GİRİŞ: Canlı orqanizm kimi dilin transformativ xarakteri və yenidən yaratma potensialının əsasında əşyaların, hadisə yaxud proseslərin, ümumiyyətlə ətraf aləmin fərqli istiqamətlərdən dərk olunması dayanır. Bununla paralel olaraq qeyri-tamlıq, gümanetmə, yanlışlıq, yanıltmalardan ibarət dildə mövcud olan çoxtərəfli ifadə resurslarının özünü göstərdiyi müəyyən olunur. Deməli, qavrama prosesində təkcə sürəti və ləngiməni yaradan sinonim çoxluqlar deyil, eyni zamanda müəyyənedici, həlledici, dəyərləndirici çoxluqlar, semantik məlumatı özündə ehtiva edən alternativ adlandırmalar və müvafiq nitq vahidləri iştirak edir. Bu halda başlıca kontekstual müəyyənedici və inteqrativ vahidlərin köməyi ilə vahid koqnisya və dil strukturu formalaşmağa başlayır. Belə ki, hadisə, predmet və proseslər üçün səciyyəvi bir xüsusiyyət cari kontekstə adaptasiya olunarkən başqa səciyyəvi xüsusiyyətlər yaddaşdan pozulmur və onlar digər aparıcı sinonimlə əvəzlənir, açar sözün köməyi ilə qorunur, beləliklə də, müxtəlif kommunikativ kontekstlərdə mümkün nəticələrin dəyişməsi və kommunikasiya axınında məna ilə bağlı mümkün korreksiyaların realizə olunması özünü büruzə verir. Obrazlı adlandırmanın funksionallığı, uyğun stilistik paradiqmadakı pozisiyası aydınlaşır, bir müddət gizli qalan və modifikasiyaya məruz qalmış obyektin yeni kontekstə uyğunlaşması müəyyənləşir, aparıcı leksemlə, vahid semantika ilə təmasda dil kriteriyalarının fərqliliyi müəyyən edilir. Bu fərqliliklər bir sıra hallarda fundamental-kontekstual gerçəkliklə uyğun idraki-praqmatik təcrübə arasındakı müxtəliflikdən, o cümlədən, dəyərləndirmə və qavrama ilə əlaqəli meydana çıxan şübhələrdən irəli gələ bilər. Əvəzedici nominasiya qrupları öncə mətnə yeni konseptlərin daxil olmasına kömək edir, birmənalı şəkildə mövzu üzrə yeni ideyaların ötürülməsini aktivləşdirir və beləliklə də mətnin formalaşmasını optimallaşdırır. Belə ki, antroponimlərlə yanaşı etnonimlərin necə tanınması və hansı xüsusiyyətlərinə görə digər sözlərdən fərqləndirilməsi , bu məlumatların mətn daxilində təkrar qeyd olunması nəinki mövcud bilikləri üzə çıxarır, hətta idraki məzmunun əmələ gəlməsinə təkan verir. Bu halda mövzunu daha dərindən başa düşmək üçün yeni yanaşmalar meydana çıxır. Kommunikativ niyyəti, koqnisiyanı və idrak bacarıqlarını aktiv etməklə onu yeni virtual reallıqlar dairəsinə daxil edir. Onu da vurğulamaq yerinə düşər ki, həm metaforik ifadələr, həm də bədii təyinlər aparıcı leksemi mətnin tərkibinə daxil etməklə vacib funksiyanı yerinə yetirir və xeyli miqdarda alternativ cərgələrin yaranmasına səbəb olur . Deməli, predmetə, hadisə və proseslərə aid fərqli xüsusiyyətlər verballaşma və variasiya yolu ilə önə çəkilir. Məna və ideya baxımından yanaşdıqda deyə bilərik ki, verballaşma mətnin məzmununda əmələ gələn həm kommunikativ, həm də semantik əngəllərin qarşısını alır, konkret isimlərin səciyyəvi xüsusiyyətlərini və konkret əlamətlərini önə çəkmək, leksik-semantik variantlara söykənərək koqnitiv-idraki prosesləri reallaşdırmaq müqayisədə bir qədər yüngül olduğuna görə parafrazların əmələ gəlmməsində də daha aktiv şəkildə özünü göstərir, yəni abstrakt və sayılmayan isimlərdən daha çox digər isimlər bu prosesdə fəallaşır. Şəffaf nominasiyalar şüşə və kristal adlandırmalarla ifadə olunduqda perifrazlar rəngarəng olmaqla yanaşı həm də daha təbii və canlı mənzərə yaradırlar. Dildə olan sözlərin praqmatk və dinamik xarakteri yeni mətn yaratma qabiliyyətini stimullaşdırır. Dünya dillərinin hamısında etik dəyərlər və davranış qaydalarını, xasiyyət və xarakteri ifadə edən sözlərə alternativ sözlər təqdim etmək, daha səmərəli (effektiv) təsiri və ətraflı ifadə imkanlarını irəli sürmək bir qədər mürəkkəbdir və hətta deyə bilərik ki, mümkün deyil. Ona görə ki, biz bu günə kimi bütün dillərdə adı çəkilən anlayışların dəqiq mənasını bilmirik.Yəni adı çəkilən anlayışların yaranma tarixi və mahiyyəti müəlliflərə hələ də naməlum olaraq qalır. Semantik komponentlərin konkret şəkildə fərqləndirilməsi qeyri-mümkündür. Belə olan halda biz həmin sözləri nə semantik cəhətdən parçalayıb analiz edə bilərik, nə də praqmatik aspektdə spesifik xüsusiyyətlərini müəyyənləşdirə bilərik. Deməli, dil quruculuğu prosesi konseptual məlumat azlığı ilə üzləşir. Mövcud keyfiyyət və əlamətlər toplusu bir dəfəyə kompleks şəkildə çətinliklə dərk olunur, dərketmənin ifadəliliyi və obrazlılığı həqiqi mənada effektiv olur. Həm məntiqi, həm də məcazi mənalı perifrazlar izahedici, seçici, fərqləndirici və müəyyənedici funksiyasında çıxış edir. Bəzən siyasi mətn parçalarında metaforik ifadələr sayılan perifrazlar məfhum və anlayışları xırda detallarına qədər ayıraraq mənanın təhrif olunmasına, ideyanın təsir gücünün zəifləməsinə və məğzin

yayğınlığına və pozulmasına gətirib çıxarır. Belə ki, obrazlı mətn parçaları bir sıra hallarda gerçəklik dairəsindən çıxaraq təsəvvürlər və uydurmalar daxil olur. Bu halda onlar həqiqi situasiyaları deyil, təqribi situasiyaları əks etdirirlər.

ƏSAS HİSSƏ: Bəllidir ki, bədii mətnlərin qavranılması qurulmasından daha çətindir, lakin həmin anda biz onlara dolayı və sürətlə genişlənən qiymətləndirmə formaları kimi qəbul edirik və həmin bədii mətnlər məlumatın həcmini zəngin edir. Bəzən effektiv obrazlı mətnlərin qavranılması, qurulması üçün ana dili daşıyıcısı kimi çıxış etmək qaneedici olmur. Bunun üçün spesifik qabiliyyət, kreativlik və müvafiq biliyin olması mütləqdir. Obrazlı ifadələrin dildə istifadəsi üçün mətnə uyğun semantik proqram, uyğun kontekstual və məzmun bağlılığının vəhdəti vacib şərtdir [1, s. 85]. Bununla yanaşı tamamilə bir-biri ilə oxşar və koqnitiv gerçəkliyi əks etdirən identik və bədii perifrazların qurulması prosesində yetərincə məhdudiyyətlər özünü göstərir. Məsələn, dahi şəxsiyyət Məmməd Əmin Rəsulzadəni xarakterizə etmək üçün hamının qəbul etdiyi və başa düşdüyü aşağıdakı frazalardan istifadə edə bilərik: öz xalqının azadlığı yolunda mübarizə aparan insan;müstəqillik ideyasının banisi;öz xalqının firavanlığı və xoşbəxt gələcəyi üçün canından keçən lider;azadlıq carçısı;azadlıq ideallarına sadiq dahi şəxsiyyət.

Deməli, perifraz qruplarının kontekst daxilində işlədilməsi mətnə daha zəngin ifadə, daha da dərin məna verməklə oxucunu düşünməyə vadar edir. Başqa sözlə desək, mətnin quruculuğu prosesində ideya və hisslərin hərəkətini, semantik əlaqələrin genişlənməsini müşahidə edirik.

Dilin ifadə vasitələri rəngarəng olsalar da, cəm halda onlar tam funksional sistemdə semantik yük və mahiyyətin, eləcə də tematik qrupların məğzini ortaya qoyur. Verilən linqvistik göstəricilər öncə koqnitiv xarakterli elementlərin gerçəkliyi ilə insanların yaddaşında həkk olunur və kommunikativ mühitin yaranmasına səbəb olur. Məlumdur ki, idrak və dərketmə prosesində haqqında söhbət açılan hadisə, obyekt yaxud predmetin ancaq gözlə gördüyümüz tərəfləri assosiativ olaraq geri çəkilir [8, s. 201]. Bütün görünən tərəfləri vəhdət şəklində toplamaqla sonradan biz bir daha onları parçalamağa, ayırmağa başlayırıq. Bir qayda olaraq qərb ədəbiyyatında "Ay" göy səltənətinin, asimanın *yaraşığı, gözəli* hesab olunur.

Azərbaycan ədəbiyyatında isə "Ay" asimanın *yanar şamı* adlandırılmaqla koqnitivliyin həqiqi və mənalı versiyasının yaranmasına kömək edir. Yəni effektiv üsullarla fikrin, ideyanın izah olunması fərqli xarakteristik xüsusiyyətlər və işarələr prizmasından ötürülməsi ilə müəyyən olunur. Nəticədə əlamət tədqiqat obyektini gizlədir və önə istiqamət alır, daha dəqiq desək, obyekt, məzmun müvafiq linqvistik göstərici ilə əvəzlənir. Bu cür ifadə tərzi bir o qədər də mükəmməl və keyfiyyətli olmamasına baxmayaraq məzmunun praqmatikliyini və koqnitivliyini gücləndirir, o cümlədən onun semantik valentliyi məqamını da ortaya qoyur. Beləliklə də, metaforik ifadələrin idraki və konseptual yanaşma tutumunun, eləcə də semantik mənasının müxtəlifliyi onun variativliyinə və şaxələnməsinə gətirib çıxarır.

Yuxarıda qeyd etdiyimiz kimi, obrazlı ifadələr, yəni perifrazlar konkret yanaşma bucağından təhlil olunduğuna görə linqvistik göstəricilərin deskriptiv səciyyə qazanması və müəyyən çevrə daxilində şaxələnməsi çox da asanlıqla özünü büruzə vermir, lakin birmənalı olaraq məntiq əsasında əvəzlənmələr, variativlik, semantik məlumatların zənginliyi səbəbindən dilin innovativ, yaradıcı potensialı güclənir və çoxluq dairəsi genişlənməyə başlayır. Məsələn, Azərbaycan sözünün aşağıdakı metaforik (obrazlı) adlandırmalarını nəzərdən keçirək: 1. *Odlar Yurdu; 2. Nəsimilər, Koroğlular diyarı; 3. Qədim diyar; 4. Qızıl torpaq; 5. Qafqazın incisi; 6. Qafqazın ürəyi; 7. Qədim sivilizasiya diyarı; 8. Mədəniyyət beşiyi; 9. Şərqin qapısı; 10. Küləklər şəhəri; 11. Qara qızıl diyarı; 12. Mədəniyyət körpüsü; 13. Qafqazın mirvarisi; 14. Tolerantlıq ölkəsi; 15. Tarixin nəfəs aldığı diyar; 16. Şərq və Qərbin kəsişməsi; 17. Şərqin günəşli ölkəsi; 18. Qədim torpaqların vətəni; 19. Şəfalı məkan; 20. Sərvətlər ölkəsi; 21. Qafqazın tacı; 22. İpək yolu ölkəsi; 23. Mədəniyyətlərin kəsişdiyi məkan.*

Verilən metaforik adlar Azərbaycanın müxtəlif xüsusiyyətlərini obrazlı olaraq təqdim edir. Perifrazlar fikir və ideyanı dolayı yollarla, o cümlədən obrazlı formada mətnə daxil edir, belə ki, onlar kontekstin koqnitiv mərkəzlərini daha məzmunlu, kompleks ifadələrlə bildirən dəyişkən səciyyəli alternativlər hesab olunur. Deməli, sinonimlər çevrəsi müxtəlif kommunikasiya mühitində təkrar olunur, mətnin semantikası, sintaktik çevikliyi güclənir, sabitlik, dəyişməzlik sıradan çıxır, koqnitivlik meydana gəlir.

Bir faktı da vurğulamaq lazımdır ki, xüsusi adların, əsas nitq hissələrinin mətnə daxil edilməsində təyin və sifətlər vacib funksiyanı yerinə yetirir. Belə ki, kontekstlə bağlı olan metaforik ifadələr perifrazlarla müqayisədə daha iti, daha məhsuldar şəkildə özünü göstərir. Bu perifrazlar kontekstdən kontekstə irəliləyərək ardıcıl sıralanma ilə artaraq dil istifadəçilərinə alternativ qərarlar verməyə təhrik edir.

Məlumdur ki, köməkçi situasiyaların olması kommunikasiyanın qurulmasına təkan verir, lakin koqnitiv nizamsızlıq özünü göstərir. Deməli, metaforik ifadələr konteksti əmələ gətirir, mətnin də öz növbəsində obrazlı ifadələrin semantik özəyini aydınlaşdırması və yönləndirməsi üzə çıxır. Bəllidir ki, kontekstlə bağlı sinonim sözlərlə yanaşı perifrazların mətnin vəhdət şəklində mövcud olmasına təsiri özünü büruzə verir. Paralel budaqlanmaların müxtəlifliyi, yaradıcı qabiliyyəti birmənalı olaraq onların intensiv kommunikativ enerji yükü ilə əlaqədardır. Əvəzedici perifraz modelinin məzmun özəyi kimi fərqləndirilməsi, onun effektiv kontekstual bağlılıq potensialı kimi üzə çıxması mətn qurma imkanını yüksəldir və vahid mətn strukturuna sirayət edən təsir göstərir. Perifraz qurma qabiliyyəti müəyyən bilik, bacarıq, müvafiq məlumat həcmi və əqli aktivlikdən asılıdır.

Yuxarıda qeyd olunduğu kimi, dildə daşlaşmış və ümumi qəbul edilmiş metaforik ifadələr individual kontekstdaxili perifrazlara nisbətən daha sadədir və nisbətən az emosional-semantik fonla dərk edilir. Effektiv formada qurulmuş və adekvat qavranılan perifraz nümunələrində, əsasən məcazi mənalı sabit ifadələrdə semantika ilə emosionallıq vəhdət təşkil edərək vahid tərzinə çevrilərək başlıca kommunikativ effekt əmələ gətirir. Mətndaxili situasiya ilə birbaşa əlaqəli perifrazların bu tərəfi manipulyativ yanlışlıqlara səbəb olur, rəngarəng qeyri-səlis qruplar,

məzmun dairəsi və mürəkkəblik fərz edilən hökmlərin zənginliyi üçün baza yaradır [3]. Linqvistik göstəricilərin yüksək keyfiyyət dairəsinə nüfuz etməsi, qeyri-səlis qrupların variant zənginliyi qavrama və dərketmə prosesində növbəti istiqamətlərin formalaşmasına imkan yaradır, semantik koqnitivliyin genişlənməsinə gətirib çıxarır.

Perifrazlar eyni məfhumları fərqli ifadələrlə bildirir, bildirməklə yanaşı, həm də sinonimlərin davamı və genişlənmiş forması kimi təzahür edir, lakin onların funksional cəhətləri təkcə leksik əvəzlənmələrlə bitmir. Tamam tərsinə, perifraz dilin üslubi potensialını genişləndirməklə fikrin daha obrazlı və dolayı yolla ifadəsinə xidmət edir [5, s. 108].

Məntiqi perifrazlarla bağlı qeyd etmək olar ki, obyekti başqa şəkildə adlandırılması və ifadə tərzi olmasa da, semantika daha anlaşıqlı olur, və bir mənalı olaraq xəyalımızda yenidən qurulur, onun başa düşülməsi üçün əlavə zehni səy tələb olunmur və bu mexanizmin formalaşması heç də gərginlik yaratmır.

Konkret kommunikativ niyətlərə xidmət edən verbal davranışda məfhum, söyləm və cümlələrin mənasını, onların emosional yükünü neytrallaşdırmaq, müəyyən nəzakətsiz ifadələri gizlətmək, etikaya riyaət etmək və konstruktiv düşünmə dominantlıq təşkil edir. Bu tip perifrazlar əsasən siyasi, diplomatik və publisistik üslubda, eləcə də iri həcmli kommunikativ dairələrdə işlədilir, funksional operativliyi ilə fərqlənən evfemistik çoxluqlar sürətli və öncül qavramanı, reflektiv ünsiyyəti qabaqlayaraq dildən istifadə edənlərin həm əlavə vaxt , həm də imkan qazanmasına şərait yaradır. İdeoloji və emosional yükü olan evfemizmlər çox hallarda özlərinə məxsus "öhdəliyi" mükəmməl yerinə yetirir. Məsələn, "təmizlik işinə baxan" ifadəsi "süpürgəçi" sözündən daha ədəbli və nəzakətli səslənir, müsbət imic yaradır. "Zibilyığanı" "kommunal xidmət işçisi" yaxud "sanitar işçi" kimi adlandırmaqla onda xoş ovqat, yüksək əhval-ruhiyyə yaratmaq tamamilə mümkündür. Və yaxud, "köməkçi sözünü" "assistent" sözü ilə əvəz etsək, işçi daha həvəsli, daha məhsuldar və özünə inamlı olar.

Psixoloji nöqteyi-nəzərdən yanaşdıqda aydın olur ki, başqa dillərdən alınmış varvarizmlər (əcnəbi sözlər) dil işarəsinə məxsus olan neqativ enerjeni neytrallaşdırmaqla hadisə ilə əlaqəli qorxunu yaxud həyəcanı yüngülləşdirr və gərginliyi aradan götürür. Şübhəsiz ki, biz əcnəbi dillərə məxsus söyüş tipli söz və ifadələri nisbətən asanlıqla mənimsəyirik və qəbul edirik. Onlar bizə çox rahat və xoş təsir bağışlayır. Buna görə də, o, təbii xarakter daşıdığından başlanğıc psixi strukturlarla effektiv münasibət yarada bilmir.

Aydındır ki, cəmiyyət yalnız həqiqi gerçəkliyin deyil, eyn zamanda dil gerçəkliklərinin də müxtəlif, qeyri-sabitlik, qarşıdurma və yanlışlıqlarına məruz qalır. Əgər şəxs nəyinsə yaxud kiminsə lehinə, yaxşılığına danışırsa proses və hadisələrin həqiqi xarakterindən uzaqlaşaraq fərqli aspektdən və fərqli praqmatik bucaqdan çıxış etmiş olur. Evfemistik çoxluqlar yalanla həqiqət, gerçəkliklə yanlış qavrama arasında mövcud olan distansiyanı yarıb keçməkdir. Belə olan halda, linqvistik işarənin səlisliyi, sərrastlığı aradan qaldırmış olur. Deməli, linqvistik qiymətləndirmədə pozitivləşmə, yüngülləşmə və neytrallaşma funksiyası reallaşır və beləliklə də, məntiqi, koqnitiv və ictimai-psixoloji məzmun təzahür edir. Lakin, nəzakətlilik və tolerant mühit, örtülü qalan məqamlar yanlışlıqlara hesblanmışdır.

Yekunda aydın olur ki, evfemistik ifadələrin işlənməsində əsas məqsəd bir qədər ibarəbazlıqla yanaşı reallığı ört-basdır etmək, faktları gizlətmək, obyektiv gerçəkliyi aydın olmayan (qeyri-müəyyən) ştrixlərlə irəli sürmək, bəzi hallarda təhrif etmək, hətta saxtalaşdırmaqdır.

Qeyd etmək lazımdır ki, təktərkibli perifazlar da dildə əhəmiyyətli rol oynayır. Təktərkibli perifrastik strukturlarda kütləvilik və ümumilik abstraktlaşma həddinə gəlib çatır. Bu dil vahidlərində sinonimlik eyniləşdirmə yüksəlir, dəqiqlik və konkretlik isə minimuma enir. Bu halda gizli qalmış anlamın qiymətləndirilməsi və izahı üçün xeyli sayda əvəzləyici variantlar meydana gəlir. Məsələn, *Mən bilirəm ki, ailədə baş verən bütün narazılıqların səbəbi odur*. Burada "O" leksemi təkcə sistematik ünsür deyil, eyni zamanda geniş kontekstə işarə edir. Belə ki, müsəlman xanımlarının etik düşüncəsində öz həyat yoldaşlarının adını çağırmaq yerinə "O" şəxs əvəzliyinin işlədilməsi münasib hal sayılır. Məsələn, "O" –uşaqların atası; "O" – bizim Yusifin atası, "O" – Ceyranın babası və s. Eyni ilə müsəlman kişiləri əksəriyyətlə "o" elementindən istifadə edir. Yəni, "uşaqların anası", "Səlim kişinin qızı", "Vüqarın anası" və s.

Verilən nümunələrdən görünür ki, müsəlman kişisi ilə əlaqəli çox da vacib olmayan, qeyri-etik təsir bağışlamayan perifrastik ünsürlərin əksəriyyəti yumoristik xarakterli olub, onların həyatda dil-ünsiyyət baxımından fərqləndiklərinə işarə edirdi. Bu tip ifadələr dil əxlaqının spesifikliyini nümayiş etdirməklə həm etnopsixoloji, həm də dini dünyagörüşünün ifadəsidir. İstənilən bir insan qorxudan yaxud da ehtiyatı özündə qalsın deyə səbəbkarın, cinayət törətmiş şəxsin adını deməkdən çəkinirsə, ümumiyyətlə, həmin cinayətkar haqqında məlumat verməkdən qorxursa xeyli zaman ərzində "O" yaxud " onlar" əvəzliyinin situativ məntiqinə söykənərək faydalana bilər.

İxtisar olunmaqla bir söz həcmində mövcud olan perifrastik ifadələr isimlə bağlı mürəkkəbləşmənin işləndiyi dillərdə çox parlaq şəkildə təzahür edir. Hər hansı obyekt və predmeti, kimisə və nəyisə adlandırmamaq, həqiqi adı gizlətmək, və bir qayda olaraq tək bir sözlü leksik vahd yaratmaq üçün cəmi bir işarəyə qədər sıxılmaq bəzi dillərə xasdır.

İngilis dilçisi P.H.Mattews qeyd edir ki, perifraz qrammatik və leksik mənanın bir söz əvəzinə çoxsözlü konstruksiya vasitəsi ilə ifadə edilməsidir [6, s. 89].

David Crystal həmçinin eyni tərifi qeyd edir ki, "perifraz bir anlayışın və ya qrammatik mənanın bir sözlə deyil, bir neçə söz vasitəsilə ifadə edilməsidir [4, s. 225]. Bununla yanaşı perifaz həmçinin bir sadə sözlə təqdim oluna bilər . R.Elise belə bir yanaşma irəli sürmüşdür: O, perifrazı əşya, hadisə və ya məfhumun adı işlədilmədən spesifik xüsusiyyətlərin söz və ya söz birləşməsi ilə ifadə edilməsi kimi xarakterizə edir [7,124]. Məsələn: *the king of beasts= lion; the fair sex= woman; Neft= qara qızıl; Pambıq=ağ qızıl; Aslan=heyvanların şahı.*

İrəli sürülən fikirlərin yekunu olaraq belə bir fikir formalaşır ki, perifraz tək bir sözdən başlayaraq cümləyə və

mətnə qədər genişlənir və beləliklə də bu metaforik birləşmələrin ifadə imkanları və qavrayış potensialı yüksəlir. Obrazlı ifadələr sayılan perifrazlar obyektiv gerçəkliyi yaradır, ifadə edir, fəal şəkildə ideyanı və məzmun xəttini formalaşdırır. Satirik əsərlər, alleqoriyalar, simvolizm nümunələri perifrastik paraqraflar kimi özünü göstərir. Perifazlar dilin xəritəsinin zənginliyini ifadə etməklə yanaşı, həm də anlamanın həcmini və sərhədlərini ştrixləyir və genişləndirir.

NƏTİCƏ: Araşdırma belə nəticəyə gəlməyə imkan verir ki, hər hansı fikrin daha ekspressiv, effektiv, obrazlı şəkildə ifadə olunmasında, o cümlədən, mətnin ifadə gücünü və kommunikativliyini yüksəldən perifrazları aparici dil vasitəsi hesab etmək olar. Kontekstdən asılı olaraq məntiqi ifadələr olan perifrazlar predmet və hadislərin fərqli müstəvidə dərk olunmasına kömək etməklə yanaşı, məntlərin semantik quruluşunun cilalanmasına təkan verir. Dildə yeni anlayışların əmələ gəlməsinə, dil yaradıcılığına effektiv təsir göstərən metaforik obrazlı ifadələr həmçinin dildə sinonimik qrupların yaranmasını təmin edir, koqnitiv və idrakı mexanizm kimi realizə olunur. Ünsiyyət prosesinin nizama salınmasında perifrazlar bir neçə funksiyanı yerinə yetirir.

Tədqiqatın gedişində məlum oldu ki, perifrazlar dildə semantik variativliyin və mətn qurma mexanizminin formalaşmasında da əvəzsiz rol oynayır.

İstifadə edilmiş ədəbiyat

1. Allan, K. Forbidden words and the censoring of language. Cambridge: Cambridge University Press, 2006.
2. Арутюнова, Н. Д. Язык и мир человека. Языки русской культуры. Москва, 1999
3. Abdullayev, S. Dil və bədii qavrayış. Bakı: Yazıçı, 1990.
4. Crystal, D. A dictionary of linguistics and phonetics (6th ed.). Blackwell Publishing., 2008.
5. Fillmore, C. J. Frame semantics. In Linguistics in the Morning Calm (pp. 111–138).Hanshin Publishing Company, 1984.
6. Matthews, P. H. The concise Oxford dictionary of linguistics. Oxford University Press, 2014.
7. Riesel, E. Stylistics of the English language. Moscow: Higher School, 1988.
8. Talmy, L. Toward a cognitive semantics. MIT Press, 2001.

Gulbanu Bahram gizi Bashirova
Senior Lecturer at Azerbaijan University of Languages
gulbani.bashirova@mail.ru
ORCİD İD: https://orcid.org/0009-0004-9160-3743

Semantic-pragmatic interpretation of linguistic units

Summary

This article clarifies the role of figurative metaphorical expressions within the language system, text formation, and the structuring of content and communication. The research demonstrates that figurative expressions – which occupy a significant place in the language's lexical system – serve as key cognitive mechanisms; they facilitate lexical substitution and enable the understanding of objects, entities, and events across diverse contexts. Manifesting in both euphemistic and metaphorical dimensions, periphrases more vividly reflect human desires and intentions while enhancing the text's expressiveness and communicative impact. Furthermore, the article focuses on analyzing the functions of alternative naming, synonym groups, and text-building elements. It is noted that euphemistic expressions facilitate ethical communication in socio-political texts, allowing ideas to be conveyed in a relatively polite and purposeful manner. From this perspective, the analysis of periphrases within a scholarly framework is of current relevance in both linguistics and discourse analysis.

Keywords: linguistic units, functionality, contextual, cognitive mechanism, nomination

Гюльбану Бахрам гызы Баширова
Старший преподаватель Азербайджанского университета языков
gulbani.bashirova@mail.ru
ORCİD İD: https://orcid.org/0009-0004-9160-3743

Семантико-прагматическая интерпретация языковых единиц

Резюме

В данной статье раскрывается роль образных метафорических выражений в языковой системе, процессах текстообразования, а также в структурировании содержания и коммуникации. Исследование показывает, что образные выражения, занимающие важное место в лексической системе языка, выступают в качестве ключевых когнитивных механизмов: они обеспечивают возможность лексической замены и способствуют пониманию объектов, сущностей и событий в самых разных контекстах. Перифразы, проявляющиеся как в эвфемистическом, так и в метафорическом аспектах, более ярко отражают человеческие устремления и намерения, одновременно усиливая выразительность текста и его коммуникативное воздействие. Кроме того, в статье анализируются функции альтернативного наименования, синонимических рядов и текстообразующих элементов. Отмечается, что эвфемистические выражения способствуют этически корректной коммуникации в общественно-политических текстах, позволяя передавать идеи в относительно вежливой и целенаправленной манере. Также в работе подробно рассматривается потенциал перифраз в концептуальном моделировании, в частности, их функции позитивного фрейминга, смягчения и нейтрализации в рамках языковой оценки. С этой точки зрения научный анализ перифраз представляется весьма актуальным как для лингвистики, так и для дискурс-анализа.

Ключевые слова: языковые единицы, функциональность, контекстуальный, когнитивный механизм, номинация

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-91-95

Elnarə Telman qızı Məmmədova
Azərbaycan Dillər Universitetinin baş müəllimi
e-mail: elnarememmedova1973@gmail.ru
ORCİD İD: https://orcid.org/0009-0003-2210-5866

ASSOSİASIYA ƏSASINDA YARANAN METAFORİK KONSTRUKSİYALAR

XÜLASƏ: Yazılmış məqalə assosiasiya əsasında formalaşan metaforik konstruksiyaların təhlilinə həsr olunmuşdur və koqnitiv dilçilik kontekstində onun xarakteristikası işıqlandırılmışdır. Metafora təkcə üslubi fiqur deyil, həmçinin insanın idrak prosesini, düşüncə tərzini və konseptuallaşdırmanı stimullaşdırn aparıcı mexanizm kimi təhlil olunur. Burada metaforik birləşmələrin əmələ gəlməsində konseptual sferalar arasında mövcud olan semantik keçidlərin, eləcə də analoji düşüncə modelinin rolu şərh olunur. Məqalədə həmçinin metaforik konstruksiyaların fərqli növləri və onların funksyaları izah olunur. Metaforik birləşmələrin əmələ gəlməsində yaddaş mexanizmləri böyük rol oynayır. İnsanın zehni fəaliyyətində formalaşan personajlar, təsvirlər, empirik biliklər, yaşantılar, emosiyalar yeni-yeni obrazlı ifadələrin yaranmasına təkan verir. Qeyd olunur ki, metaforik birləşmələr mücərrəd konseptləri konkret təcrübənin köməyi ilə başa düşməyə kömək edir. Hər iki dilin nümunələri əsasında metaforik konstruksiyalar izah olunur. Bununla yanaşı, onların milli-mədəni səciyyəsi, assosiativ əsasları nəzərdən keçirilir.

Açar sözlər: metaforik konstruksiya, koqnitiv aspekt, dil elementi, assosiativ fəaliyyət, konseptual sahə, konsept

GİRİŞ: Metaforik konstruksiyalar dildə effektiv düşünmə mexanizmləri kimi özünü göstərir. Hər hansı bir obyekt yaxud predmet digər obyekt yaxud predmetin köməyi ilə izah olunur. Yəni bu konstruksiyaların köməyi ilə sözün birbaşa mənası yox məcazi mənası təqdim olunur. Birbaşa adlandırmadan fərqli olaraq metaforik adlandırmalarda dil nisbilikləri daha geniş, sanki sona qədər məlum olmayan, çətin qavranılan bir çevrəyə, yaxud çoxölçülü, çoxtərəfli və səlis olmayan bir müstəviyə daxil olur. Ümumiyyətlə, dildə mövcud olan məcazlar məna diapazonlarını, addəyişməni, adköçürməni realizə edərək daha iri yaradıcılıq törəmə perspektivlərinə yol açır, yeni reallıqları özündə ehtiva etməklə ya düşünməyə, ya da qavramaya təkan verir. Məhz bu baxımdan biz məcazlara, xüsusilə metaforik konstruksiyalara özəl, çoxşaxəli idrak mexanizmi kimi yanaşırıq. Deməli, məlum obyektdən naməlum obyektə, realdan qeyri-reala olana, konkretlikdən mücərrədliyə semantik keçid özünü göstərir.

Qeyd etmək lazımdır ki, assosiasiya əsasında yaranan metaforik konstruksiyalar koqnitiv dilçilikdə mühüm yer tutur. Onlar bizim düşüncəmizin obrazlı və analoji mexanizmlərini formalaşdırır, müəyyən predmet, obyekt və hadisələr arasında bənzərlik, funksionallıq və təcrübə əsasında əlaqələr qurulur. Metaforik keçidlərin sayəsində hər hansı bir konseptual sahədən digər konseptual sahəyə məna sıçrayışı təzahür edir və bu dil hadisəsində insan idrakının assosiativ fəaliyyəti işə düşür. Dil təkcə ünsiyyət prosesinin deyil, eyni zamanda insanın idrak prosesinin başlıca aləti olaraq özünü göstərir və beləcə adı çəkilən konstruksiyalar bu funksiyanı həyata keçirən aparıcı mexnizm kimi çıxış edirlər [2, s. 104]. ”Time is money” metaforik konstruksiyasında “time” (vaxt) da “money” (pul) kimi xərclənən, asanlıqla itirilə bilən bir məfhum kimi qəbul olunur. Deməli, biz mücərrəd bir konsepti konkret təcrübəyə bağlamış oluruq. Lakof və Consonun ideyalarına istinadən desək, insanlar metaforalarla birlikdə yaşayırlar [7]. Belə ki, bizim mərkəzi sinir sistemimiz mücərrəd konseptləri yalnız və yalnız bədən təcrübəsi əsasında dərk edir. Yeri gəlmişlən qeyd edək ki, obrazlı metaforik birləşmələr həm də dilin qrammatik sistemində artıq bərkiyib və biz isə buna çox vaxt diqqət etmirik. 2 müxtəlif sferanı birləşdirmək bu tip birləşmələrin başlıca xüsusiyyəti hesab olunur. Belə ki, mənbədən hədəfə xüsusiyyətlərin transferi baş verir. *“Grief is like an ocean”* metaforik birləşməsində kədərin dözülməz, dərin, həyəcan doğuran əlamətlərini okeandan götürürük. Bəzən metaforik birləşmələr sabit xarakter daşıyır. Məsələn, *Qəlbi daş kimidir* metaforik birləşməsi frazeologizm sayılır. Lakin dildə şair və yazıçıların yaradıcı təxəyyülünün məhsulu olan metaforik birləşmələr də vardır.Onu da vurğulamaq lazımdır ki, obrazlı assosiasiyalar mədəni kimlik anlayışı ilə sıx əlaqədədir. Mədəniyyətlə birbaşa əlaqəsi olan bu növ konstruksiyalar dilin zənginləşməsində böyük rol oynayır.

ƏSAS HİSSƏ: İngilis mədəniyyətində olduğu kimi, Azərbaycan mədəniyyətində də “zaman”a böyük dəyər verilir İngilislər “*zaman qızıldır”* dediyi halda, Azərbaycanlılar *“Zaman su kimi axıb gedir*” yaxud “*Vaxt tez uçur*” deyirlər. Səhra həyatı yaşayan insanlar həyatı *susuz səhra* hesab edirlər. Yəni metaforik birləşmələr xalqın yaşayış tərzini, iqtisadiyyatını, tarixini və s. əks etdirir. Bu konstruksiyaların mahiyyətində məntiqi arqument dayanır. Biz hər hansı bir personajı oxuyanda assosiasiyalar şəbəkəsi fəaliyyətə başlayır. Metaforik birləşmələr 4 qrupa ayrılır:



Metaforik konstruksiyanın qrupları idrak mexanizmi kimi çıxış edərək insana abstrakt konseptləri və məfhumları qavramağa kömək edir. Ontoloji metaforaların köməyi ilə biz predmet və hadisələri varlıq formasında dərk edirik. Struktur metaforaların köməyi ilə biz müəyyən bir konsepti digər bir konseptin koməyi ilə sistemli formada dərk

edirik. Məkana doğru istiqamət alan oriyentasiya metaforları sayəsində mücərrədlik izah olunur. Poetik metaforlar söyləmin daha da obrazlı şəkildə təqdim olunmasına və bədii-estetik hisslərin təzahürünə stimul verir [4, s. 98].

Metaforik konstruksiyalar və onların izahını aşağıdakı cədvəldə nəzərdən keçirək:

Metaforik konstruksiyalar	İzahları
1. Xəyanət arxadan vurulan bıçaqdır	İzləri qalır
2. Uşaq təmiz vərəqdir	Üstünə nə yazsan qalır
3. Sevgi zəncirdir	Qırmaq istəyirsən əlin kəsilir
4. Tənhalıq dörd divarlı səhradır	İçində səs əks-səda verir
5. Qısqanclıq yaşıl ilandır	Ürəyin içində dolanır
6. Həqiqət günəşdir	Nə qədər örtsən də çıxır
7. Düşüncə labirintdir	Girirsən çıxış axtarırsan
8. Zənginlik qızıl qəfəsdir	İçində azad deyilsən
9. Tarix bir müəllimdir	Səhv etsən cəza verir
10. Yalan köpükdür	Şişir, sonra partlayır
11. Şeir ruhun nəfəsidir	Boğulanda lazım olur
12. Beynim partlayır	Lap çox yüklənmişəm
13. Dilimə düyün düşdü	Həyəcandan danışa bilmədim
14. Ürəyimə su səpdi	Sevindim, şad oldum
15. Onun üzünə qapı bağlandı	İmtina etdilər, qəbul olunmadı
16. Kişinin sözü havaya uçdu	Heç kim onu ciddiyə almadı
17. Bu mövzunun şiti-şoru çıxıb	Artıq bezdirir, zəhlə tökür
18. Söz boğazımda düyünləndi	Danışa bilmədim
19. Vicdan içimizdəki hakimdir	Gecə yatmağa qoymur
20. Ailə bağlı sandıqdır	İçində nə var bilmirik

Metaforik birləşmələrin yaranma mexanizmi ilə bağlı bəzi nüansları nəzərdən keçirək:

Qavrama kimi mental prosesin intensiv halında və kreativ mikromühitdə metafora mistik başlanğıca malik olur, reallığa aktiv emosional tərzdə nüfuz edir. Bəllidir ki, metaforaya təkcə dilin üslubi koqnitv vasitəsi deyil. Hazırda dilçilərin araşdırdığı predmetlərdən biri də konseptual (koqnitiv) metaforalardır.

Dilçilik ədəbiyyatında belə bir fərziyyə dolaşır ki, metafora da daxil olmaqla bütün obrazlı ifadələr, o cümlədən qeyri-müstəqim insan nitqi sözün bütöv mənasında təkcə rasionallığı özündə ehtiva etmir [5, s. 117].Belə ki, bir qrup dilçilər belə hesab edirlər ki, məcazlar dolayı nitqin bir forması olub qeyri-həqiqi ifadə kimi dəyərləndirilir [6, s. 88].Biz dərk etdiyimiz zaman obyektiv gerçəkliyin obyekt və predmetlərinin özləri ilə yox, onları təqdim edən dil elementlərinin köməyi ilə fikirləşirik və düşündüklərimizi irəli sürürük. Dərketmə prosesində dövrü olaraq dil bir növ yenidən yaranır, dil işarələri aktivləşir, həm də energetik qüvvə təzahür edir və yenidən dərketmə prosesi baş verir. Dil 2-ci siqnal sistemi olduğundan obyekt və predmetlərin real məntiqindən kənarlaşaraq müstəqil olur və özünəməxsus bir dünyaya doğru hərəkət edir.

Məlumdur ki, metaforik konstruksiyalar fərdi və kollektiv şüurun nəticəsində meydana gəlir. Bu konstruksiyaların köməyi ilə toplanmış mədəni biliklər, sosial əhəmiyyət kəsb edən dəyər və prinsiplər, eləcə də xalqın tarixi irsi kodlaşdırılır və dilimizdə təzahür edir. Metaforikləşmənin nəticəsində predmet və hadisələr arasındakı assosiativ əlaqələr dil vahidlərinin semantik inkişafına təkan verir [1, s. 204].

Qeyd edək ki, metaforik konstruksiyalar tipik mədəni kodlaşmalardır və bu nöqteyi-nəzərdən dilə fərdi və kollektiv təfəkkürün məhsulu kimi yanaşmaq məqbul hesab olunur. Onlar müxtəlif mədəniyyətlərin spesifik xüsusiyyətlərini və idrak fəaliyyətinin fundamental prinsiplərini geniş müstəvidə təhlil edir. Bir faktı da vurğulamaq lazımdır ki, diskurs həm də assosiativ metaforaların yaratdığı məna əlaqələrinin dəstəyi ilə daha da təsirli olur və zənginləşməyə başlayır. Mətnin məna əlaqələrinin və məntiqi zəncirinin qurulmasında metaforik birləşmələrin rolu böyükdür, bu isə dinləyiciyə yaxud oxucuya mətni fərqli aspektlərdən şərh etməyə şərait yaradır.

Metaforik assosiasiyalar dildə sinonim cərgələrin və nominasiya əlaqələrinin qurulmasına kömək edir. Bu prosesdə dil sisteminin leksik layı fəallaşır və rəngarəng olur. Həm bədii, həm də publisistik üslubun əsas xüsusiyyətlərindən biri metaforik konstruksiyaların bu sahədə daha geniş işlənməsidir. Onların işlədilməsi ilə mətnin emosionallığı yüksəlir, dinləyicinin (oxucunun) qavrayış mexanizmi hərəkətə gəlib aktivləşir və diqqəti çəkir.

Bəllidir ki, adı çəkilən obrazlı birləşmələr praqmatik funksiyanı yerinə yetirməklə fikir və ideyaların daha nəzakətli, daha ədəbli və estetik ifadəsinə xidmət edir. Bu konstruksiyalar bizə öz fikir və mülahizələrimizi daha effektiv və arzuolunan şəkildə ötürməyə xidmət edir. Metaforik assosiasiyaların sayəsində dilin innovativ imkanları genişlənir və məhsuldarlığı yüksəlir. Deməli, bu halda dil inkişaf edir, bizim beynimizin məhsulu olan analogiyalar

əsasında dil bir sistem kimi inkişaf edir və zənginləşir. Bu prizmadan yanaşdıqda deyə bilərik ki, metaforik birləşmələr dinamikliyi ilə fərqlənir və açıq sistem kimi fəaliyyət göstərirlər. Bu konstruksiyalar zehni qənaət prinsipi əsasında mürəkkəblikdən sadəliyə doğru istiqamət alır. Yəni mürəkkəb konseptlər asan başa düşülən obrazların dili ilə izah və ifadə olunur. Məhz bu səbəbdən bilik və bacarıqların tez mənimsənilməsi üçün imkan yaranır və ünsiyyətin effekti yüksəlir. İdrak mexanizmlərinin iştirakı ilə mücərrəd anlayışlar konkretləşir və beləliklə də zehni yük azaldığına görə dərketmə həm güclənir, həm də sürətli şəkildə işə düşür.

Yuxarıda deyilənlərin əsasında belə bir fikir formalaşır ki, obrazlı birləşmələr dilin koqnitiv, semantik və praqmatik tərəflərini özündə ehtiva edən aparıcı mexanizmdir. Onların sayəsində dildə obrazlılıq və ifadə imkanları genişlənir, mətnin quruluşu təkmilləşir və insanın yaradıcı təxəyyülü formalaşmağa başlayır. Bu ifadələr dillə təfəkkürün vəhdətini gücləndirir və ünsiyyətin daha məharətlə qurulmasına və çoxşaxəli formada təzahürünə xidmət edir.

Ümumiyyətlə, metaforik birləşmələr sadəcə olaraq dil üslub vasitəsi deyil, onlar həm də mürəkkəb idraki mexanizmlərdir. Öz-özlüyündə bizim adlandırdığımız ad dəyişmələri, əvəzlənmələr, adlandırmalar mənaları deyil, anlayışları əks etdirir.

Müasir koqnitiv dilçiliyin araşdırdığı əsas problemlərdən biri konseptual metaforalardır. Bəllidir ki, insan qavrayış zamanı obyektiv gerçəkliyin predmet, obyekt və hadisələrinin özləri ilə deyil, onları təqdim edən dil işarələri ilə düşünərək öz fikrini bildirir. Zehni fəaliyyət prosesində hər dəfə təzahür edən dilin simvol və elementləri aktiv şəkildə başlanğıc götürür, energetik qüvvəsini sərgiləyir və yenidən qavrama aktı kimi çıxış edir. Dil də 2-ci siqnal sistemi olduğundan predmet və obyektlərin həqiqi məntiqindən kənarlaşaraq müstəqil olurlar və beləliklə də alternativ aləmlərini qururlar və sistemlə qırılmaz əlaqə yaradırlar.

İdrak prosesində birbaşa adlandırmanın qeyri-adekvatlığı, natamamlığı təzahür etməklə yanaşı, hər hansı obyekt və predmeti adlandıran dil elementləri, həmçinin qeyri-müstəqim dil formalarının fəallaşması və çoxistiqamətli əlaqələrin qurulması baş verir. Məcazların yaranma mexanizmi o tərzdə baş verir ki, müqayisə edilən obyektlər və onların təsviri variantları bir anlayış və söz əhatəsində birləşirlər və çarpaz istiqamətli olurlar. Primitiv şəkildə desək, dil ünsürləri oxşarlıq üzrə bir-birinə köçürülür və həqiqi məntiq əsasında birləşirlər. Metaforanı təkcə xarici və daxili bənzərlik, məna inteqrasiyası əsasında təzahür edən adköçürmə deyil, həmçinin 2 müxtəlif məfhum sferalarına əsaslanan semantik koordinasiya, funksional paralellik adlandırmaq mümkündür.

Konseptual əlaqələr yolu ilə qurulan metaforik konstruksiyaları təhlil etdikdə belə məlum olur ki, adı çəkilən dil faktı bizim idrakımızın çoxqatlı bir sistem kimi fəaliyyət göstərdiyini bildirir. Metaforanın yaranması həm leksik, həm konseptual, həm də mental aspektlərdə təzahür edir. Biz ilk dəfə eşitdiyimiz informasiyanı qavradığımız zaman həmin informasiyanı cari təcrübə ilə inteqrasiya edirik və bu təmas əksər hallarda assosiasiyaya əsaslanan mahiyyət kəsb edir.

Metaforik birləşmələrin əmələ gəlməsində yaddaş mexanizmləri böyük rol oynayır. İnsanın zehni fəaliyyətində formalaşan personajlar, təsvirlər, empirik biliklər, yaşantılar, emosiyalar yeni-yeni obrazlı ifadələrin yaranmasına təkan verir. Buna görə də metaforanı təkcə dil faktı kimi deyil, eyni zamanda daxili şüur fəaliyyəti yaxud idrak mexanizmi kimi qəbul edirlər. Assosiasiyalar isə bu mexanizmin reallaşmasında katalizator rolunu oynayır və fərqli zehni sferaların əlaqəsini nizamlayır.

Dil sisteminin semantik qatında bu obrazlı birləşmələr çoxşaxəlilik yaradır. Müxtəlif kontekstlərdən asılı olaraq eyni bir söz yaxud ifadə fərqli mənalar daşıyır və buna görə də dil elastikdir mühakiməsi bu halda özünü doğruldur. Sözün yaxud ifadənin işlənmə dairəsinin artması metaforik köçürmələr yolu ilə baş verir və nəticədə semantik aspektlər, semantik strukturlar əmələ gəlir. Bu hal dilin dinamik səciyyə daşıdığını bir daha vurğulayır.

Qeyd etmək lazımdır ki, assosiasiyaların köməyi ilə həmçinin diskursiv strukturlar da formalaşır. Kontekstin tələbi ilə obrazlı birləşmələr semantik məna əlaqələrini gücləndirməklə yanaşı məntiqi düzülüşü də nizamlayır. Beləcə, insanın nəzərlərini istiqamətləndirərək interpretasiya hadisəsini stimullaşdırır. Belə mexanizm sayəsində ünsiyyətin səmərəliliyi güclənir və insanın onu başa düşməsi, qavraması asan olur.

Artıq məlum olduğu kimi, metaforik birləşmələr ünsiyyət prosesində aparıcı rol oynayır. Biz fikirlərimizi daha dolğun və effektiv formada bildirmək üçün həmin ifadələrdən istifadə edirik. Bu cəhət əsasən ekspressiv və aksioloji diskurslarda daha çox baş verir. Metaforik konstruksiyalar fikrimizi daha ifadəli, nəzakətli və obrazlı ifadə etməyə kömək edir.

Məcaz qrupları, o cümlədən metaforik birləşmələr ən konkret situasiyalarda belə dil elementlərinin qeyri-adekvatlığını, nisbiliyini və qeyri-müəyyənliyini əks etdirir. Əgər biz başlanğıcdan obyekt, predmet və prosesləri dəqiqliyi ilə təqdim edə bilsəydik, bir sözlə qeyri-mümkün olanın mümkün olmasını reallaşdıra bilsəydik, belə olan halda obrazlı ifadələrə ehtiyacımız olmazdı. Deməli, məcazlar obyekt, predmet və hadisələri nə qədər konkretləşdirsələr də, onların qarşılıqlı əlaqəsini qursalar da, məntiq və analogiya əsasında nizamlasalar da, eyni zamanda mütənasib və dəqiq adlandırmadan uzaqlaşırlar. Həqiqətən, məzmun cəhətdən götürsək, metaforik olmayan söz yoxdur. İstənilən bir sözdə az da olsa məcazilik var. Hətta anatomik terminlərin əksəriyyətində metaforadan mənaya transferlər özünü göstərir. Bu tip terminlərdə adlandırmanın mürəkkəblikləri, qeyri mümkünlüyü və effektivsizliyi ilə yanaşı, eyni zamanda metaforik konstuksiyaların köməyi ilə yaranan qavramanın parlaq nəticələri özünü göstərir. Deməli, metaforik birləşmələr birbaşa nitqin, qeyri-səlis qrupların daha mürəkkəbi və çətinliklə dərk ediləni olsa da, dilin ikonik elementi kimi biliklərə aparan cığırı kiçiltməklə yanaşı, dilin siqnallarını informasiya mənbəyinə çatdırır və optimallığı reallaşdırır. Qeyd edək ki, anatomik terminlər cərgəsində diqqət yetiriləsi məqamlar

mövcuddur:göz alması, almacıq sümüyü, ənsə payı, burun çəpəri və s. Açıq aydın görünən adlandırmada dil elementləri məfhumun özü kimi təzahür edir, ilkin informasiya kimi özünü göstərir. Tibb sahəsində çalışanlar dilin bu semantik imkanlarından istifadə edərək daha aydın ünsiyyət prosesini qururlar, müxtəlif xəstəliklərin əmələ gəlmə və müalicəsi məsələlərini daha sadə, anlaşıqlı şəkildə izah edirlər. Çox maraqlıdır ki, terminoloji bazanın köməyi ilə yalnış təsəvvür yaratmaq asan olur.

Metaforanı müəyyən fikir və ideyaları başa düşmək üçün ümumiləşdirmə, sadələşmə aləti də hesab edənlər də mövcuddur [3]. Bəzi hallarda yardımçı, əlaqələndirici, aydınlaşdırıcı məqamlara ehtiyac hiss olunur. Yəni obrazlı şəkildə, assosiasiyalara əsaslanıb bir şəfaflaşdıcı hallara ehtiyacımız olduqda metaforalara, metaforik konstruksiyalara müraciət edirik. Onlar idraki qarşıdurma prosesində hədəfi ilkin olaraq nəzərə çatdırırlar. Qeyd edək ki, bu metaforik birləşmələrin evristik xüsusiyyətindən xəbər verir. Evristik üsul – əldə olunmuş bilik və məlumatların formalaşmasına, problemin həlli variantlarının aydınlaşdırılmasına, naməlum əlaqə və münasibətlərin üzə çıxarılmasına təkan verən idraki metoddur.

Təbii ki, obrazlı zehni düşüncə insanın psixoloji halını, yaradıcılığını stimullaşdırır, dil vahidləri, dil normalarını qorumaq şərti ilə danışan şəxsi sona qədər asanlıqla dərk olunmayan fikirlərə, düşüncələrə və nəhayət izahatlara istiqamətləndirir. Məhz bu baxımdan hər bir yeni yaranan metaforanı kreativ akt hesab etmək olar. Əlbəttə ki, digər üslubi fiqurlar kimi obrazlı birləşmələr olan metaforik konstruksiyaların da işlədilməsində əsas məqsəd predmetə, hadisəyə və s. qarşı tərəfin reaksiya bildirməsini, davranış sərgiləməsini təmin etməkdir. Anlamanın optimal xarakteri, əyaniliyi bizə imkan verir ki, dil elementini obyekt və predmetlərə yaxınlaşdıraq. Linqvistik qiymətləndirmələr dairəsinə daxil olan metaforik konstruksiyalar həqiqi denotatların, obyekt, predmet və hadisələrin dəyərləndirilməsində mühüm funksiyanı yerinə yetirir. Obrazlı ifadələrin, eləcə də metaforik birləşmələrin real adlandırmada fərqli ölçülərə malik təsviri variantlar kimi izah olunmasını heç də təsadüfi hərəkət hesab etmək olmaz. Obyekt və predmetlərin ortaq xüsusiyyətləri müştərək cəhətlər əsasında başa düşülür, hədəf və mənbə sahələr aydınlaşır və bir-birinə istinad nöqtəsi qurur.

Hər bir dil elementi istinad mənbəyi olan predmetə, mənbəyə tam uyğun deyil. Yəni həmin mənbənin məğzini, fundamental və konseptual xüsusiyyətlərini orijinal variant kimi təqdim edə bilmir. Dil 2-ci siqnal sistemi olaraq maddi və qeyri-maddi obyektlərin məzmununa bütövlükdə nüfuz edə bilmir, hər dəfə yetkin biliyi, bütöv həqiqəti əks etdirmir. Beləliklə, bu situasiyada obrazlı məcaz qrupları adlandırma, söz yaradıcılığı prosesindəki çatışmazlıqları düzəltməyə istiqamət alır.

Maraqlı məqam odur ki, bəzən adlandırma tükənmiş vəziyyətdə mövcud olur. Əgər şirürəkli, dovşandodaq sözlərinin əvəzinə dildə başqa nominallar olsa idi, təbii ki, bu cür uğursuz, xoşagəlməz, bununla belə, yetəri qədər söz və ifadələrin yaranmasına lüzum qalmazdı. Bununla yanaşı qeyd edək ki, insana xeyiri olan "itburnu" bitkisi, eləcə də üzümün xüsusi bir çeşidi olan "gəlinbarmağı", "ağadayı" kimi sözlərdə adlandırmanın və qiymətləndirmənin sıx bağlı əlaqəsi mövcuddur. Məsələn, *quzuqulağı, kəklikotu, itburnu, keçiəmcəyi* və s. kimi metaforik adlandırmalar anlama və qiymətləndirmə baxımından artıq köhnəldiyinə görə sözün başlanğıc semantik məzmunu sönük haldadır.

NƏTİCƏ: Dilin metaforik strukturu xalqın tarixini, mədəniyyətini, həmçinin sosil təcrübəsini təcəssüm etdirir. Buna görə də metaforaları mədəni kodları ötürən idrak mexanizmi hesab edirlər. Onlar dilin linqvokulturoloji aspektinin inkişafında mühüm rol oynayır. Metaforik konstruksiyaların daha ətraflı təhlili koqnitiv strukturların lazımı səviyyədə mənimsənilməsinə yardım edir. Bizim təfəkkürümüz analogiyalara əsaslandığından metaforikləşmə qavramanın başlıca mexanizmi kimi götürülür. Bu gedişatda mücərrəd konseptlərin personajlarla əlaqəsi özünü göstərir və beləliklə də çox rahat dərk olunan və mənmsənilən struktur əmələ gəlir. Adı vurğulanan assosiasiyaların sayəsində dil yaradıcılığı yüksəlir. Dilə nüfuz edən metaforalar transformativ dəyişmələrə gətirib çıxarır və dilin lüğət fondunun inkişafına səbəb olur. Bu fakt dilin dinamik səciyyəsini üzə çıxarır və dil inkişaf edir.

İstifadə edilmiş ədəbiyat

1. Axundov A. **Ümumi dilçilik (dilçiliyin tarixi, nəzəriyyəsi və metodları)**. Bakı: Maarif, 1979.
2. Арутюнова, Н. Д. Язык и мир человека. Москва: Языки русской культуры,1999.
3. Арутюнова, Н. Д. (ред.). Теория метафоры. Москва: Прогресс,1990.
4.Зализняк, А. А., Левонтина, И. Б., & Шмелёв, А. Д. Ключевые идеи русской языковой картины мира. Москва: Языкиславянскойкультуры, 2005.
5. Dan Sperber. Communication and cognition. 2nd ed. Oxford: Blackwell, 1995.
6. Perry, J. **Reference and Reflexivity**. Stanford, CA: CSLI Publications, 2001.
7. Lakoff G., Johnson M. **Metaphors We Live By**. Chicago: The University of Chicago Press, 1980.

Elnara Telman gizi Mammadova
Senior Lecturer at Azerbaijan University of Languages
e-mail: elnarememmedova1973@gmail.ru
ORCİD İD: https://orcid.org/0009-0003-2210-5866

Metaphorical constructions based on association

Summary

The written article is devoted to the analysis of metaphorical constructions formed on the basis of association, and highlights their characteristics within the context of cognitive linguistics. Metaphor is analyzed not merely as a stylistic figure, but as a leading mechanism that stimulates human cognitive processes, way of thinking, and conceptualization. The role of analogical thinking models, as well as the semantic transitions existing between conceptual spheres in the formation of metaphorical expressions, is interpreted here. The article also explains the different types of metaphorical constructions and their functions. Memory mechanisms play a major role in the

formation of metaphorical expressions. Characters, images, empirical knowledge, life experiences, and emotions formed in human mental activity trigger the emergence of new figurative expressions. It is noted that metaphorical expressions help understand abstract concepts with the help of concrete experience. Metaphorical constructions are explained based on examples from both languages. Along with this, their national-cultural characteristics and associative bases are reviewed.

Keywords: metaphorical construction, cognitive aspect, linguistic element, associative activity, conceptual domain, concept

Эльнара Тельман гызы Мамедова
Старший преподаватель Азербайджанского университета языков
e-mail: elnarememmedova1973@gmail.ru
ORCİD İD: https://orcid.org/0009-0003-2210-5866

Ассоциативно обусловленные метафорические конструкции

Резюме

Написанная статья посвящена анализу метафорических конструкций, формирующихся на основе ассоциаций, и освещает их характеристики в контексте когнитивной лингвистики. Метафора анализируется не просто как стилистическая фигура, но и как ведущий механизм, стимулирующий когнитивные процессы человека, образ мышления и концептуализацию. Здесь интерпретируется роль аналогичной модели мышления, а также семантических переходов, существующих между концептуальными сферами в образовании метафорических сочетаний. В статье также объясняются различные виды метафорических конструкций и их функции. Механизмы памяти играют большую роль в формировании метафорических сочетаний. Персонажи, образы, эмпирические знания, жизненный опыт и эмоции, формирующиеся в ментальной деятельности человека, дают толчок возникновению новых образных выражений. Отмечается, что метафорические сочетания помогают понять абстрактные концепты с помощью конкретного опыта. Метафорические конструкции объясняются на основе примеров из обоих языков. Наряду с этим рассматриваются их национально-культурная специфика и ассоциативные основы.

Ключевые слова:метафорическая конструкция,когнитивный аспект,языковой элемент,ассоциативная деятельность, концептуальная область,концепт

Rəyçi: dos. S.Abbasova

DOI: 10.24412/2218-7588-2026-2-96-99

Gülbanu Bəhram qızı Bəşirova
Azərbaycan Dillər Universitetinin baş müəllimi
gulbani.bashirova@mail.ru
ORCİD İD: https://orcid.org/0009-0004-9160-3743

NİTQ ETİKETLƏRİNİN FUNKSİONAL-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ: Məqalədə nitq etiketlərinin funksional-semantik xüsusiyyətləri müasir praqmatik yanaşma çərçivəsində araşdırılır. Tədqiqatın əsas məqsədi nitq etiketi vahidlərinin kommunikasiya prosesindəki rolunu, onların sosial, mədəni və funksional mahiyyətini müəyyənləşdirməkdən ibarətdir. Araşdırmada salamlaşma, təşəkkür, üzrxahlıq, müraciət, xahiş və vidalaşma kimi nitq etiketi formalarının istifadə xüsusiyyətləri təhlil edilir. Göstərilir ki, nitq etiketləri yalnız müəyyən dil ifadələri deyil, eyni zamanda insanlararası münasibətləri tənzimləyən, nəzakət normalarını əks etdirən mühüm kommunikativ vasitələrdir. Məqalədə nəzakət strategiyalarının, sosial imic anlayışının və "üz" nəzəriyyəsinin nitq etiketi sistemindəki əhəmiyyəti araşdırılır. Həmçinin müxtəlif mədəniyyətlərdə verbal və qeyri-verbal etiketlərin fərqli şəkildə formalaşması və istifadəsi diqqətə çatdırılır. Nitq etiketlərinin praqmatik təhlili zamanı kontekst, danışanın kommunikativ məqsədi və həmsöhbətlər arasındakı sosial münasibətlərin həlledici rol oynadığı göstərilir.

Tədqiqat nəticəsində müəyyən olunur ki, nitq etiketlərinin düzgün seçilməsi və tətbiqi qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, ünsiyyət zamanı yarana biləcək anlaşılmazlıqların qarşısının alınmasına və sosial harmoniyanın qorunmasına xidmət edir. Araşdırmanın nəticələri nitq etiketlərinin praqmatik aspektdən öyrənilməsinin həm nəzəri dilçilik, həm də xarici dilin tədrisi və mədəniyyətlərarası kommunikasiya sahələri üçün mühüm elmi və praktik əhəmiyyət daşıdığını göstərir.

Açar sözlər: nitq etiketi, praqmatika, kommunikativ strategiya, nitq aktı, sosial imic, mədəniyyətlərarası kommunikasiya.

GİRİŞ: Hər bir situasiyanın, o cümlədən nitq etiketlərinin praqmatik cəhətdən analizi onların mənasının dərindən başa düşülməsinə xidmət edir. Burada ən vacib məqam mənalararası rasional, məntiqi əsaslandırmanı düzgün etməkdir. Aristotel bunu "praktiki əsaslandırma" adlandırırdı. Praktiki əsaslandırma zamanı əsl məna saxlanılaraq, yeni rasional məna aydınlaşdırılır, sonra isə hər iki məna əlaqəsinin qarşılıqlı xüsusiyyətlərinə diqqət yetirilir.

ƏSAS HİSSƏ: Kommunikasiya prosesi zamanı müxtəlif strategiyalar nəzakət prinsipinin təmin etmək üçün seçilir. Linqvistik vasitələrlə həyata keçirilən bu strategiyalar özündə ifadələrin ardıcıllığı, seçimi kimi xüsusiyyətləri birləşdirir [5, s. 72]. Nəzakət strategiyalarından ən önəmlisi pozitiv və optimist olmaqdır. Fikir nə qədər müsbət şəkildə anlaşılarsa həm nəzakət, həm də əməkdaşlıq prinsipi qorunmuş olar. Digər bir strategiya isə qarşılıqlı fikir qəbulu və təsdiqinin olmasıdır. O cümlədən, həmsöhbətlərin öz fikirlərinin səbəblərini deməsi və ya qarşı tərəfdən səbəbləri soruşması da əhəmiyyətlidir. Ünsiyyət prosesi zamanı, "sən" və "siz" kimi müraciət formaları ilə yanaşı birbaşa həmsöhbəti də daxil edərək "biz" sözünün işlədilməsidə əməkdaşlıq və pozitiv nəzakət prinsiplərini dəstəkləyir. Hər hansı bir təklifin irəli sürülməsi, yerində zarafatların işlədilməsi pozitiv nəzakət prinsipini təmin edir [2, s. 84].

Nəzakətsizlik anlayışı nəzakət prinsipini tamamilə özündən uzaqlaşdırmış bir konsepsiyadır. Praqmalinqvistikada nəzakət şkalası nəzakətsiz, daha nəzakətli və çox nəzakətli davranış olmaqla ayrılır. Lakin sosiolinqvistika elmində isə nəzakətli və nəzakətsiz davranış olmaqla, iki yerə ayrılır. Praqmatikanın əsas prinsiplərindən olan "nəzakət" konsepsiyası hər bir elmi sahədə fərqli analiz edilir.

Nitq etiketlərinin praqmatiki analizinin də əsas mahiyyəti ifadələrin işlədilməsindəki əsl mənanı anlamaqdır.

Məsələn, Azərbaycan dilində *"salam, necəsiniz?"* ifadəsinin praqmatik analizi dedikdə, burada istifadə olunmuş nəzakət prinsipi və strategiyaları araşdırılmalıdır. Bu ifadədə pozitiv nəzakət prinsipi işlədilmişdir. Həmsöhbətə hörmət hissi qorunub saxlanılmışdır. Sualın verilməsində əsas məqsəd təkcə salamlama deyil, həm də rəğbət hissini ifadə etməkdir. *"Give me your pen" (Qələmini mənə ver)* ifadəsi, *"Can I borrow your pen?"* ifadəsindən daha nəzakətsiz səslənir. *"Could I borrow your pen?"* ifadəsi isə nəzakət prinsipinə ən uyğun forma hesab olunur. Eynilə, *"Thank you very much" (Çox sağ olun)* ifadəsi isə, *"thanks" (təşəkkürlər)* ifadəsindən daha nəzakətli səslənir. Bu etiketlərin nəzakət prinsipi üzrə dərəcələri, praqmalinqvistika sahəsində fərqləndirilir.

Müasir praqmatikada nəzakət anlayışı konfliktlərin və qarşıdurmaların azaldılması ilə şəxsiyyətlərarası münasibətlərin qurulmasını təmin edir. Hətta ənənəvi dilçilik nəzəriyyələrinin çatışmayan cəhətləri də, praqmatikanın köməyi ilə aydınlaşdırılır və onlara həll yolları axtarılır. Həmçinin, nəzakət prinsipi özündə balans prinsipini də birləşdirir. Bu prinsip isə tələb və öhdəlik bildirən nitq aktlarının düzgün istifadəsi ilə təmin olunur. Məsələn:

"Qapını bağla."- əmr.
"Zəhmət olmasa, qapını bağla."-xahiş.
"Qapını bağlamağınızı tövsiyə edirəm."-məsləhət.

Eyni ifadə müxtəlif tələblər şəklində irəli sürülə bilər. İfadələrin hansı formada işlənəcəyi isə danışan tərəfindən seçilir və həmsöhbətlərlə balans prinsipini qoruyur. Bu nitq aktalarının fərqli nümunələrinə ingilis dilində də, rast gəlinir. Məsələn:

"Close the door!" (Qapını bağla!)-əmr [1].
"Could you close the door?" (Qapını bağlaya bilərsən?)-nəzakətli xahiş.
"You should close the door." (Qapını bağlamalısan.)-məsləhət.

Kanada-Amerika sosioloqu və dilçi Erving Goffman praqmatikanın əsas nəzəriyyələrindən olan "üz" nəzəriyyəsini, yəni insanın təqdim etdiyi ictimai imic anlayışını fərqli təsvir etmişdir. O, bu konsepsiyanın əsas mahiyyətini insanın özünün özü üçün təqdim etdiyi pozitiv sosial dəyərdə görürdü.

"Üz" nəzəriyyəsinin əsas prinsipi fərdlər arasında qarşılıqlı hörmətə əsaslanmasıdır. Bu zaman, nitq etiketləri vasitəsilə salamlaşma, üzr istəmə, təşəkkür etmə, vidalaşma kimi nitq aktları yerinə yetirilir. Məsələn:

A: Sən yenidən gecikmisən. Bu həftə bu hal dördüncü dəfədir ki, baş verir.

B: Üzrlü hesab edin. Bu sabah yolda tıxac var idi, gərək evdən tez çıxardım.

A: Yaxşı, lakin sabahdan vaxtında işdə olmağa çalış.

B: Mütləq, anlayışınız üçün təşəkkür edirəm.

Burada B-nin ictimai imici gecikdiyi üçün təhlükə altındadır. A-nın tənqidi fikirlər irəli sürməsi "üz" nəzəriyyəsinə zərbə vurur. Lakin B tıxacı bəhanə edərək "üz qoruma", yəni ictimai imici qoruma prinsipinə əsaslanır. A-nın anlayışla qarşılaması da, qarşı tərəfin ictimai imicini qorumasına kömək edir.

"Üzün itirilməsi" nəzəriyyəsi isə fərdin utandırılması və təhqirə məruz qalması zəminində baş verir. Bu zaman hər hansı bir şəxs ictimai mühitdə öz yaxşı nüfuzunu və adını itirir.

Nitq etiketlərinin "üz" nəzəriyyələrinə əsasən istifadəsinə real həyat nümunələrində də, tez-tez rast gəlmək mümkündür. Məsələn:

Müəllim: Sən bu vəraqi dünən təhvil verməli idin.

Şagird: Sizdən çox üzr istəyirəm. Mən tarixləri səhv anlamışam. Söz verirəm ki, bir daha belə hal yaşanmayacaq.

Bu situasiyada "üz" nəzəriyyəsinin strategiyaları aydın şəkildə müşahidə edilir. Şagird səhvini boynuna alır, qəbul edir, həmçinin nəzakətlə üzrxahlıq ifadələrindən istifadə edərək vəziyyəti idarə etməyə çalışır.

"Üz" nəzəriyyəsinin spesifik xüsusiyyətləri hər bir millət tərəfindən fərqli şəkildə qəbul edilə bilər. Məsələn, Çin dilində ictimai imici ifadə edən iki söz mövcuddur. Onlardan biri prestij mənasında işlənsə də, digəri bir qrup insan qarşısında yaxşı nüfuz sahibinin hörmət və özgüvən qazanması mənasında başa düşülür. Buna görə də ünsiyyət zamanı nitq etiketlərinin düzgün seçilməsi şəxsin ictimai nüfuzunun qorunmasına və qarşılıqlı hörmətin təmin edilməsinə xidmət edir. Mədəniyyətlərarası praqmatik araşdırmalar göstərir ki, "üz" anlayışının mahiyyəti universal olsa da, onun ifadə vasitələri və tətbiq formaları müxtəlif xalqlarda fərqli xüsusiyyətlər daşıyır.

İngilis dilində isə bu nəzəriyyə "reputation" və "prestige" kimi sözlərlə əvəz edilə bilər. Bu anlayış başqaları tərəfindən hörmət edilmək vəziyyəti kimi izah olunur. "Üz" nəzəriyyəsi "Face theory" ingilis ədəbi termini ilə ifadə olunur və şəxsiyyətin pozitiv tərənnümü kimi izah edilir.

Yapon mədəniyyətində "üz" nəzəriyyəsi bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır. Bu prinsip iyerarxiya və sosial qruplaşmanın təsirinə məruz qalmışdır. Bu Hindistan və Britaniya cəmiyyətlərində müşahidə edilən sosial keyfiyyətə kontrast təşkil edir. Yəni ingilis cəmiyyətində hər bir fərd müstəqil ictimai imicə sahib olmaq istəsə də, yapon cəmiyyətində fərdlər daha çox başqa qruplar tərəfindən qəbul edilməklə maraqlanır. Bu da yapon dilində "amae" konsepsiyası adlanır və cəmiyyətin digər üzvlərindən asılılıq hissini ifadə edir. "Amae" konseptini körpənin anadan asılılığına bənzətmək də mümkündür.

Dilçi Qofmann hər bir ifadədə praqmatik göstərici və işarələrin olduğunu qeyd edirdi. Əsas praqmatik göstəriciləri struktur, leksik və hibrid göstəricilər olmaqla təsnif edirdi. Leksik göstəricilərə performativ ifadələr və praqmatik idiomlar, hibrid göstəricilərə isə deklarativ, sual, əmr əsaslı göstəricilər aid edilir [3, s. 210].

Struktur göstəricələr sintaksis elmi ilə sıx bağlıdır. Bu göstəricilərə cümlənin sintaktik quruluşu və "mood" kateqoriyası aiddir:

"Did you see him?" (Sən onu gördün?)

Nümunələrdəki struktur praqmatik göstərici cümlənin "interrogative mood", yəni sual şəklində olmasıdır.

Leksik göstəricilərə isə üzrxahlıq, tələb, xahiş kimi hiss və həyacan bildirən nitq etiketləri aiddir. Məsələn: *"I request that you stay just a bit longer." (-Xahiş edirəm ki, bir az daha qalasınız.)* [4].

Nitq etiketləri ünsiyyət prosesində müxtəlif davranış formalarını əks etdirən dil strukturudur. Onlar aid olduğu xalqın mentalitetini, təfəkküründü və düşüncə tərzini, o cümlədən sosial, tarixi, mədəni xüsusiyyətlərini əks etdirir. Nitq etiketlərinin öyrənilməsi dilçilik elminin əsas diqqət mərkəzlərindən olmuşdur. Ən əsas önəm isə onların praqmatik cəhətdən öyrənilməsinə verilmişdir. Bu zaman kommunikativ prosesdə iştirakçıların sosial rolları, qəbul etdiyi mədəni normalar, ünsiyyətin qurulma məqsədi kimi amillər yaxından tədqiq edilir.

Nitq etiketlərinin praqmatik cəhətdən analizi xarici dil öyrənənlər üçün də rahatlıq təmin edə bilər. Bu etiketlərin işləndiyi vəziyyətlər üzrə analiz edilməsi dil öyrənənlərin onların mənalarını daha dərindən başa düşməsinə və düzgün istifadə etməsinə şərait yaradır. Eyni zamanda, müxtəlif dilləri tədris edənlər üçün də dilin istifadə sisteminin dərk edilməsinə yaxından dəstək olur. Dil öyrənərkən əsas konsepsiyalar olan dil, nitq və nitq aktlarının dil sxemində əhəmiyyətini aydınlaşdırır və danışıq bacarıqlarının inkişafına bilavasitə təsir göstərir. Bu da dil öyrədilməsində əhəmiyyətli olan kommunikativ və koqnitiv məmnuniyyətin təmin edilməsinə gətirib çıxarır.

Şəxsiyyətlərarası kommunikasiya prosesi yalnız verbal yox, həm də qeyri-verbal etiketlərdən ibarətdir. Qeyri-verbal davranışların hər biri öz müxtəlifliyinə görə fərqlənir. Bu aktlara mimika, jest, göz təması, həmsöhbətlər arasındakı məsafə aiddir. Qeyri-verbal vasitələr əlaqələrin tənzimlənməsi, danışanın məqsədini daha aydın ifadə etməsi, hiss və emosiyaların ifadəsi, verbal aktları daha da təsirli etməsi kimi praqmatik funksiyalar daşıyır. Qeyri-verbal etiketlər cəmiyyət tərəfindən qəbul edilmiş sosial normalara tabedir ki, bu da həmin cəmiyyətdə hansı davranışın

nəzakətli olub olmadığını müəyyənləşdirməyə kömək edir. Məsələn, Yaponiyada önə doğru əyilmək etiketlərin standart formasıdır və hörməti ifadə edir. Fransada isə "nəzakət" prinsipinə uyğun salamlaşma əl sıxma ilə müşayiət edilir. Lakin Rusiyada əl sıxma yalnız kişilər arasında istifadə edilir, qadınlar isə sözlə və ya başı yuxarı aşağı hərəkət etdirməklə salamlaşır [7, s. 92].

İ.A.Zimnyaya [6] qeyd edirdi ki, hər bir dildə "Təşəkkür edirəm", "Bağışlayın", "üzr istəyirəm" kimi ifadələr avtomatik olaraq istifadə edilən nitq etiketlərinə çevrilib. Bu da nitq etiketlərinin kontekst və situasiya daxilində formalaşan, cəmiyyətdə nəzakət normalarını, eyni zamanda danışanın mədəni xüsusiyyətlərini əks etdirən, "üz" nəzəriyyəsinin qorunmasını təmin edən praqmatik vasitə olduğunu deməyə imkan verir. Nitq etiketlərinin seçimi həmsöhbətlər arasındakı sosial məsafədən, yaş fərqindən və ünsiyyətin rəsmilik dərəcəsindən asılı olaraq dəyişir. Eyni ifadə müxtəlif kommunikativ situasiyalarda fərqli praqmatik məna və funksiyalar qazana bilər. Bu baxımdan nitq etiketləri yalnız dil vahidi deyil, həm də sosial davranışın mühüm tənzimləyici vasitəsi hesab olunur. Onların düzgün seçilməsi qarşılıqlı hörmətin və etimad mühitinin formalaşmasına xidmət edir. Nitq etiketləri danışanın niyyətini daha aydın ifadə etməsinə və həmsöhbətin gözləntilərinə uyğun ünsiyyət qurmasına şərait yaradır. Mədəniyyətlərarası ünsiyyətdə nitq etiketlərinin xüsusiyyətlərinin nəzərə alınması kommunikativ uğursuzluqların və yanlış anlaşılmaların qarşısının alınmasında mühüm rol oynayır. Müxtəlif dillərdə eyni kommunikativ məqsəd fərqli etik formullar vasitəsilə ifadə olunsa da, onların əsas funksiyası qarşılıqlı anlaşmanı və nəzakət prinsiplərini qorumaqdan ibarətdir. Buna görə də nitq etiketlərinin praqmatik xüsusiyyətlərinin öyrənilməsi həm nəzəri dilçilik, həm də xarici dillərin tədrisi və effektiv kommunikasiya bacarıqlarının inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

NƏTİCƏ: Aparılan təhlillər göstərir ki, nitq etiketləri yalnız ünsiyyət vasitəsi deyil, həm də sosial münasibətləri tənzimləyən praqmatik və mədəni kodlar sistemidir. Onların funksionallığı danışanın kommunikativ məqsədi, situasiya, sosial münasibətlər və nəzakət strategiyaları ilə müəyyən olunur. Nitq etiketlərinin praqmatik analizi göstərir ki, eyni dil vahidi müxtəlif kontekstlərdə fərqli məna və təsir yarada bilər. Beləliklə, nitq etiketlərinin öyrənilməsi dilin semantik, sosial və mədəni xüsusiyyətlərinin daha dərindən dərk edilməsinə imkan verir.

Müəyyən edilmişdir ki, pozitiv və neqativ nəzakət strategiyaları müxtəlif dillərdə, o cümlədən Azərbaycan və ingilis dilli mühitlərdə fərqli linqvistik vasitələrlə təzahür edir. Nitq aktlarının və kontekstin düzgün qiymətləndirilməsi ünsiyyət zamanı baş verə biləcək anlaşılmazlıqların qarşısını alır. Nitq etiketlərinin istifadəsində "üz" nəzəriyyəsi, nəzakət prinsipləri və kommunikativ strategiyalar mühüm rol oynayaraq qarşılıqlı anlaşmanın və sosial harmoniyanın qorunmasına xidmət edir.

İstifadə edilmiş ədəbiyyat

1. Austin J. L.*How to Do Things with Words.* Oxford: Oxford University Press, 1962.
2. Brown P., Levinson S. C.*Politeness: Some Universals in Language Usage.* Cambridge: Cambridge University Press, 1987.
3. Goffman E.*Interaction Ritual: Essays on Face-to-Face Behavior*. New York: Anchor Books, 1967.
4. Leech G.*Principles of Pragmatics.* London: Longman, 1983.
5. Levinson S. C.*Pragmatics.* Cambridge: Cambridge University Press, 1983.
6. Крейдлин Г. Е.*Невербальная семиотика: язык тела и естественный язык.* Москва: Новое литературное обозрение, 2002.
7. Формановская Н. И.*Речевой этикет и культура общения.* Москва: Высшая школа, 1989.

Гюльбану Бахрам гызы Баширова
Старший преподаватель Азербайджанского университета языков
gulbani.bashirova@mail.ru
ORCİD İD: https://orcid.org/0009-0004-9160-3743

Функционально-семантические особенности речевого этикета

Резюме

В статье исследуются функционально-семантические особенности речевого этикета в рамках современного прагматического подхода. Основной целью исследования является определение роли единиц речевого этикета в процессе коммуникации, а также выявление их социальных, культурных и функциональных особенностей. В работе анализируются особенности употребления таких форм речевого этикета, как приветствие, благодарность, извинение, обращение, просьба и прощание. Показано, что речевой этикет представляет собой не только совокупность языковых выражений, но и важное коммуникативное средство, регулирующее межличностные отношения и отражающее нормы вежливости. В статье рассматривается значение стратегий вежливости, понятия социального имиджа и теории «лица» в системе речевого этикета. Особое внимание уделяется различиям в формировании и использовании вербальных и невербальных этикетных средств в различных культурах. Установлено, что при прагматическом анализе речевого этикета решающую роль играют коммуникативная ситуация, намерение говорящего и характер социальных отношений между участниками общения.

В результате исследования установлено, что правильный выбор и использование речевых этикетных форм способствует укреплению взаимопонимания, предотвращению коммуникативных недоразумений и сохранению социальной гармонии. Полученные результаты свидетельствуют о том, что изучение речевого этикета с прагматической точки зрения имеет важное теоретическое и практическое значение как для современной лингвистики, так и для преподавания иностранных языков и развития межкультурной коммуникации.

Ключевые слова: речевой этикет, прагматика, коммуникативная стратегия, речевой акт, социальный имидж, межкультурная коммуникация.

Gulbanu Bahram gizi Bashirova
Senior Lecturer at Azerbaijan University of Languages
gulbani.bashirova@mail.ru
ORCİD İD: https://orcid.org/0009-0004-9160-3743

Functional and Semantic Characteristics of Speech Etiquette

Summary

The article studies the functional and semantic characteristics of speech etiquette within the framework of the modern pragmatic approach. The main purpose of the study is to determine the role of speech etiquette units in the communication process and to identify their social, cultural, and functional significance. The research analyzes the use of various forms of speech etiquette, including greetings, expressions of gratitude, apologies, forms of address, requests, and farewells. It is demonstrated that speech etiquette is not merely a set of linguistic expressions but also an important communicative tool that regulates interpersonal relations and reflects the norms of politeness. The pragmatic analysis shows that context, the speaker's communicative intention, and the social relationship between interlocutors play a decisive role in the appropriate use and interpretation of speech etiquette.

The findings indicate that the appropriate selection and use of speech etiquette contribute to strengthening mutual understanding, preventing communicative misunderstandings, and maintaining social harmony. Furthermore, the research emphasizes that the effective use of speech etiquette enhances communicative competence and facilitates successful interaction in multicultural environments.

Key words: speech etiquette, pragmatics, communicative strategy, speech act, social image, intercultural communication.

Rəyçi: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-100-103

Böyükxanım İbrahim qızı Eminli
filologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti, Dil və ədəbiyyat kafedrasının müdiri
boyukxanim.eminli@sdu.edu.az
https://orcid.org/0000-0001-9338-483X

AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ OBRAZLILIQ VƏ MİLLİ-MƏDƏNİ SEMANTİKA

XÜLASƏ: Məqalədə Azərbaycan dilinin frazeoloji sistemində obrazlılıq və milli-mədəni semantika məsələləri etnokulturoloji yanaşma əsasında araşdırılır. Frazeoloji vahidlərin xalqın tarixi təcrübəsini, dünyagörüşünü, etik və estetik dəyərlərini dil səviyyəsində necə əks etdirdiyi təhlil olunur. Göstərilir ki, frazeoloji obrazlılıq milli-mədəni kodların əsas daşıyıcısı olmaqla yanaşı, kollektiv yaddaşın qorunmasında mühüm rol oynayır. Məqalədə məişət, somatik, sosial-etik və təbiət motivli frazeoloji vahidlər nümunə kimi təhlil edilir. I Türkoloji Qurultayda irəli sürülmüş dil-mədəniyyət əlaqələrinə dair ideyaların müasir etnokulturoloji frazeologiya tədqiqatları üçün metodoloji əhəmiyyəti vurğulanır.

Frazeologizmlər xalqın davranış stereotiplərini, dəyər meyarlarını və sosial münasibətlər sistemini əks etdirən linqvokulturoloji göstəricilər kimi dəyərləndirilir. Məqalədə frazeoloji vahidlərin etimoloji və semantik təhlili əsasında onların formalaşmasında mifoloji təsəvvürlərin, folklor ənənələrinin, məişət münasibətlərinin və tarixi həyat tərzinin təsiri sistemli şəkildə izlənilir. Göstərilir ki, bu vahidlərdə xalqın dünyanı qavrama modeli, mənəvi dəyərlər sistemi və milli psixologiyası dilin obrazlı strukturu vasitəsilə kodlaşdırılmış şəkildə yaşamaqdadır. Bu vahidlər nitqdə emosional təsir gücünü artırmaqla yanaşı, kommunikativ strategiyaların qurulmasında, milli ünsiyyət davranışının və mədəni kontekstin ifadəsində mühüm funksional-semantik rol oynayır.

Açar sözlər: Azərbaycan dili, frazeologiya, obrazlılıq, milli-mədəni semantika, etnokulturologiya, dil və mədəniyyət

GİRİŞ: Dil milli mədəniyyətin əsas formasıdır; məhz o, millətin mənəvi nailiyyətlərinin və təcrübəsinin xəzinəsi hesab olunur. Millətin dili ilə onun mədəniyyəti vahid bütöv təşkil edir. Mədəniyyətin inkişafı dilin inkişafından başlanır, buna görə dil və mədəniyyət qarşılıqlı bağlıdır. Mədəni proseslərin dilə, dilin isə mədəniyyətə təsir göstərməsi haqqında fikir ümumi qəbul olunmuş elmi müddəadır.Dil və mədəniyyətin qarşılıqlı əlaqəsi müasir dilçilikdə ən aktual tədqiqat istiqamətlərindən biri hesab olunur. Xalqın tarixi taleyi, sosial təcrübəsi və mədəni dəyərləri dilin müxtəlif qatlarında öz əksini tapır. Bu qatlar içərisində frazeoloji sistem xüsusi yer tutur, çünki frazeoloji vahidlər yalnız nominativ funksiya daşımır, eyni zamanda mədəni informasiyanı obrazlı və yığcam şəkildə ötürür. Dil milli varlığın ən dayanıqlı və davamlı ifadə formalarından biridir. Mədəni davranış stereotipləri və dəyərlər sistemi dilin semantik strukturunda iz buraxır. Bu izlər xüsusilə frazeoloji sistemdə daha qabarıq şəkildə müşahidə olunur. Çünki frazeoloji vahidlər bir tərəfdən dilin hazır semantik modelləri kimi çıxış edir, digər tərəfdən isə mədəni təcrübənin nəticəsi olaraq formalaşır.

Məqalənin əsas məqsədi frazeoloji obrazlılığı milli-mədəni semantikanın formalaşma mexanizmi kimi şərh etmək və Azərbaycan dilində bu mexanizmin konkret dil faktları üzərində necə reallaşdığını göstərmək, eləcə də frazeoloji vahidlərin etnik dünyagörüşün dil ifadəsi kimi rolunu göstərməkdir.

ƏSAS HİSSƏ:Hər hansı milli dilin frazeologiyasının dərindən öyrənilməsi həmin dilin tam mənimsənilməsində əsas halqadır və eləcə də o dilin daşıyıcılarının zəngin, rəngarəng və bir qədər də sirli aləmlərinə açılan pəncərədir [Mirzəliyeva, 2009: s. 25]. Frazeologizmlər xalqın sosial-iqtisadi, siyasi, mənəvi, mədəni və milli həyatına məxsus özünəməxsus anlayışlar əsasında yaranır. Dilin frazeoloji birləşmələri dilin dünya mənzərəsinin yaradılmasında iştirak edən xüsusi dil işarələridir. Xalqın mentaliteti, yəni ətraf aləmin və insanın daxili dünyasının qavranılması xüsusiyyətləri, insanın xarakter təzahürlərinin spesifikası, onun intellektual, mənəvi və iradi keyfiyyətləri dildə obyektivləşir. Buna görə də xalqın mənəvi və əxlaqi şüurunun qaynaqlarını üzə çıxaran frazeologizmlərin və digər nominativ dil vahidlərinin mənası, mahiyyəti və daxili forması xüsusi aktuallıq qazanır.

Frazeologizmdə mənanın gerçəkləşməsi prosesində xalqın mədəni-tarixi təcrübəsi sabitləşir, onun dəyər oriyentirləri qorunub saxlanılır. Frazeoloji mənalarda müxtəlif dil dövrlərinin semantik xüsusiyyətləri reallaşır ki, bu da şəxsiyyətin mənəvi-əxlaqi prinsiplərinin qorunmasına imkan verir. Şəxsiyyətin mənəvi dəyərlərini araşdırarkən biz onun ən mühüm dominantları olan inam, həqiqət, gerçəklik və xeyir kimi anlayışların öyrənilməsinə müraciət etmişik; məhz bu anlayışlar xalqın mənəviyyatının və əxlaqının inkişafını müəyyənləşdirir. Komponentləri bu anlayışlardan ibarət olan frazeologizmlərin mənasını dolğun şəkildə anlamaq üçün həmin dövrün mahiyyətinə uyğun olan mədəni informasiyaya müraciət etmək vacibdir. Frazeologizmin komponenti olan söz müəyyən dövrün əxlaqını, normasını və ənənələrini əks etdirən dil elementi kimi çıxış edir. Adı çəkilən dominantları araşdırarkən biz onları milli mənəvi mədəniyyətin baza anlayışları kimi qəbul etmişik.

Bu problemi təhlil edən N.A.Novikova belə hesab edir ki, frazeologizmlər insanın ilkin əxlaqi dəyərləri haqqında təsəvvür yaradır, onun həyatının etik tərəfinin milli spesifikasını müəyyən edir [Новикова,2004: s. 234]. Demək olar ki, frazeoloji vahidlər təkcə dünyanı təsvir etmək üçün deyil, onu interpretasiya etmək, qiymətləndirmək və ona subyektiv münasibəti ifadə etmək üçün yaranmışdır. V.N.Teliya dilin frazeoloji tərkibini "linqvokulturoloji birliyin öz milli özünüdərkini identifikasiya etdiyi güzgü" adlandırır [Маслова, 2007: s. 82]. V.A. Maslova frazeologizmləri mədəni informasiyanın sıxlaşmış forması hesab edir; onlar xalq ruhunun dərinliklərinə, onun mədəniyyətinə nüfuz etməyə imkan verir. Onlar həmişə cəmiyyətdə formalaşmış stereotipləri, etalonları və yalnız həmin cəmiyyət üçün

əhəmiyyət daşıyan dəyərləri əks etdirir [Маслова, 2001: s. 74].

Müasir dilçilik elmində, xüsusilə, son onilliklərdə frazeoloji vahidlərin problemlərinə elmi maraq artmaqdadır. Bu zaman frazeoloji vahidlərin yaranma üsulları, onların daxili məzmunu və motivləşməsi, digər dil vahidləri ilə qarşılıqlı əlaqələri, frazeoloji fondun yaranmasının nəzəri əsaslandırılması bir çox tədqiqatçıların diqqət yetirdiyi mühüm problemlər sırasına daxildir. Bundan başqa, bu araşdırmalar yalnız frazeoloji fond haqqında təsəvvürləri genişləndirmir və dərinləşdirmir, həm də yeni vəzifələr müəyyənləşdirir.

Frazeologizmlərin linqvokulturologiyada tədqiqat obyektinə çevrilməsi təsadüfi deyil, çünki onlar "mədəni yaddaş"a malik xüsusi verbal işarələrdir; dildə mədəniyyətin "izləri" ənənəvi olaraq nüvə vahidlərinin, yəni frazeologizmlərin daxili formasının təhlilində üzə çıxır [Ковшова, 2009: s. 20]. Mədəni informasiya məhz frazeologizmin daxili formasında ehtiva olunur.

Frazeologizmlər ən çox dünyanın qavranılmasını, milli mədəniyyəti, adət-ənənələri və inancları, xalqın fantaziyasını və tarixini əks etdirir. Frazeologizmlər xalqın milliliyinin və mentalitetinin ən maraqlı təzahürlərindən biridir. V.A.Maslovanın fikrincə, "frazeologizmlərin əksəriyyətinin daxili formasında onlara mədəni-milli kolorit verən mənalar mövcuddur" [Маслова, 2007]. Müxtəlif dillərin frazeologiyasında çoxlu ümumi cəhətlər vardır, çünki frazeologizmlər ümumbəşəri anlayışları və dünyaya baxışları əks etdirir. Lakin hər bir dilin frazeologizmlərinin böyük əksəriyyəti öz milli spesifikliyi ilə seçilir. Bu fərqlilik frazeologizmlərin məna çalarlarında, milli obrazlılığında və leksik tərkibində özünü göstərir.

Frazeologiyanın etnokulturoloji tədqiqinin nəzəri əsasları. Etnokulturoloji dilçilik dili xalqın mədəni təcrübəsinin nəticəsi kimi nəzərdən keçirir. Bu yanaşmaya görə, dil vahidləri yalnız linqvistik struktur deyil, eyni zamanda mədəni məna daşıyıcısıdır. Frazeoloji vahidlər isə bu baxımdan ən "mədəni yüklü" dil vahidləri hesab olunur. V.Qakın göstərdiyi kimi,"dilin frazeoloji sistemi həm də milli xüsusiyyətlərə malikdir" [Гак, 1977: c. 182].

Frazeoloji vahidlərin semantik strukturu, adətən, iki səviyyədən ibarət olur: 1) birbaşa obraz (motivasiya bazası), 2) məcazi, mədəni şərtlənmiş məna. Bu struktur milli-mədəni kontekst olmadan tam anlaşıla bilməz. Məsələn, *"ocağı sönmək"* ifadəsinin semantikası Azərbaycan mədəniyyətində ocağın ailə, soy və davamlılıq rəmzi olması ilə bağlıdır.

Frazeoloji obrazlılıq: klassik izahdan etnokulturoloji interpretasiyaya. Ənənəvi dilçilikdə frazeoloji obrazlılıq adətən məcazi məna ilə izah olunur. Lakin etnokulturoloji yanaşma bu anlayışı daha geniş kontekstdə dəyərləndirməyi tələb edir. Bu baxımdan frazeoloji obrazlılıq yalnız məcaz deyil, milli mədəniyyət tərəfindən legitimləşdirilmiş semantik model kimi çıxış edir. Frazeoloji obrazlılıq frazeoloji vahidin əsas semantik xüsusiyyəti olub, konkret mədəni təcrübəyə əsaslanan təsvirin abstrakt mənanı ifadə etməsidir. Azərbaycan dilində bu obrazlar, əsasən, xalqın gündəlik həyatı, əmək fəaliyyəti və sosial münasibətləri ilə bağlıdır. "…frazeoloji sistemə daxil olan bütün dil vahidləri bədii obrazın yaranmasında bu və ya digər dərəcədə fəaldır: şeirin sətirlərində frazeoloji birləşmələr ona görə xoş təsir bağışlayır ki, onlarda xalq poeziyasına məxsus bir koloritli deyim çaları, xalq psixologiyası və düşüncə tərzi vardır" [Hüseynov, 2013: s. 41].

Frazeoloji obrazlılığın əsas xüsusiyyətləri bunlardır: fərdi deyil, kollektiv təfəkkürün məhsulu olması və kollektiv şüurda formalaşması, emosional-ekspressiv xarakter daşıması, milli-mədəni təcrübəyə əsaslanması, semantik sabitlik, dil daşıyıcısı tərəfindən izaha ehtiyac olmadan qəbul edilməsi, mədəni yaddaşla sıx bağlılığı. Frazeoloji vahidin obrazlılığı: məsələn, *"ocağı sönmək"* ifadəsi semantik baxımdan sadə metafora kimi deyil, ailə institutunun, nəsil davamlılığının və sosial varlığın itməsi kimi mədəni konseptin dil forması kimi anlaşılır. Milli-mədəni semantika frazeoloji vahidlərin mənasında gizli şəkildə kodlaşdırılmış dəyərlər sistemidir. Qeyd etmək lazımdır ki, frazeologizmlərin müxtəlif tiplərimədəniyyəti fərqli şəkildə əks etdirir. Mədəni aspekti anlamaq və izah etmək baxımından ən asan olanlar mənasında denotativ aspektin mühüm rol oynadığı frazeologizmlərdir. Belə frazeologizmlər öz leksik tərkibində maddi mədəniyyət sahəsinə işarə daşıyır; onların mənası və ifadə etdikləri qiymətləndirmə tərkibinə daxil olan leksik vahidlərin mənaları nəzərə alınmaqla formalaşmışdır. Mahiyyət etibarilə obrazlı-emosional olan frazeologizmlər də mövcuddur ki, onların mənasında obrazlı əsas həlledici əhəmiyyət daşıyır. Bu cür frazeologizmlərin formalaşması uzun müddət ərzində baş verir. İlkin mərhələdə frazeologizmin sözbəsöz (literal) mənasına uyğun gələn müəyyən prototip situasiya yaranır. Daha sonra bu situasiya müəyyən məzmunla möhkəmlənir və sonradan yenidən mənalandırılır; nəticədə daxili forma meydana gəlir ki, mədəniyyətlə bağlı əsas informasiya da məhz burada cəmlənir.

Beləliklə, frazeologizmlərin formalaşma prosesinin özündə, yəni obrazların seçimində milli-mədəni stereotiplər və etalonlarla əlaqə aydın şəkildə izlənir. Bu informasiya sonradan konnotasiyalarda "canlanır" və assosiativ-obrazlı əsasın mədəniyyətlə olan əlaqəsini əks etdirir.

Azərbaycan dilində frazeoloji obrazlılığın əsas mənbələri aşağıdakılardır:

1. Məişət və ailə münasibətləri. Azərbaycan frazeologiyasında ev, ocaq, çörək, süfrə kimi anlayışlar mühüm yer tutur. *"Çörək kəsmək"* ifadəsində sosial etibar və mənəvi məsuliyyət, *"ocaq qalamaq"* ifadəsində isə nəsil və ailə davamlılığı ideyası kodlaşdırılır; *"ev-eşiyini itirmək","ocağını söndürmək", "ocağına zəhər qatmaq"* kimi ifadələrdə məişət elementləri mədəni dəyər səviyyəsinə yüksəlir. Bu, ailə institutunun və qonaqpərvərlik ənənəsinin dilə hopmasının göstəricisidir. Bu fakt göstərir ki, məişət leksikası Azərbaycan dilində frazeoloji obrazlılığın əsas semantik bazalarından biridir.

2.Somatik frazeologiya və milli emosional model. Bədən üzvləri ilə bağlı frazeoloji vahidlər emosional və psixoloji vəziyyətlərin ifadəsində geniş istifadə olunur: *"ürəyi ağrımaq"*, "ağzına su almaq", "burunmdan gətirmək",

"gözünə işıq gəlməmək", "başını itirmək".Burada ürək – hiss və vicdanın, göz – dəyərvermənin, baş isə ağıl və idarəetmənin, ağız şüurlu susqunluq, burun nəfəs, rahatlıq və həyat ritmi simvoludur.Burada diqqətçəkən məqam ondan ibarətdir ki, somatik komponentlər bioloji deyil, mədəni funksiya daşıyır. *Ürək* – vicdan, mərhəmət və daxili həqiqət məkanı; *göz* – sosial dəyərvermə və münasibət göstəricisi; *baş* – ağıl və iradə mərkəzi və s. Məsələn, *"ürəyi daş olmaq"* ifadəsi yalnız hissizlik deyil, mədəni baxımdan qəbuledilməz davranış modelinin dil formasıdır.

1. Etik dəyərlərin frazeoloji kodlaşdırılması. Azərbaycan dilinin frazeoloji sistemi etik normativlərin qorunması funksiyasını daşıyır. *"Üz ağlığı", "üzü qara çıxmaq", "ad-sanını batırmaq"* kimi ifadələrdə etik qiymətləndirmə dil səviyyəsində sabitləşmişdir. *"Üzü qara çıxmaq", "üz ağlığı gətirmək", "ad-san qazanmaq", baş ucalığı gətirmək və s.* kimi frazeoloji vahidlər Azərbaycan mədəniyyətində şərəf, ləyaqət və ictimai rəyin yüksək əhəmiyyət daşıdığını göstərir. "Üz", "baş" anlayışları burada etik kateqoriya kimi çıxış edir. Bu cür frazeoloji vahidlər cəmiyyətin davranış normalarını tənzimləyən qeyri-rəsmi mexanizm kimi çıxış edir və milli şüurun normativ modelini formalaşdırır.

2. Frazeoloji vahidlərdə təbiət və zoonim obrazlarının milli semantikası. Azərbaycan xalqının təbiətlə sıx əlaqəsi frazeoloji obrazlılıqda aydın görünür. *"Aslan ürəkli", "tülkü kimi hiyləgər", "külək kimi ötüb keçmək"* kimi ifadələrdə təbiət və heyvan aləmi insan xarakterinin təsviri üçün metaforik vasitəyə çevrilir. Bu cür obrazlar xalqın müşahidəçi təfəkküründü və təbiət hadisələrinin mədəni interpretasiyasını əks etdirir. Burada zoonim və təbiət obrazları universal deyil, milli mədəni seleksiya nəticəsində frazeoloji sistemə daxil olur.

3. Frazeoloji obrazlılıq milli yaddaş mexanizmi kimi. Frazeoloji vahid – xalqın mədəniyyətini əks etdirən informativ dil işarəsi kimi qəbul olunmaqla yanaşı etnosun milli şüurunda və milli yaddaşında həkk olunan mental vahid olaraq, dilin mədəni məkanını əks etdirir [Əliyeva, 2024: s. 26]. Frazeoloji vahidlər milli dünyagörüşün dil səviyyəsində sabitləşmiş formasıdır. Onlar xalqın həyat fəlsəfəsini, dəyərlər sistemini və davranış normalarını nəsildən-nəslə ötürür. Bu baxımdan frazeologiya dilin etnokulturoloji yaddaşı funksiyasını yerinə yetirir, dilin "mədəni arxivi" kimi çıxış edir.Tədqiqat göstərir ki, Azərbaycan dilində frazeoloji obrazlılıq milli-mədəni semantikanın əsas daşıyıcılarından biridir. Frazeoloji vahidlər xalqın tarixi təcrübəsini, etik dəyərlərini və dünyagörüşünü obrazlı, emosional və yığcam şəkildə ifadə edir. Onların etnokulturoloji aspektdən öyrənilməsi milli dil şüurunun daha dərindən anlaşılmasına imkan yaradır. Frazeoloji vahidlərin semantikasında xalq mədəniyyətinin uzun inkişaf prosesi əks olunur; mədəni yönümlər, stereotiplər, etalonlar və arxetiplər nəsildən-nəslə ötürülür. Mədəni konnotasiyanın xüsusiyyətlərini təhlil edərkən biz belə bir postulatdan çıxış edirik ki, dilin frazeoloji tərkibində sabitləşmiş obrazlar sistemi dünyagörüşünün kumulyasiyası üçün bir növ "yuva" rolunu oynayır və bu və ya digər şəkildə həmin dil birliyinin maddi, sosial və mənəvi mədəniyyəti ilə bağlıdır. Buna görə də bu sistem onun milli-mədəni təcrübəsi və ənənələri haqqında məlumat verə bilir.

NƏTİCƏ: Beləliklə, biz obyektiv gerçəklik haqqında, xüsusən də məkan barədə mental təsəvvürlərin verbal təmsilçiləri olan frazeoloji vahidlərin semantik və linqvokulturoloji təhlilinin bir fraqmentini təqdim etdik. Burada söhbət yuxarı, aşağı və insanın özünün məskunlaşdığı "orta" məkandan gedir; insan bu məkanda yaşayış yeri qurur, ətraf ərazini becərir və onu sərhədlərlə əhatələyir. İnsanı əhatə edən məkan gerçəkliyinin bu cür strukturu və ona aid edilən aksioloji xüsusiyyətlər, yüzilliklər boyu insanların şüurundan keçərək formalaşmış və müasir insanın əsas mədəni dəyərlər sistemini müəyyənləşdirmişdir. Bu dəyərlər, məsələn, öz məkanının (evin) əhəmiyyətinin dərk olunması, həmin məkanın bütövlüyünün qorunması, dinc yanaşı yaşamanın zəruriliyi, öz məkanını tərk edən və ya əksinə, özünə məxsus olmayan əraziyə müdaxilə edən insanlara mənfi münasibət kimi təsəvvürlərlə bağlıdır.

Nəticə etibarilə, Azərbaycan dilinin frazeoloji sistemi yalnız dilin obrazlı qatını deyil, həm də xalqın tarixi yaddaşını, mədəni təcrübəsini və milli-mənəvi dəyərlərini qoruyub yaşadan mürəkkəb semiotik sistem kimi çıxış edir. Bu baxımdan frazeoloji vahidlərin etnokulturoloji tədqiqi dil və mədəniyyət münasibətlərinin dərin qatlarının öyrənilməsi üçün perspektivli elmi istiqamətlərdən biri hesab olunur.

İstifadə edilmiş ədəbiyyat

1. Əliyeva, V.F. Müasir fransiz dilində psixoemosional məzmunlu frazeoloji vahidlərin struktur-semantik xüsusiyyətləri // Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferati, 2024, 32 s.
2. Hüseynov, M.A. Poetik frazeologiya. Bakı: Elm və təhsil, 2013, 166 s.
3. Mirzəliyeva, M.A. Türk dillərinin frazeologiyası. I c. Bakı: Nurlan, 2009, 216 s.
4. Гак, В. Сопоставительная лексикология. Москва,1977, с.212
5. Ковшова, М.Л. Семантика и прагматика фразеологизмов (лингвокультурологический аспект): дис. ... д-ра филол. наук / М.Л.Ковшова. – М., 2009. – 654 с.
6. Маслова, В.А. Лингвокультурология: учеб. пособие для студ. высш. учебн. заведений. –3-е изд., испр. – М.: Академия, 2007. – 208 с.
7. Маслова, В.А. Лингвокультурология: учеб. пособие для студ. высш. учебн. заведений. –3-е изд., испр. – М.: Академия, 2007. – 208 с.
8. Маслова, В. А. Лингвокультурология / В.А.Маслова. – М.: Академия, 2001. – 202 с.
9. Новикова, Н.А. Фразеологические единицы с концептом «жизнь» в дискурсе культуры (этический аспект) // Культурные слои во фразеологизмах и в дискурсивных практиках / В.Н. Телия. М.: Языки славянской культуры. 2004. с. 234-240

Эминли Беюкханым Ибрагим
доктор философии по филологии, доцент,
заведующая кафедрой языка и литературы Сумгаитского государственного университета
boyukxanim.eminli@sdu.edu.az
https://orcid.org/0000-0001-9338-483X

Фразеологическая образностьи национально-культурная семантикав азербайджанском языке

Резюме

В статье на основе этнокультурологического подхода исследуются вопросы образности и

национально-культурной семантики во фразеологической системе азербайджанского языка. Анализируется, каким образом фразеологические единицы отражают на языковом уровне исторический опыт народа, его мировоззрение, этические и эстетические ценности. Показано, что фразеологическая образность, являясь основным носителем национально-культурных кодов, одновременно играет важную роль в сохранении коллективной памяти. В статье в качестве примеров анализируются фразеологические единицы бытовой, соматической, социально-этической и природной мотивации. Подчеркивается методологическое значение идей о взаимосвязи языка и культуры, выдвинутых на I Тюркологическом съезде, для современных этнокультурологических исследований фразеологии.

Фразеологизмы рассматриваются как лингвокультурологические показатели, отражающие поведенческие стереотипы народа, ценностные ориентиры и систему социальных отношений. На основе этимологического и семантического анализа фразеологических единиц в статье системно прослеживается влияние мифологических представлений, фольклорных традиций, бытовых отношений и исторического образа жизни на их формирование. Показано, что в этих единицах модель восприятия мира народом, система духовных ценностей и национальная психология сохраняются в закодированной форме посредством образной структуры языка. Эти единицы, усиливая эмоциональное воздействие речи, наряду с этим играют важную функционально-семантическую роль в построении коммуникативных стратегий, выражении национального коммуникативного поведения и культурного контекста.

Ключевые слова:Азербайджанский язык, фразеология, образность, национально-культурная семантика, этнокультурология, язык и культура

Eminli Buyukkhanim Ibrahim
PhD in Philology, Associate Professor
Head of the Department of Language and Literature, Sumqayit State University
boyukxanim.eminli@sdu.edu.az
https://orcid.org/0000-0001-9338-483X

Phraseological imageryand national-cultural semanticsin the Azerbaijani language

Summary

The article examines issues of imagery and national-cultural semantics in the phraseological system of the Azerbaijani language through an ethnoculturological approach. It analyzes how phraseological units reflect, at the linguistic level, the historical experience of the people, their worldview, as well as their ethical and aesthetic values. It is demonstrated that phraseological imagery, while serving as a principal carrier of national-cultural codes, also plays an important role in preserving collective memory. The article analyzes phraseological units motivated by everyday life, somatic, socio-ethical, and nature-related concepts as illustrative examples. The methodological significance of ideas concerning the language–culture relationship proposed at the First Turkological Congress is emphasized for contemporary ethnoculturological studies in phraseology.

Phraseological units are regarded as linguoculturological indicators reflecting people's behavioral stereotypes, value systems, and social relations. Based on the etymological and semantic analysis of phraseological units, the article systematically traces the influence of mythological concepts, folkloric traditions, everyday social relations, and historical ways of life on their formation. It is shown that the people's model of perceiving the world, their system of spiritual values, and national psychology are preserved in encoded form through the figurative structure of language. Along with intensifying the emotional impact of speech, these units also play an important functional-semantic role in constructing communicative strategies, expressing national communicative behavior, and conveying cultural context.

Keywords: Azerbaijani language, phraseology, imagery, national-cultural semantics, ethnoculturology, language and culture

Rəyçi: SDU-nun professsoru Məmmədov Ramazan Salam oğlu

DOI: 10.24412/2218-7588-2026-2-104-107

Xanımana Fətəli qızı Manaflı
BDU, Filologiya fakültəsi, Azərbaycan dilçiliyi kafedrası, dosent
xanimmanafli8@gmail.com
ORCID ID: 0009-0004-4261-3486

LİNQVİSTİKADA QİYMƏTLƏNDİRMƏ KATEQORİYASI ANLAYIŞI

XÜLASƏ: Qiymətləndirmə sadəcə bir obyektin adını çəkmək deyil, həmin obyektin bizim üçün nə dərəcədə əhəmiyyətli olduğunu müəyyən etməkdir. O, həmişə insanın ehtiyacları və dəyərləri ilə bağlıdır. Bir şey insanın hədəfinə çatmağa kömək edirsə, o, "yaxşı" hesab olunur. İnsan dünyanı sadəcə görmür, həm də onu "filtrdən" keçirir. Bu, bizə qərar qəbul etməkdə və həyat yolumuzu seçməkdə kömək edir. Faktiki olaraq, insan ətraf aləmi qiymətləndirmə vasitəsilə dərk edir. O, bəşəri dəyərlər sisteminə, həqiqət və yalanın, xeyir və şərin qarşılıqlı əlaqəsinə əsaslanır. Qiymətləndirmənin məqsədi dinləyicidə müəyyən bir rəy formalaşdırmaqdır. Məsələn, reklam və ya siyasi nitqlərdə qiymətləndirmə kateqoriyası manipulyasiya üçün ən güclü vasitədir. Bu, aktual və geniş mövzudur. Reklam və siyasət sahəsində qiymətləndirmə kateqoriyası sadəcə məlumat ötürmür, o, reallığı yenidən inşa edir. Bu sahələrdə manipulyasiya obyektiv faktları subyektiv qiymətləndirmə süzgəcindən keçirərək auditoriyanın emosiyalarını və qərarlarını idarə etmək üzərində qurulur.

Qiymətləndirmə kateqoriyası fəlsəfə və məntiqdə olduğu kimi, dilçilikdə də mühüm tədqiqat obyektidir. Bu maraq onunla bağlıdır ki, qiymətləndirmə insanın idrak fəaliyyətinin ayrılmaz hissəsidir, insanın psixoloji və fiziki təbiəti ilə əlaqədardır. Bir çox dilçilər qiymətləndirməni müstəqil dil kateqoriyası kimi qəbul etsələr də, onun strukturu, növləri və digər kateqoriyalarla (məsələn, modallıq, emosionallıq, ekspressivlik) əlaqəsi tam aydınlaşdırılmamışdır. Qiymətləndirmə yalnız məntiqi "yaxşı-pis" çərçivəsində məhdudlaşmır, o, danışanın münasibətini ifadə edən daha geniş dil hadisələrini əhatə edir. Dilçilərin tərifl ərini ümumiləşdirsək, qiymətləndirmə dil vahidlərində təmsil olunur və dil faktı hesab edilir, buna görə də onun fəaliyyət sahəsi nitqdir.

Açar sözlər: aksioloji semantika, qiymətləndirmə predikatı, qiymətləndirmə şkalası, konnotativ məna, linqvopraqmatika, nitq aktları, subyektiv modallıq, rasional qiymətləndirmə.

GİRİŞ: Qiymətləndirmə prosesi istənilən fəaliyyət sahəsində nəticələrin ölçülməsi və təhlili üçün mühüm vasitədir. Qiymətləndirmə kateqoriyası da bu prosesin daha obyektiv və sistemli aparılması, nəticələrin müəyyən meyarlar, göstəricilər əasında qiymətləndirilməsi, sinifləndirilməsi üçün istifadə olunan ölçü vahididir. Bu qiymətləndirmə kateqoriyaları obyektivliyi artırır, müqayisə apamağı asanlaşdırır, qərarverməni sürətləndirir, nəticələrin sistemləşdirilməsini təmin edir. Qiymətləndirmə sadəcə bir obyektin adını çəkmək deyil, həmin obyektin bizim üçün nə dərəcədə əhəmiyyətli olduğunu müəyyən etməkdir. A.A.İvin qiymətləndirməni məntiqi bir struktur kimi təhlil edir: (məntiqi-fəlsəfi yanaşma)

Subyekt: Qiymətləndirən şəxs (mən, sən, cəmiyyət).
Obyekt: Qiymətləndirilən şey (hadisə, insan davranışı, əşya).
Xarakter (qiymət şkalası): Yaxşı/pis, faydalı/ziyanlı, gözəl/çirkin kimi müqayisələr, qarşıdurmalar.
Əsas: (hansı meyara görə qiymət verilir) (4, s. 21).

Deməli, qiymətləndirmə obyektin özünəməxsus daxili xüsusiyyəti deyil, insanın ona "yüklədiyi" mənadır. Məsələn, "alma" bir obyektdir (neytral), "şirin alma" fiziki xüsusiyyətdir, amma "dadlı alma" artıq bir qiymətləndirmədir.

ƏSAS HİSSƏ: Qiymətləndirmə həmişə insanın ehtiyacları və dəyərləri ilə bağlıdır. Bir şey insanın hədəfinə çatmağa kömək edirsə, o, "yaxşı" hesab olunur. İnsan dünyanı sadəcə görmür, həm də onu "filtrdən" keçirir. Bu, bizə qərar qəbul etməkdə və həyat yolumuzu seçməkdə kömək edir. Faktiki olaraq, insan ətraf aləmi qiymətləndirmə vasitəsilə dərk edir. O, bəşəri dəyərlər sisteminə, həqiqət və yalanın, xeyir və şərin qarşılıqlı əlaqəsinə əsaslanır.

Yəni qiymətləndirmə kateqoriyasına ümumi yanaşma budur ki, insan bu və ya digər obyekti özünün ehtiyaclarını, istəklərini, maraqlarını, məqsədlərini ödəmə qabiliyyətinə görə qiymətləndirir, beləliklə, predmeti və ya onun xüsusiyyətini faydalı, xoş, xeyirxah, gözəl və s. hesab etdikdə, artıq qiymətləndirmə həyata keçirmiş olur. (2, s. 46)

Qiymətləndirmə kateqoriyasına linqvo-psixoloji yanaşmalar da var. E.M.Volf qeyd edir ki, dildə qiymətləndirmə çox vaxt "təsviri" məna ilə iç-içə olur. Məsələn, "soyuq su" ifadəsi həm fiziki vəziyyəti təsvir edir, həm də konteksdən asılı olaraq (susuz adam üçün) müsbət qiymət daşıya bilər. Volf həm də qiymətləndirmə ilə daha geniş anlayış olan təsnifat (kvalifikasiya) arasında fərq qoyur. Sözün dar mənasında qiymətləndirmə - **yaxşı/pis** əlamətlərə görə qarşılaşdırmaqdır. Təsnifat anlayışına isə həm qiymətləndirmənin özü, həm də digər xüsusiyyətlər, məsələn, parametrik (böyük-kiçik, dar-enli və s.) xüsusiyyətlər daxildir. (1, s. 112)

Qiymətləndirmə şkalası üç növ qiymətləndirmə ilə təmsil oluna bilər: müsbət (pozitiv), mənfi (neqtiv) və neytral (sıfır). M.P.Kotyurova qiymətləndirmənin dərəcəli xarakterinə işarə edərək təqdim olunan təsnifatı belə xarakterizə edir: "Sıfır qiymətləndirmə qiymətləndirmənin olmaması deyil, bilik obyektinin subyektivləşdirilməsi baxımından onun metodoloji səciyyəsidir; müsbət qiymətləndirmə - müəllifin yeni bilik əldə etmək üçün köhnənin əhəmiyyətini qəbul etməsi; mənfi qiymətləndirmə isə köhnəni qəbul etməmək, onu "maneə"kimi dərk etməkdir. (2, s.238)

Obyektə qiymətləndirici münasibətin ifadə xarakterinə görə rasional və irrasional qiymətləndirmə növləri

fərqləndirilir. Rasional qiymətləndirmə məntiqidir, müəllifin predmetə intellektual münasibətini əks etdirir, yəni bilikləri müəyyən norma və elmi fəaliyyət tələblərinə, yenilik, etibarlılıq parametrlərinə uyğunluq baxımından xarakterizə edir. Bu qiymətləndirmə növü elmi diskursda üstünlük təşkil edir, alimlər bildirirlər ki, o, bütün qiymətləndirmə vasitələrinin 97.3 %-ni təşkil edir. (3, s.82). İrrasional və ya emosional-ekspressiv qiymətləndirmə predmetin müəllifin emosional vəziyyətləri nöqteyi-nəzərindən qavranılmasını ifadə edir. Bu cür qiymətləndirmə çox azdır.

Dildə qiymətləndirmə müxtəlif yollarla ifadə olunur:

A. Leksik-semantik vasitələr: 1.*Açıq qiymət bildirən sözlər*: möhtəşəm, dəhşət, qəhrəman, gözəl, çirkin, bərbad. 2. *Məcazi mənalı sözlər*: Bir insana "tülkü" dediyimizdə (metafora) heyvan adından istifadə edərək mənfi (hiyləgər) qiymət veririk. 3. *Epitetlər:* "dəmir iradə", "qızıl ürək".

B. Qrammatik (morfoloji) vasitələr: 1.*Kiçiltmə və əzizləmə:* Azərbaycan dilindəki -çıq, -ca, -şın, -sov şəkilçiləri. Nümunə: uzunsov, qaraşın (obyektin keyfiyyətinin normadan az olduğunu qiymətləndirərək göstərir) 2. *Çoxaltma dərəcəsi:* Dümağ, yamyaşıl (obyektin keyfiyyətini normadan yüksək kimi qiymətləndirir)

C. Sintaktik vasitələr: 1.*İntonasiya ilə:*Eyni cümləni fərqli tonla deyərək həm bəyənməni, həm də istehzanı ifadə etmək olar. "Nə gözəl gündür!" 2.*Təkrarlar:*"Yaxşı, lap yaxşı! (Təkrar qiymətin dərəcəsini artırır). 3. *Ritorik suallar:* "Bundan pis daha nə ola bilərdi ki?" (mənfi qiymətin vurğulanması)

Azərbaycan dili frazeoloji birləşmələrlə zəngindir və bu vahidlərin əksəriyyəti məhz qiymətləndirmə funksiyası daşıyır. Frazeologizmlər xalqın əsrlər boyu formalaşmış dəyərlər sistemini, etik normalarını və hadisələrə subyektiv münasibətini kodlaşdırılmış şəkildə saxlayır. Frazeoloji birləşmələrdə qiymətləndirmə kateqoriyasının əsas xüsusiyyətlərini belə qruplaşdıra bilərik: 1.Frazeologizmlərin əksəriyyəti insanı, onun xarakterini və mənəviyyatını qiymətləndirmək üçün istifadə olunur. Dilin "qiymətləndirmə süzgəci" insanın daxili aləmini zahiri əlamətlərlə əlaqələndirərək sabit ifadələr yaradır. Xalqın mentalitetinə uyğun olaraq hadisələrə münasibət bu ifadələrdə gizlənir: üzü ağ olmaq (mənəvi təmizlik/müsbət), gözdən düşmək (hörmətini itirmək/mənfi), burnu göylə getmək (təkəbbürlü/mənfi), qəlbi təmiz (səmimiyyət/müsbət), ağzına su almaq (passivlik, qorxaqlıq/mənfi), gözü tox olmaq (tamahkar olmayan/müsbət), ikiüzlü olmaq (riyakarlıq/mənfi). 2. İntellektual qiymətləndirmə: İnsanın ağlı və dərrakəsi frazeoloji obrazlarla dəyərləndirilir: başı işləmək (müsbət), başı boş (mənfi), ağlı kəsmək (müsbət) . 3. Emosional-ekspressiv qiymətləndirmə: Burada münasibət daha kəskin və hisslərlə yüklənmiş olur. Məsələn, zəhrimar dadmaq, cin atına minmək, başına and içmək, gözünün odunu almaq, əlindən zəncir çeynəmək və s. 4. Konnotativ məna və stereotiplər. Frazeologizmlərdə qiymətləndirmə çox vaxt milli stereotiplərə əsaslanır. Məsələn, Azərbaycan mədəniyyətində "çörək" müqəddəsdir, ona görə də onunla bağlı frazeologizmlər yüksək etik qiymətləndirmə daşıyır. Gəlin, bu ifadələri növlərinə görə qruplaşdıraq:

1. Zəhmət və ruzi ilə bağlı qiymətləndirmə: Bu qrupda insanın işgüzarlığı, çətinliklə qazanılan ruziyə verilən dəyər ön plandadır. Çörəyi dizinin üstündə olmaq – nankorluğun, verilən dəyəri itirməyin ən kəskin mənfi qiymətləndirilməsi. Çörəyini daşdan çıxarmaq – insanın dözümlülüyünü və hər hansı çətinliklə ruzi qazanmaq bacarığını çox yüksək müsbət qiymətləndirmək.

2. Sadiqlik və mənəviyyat şkalası: Çörək burada bir əhd-peyman vasitəsidir. duz-çörək kəsmək -bu, sadəcə yemək yemək deyil, qarşılıqlı etibar və sadiqliyin müsbət qiymətləndirilməsidir. Çörəyi itirmək- verilən yaxşılığı, zəhməti qiymətləndirməmək. Duz-çörək itirən-ən ağır mənfi epitetlərdən biridir, insanın etik normaları tapdaladığını göstərir.

3. Sosial status və imkanın qiymətləndirilməsi: Bir tikə çörəyə möhtac olmaq- insanın düşdüyü ağır vəziyyətin dərəcəli olaraq ən aşağı nöqtəsini göstərir. Çörəyi kəsilmək-insanın qazanc yerini itirməsi ilə bağlı yaranan neqativ vəziyyəti ifadə edir. Çörəyi bütöv olmaq-bir kimsənin maddi vəziyyətinin yaxşı, ehtiyacsız olmasının rasional qiymətləndirilməsidir.

Frazeoloji vahidlər çox zaman neytral bir anlayışı emosional və obrazlı şəkildə ifadə etmək ehtiyacından yaranır. Burada "yaxşı" və ya "pis" münasibət ön plana çıxır. Məsələn, "çox danışmaq" neytral bir hərəkətdir. Lakin buna mənfi qiymət verdikdə "baş aparmaq" və ya "çənə döymək" frazeologizmləri yaranır. Qiymətləndirmə burada hərəkətin kəmiyyətindən çox, onun yaratdığı bezdirici təsirə (keyfiyyətə) yönəlir. Buna **metaforik qiymətləndirmə** deyirlər.

Bəzi frazeologizmlər adətən cəmiyyətdə qəbul olunmuş etik, mənəvi və ya sosial "norma"lardan kənaraçıxmanı qeyd etmək üçün yaranır. Əgər bir hadisə normaldırsa, onun üçün xüsusi frazeologizmə ehtiyac az olur. Lakin norma pozulduqda qiymətləndirmə mexanizmi işə düşür: "ölümün gözünə dik baxmaq"(normadan artıq cəsarət), "canına vəlvələ düşmək"(normadan artıq qorxu)

Nitq etiketləri ünsiyyəti tənzimləyən, cəmiyyət tərəfindən qəbul edilmiş davranış qaydalarıdır. Qiymətləndirmə kateqoriyası bu etiketlərin daxilinə elə hopmuşdur ki, biz çox vaxt fərqinə varmadan qarşımızdakı insanın statusunu, hərəkətini və ya münasibətimizi bu yolla "tərəziyə qoyuruq". Nitq etiketlərində qiymətləndirməni bir neçə əsas istiqamətdə daha geniş izah etmək olar:

1. Müsbət qiymətləndirmə: iltifatlar və təriflər

İltifatlar nitq etiketinin ən bariz qiymətləndirmə formasıdır. Burada subyekt qarşı tərəfin zahiri görünüşünü, intellektini və işini yüksək qiymətləndirir. *a) birbaşa qiymətləndirmə:* "Çox gözəl görünürsünüz", "Siz həqiqətən bu işin peşəkarısınız". *b) dolayı qiymətləndirmə:* "Sizin fikirləriniz həmişə orijinal olur".

Burada "gözəl", "peşəkar", "orijinal" sözləri nitq aktında müsbət qiymətləndirmə şkalasını təmsil edir.

2. Alqışlar və xeyir-dualar

Nitq etiketlərində alqışlar qiymətləndirmənin ən qədim və geniş yayılmış formasıdır. İnsan bir yaxşılıq gördükdə və ya xoş bir hadisə olduqda bunu mütləq sözlə qiymətləndirir: "Allah razı olsun!" (görülən işin ilahi səviyyədə qiymətləndirilməsi). "Əllərinə sağlıq" (yeməyi hazırlayanın zəhmətinin müsbət qiymətləndirilməsi). "Gözün aydın olsun!" (xoş xəbərin sevincini bölüşərək onu dəyərləndirmək)

3. Praqmatik qiymətləndirmə: nəzakət və distansiya

Biz müraciət formalarını seçərkən qarşı tərəfi sosial statusuna görə qiymətləndiririk: Birinə "siz" deyə müraciət etmək, ona verilən sosial hörmətin və ya aradakı məsafənin qiymətləndirilməsidir. "Cənab", "müəllim", "ustad" kimi müraciətlər şəxsin cəmiyyətdəki yerinə verilən birbaşa qiymətləndirmədir.

4. Mənfi qiymətləndirmə: məzəmmət və etiraz

Nitq etiketləri yalnız xoş sözlərdən ibarət deyil, mənfi halları etik çərçivədə qiymətləndirmək də bu sistemin bir hissəsidir: *a) yumşaldılmış mənfi qiymət:"*Bu hərəkət sizin kimi insana yaraşmadı". Burada şəxsin özü yüksək qiymətləndirilir ("sizin kimi insan"), lakin hərəkəti mənfi ("yaraşmadı") hesab olunur. *b) ironik qiymətləndirmə:* "Çox sag ol, işimi "yaxşıca" asanlaşdırdın". Burada sözün birbaşa mənası müsbət olsa da, praqmatik mənada kəskin mənfi bir münasibət var.

Nitq etiketləri vasitəsilə biz həm özümüzün, həm də qarşımışdakı insanın dildəki "dəyərini"müəyyən edirik. Əgər bir müəllim tələbəsinə "ağıllı balam" deyirsə, bu həm emosional, həm də intellektual-məntiqi qiymətləndirmənin nitq etiketindəki təzahürüdür.

Müraciət etiketlərimiz qarşı tərəfə verdiyimiz dəyəri dərhal bəlli edir. Burada subyektiv hisslərdən çox, obyektiv status (yaş, vəzifə) rol oynayır: "Bəy", "xanım" kimi müraciətlər şəxsi hörmətli bir fərd kimi qiymətləndirdiyimizi göstərir. "Ağsaqqal", "ağbirçək" kimi etiketlərdə isə həm yaş, həm də həyat təcrübəsinə verilən yüksək (müsbət) qiymət var. İltifat edərkən biz həm qarşı tərəfin görünüşünü (emosional), həm də daxili keyfiyyətlərini (intellektual) eyni anda qiymətləndiririk: "Sizin nurani simanız var" – Bu, sadəcə zahiri görünüş deyil, insanın daxili aləminin üzünə yansımasına verilən yüksək aksioloji (dəyərli) qiymətdir.

Evfemizmlər mənfi qiyməti yumşaltma sənətidir. Bəzən etik qaydalar mənfi qiymətləndirməni birbaşa deməyə icazə vermir. Bu zaman nitq etiketi işə düşür və mənfi çaları olan sözü daha yumşaq olanla əvəz edirik: "Yalan danışır"əvəzinə "Həqiqəti tam demir", "Səhv edirsiniz" əvəzinə "Bəlkə məsələyə başqa tərəfdən baxaq?". Bu, nitqin praqmatik potensialı ilə bağlıdır, məqsəd qarşı tərəfi incitmədən vəziyyəti qiymətləndirməkdir. Minnətdarlıq ifadə edərkən biz qarşı tərəfin zəhmətini "çəkiyə" qoyuruq: "Haqqınızı halal edin" – Burada göstərilən xidmət o qədər yüksək qiymətləndirilir ki, onun maddi qarşılığı olmadığı, mənəvi "halallıq" səviyyəsində olduğu vurğulanır.

Natiq yalnız informasiya ötürmür, o həm də "dəyər ötürür". Əgər natiq nitq etiketlərindən düzgün istifadə edirsə, o, auditoriyanı "yaxşı" şkalasına yerləşdirmiş olur və bu da auditoriyanın ona olan rəğbətini (emosional qiymətləndirməsini) artırır.

Avropa və Azərbaycan nitq etiketlərində qiymətləndirmə kateqoriyasının müqayisəsi olduqca maraqlıdır. Çünki hər dil öz xalqının dəyərlər sistemini (aksiologiyasını) əks etdirir. Gəlin, bu fərqlərə bir neçə prizmadan baxaq: Avropa (xüsusən ingilis və alman) etiketlərində qiymətləndirmə daha çox fərdin nailiyyətinə və şəxsi sərhədlərinə yönəlir. Azərbaycan etiketində isə qiymətləndirmə çox vaxt ailə, nəsil və qarşılıqlı bağlılıq üzərində qurulur. Məsələn, ***Avropa:*** "Sən bu layihəni mükəmməl icra etdin" (işin keyfiyyəti qiymətləndirilir). ***Azərbaycan:*** "Sən filankəsin oğlusan/qızısan, sənə bu cür uğur yaraşır" (nəsil və kök vasitəsilə qiymətləndirmə). Avropada iltifatlar daha çox insanın zövqünə, seçiminə və ya peşəkarlığına verilir. Bizdə isə qiymətləndirmə çox vaxt daha emosional və daxili xüsusiyyətlərə (mərdlik, bəxt, nuranilik) fokuslanır. Məsələn, ***Avropa:*** "Bu rəng seçimi sizə çox yaraşır" (zövqün qiymətləndirilməsi). ***Azərbaycan:*** "Üzünüzdən nur yağır" (insanın daxili aləminin zahiri təzahürü).

Qərb mədəniyyətində qarşı tərəfi narahat etməmək ən yüksək mədəniyyət sayılır. Bizdə isə qarşı tərəfə həddindən artıq diqqət göstərmək (israr etmək) hörmət əlamətidir. Məsələn, ingilis dilində bir şeyi təklif edib "yox" cavabı aldıqda, bu "yox" qəti bir seçim kimi hörmətlə qarşılanır. Bizdə isə süfrə etiketində "yox" deyən qonağa yenidən təklif etmək (israr), ona verilən dəyərin göstəricisidir. Burada "israr" etiketi müsbət qiymətləndirmə aktıdır. İngilis dilində "Thank you" (Təşəkkür edirəm) hər vəziyyət üçün standartdır

NƏTİCƏ: Qiymətləndirmə kateqoriyası fəlsəfə və məntiqdə olduğu kimi, dilçilikdə də mühüm tədqiqat obyektidir. Bu maraq onunla bağlıdır ki, qiymətləndirmə insanın idrak fəaliyyətinin ayrılmaz hissəsidir, insanın psixoloji və fiziki təbiəti ilə əlaqədardır. O, insanın düşüncəsi, hissləri və ətraf aləmə münasibəti ilə formalaşır və digər insanlara, obyektlərə, hadisələrə münasibəti əks etdirir. Qiymətləndirmənin mahiyyətini müəyyən etmək çətindir, çünki o, insanın daxili dünyasını əks etdirir. Bu səbəbdən qiymətləndirmə dilin bütün sahələrinə yayılmış semantik universal kateqoriya hesab olunur.

Bir çox dilçilər qiymətləndirməni müstəqil dil kateqoriyası kimi qəbul etsələr də, onun strukturu, növləri və digər kateqoriyalarla (məsələn, modallıq, emosionallıq, ekspressivlik) əlaqəsi tam aydınlaşdırılmamışdır. Qiymətləndirmə yalnız məntiqi "yaxşı-pis" çərçivəsində məhdudlaşmır, o, danışanın münasibətini ifadə edən daha geniş dil hadisələrini əhatə edir. Dilçilərin tərifləri ümumiləşdirsək, qiymətləndirmə dil vahidlərində təmsil olunur və dil faktı hesab edilir, buna görə də onun fəaliyyət sahəsi nitqdir.

İstifadə edilmiş ədəbiyyat

1. Волф Е.М. Функциональная семантика оценки, 1985, 246 с.
2. Котюрова М.П. О некторых особенностях смысловой структуры теоретического

текста. Перм: Изд-во Перм. ун-та, 1996. С. 235-262.
3. Котюрова М.П., Баженова Е.А. Культура научной речи. Наука, 2018, 280 с
4. Ивин А.А. Основания логики оценок. Изд-во Моск. ун-та, 1970, 230 с.
5. Ильина Н.В. Структура и функционирование оценочных конструкций в современном английском языке. М.,1984, 200 с.
6. Ильина Н.В. Структура и семантика оценочных конструкций. М., 1982, 84 с.

Манафлы Ханымана Фатали кызы
Бакинский Государственный Университет, Филологический факультет
Кафедра азербайджанского языкознания, доцент
xanimmanafli8@gmail.com
ORCID ID: 0009-0004-4261-3486

Понятие категории оценки в лингвистике

Резюме

Оценка – это не просто называние объекта, а определение степени его значимости для нас. Она всегда связана с потребностями и ценностями человека. Если нечто помогает человеку достичь своей цели, оно считается «хорошим». Человек не просто воспринимает мир, но и пропускает его через своеобразный «фильтр». Это помогает нам принимать решения и выбирать жизненный путь. Фактически человек познаёт окружающий мир посредством оценки. Она основывается на системе общечеловеческих ценностей, взаимосвязи истины и лжи, добра и зла.Цель оценки – сформировать у слушателя определённое мнение. Например, в рекламе или политических выступлениях категория оценки является одним из самых мощных средств манипуляции. Это актуальная и широкая тема. В сфере рекламы и политики категория оценки не просто передаёт информацию, а заново конструирует реальность. Манипуляция в этих сферах строится на управлении эмоциями и решениями аудитории путём пропускания объективных фактов через фильтр субъективной оценки.

Категория оценки является важным объектом исследования не только в философии и логике, но и в лингвистике. Такой интерес связан с тем, что оценка представляет собой неотъемлемую часть познавательной деятельности человека и связана с его психологической и физической природой. Хотя многие лингвисты рассматривают оценку как самостоятельную языковую категорию, её структура, виды и связь с другими категориями (например, модальностью, эмоциональностью, экспрессивностью) ещё не полностью изучены. Оценка не ограничивается лишь логической оппозицией «хорошо — плохо», а охватывает более широкий круг языковых явлений, выражающих отношение говорящего.Обобщая определения лингвистов, можно сказать, что оценка представлена в языковых единицах и считается языковым фактом, поэтому сферой её функционирования является речь.

Ключевые слова: аксиологическая семантика, предикат оценки, шкала оценки, коннотативное значение, лингвопрагматика, речевые акты, субъективная модальность, рациональная оценка.

Khanimana F. Manafli
Baku State University, Faculty of Philology
Department of Azerbaijani Linguistics, Associate Professor
xanimmanafli8@gmail.com
ORCID ID: 0009-0004-4261-3486

The Concept of the Category of Evaluation in Linguistics

Summary

Evaluation categories increase objectivity, facilitate comparison, accelerate decision-making, and ensure the systematization of results. Evaluation is not merely naming an object; it is determining the degree of its significance for us. It is always connected with human needs and values. If something helps a person achieve their goal, it is considered "good." A person does not simply perceive the world but also passes it through a kind of "filter." This helps us make decisions and choose our path in life. In fact, a person perceives the surrounding world through evaluation. It is based on the system of universal human values and on the relationship between truth and falsehood, good and evil.

The purpose of evaluation is to form a certain opinion in the listener. For example, in advertising or political speeches, the category of evaluation is one of the most powerful tools of manipulation. This is a relevant and broad topic. In the fields of advertising and politics, the category of evaluation does not merely convey information; it reconstructs reality. Manipulation in these areas is based on controlling the emotions and decisions of the audience by filtering objective facts through the prism of subjective evaluation. The category of evaluation is an important object of study not only in philosophy and logic but also in linguistics. This interest is related to the fact that evaluation is an integral part of human cognitive activity and is connected with the psychological and physical nature of human beings. Although many linguists regard evaluation as an independent linguistic category, its structure, types, and relationship with other categories (such as modality, emotionality, and expressiveness) have not yet been fully clarified. Evaluation is not limited to the logical framework of "good-bad"; it encompasses a broader range of linguistic phenomena expressing the speaker's attitude.

Keywords: axiological semantics, evaluative predicate, evaluation scale, connotative meaning, linguopragmatics, speech acts, subjective modality, rational evaluation.

Rəyçi:prof. T.M.Hacıyev

DOI: 10.24412/2218-7588-2026-2-108-111

Aynur Osman qızı Həsənova
Bakı Dövlət Universitetinin doktorantı
aynur.osmanovna@gmail.com
ORCİD İD: 0009-0006-1666-5631

ƏDƏBİ DİL VƏ ÜMUMXALQ DANIŞIQ DİLİ: QARŞILIQLI TƏSİR VƏ İNKİŞAF MEYİLLƏRİ

XÜLASƏ: Dil bir millətin mədəniyyətini, tarixini və mənəvi dəyərlərini qoruyan əsas vasitədir, xalqın mənəvi sərvətidir. Onu qorumaq və inkişaf etdirmək isə hər bir vətəndaşın borcudur.

Ədəbi dil cəmiyyətin bütün üzvləri üçün ümumi, vahid ünsiyyət vasitəsi funksiyasını daşıyır, normativ qaydalarla tənzimlənir. Ümumxalq danışıq dili isə xalqın canlı ünsiyyət mühitini əhatə edir, gündəlik həyatda işlənən, dialekt və şivələrin əsasında formalaşaraq qurulur. Bu iki dil forması daim qarşılıqlı təsirdə olmuş, bir-birini zənginləşdirərək ana dilimizin formalaşmasına, eyni zamanda inkişafına mühüm töhfə və təkan vermişdir.

Dil və ünsiyyət formalarının qarşılıqlı münasibəti yalnız linqvistik baxımdan deyil, həm də sosial-mədəni müstəvidə mühüm əhəmiyyət kəsb edir. Ədəbi dil milli ideologiyanın, ictimai şüurun və mədəni irsin qorunması vasitəsi kimi çıxış edir. O, xalqın tarixən yaratdığı bədii, elmi və publisistik irsi sistemləşdirir, gələcək nəsillərə ötürür. Ümumxalq danışıq dili isə gündəlik həyatda ünsiyyətin əsas aləti olmaqla yanaşı, dilin canlı inkişafını təmin edən zəngin bir mənbədir.

Müasir mərhələdə bu iki dil forması arasındakı tarazlıq daha böyük aktuallıq kəsb edir. Qloballaşma, kütləvi informasiya vasitələrinin təsiri və yeni kommunikasiya texnologiyaları danışıq dilinə müxtəlif dəyişikliklər gətirsə də, ədəbi dilin normativ bazasının gücləndirilməsi və xalq danışığından gələn elementlərin sistemli şəkildə mənimsənilməsi Azərbaycan dilinin davamlı inkişafı üçün mühüm şərtdir.

Açar sözlər: dil, ədəbi dil, ümumxalq dili, ünsiyyət, danışıq.

GİRİŞ: Dili yaradan xalqdır. Elə buna görə də dilin taleyi onu yaradan xalqın taleyi ilə bağlı olur. Hər bir xalq ünsiyyət üçün öz dilini yaratdıqdan sonra onu tarix boyu qoruyur və inkişaf etdirir. Azərbaycan xalqı da hələ uzaq keçmişdə öz ana dilini yaratmışdır. Xalqımızın yaratdığı həmin dilə hazırda Azərbaycan dili deyilir. Azərbaycan dili Azərbaycan xalqının milli dilidir. Eyni zamanda, bu dil Azərbaycan Respublikasının rəsmi dövlət dilidir.

ƏSAS HİSSƏ: Müasir Azərbaycan dili əlli milyona qədər azərbaycanlının ana dilidir – Azərbaycan Respublikasında, İranda, Türkiyədə, İraqda, Gürcüstanda, Dağıstanda... bu dildə danışırlar, yazırlar, oxuyurlar. Həmin ölkələrdə Azərbaycan dilində – Azərbaycan türkcəsində radio, televiziya verilişləri yayılır, mətbuat nəşr edilir, əksəriyyətində məktəblər fəaliyyət göstərir [N.Cəfərov: 2011, s. 346].

Azərbaycan dili öz mahiyyətinə görə indi dünyanın ən zəngin milli dillərindən biri sayılır. Bu dilin özünəməxsus gözəlliyi və ahəngi vardır. Azərbaycan dili, hər şeydən əvvəl, xoş avaz yaradan səslər sisteminə, zəngin və rəngarəng söz ehtiyatına, tam sabitləşmiş qrammatik quruluşa malikdir.

Ağamusa Axundov dil və nitq mədəniyyəti məsələlərinə "Dil və mədəniyyət" (1992) əsərində geniş yer vermişdir. Əsərin girişində müəllif ədəbi dil haqqında mövcud mülahizələri ümumiləşdirərək yazır ki, ədəbi dil müəyyən normaya salınmış dildir və onun əsasında daha çox ümumxalq dili dayanır.

Nizami Xudiyevin sözlərinə görə, Azərbaycan ədəbi dili Azərbaycan ümumxalq dili əsasında və kifayət qədər mürəkkəb etnolinqvistik proseslərin nəticəsi kimi təşəkkül tapmışdır [N.Xudiyev: 2012, s. 6].

Ə.Dəmirçizadə yazır ki: "Azərbaycan dilinin inkişafı tarixində XIX əsrə qədərki dövrdə Azərbaycan dilinin fonetik sistemində, qrammatik vahidlərində xüsusən dəqiqləşmə, təkmilləşmə istiqamətində azacıq dəyişiklik olmuşdur, həm də belə dəyişmələr Azərbaycan dilinin milli dil kimi vahidləşməsi mahiyyətli əlamətlər olaraq məhz bu dövrün sonunda, daha doğrusu, XVIII əsrdə həm canlı danışıqda, həm də ədəbi dildə ümumiləşib sabitləşmişdir" [Ə.Dəmirçizadə: 1979, s. 259].

Azərbaycan dilinin inkişafı tarixində XIX əsrə qədərki dövrdə Azərbaycan dilinin fonetik sistemində, qrammatik vahidlərində xüsusən dəqiqləşmə, təkmilləşmə istiqamətində azacıq dəyişiklik olmuşdur, həm də belə dəyişmələr Azərbaycan dilinin milli dil kimi vahidləşməsi mahiyyətli əlamətlər olaraq məhz bu dövrün sonunda, daha doğrusu, XVIII əsrdə həm canlı danışıqda, həm də ədəbi dildə ümumiləşib sabitləşmişdir".

Azərbaycan dilinin tarixi inkişafında həm ədəbi dil, həm də ümumxalq danışıq dili mühüm rol oynamışdır. Ədəbi dil mədəni və tarixi hadisə kimi cəmiyyətin mədəni tələbatı və ictimai zərurət əsasında formalaşaraq ilkin mərhələdə şifahi şəkildə meydana çıxmışdır.

Hər bir xalq və ya millətin bütün üzvləri ümumxalq dilindən eyni şəkildə, eyni qaydada istifadə edə bilmirlər. Məsələn, ziyalılar, xüsusən alim və yazıçılar dildən daha məharətlə istifadə etməyə meyil göstərirlər. Onlar ümumxalq dilinin söz və ifadələrini, qayda-qanunlarını daha da cilalayır və daha mükəmməl şəklə salırlar. Lakin cəmiyyətin başqa zümrəsi isə dildən, bir növ, xam şəkildə istifadə edir. [A.Qurbanov: 2019, s. 20].

Bir sıra tədqiqatçılar (xüsusilə qeyri-linqvistlər – tarixçilər) Azərbaycan dilinin XI-XII əsrlərdə formalaşdığını deyərkən, hiss olunur ki, ədəbi dildən bəhs edirlər – burada yanlışlıqla yanaşı, qanunauyğunluq da mövcuddur: Azərbaycan ümumxalq dili ədəbi dilin təşəkkülü ərəfəsində formalaşır və ədəbi dilin təşəkkülü ilə o (ümumxalq dili) təkmilləşir, cilalanır və elə bir səviyyəyə çatır ki, artıq ədəbi dildən az fərqlənir. Xalq arasından çıxan ozanlar, el şairləri, müdriklər öz "söz"lərini deyirlər və nəticədə qədimdən gələn ənənə ilə zəngin el ədəbiyyatı yaranmaqda (ümumxalq dilini ədəbi səviyyəyə qaldırmaqda) davam edir. Bununla belə, bütün dövrlərdə – istər ədəbi dilin ilk təşəkkül dövründə

(III-V əsrlərdən XIXIII əsrlərə qədər), istərsə də sonrakı dövrlərdə ədəbi dilin ortodoksal (nümunəvi. vaxud klassik) forması ilə ümumxalq dili arasında özünəməxsus (tarixən dəyişən) fərqlər mövcuddur. [N.Xudiyev: 2012, s. 101].

Azərbaycan ədəbi dili ümumxalq dili zəminində təşəkkül tapmış, onun dil materialları və ifadə vasitələrinə əsaslanaraq formalaşma prosesinə başlamışdır. Bu prosesdə ümumxalq dilinin yalnız müəyyən hissəsi deyil, bütövlükdə onun fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşu nəzərə alınmış, dil vahidlərinin seçmə prinsipi əsasında ədəbi dilin normaları müəyyənləşdirilmişdir.

Ədəbi dilin şifahi və yazılı qolu eyni mənbədən qidalanır, eyni normativlər əsasında fəaliyyət göstərir. Teatrın, kino və televiziyanın təşəkkülündə dil mühüm rol oynadığı kimi səhnə və ekran nitqi də ədəbi dilin müasirləşdirilməsinə və normativləşdirilməsinə, onun ümumxalq səviyyəsinə çatdırılmasına kütlələrin nitq mədəniyyətinin yüksəldilməsinə öz töhfəsini verir. [N.Quliyev: 2012, s. 16].

Ədəbi dilin təşəkkülündə seçmə əməliyyatı təqribən aşağıdakı istiqamətlərdə aparılmışdır:

1. Ümumxalq dilinin fonemlərindən və fonetik qanunauyğunluqlarından daha ümumi və səciyyəvi olanları qəbul edilmişdir;

2. Leksik fondan bütün təbəqələr üçün aydın və ümumi məna daşıyan, eyni zamanda mədəni xarakterli sözlər seçilmişdir;

3. Qrammatik quruluşda isə müxtəlif variantlı şəkilçilər və müxtəlif qrammatik formalar arasından daha ümumiləşmiş olanları seçilib norma kimi qəbul olunmuşdur.

Bununla yanaşı, ədəbi dilin formalaşmasında ümumxalq dili dialektlərinin də əhəmiyyətli rolu olmuşdur. Ədəbi dillərin yaranma prosesi adətən ümumxalq dilinin müəyyən dialekt bazası üzərində gedir. Müasir Azərbaycan ədəbi dili isə müxtəlif dialektlərin müsbət xüsusiyyətlərini özündə birləşdirərək bütövlükdə onlardan fərqlənən müstəqil dil sistemi kimi formalaşmışdır.

Ədəbi dil – normativ qaydalarla formalaşan, yazılı və şifahi ünsiyyətdə istifadə olunan dil formasıdır. Onun başlıca xüsusiyyətləri aşağıdakılardır:

- Normativlik – dilin qrammatik, leksik və fonetik normalara tabe olması;
- Ümumilik – müxtəlif bölgələrdən olan insanların anlaşmasını təmin etməsi;
- Funksionallıq – elm, mətbuat, dövlət idarəçiliyi, təhsil və ədəbiyyat kimi sahələrdə tətbiqi.

Azərbaycan ədəbi dilinin tarixi çoxəsrlikdir, XIII əsrdən etibarən formalaşmağa başlamışdır. Nizami Gəncəvi, Xaqani Şirvani, Füzuli, Molla Pənah Vaqif kimi klassiklərin yaradıcılığı ədəbi dilin bədii gücünü nümayiş etdirmişdir. XIX əsrdə Mirzə Fətəli Axundzadənin islahatçı fikirləri, Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti, XX əsrdə Cəlil Məmmədquluzadənin demokratikləşdirici yanaşmaları ədəbi dilin inkişafına təsir göstərmiş, ədəbi dilin danışıq dilinə yaxınlaşması yolunda mühüm mərhələ olmuşdur.

M.Cahangirovun qeyd edir ki, "Əkinçi" ümumxalq dilində nəşr edildiyi üçün ana dilinin saflığını qorumaq, başa düşümlülük keyfiyyətini artırmaq, xalq kütlələrinin ondan geniş istifadə səviyyəsini yüksəltmək, ümumxalq dilini ümumədəbi dil məqamına qaldırmaq uğrunda mübarizə zərurəti H.Zərdabini dilçilik məsələlərinə də toxunmağa sövq etmişdi. H.Zərdabi həmkarlarını "boş ibarəçilik"dən, təmtəraqlılıqdan çəkindirməyə çalışmış, ana dilini elmi dil səviyyəsinə yüksəltməyə cəhd etmişdir. [M.Cahangirov: 1978, s. 184-185].

Müstəqillik dövründə isə dövlət səviyyəsində qəbul edilən normativ sənədlər (orfoqrafiya qaydaları, müxtəlif istiqamətli lüğətlər, dil komissiyalarının fəaliyyəti və s.) ədəbi dilin möhkəmlənməsini təmin etmişdir.

Ümumxalq danışıq dili ədəbi dildən fərqli olaraq xalqın təbii ünsiyyət formasıdır. Dialekt və şivələrin zənginliyi bu dil qatının əsas xüsusiyyətidir. Digər əlamətləri isə aşağıdakılardır:

- Emosional və ifadəli üslub;
- Normativlikdən daha çox praktik istifadəyə üstünlük;
- Dilin təbii inkişafını təmin edən çeviklik.

Danışıq dili ədəbi dilin söz ehtiyatını zənginləşdirir, yeni ifadələrin formalaşmasına şərait yaradır. Bir çox dialekt sözləri və ifadələr zamanla ədəbi dilin aktiv leksikasına daxil olur. Bu, danışıq dilinin dil inkişafında oynadığı yaradıcı rolu nümayiş etdirir.

Bölgələrdə işlənən bəzi dialekt sözləri ("çörəkotu", "yüyürmək", "qıyıq" və s.) müəyyən dövrdən sonra ədəbi dilin aktiv leksikasına daxil olur. Bu proses xalq danışığının dil inkişafında oynadığı mühüm rolu göstərir.

Ədəbi dil və danışıq dili əslində bir-birindən ayrılmaz bir bütövdür, onlar arasında qarşılıqlı təsir daim müşahidə olunur. Ədəbi dil danışıq dilindən yeni söz və ifadələr götürərək onları normativləşdirir. Digər tərəfdən, danışıq dili ədəbi dilin təsiri ilə zənginləşir və daha mədəni istiqamət alır.

Ümumxalq dilinin güclü "təzyiqi" ilə ədəbi dildə nəinki milli dil vahidlərinin sıxlığı artır, eyni zamanda, bir sıra alınma sözlərin fonetik və fonoqrafik milliləşmə prosesi gedir: "zülüm//zulum", "lala", "qara" kimi yazı formaları meydana çıxır [M.Cahangirov: 1989, s. 105-106].

Kütləvi informasiya vasitələrinin, radio və televiziya verilişlərinin, eyni zamanda kitabların, kino və teatrın təsiri danışıq dilini ədəbi normaya yaxınlaşdırır. Eyni zamanda, təhsil sistemi uşaqlara və gənclərə ədəbi dil qaydalarını öyrədərək, danışıq dili ilə ədəbi dilin inteqrasiyasını təmin edir. Bu proses həm dilin inkişafına, həm də milli birliyin möhkəmlənməsinə xidmət edir, ədəbi dilin ümumxalq dilinə çevrilmə prosesini sürətləndirir və onun mövqeyini möhkəmləndirir.

Qloballaşma və informasiya texnologiyalarının inkişafı fonunda ədəbi dil və danışıq dili münasibətlərində yeni meyillər müşahidə olunur:

1. Media təsiri – sosial şəbəkələrdə, elektron mətbuatda danışıq üslubu ilə yazılı üslub arasındakı sərhədlərin zəifləməsi, yazılı üslubun danışıq üslubuna yaxınlaşması;
2. Təhsil amili – məktəb və ali təhsil müəssisələrində ədəbi dil normalarının öyrədilməsi, daha geniş auditoriyaya çatdırılması;
3. Dialektlər amili – bölgələrdə danışıq formalarının araşdırılması və dialektlərin ədəbi dilə uyğunlaşdırılması;
4. Normativ sənədlər – Orfoqrafiya qaydalarının tətbiqi, lüğətlərin çapı, geniş istifadəsi və müvafiq sahə üzrə sənədlərin dilin möhkəmlənməsində rolu;
5. İnformasiya texnologiyaları – yeni terminlərin yaranması və onların ədəbi dilə inteqrasiyası.

Ədəbi dil və ümumxalq danışıq dili Azərbaycan dilinin inkişafında qarşılıqlı təsir göstərən iki əsas istiqamətdir, dilin ayrılmaz tərkib hissələridir.

Ədəbi dilin dayanıqlı inkişafı üçün danışıq dilinin təbii axarı qorunmalı, lakin normativ qaydaların möhkəmləndirilməsi əsas prioritetlərdən biri kimi saxlanmalıdır. Dövlət siyasəti, təhsil və elmi tədqiqatlar bu prosesi dəstəkləməlidir.

Müasir dövrdə ədəbi dil ilə danışıq dilinin xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi, onların fərqli cəhətlərinin üzə çıxarılması və qarşılıqlı əlaqələrinin elmi şəkildə izahı dilçilik elminin qarşısında duran mühüm vəzifələrdən biri hesab olunur.

Hər bir mədəni xalqın qarşısında ana dilinə münasibətdə biri digəri ilə bağlı olan iki tarixi vəzifə dayanır; bunlardan biri ana dilini qorumaq, ikincisi isə onu müasir tələblərə uyğun olaraq inkişaf etdirməkdir [N.Cəfərov: 2011, s. 347].

NƏTİCƏ: Beləliklə, ədəbi dil ilə danışıq dilinin qarşılıqlı təsirinin elmi əsaslarla araşdırılması dilin normativ inkişafı, eyni zamanda təbii axarının qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə aparılacaq yeni tədqiqatlar qloballaşma və informasiya cəmiyyətinin təsirləri fonunda baş verən dil dəyişikliklərinin dərindən öyrənilməsinə imkan verəcəkdir. Azərbaycan dilinin ədəbi və danışıq formalarının qarşılıqlı əlaqəsi isə təkcə dilçilik elmi üçün deyil, həm də milli kimliyin və mədəni irsin qorunması üçün strateji dəyərə malikdir.

İstifadə edilmiş ədəbiyyat

1. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili, I cild. İstanbul: Imak, 2019
2. Dəmircizadə Ə.M. Azərbaycan ədəbi dili tarixi, I hissə. Bakı, 1979
3. Cahangirov M. Azərbaycan milli ədəbi dilinin təşəkkülü. Bakı: Elm, 1978
4. Cahangirov M.. Milli təşəkkül mərhələsində Azərbaycan ədəbi dilinin aparıcı üslubları. Bakı: Elm, 1989
5. Nizami Cəfərov. Secilmis əsərləri, I cild. Bakı, 2011.
6. Nizami Xudiyev. Secilmis əsərləri, I cild. Azərbaycan ədəbi dili tarixi. Bakı, 2012.
7. Nizami Xudiyev. Secilmis əsərləri, I cild. Azərbaycan ədəbi dili tarixi. Bakı, 2012.
8. Nofəl Şahlar oğlu Quliyev. Nitq mədəniyyəti və ədəbi dilin normaları. Bakı, 2012.

Айнур Осман гызы Гасанова
Докторант Бакинского государственного университета
aynur.osmanovna@gmail.com
ORCİD İD: 0009-0006-1666-5631

Литературный язык и общенародная разговорная речь: взаимное влияние и тенденции развития

Резюме

Язык является основным средством сохранения культуры, истории и духовных ценностей нации, духовным богатством народа. Его защита и развитие – обязанность каждого гражданина. Особую роль в развитии азербайджанского языка сыграли как литературный язык, так и общенародная разговорная речь. Литературный язык выступает общим, единым средством общения для всех членов общества и регулируется нормативными правилами. Общенародная разговорная речь охватывает живую среду общения народа, формируется на основе диалектов и говоров и используется в повседневной жизни. Эти две формы языка всегда находились во взаимном взаимодействии, обогащая друг друга и внося значительный вклад в формирование и развитие родного языка. Взаимоотношение языка и форм общения имеет важное значение не только в лингвистическом, но и в социально-культурном плане. Литературный язык выполняет функцию сохранения национальной идеологии, общественного сознания и культурного наследия. Он систематизирует художественное, научное и публицистическое наследие, созданное народом на протяжении истории, и передает его будущим поколениям. Общенародная разговорная речь, в свою очередь, является не только основным инструментом повседневного общения, но и богатым источником, обеспечивающим живое развитие языка. На современном этапе поддержание баланса между этими двумя формами языка приобретает еще большую актуальность. Несмотря на то, что глобализация, влияние средств массовой информации и новые коммуникационные технологии вносят различные изменения в разговорную речь, укрепление нормативной базы литературного языка и системное освоение элементов народной речи остаются важнейшими условиями устойчивого развития азербайджанского языка.

Ключевые слова: язык, литературный язык, общенародная речь, общение, разговорная речь.

Aynur Osman gizi Hasanova
PhD Student at Baku State University
aynur.osmanovna@gmail.com
ORCİD İD: 0009-0006-1666-5631

The literary language and the national spoken language: mutual ınfluence and development trends

Summary

Language is the main means of preserving a nation's culture, history, and spiritual values; it is the spiritual wealth of the people. Protecting and developing it is the duty of every citizen. Both the literary language and the national spoken language have played a special role in the development of the Azerbaijani language. The literary language serves as a common, unified means of communication for all members of society and is regulated by normative rules. The national spoken language, on the other hand, encompasses the living communication environment of the people, formed on the basis of dialects and accents, and used in everyday life. These two forms of the language have always interacted, enriching each other and contributing significantly to the formation and development of the mother tongue. The relationship between language and forms of communication is important not only from a linguistic perspective but also from a socio-cultural dimension. The literary language functions as a means of preserving national ideology, social consciousness, and cultural heritage. It systematizes the artistic, scientific, and journalistic heritage created by the people throughout history and transmits it to future generations. The national spoken language, meanwhile, is not only the main tool of everyday communication but also a rich source that ensures the living development of the language. At the present stage, maintaining the balance between these two forms of the language has gained even greater importance. Although globalization, the influence of mass media, and new communication technologies bring various changes to spoken language, strengthening the normative basis of the literary language and systematically adopting elements from the spoken language remain crucial conditions for the sustainable development of the Azerbaijani language.

Keywords: language, literary language, national spoken language, communication, speech.

Rəyçi: akad. Nizami Cəfərov

DOI: 10.24412/2218-7588-2026-2-112-115

Könül Arzu qızı Tağıyeva
Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan, Gəncə
e-mail: tagiyeva.konul87@gmail.com
ORCID İD https://orcid.org/0000-0001-7909-246X

AZƏRBAYCAN DİLİNDƏ ERQONİMLƏRİN ORFOQRAFİYASI: NORMATİV YANAŞMA VƏ YAZI PRAKTİKASI

XÜLASƏ: Məqalədə müasir Azərbaycan dilində erqonimlərin orfoqrafiyası məsələlərindən bəhs olunur. Erqonimlərin dinamik xarakter daşıması, yeni obyekt və təşkilat adlarının yaranması, habelə sosial-iqtisadi dəyişikliklər onların yazılışında vahid prinsiplərin tətbiqini aktuallaşdırır. Tədqiqatda "Azərbaycan dilinin Orfoqrafiya Normaları" əsasında dövlət orqanlarının, bir sıra digər müəssisə və təşkilatların adlarının yazılış xüsusiyyətləri təhlil edilmiş, normativ qaydalar müasir yazı təcrübəsi ilə müqayisə olunmuşdur. Eyni zamanda, dırnaq işarəsinin işlədilməsi, təşkilati-hüquqi formaları bildirən abreviaturların yazılışı, müşayiətedici sözlərin funksiyası və erqonimlərin strukturunda tutduğu yer nəzərdən keçirilmişdir. Müxtəlif elmi yanaşmalar müqayisə edilmiş, müşayiətedici sözün erqonimin əsas komponenti deyil, xüsusi adı tamamlayan element olduğu əsaslandırılmışdır. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, mövcud normativ baza erqonimlərin yazılışını ümumilikdə tənzimləsə də, yeni yaranan ad modelləri və praktik yazıda müşahidə olunan müxtəliflik bəzi qaydaların dəqiqləşdirilməsini zəruri edir. Bu baxımdan erqonimlərin orfoqrafiyasının sistemli şəkildə öyrənilməsi və normativ prinsiplərin müasir nominasiya proseslərinə uyğunlaşdırılması Azərbaycan onomastikasının aktual istiqamətlərindən biri kimi qiymətləndirilir.Tədqiqatın nəticələri göstərir ki, dil praktikasında rast gəlinən qeyri-müəyyənliklərin aradan qaldırılması və vahid orfoqrafik standartın formalaşdırılması üçün normativ aktlarda dəqiqləşdirmələr edilməsi, habelə erqonimlərin yazılışına dair vahid elektron baza və ya lüğət tərtib olunması zərurəti vardır.

Açar sözlər: erqonim, orfoqrafiya, onomastika, nominasiya, norma

GİRİŞ: Erqonimlər müasir onomastik sistemin ən dinamik vahidlərindən biridir. Cəmiyyətin sosial-iqtisadi inkişafı, yeni müəssisə və təşkilatların yaranması, xidmət sahələrinin genişlənməsi erqonim fondunun davamlı şəkildə zənginləşməsinə səbəb olur. Bu proses yalnız yeni adların meydana çıxması ilə məhdudlaşmır, həm də həmin adların yazılışında vahid prinsiplərin formalaşdırılmasını zəruri edir.

Erqonimlərin orfoqrafiyası xüsusi adların yazılışı ilə bağlı ümumi normaların tərkib hissəsini təşkil etsə də, bu sahədə hələ də mübahisəli məqamlar qalmaqdadır. Xüsusilə çoxkomponentli adlarda böyük hərfin işlədilməsi, dırnaq işarəsinin tətbiqi, müşayiətedici sözlərin yazılışı və müxtəlif struktur modellərinin orfoqrafik tənzimlənməsi praktikada fərqli yanaşmaların yaranmasına səbəb olur. Nəticədə eyni obyekt adı müxtəlif mənbələrdə və kütləvi informasiya vasitələrində fərqli formalarda təqdim edilir.

Erqonimlərin digər xüsusi adlardan fərqli olaraq yüksək dəyişkənliyə malik olması bu problemi daha da aktuallaşdırır. Müəssisələrin fəaliyyət istiqamətinin dəyişməsi, yenidən təşkili, birləşdirilməsi və ya ləğvi ilə əlaqədar erqonimik sistem daim yenilənir. Buna görə də erqonimlərin orfoqrafiyası yalnız dil normasının deyil, həm də sosial dəyişikliklərin təsiri altında formalaşan dinamik bir sahə kimi qiymətləndirilməlidir.

Bu məqalədə Azərbaycan dilində erqonimlərin orfoqrafiyası, mövcud normativ tələblər və müasir yazı təcrübəsində müşahidə olunan ziddiyyətlər təhlil edilir. Qeyd etmək lazımdır ki, məqalədə erqonimlərin bütün növləri deyil, böyük hərfin və dırnaq işarəsinin işlədilməsi baxımından daha səciyyəvi olan erqonim qrupları araşdırılmışdır. Bu səbəbdən təqdim edilən nümunələr Azərbaycan erqonimiyasının bütün struktur müxtəlifliyini deyil, tədqiqatın məqsədinə uyğun seçilmiş reprezentativ materialı əks etdirir.

ƏSAS HİSSƏ: ***Erqonimiyada orfoqrafiya məsələləri.***Erqonimlərin orfoqrafiyası ilə bağlı əsas məsələlərdən biri çoxkomponentli adlarda böyük hərfin hansı komponentlərdə işlədilməsinin müəyyənləşdirilməsidir. Təkkomponentli xüsusi adlarda bu problem, demək olar ki, yaranmır. Çətinlik, əsasən, müxtəlif struktur elementlərindən ibarət mürəkkəb adların yazılışında meydana çıxır.

Erqonimlərin strukturunda həm xüsusi isimlər, həm də köməkçi sözlər iştirak etdiyindən bütün komponentlərin eyni prinsip üzrə yazılması həmişə mümkün olmur. Buna görə də müxtəlif müəlliflər və tədqiqatçılar bu məsələyə fərqli yanaşırlar. Bəzi tədqiqatlarda hüquqi status bildirən sözlər adın tərkib hissəsi hesab edilir, digərlərində isə yalnız fərqləndirici komponent xüsusi ad kimi qiymətləndirilir. Bu fərqlər praktik yazıda da özünü göstərir.

Erqonimlərin qeyri-sabit xarakteri də orfoqrafik vahidliyin təmin edilməsini çətinləşdirən amillərdəndir. Onlar ictimai, siyasi və iqtisadi dəyişikliklərə operativ reaksiya verdiyi üçün zaman keçdikcə həm adların tərkibi, həm də onların yazılış xüsusiyyətləri dəyişə bilir.

Erqonimlərin böyük bir hissəsini dövlət idarələrinin, nazirliklərin, komitələrin və digər rəsmi qurumların adları təşkil edir. Bu tip adlar yalnız nominativ funksiyanı yerinə yetirmir, eyni zamanda, obyektin hüquqi statusunu və inzibati mənsubiyyətini də ifadə edir. Buna görə də onların yazılışında vahid normanın qorunması xüsusi əhəmiyyət daşıyır.

Dil normalarının yenilənməsi də erqonimlərin yazılışına birbaşa təsir göstərir. Orfoqrafiya qaydalarında aparılan dəyişikliklər xüsusi adların yazılış prinsiplərinin də dəqiqləşdirilməsini zəruri edir. Bu baxımdan 2019-cu ildə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları" erqonimlərin yazılışının normativ əsasını təşkil edir.

Normativ sənədin 8.6. bəndində qeyd olunur: *"8.6. Yüksək dövlət vəzifələri (Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan Respublikası Milli Məclisinin Sədri), nazirlik, komitə, birlik, cəmiyyət, qurum, akademiya, universitet, texnikum, teatr, filarmoniya, siyasi partiya, eləcə də tarixi günlərin və s. mürəkkəb adların tərkibindəki bütün sözlərin (adına, üzrə, yanında, qarşı kimi yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır..."* [1, s. 10].

Bu norma göstərir ki, rəsmi idarə, təşkilat və müəssisələrin adlarında yardımçı sözlər istisna olmaqla bütün komponentlər böyük hərflə yazılmalıdır. Beləliklə, çoxkomponentli rəsmi erqonimlərin yazılışında vahid prinsip müəyyənləşdirilmiş olur. Bu prinsip dövlət idarələrinin adlarının yazılışında ardıcıl şəkildə tətbiq edilir. Məsələn: *Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və s.* Nümunələr göstərir ki, adların tərkibində yalnız "və" bağlayıcısı kiçik hərflə yazılır, digər bütün komponentlər isə xüsusi ad kompleksinin tərkib hissəsi kimi böyük hərflə verilir. Belə yazılış prinsipi mürəkkəb erqonimlərin struktur bütövlüyünü qorumağa xidmət edir.

Dövlət idarəetmə sistemində tabeli qurumların adları da analoji prinsip əsasında formalaşır. Nazirliklərin və digər mərkəzi icra hakimiyyəti orqanlarının tabeliyində fəaliyyət göstərən xidmət, agentlik və idarələrin adlarında subordinasiya münasibəti ayrıca komponent vasitəsilə ifadə olunur. Məsələn: *İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Peşə Təhsili üzrə Dövlət Agentliyi və s.* Bu tip strukturlarda "yanında", "nəzdində", "üzrə" kimi köməkçi sözlər sintaktik əlaqəni təmin etsə də, orfoqrafik baxımdan böyük hərflə yazılmır.

"Orfoqrafiya Normaları"nda muzey adlarının yazılışı ayrıca bənd kimi öz əksini tapmamışdır. Fikrimizcə, onların yazılışı da 8.6. bəndində müəyyən edilmiş prinsipə uyğun tənzimlənə bilər. Bu halda yardımçı sözlər istisna olmaqla ad kompleksinin bütün komponentlərinin böyük hərflə yazılması məqsədəuyğundur: *Miniatür Kitablar Muzeyi, Azərbaycan Xalça Muzeyi, Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi* və s.

Rəsmi erqonimlərin mühüm xüsusiyyətlərindən biri onların tərkibində hüquqi status bildirən komponentlərin işlənməsidir. Xüsusilə "Azərbaycan", "respublika" və "dövlət" sözləri bu tip adlarda yüksək işlənmə tezliyinə malikdir. Həmin komponentlər obyektin yalnız coğrafi və ya inzibati mənsubiyyətini deyil, həm də dövlət statusunu ifadə edir. Bu səbəbdən onlar erqonimin semantik strukturunda mühüm mövqeyə malikdir.

Müşahidələr göstərir ki, "Azərbaycan" komponenti, əsasən, adın əvvəlində işlənərək təşkilatın dövlət mənsubiyyətini bildirir. "Dövlət" sözü isə struktur baxımından daha sərbəstdir və həm adın əvvəlində, həm də sonrakı komponentlərdə iştirak edə bilir. Məsələn, *"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, Dövlət Sərhəd Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi* adlarında həmin komponentlərin müxtəlif mövqelərdə işlənməsi bunu aydın göstərir. Deməli, bu sözlərin yerləşmə mövqeyi dəyişsə də, onların hüquqi və identifikasiyaedici funksiyası dəyişmir.

Erqonimlərin xüsusi qrupunu təhsil və elm müəssisələrinin adları təşkil edir. Bu adların yazılışı "Orfoqrafiya Normaları"nın ayrıca bəndi ilə tənzimlənir: *"Qeyd 4. Tərkibində lisey, gimnaziya, vəqf, məktəb, fakültə, şöbə sözləri olan mürəkkəb adlarda ilk söz böyük, sonrakı sözlər kiçik hərflə yazılır..."* [1, s. 10]. Bu qayda ümumi təhsil müəssisələrinin adlarında tətbiq olunan əsas prinsip kimi qəbul edilir. Məsələn, *Avropa liseyi, Humanitar fənlər gimnaziyası, Uşaq-gənclər şahmat məktəbi, BDU-nun Filologiya fakültəsi* və s.

Son illərdə təhsil sistemində aparılan islahatlar nəticəsində yeni tip məktəb və təhsil müəssisələrinin yaranması erqonimik sistemə də təsir göstərmişdir. Ənənəvi məktəb modellərindən fərqlənən bu müəssisələrin adları daha mürəkkəb quruluşa malik olduğundan onların orfoqrafiyası da əlavə izaha ehtiyac yaradır. Məsələn, *Mingəçevir şəhər İnteqrasiya təlimli internat tipli gimnaziya, Salyan şəhər A.Səfərov adına İnteqrasiya təlimli internat tipli gimnaziya* və s. Fikrimizcə, bu tip adların yazılışı da "Orfoqrafiya Normaları"nın 8.6. bəndində (Qeyd 4) müəyyən edilmiş ümumi prinsipə uyğunlaşdırılmalıdır. Bu adda erqonimin növü "gimnaziya"dır, "inteqrasiya təlimli internat tipli" – bu hissələr keyfiyyət, xüsusiyyət, tip bildirir, yəni erqonimi daha dəqiqləşdirir, onun profilini göstərir.

Beləliklə, təhsil müəssisələrinin adlarının orfoqrafiyası göstərir ki, erqonimlərin yazılışı yalnız struktur xüsusiyyətlərindən deyil, həmin komponentlərin semantik funksiyasından da asılıdır. Bu isə normativ qaydaların tətbiqində leksik-semantik meyarların nəzərə alınmasının vacibliyini bir daha təsdiqləyir.

Erqonimlərin orfoqrafiyasında böyük hərfin işlədilməsi ilə yanaşı, dırnaq işarəsinin tətbiqi də mühüm məsələlərdən biridir. Müasir yazı təcrübəsində bu iki prinsip bir-biri ilə sıx bağlıdır. Xüsusilə hüquqi şəxs statusuna malik müəssisələrin adlarında erqonimin özü ilə təşkilati-hüquqi formasını bildirən komponentlərin yazılışı müəyyən normativ qaydalara əsaslanır.

Mövcud orfoqrafiya normalarına əsasən, xüsusi ad funksiyası daşıyan erqonim dırnaq içərisində, təşkilati-hüquqi formanı bildirən söz və ya ixtisar isə dırnaqdan kənarda yazılır. Məsələn: *"AzerGold" QSC, "Bakı Metropoliteni"QSC, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi* və s.

Belə yazılış modeli xüsusi adla obyektin hüquqi statusunu bir-birindən ayırmağa imkan verir. Burada dırnaq yalnız fərqləndirici komponenti əhatə edir, təşkilati-hüquqi status bildirən hissə isə ad kompleksinin ümumi strukturunda ayrıca funksiyaya malik olur.

XX əsrin sonlarından etibarən ölkənin iqtisadi həyatında baş verən dəyişikliklər erqonimik sistemə də öz təsirini göstərmişdir. Dövlət müəssisələrinin özəlləşdirilməsi, yeni sahibkarlıq subyektlərinin yaranması və müxtəlif təşkilati-hüquqi formaların tətbiqi nəticəsində ASC, QSC, MMC kimi abreviaturlar erqonimlərin ayrılmaz elementinə çevrilmişdir. Bu komponentlər, adətən, xüsusi addan sonra işlənir və dırnaqdan kənarda yazılır. Onların əsas funksiyası

obyektin hüquqi statusunu göstərməkdir. Yalnız nadir hallarda bu abreviaturlar adın özünün tərkib hissəsi kimi çıxış edir.

Praktik materialların təhlili göstərir ki, normativ qaydaların mövcudluğuna baxmayaraq, bəzi hallarda dırnaq işarəsinin işlədilməsi və təşkilati-hüquqi formaların yazılışında müxtəliflik müşahidə olunur. Bu isə yazı təcrübəsində vahid yanaşmanın tam formalaşmadığını göstərir. Belə ziddiyyətlərin aradan qaldırılması üçün erqonimlərin orfoqrafiyasında ümumi prinsiplərin daha dəqiq müəyyənləşdirilməsinə ehtiyac vardır.

Erqonimlərin quruluşunda diqqəti cəlb edən əsas komponentlərdən biri də obyektin növünü bildirən müşayiətedici sözlərdir. Onomastik ədəbiyyatda bu komponent müxtəlif terminlərlə ifadə olunur. T.V.Şmelyova onu "termin" [5, s. 10], T.P.Romanova "erqonimik termin" [3, s. 52], Y.V.Voroşilova "termin-klassifikator" [6, s. 13-16], V.V.Starodubtseva "nomenklatur termin" [4, s. 6], V.İ.Krükova isə "növ bildirən termin" [2, s. 52] adlandırır. Terminoloji müxtəlifliyə baxmayaraq, bütün bu anlayışlar eyni funksiyanı yerinə yetirən komponenti ifadə edir. Həmin sözlər obyektin fəaliyyət istiqamətini, ixtisaslaşmasını və ya funksional xarakterini göstərərək erqonimin semantik strukturunu tamamlayır.

Erqonimlərin formalaşmasında müşayiətedici sözlərin rolu yalnız informativ xarakter daşımır. Onlar adın qavranılmasına, identifikasiya olunmasına və kommunikativ funksiyasının reallaşmasına da təsir göstərir. Buna görə də erqonimin semantik təhlili zamanı xüsusi adla yanaşı, onu müşayiət edən apelyativ komponent də nəzərə alınmalıdır. Bir çox hallarda müşayiətedici sözlər restoran, kafe, mağaza, xəstəxana, mərkəz, kompleks, təşkilat, agentlik, şirkət, salon və s. kimi ümumi isimlərlə ifadə olunur. Bu komponentlər obyektin növünü müəyyənləşdirsə də, əsas fərqləndirici funksiya xüsusi adın üzərinə düşür.

Xidmət sahələrinin inkişafı və qloballaşmanın təsiri nəticəsində erqonimik sistemə yeni nomenklatur terminlər, köməkçi sözlər daxil olmuşdur. Onların əksəriyyəti ya mövcud sözlərin yeni birləşmələri, ya da xarici dillərdən alınmış vahidlərdir. Bu baxımdan *kafe-bar, karaoke-kafe, internet-kafe, antikafe, "showroom", "vapeshop"* və s. kimi adlandırmalar müasir erqonimiyada geniş yayılmışdır. Məsələn, müxtəlif obyekt adlarında "antikafe" sözünün bitişik və ayrı yazılışına rast gəlinir. Halbuki "Orfoqrafiya Normaları"nda göstərilir ki, *tərkibində a-, anti-, ba-, bi-, na-, pre-ön şəkilçiləri olan sözlər bitişik yazılır...*[bax: 10]. Bu qaydaya əsasən, "antikafe" sözünün bitişik yazılması normativ baxımdan daha düzgün hesab edilməlidir.

Müşahidələr göstərir ki, bəzi əcnəbi sözlər qısa müddətdə ümumişlək xarakter qazanır. Bu baxımdan "market" sözü diqqəti xüsusilə cəlb edir. Əvvəllər "mağaza" və ya ""dükan sözləri ilə ifadə olunan obyektlər hazırda əksər hallarda "market" adlandırılır *("Optimal market", "Ucuz market", "Bol market" və* s.). Belə nümunələr göstərir ki, müşayiətedici söz yalnız obyektin növünü bildirmir, həm də dövrün dil və üslub meyillərini əks etdirir.

Erqonimlərin strukturunda komponentlərin sayı onların yazılışına və qavranılmasına da təsir göstərir. Çoxkomponentli erqonimlərdə xüsusi adla müşayiətedici söz arasında müxtəlif sintaktik münasibətlər yaranır. Tibb müəssisələri, dövlət qurumları, siyasi və s. təşkilatların adlarında həmin komponentlər müəyyənedici element kimi çıxış edir: *"Diaqnoz" Tibb Mərkəzi, "Al market", "Azərbaycan Könüllülər" İctimai Birliyi, Azərbaycan Jurnalistlər Birliyi və s.* Müşayiətedici sözlər obyektin fəaliyyət istiqamətini, hüquqi statusunu, həm də fərqləndirici komponenti özündə birləşdirir. Amma adda onların müxtəlif mövqeyi erqonimlərin vahid struktur modelə malik olmadığını, müxtəlif nominasiya prinsipləri əsasında formalaşdığını göstərir.

Ümumiyyətlə, çoxkomponentli erqonimlərdə dırnaq işarəsinin işlədilməsi ad kompleksinin strukturundan asılıdır. Əgər obyektin fərqləndirici adı müşayiətedici söz və ya təşkilati-hüquqi komponentdən ayrıdırsa, yalnız xüsusi ad dırnaqda yazılır, müşayiətedici söz isə dırnaqdan kənarda qalır *("Bravo" supermarket, "AzerGold" QSC, "Hüquq və İnkişaf" İctimai Birliyi*). Müşayiətedici sözün rəsmi adın ayrılmaz tərkib hissəsinə çevrildiyi hallarda isə bütün ad kompleksi vahid xüsusi ad kimi qəbul olunur və dırnaq işlədilmir (*Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Xalça Muzeyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi*).

NƏTİCƏ: Aparılan təhlil göstərir ki, erqonimlərin orfoqrafiyası müasir Azərbaycan onomastikasının ən dinamik və praktik baxımdan aktual sahələrindən biridir. Yeni müəssisə və təşkilatların yaranması, iqtisadi və sosial münasibətlərin dəyişməsi, habelə qloballaşmanın təsiri erqonimik sistemin həm strukturunu, həm də yazılış prinsiplərini daim yeniləyir.

Mövcud "Orfoqrafiya Normaları" erqonimlərin böyük hərflə yazılması, dırnaq işarəsinin işlədilməsi və bəzi mürəkkəb adların orfoqrafiyası üçün əsas normativ baza yaratsa da, praktik yazıda hələ də müxtəliflik müşahidə olunur. Bu, xüsusilə çoxkomponentli adlarda, yeni nomenklatur terminlərdə və son illərdə yaranmış erqonimlərdə özünü daha qabarıq göstərir.

Tədqiqat onu da göstərir ki, erqonimin strukturunda xüsusi ad əsas nominativ funksiyanı yerinə yetirir, müşayiətedici söz isə obyektin fəaliyyət istiqamətini və funksional xüsusiyyətlərini müəyyənləşdirən tamamlayıcı komponent kimi çıxış edir. Bu komponentlər arasında semantik uyğunluğun qorunması uğurlu nominasiya üçün vacib şərtlərdən biridir.

Nəticə etibarilə, müasir erqonimlərin yazılışında vahid orfoqrafik yanaşmanın təmin edilməsi üçün normativ qaydaların yeni yaranan ad modellərinə uyğun şəkildə dəqiqləşdirilməsi məqsədəuyğun görünür. Bu isə həm yazı praktikasında vahidliyin qorunmasına, həm də Azərbaycan erqonimiyasının sistemli inkişafına xidmət edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan dilinin Orfoqrafiya Normaları: [Elektron resurs]. URL: http://e-qanun.az/framework/42073
2. Крюкова И.В. Рекламное имя: от изобретения до прецедентности. Волгоград: Перемена, 2004, 288 с.

3. РомановаТ.П. Эволюционные процессы в области современной российской эргонимической терминологии // Вопросы ономастики, № 3, Екатеринбург, 2006, с.76-83
4. Стародубцева В.В. Номинация внутригородских предприятий и учреждений в современном русском языке (на материале ойкодомонимов г. Ульяновска) / Автореферат дисс. … кандидата филологических наук /. Москва, 2003, 21 с.
5. Шмелева Т.В. Наименования магазинов (метод, разработка к практике для студентов филол. фак.). Красноярск: Изд-во Красн. гос. ун-та,1989, 40 с.
6. Ворошилова Е.В. Ономастикон города Канска как отражение истории и культуры народа/ Автореферат дисс. … кандидата филологических наук /. Тюмень, 2007, 19 с.

Taghiyeva Konul Arzu
Azerbaijan State Agricultural University, Ganja, Azerbaijan
e-mail: tagiyeva.konul87@gmail.com
ORCID İD https://orcid.org/0000-0001-7909-246X

Orthography of Ergonyms in the Azerbaijani language: a normative approach and writing practice

Summary

This article examines the orthography of ergonyms in the contemporary Azerbaijani language. The dynamic nature of ergonyms, the emergence of new names for institutions and organizations, as well as socio-economic changes, have made the application of unified spelling principles increasingly relevant. Based on the Orthographic Rules of the Azerbaijani Language, the study analyzes the spelling features of the names of state institutions, as well as various other enterprises and organizations, and compares normative rules with contemporary writing practice. Particular attention is paid to the use of quotation marks, the spelling of abbreviations denoting legal and organizational forms, the function of accompanying words, and their position within the structure of ergonyms. Different scholarly approaches are compared, and it is argued that the accompanying word is not a core component of an ergonym but rather an element that complements the proper name. The study concludes that although the existing normative framework generally regulates the spelling of ergonyms, newly emerging naming patterns and the diversity observed in actual writing practice necessitate further clarification of certain rules. In this regard, the systematic study of the orthography of ergonyms and the adaptation of normative principles to contemporary naming processes are considered among the current priorities of Azerbaijani onomastic studies. The findings also indicate the need to refine existing normative regulations and to compile a unified electronic database or dictionary of ergonyms in order to eliminate inconsistencies in language use and establish a standardized orthographic system.

Keywords: ergonym, orthography, onomastics, nomination, norm.

Тагиева Кенуль Арзу кызы
Азербайджанский государственный аграрный университет, Гянджа, Азербайджан
e-mail: tagiyeva.konul87@gmail.com
ORCID İD https://orcid.org/0000-0001-7909-246X

Орфография эргонимов в азербайджанском языке: нормативный подход и практика письма

Резюме

В статье рассматриваются вопросы орфографии эргонимов в современном азербайджанском языке. Динамичный характер эргонимов, появление новых названий объектов и организаций, а также социально-экономические изменения актуализируют применение единых принципов их написания. В исследовании на основе «Орфографических норм азербайджанского языка» проанализированы особенности написания наименований государственных органов, а также ряда других учреждений и организаций; нормативные правила сопоставлены с современной письменной практикой. Кроме того, рассмотрены употребление кавычек, написание аббревиатур, обозначающих организационно-правовые формы, функция сопровождающих слов и их место в структуре эргонимов. Сопоставлены различные научные подходы, обосновано, что сопровождающее слово не является основным компонентом эргонима, а представляет собой элемент, дополняющий собственное наименование. В результате исследования установлено, что, хотя существующая нормативная база в целом регулирует написание эргонимов, появление новых моделей наименований и разнообразие, наблюдаемое в современной письменной практике, обусловливают необходимость уточнения отдельных правил. В этой связи системное изучение орфографии эргонимов и адаптация нормативных принципов к современным процессам номинации рассматриваются как одно из актуальных направлений азербайджанской ономастики. Результаты исследования показывают, что для устранения существующих в языковой практике неопределённостей и формирования единого орфографического стандарта необходимо внести уточнения в действующие нормативные акты, а также создать единую электронную базу данных или словарь, посвящённый написанию эргонимов.

Ключевые слова: эргоним, орфография, ономастика, номинация, норма.

Rəyçi: dos. S.Abbasova

DOI: 10.24412/2218-7588-2026-2-116-119

Vüsalə Sabit qızı Məmmədova
Azərbaycan Dillər Universiteti, İngilis dilinin tədrisi metodikası kafedrasının müəllimi
vusala.mammadova@adu.edu.az
ORCHİD: 0000-0002-4049-6843

MÜXTƏLİF MƏDƏNİYYƏTLƏRƏ XAS REKLAM MƏTNLƏRİ VƏ ONLARIN MÜQAYİSƏSİ

XÜLASƏ: Məqalədə müxtəlif mədəniyyətlərə xas reklam mətnlərinin dil və məzmun xüsusiyyətləri təhlil edilmişdir. Reklamın tarixi inkişaf mərhələləri, praqmatik və medialinqvistik xüsusiyyətləri araşdırılmış, Qərb və Şərq reklam modelləri müqayisəli şəkildə təhlil olunmuşdur. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, reklam mətnləri yalnız kommunikativ vasitə deyil, həm də mədəni dəyərlərin daşıyıcısıdır. Qərb reklamları fərdiyyətçiliyə, Şərq reklamları kollektivliyə əsaslandığı halda, Azərbaycan reklam diskursu hibrid model kimi çıxış edir. Eyni zamanda qloballaşma şəraitində "qlokallaşma" prinsipi reklam mətnlərinin formalaşmasında mühüm rol oynayır.

Açar sözlər: Reklam mətni, reklam diskursu, mədəniyyətlərarası kommunikasiya, fərdiyyətçilik, kollektivçilik, qloballaşma, qlokallaşma, medialinqvistika, reklam strategiyası.

GİRİŞ: Müasir qloballaşma şəraitində reklam yalnız iqtisadi fəaliyyətin bir elementi deyil, eyni zamanda mədəniyyətlərarası kommunikasiya vasitəsi kimi çıxış edir. Reklam mətnləri konkret məhsul və ya xidmətin təqdimatı ilə yanaşı, həmin cəmiyyətin dəyərlər sistemini, sosial davranış modellərini və mental xüsusiyyətlərini də əks etdirir. Bu baxımdan reklam diskursu dilçilik, sosiologiya, psixologiya və marketinq sahələrinin kəsişməsində formalaşan kompleks tədqiqat obyektidir.

Müxtəlif mədəniyyətlərdə reklam mətnlərinin struktur, semantik və praqmatik xüsusiyyətləri fərqlənir. Bu fərqlər əsasən fərdiyyətçilik və kollektivçilik, yüksək və aşağı kontekstli kommunikasiya, emosional və rasional təsir mexanizmləri kimi amillərlə müəyyən olunur.

Tədqiqatın məqsədi müxtəlif mədəniyyətlərə xas reklam mətnlərinin dil və məzmun xüsusiyyətlərini təhlil etmək və onların müqayisəli analizini aparmaqdır.

ƏSAS HİSSƏ:

1. Reklam mətnlərinin mahiyyəti və praqmatik xüsusiyyətləri

Reklam anlayışının tarixi kökləri qədim sivilizasiyalara, xüsusilə Qədim Yunanıstan və Roma dövrlərinə gedib çıxır. Həmin dövrlərdə reklam əsasən insanların kütləvi şəkildə toplaşdığı məkanlarda elan və məlumatların şifahi şəkildə çatdırılması formasında mövcud olmuşdur. Bu, reklamın ilkin kommunikasiya vasitəsi kimi ictimai informasiyanın yayılmasında mühüm rol oynadığını göstərir. Reklamın yazılı formalarının yaranması isə daha sonrakı mərhələyə təsadüf edir. Arxeoloji tapıntılara əsasən, reklam xarakterli ən qədim yazılı nümunələrdən biri təxminən 2500 il əvvəl Misirin Memfis şəhərində hazırlanmış lövhə hesab olunur. Həmin lövhədə aşağıdakı məzmunlu ifadə yer almışdır: *"Mən Krit adasından olan Rino, tanrının iradəsi ilə yuxu yozuram"* [2]. Bu nümunə reklamın ilkin mərhələdə xidmətlərin təqdimatı və diqqət cəlb etmə məqsədi daşıdığını aydın şəkildə nümayiş etdirir.

Reklam mətni xüsusi kommunikativ məqsədə malik funksional mətn növüdür. Onun əsas funksiyası istehlakçı davranışına təsir göstərmək, diqqət cəlb etmək və alış qərarı formalaşdırmaqdır.

Dilçilik baxımından reklam mətni aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

- Qısa və yığcam struktur;
- Emosional-ekspressiv leksika;
- Imperativ və motivasiyaedici konstruksiyalar;
- Metafora, metonimiya və digər üslubi vasitələrin geniş istifadəsi.

Reklam diskursunda praqmatik komponent xüsusi əhəmiyyət daşıyır. Burada dil yalnız informasiya ötürmək deyil, həm də davranışı yönləndirmək funksiyasını yerinə yetirir.

Reklam mətnləri istehlakçıların diqqətini konkret məhsula, xidmətə və ya brendə cəlb etmək, eyni zamanda onların alış davranışını stimullaşdırmaq məqsədilə xüsusi şəkildə yaradılan kommunikativ vahidlərdir. Müasir dövrdə reklam informasiya bolluğu və bazar rəqabətinin getdikcə kəskinləşdiyi şəraitdə aparıcı mövqe tutur. Reklam mətnləri gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir və şəhər küçələrində, internet mühitində, televiziya proqramlarında, jurnal səhifələrində və hətta məhsul qablaşdırmalarında geniş şəkildə müşahidə olunur.

Reklam mətnləri sosial dəyişiklikləri, aktual tendensiyaları əks etdirir və bəzi hallarda ictimai problemlərin qabardılmasına və ictimai müzakirələrin stimullaşdırılmasına xidmət edir [4].

Reklam mətnlərinin praqmatik xüsusiyyətlərinə gəldikdə isə qeyd etmək lazımdır ki, uğurlu nəticə əldə etmək üçün reklam mətnlərini hazırlayan mütəxəssislər dil vasitələrindən maksimum səmərəli şəkildə istifadə edirlər. Reklam mətnləri üçün əsas tələblərdən biri minimum söz vasitəsilə maksimum informasiya təqdim etməkdir. Bu baxımdan reklam mətnləri yığcamlıq, qısa ifadəlilik və yüksək informasiya tutumu ilə xarakterizə olunur. Onların informativliyi məhz bu xüsusiyyətlərə əsaslanır. Qeyd olunduğu kimi, *"reklam mətnlərinin informativliyi onların polifunksionallığı ilə bağlıdır"* [6, s. 40].

Reklam mətninin praqmatik aspekti ilk növbədə onun struktur təşkilində özünü göstərir. Bu, qrammatik və leksik vahidlərin məqsədyönlü seçimi, üslubi vasitələrin tətbiqi, xüsusi sintaktik prinsiplərin istifadəsi, çap materialının təşkil forması, eləcə də müxtəlif işarə sistemlərinin elementlərindən istifadə ilə səciyyələnir. Sadalanan bütün bu komponentlər birlikdə effektiv və uğurlu reklam mətnlərinin yaradılması üçün zəruri əsas yaradır. Bu xüsusiyyətləri

ümumiləşdirərək qeyd etmək olar ki, reklam mətnlərinin formalaşması və qurulması prosesində iki əsas tendensiya müşahidə olunur: bir tərəfdən dil vasitələrinin sıxlığı və yığcamlığı, digər tərəfdən isə informasiyanın optimal həcminin qorunması ilə yanaşı ifadəliliyin təmin edilməsi.

Kiçik həcmli reklam mətnlərində mətnin quruluşu əsasən leksik ehtiyatın məhdudluğu və qrammatik strukturların sadələşdirilməsi hesabına formalaşır. Bu, ümumi təkrarların geniş istifadəsi və klişe ifadələrin çoxluğu ilə bağlıdır. Bununla belə qeyd etmək lazımdır ki, reklam mətnlərinin effektiv ifadəlilik gücü bəzən düşündüyümüzdən daha mürəkkəb prinsiplərə əsaslanır. Bu zaman reklam mətnlərinin yaradıcıları reklam obyektini birbaşa təsvir etməkdən, məhsul və ya xidmətin xüsusiyyətlərini, keyfiyyətlərini və dəyərlərini açıq şəkildə sadalamaqdan qaçırlar. Burada dolayı təqdimetmə, yəni müəyyən mənada "gizlilik prinsipi" özünü göstərir.

Reklam mətnlərinin dilində frazeoloji birləşmələr də az ifadəlilik kəsb etmir. Bu mətnlərdə frazeologizmlər yalnız dilin qəbul olunmuş ənənəvi formalarında deyil, həm də modifikasiya olunmuş şəkildə istifadə edilir. Aparılan müşahidələrə əsasən qeyd etmək olar ki, reklam diskursunda frazeoloji ifadələrin struktur və semantik baxımdan yenilənməsi onlara yeni məzmun və əlavə məna çalarları qazandırır. Bu yenilənmə prosesi reklam mətnlərinin təsir gücünü artırmaqla yanaşı, onların yaradıcılıq potensialını da genişləndirir.

2. Qərb və Şərq mədəniyyətində reklam mətnləri

Müasir dövrdə bəzi reklamlar qlobal miqyasda yayılaraq müxtəlif məkanlarda – bilbordlarda, ictimai nəqliyyatda, dayanacaqlarda, mağazalarda, hava limanlarında, jurnallarda və televiziya kanallarında geniş şəkildə nümayiş olunur. Bu reklamların auditoriyaya çatma səviyyəsi olduqca yüksəkdir və bu hal qloballaşma prosesinin mühüm komponentlərindən biri kimi qiymətləndirilir. Dünyanın müxtəlif regionlarında insanların eyni reklam mesajlarına və eyni məhsullara məruz qalması bəzi tədqiqatçılar tərəfindən mədəniyyətlərin homogenləşməsi kimi şərh olunur [7].

Lakin digər tədqiqatçılar fərqli mövqe irəli sürərək qeyd edirlər ki, istehlakçılar eyni məhsul və marketinq kommunikasiya vasitələrinə məruz qalsalar belə, bu, onların mədəni baxımdan vahidləşməsinə səbəb olmur. Əksinə, fərdlər bu qlobal təsirləri öz mədəniyyətlərinin yenidən qurulması prosesində istifadə edirlər [8]. Bu yanaşma "qloballaşma" anlayışı ilə ifadə olunur və qlobal təsirlərin yerli ənənələrlə paralel şəkildə mövcudluğunu göstərir. Əslində, bu ikinci yanaşma daha real hesab olunur. Askegaard və Kjeldgaard qeyd edirlər ki, qlobal marketinq hər zaman qlobal tələbin və istehlakçı homogenliyinin ifadəsi deyil, daha çox güclü və davamlı marketinq strategiyalarının nəticəsidir. Standartlaşdırılmış reklam mesajları isə müxtəlif mədəni kontekstlərdə fərqli şəkildə qəbul olunur və şərh edilir [1, s. 17].

Bəzi tədqiqatçılar, o cümlədən Silk və Andrews (2001), hətta qlobal reklam konsepsiyasının özünü problemli hesab edirlər. Onların fikrincə, qloballaşmanın ilkin mərhələlərində şirkətlər dünyanı vahid və eyni xüsusiyyətlərə malik bazar kimi qəbul edir və "eyni məhsulu hər yerdə eyni üsulla təqdim etmək" strategiyasını tətbiq edirdilər. Lakin zaman keçdikcə bu yanaşmanın qeyri-real olduğu aydın olmuşdur və qlobal bazarın homogen struktur kimi qəbul edilməsinin praktik cəhətdən mümkün olmadığı müəyyən edilmişdir [10].

Məhsulların mənası yerli səviyyədə formalaşır və bu məna çoxmillətli şirkətlərin mərkəzlərindən tam şəkildə idarə oluna bilmir. Mədəni fərqlərin təsirinin qəbul edilməsi nəticəsində bir sıra beynəlxalq şirkətlər (məsələn, Coca-Cola, McDonald's, Nike) uzun müddət əvvəl vahid qlobal reklam kampaniyalarından imtina etmişdir. Bununla belə, bəzi brendlər hələ də müxtəlif mədəni kontekstlərdə standartlaşdırılmış reklam strategiyalarından istifadə etməyə davam edir.

Qərb ölkələrində reklam mətnləri əsasən fərdiyyətçilik prinsipinə əsaslanır. Bu mədəniyyətlərdə insanın şəxsi seçimi, azadlığı və uğuru ön planda tutulur. Bu tip reklamlarda aşağıdakı xüsusiyyətlər müşahidə olunur:

–Birincisi, mesajlar birbaşa və açıq şəkildə təqdim olunur. İstehlakçıya konkret çağırış edilir.

–İkincisi, fərdi identiklik vurğulanır. Məhsul insanın özünü ifadə etmə vasitəsi kimi təqdim olunur.

–Üçüncüsü, dil sadə və effektivdir. Mətnlərdə minimalizm üstünlük təşkil edir.

Qərb reklamlarında rasional arqumentlər və emosional təsir balanslı şəkildə istifadə olunur.

Reklam tədqiqatlarında Hofstede modelinin ölçülərinin tətbiq potensialı geniş şəkildə qəbul edilsə də, bu modelin bəzi ölkə və mədəniyyətləri tam şəkildə izah etmək baxımından yetərli olmadığı qeyd olunur. Bu səbəbdən fərdiyyətçilik–kollektivçilik anlayışının nəzəri baxımdan daha da dəqiqləşdirilməsi məqsədilə şaquli və üfüqi fərqləndirmə modeli irəli sürülmüşdür. Bu yanaşma ondan ibarətdir ki, həm fərdiyyətçilik, həm də kollektivçilik üfüqi (bərabərliyə əsaslanan) və ya şaquli (ierarxiyaya əsaslanan) formada təzahür edə bilər.

Şaquli ölçü bərabərsizliyi qəbul edir və sosial status fərqlərinin legitimliyini vurğulayır. Bu kontekstdə sosial pillələnmə və mövqe üstünlükləri mühüm rol oynayır. Əksinə, üfüqi ölçü fərdlər arasında bərabərliyi ön plana çəkir və insanların xüsusilə status baxımından oxşar olmalı olduqlarını vurğulayır.

Bu üfüqi və şaquli fərqləndirmə modeli reklam tədqiqatlarında da tətbiq edilmiş və göstərilmişdir ki, hətta eyni fərdiyyətçi mədəniyyətlər daxilində belə reklam mətnləri əhəmiyyətli dərəcədə fərqlənə bilər. Fərdiyyətçilik baxımından şaquli fərdiyyətçilik fərdin özünü digərlərindən müstəqil və fərqli görməsi ilə xarakterizə olunur. Üfüqi fərdiyyətçilik isə müstəqilliyi qəbul etsə də, fərdin özünü digərlərindən üstün və ya unikal hesab etməsini zəruri saymır. Bu baxımdan üfüqi yanaşma bərabərliyi, şaquli yanaşma isə iyerarxiyanı ön plana çıxarır [9].

Nəzəri baxımdan xüsusilə şaquli fərdiyyətçilik utilitar fərdiyyətçilik anlayışı ilə əlaqələndirilə bilər. Bu yanaşma maddi rifahın əldə olunmasına yönəlmiş davranış modeli ilə səciyyələnir və fərdin daha çox iqtisadi fəaliyyət və peşə mühiti çərçivəsində özünü reallaşdırması ilə izah olunur.

Şərq ölkələrinə məxsus reklam mətnlərində Qərb və Şərq dəyərlərinin qarışıq şəkildə təzahür etdiyi müşahidə olunur. Marketinq və menecment ədəbiyyatında ənənəvi olaraq Qərb və Şərq dəyərləri arasında müəyyən fərqlər göstərilsə də, praktik reklam nümunələri bu bölgünün daha mürəkkəb xarakter daşıdığını nümayiş etdirir. Xüsusilə Yapon reklamları üzərində aparılmış tədqiqatlar göstərir ki, burada amerikanlaşma meylləri güclü olsa da, ənənəvi mədəni dəyərlər tam şəkildə aradan qalxmamış, əksinə, müəyyən səviyyədə qorunub saxlanılmışdır. Aparılmış analizlərə görə, Yapon reklamlarında ənənəvi olaraq kollektivlik və konsensus kimi dəyərlər gözlənildiyi qədər açıq şəkildə əks olunmur. Bunun əvəzində fərdiyyətçilik və müstəqillik kimi Qərb mənşəli çağırışların getdikcə daha geniş istifadə olunduğu müşahidə edilir. Bu isə reklam diskursunda mədəni transformasiya prosesinin baş verdiyini göstərir. Eyni zamanda müəyyən edilmişdir ki, Yapon və Amerika jurnal reklamlarında istifadə olunan mədəni çağırışlar mahiyyət etibarilə deyil, daha çox intensivlik və vurğu baxımından fərqlənir [5].

Şərq ölkələrində reklam mətnləri kollektivçilik və sosial harmoniya prinsiplərinə əsaslanır. Burada ailə, ənənə və ictimai münasibətlər ön plana çıxır.

Reklam xüsusiyyətlərinə aşağıdakılar daxildir:

- Dolayı ifadə forması;
- Simvolik və metaforik təsvirlər;
- Emosional və estetik vurğu.

Məsələn, Yaponiyada reklamlar tez-tez təbiət motivləri ilə əlaqələndirilir. Çin reklamlarında ailə və birlik ideyası ön plana çəkilir. Bu reklamlarda mesaj açıq deyil, kontekst vasitəsilə ötürülür. Məhsulun xüsusiyyətləri birbaşa deyil, dolayısı ilə təqdim edilir. Dil yumşaq və nəzakətli xarakter daşıyır.

3. Azərbaycan reklam mətnləri: hibrid model

Azərbaycan reklam diskursu Şərq və Qərb xüsusiyyətlərinin sintezindən ibarətdir. Bu, ölkənin mədəni və tarixi inkişafı ilə bağlıdır.

Reklam nümunələri aşağıdakıları özündə ehtiva edir:

- Ailə dəyərlərini vurğulayan reklamlar;
- Müasir texnologiyanı önə çıxaran reklamlar.

Azərbaycan reklamlarında həm emosional, həm də informativ üslub istifadə olunur. Milli dəyərlərlə yanaşı, modernlik ideyası təqdim edilir. Dil baxımından sadəlik və təsir gücü qorunur. Bu model adaptiv xarakter daşıyır və müxtəlif auditoriyalara yönəlmişdir.

Azərbaycan reklam sektoru artıq müasir dövrdə inkişaf etmiş və institusional çərçivəyə malik fəaliyyət sahəsi kimi formalaşmışdır. Bu inkişafın hüquqi əsaslarından biri Azərbaycan Respublikasında reklam fəaliyyətinin tənzimlənməsinə yönəlmiş normativ sənədlərin qəbul edilməsidir. Belə ki, 2015-ci il 15 may tarixində "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə müvafiq fərman imzalanmışdır. Həmin qanunun 4.7-ci maddəsinə əsasən, reklam mətnlərinin hazırlanması və yayımı zamanı "Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına riayət olunması məcburi xarakter daşıyır. Bu tələb reklam diskursunda dil normasının qorunmasını, milli dilin funksional imkanlarının düzgün və məqsədyönlü istifadəsini təmin etməyə yönəlmişdir [3].

4. Müqayisəli təhlil

Müxtəlif mədəniyyətlərə məxsus reklam mətnlərinin müqayisəli təhlili göstərir ki, reklam diskursu yalnız dil və üslub xüsusiyyətləri ilə deyil, həm də dərin mədəni, sosial və psixoloji faktorlarla müəyyən olunur. Qərb, Şərq və Azərbaycan reklam modellərinin təhlili bu sahədə həm fərqləri, həm də qarşılıqlı təsirləri üzə çıxarmağa imkan verir.

Müqayisə göstərir ki, Qərb və Şərq reklamları arasındakı əsas fərq yalnız məzmun səviyyəsində deyil, həm də kommunikasiya modelində özünü göstərir. Qərb reklamları aşağı kontekstli kommunikasiya modelinə əsaslanaraq açıq və birbaşa mesaj ötürür, Şərq reklamları isə yüksək kontekstli kommunikasiya modelinə uyğun olaraq dolayı və çoxqatlı məna strukturlarından istifadə edir. Bununla yanaşı, hər iki modeldə emosional təsir elementi mühüm yer tutur, lakin bu təsir müxtəlif üsullarla reallaşdırılır.

Bu kontekstdə Azərbaycan reklam mətnləri xüsusi maraq kəsb edir. Azərbaycan reklam diskursu Şərq və Qərb xüsusiyyətlərinin sintezini əks etdirən hibrid model kimi çıxış edir. Burada həm milli-mənəvi dəyərlər, ailə və sosial bağlılıq ideyaları, həm də müasirlik, texnologiya və fərdi rahatlıq motivləri paralel şəkildə təqdim olunur. Dil baxımından isə həm emosional, həm də informativ üslub elementlərinin balanslı istifadəsi müşahidə edilir. Bu xüsusiyyətlər Azərbaycan reklamlarının adaptiv və çevik xarakter daşıdığını göstərir.

Nəticə etibarilə qeyd etmək olar ki, reklam mətnlərinin müqayisəli təhlili onların universallıqdan daha çox mədəni spesifikliyə əsaslandığını göstərir. Qloballaşma şəraitində belə reklam diskursu yerli mədəniyyətin təsiri altında formalaşmağa davam edir və bu da reklam strategiyalarının hazırlanmasında mədəni faktorların nəzərə alınmasının zəruriliyini bir daha təsdiq edir.

NƏTİCƏ: Aparılan tədqiqat göstərir ki, reklam mətnləri müasir cəmiyyətin yalnız iqtisadi deyil, eyni zamanda mədəni və sosial həyatının ayrılmaz tərkib hissəsidir. Reklam diskursu dil, mədəniyyət və kommunikasiya arasında qarşılıqlı əlaqəni əks etdirən kompleks fenomen kimi çıxış edir. Müxtəlif mədəniyyətlərə məxsus reklam mətnlərinin müqayisəli təhlili nəticəsində müəyyən edilmişdir ki, bu mətnlər öz struktur, semantik və praqmatik xüsusiyyətlərinə görə fərqlənsə də, onların əsas məqsədi, yəni istehlakçı davranışına təsir göstərmək ümumi olaraq qalır.

Qərb reklam mətnlərində fərdiyyətçilik, birbaşa kommunikasiya və rasional yanaşma üstünlük təşkil etdiyi halda, Şərq reklamlarında kollektivçilik, dolayı ifadə və simvolik təqdimetmə üsulları daha geniş yayılmışdır.

Azərbaycan reklam diskursu isə bu iki modelin sintezi kimi çıxış edərək hibrid xarakter daşıyır və həm milli, həm də qlobal dəyərləri özündə birləşdirir .

Beləliklə, reklam mətnlərinin effektivliyi onların yalnız dil baxımından düzgün qurulmasından deyil, həm də hədəf auditoriyanın mədəni kontekstinə uyğunlaşdırılmasından asılıdır. Bu isə müasir reklam fəaliyyətində intermədəni yanaşmanın əhəmiyyətini artırır.

İstifadə edilmiş ədəbiyyat

1. Askegaard, S. & Kjeldgaard, D. (2002) The water fish swim in? Relations between marketing and culture in the age of globalization, in: T. Knudsen et al. (Eds)Perspectives on Marketing Relationships, pp. 13–35 (Copenhagen: Thomson).
2. Dadaşov, A. Kütləvi informasiya vasitələrində reklam və marketinq problemləri / A.Dadaşov. - Bakı: Bakı Universitetinin nışriyyatı, - 2001. - 168 s.
3. Haciyeva, A. C. Q. (2023). REKLAM DİLİNİN FUNKSİONAL QRAMMATİK XÜSUSİYYƏTLƏRi: XƏZƏR TELEVİZİYASINA İSTİNADƏN. *Endless light in science*, (апрель), 414-420.
4. Həbibova K.Ə. Reklam mətnlərində sayların manipulyativ xüsusiyyətləri // Filologiya məsələləri. № 5, 2020, s. 72-78.
5. Lee W-N and Yoo JJ (2012) Understanding the role of culture in advertising. In: Okazaki S (ed.) Handbook of Research on International Advertising. Cheltenham: Edward Elgar Publishing, pp. 20–41.
6. Mammad, M. E. (2024). LINGUISTIC NATURE OF ADVERTISING TEXTS. In *Colloquium-journal* (No. 10 (203), pp. 39-43). Голопристанський міськрайонний центр зайнятості.
7. Picard, R. G. (2013). Shifts in newspaper advertising expenditures and their implications for the future of newspapers. In *The future of newspapers* (pp. 75-87). Routledge.
8. Pineda, A., Hernández-Santaolalla, V., & Rubio-Hernández, M. D. M. (2015). Individualism in Western advertising: A comparative study of Spanish and US newspaper advertisements. *European Journal of Communication*, *30*(4), 437-453.
9. Shavitt S, Johnson TP and Zhang J (2011) Horizontal and vertical cultural differences in the con tent of advertising appeals. Journal of International Consumer Marketing 23: 297–310.
10. Silk, M. L. & Andrews, D. L. (2001) Beyond a boundary? Sport, transnational advertising, and the reimagining of national culture, Journal of Sport & Social Issues, 25(2), pp. 156–177.

Vusala Sabit Mammadova
Lecturer, Department of English Language Teaching Methodology
Azerbaijan University of Languages
E-mail: vusala.mammadova@adu.edu.az
ORCID: 0000-0002-4049-6843

Advertising texts across different cultures: a comparative analysis

Summary

The article analyzes the linguistic and content characteristics of advertising texts across different cultures. The historical development stages of advertising, as well as its pragmatic and media-linguistic features, are examined, and Western and Eastern advertising models are comparatively analyzed. The study reveals that advertising texts function not only as communicative tools but also as carriers of cultural values. While Western advertising is based on individualism and Eastern advertising on collectivism, Azerbaijani advertising discourse represents a hybrid model. At the same time, under the conditions of globalization, the principle of "glocalization" plays an important role in the formation of advertising texts.

Keywords: advertising text, advertising discourse, intercultural communication, individualism, collectivism, globalization, glocalization, media linguistics, advertising strategy

Вюсаля Сабит Мамедова
Преподаватель кафедры методики преподавания английского языка
Азербайджанский университет языков
E-mail: vusala.mammadova@adu.edu.az
ORCID ID: 0000-0002-4049-6843

Рекламные тексты различных культур и их сравнительный анализ

Резюме

В статье анализируются языковые и содержательные особенности рекламных текстов в различных культурах. Рассматриваются исторические этапы развития рекламы, а также её прагматические и медиалингвистические характеристики, проводится сравнительный анализ западных и восточных моделей рекламы. В результате исследования установлено, что рекламные тексты выступают не только средством коммуникации, но и носителем культурных ценностей. В то время как западная реклама основывается на индивидуализме, а восточная – на коллективизме, азербайджанский рекламный дискурс представляет собой гибридную модель. В условиях глобализации важную роль в формировании рекламных текстов играет принцип «глокализации».

Ключевые слова: рекламный текст, рекламный дискурс, межкультурная коммуникация, индивидуализм, коллективизм, глобализация, глокализация, медиалингвистика, рекламная стратегия

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-120-123

Ülviyyə Rəhman qızı İbrahimova
Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, Azərbaycan dilçiliyi kafedrasının qiyabi doktorantı
ulviyya.ibrahimova.rahman@gmail.com
https://orcid.org/0009-0009-8044-646X

MÖVLUD SÜLEYMANLININ POETİK DİLİNDƏ MƏCAZLAR

XÜLASƏ: Məqalədə Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən olan Mövlud Süleymanlının bədii dilində məcazlar sistemi araşdırılmışdır. Tədqiqatın əsas məqsədi yazıçının əsərlərində işlənən metafora, metonimiya və təşbehlərin semantik, üslubi və estetik xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın araşdırma materialı Mövlud Süleymanlının əsərləridir.

Məqalədə Mövlud Süleymanlının yaradıcılığında metafora, metonimiya və təşbeh nümunələri ilk dəfə vahid məcazlar sistemi çərçivəsində kompleks şəkildə araşdırılmışdır. Müəyyən edilmişdir ki, yazıçının əsərlərində bu məcaz növləri bir-birindən təcrid olunmuş şəkildə deyil, qarşılıqlı əlaqədə fəaliyyət göstərən poetik sistem yaradır. Onların qarşılıqlı əlaqəsi mətnin semantik dərinliyini artırır, bədii-estetik təsir gücünü gücləndirir və yazıçının fərdi üslubunun formalaşmasında mühüm rol oynayır.

Araşdırma nəticələri göstərir ki, Mövlud Süleymanlının məcazlardan istifadə üsulu milli bədii təfəkkürün xüsusiyyətlərini əks etdirməklə yanaşı, Azərbaycan nəsrinin poetik dil imkanlarının genişlənməsinə və fərdi üslubun formalaşmasına mühüm töhfə verir. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, metafora, metonimiya və təşbeh yazıçının əsərlərində vahid poetik strukturun tərkib hissələri kimi fəaliyyət göstərərək mətnin semantik və estetik potensialını genişləndirir, eyni zamanda onun fərdi üslubunun səciyyəvi cəhətlərini üzə çıxarır.

Açar sözlər: Mövlud Süleymanlı, bədii dil, metafora, metonimiya, təşbeh, məcazlar sistemi, üslubiyyat, poetik dil.

GİRİŞ: Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən olan Mövlud Süleymanlı milli bədii təfəkkürün, folklor yaddaşının və müasir estetik düşüncənin vəhdətini yaradıcılığında uğurla birləşdirən sənətkarlardandır. Yazıçının əsərlərində diqqəti cəlb edən əsas xüsusiyyətlərdən biri dilin poetik imkanlarından geniş istifadə etməsi, sözün semantik potensialını müxtəlif məcazlar vasitəsilə reallaşdırmasıdır. Onun bədii dili yalnız süjet və obrazlar sistemi ilə deyil, eyni zamanda, zəngin üslubi vasitələri ilə də seçilir. Bu baxımdan Mövlud Süleymanlı yaradıcılığında məcazlar sistemi ayrıca tədqiqat obyekti kimi xüsusi maraq doğurur.

Məcazlar bədii nitqin obrazlılığını təmin edən əsas dil vahidlərindəndir. Onlar əşya və hadisələrin adi təsvirindən kənara çıxaraq yeni semantik əlaqələr yaradır, mətnin emosional-ekspressiv təsirini gücləndirir. Bu vasitələrin köməyi ilə müəllif gerçəkliyi fərqli rakursdan təqdim edir, oxucunun təxəyyülünü aktivləşdirir və bədii düşüncənin dərin qatlarını üzə çıxarır.

Mövlud Süleymanlının əsərlərində məcazlar, sadəcə, bədii bəzək elementi kimi çıxış etmir. Onlar müəllifin dünyagörüşünün, milli yaddaş konsepsiyasının, insan və təbiət münasibətlərinə baxışının ifadə vasitəsinə çevrilir. Yazıçının yaratdığı obrazlar sistemi, təbiət təsvirləri, psixoloji vəziyyətlərin təqdimatı və fəlsəfi ümumiləşdirmələr məhz məcazlar vasitəsilə daha təsirli şəkildə reallaşdırılır.

Məqalənin məqsədi Mövlud Süleymanlının əsərlərində işlənən metafora, metonimiya və təşbehlərin dil-üslub xüsusiyyətlərini araşdırmaq, onların semantik və estetik funksiyalarını müəyyənləşdirməkdir. Tədqiqatın obyekti kimi yazıçının "And olsun əsrə..." və "Dərsdən öncə yazılanlar" kitabları, eləcə də "Ceviz qurdu" əsəri əsas götürülmüşdür.

ƏSAS HİSSƏ: Məcazlaşma dilin semantik inkişafının mühüm istiqamətlərindən biri, eləcə də *"oxşar əlamətlərin ümumiliyinə görə gerçəkliyin biri-biri ilə əlaqədar olan əşyalardan birinin adının digər oxşar əşyanın adına köçürülməsidir"* [5, s. 80]. Məcazlar əşya və hadisələr arasında müxtəlif münasibətlərin yaradılması nəticəsində meydana çıxır və bədii nitqdə obrazlılığı təmin edir. Mövlud Süleymanlının yaradıcılığında məcazlar sistemi zənginliyi və çoxqatlılığı ilə diqqəti cəlb edir. Yazıçı yaradıcılığı boyu metafora, metonimiya, təşbeh, epitet, mübaliğə, litota, simvol və təzad kimi müxtəlif bədii vasitələrdən istifadə edərək əsərlərinin poetik dilinə ekspressivlik qatmışdır.

M.Süleymanlının məcazlar sistemi folklor təfəkkürü ilə sıx bağlıdır. Əsərlərdəki bir çox məcazlar xalq danışıq dilindən, mifoloji təfəkkürdən və dastan poetikasından qaynaqlanır. Lakin müəllif bu ənənəvi vasitələri müasir nəsr estetikasının tələblərinə uyğun şəkildə yenidən işləyərək fərdi üslub xüsusiyyəti qazanır.

M.Süleymanlı yaradıcılığında məcazlar çox vaxt bir-biri ilə qarşılıqlı əlaqədə işlənir. Eyni bir cümlədə metafora, metonimiya və təşbehin paralel şəkildə istifadəsi müşahidə olunur. Bu isə mətnin semantik tutumunu genişləndirir və çoxqatlı mənalar yaradır.

Metafora müəllifin ədəbi dilində ən geniş işlənən məcaz növüdür. Bu məcazın əmələ gəlməsi *"təfəkkürün müxtəlif əşya və hadisələr arasında mövcud olan qarşılıqlı əlaqələri dərketmə bacarığı ilə bağlı hadisədir*" [4, s. 106]. Müəllif müəyyən əşya və ya hadisənin xüsusiyyətlərini başqa bir obyektə köçürərək yeni obraz yaradır. Başqa bir deyimlə: "metafora bənzərlik üzrə məna köçürülməsidir" [1, s. 131].

Yazıçının metaforaları, əsasən, təbiət hadisələrinin insanlaşdırılması, mücərrəd anlayışların maddiləsdirilməsi və emosional vəziyyətlərin konkret obrazlarla təqdim olunması istiqamətində inkişaf edir: *"Qaranlıq enirdi"* [7, s. 33]. Məsələn, bu ifadədə qaranlıq canlı varlıq kimi təqdim edilir. Burada təbiət hadisəsinə hərəkət xüsusiyyəti verilir və adi təsvir poetik məna qazanır. Yazarın dilində belə nümunələrlə tez-tez qarşılaşırıq:

"Güllər-çiçəklər, süsənlər-sünbüllər səs-səsə verib oxuyurdular" [8, s. 27];

"Sərcələr dil-dil ötür. dünən dediklərini bu gün də çeynəyib-tökür" [8, s. 28];

"Bulud neçə yerindən yarıldı" [8, s. 47].

Verilən nümunələrdə metaforik ifadələr təbiət hadisələrinin şəxsləndirilməsi yolu ilə formalaşmışdır. Müəllif bitki, quş və bulud kimi təbiət elementlərinə insana məxsus davranış və hərəkət xüsusiyyətləri aid etməklə onların ifadəlilik imkanlarını genişləndirir. Bu tip metaforalar mətnin emosional-ekspressiv təsirini gücləndirməklə yanaşı, yazıçının təbiəti canlı və düşünən bir varlıq kimi qavramasını da əks etdirir. Beləliklə, təbiət təsvirləri, sadəcə, informativ xarakter daşımır, həm də əsərin poetik-estetik məzmununun formalaşmasında mühüm rol oynayır.

Mücərrəd anlayışların cisimləşdirilməsi də yazıçının metaforik üslubunun mühüm cəhətlərindəndir. *"Vaxt gəmirib taxtaları, vaxtın yeri görünür"* [7, s. 88]. Nümunədəki "vaxt gəmirib taxtaları" ifadəsində zaman canlı və dağıdıcı gücə malik varlıq kimi təqdim olunur, yırtıcı bir orqanizmə çevrilir. Burada zamanın dağıdıcı təsiri güclü məcaz vasitəsilə ifadə edilir. "Gəmirmək" heyvana xas hərəkətdir; vaxtın taxtaları gəmirməsi isə zaman keçdikcə hər şeyin köhnəlməsini, aşınmasını son dərəcə güclü obrazla ifadə edir.

Müəllifin metaforik təfəkküründən maraqlı xüsusiyyətlərindən biri də uzadılmış metaforalardan istifadə etməsidir. *"Xəcalətindən ölmək istəyirdi, avtobusda donubmuş, donu indi açılırdı, bir-iki kərə özünü ora-bura vurdu, basını-gözünü yaraladı"* [7, s. 33]. Burada "donmaq" sözü həm fiziki, həm psixoloji mənada – həyəcandan donub qalmaq – işlənmişdir. "Donu açılmaq" isə eyni məcazi sistemin davam etdirilməsidir: həyəcanın azalması, çaşqınlıqdan çıxış. Nümunədə "donmaq" və "donu açılmaq" ifadələri bir məcazi sistem daxilində işlənərək qəhrəmanın psixoloji vəziyyətini dinamik şəkildə təqdim edir. Belə nümunələrdə metafora təkcə bir söz səviyyəsində deyil, bütöv sintaktik konstruksiya daxilində inkişaf edir və metaforik sistem cümləni bütünlükdə əhatə edir.

Beləliklə, Mövlud Süleymanlı yaradıcılığında metaforalar həm də yazıçının fəlsəfi düşüncəsini əks etdirir. Su, torpaq, yol, köç kimi anlayışlar əsərlərdə yalnız predmet deyil, həm də milli yaddaşın, həyatın davamlılığının və mənəvi köklərin simvoluna çevrilir. Bu baxımdan metafora Süleymanlı yaradıcılığında dil hadisəsi olmaqla yanaşı, dünyagörüşünün ifadə vasitəsi kimi də çıxış edir.

Mövlud Süleymanlının yaradıcılığında geniş işlənən məcaz növlərindən digəri isə metonimiyadır. *"Metafora bir sıra əlamətlərin oxşarlığına*" [10, s. 152] əsaslansa da, metonimiya ondan fərqli olaraq oxşarlıq deyil, yaxınlıq və əlaqə prinsipi əsasında formalaşır. Bu əlaqə məkan, zaman, səbəb-nəticə, hissə-bütöv və digər münasibətlər üzərində qurulur. Metaforada bənzətmə əsasında, metonimiyada isə təmas, yaxınlıq əsasında köçürmə baş verir. Metonimiya bədii ədəbiyyatda bir neçə əsas model üzrə işlənir. Mövlud Süleymanlı əsərlərində metonimiyalar həm dilin yığcamlığını təmin edir, həm də kollektiv düşüncə və milli yaddaşın ifadəsinə xidmət edir.

"Bədii əsərlərin dili öz xüsusi konkretliyi ilə seçilir və fərdi varlıqların canlandırılmasına kömək edir" [2, s. 80]. Süleymanlı yaradıcılığında metonimiyanın ən məhsuldar modeli yer adının orada yaşayan insanların adı əvəzinə işlədilməsidir. Xüsusilə "kənd" sözü yazıçının bədii dilində adi coğrafi məkan olmaqdan çıxaraq kollektiv insan obrazını ifadə edən semantik vahidə çevrilir. *"Kənd təəccüblənməyini belə bildirirdi"*[7, s. 25], *"Kənd məəttəl qalmışdı"*[7, s. 26], *"Kənd yuxu görürdü"* [9, s. 202] kimi nümunələrdə kənd anlayışı sakinlərin ümumi psixoloji vəziyyətini ifadə edir. Bu tip metonimiyalar yazıçının fərdi üslubunda xüsusi yer tutur. Müəllif ayrı-ayrı insanları deyil, bütöv bir kollektivin düşüncə və hisslərini təqdim etməyə çalışır. Beləliklə, fərdi emosiyalar ictimai xarakter qazanır. Kənd yaşayış məntəqəsi olmaqla yanaşı, həm də tarix, yaddaş, ənənə və mənəvi bütövlüyün simvoluna çevrilir.

Metonimiyanın digər maraqlı nümunəsi *"Kəndin səsiydi, abidənin yerləşdiyi dağda əks-səda verirdi"* [7, s. 25] cümləsindəki "kəndin səsiydi" ifadəsində müşahidə edilir. Burada "səs" konkret insanların yaratdığı səs olsa da, müəllif həmin insanları adlandırmır və onların yerinə məkanı göstərir. Nəticədə kollektivlik hissi daha güclü şəkildə vurğulanır.

"Evlərdə heç kəs yoxdu, dediyimiz kimi, bütün evlərin içi ölüb, daha doğrusu, kənd içindən ölüb" [7, s. 62]. Bu nümunədə "evlərin içi ölüb, kənd içindən ölüb" ifadəsi isə metonimiyanın mürəkkəb forması hesab edilə bilər. Burada ev insanların, kənd isə bütöv icmanın əvəzinə işlədilmişdir. Müəllif insanların yoxluğunu birbaşa demək əvəzinə, məkanın "ölməsi" obrazını yaradır. Bu isə emosional təsiri xeyli gücləndirir.

M.Süleymanlının metonimiyalarında diqqəti cəlb edən cəhətlərdən biri də onların digər məcazlarla sintez olunmasıdır. Məsələn, *"Kəndin əli yerdən-göydən üzülüb"*[7, s. 61] nümunəsində metonimiya və frazeoloji məna paralel şəkildə işlənmişdir. Burada "kənd" sözü sakinlərin yerinə işlənir, eyni zamanda, ümidsizlik mənası da ifadə olunur.

Metonimiyalar yazıçının milli yaddaş konsepsiyasının ifadəsində də mühüm rol oynayır. Əsərlərdə kənd, ev, yol, torpaq kimi anlayışlar yalnız məkan funksiyası daşımır; onlar tarixi təcrübənin, kollektiv şüurun və milli kimliyin daşıyıcısı kimi çıxış edir. Bu səbəbdən metonimiya müəllifin bədii dünyasında həm də ideya yükü daşıyan mühüm poetik mexanizmdir.

Mövlud Süleymanlı yaradıcılığında təşbehlər də xüsusi yer tutur. Yazıçının təşbehləri xalq təfəkküründən, folklor ənənəsindən və təbiətlə sıx bağlı dünyagörüşündən qaynaqlanır. Bu təşbehlər yalnız zahiri oxşarlığı ifadə etmir, həm də dərin fəlsəfi və emosional məzmun daşıyır.

"Dilçilik elmində təşbeh iki və ya daha çox şeyin ortaq bir xüsusiyyətə sahib olduğunu göstərən termin"dir [3, s. 553]. *"İfadəyə güc qatmaq üçün aralarında gerçək, ya da məcaz çeşidli yönlərdən yaxınlıq, bənzərlik üzə çıxan, ən azı iki məvhumdan oxşarlıq baxımından güclü olana təşbeh deyilir*" [6, s. 26]. Beləliklə, təşbeh bənzədilən iki əşya arasındakı oxşarlığı aşkar edərək oxucunun gözündə canlı bir vizual, hissi, ya da fəlsəfi obraz yaradır. Təşbeh üç əsas cəhətdən metaforadan fərqlənir. Birincisi, təşbehdə oxşarlıq açıqdır – bənzətmə ədatı işlənir; metaforada isə örtülüdür. İkincisi, təşbehdə hər iki tərəf – bənzədilən və bənzədilən əşya – adlandırılır; metaforada isə yalnız ikinci tərəf işlənir.

Üçüncüsü, təşbeh daha analitikdir – oxşarlığın əsasını göstərə bilir; metafora isə daha sıxlaşmış, daha güclü emosional təsir bağışlayır.

Yazıçının təşbehlərində ən çox diqqət çəkən xüsusiyyət təbiət və insan arasında yaradılan paralellərdir. *"Torpağın kimi sən də cücərəcəksən"*[7, s. 30] nümunəsində insan taleyi torpağın məhsuldarlığı ilə müqayisə edilir. Burada torpaq təkcə təbiət elementi deyil, həm də həyatın davamlılığının və yenilənməsinin simvoludur.

"Ağac torpağa sancılan kimi, xalq vətənə sancılır, ona görə də vətəni olan vətənsiz yaşaya bilmir" [7, s. 88]. Nümunədəki təşbeh də müəllifin milli düşüncə konsepsiyasını əks etdirir. Burada xalqın vətənlə əlaqəsi ağacın torpaqla bağlılığı vasitəsilə izah edilir. Bu təşbeh həm obrazlılığı, həm də fəlsəfi dərinliyi ilə seçilir.

M.Süleymanlı yaradıcılığında fiziki-hissi təşbehlər də geniş yer tutur. *"Soyuq it kimi yeyir adamı"* [7, s. 38] nümunəsində soyuğun insan üzərində yaratdığı təsir konkret və təsirli şəkildə təqdim edilir. Müəllif abstrakt hissi konkret obraz vasitəsilə oxucunun yaddaşında canlandırır.

Vizual təşbehlər yazıçının dilində xüsusi estetik gözəllik yaradır: *"Akademik Ulubabyanın gözləri qırış-qırış olmuş sifətində muncuq kimi parıldadı"* [7, s. 37]; *"Yol qardı, qan damcıları qarın üstündə qara hopub çiçək kimi ləçək açır"* [7, s. 62].

"Muncuq kimi parıldayan gözlər", "çiçək kimi ləçək açan qan damcıları" kimi ifadələr adi müşahidələri poetik tabloya çevirir. Xüsusilə qan damcılarının çiçəyə bənzədilməsi faciə ilə gözəlliyin eyni məkanda birləşməsinə imkan yaradır və mətnə dərin emosional çalar qazandırır.

Akustik təşbehlər də yazıçının üslubunda mühüm yer tutur. *"Şüşə qırıntılarına bənzəyən quş səsləri"* [8, s. 28] cümləsində eşitmə duyğusu vizual təsəvvürlə birləşdirilir. Bu cür nümunələr sinestezik obrazların yaranmasına səbəb olur və oxucuya çoxölçülü hiss yaşadır.

Müəllifin təşbehləri arasında hərəkət oxşarlığına əsaslanan nümunələr də diqqətəlayiqdir. *"İnsan axını toxunma kəndir kimi yanımdan keçib gedir"*[7, s. 66] ifadəsində insanların hərəkəti kəndirin uzanmasına bənzədilir. Burada təşbeh, sadəcə, forma deyil, ritm və hərəkət xüsusiyyətlərini də ifadə edir.

Təşbehlərin mühüm xüsusiyyətlərindən biri onların xalq danışıq dili və folklor poetikası ilə bağlı olmasıdır. Yazıçının istifadə etdiyi bənzətmələr süni təsir bağışlamır, təbii şəkildə nitqin tərkib hissəsinə çevrilir. Bu da onun əsərlərinin milli koloriti və bədii təsir gücünü artırır.

Qeyd edilənlərdən əlavə, müəllifin dilində zəngin mübaliğə, litota, epitet, təzad nümunələrinə də rast gəlinir. Lakin Mövlud Süleymanlının bədii dilində yuxarıda bəhs açdığımız üç məcaz növü çox vaxt ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqə şəklində fəaliyyət göstərir. Müəllif eyni mətn daxilində müxtəlif məcaz qatları yaradır və bununla semantik zənginlik əldə edir.

Məsələn, *"Kəndə gələn yollar düşüncələrdə məftil kimi dartınıb səs eləyir"* [7, s. 28] cümləsində "yolların düşüncələrdə yaşaması" metafora, "məftil kimi" ifadəsi isə təşbeh funksiyası daşıyır. Nəticədə çoxqatlı bədii obraz meydana gəlir.

Belə nümunələr göstərir ki, yazıçı məcazlardan təcrid olunmuş şəkildə istifadə etmir. Onlar vahid poetik sistemin tərkib hissələri kimi fəaliyyət göstərir və bir-birini tamamlayır.

NƏTİCƏ: Aparılmış tədqiqat göstərir ki, Mövlud Süleymanlının bədii dili Azərbaycan nəsrində məcazların ən sistemli və funksional şəkildə istifadə olunduğu nümunələrdən biridir. Yazıçının əsərlərində metafora, metonimiya və təşbeh yalnız bədii təsvir vasitəsi kimi deyil, həm də müəllif dünyagörüşünün, milli yaddaş konsepsiyasının və fəlsəfi düşüncəsinin ifadə forması kimi çıxış edir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, metafora Mövlud Süleymanlının yaradıcılığında ən məhsuldar məcaz növüdür. Müəllif xüsusilə uzadılmış metaforalardan geniş istifadə edir, bir obrazı bir neçə cümlə və ya bütöv mətn parçası boyunca inkişaf etdirərək çoxqatlı semantik sistem yaradır. Təbiət hadisələrinin canlandırılması, mücərrəd anlayışların cisimləşdirilməsi və insanın daxili aləminin konkret obrazlarla təqdim olunması yazıçının metaforik təfəkküründün əsas istiqamətlərini təşkil edir.

Metonimiya Süleymanlının əsərlərində kollektiv düşüncənin və milli yaddaşın ifadəsində mühüm rol oynayır. Xüsusilə "kənd" anlayışının sakinlərin, kollektiv hiss və düşüncələrin ifadəçisi kimi işlədilməsi müəllifin fərdi üslub xüsusiyyətlərindən biri hesab oluna bilər. Bu vasitə sayəsində fərdi hadisələr ictimai məna qazanır, obrazların semantik yükü genişlənir.

Təşbehlər isə yazıçının folklor ənənəsinə bağlılığını və milli poetik təfəkkürə söykəndiyini nümayiş etdirir. Müəllifin istifadə etdiyi bənzətmələr təbiət, insan və cəmiyyət arasındakı əlaqələri üzə çıxarmaqla yanaşı, fəlsəfi ümumiləşdirmələrin ifadəsinə də xidmət edir. Vizual, akustik, hissi və fəlsəfi təşbehlər əsərlərin poetik təsir gücünü artırır.

Araşdırma zamanı həmçinin müəyyən edilmişdir ki, Mövlud Süleymanlının məcazlar sistemi ayrı-ayrı bədii vasitələrin məcmusu deyil, vahid poetik struktur təşkil edir. Metafora, metonimiya və təşbeh bir çox hallarda qarşılıqlı əlaqədə işlənərək mətnin semantik və estetik potensialını genişləndirir. Bu xüsusiyyət yazıçının fərdi üslubunun əsas göstəricilərindən biri kimi qiymətləndirilə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Adilov M., Verdiyeva Z., Ağayeva F. Azərbaycan semasiologiyası. Bakı: Elm, 2019, 304 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı: Şərq-Qərb, 2007, 192 s.
3. Durmuş İ. Teşbih // TDV İslâm Ansiklopedisi, 2011, №40, s. 553–556.
4. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı: Elm və təhsil, 2012, 352 s.
5. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Nurlan, 2005, 452 s.

6. Mustafayev M. Bədii təsvir və ifadə vasitələrinin xüsusiyyətləri // Sumqayıt Dövlət Universiteti "Elmi xəbərlər" – Sosial və humanitar elmlər bölməsi, 2021, cild 17, № 2, s. 25–30.
7. Süleymanlı M. And olsun əsrə. Bakı: Elm və təhsil, 2012, 528 s.
8. Süleymanlı M. Dərsdən öncə yazılanlar. Bakı: Qanun, 2020, 254 s.
9. Süleymanlı M. Üç roman: Köç, Ceviz Qurdu, Səs. Bakı: Azərbaycan, 2004, 584 s.
10. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 s.

Ulviyya Rahman gizi Ibrahimova
Baku State University, Faculty of Philology,
Doctoral student of the Department of Azerbaijani Linguistics
https://orcid.org/0009-0009-8044-646X
ulviyya.ibrahimova.rahman@gmail.com

Metaphors ın the poetıc language of Movlud Suleymanlı

Summary

The article examines the system of metaphors in the artistic language of Movlud Suleymanli, one of the well-known representatives of Azerbaijani literature. The main purpose of the study is to determine the semantic, stylistic and aesthetic characteristics of metaphors, metonymies and similes used in the writer's works. The research material for the study is the works of Movlud Suleymanli.

In the article, examples of metaphors, metonymies and similes in Movlud Süleymanli's work are investigated in a comprehensive manner for the first time within the framework of a single metaphor system. It has been established that in the writer's works, these types of metaphors do not operate in isolation from each other, but rather create a poetic system that interacts. Their interaction increases the semantic depth of the text, strengthens the power of artistic and aesthetic impact, and plays an important role in the formation of the writer's individual style.

The results of the study demonstrate that Movlud Suleymanli's use of figurative devices not only reflects the characteristics of the national artistic mentality but also contributes significantly to the expansion of the poetic possibilities of Azerbaijani prose and to the formation of an individual literary style. The study has revealed that metaphor, metonymy and simile function as components of a unified poetic structure in the writer's works, expanding the semantic and aesthetic potential of the text and shaping the distinctive features of his individual style.

Keywords: Movlud Suleymanli, artistic language, metaphor, metonymy, simile, metaphor system, stylistics, poetic language.

Ульвия Рахман Гизи Ибрагимова
Бакинский Государственный Университет, Филологический факультет,
Докторант кафедры Азербайджанской лингвистики
https://orcid.org/0009-0009-8044-646X
ulviyya.ibrahimova.rahman@gmail.com

Метафоры в поэтическом языке Мовлуда Сулейманли

Резюме

В статье исследуется система метафор в художественном языке Мовлуда Сулейманли, одного из известных представителей азербайджанской литературы. Основная цель исследования – определение семантических, стилистических и эстетических характеристик метафор, метонимии и сравнений, используемых в произведениях писателя. В качестве исследовательского материала для данного исследования использованы работы Мовлуда Сулейманли.

В статье впервые в рамках единой метафорической системы всесторонне исследуются примеры метафор, метонимии и сравнений в творчестве Мовлуда Сулейманли. Установлено, что в произведениях писателя эти виды метафор действуют не изолированно друг от друга, а образуют взаимодействующую поэтическую систему. Их взаимодействие увеличивает смысловую глубину текста, усиливает художественно-эстетическое воздействие и играет важную роль в формировании индивидуального стиля писателя.

Результаты исследования показывают, что способы использования образных средств Мовлудом Сулейманли не только отражают особенности национального художественного мышления, но и вносят существенный вклад в расширение поэтических возможностей азербайджанской прозы и формирование индивидуального авторского стиля. В ходе исследования было установлено, что метафора, метонимия и сравнение выступают в произведениях писателя как элементы единой поэтической структуры, расширяя семантический и эстетический потенциал текста и формируя характерные черты его индивидуального стиля.

Ключевые слова:*Мовлуд Сулейманли, художественный язык, метафора, метонимия, сравнение, метафорическая система, стилистика, поэтический язык*

Rəyçi: prof. Reyhan Həbibli

DOI: 10.24412/2218-7588-2026-2-124-128

Ülkər Valeh qızı Çəndirli
Sumqayıt Dövlət Universiteti, Azərbaycan
E-mail: ulkervaleh@gmail.com
https://orcid.org/0009-0002-1510-8623

İDEONİMLƏR SİSTEMİNDƏ HEMERONİMLƏRİN YERİ VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ:Müasir onomastikanın tədqiqat obyektlərindən biri ideonimdir. İdeonimlərin içərisində hemeronimlər diqqəti xüsusi çəkir. Hazırda onomastikada hemeronimlərə həsr olunmuş xüsusi tədqiqatlar mövcud deyildir və bu termin də geniş istifadə olunmur. Məqalədə onomastik leksikanın periferik sahəsinə aid olan ideonimlər sistemində hemeronimlərin yeri, nəzəri mahiyyəti və inkişaf xüsusiyyətləri araşdırılır. Hemeronimlərin ideonimlərin bir növü kimi statusu, onların digər xüsusi ad kateqoriyalarından fərqləndirən əlamətləri, nominativ, identifikasiyaedici, informativ və reklam funksiyaları təhlil edilir. Müasir informasiya cəmiyyətində rəqəmsal media platformalarının inkişafı ilə hemeronimlərin semantik və funksional transformasiyaya uğradığı göstərilir. Tədqiqat nəticəsində müəyyən edilir ki, hemeronimlər onomastik sistemin periferik vahidləri olmaqla yanaşı, cəmiyyətin ideoloji, sosial və mədəni inkişafını əks etdirən dinamik xüsusi adlar qrupunu təşkil edir.

Açar sözlər: onomastika, ideonim, hemeronim, kütləvi informasiya vasitələri, xüsusi adlar, nominasiya.

GİRİŞ:İdeonim termini insanın intellektual, elmi, bədii və mənəvi fəaliyyəti nəticəsində yaranmış obyektlərin xüsusi adlarını ifadə edir. Bu qrupa bədii əsərlərin, musiqi nümunələrinin, təsviri sənət əsərlərinin, filmlərin, qəzet və jurnalların, televiziya proqramlarının adları daxildir.

İdeonimlərin əsas xüsusiyyəti onların maddi obyektləri deyil, insan təfəkküründən məhsullarını adlandırmasıdır. Buna görə də onlar həm nominativ, həm də simvolik xarakter daşıyır. İdeonimlər cəmiyyətin mədəni inkişaf səviyyəsini, ideoloji prioritetlərini və milli-mədəni dəyərlərini özündə əks etdirən xüsusi adlar hesab olunur.

Onomastik sistemdə ideonimlər periferik mövqedə yerləşsələr də, onların sayı və funksional imkanları daim genişlənir. İnformasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq ideonimlərin yeni növləri yaranmış, onların kommunikativ əhəmiyyəti daha da artmışdır.

Onomastikanın bütün kateqoriyalarının öyrənilməsinə sistemli yanaşma onomastikada prioritet məsələyə çevrilmişdir. XX əsrin sonlarında bir çox alimlər (V.İ.Suprun, İ.V.Kryukova, V.G.Qak və b.) nüvə-periferik münasibətləri ön plana çıxarmaqla onomastik məkanı sahə strukturu kimi nəzərdən keçirməyə başladılar. İ.V. Kryukova hesab edir ki, antroponimlər onomastik məkanın mərkəzidir, dairəvi məkanı toponimlər, kosmonimlər, teonimlər, mifonimlər, zoonimlər tutur. Xüsusi adların periferik boşalmaları uzun müddət tədqiqatçıların nəzərindən kənarda qalmışdır. İncəsənət əsərlərinin adları – rəsmlər, heykəllər, filmlər, musiqi və ədəbi əsərlər – özünəməxsus xüsusiyyətləri ilə özünəməxsus cərgələri təşkil edir.

Alimlər ideonim terminindən insanın yaradıcılıq fəaliyyəti ilə bağlı vahid obyektləri təyin etmək üçün istifadə edirlər. Onomastik məkanın periferik hissəsinə aid olan ideonimlərə artionimlər (təsviri sənət əsərlərinin adları), biblonimlər (kitab

Kütləvi informasiya vasitələrinin adları N.V.Podolskayanın “Rus onomastik terminologiyası lüğəti”ndə xüsusi terminlə – hemeronimlər (yunanca *hemero* – “gün, sutka” və *onim* – “ad”) adlandırılmışdır. Müəllif bu termini “dövri mətbuat orqanlarının, o cümlədən qəzetlərin, jurnalların və informasiya bülletenlərinin xüsusi adı» kimi izah edir [6, s. 46]. Azərbaycan mətbuatında da qəzet və jurnal adları onomastik baxımdan hemeronimlər qrupuna daxildir və hər biri müəyyən kommunikativ, informasiya və reklam funksiyasını yerinə yetirir. Azərbaycanda nəşr olunan “Azərbaycan”, “Xalq qəzeti”, “525-ci qəzet”, “Ədəbiyyat qəzeti”, “Kaspi”, “Ayna-Zerkalo”, “Bakı” (tarixi nəşr), “İRS”, “Azərbaycan məktəbi”, “Elm və həyat” kimi qəzet və jurnal adları hemeronimlərə nümunədir. Bu adlar nəşrin mövzusunu, ideoloji istiqamətini, hədəf auditoriyasını və ya milli-mədəni məzmununu əks etdirir.

Necə ki, müəyyən bir ərazinin bütün coğrafi adları onomastikada ümumi şəkildə toponimiya termini ilə ifadə olunur, eyni qaydada da hər hansı bir dil birliyində mövcud olan media vasitələri adlarının məcmusu üçün hemeronimiya termini işlədilə bilər. Beləliklə, hemeronimiya müəyyən bir dildə mövcud olan bütün informasiya mənbələrinin xüsusi adlarının məcmusunu əhatə edir.

Deməli, hemeronimlər, yəni kütləvi informasiya vasitələrinin adları ideonimlərin növlərindən biri olmaqla onomastik leksikanın tərkib hissəsini təşkil edir. Bununla belə, həmin leksika daxilində bütün vahidlər bərabər mövqeyə malik deyildir. Bu xüsusilə media vasitələri adlarının onomastik məkandakı yerinə nəzər saldıqda daha aydın görünür.

ƏSAS HİSSƏ: Hemeronimlər onomastik leksikanın bir qrupunu təşkil etsələr və onun əsas xüsusiyyətlərini daşısalar da, özlərinə məxsus spesifik cəhətlərə də malikdirlər. Kütləvi informasiya vasitələrinin adları ayrı-ayrı predmetlərə (şəxs adları və ya coğrafi obyektlərin adları kimi) deyil, eynitipli qəzet və jurnal tirajlarına, həmçinin eynitipli televiziya verilişləri silsilələrinə verilir. Onlar həmişə bir-birindən dəqiq fərqlənməyən, lakin ümumi mövzu və ideya ətrafında birləşən obyektləri adlandırır. Bu isə həmin onim növünün fərdiləşdirməsinin xüsusi tipini – tirajların, seriyaların və silsilələrin fərdiləşdirilməsini – qəbul etməyə əsas verir. Başqa sözlə, hemeronim adi xüsusi adlar kimi predmeti deyil, müəyyən çap məhsullarının buraxılması, radio və televiziya proqramlarının müxtəlif janrlarda hazırlanması hüququnu fərdiləşdirir. Hemeronimlər ideologiya və siyasətlə ən sıx bağlı olan xüsusi adlardır; burada məhz fəaliyyətin əsas ideyası və istiqaməti fərdiləşdirmə obyekti olur.

Bu termin altında "insan fəaliyyətinin intellektual, ideoloji və bədii sahələrində denotatları olan müxtəlif xüsusi ad kateqoriyaları şərti olaraq birləşdirilir" [6, s. 61]. Bu tərifdən çıxış edərək belə nəticəyə gəlmək olar ki, kütləvi informasiya vasitələrinin adları da, bu adların denotatları insan fəaliyyətinin intellektual sferasında yerləşdiyinə görə, tam əsaslı şəkildə ideonimlər sırasına daxil edilir, daha dəqiq desək, ideonimin növlərindən biridir.

"Hemeronim**"** termini İ.V.Kryukova tərəfindən daha da genişləndirilmişdir. Müəllif əsas edir ki, dövri mətbuat nəşrləri kütləvi informasiya vasitələrinin yalnız bir növüdür. Digər mühüm media vasitələrinə radio, televiziya, video və kinoxronika proqramları da daxildir. Dövri nəşrlər kimi, onlar da ümumi mövzu və ideya ətrafında birləşən materiallar toplusundan ibarətdir və daimi adlara malikdir. Həm dövri nəşrlərin, həm də digər media vasitələlərin adları qanunvericiliklə təsbit edilir və hüquqi cəhətdən qorunur [4, s. 32].

A.V.Superanskayanın qeyd etdiyi kimi, "dövri mətbuat orqanlarının, televiziya kanallarının və televiziya verilişlərinin xüsusi adları müəssisə adlarına yaxındır, çünki bu cür hər bir adın arxasında ortaq ideya və baxışlarla birləşmiş, müəyyən çap məhsulları nəşr edən və ya müəyyən televiziya proqramlarını efirə təqdim edən insanlar qrupu dayanır" [7, s. 246].

İ.V.Kryukova hemeronimləri reklam xarakterli adlar sırasına daxil edir (müəssisə, təşkilat, nəqliyyat vasitələri, mallar, sənədlər və tədbirlərin adları ilə birlikdə). Bu adlar onomastik leksikanın tərkib hissəsi olsalar da, onun periferik zonasına aid edilir [7, s. 69]. Periferik xüsusi adlar kimi hemeronimlər bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Müəllif bu xüsusiyyətləri Rusiya və Böyük Britaniya hemeronimləri əsasında nəzərdən keçirir.

Birincisi, hidronimlər, zoonimlər, kosmonimlər və digər onomastik qruplardan fərqli olaraq, hemeronimlər qısamüddətli və dəyişkən xarakter daşıyır. Onlar siyasi, iqtisadi və ictimai həyatda baş verən dəyişikliklərlə birlikdə dəyişir. Müasir rəqabət şəraitində hemeronimlər təkcə informasiya deyil, həm də aydın ifadə olunan reklam funksiyasını yerinə yetirirlər. Bu isə siyasi dəyişikliklər və ya nəşrin yayım arealının genişlənməsi ilə bağlı çoxsaylı ad dəyişikliklərinə səbəb olur. Müasir informasiya məkanında Azərbaycan hemeronimləri də yalnız informasiya ötürmək funksiyası ilə kifayətlənmir, eyni zamanda brend funksiyasını yerinə yetirirlər. İnternet medianın inkişafı, auditoriya uğrunda rəqabət və media bazarındakı dəyişikliklər bəzi nəşrlərin adlarının dəyişdirilməsinə, birləşdirilməsinə və ya yeni brendlər altında fəaliyyət göstərməsinə səbəb olmuşdur. Məsələn, uzun müddət ayrıca fəaliyyət göstərən "Ayna"və "Zerkalo" qəzetləri sonradan "Ayna-Zerkalo" adı altında nəşr edilmiş, bir sıra çap nəşrləri isə sonradan yalnız elektron media formatında fəaliyyətini davam etdirmişdir.

İkincisi, hər bir onomastik qrup kimi hemeronimlər də ümumi leksikaya müəyyən mənada qarşı qoyulan xüsusi leksikaya aiddir. Onlar semasioloji baxımdan ümumi leksikadan fərqlənirlər, çünki böyük əksəriyyəti təkrar istifadə olunmuş sözlərdən, yəni ikincili nominasiya nəticəsində yaranmış vahidlərdən ibarətdir. Bu sözlərin məzmunu yeni təyinat üçün ya təbii şəkildə, ya da məqsədli şəkildə dəyişdirilir. Yerli və xarici dilçilik ədəbiyyatında bu cür adlandırma "süni nominasiya" termini ilə ifadə olunur. Süni nominasiya da dilçiliyin kifayət qədər az öyrənilmiş sahələrindən biridir. Hazırda bu mövzuya dair yalnız az sayda xüsusi tədqiqat mövcuddur və həmin tədqiqatlarda süni nominasiyanın əsas xüsusiyyətləri, eləcə də onun təbii nominasiyadan fərqləri araşdırılır [2; 5].

Bundan əlavə, bu günədək süni nominasiya ilə bağlı aparılmış tədqiqatlar əsasən onomastikanın mərkəzi qruplarını əhatə edir. Hemeronimlər isə süni nominasiya baxımından hələ də kifayət qədər öyrənilməmişdir: onların yaranma şəraiti və yolları, eləcə də yeni yaradılmış adların uzusda möhkəmlənməsi prosesləri araşdırılmamışdır. Halbuki hemeronimlər cəmiyyətin inkişafının məhsulu kimi məqsədyönlü şəkildə yaradılır, yazılı şəkildə təsbit olunmaq və reklam vasitəsilə dəfələrlə təkrarlanmaqla dilin lüğət tərkibinə daxil olur və gündəlik istifadədə möhkəm yer tutur. Başqa sözlə, hemeronimlər öz inkişafında süni nominasiya vahidlərinə xas olan təkamül yolunu keçir.

Hazırda "təbii nominasiya" və "süni nominasiya" terminlərinin müxtəlif, hər zaman üst-üstə düşməyən və vahid olmayan izahları mövcuddur. Bununla belə, əksər tədqiqatçılar süni və təbii adlandırmanın dildə spontanlıq və şüurluluq kateqoriyaları ilə sıx bağlı olduğunu qəbul edirlər. Hər iki hadisənin xüsusiyyətlərini aydınlaşdıran V.Q.Qak adlandırma situasiyası anlayışına müraciət edir və onu «danışanın şüurunda və obyektiv gerçəklikdə nitq aktı zamanı mövcud olan, ifadənin formalaşması prosesində dil vahidlərinin seçimini müəyyən dərəcədə şərtləndirən elementlərin məcmusu» kimi xarakterizə edir [2, s. 358].

M.V.Qolomidova məzmun, formal quruluş, funksional və qnoseoloji aspektlər baxımından təbii və süni nominasiyanı fərqləndirən meyarları dəqiqləşdirməyə çalışmışdır. Tədqiqatın nəticəsində müəllif bizim üçün mühüm olan belə bir qənaətə gəlir ki, "təbii nominasiya nitq ünsiyyəti prosesində dil kollektivinin dil vahidinin məzmun və formasının optimal variantını spontan şəkildə seçməsi prosesidir" [2, s. 4], süni nominasiya isə "yaradılmış nominativ vahidin əvvəlcədən uzusda möhkəmlənməsinə yönəlmiş şüurlu və məqsədyönlü nominativ aktdır" [2, s. 7]

Hemeronimlərin ideonimlər sistemində yeri. Hemeronim termini N.V.Podolskaya tərəfindən dövri mətbuat orqanlarının xüsusi adlarını ifadə etmək üçün işlədilmişdir. Sonralar İ. V. Kryukova bu anlayışı genişləndirərək televiziya, radio proqramlarını, video və digər kütləvi informasiya vasitələrinin adlarını da həmin qrupa daxil etmişdir.Müasir yanaşmaya əsasən, hemeronimlər dedikdə qəzetlərin, jurnalların, televiziya kanallarının, radio proqramlarının, xəbər portallarının və digər informasiya resurslarının xüsusi adları başa düşülür.

Hemeronimlərin əsas xüsusiyyətləri. Hemeronimlərin ən mühüm xüsusiyyəti onların dinamik xarakter daşımasıdır. Antroponim və ya toponimlərdən fərqli olaraq KİV adları sosial və siyasi dəyişikliklərə daha həssasdır. Nəşrin konsepsiyasının dəyişməsi, auditoriyanın genişlənməsi və ya brend strategiyasının yenilənməsi ad dəyişikliyinə səbəb ola bilir.

Digər mühüm xüsusiyyət onların süni nominasiya nəticəsində yaranmasıdır. Hemeronimlərin böyük hissəsi

ümumişlək sözlərin semantik transformasiyası yolu ilə formalaşır. Belə adlar oxucunun diqqətini cəlb etmək, nəşrin ideyasını ifadə etmək və yadda qalmaq məqsədi daşıyır.

Hemeronimlər polifunksional xarakterə malikdir. Onlar:

- identifikasiya funksiyası;
- nominativ funksiya;
- informativ funksiya;
- ekspressiv funksiya;
- reklam funksiyası;
- praqmatik funksiya;
- imicyaratma funksiyasını eyni zamanda yerinə yetirirlər.

Xüsusilə reklam funksiyası müasir media bazarında daha qabarıq şəkildə özünü göstərir. KİV adı informasiya məhsulunun bazarda tanınmasına və rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

Hemeronimlərin inkişaf xüsusiyyətləri. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı hemeronimlərin strukturunda və funksiyalarında ciddi dəyişikliklər yaratmışdır.

Əvvəllər hemeronimlər əsasən qəzet və jurnal adlarını ifadə etdiyi halda, hazırda internet xəbər portalları, elektron qəzetlər, rəqəmsal televiziya platformaları, podkastlar, videobloqlar və multimedia layihələrinin adları da bu qrupa aid edilir.

Qloballaşma prosesləri nəticəsində beynəlxalq xarakterli media adlarının sayı artmışdır. İngilis dili mənşəli komponentlərdən istifadə, qısaldılmış adların yaranması, hibrid nominasiya modellərinin geniş yayılması müasir hemeronimiyanın əsas inkişaf istiqamətlərindəndir.

Azərbaycan mediasında da oxşar proseslər müşahidə olunur. Ənənəvi qəzet adları ilə yanaşı, internet platformalarının və rəqəmsal informasiya resurslarının adlarında beynəlxalq terminlər, abreviaturalar və innovativ nominasiya üsulları geniş tətbiq edilir. Rəqəmsallaşma hemeronimlərin yalnız strukturunu deyil, onların funksional yükünü də dəyişmişdir. Müasir media adları informasiya verməklə yanaşı, brendin tanıdılması, auditoriyanın cəlb edilməsi və rəqəmsal platformalarda identikliyin formalaşdırılması funksiyalarını yerinə yetirir.

Media vasitələrinin adlarında müşahidə olunan süni nominasiyanın aşağıdakı səciyyəvi xüsusiyyətlərini ayırmaq mümkündür.

1. Hər bir Azərbaycan hemeronimi xüsusi ad kimi məqsədyönlü nominasiya aktının məhsuludur. Nəşrin təsisçisi və ya redaksiya kollektivi adı seçərkən onun ictimai rezonansını, informativliyini və yadda qalmasını nəzərə alır. Bu baxımdan "Xalq qəzeti","Azərbaycan müəllimi","Azərbaycan məktəbi", "Kaspi" kimi adlar müəllif niyyətinin nəticəsi olaraq formalaşmışdır.

2. Hemeronim yaradılarkən oxucu auditoriyasının maraqları da nəzərə alınır. Ad həm nəşrin məzmunu haqqında ilkin təsəvvür yaradır, həm də potensial oxucunun diqqətini cəlb etməyə xidmət edir. Məsələn,"Elm və həyat","İRS","Azərbaycan məktəbi" jurnallarının adları onların elmi, maarifçi və mədəni istiqamətini birbaşa ifadə edir.

3. Adresatyönlü niyyətlər isə daha çox müasir internet media resurslarının və populyar jurnalların adlarında özünü göstərir. Bu tip adlar oxucunun diqqətini cəlb etmək, emosional təsir yaratmaq və yadda qalmaq məqsədi daşıyır. Məsələn, "525-ci qəzet" qeyri-adi rəqəm komponenti ilə seçilir, "İRS" jurnalı isə həm «irs» anlayışının milli-mədəni məzmununa, həm də beynəlxalq auditoriya üçün yığcam və yaddaqalan brend adına əsaslanır. İ.Qoryayevin haqlı olaraq vurğuladığı kimi, "nominatorun sərbəstliyi ümumi qəbul olunmuş "nominativ davranış" modeli və adresatın qavrayışına yönəlmə ilə məhdudlaşır" [3, s. 93]. Onomastik süni nominasiya prosesində bu iki əks meyl müəllifin nominativ niyyətlərində öz əksini tapır. S.İ.Qoryayev bu niyyətlərin iki növünü fərqləndirir:

- Obyektyönlü niyyətlər Azərbaycan mətbuatında daha çox dövlət, ictimai-siyasi və peşə yönümlü nəşrlərin adlarında müşahidə olunur. Bu tip adlar adlandırılan obyektin mahiyyətini birbaşa əks etdirir və nominativ baxımdan şəffafdır. Məsələn: "Xalq qəzeti", "Azərbaycan müəllimi", "Azərbaycan məktəbi", "Ədəbiyyat qəzeti". Bu adlarda əsas məqsəd nəşrin fəaliyyət sahəsini və oxucu auditoriyasını aydın göstərməkdir.
- Adresatyönlü niyyətlər isə daha çox müasir internet media resurslarının və populyar jurnalların adlarında özünü göstərir. Bu tip adlar oxucunun diqqətini cəlb etmək, emosional təsir yaratmaq və yadda qalmaq məqsədi daşıyır. Məsələn, "525-ci qəzet" qeyri-adi rəqəm komponenti ilə seçilir, "İRS" jurnalı isə həm «irs» anlayışının milli-mədəni məzmununa, həm də beynəlxalq auditoriya üçün yığcam və yaddaqalan brend adına əsaslanır. Bununla yanaşı, Azərbaycan mediasında yeni hemeronimlərin dil sistemində möhkəmlənməsi onların televiziya, radio, internet portalları və sosial şəbəkələr vasitəsilə fəal şəkildə təqdim olunması ilə baş verir. Nəşrlərin adları reklam kampaniyalarında, internet bannerlərində, televiziya süjetlərində və sosial media səhifələrində mütəmadi şəkildə təkrar olunur ki, bu da onların brend kimi tanınmasına xidmət edir. Beləliklə, müasir Azərbaycan hemeronimləri informasiya, identifikasiya, reklam və milli-mədəni təqdimat funksiyalarını eyni vaxtda yerinə yetirərək ölkənin onomastik sisteminin dinamik inkişaf edən ideonim qrupunu təşkil edirlər.

4. Nəhayət, media adlarının süni nominasiya vahidləri kimi sonuncu mühüm xüsusiyyəti ondan ibarətdir ki, onların uzusda möhkəmlənməsi çap kataloqlarında, reklam bukletlərində və geniş auditoriya üçün nəzərdə tutulmuş lövhələrdə mütləq yazılı şəkildə təsbit olunması ilə müşayiət edilir. Bu, həmin adların sonradan dil kollektivinin bütün üzvləri tərəfindən istifadə edilməsinə xidmət edir. Bundan əlavə, yeni adların ümumi dil sisteminə məqsədyönlü şəkildə daxil edilməsi onların adlandırılması faktının kütləvi kommunikasiya vasitələri (radio və televiziya) ilə şifahi

elan olunması yolu ilə həyata keçirilir. Bu, ilk növbədə, reklam çarxları vasitəsilə baş verir və həmin reklamların əksəriyyəti hemeronimin yarandığı söz və ya söz birləşməsinin dil oyunu əsasında qurulur.

Bundan əlavə, yeni media adlarının ümumi dil sistemində möhkəmlənməsi onların televiziya, radio, rəqəmsal media platformaları və sosial şəbəkələr vasitəsilə geniş auditoriyaya təqdim olunması ilə həyata keçirilir. Xüsusilə, reklam kampaniyaları, təqdimat çarxları, promoçarxlar və ictimai məlumatlandırma vasitələri yeni media adlarının cəmiyyət tərəfindən tanınmasına və aktiv istifadəyə daxil olmasına xidmət edir. Bu prosesdə media adının semantik yükü, milli-mədəni dəyərlərlə əlaqəsi və auditoriyada müsbət assosiasiyalar yaratmaq qabiliyyəti mühüm rol oynayır. Məsələn, "Azərbaycan", "Xalq qəzeti", "525-ci qəzet", "Kaspi", "Ayna-Zerkalo", "İki sahil", "Report", Real TV, ARB, Mədəniyyət TV kimi media adları öz semantik quruluşu və ideya məzmunu ilə həm informasiya funksiyasını yerinə yetirir, həm də milli identiklik, etibarlılıq, obyektivlik və ictimai dəyərlərlə bağlı müəyyən təsəvvür formalaşdırır.

NƏTİCƏ: Beləliklə, kütləvi informasiya vasitələrinin adlarını onomastik leksikanın müstəqil bir qrupu – hemeronimlər kimi nəzərdən keçirmək olar. Çünki onlar xüsusi adların əsas xüsusiyyətinə – fərdiləşdirmə qabiliyyətinə malikdirlər. Bununla yanaşı, tez-tez dəyişməsi, semantik baxımdan şəffaf olması, süni şəkildə yaradılması və reklam kommunikasiyasına sıx bağlılığı kimi xüsusiyyətlər hemeronimlərin onomastik məkanda periferik mövqe tutduğunu göstərir.

Hemeronimlər ideonimlər sisteminin mühüm və dinamik inkişaf edən sahəsini təşkil edir. Onlar yalnız kütləvi informasiya vasitələrinin adları deyil, həm də müəyyən ideoloji mövqeyin, sosial dəyərlərin və kommunikativ strategiyanın ifadəçisidir. Müasir onomastik nəzəriyyədə hemeronimlər periferik xüsusi adlar kimi qiymətləndirilsə də, informasiya cəmiyyətinin inkişafı onların funksional imkanlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir. Rəqəmsal medianın sürətli inkişafı nəticəsində hemeronimlərin semantik, struktur və praqmatik xüsusiyyətləri dəyişmiş, yeni nominasiya modelləri formalaşmışdır.

Azərbaycan dilçiliyində hemeronimlərin milli media məkanının materialları əsasında struktur-semantik, praqmatik və linqvokulturoloji aspektlərdən öyrənilməsi gələcək tədqiqat istiqamətləri kimi xüsusi elmi əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat

1. Гак В.Г. Языковые преобразования. М. : Яз. рус. культуры, 1998.
2. Голомидова М.В. Искусственная номинация в русской ономастике. Екатеринбург, 1998.
3. Горяев С.О. Номинативные интенции субъекта ономастической номинации (на материале русских прагмонимов): дис. ... канд. фи-лол. наук. Екатеринбург, 1999.
4. Крюкова И.В. Рекламное имя: от изобретения до прецедентности. Волгоград : Перемена, 2004.
5. Матвеев А.К. Топономастика и современность // Вопр. ономастики. Свердловск, 1974. №8 - 9.
6. Подольская Н.В. Словарь русской ономастической терминологии. М. : Наука, 1988. – 192 с. С. 46 - 61.
7. Суперанская А.В. Общая теория имени собственного. М : Наука, 1973. – 366 с.
8. Юдина Т. М., Воронина Е. Ф. Идеонимы как периферийная категория ономастики // *Филологические науки. Вопросы теории и практики.* – 2015. – № 11 (53). – Ч. 3. – С. 211–214.

Чендирли Улькер Валех кызы
Сумгаитский государственный университет
https://orcid.org/0009-0002-1510-8623
e-mail: ulkervaleh@gmail.com

Место гемеронимов в системе идеонимов и особенности их развития

Резюме

Одним из объектов исследования современной ономастики являются идеонимы. Среди различных видов идеонимов особое внимание привлекают гемеронимы. В настоящее время в ономастике отсутствуют специальные исследования, посвящённые гемеронимам, а сам термин не получил широкого распространения. В статье рассматриваются место гемеронимов в системе идеонимов, относящихся к периферийной зоне ономастической лексики, их теоретическая сущность и особенности развития. Анализируются статус гемеронимов как одного из видов идеонимов, их отличительные признаки по сравнению с другими категориями имён собственных, а также их номинативная, идентифицирующая, информативная и рекламная функции. Показано, что в условиях современного информационного общества и развития цифровых медиаплатформ гемеронимы подвергаются семантической и функциональной трансформации. В результате исследования установлено, что гемеронимы, являясь периферийными единицами ономастической системы, представляют собой динамичную группу имён собственных, отражающую идеологическое, социальное и культурное развитие общества.

Ключевые слова: ономастика, идеоним, гемероним, средства массовой информации, имена собственные, номинация.

Ulker Valeh Chendirli
Sumgait State University
ORCID: https://orcid.org/0009-0002-1510-8623
E-mail: ulkervaleh@gmail.com

The place of hemeronyms in the system of ideonyms and their developmental features

Summary

One of the research objects of modern onomastics is the ideonym. Among the various types of ideonyms, hemeronyms attract particular attention. At present, there are no specialized studies devoted to hemeronyms in onomastics, and the term itself has not yet gained widespread use. This article examines the place of hemeronyms

within the system of ideonyms belonging to the peripheral domain of onomastic vocabulary, their theoretical nature, and their developmental features. The study analyzes the status of hemeronyms as a subtype of ideonyms, the characteristics that distinguish them from other categories of proper names, as well as their nominative, identificatory, informative, and advertising functions. It is demonstrated that, with the development of digital media platforms in the modern information society, hemeronyms have undergone semantic and functional transformations. The findings indicate that hemeronyms, while constituting peripheral units of the onomastic system, form a dynamic group of proper names reflecting the ideological, social, and cultural development of society.

Keywords: onomastics, ideonym, hemeronym, mass media, proper names, nomination.

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-129-131

Suqra Teymur qızı Rəhmanova
BDU-nun Türkoloji araşdırmalar ETL-nin elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru
suqrarehmanova68@gmail.com
https://orcid.org/0009-0001-8570-3682

QURBANİ YARADICILIĞININ LEKSİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ:Məqalədə XVI-XVII əsr Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi Qurbaninin yaradıcılığında leksik-semantik xüsusiyyətlər, eləcə də şairin bədii dilinin xəlqilik və demokratikləşmə səviyyəsi tədqiq olunur. Qurbani poeziyasının canlı xalq dili, frazeoloji birləşmələr, atalar sözləri və dialektizmlərlə zənginliyi elmi müstəvidə təhlil edilir. Müəllifin dilində yer alan fəlsəfi, sufi-hürufi leksika və dialektal əlamətlər (feilin indiki zaman variantları) konkret faktlarla əsaslandırılır. Tədqiqat göstərir ki, Qurbaninin sənət dili milli ədəbi dilimizin inkişafında və aşıq poeziyası ənənəsinin formalaşmasında müstəsna rol oynamışdır.

Açar sözlər: Qurbani poeziyası, leksik xüsusiyyətlər, aşıq sənəti, milli ədəbi dil, dialektizmlər, xəlqilik.

GİRİŞ: Qurbani poeziyasının dili xalis Azərbaycan türkçəsinin parlaq nümunəsi olmaqla yanaşı, milli ədəbi dilimizin formalaşması və inkişafı tarixində müstəsna mərhələ təşkil edir. XVI əsr Azərbaycan bədii təfəkküründün, el sənətinin yüksəliş dövrü, eyni zamanda hər sahədə milli özünədərk və oyanış proseslərinin gücləndiyi bir mərhələdir. Bu dövr ədəbiyyat tariximizə Şah İsmayıl Xətai və Qurbani kimi böyük söz ustalarını bəxş etmişdir.

Aşıq poeziyasının inkişaf yoluna nəzər saldıqda Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Valeh və Aşıq Ələsgər kimi el sənətkarlarının yaradıcılığında "Kitabi-Dədə Qorqud" eposundan gələn ruhun və dil qatlarının varisliklə davam etdirildiyini görmək mümkündür. Müxtəlif əsrlərdə yaşamış bu ustadların hər biri aşıq sənətinin və el poeziyasının zənginləşməsinə xüsusi töhfə vermişdir.

Qurbani irsinin elmi müstəvidə öyrənilməsi tarixinə gəlincə, "Azərbaycan ədəbiyyatı tarixi"nin ilk nəşrində (1943) şair haqqında ilk dəyərli məlumatı akademik Həmid Araslı vermişdir. H.Araslı tədqiqatında Qurbaninin Şah İsmayıl Xətainin müasiri olması fikrini elmi dövriyyəyə daxil etmişdir [1, s. 12-15]. Ədəbiyyatşünas Salman Mümtaz isə şairin yaradıcılığını "Qurban" adı ilə tədqiqata cəlb edərək onu haqlı olaraq el şairi kimi səciyyələndirmişdir.

ƏSAS HİSSƏ: Qurbani əsərlərinin sistemli şəkildə toplanması, nəşri və filoloji müstəvidə tədqiqi sovet dövrünə təsadüf edir. Şairin irsinin üzə çıxarılmasında Salman Mümtazın müstəsna xidmətləri olmuşdur; o, 1927-ci ildə Qurbaninin dəyişmə növündə olan qoşmasından iki bəndi mətbuatda çap etdirməklə bu sahədə ilk addımı atmışdır. Sonrakı dövrlərdə "Mənim bənövşəm", "Tellənir", "Olmaz", "Abad elədim" kimi məşhur şeirləri də daxil olmaqla, sənətkarın 55 şeiri ədəbiyyatşünas Araz Dadaşzadə tərəfindən toplanaraq ayrıca kitab halında nəşr edilmişdir [2, s. 45].

Qurbani yalnız şifahi el ədəbiyyatının daşıyıcısı deyil, dərin biliyə, dünya elmlərinə, müxtəlif dinlərə, dillərə və dövrünün ictimai-tarixi proseslərinə yaxından bələd olan kamil bir sənətkardır. O, xalq kütləsi arasında böyük nüfuz qazanmış, mütərəqqi ideyaları tərənnüm edərək ictimai təfəkkürün yönəldilməsində mühüm rol oynamışdır.

Şairin şeirlərinin mətnşünaslıq baxımından təhlili göstərir ki, bəzi nəşrlərdə təxəllüsün "Qurban" forması misraya sığmadıqda və ya vəzn tələbinə görə süni şəkildə "Qurbani" şəklinə salınmışdır. Məsələn:

Dirili Qurbani ərzi-halını
Yalvara-yalvara yara deyərsən...

misralarında vəznin ahəngini saxlamaq məqsədilə "Dirilə" (və ya "Dirili") sözünə sonradan bitişdirici hissəciklərin artırılması mətnin ilkin variantına müdaxilə hallarının mövcudluğunu sübut edir.

Qurbani poeziyasının müəyyən bir qismi dərin sufi və hürufi ideyalarına, ictimai-fəlsəfi baxışlara əsaslanır. Şairin kainat, təbiət və insanın yaradılışı haqqındakı mülahizələrində dörd ünsür – od (atəş), xak (torpaq), bad (yel) və ab (su) konsepsiyası ön plana çıxır. Bu fəlsəfi konyunktura onun qoşma və gəraylılarında rəmzi obrazlar sistemi vasitəsilə öz əksini tapmışdır.

Qurbani şeirinin poetik qəlibində yer alan "qadasın aldığım", "qurban olduğum", "durum dolanım başına" kimi xalq canlı dilinə söykənən ifadələr, "gözəllər gözəli", "xublar xubu" kimi sabit söz birləşmələri, habelə "pəri", "dilbər", "haqq", "ümman" kimi rəmzi-poetik leksika sonralar Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Valeh, Aşıq Ələsgər kimi ustad aşıqların, eləcə də Molla Pənah Vaqif və Qasım bəy Zakir kimi klassik şairlərin dilində estetik ənənə kimi davam etdirilmişdir.

Sənətkar daima canlı xalq mühitində olmuş, şeirlərini sazın müşayiəti ilə ifa edərək poeziya dilini kütlənin ruhuna, bədii zövqünə uyğun kökləmişdir. O, insan psixologiyası və təbiətdəki zərif detalları elə bir ustalıqla tərənnüm etmişdir ki, bu obrazlar sistemi öz bədii təsirini və aktuallığını bu gün də saxlamaqdadır.

Dilçi-ədəbiyyatşünas Qəzənfər Kazımovun da haqlı olaraq qeyd etdiyi kimi: *"Bütün başqa sənətkarların əsərlərində olduğu kimi, Qurbani poeziyasında da fonetik, leksik, qrammatik-üslubi hadisələr və ifadəlilik əlamətləri kompleks halda şairin bədii dilinin tərkib elementlərini təşkil edir. Sözlərin çoxmənalılığı, antonim qarşılaşdırmalar, fikrin sinonim cərgələrlə ifadəsi, cinas qafiyələr, frazeoloji vahidlər, atalar sözləri və məsəllər, yeri gəldikdə fikrin dialoq şəklində verilməsi Qurbani poeziyasının bədiilik xüsusiyyətini şərtləndirən başlıca vasitələrdir"* [2, s. 48].

Qurbani poeziyasının bədiilik və xəlqilik keyfiyyəti onun ümumxalq dilinin funksional imkanlarından ustalıqla istifadə etməsi ilə bağlıdır. Şairin bədii dilində işlənən el məsəlləri və aforizmlər onun hikmətli təfəkküründü əks etdirir. Məsələn, xalq arasında geniş yayılan:

Qurd qocalanda,

Tülkü meydan açıb, dovşan gülərmiş...

misralarında şair bütöv bir bənddəki fikri aforistik səviyyədə ümumiləşdirməyə müvəffəq olmuşdur.

Akademik Tofiq Hacıyevin göstərdiyi kimi: *"Qurbaninin sənət dili xalq dilinin bilavasitə özü olduğundan, onun haqqındakı söz XVI-XVII əsrlər Azərbaycan xalq dilinin özü barəsindədir. Qurbaninin dili həmin dövrdə azərbaycanlıların ünsiyyət saxladığı canlı xalq dilinin faktıdır. Deməli, onun dilindəki ərəb və fars mənşəli alınmalar da xalqın anlaşıqlı şəkildə işlətdiyi leksik vahidlərdir"* [3, s. 274]. Nümunə üçün şairin dilində işlənən *əbrişim* (tel), *mürəssə* (bəzəkli, cəvahiratla bəzədilmiş), *təbib* (həkim, loğman), *tey etmək* (kəsmək, qət etmək) kimi sözlər dövrün işlək leksikasına aid olduğu kimi, *"məktub"* qarşılığında işlətdiyi milli *"yazğu"* sözü də qədim leksik qatın mühafizəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qurbaninin bədii təyinləri ilk növbədə sadəliyi və təbiiliyi ilə səciyyələnir: *"sınıq könül"*, *"divanə könül"*, *"xumar gözlü"* və s. Şairin həm ictimai-fəlsəfi məzmunlu, həm də lirik məhəbbəti tərənnüm edən axıcı qoşmalarında insan hiss və həyəcanları ilə təbiət mənzərələri yüksək poetik vəhdətdə verilir.

Sənətkarın istifadə etdiyi təşbeh və epitetlərin bir qismi şifahi xalq ədəbiyyatından, bir qismi isə klassik poeziya ənənələrindən bəhrələnir. Lakin Qurbaninin deyim tərzi, az sözlə dərin məna ifadə etmək bacarığı və səmimi üslubu onun yaradıcılığını fərqləndirən əsas amildir. Qurbanidən əvvəlki dövrlərdən bizə gəlib çatan azsaylı şeir nümunələri də göstərir ki, ümumxalq Azərbaycan dili Qurbanidən çox-çox əvvəl də böyük xəlqi poeziya üçün tükənməz imkanlara malik olmuşdur.

Qurbani poeziyasının leksik-qrammatik xüsusiyyətlərindən biri də dialektal əlamətlərin bədii dildə qorunmasıdır. Şairin Qarabağ və Cənubi Azərbaycan şivələri ilə bağlılığı onun əsərlərində indiki zaman şəkilçisinin samitsiz variantının (*-i / -ı*) işlənməsində özünü göstərir:

İrəngin dağlardan lala gətiri,
Yazıq Qurbanini hala gətiri.
Onun müyində yüz min qul olu,
Zənəxdanın dürr şöləli xal olu.

Burada *-i* şəkilçisinin və *"olu"* formasının işlənməsi həm tarixi-dialektoloji fakt kimi önəmlidir, həm də misranın ritmik-poetik imkanlarını artırır. Bundan əlavə, şairin dilində emosionallığı və təsviriliyə xidmət edən qoşa sözlərin, təkrar ifadələrin (*dolana-dolana, tez-tez, dəstə-dəstə*) tez-tez işlənməsi diqqəti cəlb edir.

Qurbani poeziyası canlı danışıq dilinin leksik və frazeoloji zənginliyini bədii müstəviyə gətirməklə milli ədəbi dilin təşəkkülü və demokratikləşməsi prosesində misilsiz rol oynamış, özündən sonrakı aşıq poeziyasının və lirik şeirin bədii-dil istiqamətini müəyyənləşdirmişdir.

Qurbani poeziyasının bədii-leksik tutumunu zənginləşdirən mühüm amillərdən biri də şairin söz yaradıcılığı imkanlarından və semantik çalarlardan ustalıqla istifadə etməsidir. Sənətkarın dilində leksik vahidlər təkcə informativ funksiya daşımır, eyni zamanda dərin emosional-estetik yük daşıyır. Şair bədii təsvir və ifadə vasitələrini – təşbeh, istiarə, epitet və mübalilələri canlı xalq dilinin leksik ehtiyatı hesabına formalaşdırmışdır. Qurbaninin qoşmalarında rast gəlinən "lalə rüxsor", "qönçə dəhan", "maral baxışlı", "ləbi şəki-şəkər" kimi ifadələr xalq poeziyası ilə klassik yazılı ədəbiyyatın leksik kəsişməsində meydana gələn orijinal bədii obrazlardır.

Şairin dilində sinonim və antonim cərgələrinin işlənmə tezliyi də diqqətəşayəndir. Qurbani fikrin təsir gücünü artırmaq üçün ziddiyyətli məfhumları – həyat və ölüm, şadlıq və qəm, vüsəl və həsrət obrazlarını zəngin antonim cütlükləri vasitəsilə qarşılaşdırır (ağlamaq-gülmək, var-yox, vəfa-cəfa, aqil-nadan). Bu cür təzadlar şeirə xüsusi dramatik dinamika və fəlsəfi dərinlik qatır. Eyni zamanda, bir fikrin müxtəlif çalarlarla ifadəsi üçün istifadə olunan sinonimik vahidlər (qəm-qüssə, dərd-ələm, yar-yoldaş) bədii dilin axıcılığını və ahəngdarlığını təmin edir.

Məqalədə vurğulanmalı digər vacib məqam Qurbani dilində frazeoloji birləşmələrin və idiomların zənginliyidir. Şair xalqın məişətində, psixologiyasında yer almış "bağrı qan olmaq", "canına od düşmək", "yolunda can qoymaq", "könül vermək" kimi sabiti söz birləşmələrini poetik mətnə daxil etməklə bədii dilin xəlqiliyini maksimum dərəcədə yüksəltmişdir. Bu frazeologizmlər şeirin təsir gücünü artırmaqla bərabər, XVI-XVII əsrlər Azərbaycan xalq dilinin obrazlılıq imkanlarını əyani şəkildə nümayiş etdirir.

Nəticə etibarilə, Qurbani poeziyası milli ədəbi dilimizin formalaşması prosesində sadəcə keçid mərhələsi deyil, canlı xalq təfəkküründün və leksikasının poeziya müstəvisinə köçürülməsində dönüş nöqtəsidir. Şairin əsərlərində qorunub saxlanılan leksik-semantik rəngarənglik Azərbaycan dilçiliyində tarixi leksikologiya və dialektologiya baxımından bu gün də öz böyük elmi-nəzəri dəyərini saxlamaqdadır.

NƏTİCƏ: Aşıq poeziyası və el sənətinin inkişaf tarixində Qurbani yaradıcılığı müstəsna və özünəməxsus mövqeyə malikdir. Canlı xalq dilinin zəngin leksik imkanlarını klassik şeir ənənəsinin incəlikləri ilə məharətlə uzlaşdıran sənətkar, Azərbaycan ədəbi dilinin xəlqiləşməsi və demokratikləşməsi prosesinə misilsiz töhfələr vermişdir. Şair yazılı ədəbiyyatın poetik incəliklərinə və şifahi el ədəbiyyatının ifadə zənginliyinə dərin bələdliyi sayəsində bədii dilə xüsusi bir vüsət və axıcılıq gətirmişdir.

Qurbani yalnız istedadlı el şairi kimi deyil, eyni zamanda dövrünün elmlərinə, dini-fəlsəfi təlimlərinə, ictimai-tarixi proseslərinə yaxından bələd olan kamil bir mütəfəkkir kimi xalq arasında nüfuz qazanmışdır. O, yaradıcılığı boyunca hürufi və sufi ideyalarını, mütərəqqi ictimai fikirləri, milli-mənəvi dəyərləri tərənnüm edərək xalq təfəkküründün formalaşmasında mühüm rol oynamışdır. Beləliklə, Qurbani poeziyasının leksik-semantik və bədii-üslubi xüsusiyyətləri XVI-XVII əsrlər Azərbaycan milli ədəbi dilinin bünövrəsini təşkil etməklə yanaşı, sonrakı aşıq poeziyası və klassik lirikamız üçün zəngin bir mənbə rolunu oynamışdır.

İstifadə edilmiş ədəbiyyat

1. Araslı H. XV-XVII əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1956, 328 s.
2. Kazımov Q. Qurbani və poetikası. Bakı: Elm, 1968, 164 s.
3. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. Bakı: Elm və təhsil, 2012, 392 s.

Sugra Teymur gizi Rahmanova
PhD in Philology, Researcher at the Research Laboratory for Turkological Studies, Baku State University
Suqrarehmanova68@gmail.com
https://orcid.org/0009-0001-8570-3682

Lexical features of Qurbani's creativity

Summary

The article examines the lexical-semantic features in the works of Qurbani, a prominent representative of 16th–17th century Azerbaijani ashiq poetry, as well as the level of folk character and democratization in the poet's artistic language. The richness of Qurbani's poetry with the living spoken language, phraseological units, proverbs, and dialectisms is analyzed from a scientific perspective. The philosophical, Sufi-Hurufi lexicon and dialectal features (variants of the present tense of verbs) present in the author's language are substantiated with concrete facts. The study shows that Qurbani's artistic language played an exceptional role in the development of our national literary language and in the formation of the ashiq poetry tradition.

Keywords: Qurbani poetry, lexical features, ashiq art, national literary language, dialectisms, folk character.

Сугра Теймур гызы Рахманова
доктор философии по филологии, научный сотрудник НИЛ тюркологических исследований БГУ
Suqrarehmanova68@gmail.com
https://orcid.org/0009-0001-8570-3682

Лексические особенности творчества Гурбани

Резюме

В статье исследуются лексико-семантические особенности в творчестве Гурбани – видного представителя азербайджанской ашугской поэзии XVI-XVII веков, а также уровень народности и демократизации художественного языка поэта. На научном уровне анализируется богатство поэзии Гурбани живым народным языком, фразеологизмами, пословицами и диалектизмами. На конкретных фактах обосновываются присутствующие в языке автора философская, суфийско-хуруфитская лексика и диалектные черты (варианты настоящего времени глагола). Исследование показывает, что поэтический язык Гурбани сыграл исключительную роль в развитии нашего национального литературного языка и формировании традиции ашугской поэзии.

Ключевые слова: поэзия Гурбани, лексические особенности, ашугское искусство, национальный литературный язык, диалектизмы, народность.

Rəyçi: dos. S.Abbasova

DOI: 10.24412/2218-7588-2026-2-132-135

Arzu Vahid qızı Məmmədxanlı
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti
arzu2572@rambler.ru
https://orchid.org/0009-0000-0041-7699

XX ƏSRDƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏDƏBİ ƏLAQƏLƏRİ: MÜHACİRƏT ƏDƏBİYYATI VƏ MİLLİ İDEOLOGİYA

XÜLASƏ: Məqalədə XX əsrdə Azərbaycan-Türkiyə ədəbi əlaqələri mühacirət ədəbiyyatı kontekstində araşdırılmışdır. Mühacirət mühitində formalaşan ədəbi, publisistik və ideoloji fəaliyyətin milli düşüncənin qorunması, inkişafı və davamlılığındakı rolu kompleks şəkildə təhlil edilmişdir.

Mühacirət ədəbiyyatı nümunələri vasitəsilə milli ideologiyanın xarici mühitdə davamlılığı təmin edilmiş, türkçülük, istiqlal və modernləşmə ideyalarının nəzəri və bədii əsasları geniş ictimai müstəviyə çıxarılmışdır. Qeyd olunmuşdur ki, bu ədəbiyyat həm bədii-estetik dəyəri, həm də ideoloji məzmunu ilə milli düşüncə tarixində xüsusi mərhələ təşkil edir. Mühacir mühitində yaranan əsərlər Azərbaycan ədəbi prosesinin coğrafi sərhədlərdən kənarda da davam etdiyini göstərərək onun beynəlxalq miqyasda inteqrasiyasına şərait yaratmışdır.

Bu məqalədə təqdim olunan şəxsiyyətlər ayrı-ayrılıqda deyil, vahid ideya və tarixi proses çərçivəsində bir-biri ilə sıx bağlı şəkildə çıxış edirlər. Onları birləşdirən əsas xətt XX əsrin əvvəllərində Azərbaycan və ümumtürk dünyasında milli özünüdərk, azadlıq və müasirlik ideyalarının formalaşmasıdır.

r sözlər: Azərbaycan mühacirət ədəbiyyatı, Azərbaycan-Türkiyə ədəbi əlaqələri, milli ideologiya, türkçülük, istiqlal hərəkatı, mühacir ziyalılar

İŞ: Azərbaycan ədəbiyyatı tarixində "mühacirət ədəbiyyatı" anlayışı nisbətən gec formalaşmışdır. Sovet hakimiyyəti illərində "mühacirət" anlayışına mənfi münasibət göstərildiyindən bu mövzu uzun müddət elmi araşdırmalardan kənarda qalmış, ideoloji səbəblərdən rədd edilmiş və elmi dövriyyədən kənarda saxlanılmışdır. Yalnız XX əsrin sonlarına doğru, xüsusilə 1980-ci illərdən etibarən xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin genişlənməsi bu sahəyə marağın artmasına səbəb olmuşdur.

Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı ziyalılar milli-mənəvi dəyərlərimizin yaşadılması, ana dilimizin və mədəni irsimizin qorunması, həmçinin ədəbi və ictimai fikrin zənginləşdirilməsi sahəsində mühüm işlər görmüşlər. Onların bu istiqamətdə apardıqları fəaliyyət həm Azərbaycan həqiqətlərinin beynəlxalq müstəvidə tanıdılmasına, həm də milli kimlik şüurunun güclənməsinə əhəmiyyətli təsir göstərmişdir. Bu baxımdan, xüsusilə Türkiyə mühiti Azərbaycan mühacirət ədəbiyyatının inkişafı üçün əlverişli platforma olmuş, burada fəaliyyət göstərən mətbuat orqanları milli düşüncənin formalaşması və yayılmasında mühüm rol oynamışdır.

ƏSAS HİSSƏ: Əli bəy Hüseynzadə XX əsr Azərbaycan və Türkiyə ictimai-siyasi və ədəbi fikrinin formalaşmasına təsir göstərmiş qüdrətli ziyalılardan biridir. O, geniş mütaliəsi və çoxşaxəli elmi araşdırmaları nəticəsində türk xalqlarının tarixi, etnogenezi və mədəni inkişaf xüsusiyyətlərini sistemli şəkildə təhlil etmişdir.Hüseynzadənin elmi qənaətinə görə, Azərbaycan xalqının etnik formalaşmasında əsas rol türk tayfalarına məxsusdur. O, bu prosesi yalnız tarixi fakt kimi deyil, həm də mədəni baxımdan şərh edərək qədim türk inancları ilə sonrakı islamlaşma mərhələsini vahid sivilizasiya xətti daxilində qiymətləndirmişdir. Belə biryanaşmada etnogenez məsələsi milli kimliyin formalaşmasının əsas ideoloji dayaqlarından biri kimi çıxış edir.

Hüseynzadənin dünyagörüşünün mərkəzində türkçülük və islam birliyi prinsipləri dayanmış, daha sonra müasirləşmə konsepsiyası ilə tamamlanmısdır. Bu idevalar onun təsis etdivi Füvuzat iurnalı vasitəsilə daha sistemli və ardıcıl səkildə ifadə olunmusdur: "Füvuzat"ın tutduğu vol türklük, müsəlmanlıq və avropalılıqdır. Türk hissiyyatı ilə mütəhəssis, İslam dini ilə mütədəyyin və Avropa mədəniyyəti-hazirəsilə mütəməddin olmaqdır" (5, s. 180).

Əli bəy Hüseynzadənun ədəbi irsində dövrün ictimai-siyasi reallıqlarını əks etdirən çağırışlar mühüm yer tutur. Bu baxımdan vətənin azadlığı və milli oyanış ideyası onun yaradıcılığının aparıcı istiqamətlərindən biri kimi çıxış edir. Bakıda 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultayda "Qərbin iki dastanında türk" mövzusunda oxuduğu məruzədə onun nə ruha və nə məqsədlə yazdığını müəyyən etmək çətin deyildir. "Ey mənə istiqbalın nasıl olacağını soran adam! Sən bilməzmisən ki, insanlar bunu kəşf etməyə müqtədir deyildir. Fəqət keçmiş zamanın təcrübələrinə baxaraq deyə bilərəm ki, hüzur və rahəti başqa günlərə, daha məsud zamanlara burax! Şimdi əziz vətənin, sevgili təban əcnəbi boyunduruğu altında inləyib duruyor. Uyğu zamanı degildir" (4, s. 16).

Əli bəy Hüseynzadənin elmi və bədii irsi həm Azərbaycan, həm də Türkiyə elmi-mədəni mühitində yüksək qiymətləndirilmişdir. Onun irsinin araşdırılması ilə məşğul olan türkiyəli tədqiqatçılar sırasında Yusif Akçura, Ziya Göyalp, Mehmet Fuat Köprülü, Hilmi Ziya Ülken, Nihat Sami Banarlı və digər alim və mütəfəkkirlərin adlarını qeyd etmək olar" (11, s. 26). Bu maraq Hüseynzadənin düşüncələrinin təkcə Azərbaycanda deyil, türk dünyasının intellektual mühitində də mühüm əks-səda yaratdığını ortaya qoyur.

Həyatının 33 ilini Azərbaycanda, 43 ilini isə Türkiyədə keçirmiş Əli bəy Hüseynzadə, Azərbaycan xalqının milli özünüdərk prosesinin formalaşmasında və türkçülük ideologiyasının sistemləşdirilməsində mühüm rol oynamışdır. Ədibin irəli sürdüyü "türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyası sonrakı mərhələlərdə siyasi düşüncənin aparıcı konsepsiyalarından birinə çevrilmiş, həmçinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət ideologiyasının formalaşmasına nəzəri əsas yaratmışdır. Onun ideyaları Azərbaycan bayrağı simvolikasında da öz əksini tapmışdır:

mavi rəng türkçülüyü, yaşıl rəng islamı, qırmızı rəng isə müasirliyi ifadə edir. Bu üçlük milli kimliyin, dini-mənəvi dəyərlərin və müasir dövlətçilik ideyasının vəhdətini simvolizə edir. Ay-ulduz isə həm islam sivilizasiyasına, həm də türk dünyasına məxsusluğu bildirən rəmz kimi çıxış edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyinin qeyd edilməsi ilə bağlı sərəncamında onu "Türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən, eləcə də çoxşaxəli fəaliyyəti boyunca yaratdığı zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi sayəsində Azərbaycan maarifçiliyi tarixinə qiymətli töhfələr verən görkəmli ictimai xadim" kimi yüksək qiymətləndirmişdir (2).

Əhməd bəy Ağaoğlu əvvəlcə Azərbaycanda geniş publisistik fəaliyyət göstərmiş, müxtəlif mətbu orqanlara rəhbərlik etmiş və milli ideyaların formalaşmasında fəal rol oynamışdır. Bu dövrdə o, "Difai" firqəsinin yaradılması prosesində iştirak etmiş, çar məmurlarının siyasətinə qarşı kəskin mövqe sərgiləmiş və Azərbaycan ziyalılarının müdafiəsi istiqamətində fəaliyyət göstərmişdir.

1911-ci ildə İstanbulda nəşr olunan "Türk Yurdu" jurnalının fəaliyyətinə qoşulmasını onun Türkiyədəki ictimai-siyasi və publisistik fəaliyyətinin başlanğıcı hesab etmək olar. O, burada müxtəlif mətbuat orqanlarında redaktorluq etmiş və Osmanlı ictimai fikrinin formalaşmasına təsir göstərmişdir.

1915-ci ildə bölgədə baş verən gərgin hadisələr – erməni silahlı dəstələrinin Naxçıvan və Qərbi Azərbaycan ərazilərində törətdiyi qırğınlar, eləcə də Anadoluda dinc əhaliyə qarşı zorakılıqlar – dövrün ciddi siyasi böhranı kimi xarakterizə olunur. Ağaoğlu bu proseslərə laqeyd qalmamış, Türkiyə rəhbərliyinə müraciətlər edərək tədbir görülməsini tələb etmişdir. Bu illərdə Osmanlı rəhbərliyi daxilində, xüsusilə Ənvər Paşa dövründə bölgədə hərbi-siyasi proseslər daha da intensivləşmişdir.

1918-ci ildə Məhəmməd Əmin Rəsulzadə ilə birlikdə Türkiyədə keçirilən müxtəlif müşavirə və toplantılarda iştirak edən Ağaoğlu Azərbaycan məsələlərini gündəmə gətirmişdir. Eyni dövrdə Nuri Paşa və Kazım Qarabəkir Paşa rəhbərliyi ilə formalaşan "Qafqaz İslam Ordusu"nun fəaliyyəti ilə bağlı ideoloji və siyasi müzakirələrdə də iştirak etmişdir. Türkiyədə yeni siyasi sistemin formalaşdığı illərdə o, ictimai-siyasi fəaliyyətini davam etdirərək bir müddət millət vəkili olmuşdur. Professor Nəsib Nəsibliyə görə, Ağaoğlu Qarsdan millət vəkili seçilmiş və yeni Türkiyənin qurulmasında aktiv rol oynamışdır. O, öz siyasi prinsiplərindən geri çəkilməmiş, bu mövqeyinə görə həm tərəfdarlar, həm də siyasi rəqiblər qazanmışdır. 1930-cu illərdə təkpartiyalı sistemə alternativ kimi yaradılan Sərbəst Firqə təşəbbüsündə də iştirak etmiş və demokratik idarəetmə ideyasını müdafiə etmişdir. Lakin bu təşəbbüsün uğursuzluğundan sonra o, daha çox publisistik və pedaqoji fəaliyyətə yönəlmişdir" (7).

Əhməd bəy Ağaoğlunun Türkiyə dövrü yaradıcılığı yalnız siyasi fəaliyyətlə məhdudlaşmamış, həm də bədii-publisistik əsərlərlə zəngin olmuşdur. "Könülsüz olmaz", "Mən kiməm" və "Sərbəst insanlar ölkəsində" kimi əsərlərində o, Türkiyə Cümhuriyyətinin ideoloji mühitini əks etdirir və müəllifin ictimai-fəlsəfi baxışlarının davamı kimi çıxış edir (3, s. 217).

Əlabbas Müznib Azərbaycan–Türkiyə ədəbi münasibətləri çərçivəsində iki mədəni-ədəbi mühit arasında ideya ötürücüsü kimi çıxış edən mühüm ziyalılardandır. O, XX əsrin əvvəllərində formalaşan Azərbaycan maarifçi düşüncəsinin davamı olaraq həm yerli ədəbi mühiti, həm də Türkiyəki intellektual prosesləridiqqətlə izləmişdir. Özünü Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun şagirdi hesab edən Münzib, onları Azərbaycan və Türkiyə ictimai fikrində modernləşmə, türkçülük və milli ideologiyanın formalaşmasına təsir göstərən əsas simalar kimi təqdim etmişdir. Müznib bu fəaliyyəti "maarif daşıyıcılığı" kimi dəyərləndirərək həmin ziyalıları ortaq intellektual yaddaşın formalaşmasında əsas fiqurlar kimi təqdim etmişdir. Bununla belə, onların Türkiyəyə mühacirətini təssüf hissi ilə qarşılayaraq "o cənablar dilsizlərin dili, karların qulağı, korların gözü idilər. Müxtəsər, bir bölük maarif yetimi olan Qafqaz müsəlmanlarının ataları idi" (8, s. 11) demişdir.

Əlabbas Müznibin fəaliyyəti Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin təkcə faktiki deyil, həm də ideoloji və konseptual baxımdan dərinləşməsinə xidmət etmiş, iki ədəbi mühitin ortaq tarixi və mədəni məkan kimi qavranılmasını gücləndirmişdir.

Məhəmməd Əmin Rəsulzadənin Türkiyədə keçən mühacirət dövrü Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin həm ideoloji, həm də elmi-ədəbi istiqamətdə inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. O, bu dövrdə siyasi mühacir statusu ilə yanaşı, Azərbaycan ədəbiyyatını sistemli şəkildə təhlil, tədqiq və təbliğ edən ədəbiyyatşünas və publisist kimi də fəaliyyət göstərmişdir.Rəsulzadənin fəaliyyətində ədəbiyyat təkcə bədii hadisə kimi deyil, həm də dövrün siyasi-ictimai düşüncəsini əks etdirən vasitə kimi təqdim olunmuşdur. Onun "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı monoqrafiyası bu fəaliyyətin əsas nümunələrindən biri kimi xüsusi əhəmiyyətə malikdir. Əsərdə Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Cəfər Cabbarlı, Səməd Vurğun və Hüseyn Cavid kimi yazıçı və şairlərin yaradıcılığı ideya və ictimai məzmun baxımından şərh edilərək dəyərləndirilmişdir.

Müəllif, Cəfər Cabbarlının "Od gəlini" faciəsinə xüsusi diqqət yetirərək Elxan obrazının söylədiyi "Hamı deyir: lə ilahə illəllah, mən demirəm" (9, s. 57) kəlməsini sovet ideologiyasına qarşı simvolik etiraz kimi izah etmişdir. Bu, onun ədəbi mətnləri ideoloji məna prizmasından oxuma meylini göstərir.Eyni yanaşma Hüseyn Cavidin əsərlərinin təhlilində də müşahidə olunur. Rəsulzadə Cavid yaradıcılığında totalitar düşüncəyə qarşı gizli etiraz motivlərini ön plana çəkərək, bəzi ictimai ziddiyyətləri tarixi mərhələlərlə müqayisəli şəkildə izah etmişdir. Bu təqdimat onun ədəbi təhlilində tarixi reallıqların və fəlsəfi düşüncənin vəhdətini üzə çıxarmaqla yanaşı, hadisələrə həm zaman

kontekstindən, həm də ideya-fəlsəfi müstəvidən yanaşaraq mürəkkəb ictimai proseslərin dərin mahiyyətinin açılmasına şərait yaratmışdır.

Rəsulzadə Süleyman Sani Axundovun "Laçın yuvası" pyesinə də ideoloji baxımdan yanaşmışdır. Onun şərhində əsərdə inqilab anlayışı məqsəd deyil, vasitə kimi təqdim olunur və bu məqam sovet ideoloji baxışı ilə ziddiyyət təşkil edir. O, pyesdəki hadisələri belə izah edir ki, inqilabçı obraz imperializmə qarşı mübarizəni əsaslandırmaq üçün hərəkət edir, bu isə sovet təbliğatının rəsmi şərhi ilə uyğunlaşmır" (9, s. 56).

Mühacirət dövründə Rəsulzadənin ən mühüm elmi əsərlərindən biri "Azərbaycan şairi Nizami" monoqrafiyasıdır. Bu monoqrafiyada Rəsulzadə əsas diqqəti dil amilindən çox, şairin formalaşdığı ictimai və mədəni mühitə doğru yönəldərək, Nizami Gəncəvini sadəcə fars dilində yazmış bir şair kimi deyil, Azərbaycan mühitində yetişmiş və türk mədəni dünyası ilə bağlı olan dahisənətkar kimi təqdim etmişdir. Monoqrafiyadakı "Azərbaycan" anlayışı da təkcə coğrafi məkan kimi deyil, daha çox tarixi və mədəni kimliyi ifadə edən məfhum kimi işıqlandırılmışdır:

Farsçılığı yox onun,
Türklüyə çox bağlıdır...
Şübhəsi yoxdur ki, o,
Bir azərbaycanlıdır" (10, s. 33).

Mühacirət ədəbiyyatının poetik istiqamətində Almas İldırım və Teymur Atəşli kimi şairlər xüsusi yer tutur. Onların yaradıcılığında əsas mövzular vətən həsrəti, azadlıq ideyası və milli kimlikdir. Bu motivlər yalnız fərdi duyğuların ifadəsi deyil, həm də siyasi-ideoloji məzmun daşıyaraq milli yaddaşın qorunmasına xidmət edir.

Almas İldırım gənc yaşlarından sosializm ideologiyasına tənqidi münasibətinə görə təqiblərə məruz qalmış və mühacirət həyatına məcbur olmuşdur. 1935-1951-ci illərdə onun şeir və poemaları Türkiyə ilə yanaşı Almaniya və digər Avropa mətbuatında da yayımlanmış, "Qurtuluş", "Çınaraltı", "Orxun", "Göy Börk", "Bozqurd", "Özbəyiş", "Kommunizmlə mücadilə" kimi nəşrlərdə dərc edilmişdir.

Şairin yaradıcılığında Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə və Əhməd bəy Ağaoğlunun milli istiqlal ideyalarının təsiri aydın görünür. Onun poeziyasında türkçülük ideyası ilə yanaşı, xüsusilə vətən həsrəti və qürbət motivləri ön plana çıxır. "Qafqaz", "Qürbətdə", "Yurd həsrəti" kimi şeirlərdə vətən obrazı idealizə olunur və milli yaddaşın simvoluna çevrilir. Xüsusilə "Əsir Azərbaycanım" şeiri mühacirət poeziyasının emosional zirvələrindən sayılır. Burada vətən ana obrazı ilə təqdim olunur və bu metafora milli bağlılığın güclü ifadəsi kimi çıxış edir:

Harda məni gül qoynunda doğuran,
Xamırımı göz yaşıyla yoğuran,
Beşiyimdə "layla, balam" çağıran
Azərbaycan, mənim bəxtsiz anam, oy!
Neçə ildir həsrətinlə yanam, oy! (6, s. 115)

Teymur Atəşli isə mühacirət poeziyasında vətən və qürbət mövzusunu daha çox şəxsi taleyin fonunda ifadə edən şairlərdəndir. Onun həyatı İkinci Dünya müharibəsi hadisələri ilə sıx bağlı olmuş, sonradan Türkiyəyə köç edərək burada ədəbi fəaliyyətini davam etdirmişdir. Şeirlərində əsas motiv vətənə qayıdış arzusu və qürbət ağrısıdır. "Aç qoynunu, ana vətən!" şeiri bu duyğuların ən bariz ifadələrindən biri kimi çıxış edir:

Doğma yavrundur bu gələn, aç qoynunu, Ana Vətən,
Çox çəkmişəm həsrətini, qurban olum sənə Vətən.
Bu gün doğdu ilk sabahım, çiçəkləndi ilk baharım,
İlk günəşi salamladı dustaq olan arzularım [1, s. 55].

Almas İldırım kimi, Teymur Atəşlinin yaradıcılığı da mühacirət ədəbiyyatında vətən həsrəti, azadlıq və milli kimlik ideyalarının bədii ifadəsi kimi çıxış edərək milli ruhun qorunması və ötürülməsində mühüm rol oynamışdır.

NƏTİCƏ: Tarixi baxımdan Azərbaycan xalqı hər zaman görkəmli mütəfəkkirlər və ziyalılar yetişdirmiş, bu şəxsiyyətlərin fəaliyyəti milli düşüncə sisteminin formalaşmasına və inkişafına xidmət etmişdir. XX əsrin əvvəllərində yaranan maarifçilik hərəkatı və milli mətbuat bu prosesə güclü təkan vermiş, milli özünüdərk və istiqlal ideyasının ideoloji əsaslarını formalaşdırmışdır.

Mühacirət faktı ilk baxışda itki kimi görünsə də, geniş tarixi kontekstdə bu hadisə milli ideyanın beynəlxalq müstəviyə çıxarılması funksiyasını yerinə yetirmişdir. Mühacir ziyalılar xaricdə fəaliyyət göstərərək Azərbaycanın üzləşdiyi siyasi ədalətsizlikləri, repressiyaları və tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmış, milli ideologiyanın qorunmasına və inkişafına xidmət etmişlər.

Nəticə etibarilə, mühacir ziyalıların fəaliyyəti təkcə tarixi mərhələ deyil, həm də müasir Azərbaycan üçün ideoloji və mənəvi mirasdır. Onların irsinin sistemli şəkildə öyrənilməsi, təbliği və gələcək nəsillərə ötürülməsi Azərbaycan humanitar elminin əsas vəzifələrindən biri kimi qalmaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Atəşli.T. Seçilmiş əsərləri. Bakı, Elm və təhsil, 2021, 336 s.
2. Azərbaycan Respublikası Prezidentinin "Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyinin keçirilməsi haqqında" sərəncamı (elektron mənbə) https://e-qanun.az/framework/26836
3. Əhmədli B. Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, probleləri, şəxsiyyətləri. Bakı, Elm və təhsil, 2017, 378 s.
4. Hüseynzadə Ə. Qərbin iki dastanında türk. Bakı, Ağrıdağ, 1998, 150 s
5. Hüseynzadə Ə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. Seçilmiş məqalələr. Bakı, Azərnəşr, 1996, 253 s.
6. İldırım A. Seçilmiş əsərəri. Bakı, Öndər, 2004, 160 s.
7. Nəsibli N. Nəhəng fikir və əməl adamı (elektron mənbə)https://anl.az/el/emb/AGAOGLU/about.htm

8. Münzib Ə. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2006, 256 s.
9. Rəsulzadə M. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1990,112 s.
10. Rəsulzadə M. Azərbaycan şairi Nizami. Bakı, Təknur, 2011, 520 s.
11. Vəliyev Ş. "Füyuzat" ədəbi məktəbi (təkrar nəşr). Bakı, Elm və təhsil, 2009, 456 s.

Арзу Вахид кызы Маммадханлы
Доктор философии в области филологии
arzu2572@rambler.ru
https://orchid.org/0009-0000-0041-7699

Азербайджано-Турецкие литературные связи в xx веке: эмиграционная литература и национальная идеология

Резюме

В статье рассматриваются азербайджано-турецкие литературные связи в XX веке в контексте эмиграционной литературы. Комплексно анализируется роль литературной, публицистической и идеологической деятельности, сформировавшейся в эмиграционной среде, в сохранении, развитии и преемственности национальной мысли.

На примерах эмиграционной литературы обеспечивается преемственность национальной идеологии во внешней среде, а теоретические и художественные основы идей тюркизма, независимости и модернизации доводятся до широкого общественного уровня. Отмечается, что эта литература представляет собой особый этап в истории национальной мысли как по своей художественной и эстетической ценности, так и по идеологическому содержанию. Произведения, созданные в эмиграционной среде, показывают, что азербайджанский литературный процесс продолжается за географическими границами, создавая условия для его интеграции в международном масштабе.

Представленные в статье личности действуют не по отдельности, а тесно взаимосвязаны в рамках единой идеи и исторического процесса. Главной объединяющей их линией является формирование в Азербайджане и тюркском мире в начале XX века идей национального самосознания, свободы и современности.

Ключевые слова: азербайджанская эмиграционная литература, азербайджано-турецкие литературные связи, национальная идеология, тюркизм, движение за независимость, эмигрантская интеллигенция

Arzu Vakhid Mammadkhanlı
Doctor of Philosophy in Philology
arzu2572@rambler.ru
https://orchid.org/0009-0000-0041-7699

Azerbaıjanı-Turkısh lıterary relatıons ın the 20th century: emigration literature and national ideology

Summary

The article examines the literary relations between Azerbaijan and Turkey in the 20th century in the context of emigration literature. The role of literary, journalistic and ideological activities formed in the emigration environment in the preservation, development and continuity of national thought is analyzed in a comprehensive manner. It is brought to the attention that this activity is not limited to literary creativity alone, but also plays an important role in strengthening national identity, preserving historical memory and forming political and ideological views.

Through examples of emigration literature, the continuity of national ideology in the external environment was ensured, and the theoretical and artistic foundations of the ideas of Turkism, independence and modernization were brought to a broad public level. It was noted that this literature constitutes a special stage in the history of national thought with both its artistic and aesthetic value and ideological content. The works created in the emigration environment showed that the Azerbaijani literary process continued beyond geographical borders and created conditions for its integration on an international scale.

The personalities presented in this article do not act separately, but in a closely connected way within the framework of a single idea and historical process. The main line that unites them is the formation of the ideas of national self-awareness, freedom and modernity in Azerbaijan and the Turkic world at the beginning of the 20th century.

Keywords: Azerbaijani emigration literature, Azerbaijani-Turkish literary relations, national ideology, Turkism, independence movement, emigrant intellectuals

Rəyçi: prof. L.Əhmədova

DOI: 10.24412/2218-7588-2026-2-136-139

Gülnar Mirsəlim qızıRzayeva
Azərbaycan Universiteti, Tərcümə və filologiya kafedrasının müdiri
e-mail: gulnar.rzayeva@au.edu.az
Orcid: https://orcid.org/0000-0003-0584-0781

DON DELİLLO YARADICILIĞINDA MEDİA, KAPİTALİZM VƏ HİPERREALLIQ

XÜLASƏ: Məqalədə müasir Amerika ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Don Delillonun (Don DeLillo, 1936) yaradıcılığında media, kapitalizm və hiperreallıq konsepsiyası araşdırılmışdır. Tədqiqatın əsas məqsədi yazıçının "Bəyaz küy" (White Noise, 1985), "II Mao" (Mao II, 1991) və "Kosmopolis" (Cosmopolis, 2003) romanlarında postmodern cəmiyyətin insan şüuruna və mənəvi dünyasına təsirini təhlil etməkdən ibarətdir. Araşdırma zamanı Jan Bodriyarın hiperreallıq nəzəriyyəsi, Fredrik Ceymsonun postmodernizm konsepsiyası və müasir ədəbiyyatşünaslıq yanaşmalarıəsas nəzəri baza kimi istifadə edilmişdir. Müəyyən edilmişdir ki, Don Delillo romanlarında media və informasiya axını yalnız sosial fon funksiyası daşımır, eyni zamanda insanın kimlik böhranını, mənəvi yadlaşmasını vəölüm qorxusunu formalaşdıran əsas amillərdən birinəçevrilir. Yazıçının əsərlərində istehlak cəmiyyətinin yaratdığı mənəvi boşluq, texnologiyanın insan şüuruna təsiri və reallığın simulyasiya iləəvəz olunması postmodern estetikanın mühüm xüsusiyyətləri kimi təqdim edilir. Bununla yanaşı, Delillonun yaradıcılığında humanist ideya xəttinin qorunduğu, insanın autentik həyat və mənəvi bütövlük axtarışının davam etdiyi qənaətinə gəlinmişdir.

Açar sözlər: Don Delillo, postmodernizm, hiperreallıq, media, kapitalizm, simulyakr, Amerika ədəbiyyatı.

GİRİŞ: Müasir Amerika ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Don Delillo öz romanlarında postindustrial cəmiyyətin insan taleyinə və fərdi şüura təsirini dərindən araşdıran yazıçı kimi tanınır. Onun yaradıcılığında sosial-mədəni deformasiyalar, informasiya axınının insan psixologiyasına nüfuzu, kapitalist münasibətlər sisteminin yaratdığı mənəvi boşluq və virtual görüntülərin gerçəkliyi əvəz etməsi kimi problemlər xüsusi yer tutur. Delillonun əsərlərində əks olunan bu məsələlər XXI əsr insanının yaşadığı mənəvi, sosial və psixoloji böhranlarla səsləşdiyi üçün bu gün də aktuallığını qoruyub saxlayır. Don Delillonun bədii intuisiya ilə öncədən duyduğu və romanlarında təsvir etdiyi bu proseslər fransız filosofu Jan Bodriyarın hiperreallıq nəzəriyyəsi ilə səsləşərək mühüm elmi maraq doğurur [1]. Yazıçının yaratdığı bədii dünya reallıqla simulyasiya arasındakı sərhədlərin silindiyi, insanın isə informasiya və görüntülər içərisində öz mənəvi bütövlüyünü itirdiyi bir cəmiyyət modelini əks etdirir.

Tədqiqatın məqsədi Don Delillonun seçilmiş romanlarında media, kapitalizm və hiperreallıq konsepsiyasının bədii-estetik təzahürünü araşdırmaq, yazıçının postmodern düşüncə iləəlaqə nöqtələrini müəyyənləşdirmək və onun yaradıcılığındakı tənqidi-humanist mövqeni üzəçıxarmaqdır. Qarşıya qoyulan məqsədəçatmaq üçün postmodernizm və hiperreallıq nəzəriyyəsinin əsas müddəalarının araşdırılması, Don Delillonun estetik dünyagörüşünün təhlil edilməsi nəzərdə tutulur. Həmçinin "Bəyaz küy", "II Mao" və "Kosmopolis" romanlarında media, kapitalizm və simulyasiya problemlərinin bədii ifadə vasitələrinin, eləcə dəəsərlərdəki humanist ideya xəttinin öyrənilməsi nəzərdə tutulur.Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, adıçəkilən romanlardakı media və hiperreallıq problematikası Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə Jan Bodriyarın hiperreallıq nəzəriyyəsi, Fredrik Ceymsonun postmodernizm konsepsiyası və müasir Don Delillo tədqiqatları kontekstində kompleks şəkildə araşdırılır. Tədqiqat prosesində müqayisəli-tipoloji, struktur-semiotik və hermenevtik metodlardan istifadə edilmişdir.

Əsas hissə: Postmodern cəmiyyət, media və hiperrealliq problemi. XX əsrin ikinci yarısında formalaşan postmodernizmin əsas müzakirə mövzularından biridir. Fransız filosofu Jan Fransua Liyotar postmodernizmi "metanarrativlərə inamsızlıq" kimi xarakterizə edir [7, s. 66]. Bu yanaşma cəmiyyətin vahid ideoloji və mənəvi dayaqlarının zəifləməsini, fərdin isə sabit istinad nöqtələrini itirməsini ifadə edir. Xüsusiləlkinci Dünya müharibəsindən sonra ABŞ-də istehlak mədəniyyətinin genişlənməsi, reklam və televiziya sənayesinin gündəlik həyata nüfuzu reallıq anlayışını dəyişdirmişdir. Fredrik Ceymson bu prosesi "gec kapitalizmin mədəni məntiqi" adlandıraraq göstərir ki, əşyalar artıq yalnız funksional deyil, həm də simvolik və status xarakteri daşıyır [6, s. 15]. Nəticədə insan gerçək ehtiyaclardan daha çox media tərəfindən yaradılmış süni istəklərin təsiri altında yaşayır. 1970–1980-ci illərdən etibarən informasiya texnologiyalarının sürətli inkişafı medianı yalnız xəbər ötürən vasitə deyil, reallığı formalaşdıran əsas mexanizməçevirmişdir. Ekran və informasiya axını gündəlik həyatın dominant qüvvəsinəçevrilmiş, insanın gerçəklik duyğusu dəyişmişdir. Don Delillo da romanlarında məhz media mədəniyyətinin insan şüuruna təsirini, texnologiyanın yaratdığı mənəvi boşluğu və postmodern insanın yadlaşmasını bədii şəkildəəks etdirmişdir. Postmodern fəlsəfənin mühüm anlayışlarından biri olan hiperreallıq konsepsiyası Jan Bodriyarın "Simulyakrlar və simulyasiya" əsəri ilə bağlıdır. Filosofun fikrincə, müasir dünyada gerçəklik öz ilkin mahiyyətini itirərək simulyasiya iləəvəz olunur [1, s. 6]. İşarələr və görüntülər artıq reallığın sadəəksi deyil, müstəqil mövcudluq qazanan sisteməçevrilir. Beləliklə, insan gerçək həyatla deyil, onun media vasitəsilə yaradılmış surəti ilə qarşılaşır. Bodriyar bu prosesi reallığın mərhələli şəkildə simulyakr formasına çevrilməsi kimi izah edir. Hiperreallıq gerçəklikdən daha "real" görünən süni modellərin hakimiyyətini ifadə edir. Bodriyarın Disneylend nümunəsində olduğu kimi, media və reklam insanın gerçəklik duyğusunu dəyişdirərək onu görüntülər dünyasının sakininəçevirir. Don Delillonun romanlarında da insanın media tərəfindən yaradılmış süni reallıq daxilində mənəvi bütövlüyünü itirməsi əsas ideya istiqamətlərindən biri kimi təqdim olunur. Yazıçının bədii üslubu sərt sosial tənqid və ironiyaya əsaslanır. Delillo reklam dilini, televiziya nitqini və siyasi şüarları ironik formada təqdim etməklə müasir cəmiyyətin saxta dayaqlarını ifşa edir. Onun fraqmentar üslubu, qısa və sürətli epizodları informasiya dövrünün parçalanmış insan

şüurunu əks etdirir. Beləliklə, forma həm estetik seçim, həm də postmodern cəmiyyətin daxili xaosunu göstərən bədii vasitəyəçevrilir [8, s. 12].

Don Delillonun "Bəyaz küy" romanı media və hiperreallıq problemini ən təsirli şəkildəəks etdirən əsərlərdən biridir. Romanda Amerika ailəsinin gündəlik həyatı fonunda ölüm qorxusu, mənəvi boşluq və media təsiri araşdırılır. Əsərin baş qəhrəmanı Cek Qledni ölüm qorxusundan xilas olmaq üçün "Dylar" adlı dərmana ümid bağlayır. Bu detal göstərir ki, istehlak və media sistemi insana rahatlıq və davranış modeli təqdim etsə də, onu ölüm gerçəkliyi ilə barışdıra bilmir [2, s. 26-28]. Televiziya səslərinin fasiləsiz şəkildə evə yayılması, reklamların şüura nüfuzu və supermarketin müqəddəs məkana çevrilməsi hiperreallığın gündəlik həyat normasına çevrildiyini göstərir. Bodriyarın simulyakr nəzəriyyəsi baxımından romanda ölüm artıq təbii sonluq deyil, media və kommersiya tərəfindən idarə olunan anlayışa çevrilir [1, s. 159-160]. Reklam dili, ticarət loqoları və görüntülər insanın ən şəxsi məkanlarına qədər nüfuz edir və süni reallıq həyatın ayrılmaz hissəsinəçevrilir [2, s. 51].

"Mao II" romanında Delillo media ilə kütlə psixologiyası arasındakı münasibətləri araşdırır. Baş qəhrəman Bill Qrey ictimaiyyətdən uzaq yaşasa da, onun gizlənməsi belə mediada yeni obraz yaradır. Yazıçı bununla göstərir ki, postmodern dövrdə fərdi kimlik ictimai görüntü iləəvəz olunur. Romanda təsvir olunan kütləvi nikah mərasimi fərdin kollektiv görüntü içindəəriməsinin simvoludur [3, s. 16]. Delillo media dövründə insanın özü olmaqdan çox görünən obraza çevrilməyəçalışdığını göstərir. Romanda terrorizm və media münasibətləri də mühüm yer tutur. Yazıçı ilə terrorçu arasında paralel aparan Delillo göstərir ki, hər iki tərəf ictimai diqqəti idarə etməyəçalışır, lakin media əsrində daha güclü təsir imkanına terror malik olur [9, s. 78]. Bu baxımdan terrorizm yalnız siyasi akt deyil, həm də media hadisəsinəçevrilir. Fotoqrafiya və vizual görüntülərin insan şəxsiyyətini əvəz etməsi isə romanda kimlik böhranını daha da dərinləşdirir.

"Kosmopolis" romanında isə maliyyə kapitalizmi və texnoloji dünyanın insan şüuruna təsiri ön plana çıxır. Əsərin qəhrəmanı Erik Pakerin limuzinlə Manhetten boyunca hərəkəti müasir kapitalist sivilizasiyanın simvolik modelinəçevrilir. Limuzin ekranlar və informasiya axını iləəhatələnmiş hiperreallıq məkanı kimi təqdim olunur. Qəhrəman şəhəri birbaşa deyil, monitorlar vasitəsilə qəbul edir [1, s. 121]. Delillo texnologiyanı inkişaf vasitəsindən daha çox insanı reallıqdan uzaqlaşdıran sistem kimi təqdim edir [4, s. 13]. Romanda maliyyə kapitalizmi virtual iqtisadiyyat şəklində təsvir olunur. Pul artıq maddi dəyər deyil, rəqəmsal göstəriciyəçevrilir. Erik Paker üçün valyuta məzənnələri real insan talelərindən daha vacib görünür. Bu mənada "Kosmopolis" Fredrik Ceymsonun gec kapitalizm nəzəriyyəsinin bədii ifadəsi kimi çıxış edir [6, s. 259].

Beləliklə, Don Delillonun "Bəyaz küy", "II Mao" və "Kosmopolis" romanları postmodern cəmiyyətin media, hiperreallıq və texnologiya problemini müxtəlif aspektlərdən əks etdirir. Yazıçı göstərir ki, müasir insan informasiya və görüntü axınının içində yaşayaraq tədricən öz mənəvi bütövlüyünü, autentikliyini və gerçəklik hissini itirir.

Don Delillo yaradıcılığında kapitalist cəmiyyətin tənqidi. Don Delillonun yaradıcılığında kapitalist cəmiyyətin yaratdığı mənəvi boşluq əsas ideya istiqamətlərindən biri kimi diqqəti cəlb edir. Delillo romanlarında göstərir ki, kapitalist sistem insanın gündəlik həyatını rahatlaşdırsa da, onun ruhunda yaranan boşluğu doldurmağa qadir deyil. "Bəyaz küy"də bu vəziyyət ölüm qorxusu və istehlak psixologiyası vasitəsilə, "II Mao" əsərində fərdi kimliyin kütlə içindəəriməsi fonunda, "Kosmopolis"də isə hər şeyə sahib insanın mənəvi tənhalığışəklində təqdim olunur. Yazıçı istehlak cəmiyyətini yalnız iqtisadi model kimi deyil, insan düşüncəsini idarə edən psixoloji sistem kimi təqdim edir. Delillonun qəhrəmanları seçim etdiklərini düşünsələr də, əslində onların arzuları və ehtiyaclarıəvvəlcədən formalaşdırılmış istehlak mexanizmi tərəfindən yönləndirilir. Bu baxımdan azadlıq anlayışı görünməz nəzarət formasına çevrilir. İnsan özünü sərbəst hesab edir, lakin reklamların, medianın və bazar münasibətlərinin yaratdığı süni istəklər dünyasında yaşayır [8, s. 91]. Delillo məhz bu ziddiyyəti postmodern insanın əsas faciəsi kimi göstərir.

"Bəyaz küy" romanında ailə münasibətlərinin süni və mexanik xarakter alması müasir cəmiyyətin mənəvi böhranını daha aydın göstərir. Qledni ailəsinin gündəlik dialoqları emosional yaxınlıqdan çox, televiziya və informasiya axınının təsiri altında formalaşır. İnsanlar bir-birini dinləməkdən daha çox danışmağa və informasiya ötürməyə alışırlar. Beləliklə, söz öz səmimiyyətini itirir, ünsiyyət isə canlı münasibətdən çox media səhnəsini xatırladır. Yazıçı bununla göstərir ki, media artıq yalnız gündəlik həyata təsir etmir, həm də insan münasibətlərinin daxili strukturunu dəyişdirir. Delillonun romanlarında media manipulyasiyası və kimlik böhranı da mühüm yer tutur. Yazıçının qəhrəmanlarıözlərini cəmiyyətin onlara təqdim etdiyi obrazlar vasitəsilə dərk etməyəçalışırlar. Nəticədə insan öz yaratdığı imicin əsirinəçevrilir. Media burada həm güzgü, həm də həbsxana funksiyası daşıyır: fərd özünü həmin görüntüdə tanıyır, eyni zamanda ondan uzaqlaşa bilmir. "II Mao" romanının qəhrəmanı Bill Qrey bu problemin ən təsirli nümunəsidir. Uzun illər cəmiyyətdən uzaq yaşasa da, o, məşhur yazıçı obrazından xilas ola bilmir. Cəmiyyət onun daxili mahiyyətini deyil, media tərəfindən formalaşdırılmış simasını qəbul edir [3, s. 44]. Beləliklə, şəxsiyyət artıq insanın kim olması ilə deyil, necə görünməsi ilə müəyyən olunur. Bununla yanaşı, Delillonun yaradıcılığı yalnız sosial tənqid üzərində qurulmur. Yazıçının əsərlərində güclü humanist yanaşma da hiss olunur. Onun qəhrəmanları mənəvi boşluq və yadlaşma içində yaşasalar da, həqiqi həyat və autentik münasibətlər axtarışından tamamilə vaz keçmirlər. Bu axtarışçox zaman uğursuzluqla nəticələnsə də, Delillo insanın daxilində hələ də qorunub qalan mənəvi ehtiyacın mövcudluğunu xüsusi həssaslıqla göstərir [10, s. 129]. Texnologiya və insan münasibəti yazıçının romanlarında paradoksal xarakter daşıyır. Texnologiya bir tərəfdən insanın imkanlarını genişləndirir, digər tərəfdən isə onu reallıqdan uzaqlaşdıraraq daxili təcrid vəziyyətinə sürükləyir. "Kosmopolis" romanının baş qəhrəmanı Erik Paker bunun simvolik ifadəsidir. Dünyanın ən güclü maliyyə və rəqəmsal

sistemlərinə nəzarət edən bu insan sonda öz ölümlülüyü və fiziki varlığı iləüz-üzə qalır. Beləliklə, Delillo göstərir ki, texnoloji inkişaf insanı ekzistensial qorxulardan və mənəvi tənhalıqdan xilas edə bilmir.

Müasir insanın mənəvi axtarışları Delillo yaradıcılığının əsas humanist xəttini təşkil edir. Cek Qledninin ölüm qorxusunu anlamaq cəhdi, Bill Qreynin həqiqi sözə və yazıya qayıtmaq arzusu, Erik Pakerin həyatın mənasını dərk etməyə yönəlmiş daxili narahatlığı göstərir ki, postmodern dünyanın bütün təzyiqlərinə baxmayaraq, insan öz mənəvi bütövlüyünü tamamilə itirməmişdir. Don Delillo da məhz bu zəif, lakin sönməyən insanlıq hissini dərin psixoloji həssaslıqla təqdim edir.

NƏTİCƏ: Aparılmış tədqiqat göstərir ki, Don Delillo yaradıcılığı postmodern Amerika ədəbiyyatında media, hiperreallıq və kapitalist cəmiyyət problemlərinin bədii-fəlsəfi təhlili baxımından mühüm əhəmiyyət daşıyır. Yazıçının romanlarında informasiya, reklam və texnologiya insan şüurunu formalaşdıran əsas qüvvə kimi təqdim edilir, nəticədə fərd gerçəklik hissini və mənəvi bütövlüyünü tədricən itirir. Eyni zamanda Delillonun yaradıcılığı Jan Bodriyarın hiperreallıq nəzəriyyəsi ilə sıx səsləşir. Yazıçı media və simulyasiya mexanizmlərini bədii şəkildə təqdim edərək müasir insanın görüntülər və istehlak sistemi daxilində yadlaşmasını göstərir. Onun əsərlərində maddi rifah mənəvi boşluqla, texnoloji inkişaf isə daxili tənhalıq və psixoloji təcridlə paralel inkişaf edir. Bununla yanaşı, Delillonun yaradıcılığı yalnız postmodern dünyanın tənqidi ilə məhdudlaşmır. Yazıçı insanın həqiqi ünsiyyətə, autentik həyata və mənəvi bütövlüyə qayıdış istəyini də xüsusi həssaslıqla təsvir edir. Məhz bu humanist yanaşma Don Delillo yaradıcılığının əsas estetik və fəlsəfi xüsusiyyətlərindən biri kimi diqqəti cəlb edir. Nəticə etibarilə, Don Delillo müasir insanın kimlik, reallıq, azadlıq və yadlaşma problemlərini dərin bədii-fəlsəfi səviyyədə araşdıran aparıcı postmodern yazıçılardan biri kimi dəyərləndirilə bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Baudrillard J. Simulacra and simulation / J.Baudrillard. – Michigan: University of Michigan Press, – 1994. – 164 p.
2. DeLillo D. White noise / D.DeLillo. – New York: Viking Press, – 1985. – 326 p.
3. DeLillo D. Mao II / D.DeLillo. – New York: Viking Penguin, – 1991. – 241 p.
4. DeLillo D. Cosmopolis / D.DeLillo. – New York: Scribner, – 2003. – 224 p.
5. Hutcheon L. A poetics of postmodernism: History, theory, fiction / L.Hutcheon. – London: Routledge, – 1988. – 268 p.
6. Jameson F. Postmodernism, or, the cultural logic of late capitalism / F.Jameson. – Durham: Duke University Press, – 1991. – 438 p.
7. Lyotard J.-F. The postmodern condition: A report on knowledge / J.-F.Lyotard. – Minneapolis: University of Minnesota Press, – 1984. – 110 p.
8. Boxall P. Don DeLillo: The possibilities of fiction / P.Boxall. – London: Routledge, – 2006. – 176 p.
9. Lentricchia F. Introducing Don DeLillo / F.Lentricchia. – Durham: Duke University Press, – 1991. – 248 p.
10. Ruphavati G. Healing the self: Mental health and existential recovery in the select works of Don DeLillo // South Eastern European Journal of Public Health (SEEJPH), 25(S1), – 2024. – p. 1293–1299.

Rzayeva Gulnar Mirsalim
Azerbaijan University, Head of the Department of Translation and Philology
e-mail: gulnar.rzayeva@au.edu.az
Orcid: https://orcid.org/0000-0003-0584-0781

Media, capitalism and hyperreality in don delillo's works

Summary

The article examines the concepts of media, capitalism, and hyperreality in the works of one of the prominent representatives of contemporary American literature, Don DeLillo. The main aim of the research is to analyze the influence of postmodern society on human consciousness and spiritual life in DeLillo's novels "White Noise", "Mao II", and "Cosmopolis". During the study, Jean Baudrillard's theory of hyperreality, Fredric Jameson's concept of postmodernism, and modern literary approaches were used as the main theoretical framework. The research reveals that in DeLillo's novels media and the flow of information function not merely as a social background but also as one of the principal factors shaping identity crisis, spiritual alienation, and fear of death. In the writer's works, the spiritual emptiness created by consumer society, the influence of technology on human consciousness, and the replacement of reality by simulation are presented as essential characteristics of postmodern aesthetics. At the same time, the study concludes that Don DeLillo's work preserves a humanistic dimension, emphasizing humanity's continuing search for authentic life and spiritual integrity.

Keywords: Don DeLillo, postmodernism, hyperreality, media, capitalism, simulacrum, American literature.

Рзаева Гюльнар Мирсалим кызы
Азербайджанский Университет, Заведующая кафедрой Перевода и филологии
e-mail: gulnar.rzayeva@au.edu.az
Orcid: https://orcid.org/0000-0003-0584-0781

Медиа, капитализм и гиперреальность в творчестве дона делилло

Резюме

В статье исследуются концепции медиа, капитализма и гиперреальности в творчестве одного из видных представителей современной американской литературы Дона Делилло. Основная цель исследования заключается в анализе влияния постмодернистского общества на человеческое сознание и духовный мир в романах писателя «Белый шум», «Мао II» и «Космополис». В ходе исследования в качестве теоретической основы были использованы теория гиперреальности Жана Бодрийяра, концепция постмодернизма Фредрика Джеймсона, а также современные литературоведческие подходы. В результате исследования было установлено, что в романах Делилло медиа и информационный поток выступают не только как социальный фон, но и как один из главных факторов, формирующих кризис идентичности, духовное отчуждение и страх смерти. В произведениях писателя духовная пустота, порождаемая обществом потребления, влияние

технологий на человеческое сознание и замещение реальности симуляцией представлены как важнейшие черты постмодернистской эстетики. Вместе с тем делается вывод о том, что в творчестве Делилло сохраняется гуманистическое начало, отражающее стремление человека к подлинной жизни и духовной целостности.

Ключевые слова: Дон Делилло, постмодернизм, гиперреальность, медиа, капитализм, симулякр, американская литература.

Rəyçi: prof. QorxmazQuliyev

DOI: 10.24412/2218-7588-2026-2-140-142

Heyran İmran qızı Vəkilova, Səfayə Sadıq qızı Sadıqova
BDU, Qazax filialı, Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının müəllimləri
vekilovaheyran2@gmail.com
sefayesadiqova@gmail.com
https://orcid.org/0009-0003-6638-7092

BİR ƏSRLİK YOLUN YADDAŞI

XÜLASƏ: 1926-cı ilin fevralında Bakıda Türk dünyası tarixində silinməz iz qoyan Birinci Türkoloji Qurultayı keçirildi. Bu möhtəşəm toplantı türk xalqlarının elmi, mədəni və mənəvi birliyinin təməl daşlarından biri oldu.

Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayının 100 illik yubileyinin keçirilməsi haqqında bu günlərdə imzaladığı sərəncamda deyilir: "Birinci Türkoloji Qurultayı ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, Türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır".

Açar sözlər: Beynəlxalq, inteqrasiya, əlifba, qətnamə, müstəqillik, yaddaş

GİRİŞ: O dövrdə Sovet İttifaqının tərkibində olan türk xalqları ərəb, kiril və digər yazı sistemlərindən istifadə edirdilər. Bakının ev sahibliyi etdiyi qurultayın əsas müzakirə mövzusu türk xalqlarının vahid latın qrafikalı əlifbasının yaradılması idi. Yeni əlifba savadlanma səviyyəsini yüksəltməklə bərabər, həm də əsasən türk xalqları arasında elmi və mədəni əlaqələri gücləndirmək məqsədi daşıyırdı.

Müzakirə nəticəsində latın qrafikalı yeni əlifbaya keçid ideyası qəbul olundu. Bu qərar sonrakı illərdə Azərbaycan, Türkmənistan, Qazaxıstan və digər türk respublikalarında həyata keçirildi. Bu gün həmin qurultayda səslənən böyük ideya- birləşmiş, savadlı və mədəni Türk dünyası arzusu öz aktuallığını qoruyur.

ƏSAS HİSSƏ: Rus imperiyası 1918-ci ildə qurulan, əfsuslar ki, cəmi-cümlətanı 23 ay ömrü olan Azərbaycan müstəqil dövlətini yıxıb yerində Azərbaycan Sovet Sosialist Respublikası qurandan sonra bolşeviklər öz ideologiyalarını geniş yaymaq üçün bütün Sovet birliyində kütləvi savadlanma hərəkatı başlatdı. Bu hərəkat, əslində, kommunist təbliğatının tərkib hissəsi idi.

Birinci Türkoloji Qurultayının əsas məqsədi ərəb əlifbasından latın əlifbasına keçid idi. Çünki belə bir fikir formalaşmışdı ki, Azərbaycanda, türk dünyasında savadsızlığın əsas səbəbi ərəb əlifbasının çətin olmasıdır. Həqiqətən də, belə idi, çünki ərəb əlifbasını öyrənmək üçün çox vaxt tələb olunurdu. Bu əlifbanınAzərbaycan dilinə, Türk dillərinə yaramadığı yüz illər boyu deyilmişdi. Azərbaycan SSP-in yaranmasından sonra XX əsrin 20-ci illərindən başlayaraq əlifba məsələsi yenidən aktuallıq qazandı və ərəb əlifbasının yazıdan götürülməsi üçün tədbirlər görülməyə başlandı. Bu məqsədlə 1921-ci ildə Əlifba Komitəsi təşkil edildi, layihə hazırlandı. Yeni əlifba layihəsində Azərbaycan dilinin bütün əsas səslərinə uyğun 32 hərf və apostrof işarəsi göstərilirdi. Uzun sürən müzakirələrdən sonra 1922-ci ildə yeni əlifba təsdiq edildi və mətbuatda, orta məktəblərdə təbliğ olunmağa başlandı. Əlifbanın dəyişdirilməsində ən böyük rolu 1926-cı ildə Bakıda keçirilən Türkoloji Qurultayı oynadı. Qurultay latın qrafikalı yeni Azərbaycan əlifbasını bəyəndi və bu barədə qətnamə qəbul etdi. Yeni əlifba ölkədə bir neçə il tətbiq olunmasına baxmayaraq, əhalinin bir hissəsi yenə də ərəb əlifbasından ayrıla bilmədi. 1929-cu ildən etibarən artıq latın əlifbası ölkədə bütövlükdə qəbul edildi.

Elə həmin ildən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu və bu yazını yaddan çıxartmaq məqsədilə iri kitab yandırma kampaniyası həyata keçirildi. Azərbaycanda yeni əlifbanın qəbul edilməsi ərəb əlifbasından istifadə edən xalqlar üçün də (tatarlar, qazaxlar, türkmənlər, özbəklər və s.) nümunə oldu. Lakin bu əlifbadan istifadə 1940-cı ilə qədər davam etdi.

Əfsuslar ki, 10 il sonra türklərin bu addımına qarşı Stalin kiril əlifbasını Sovet İttifaqının bütün müsəlman ölkələrində tətbiq etdi. Çünki Sovet imperiyası öz ərazisində yaşayan türk dilli xalqların birləşməsindən, onların Türkiyə ilə əlaqələrinin genişlənməsindən ehtiyat edirdi.

Ərəb əlifbasında türk dillərinin saitlərini əks etdirən xüsusu işarələrin olmaması, bir neçə saitin bir işarə ilə yazılması həmin əlifbanın türk dillərinin əlifbası kimi işlədilməsində zaman-zaman müəyyən çətinliklər meydana çıxarmış, yazımızın, dilimizin inkişafına mane olmuş, savadlanmanı ləngitmişdir. Ərəb əlifbasının istifadəsindən irəli gələn nöqsanlar əsasən aşağıdakıları özündə birləşdirirdi:

1. Ərəb əlifbası sağdan-sola yazılırdı.
2. Ərəb əlifbasında 28 hərf var idi. Bunlardan 25-i samit, 3-ü sait idi. Azərbaycan dilinin saitlərini əks etdirmək üçün kifayət qədər işarə yox idi.
3. Hərflərin çoxu sözün əvvəlində, ortasında və sonunda gəlməsindən asılı olaraq fərqli yazılırdı. Bəzi hərflər bir-birinə bənzəyirdi, yalnız nöqtələrin sayı ilə fərqləndirilirdi.
4. Bir hərf bir neçə səsi ifadə edirdi.
5. Yazı prosesində istifadə edilən əlavə işarələr orfoqrafik və orfoepik səhvlərin buraxılmasına səbəb olurdu.
6. Bu əlifba imla qaydalarını yaratmaqda, habelə tədris işində çətinliklər yaradırdı.

Bütün bu nöqsanlı cəhətlər ərəb əlifbasının dəyişdirilməsi zərurətini ortaya çıxarmışdı. İlk dəfə Azərbaycanda

əlifbanı dəyişmək ideyası XIX əsrdə böyük mütəfəkkir M.F.Axundov tərəfindən irəli sürülmüşdür. Böyük maarifçi Yaxın Şərq xalqlarının mədəni geriliyinin səbəblərindən birini köhnə ərəb əlifbasında görür və bu barədə məktublarında yazırdı: **"**Allaha and olsun ki, hər zaman ki, həmvətənlərimiz və həmməzhəblərimizin vəziyyətini və onların cəhalətdə qalmasını xatırlayıram, təəssüf atəşinin tüstüsü qəlbimdən beynimə vurur. Bu vəziyyətin və cəhalətin səbəbi elmsizlik və savadsızlıqdır. Elmsizlik və savadsızlıq isə islam əlifbasının çətinliyinin nəticəsidir ki, bunun da əlacı ən asan bir çarə- yəni islam əlifbasını dəyişdirməkdir".

M.F.Axundzadə ərəb əlifbasının Azərbaycan yazısı üçün yararsız, tədris üçün ağır olduğunu göstərərək deyirdi ki, bu əlifbanı 3-4 ilə ancaq öyrənmək olur, onu öyrənmək uşağa riyaziyyatı öyrənməkdən ağır gəlir.

XIX əsrin sonlarına doğru latın əlifbasına keçid fikri qətiləşmişdi. 1916-1917-ci illərdən 1926-cı ilə qədər Azərbaycanda və Türk dünyasında mövcud vəziyyət Birinci Türkoloji Qurultayının keçirilməsinə zəmin hazırlamışdı.

BirinciTürkolojiQurultayı 10 il müddətində hazırlanmışdı və 10 ildə də onun ideyaları həyata keçirilmişdi. BirinciTürkolojiQurultayı Bakıdakı İsmailiyyəSarayında 1926-cı ilin fevralın 26-da öz işinə başlayır və martın 6-na kimi davam edir. İsmailiyyəni çoxları bir gəncin faciəsindən yaranan bina kimi səciyyələndirirlər. İndiki İstiqlaliyyət, keçmişdə Nikolayevski küçəsində yerləşən bu bina Bakı milyonçusu Ağa Musa Nağıyevin Bakıda tikdirdiyi 98 binadan biri olmuşdur. Vərəm xəstəliyindən cavan ikən dünyasını dəyişən oğlu İsmayılın xatirəsini əbədiləşdirmək məqsədi ilə İsmailiyyəni tikdirən milyonçu, ermənilər tərəfindən bina yandırılanda oğlunu-İsmayılı ikinci dəfə itirdim, demişdir.

1908-ci ildə Polşalı memar İosif Proşkanın layihəsi ilə tikintisinə başlanan bina 1918-ci ildə istifadəyə verilir. Möhtəşəmliyi, gözəlliyi ilə Bakının bütün binalarını kölgədə qoyur. Mart soyqırımı zamanı saray qarət olunur, toplarla dağıdılır, yandırılır. 5 kiloqramlıq qızıldan yazılan İsmailiyyə də mənfur ermənilər tərəfindən oğurlanır.

Birinci Türkoloji Qurultayının iştirakçılarından təxminən 20-si azərbaycanlı idi və demək olar ki, hamısı sonradan repressiyaya məruz qaldı. Qurultayda çarizm, rus şovinizmi kəskin tənqid olunub. Hətta çıxış edən azərbaycanlı ziyalılar rus millətçiliyinə qarşı kəskin fikirlər söyləyirlər. Qurultayda türkoloq Bəkir Çobanzadə elmi rəhbər idi. O, hər hansı məsələ ilə bağlı mübahisə yaranmasına imkan vermirdi. Dilimizdə alınma sözlərin, terminlərin işlədilməsini lazım bilir və qeyd edirdi ki, bu sözlər mədəniyyətin, elmin inkişafına xidmət edir.

Birinci Türkoloji Qurultayı yalnız əlifba islahatı ilə məhdudlaşmadı. Burada dilçilik, ədəbiyyat, tarix, folklor və mədəniyyət sahələrində ümumi prinsiplərin müəyyənləşdirilməsi, ortaq elmi istiqamətlərin qəbul edilməsi məsələləri müzakirə edildi. Qurultayda eyni zamanda, ünlü akademiklər: Vasili Bartold, Sergey Oldenburq, Avropa alimlərindən F.F.Menşel, Tomsen, Türkiyədən Mehmet Fuad Köprülü, Türkmənistandan Berdiyev, Tatarıstandan Qələmcan Rahimov, Azərbaycandan Əli bəy Hüseynzadə, Mustafa Quliyev fəxri qonaqlar kürsüsündə əyləşmişdilər. İlk iclasa Azərbaycan SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd ağa Ağamalıoğl**u** sədrlik edirdi. O, Sovet Sosialist Azərbaycanında ilk Türkoloji Qurultayın ilk iclasını açıq elan edərək deyir: **"**Yoldaşlar, əvvəlcə feodallar sistemi, daha sonra rus mütləqiyyəti tərəfindən incidilən Azərbaycan ilk dəfədir ki, tarix səhnəsinə taleyini öz arzularına uyğun şəkildə qurub-yaradan azad xalq kimi qədəm qoyur".

Qurultayda Qəzənfər Musabəyov təbrik nitqi ilə çıxış edir. O, qurultayın məramını açıq bəyan edir: "Yoldaşlar, bu Türkoloji Qurultay, şübhəsiz, sərhədin o biri tərəfində olan türk-tatar xalq kütlələrinin birləşməsi və tam enerjilərilə bugünkü məşəqqətli həyatlarının intibahına başlamaları üçün güclü təkan olacaq. Birinci Türkoloji Qurultay sovet hakimiyyətinə Yaxın Şərqin ən mühüm mədəni məsələlərinin həllində köməklik göstərməli, türk-tatar xalqlarının problemlərini həll etməlidir".

Birinci Bakı Türkoloji Qurultayı türk dillərinin əsas problemləri olan əlifba, imla-orfoqrafiya, termin, tədris-metodika, qohum və qonşu dillərin ədəbi dil problemləri, ortaq ədəbi dil, türk dillərinin tarixi problemləri ilə bağlı müvafiq qərarlar qəbul etdi. Qurultayın nəticəsi olaraq türk xalqları latın qrafikalı əlifbaya keçsə də, 1939-cu ildə bu qərar ləğv edilir və Sovet İttifaqı ərazisində yaşayan türk xalqları üçün kütləvi olaraq kiril əlifbası qəbul olunur.

Birinci Bakı Türkoloji Qurultayının Sovet İttifaqından olan əksər nümayəndələrinin sonrakı taleyi azərbaycanlılar kimi faciəvi olur. 1930-cu illərin siyasi repressiyaları gedişində onlara qarşı da pantürkizm, millətçilik və əks-inqilabi fəaliyyət ittihamı irəli sürülür və demək olar ki, hamısı ölüm cəzasına məhkum edilir.

Birinci Türkoloji Qurultayı XX yüzilliyin ən əhəmiyyətli hadisəsi səviyyəsində tarixdə və yaddaşlarda qaldı. O, bir əsr sonra zamanın diktəsindən yaranan türk ailəsinin birmənalı şəkildə bünövrəsi, təməl daşları sayılmalıdır.

Səkkiz gün davam edən mötəbər tədbirdə 131 nümayəndə iştirak etmiş, 17 iclasda yeddi əsas problem müzakirə edilərək, ümumilikdə 38 məruzə dinlənilmişdir. Qurultayda müzakirəyə qoyulan ortaq türk xalqlarının dili, tarixi və ədəbi məsələləri bu gün də öz aktuallığını qoruyub saxlayır.

Müstəqillik illərində dilimiz dövlət dili statusu qazanmışdır. Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli fərmanlar ana dilimizin inkişafında mühüm istiqamətverici sənədlər hesab edilə bilər. Bütün bunlar Türkoloji Qurultayın qərarlarının məntiqi davamı olmaqla, həmin qərarların tarixi əhəmiyyətini təsdiq edir və onların obyektiv zərurətdən meydana gəldiyini göstərir.

NƏTİCƏ: Birinci Türkoloji Qurultayı qardaş xalqları birləşdirən ilk elmi məclis oldu. Bu birlik onları insanlığa, özünüdərkə, demokratik şəraitdə birgə yaşamağa ümidləndirdi. 1926-cı ilin 6 martında öz işini bitirən qurultay əfsuslar olsun ki, qarşısına qoyduğu, arzusunda olduğu xəyallarını həyata keçirə bilməsə də Türkologiyanın, insanlığın yaddaşında bir böyük tədbir kimi öz elmi vüsəti, eyni zamanda faciəsi və ibrətli taleyi ilə ədəbi məktəb kimi həmişə yaşayacaqdır

İstifadə edilmiş ədəbiyyat
1. Çobanzadə B. Seçilmiş əsərləri. Bakı, 2007
2. Hacıyev T. Azərbaycan ədəbi dili tarixi. Bakı, 2012
3. Nərimanoğlu K.V. Birinci Türkoloji Qurultay: Şahidlər və Şəhidlər. Bakı, 2003
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı, 2004, 2005

Хейран Имран кызы Вакилова, Сафая Садик кызы Садикова
БГУ, Казахский филиал.Преподаватели кафедры языка, литературы и методики их преподавания методология
vekilovaheyran2@gmail.com
sefayesadiqova@gmail.com
https://orcid.org/0009-0003-6638-7092

Воспоминание о столетическом пути

Резюме

В феврале 1926 года в Баку состоялся Первый тюркологический съезд, оставивший неизгладимый след в истории тюркского мира. Этотсъезв стал великим событием в истории научного, культурного и духовного единства тюркских народов.

В указе, подписанном недавно президентом Ильхамом Алиевым по случаю 100-летия Первого тюркологического съезда говорится: «Первый тюркологический съезд явидлся одним из исключительно важным событием, создавшимновый этап культурной интеграции тюркских народов с общим богатым прошлым и древним наследием. На этом уникальном научном форуме международного масштаба решались наиболее актуальные вопросы тюркологии, которые стали предметом широкого и систематического обсуждения. На съезде были приняты важные решения относительно будущего языка, истории, этнографии, литературы и культуры тюркского мира, а также уделено особое внимание переходу к единому всетюркскому алфавиту на основе латинского алфавита».

Ключевые слова: международный, интеграция, алфавит, резолюция, независимость, память.

Heyran ImranVakilova, Safaya Sadik Sadikova
BSU, Kazakh branch. Teachers of the department of language, literature and methods of their teachingmethodology
vekilovaheyran2@gmail.com
sefayesadigova@gmail.com
https://orcid.org/0009-0003-6638-7092

Remınıscences of the century path

Summary

In February 1926, the First Turkological Congress took place in Baku, which left an indelible mark in the history of the Turkic world. This meeting became a great event in the history of the scientific, cultural and spiritual unity of the Turkic peoples.

The decree recently signed by President Ilham Aliyev on the occasion of the 100th anniversary of the First Turkological Congress states: "The First Turkological Congress was one of the most important events that created a new stage of cultural integration of the Turkic peoples with a common rich past and ancient heritage. At this unique scientific forum on an international scale, the most relevant issues of Turkology were resolved, which became the subject of a wide and systematic discussion. At the congress, important decisions were made regarding the future language, history, ethnography, literature and culture of the Turkic world, and special attention was paid to the transition to a single all-Turkic alphabet based on the Latin alphabet.

Keywords: international, integration, alphabet, resolution, independence, memory.

Rəyçi: dos. S.Abbasova

DOI: 10.24412/2218-7588-2026-2-143-146

Cahidə Yaqubova Etibar qızı
Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu
cahidey1996@gmail.com
orcid.org/0000-0001-7757-1723

MASALLI FOLKLOR MATERIALLARİ ƏSASINDA QADIN SÖYLƏYİCİLİYİNİN JANR VƏ MÖVZU RƏNGARƏNGLİYİ

XÜLASƏ: Azərbaycanın bütün regionlarının özünəməxsus folkloru, adət-ənənəsi vardır, bunlardan biri də Masallı bölgəsinə aiddir. Zəngin folklor örnəkləriylə tanınan Masallı 2012-ci ildə folklor paytaxtı elan edildi. Masallı folklor örnəklərini Füzuli Bayat, F.Xələfli, N.Ədilov, F.Sadıqov və başqaları toplamışdır. Buranın Azərbaycanın folklor paytaxtı elan edilməsinin digər səbəbi də halay ilə bağlıdır. Bəzi mənbələrə görə, Masallıda insanlar 15-20 min əvvəldən yaşayırlar. Həmçinin Masallı bölgəsinin adıyla bağlı rəvayətlər də mövcuddur. Bəzi tədqiqatçılar Masallı adını Mosullu sözüylə, bəzisi də Masal adlı xanın adıyla yarandığı fikrini müdafiə edir.

Masallı folklorunda şifahi xalq ədəbiyyatının bütün janrları icra olunub. Folklorun yaşadılmasında, təkrarlanıb yayılmasında tək kişi söyləyicilər deyil, qadın söyləyicilərin də rolu vardır. Qadın söyləyicilərdən memorat, əfsanə və rəvayətlər, nağıllar, ağılar, mahnılar, türkəçarələr, məhərrəmlik və dini əhvalatlar, laylalar, nazlamalar, bayatılar, adət-ənənələrlə bağlı məlumatlar və bir çox adını dəmədiyimiz folklor janr nümunələri toplanmışdır. Bu da Masallı folklorunun rəngarəngliyindən, nə qədər zəngin olmasından xəbər verir. Hərçənd ki, toplama zamanı bəzən söyləyicilərin xatırlamaqda çətinlik çəkdikləri, unutduqları da görünür. Buna baxmayaraq, Masallı bölgəsinin qadın söyləyicilərindən materiallar toplana bilmişdir, ancaq demək lazımdır ki, hələ də toplanmamış folklor örnəklərimiz mövcuddur.

Açar sözlər: Folklor, Masallı, qadın, söyləyici, tədqiqat, toplama

GİRİŞ: Folklor örnəklərini canlı olaraq düşünsək onu yaşatmaq üçün ötürmə üsulundən istifadə etməyə məcburuq. Əks halda şifahi xalq ədəbiyyatı inkişaf edə bilməz və yaşamaz. Əlbəttə ki, onların yaşamasında qadın söyləyicilərin də rolu əvəzsizdir. Qadın söyləyici özü də bilmədən həyatı boyu ötürücü funksiyasını yerinə yetirir, yaddaşında saxlayır və nəsildən-nəslə keçməsinə öz töhfəsini vermiş olur. Söyləyici kimi qadın mətni yadda saxlamaqla yanaşı, ona öz hisslərini, düşüncələrini də ötürür və keçid mərhələrində variantlılığa yol açmış olur.

Hər bir folklor örnəklərinin yaranmasında olduğu kimi, Masallı regional mühitinin də yaranmasında qadın icraçılığının izləri var. Buna həmçinin bölgənin coğrafi, etnoqrafik və sosial mühitinin də təsiri var. Anaya, qadına, nənəyə olan ehtiram Masallı folklorunun qorunmasında önəmli yer tutur. Buradakı qadın məclisləri, yığıncaqlar, toy adət və ənənələrinin keçirilməsi, yas ritualları və digər bayram şənlikləri qadın folklorunun yaranmasında, qadın icraçılığının formalasmasında akademiya rolunu oynayır. Füzuli Bayat da söyləyici haqqında deyir: "Folklor söyləyənlə dinləyənin arasında bir növ dialoqdur, münasibətdir, informasiya alış-verişidir." [1, s. 41] Deməli, söyləyici olmasa, folklor yaşaya bilməz, ötürülmədən yox ola bilər. Bu səbəbdən folklor mətninin söyləyiciyə və dinləyiciyə ehtiyacı vardır. Dinləyicinin varlığı söyləyicinin ifadə tərzinə, xatırlamasına, həvəslə danışmasına imkan verir, əks halda söyləyici dinləyici olmadan mətnləri xatırlamağa cəhd etmədən unudacaq.

ƏSAS HİSSƏ: Masallı qadın söyləyicilərinin repertuarında lirik və mərasim janrları: Masallı regionunda qadın söyləyicilərdən lirik folklor janrına aid layla, nazlama, bayatı, ağı, mahnı, əmək nəğməsi və sair lirik örnəklər toplanmışdır. Qızılgül oyum-oyum deyərkən, qat-qat, dəstə-dəstə anlamında deyilir.

Ardınca qızılgülü dərib qoynuma qoyum deyilir. Yağış yağsa da, yer sudan doymur, belə halda insan qızılgüldən necə doya bilər?! Bu nazlama uşaqları əzizləmək üçün nənələr, analar tərəfindən deyilir. Uşaqlar oynadılarkən, yuxudan oyanarkən deyirlər. Qızılgülün ətrindən doymaq olmur, torpaq belə susuz qala bilmir. Eynilə də, nənə və ana da övladından doymur, nə qədər sevsə də, qucaqlasa da, kifayətlənə bilmir:

Qızılgül oyum-oyum,
Dərim qoynuma qoyum.
Yağış yağar, yer doymaz,
Mən səndən necə doyum? [3, s. 261]

Uşaqları yatdıranda müəyyən nəğmələr, laylalar, zümzümələr edilir ki, onlar rahat yuxuya gedə bilsin. Bu nəğmələri səsləndirərkən ananın, nənənin səsindəki həlimlik, məlahətlilik, ifadə edilməyəcək güclü analıq hissləri əksini tapır. Ana övladına laylay deyir, övladı isə ya yatmaq istəmir, ya da anasına nazlanır, səsi ətrafa yayılır. Övladına dua edir, Allahdan onunəzərdən qoruyub saxlamasını, pis xəstəliklərdən amanda qalmasını istəyir:

Lay-lay dedim ucadan,
Səsin gəlir bacadan.
Allah səni saxlasın,
Çiçəydən, qızılcadan. [3, s. 261]

Rus folklorşünas Vasilenko beşik başında oxunan nəğmələrin ikinci adının qədim rus dilində "bayki" sözündən əmələ gəldiyini deyir, yəni bayat rus dilindən tərcümədə danışır deməkdir. [6, s.520] Layla və nazlamanın hər biri dörd misra və yeddi hecadan ibarətdir. Hər ikisində də birinci, ikinci və sonuncu misra həmqafiyə, üçüncü misra isə sərbəstdir. Söyləyicilərin təhsilsiz, evdar xanım, sadə həyat tərzi yaşamış olduqlarını nəzərə alsaq, yenə də keçmişdən gələn ənənəni özləri də bilmədən üslubuna görə formaya sala bilmişlər. Aidə adlı söyləyici qardaşının ölümündən sonra

bədahətən bayatılar söyləyir, dərdini bayatılara tökür. Bacı qardaşına söylənir ki, mən sənin bağın, baxçan, heyva, narın deyiləm. Sən özün gəl ailənə sahib çıx, mən cavabdeh,zamin deyiləm. Qardaş itkisi bacının ürəyinə dağ çəkir, ağrısını bayatıya çevrir, özünü bir növ təsəlli etməyə çalışır. Ürəyinin dərinliyində bir yalvarış, ümid sezilir:

Baxça-bağın deyiləm, Heyva, narın deyiləm.
Gəl aylüvə sahib ol,
Zaminkarın deyiləm. [3, s. 262]

Bayatıların mövzusu müxtəlif və rəngarəndir. Aktual olanlardan biri də ölümlə bağlıdır. Burada ölümə qarşı etiraz, güclü yaşam istəyi var. Vaxtsız gedənlərin bu biri dünyada yarım qoyduqları insanların da həyat işığı sönür. Beləliklə, nakam şəxs ülviləşir, nakam tale və həyat eşqi, ölüm ilə gənclik təzad təşkil edir. [s. 148] Əlavə olaraq, demək lazımdır ki, ağıları adətən, qadınlar söyləyir. Kişilər hisslərini, düşüncələrini açıq söyləmədiyi, qadınlar kimi çox emosional olmadığı üçün ağı söyləyən kişi söyləyiciylə rastlaşmaq qeyri-mümkün kimidir. Kişilərin əksinə, ağını daha çox qadın söyləyicilər söyləyir. Buradan belə çıxış etmək olar ki, bəzi folklor janrlarının yaradıcı və yaşadanı məhz elə qadınlardır. Ağı söyləyicisi itkinin verdiyi ağrını ağıya çevirərək gileylənir, sanki üsyan edir. Aşağıdakı ağı da deyiləni özündə göstərir. Pəncərəni açıq qoyun ki, gedən-gələnlər görünsün. Söyləyici düşünür ki, dünyadan nakam, cavan gedən gənci torpağa necə qoyurlar. O, ağrı hissini sözlərə töküb ağlayır, cavan ömrün yarım qalmasına kədərlənir, insanlardan çox torpağın cavan adamı qəbul etməsinə heyrətlənir:

Açığ qoyun pəncərəni,
Gözüm görsün gələni.
Necə qəbrə qoyallar, Belə cavan öləni. [3, s. 266]

Başqa bir lirik örnək əmək nəğməsidir. Çətin vəziyyətlərdə işləyən insanlar başlarını qatmaq üçün nəğmələr oxuyurdu. Çəltikçiliyin çətin peşə və əziyyətli iş olduğunu nəzərə alsaq, işlərinin ağırlığını göstərmək üçün işçilər iş vaxtı nəğmələr söyləyir. Söyləyici deyir ki, ayaqyalın şaxtada çəltik əkirdik, buzlar ayaqlarımızın altında qırılırdı. Onlara nəzarət edən şəxs işlərini dayandıranda hirslənərdi ki, niyə dayanmısınız. O zamanlar aclıq dövrü olduğundan insanlar ilboyu işləmək məcburiyyətində qalırdı, çəltiyi əllə biçib arabalara yükləyirdilər:

Çəltik əkdim ləyəndə,
Çəltik boynun əyəndə. Ya Allah, o günə qurban olum.
Bizə rəhm eliyəndə. [3, s. 346]

Ən qədim kitabələrimizdən olan Avestanın Frahard üçüncü bölmənin 4-cü hissəsində qədim peşələr haqqında, ələxsus da əkinçiliq haqqında deyilir ki, ən xoşbəxt məkan dənli bitkilərin, göyərtinin əkildiyi yerdir. Ən məhsuldar yer oradır ki, əkdiklərindən hansı susuzdursa, onları sulayırsan:

Sən, Haqq olan.
Bu Yer üzünün üçüncü
Ən xoşbəxt məkanı haradır?
Dedi Ahura Mazda:
"Ey Spitama Zərdüşt,
Bu Yer orada, hansı ki o,
Ən çox göyərti, dənli bitkilər,
Məhsuldar bitkilər əkir.
Hansı ki susuzdur, suvarır.
Hansl ki su basmışdır,
Qurudur." [5, s. 38]

Epik ənənənin daşıyıcısı kimi Masallı folklorunda qadın söyləyicilər: Qadın söyləyicilərlirik janrlar kimi epik janr nümunələrinə də müraciət etmişlər. Onların repertuarında nağıl, əhvalat, əfsanə, rəvayət, mənkabələr, inanclar, memoratlar və onların bir-birindən fərqli mövzu və növlərini yaratmışlar. Epik folklor nümunələrində söyləyicilər əsasən, dini mövzulara toxunmuşdur. Masallı camaatının nə qədər dinə bağlı olduğu danışdıqlarından aydın olur.

Boradigah qəsəbəsinin sakini Tahirə xanım bir ocağa baxır, nəzarət edir. O, deyir ki, qaynanası burada bağ əkib, əkdiklərini isə oğurlayıb aparırlar. Qaynana Allahdan bunu edənlərin kimliklərini aşkar etməsini diləyir və bunu edənin gözlərinin kor olmasını istəyir. Gəlib görür ki, gözləri kor olmuş heyvan var. Allahdan istəyib ki, heyvanın gözləri yenidən görsün, çünki onun əkin yerini nəyin məhv etdiyini görür. Həmən gündən sonra burada qeybdən işıq görünürmüş, həm də bir ağac da yaranır. Deyilənə görə, bu ağacdan Aşura günü göz yaşı gəlirmiş:

Qaynanam danışırdı ki, burda bağ əkiblər, hələ gəlir görür ki, bı əkir, oğurrayıllar, aparıllar. Deyib ki, İlahi, mənə aşkar edə bilim ki, bunu aparan insandi ya nə?

Həə, bına aydın olur ki, bunu aparan heyvanatdı. Deyib ki, İlahi, bunun gözü kor olsun ki, mən bilim yaxınnaşım buna görum bu nədi.

Öz gözüynən yaxınnaşıb görüb ki, heyvandı gözdəri kor olub o heyvanın. Sora Allah-taladan istiyib ki, İlahi, indi onun gözünü özünə qaytar çıxsın getsin. Yəni mən artiq bildim ki, mənim əkinimi aparan kim imiş.

Deyir ki, gecələr burda qeybdən işığ yanarmış. O yan bu yana gedib gəlirmiş, görən olub. Sora burda bir dənə ağac peyda olub içəridə. Guya deyillər ki, onu seyid özü əkib, ağac amma qeybdən peyda olub da elə bil ki.

Aşurada güya həmin ağacdan qan-zad gəlir. Elə bil ki, göz yaşı kimi. [3, s.86]

Masallı bölgəsində dini inanc lap keçmişdən, hələ Sovet rejiminin ən qatı zamanlarından inanılır və dini bayramlar keçirilirmiş. İmam Hüseynlə, məhərrəmliklə əlaqəli günlər, Aşura və şəbih tamaşaları qeyd edilirdi. Halhazırda da yaşlı qadınlar, nənələr İmam Hüseynə, Əbülfəzə və digər din adamlarına ağılar, mərsiyələr deyir [2, s. 5].

NƏTİCƏ: Qadın söyləyicilər yaddaşlarını ələkdən keçirərək eşitdiklərini, gördüklərini, xatırladıqlarını söyləyirlər. Onlar söylədikləri ilə folklor örnəklərinin itib batmamasına, qorunub-saxlanmasına səbəb olurlar. Vacib məqam odur ki, qadın söyləyicilər sayəsində qadın folkloru toplanmış oldu. Nəzərə alsaq ki, qadın məclislərinə daxil olmaq mentalitet, mədəniyyət baxımından o qədər də asan olmamışdır, lakin son dövrlərdəki müəyyən dəyişikliklər və qadın folklorşünaslar qadın folklor örnəklərini çətinliklərə baxmayaraq toplaya bilmişlər.

İstifadə edilmiş ədəbiyyat

1. Bayat F. Folklor dərsləri. Bakı: Elm və təhsil, 2012, s. 424
2. Bayat F. Masallı folklor örnəkləri, II c. Bakı: Nurlan, 2013, s. 400
3. Bayat F. Masallı folklor örnəkləri, III c. Bakı: Elm və təhsil, 2023, s. 352
4. Hacılı A. Bayatı poetikası: struktur, semantika, praqmatika. Bakı: Elm, 2019, s. 242
5. Xanlar H. Avesta. (tərcümə). Bakı: Apostrof-A, 2023, s. 320
6. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. Bakı: Çıraq, 2009, s. 640

Jahide Yagubova Etibar gizi
Institute of Folklore of the Azerbaijan National Academy of Sciences
cahidey1996@gmail.com
orcid.org/0000-0001-7757-1723

Genre and Thematic Diversity of Female Storytelling Based on Masalli Folklore Materials

Summary

Every region of Azerbaijan possesses its own unique folklore and traditions, and one of these is the Masalli region. Renowned for its rich examples of folklore, Masalli was declared the folklore capital in 2012. Masalli folklore samples have been collected by Fuzuli Bayat, F. Khalafli, N. Adilov, F. Sadigov, and others. Another reason for declaring this region the folklore capital of Azerbaijan is related to the halay (folk dance). According to some sources, people have been living in Masalli for 15-20 thousand years. There are also legends associated with the name of the Masalli region. Some researchers argue that the name Masalli originates from the word Mosullu, while others support the view that it derived from the name of a khan named Masal.

All genres of oral folk literature have been performed in Masalli folklore. In preserving, reproducing, and disseminating folklore, not only male storytellers but also female storytellers have a significant role. Materials collected from female storytellers include memorates, legends and myths, fairy tales, laments, songs, folk remedies, Muharram and religious narratives, lullabies, nazlamas, bayatis, information related to customs and traditions, and many other unmentioned examples of folklore genres. This demonstrates the diversity and immense richness of Masalli folklore. Although, during the collection process, it is sometimes observed that the storytellers experience difficulties in remembering or have forgotten certain details. Despite this, folklore materials could be collected from female storytellers in the Masalli region; however, it must be noted that uncollected folklore samples still exist.

Keywords: Folklore, Masalli, female, storyteller, research, collection

Джахиде Ягубова Этибар кызы
Институт фольклора Азербайджанской национальной академии наук
Фольклористика
cahidey1996@gmail.com
orcid.org/0000-0001-7757-1723

Жанровое и тематическое разнообразие женского сказительства на основе фольклорных материалов Масаллы

Резюме

Каждый регион Азербайджана обладает своим уникальным фольклором и традициями, и одним из них является Масаллинский регион. Известный своими богатыми фольклорными образцами, Масаллы в 2012 году был объявлен столицей фольклора. Образцы масаллинского фольклора были собраны Физули Баятом, Ф. Халафли, Н. Адиловым, Ф. Садыговым и другими. Еще одна причина объявления этого региона фольклорной столицей Азербайджана связана с халаем (народным танцем). Согласно некоторым источникам, люди живут в Масаллы уже 15–20 тысяч лет. Также существуют легенды, связанные с названием Масаллинского региона. Некоторые исследователи утверждают, что название Масаллы происходит от слова «Мосуллу», в то время как другие поддерживают мнение, что оно возникло от имени хана по имени Масал.

В масаллинском фольклоре были исполнены все жанры устного народного творчества. В сохранении, воспроизведении и распространении фольклора роль принадлежит не только мужчинам-сказителям, но и женщинам-сказительницам. От женщин-сказительниц были собраны мемораты, легенды и предания, сказки, плачи (агы), песни, народное целительство (тюркячаря), мухаррамские и религиозные повествования, колыбельные (лайла), ласки (назлама), баяты, сведения о традициях и обычаях, а также многие другие неназванные образцы фольклорных жанров. Это свидетельствует о разнообразии и огромном богатстве масаллинского фольклора. Тем не менее, в процессе сбора информации иногда

заметно, что сказительницы испытывают трудности с воспоминаниями или забывают некоторые детали. Несмотря на это, материалы от женщин-сказительниц в Масаллинском регионе были успешно собраны, однако необходимо отметить, что все еще существуют несобранные фольклорные образцы.

Ключевые слова: Фольклор, Масаллы, женщина, сказитель (исполнитель), исследование, сбор

Elmi rəhbər və rəyçi: prof. Füzuli Bayat

DOI: 10.24412/2218-7588-2026-2-147-149

Sinaver Kamil qızı Qasımova
Dissertant, Azərbaycan Universiteti
E-poçt: xatun.huseyinzade@gmail.com
ORCID: https://orcid.org/0009-0004-0650-7897

MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN NƏSRİNDƏ YADDAŞ VƏ TRAVMA POETIKASI: FƏRDİ TƏCRÜBƏDƏN KOLLEKTİV KİMLİYƏ

XÜLASƏ: Bu məqalədə müstəqillik dövründə Azərbaycan nəsr yazılarında yaddaş və travmanın poetikası araşdırılır. Sovet sisteminin süqutu, Qarabağ müharibəsi, məcburi miqrasiya və sosial transformasiyalar cəmiyyətin kollektiv şüurunda dərin psixoloji və mədəni iz buraxmışdır. Bu tarixi və sosial çevrilişlər müasir nəsrdə fərdlərin taleyi, itki, parçalanma və daxili böhran təcrübələri vasitəsilə bədii şəkildə əks olunur. Tədqiqatın məqsədi fərdi travmanın bədii təsvirinin xüsusiyyətlərini müəyyən etmək və onun kollektiv yaddaşa çevrilmə mexanizmlərini və milli kimliyi formalaşdıran amilləri müəyyən etməkdir. Tədqiqat mədəni yaddaş və travma nəzəriyyələrini, eləcə də narratoloji və hermenevtik yanaşmaları tətbiq edir. Təhlil göstərir ki, müstəqillik dövründə nəsr yazılarında yaddaşın bədii modeli parçalanmış zaman strukturu, retrospektiv povest, sükutun estetikası və məkanın simvollaşdırılması ilə xarakterizə olunur. Müharibə, qaçqınlıq və ev itkisi mövzuları şəxsi təcrübəni milli kontekstə çevirir. Nəticə etibarilə, müasir Azərbaycan nəsrində travmatik hekayələr fərdi əzabları kollektiv özünüdərkə çevirmək üçün mühüm mədəni mexanizm kimi xidmət edir və postsovet dövründə milli kimliyin formalaşmasında mühüm rol oynayır.

Açar sözlər: kollektiv kimlik, müasir Azərbaycan nəsri, post-sovet dövrü, travma, yaddaş.

GİRİŞ: XX əsrin sonu – XXI əsrin əvvəlləri Azərbaycan cəmiyyəti üçün dərin sosial və siyasi transformasiya dövrü olmuşdur. Müstəqilliyin bərpası, Qarabağ müharibəsi, məcburi köçkünlük və sosial dəyişikliklər kollektiv şüurda uzunmüddətli psixoloji və mədəni izlər buraxmışdır.Bu mürəkkəb şəraitdə ədəbiyyat, xüsusilə nəsr, ictimai travmanın bədii ifadə sahəsinə çevrilmişdir.Müstəqillik dövrü nəsrində müharibə, itki, yurd itkisi və sosial parçalanma kimi təcrübələr fərdi talelər vasitəsilə təqdim olunur.Travma burada yalnız şəxsi sarsıntı deyil, həm də kollektiv yaddaşın formalaşmasına xidmət edən bədii fenomen kimi çıxış edir.Post-sovet dövründə milli kimliyin yenidən qurulması prosesi də ədəbi diskursda öz əksini tapmışdır.Tarixi yaddaşa dönüş, milli-mədəni dəyərlərin aktuallaşdırılması və Azərbaycançılıq ideyasının güclənməsi müasir nəsrdə fərdi talelər vasitəsilə ifadə olunur.Beləliklə, müstəqillik dövrü Azərbaycan nəsrində yaddaş və travma poetikası milli kimliyin yenidən qurulmasının mühüm mədəni mexanizmi kimi çıxış edir.Məqalənin məqsədi bu poetikanın əsas xüsusiyyətlərini müəyyənləşdirmək, fərdi travmanın bədii təqdimat formalarını təhlil etmək və onun kollektiv kimliyin formalaşmasına təsirini araşdırmaqdır.

Travma və yaddaş anlayışlarının nəzəri-metodoloji əsasları: Müstəqillik dövrü Azərbaycan nəsrində yaddaş və travma poetikasının təhlili üçün bu anlayışların nəzəri-metodoloji əsaslarının müəyyənləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Müasir humanitar elmlərdə yaddaş və travma yalnız psixoloji hadisə kimi deyil, həm də sosial-mədəni və identiklik formalaşdıran mexanizmlər kimi qiymətləndirilir.Bu baxımdan onların qarşılıqlı əlaqəsi ədəbi mətnlərin semantik və struktur xüsusiyyətlərini anlamaq üçün vacib analitik çərçivə yaradır.Yaddaş fərdi və kollektiv səviyyələrdə fəaliyyət göstərən sosial-mədəni sistem kimi qəbul edilir.Azərbaycan kontekstində bu yaddaşın əsas daşıyıcıları folklor, mifoloji təsəvvürlər, tarixi yaddaş və milli simvollardır [8, s. 58-62].Mədəni yaddaşın əsas xüsusiyyətlərindən biri onun narrativ xarakteridir.Müasir nəsrdə yaddaş retrospektiv zaman quruluşu, xatirə fragmentləri və subyektiv baxış prizması ilə ifadə olunur ki, bu da onun emosional və mədəni təcrübə kimi formalaşdığını göstərir [9, s. 41–45].Travma isə sarsıdıcı hadisələrin yaratdığı psixoloji və mədəni zədələnmə vəziyyətini ifadə edir.Travmatik təcrübə yaddaşı parçalanmış və qeyri-xronoloji formada təqdim edir, susqunluq, təkrar motivlər və metaforik ifadə ilə müşayiət olunur [4, s. 119-123].Bu xüsusiyyətlər ədəbiyyatda travma poetikasının əsas estetik prinsiplərini müəyyən edir.Azərbaycan kontekstində Qarabağ müharibəsi kollektiv travmanın formalaşmasında əsas amillərdən biri olmuşdur [6, s. 63-67].Travma və yaddaşın qarşılıqlı təsiri milli identikliyin möhkəmlənməsinə də xidmət edir.Travmatik keçmişin bədii ifadəsi onun yalnız təsvirini deyil, həm də mənalandırılmasını və sosial yaddaşa daxil edilməsini təmin edir.Folklor motivləri, mifoloji arxetiplər və mənəvi dəyərlər travmanın milli-mədəni kontekstdə şərh olunmasına və kollektiv müqavimət modelinə çevrilməsinə imkan yaradır [10, s. 102-107].Beləliklə, yaddaş və travma müstəqillik dövrü Azərbaycan nəsrinin semantik və ideya əsaslarını izah edən aparıcı nəzəri kateqoriyalar kimi çıxış edir.Fərdi xatirələrin kollektiv yaddaşa transformasiyası və travmatik təcrübənin bədii modellərlə mənalandırılması müasir ədəbi prosesdə milli özünüdərk və mədəni davamlılıq baxımından mühüm istiqamət təşkil edir.

Müstəqillik dövrü Azərbaycan nəsrinin sosial-tarixi konteksti: Müstəqillik dövrü Azərbaycan nəsrinin məzmun və ideya istiqamətlərini anlamaq üçün onun formalaşdığı sosial-tarixi mühitin təhlili vacibdir. XX əsrin sonlarında baş verən siyasi dəyişikliklər, müstəqilliyin bərpası, iqtisadi çətinliklər və xüsusilə Qarabağ müharibəsi cəmiyyətin dünyagörüşünə və kollektiv şüuruna ciddi təsir göstərmişdir. Bu şəraitdə nəsr mürəkkəb sosial reallığın əsas bədii ifadə vasitələrindən birinə çevrilmişdir.Sovet sisteminin süqutu ilə əvvəlki ideoloji model zəifləyərək kimlik böhranı və dəyər boşluğu yaratmışdır.Yeni mərhələdə milli tarixə və mədəni köklərə dönüş prosesi güclənmiş, Azərbaycançılıq ideyası və milli yaddaş yenidən aktuallaşmışdır.Ədəbiyyat bu prosesdə tarixi yaddaşın və milli özünüdərkin bərpasında mühüm rol oynamışdır [6, s. 71-75]. Dövrün ən mühüm travmatik hadisəsi Qarabağ müharibəsi olmuşdur.İşğal, itkilər, məcburi köçkünlük və doğma məkanın itirilməsi kollektiv travma yaratmış, bu reallıq müasir nəsrdə müharibə xatirələri, qaçqınlıq və sosial uyğunlaşma problemləri vasitəsilə əks olunmuşdur [9, s. 58-63]. Məcburi köçkünlük fenomeni bədii mətnlərdə xüsusi yer tutur. Doğma yurdun itirilməsi yalnız fiziki deyil, həm

də mənəvi və identik zədələnmə kimi təqdim olunur. "Ev" və "yurd" obrazları kollektiv yaddaşın simvoluna çevrilərək fərdi ağrının ümumi emosional təcrübə kimi qavranılmasına xidmət edir [8, s. 84-88]. Yeni həyat şəraiti insanın daxili dünyasında gərginlik yaradaraq nəsrdə tənhalıq, yadlaşma və identiklik axtarışı motivləri ilə ifadə edilmişdir [7, s. 132-137]. Bu mərhələnin mühüm xüsusiyyətlərindən biri də keçmişə retrospektiv münasibətin güclənməsidir. Tarixi yaddaşa, folklor və mifoloji mənbələrə müraciət müasir reallığın mənalandırılmasına xidmət etmiş və milli kimliyin tarixi-mədəni əsaslar üzərində yenidən qurulmasına imkan yaratmışdır [5, s. 93-98]. Ənənəvi mədəni kodlar fərdi təcrübənin ümummilli məna qazanmasına və kollektiv həmrəylik hissinin güclənməsinə xidmət edir [10, s. 118-123]. Beləliklə, müstəqillik dövrü Azərbaycan nəsri dərin sosial dəyişikliklərin və kollektiv travma təcrübəsinin bədii ifadəsi kimi formalaşmışdır. Qarabağ müharibəsi, məcburi köçkünlük və kimlik axtarışları bu dövrün əsas mövzularını müəyyən etmiş, yaddaş və travma poetikasının inkişafı üçün mühüm tarixi zəmin yaratmışdır.

Fərdi travmanın bədii təsviri: narrativ və poetik xüsusiyyətlər: Müstəqillik dövrü Azərbaycan nəsrində travma mövzusu əsasən fərdi talelər vasitəsilə təqdim olunur. Müharibə, məcburi köçkünlük, itkilər və sosial sarsıntılar insanın daxili dünyasında dərin izlər buraxmış və bu vəziyyət bədii mətnlərdə psixoloji dəyişimin ifadəsi kimi təqdim edilmişdir. Travma burada hadisədən daha çox yaddaşın və dünyagörüşünün transformasiyası kimi göstərilir. Fərdi travmanın təsvirində əsas xüsusiyyətlərdən biri fragmentar zaman quruluşudur. [9, s. 74-78]. Travma poetikasında susqunluq və dolayı ifadə üsulları da mühüm yer tutur. Hadisələr birbaşa deyil, onların emosional və psixoloji nəticələri vasitəsilə təqdim olunur. Daxili monoloqlar, yarımçıq cümlələr və pauzalar travmanın sözlə ifadəsinin çətinliyini göstərir [4, s. 126-130]. Məkan obrazları bu kontekstdə xüsusi semantik məna qazanır.Dağıdılmış evlər, tərk edilmiş yurdlar və yad məkanlar itirilmiş təhlükəsizlik və mənsubiyyət hissinin simvoluna çevrilir."Ev"in itirilməsi qəhrəmanın identiklik böhranını dərinləşdirən əsas motiv kimi çıxış edir [8, s. 101-105].Travma narrativlərində metafora və simvollar da geniş istifadə olunur.Yol, sərhəd, dağıntı və sükut kimi obrazlar fərdi ağrını daha geniş sosial kontekstdə mənalandırır.Mifoloji və arxetipik motivlər isə travmanı kollektiv yaddaşla əlaqələndirir [5, s. 104-108].Psixoloji dərinlik və daxili monoloq texnikası qəhrəmanların qorxu, günahkarlıq və ümidsizlik kimi ziddiyyətli hisslərini üzə çıxarır və oxucuda empatiya yaradır [7, s. 158-162].Bununla yanaşı, yaddaşın selektivliyi – bəzi hadisələrin təkrar xatırlanması, digərlərinin sıxışdırılması – travmatik təcrübənin davamlılığını göstərir.

Beləliklə, müstəqillik dövrü Azərbaycan nəsrində fərdi travma fragmentar zaman, susqunluq estetikası, simvolik məkanlar və psixoloji dərinlik vasitəsilə ifadə olunur.

Fərdi yaddaşdan kollektiv yaddaşa keçid mexanizmləri: Müstəqillik dövrü Azərbaycan nəsrində travma və yaddaş poetikasının əsas xüsusiyyətlərindən biri fərdi təcrübənin kollektiv yaddaşa inteqrasiya olunmasıdır. Bu proses şəxsi xatirələrin təsviri ilə məhdudlaşmır, fərdi talelərin ümummilli yaddaşın tərkib hissəsinə çevrilməsi ilə xarakterizə olunur. Beləliklə, fərdi yaddaşın kollektiv səviyyəyə transformasiyası müasir nəsrin ideya-estetik sistemində mühüm yer tutur. Travma yaşayan insan yalnız şəxsi ağrının daşıyıcısı deyil, milli taleyin simvolik ifadəsi kimi təqdim olunur. Onun mübarizəsi və adaptasiyası kollektiv davamlılıq ideyasını gücləndirir [8, s. 128-132].

Kollektiv yaddaşın formalaşmasında məkan obrazları xüsusi rol oynayır. Doğma yurd, ev və torpaq fərdi xatirə ilə yanaşı milli yaddaşın simvoluna çevrilir. Bu məkanların itirilməsi fərdi deyil, ümummilli travma kimi təqdim olunur [9, s. 89-93].Dil və simvolik sistem də bu inteqrasiyada mühüm vasitədir.Metaforalar, arxetiplər və folklor motivləri fərdi təcrübəni mədəni yaddaş çərçivəsinə daxil edərək travmanı tarixi-mədəni davamlılıq kontekstində şərh edir [5, s. 112-116].Ənənəvi mədəni kodlar travmanın həm birləşdirici, həm də konsolidasiyaedici funksiyasını üzə çıxarır.Fərdi yaddaşın kollektivləşməsində tipikləşdirmə və təkrar prinsipi də mühüm rol oynayır. 8, s. 141-145]. Beləliklə, müstəqillik dövrü Azərbaycan nəsrində fərdi yaddaşın kollektiv yaddaşa transformasiyası şəxsi hekayələrin ümumiləşdirilməsi, simvolik məkan və obrazların yaradılması, folklor kodlarının istifadəsi və retrospektiv narrasiya vasitəsilə həyata keçirilir.

Travma poetikasının milli kimliyin yenidən qurulmasında rolu: Müstəqillik dövrü Azərbaycan nəsrində travma poetikasının əsas funksiyalarından biri milli kimliyin yenidən qurulmasına təsir göstərməkdir. Post-sovet mərhələsində cəmiyyət yalnız sosial-siyasi dəyişikliklərlə deyil, həm də identiklik böhranı ilə üzləşmiş, bu şəraitdə ədəbiyyat və xüsusilə travma narrativləri milli özünüdərkin bərpasında mühüm rol oynamışdır.

Travma poetikasının milli kimlik quruculuğundakı rolu ilk növbədə tarixi yaddaşın aktuallaşdırılması ilə bağlıdır. Müharibə, qaçqınlıq və itki kimi hadisələrin bədii təsviri keçmişin unudulmamasına xidmət edir və kollektiv təcrübənin mənalandırılmasına imkan yaradır [8, s. 156-160]. Müstəqillik dövrü nəsrində travma motivləri milli müqavimət və davamlılıq ideyası ilə təqdim olunur. Fərdi ağrı çox zaman ümummilli mübarizənin bir hissəsi kimi şərh edilir və kollektiv həmrəylik hissini gücləndirir [6, s. 92-96]. Milli kimliyin formalaşmasında "vətən" və məkan obrazları xüsusi yer tutur. Doğma torpağın itirilməsi və geri dönüş arzusu milli mənsubiyyət hissinin möhkəmlənməsinə xidmət edir [9, s. 102-106]. Bu kontekstdə folklor və mifoloji arxetiplərin istifadəsi travmanın milli-mədəni çərçivədə şərh olunmasına və dirçəliş ideyası ilə əlaqələndirilməsinə imkan yaradır [7, s. 201-205]. Tarixi yaddaşa və milli dəyərlərə müraciət Azərbaycançılıq ideyasının möhkəmlənməsinə xidmət edir [6, s. 101–105]. Bu yanaşma milli kimliyin dinamik və davamlı modelini formalaşdırır [10, s. 147-151]. Beləliklə, müstəqillik dövrü Azərbaycan nəsrində travma poetikası tarixi yaddaşın qorunması, fərdi təcrübənin kollektiv mənaya çevrilməsi və milli həmrəyliyin gücləndirilməsi vasitəsilə milli özünüdərkin formalaşmasının mühüm mədəni mexanizmi kimi çıxış edir.

NƏTİCƏ: Aparılan təhlil göstərir ki, müstəqillik dövrü Azərbaycan nəsrində yaddaş və travma poetikası yalnız estetik hadisə deyil, həm də tarixi təcrübənin mənalandırılması və milli kimliyin yenidən qurulmasının mühüm mədəni mexanizmidir. Müasir nəsrdə fragmentar zaman quruluşu, retrospektiv narrasiya, susqunluq estetikası, simvolik məkan

obrazları və psixoloji dərinlik travmatik yaddaşın bədii modelini formalaşdırır.

Beləliklə, müstəqillik dövrü Azərbaycan nəsrində yaddaş və travma poetikası fərdi təcrübədən kollektiv özünüdərkə aparan mühüm mədəni prosesdir.Bu poetika keçmişi yalnız xatırlamaq deyil, onu mənalandırmaq və gələcəyə yönəlmiş milli kimlik modelinin formalaşmasına xidmət edir.Bu baxımdan müasir Azərbaycan nəsri tarixi və mənəvi transformasiyaların bədii salnaməsi kimi çıxış edir və yaddaş-travma diskursu onun milli-mədəni missiyasını müəyyən edən əsas konseptual istiqamətlərdən biri hesab oluna bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Abidqızı, Göyərçin. *Keçmiş gələcəyin özülü*. – Bakı: Elm və təhsil, 2022. – 408 s.
2. Abdulla, Kamal. *Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı*. – Bakı: Şərq-Qərb, 2020. – 283 s.
3. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – Bakı: Səda, 2004. – 180 s.
4. Cəlil, Fərəh. *Folklor və imaqologiya: müasir komparativistika yönündən tədqiqlər*. – Bakı: Zəngəzurda, 2021. – 220 s.
5. Cəlil, Fərəh. *Mifologiyanın əsasları*. – Bakı: Mütərcim, 2018. – 136 s.
6. Əliyev, Məmməd İrac. *Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi*. – Bakı: Elm və təhsil, 2018. – 168 s.
7. Muradoğlu, Nizami. *Çağdaş poeziya və folklor*. – Bakı: Elm və təhsil, 2021. – 392 s.
8. Rzasoy, Seyfəddin. *Müasir Azərbaycan folklorşünaslığı*. – Bakı: Elm və təhsil, 2020. – 308 s.
9. Rüstəmzadə, İlkin. *Folklor araşdırmaları*. – Bakı: Elm və təhsil, 2022. – 232 s.
10. Sayılov, Qalib. *Folklor və islam: nəzəri-epik kontekst*. – Bakı: Elm və təhsil, 2018. – 264 s.

Гасимова Синавер Камиль кизи
Диссертация, Азербайджанский университет
Email: xatun.huseyinzade@gmail.com
ORCID: https://orcid.org/0009-0004-0650-7897

"Поэтика памяти и травмы в азербайджанской прозе периода независимости: от индивидуального опыта к коллективной идентичности"

Резюме

В данной статье исследуется поэтика памяти и травмы в азербайджанской прозе периода независимости. Распад советской системы, Карабахская война, вынужденная миграция и социальные преобразования оставили глубокий психологический и культурный след в коллективном сознании общества. Эти исторические и социальные потрясения находят художественное отражение в современной прозе через опыт переживания судьбы, потерь, фрагментации и внутренних кризисов отдельных людей. Цель исследования – выявить особенности художественного изображения индивидуальной травмы, определить механизмы её трансформации в коллективную память и факторы, формирующие национальную идентичность. В исследовании применяются теории культурной памяти и травмы, а также нарратологический и герменевтический подходы. Анализ показывает, что художественная модель памяти в прозе периода независимости характеризуется фрагментированной временной структурой, ретроспективным повествованием, эстетикой молчания и символизацией пространства. Темы войны, беженства и потери дома трансформируют личный опыт в национальный контекст. Следовательно, травмирующие истории в современной азербайджанской прозе служат важным культурным механизмом преобразования индивидуальных страданий в коллективное самосознание и играют значительную роль в формировании национальной идентичности в постсоветскую эпоху.

Ключевые слова: коллективная идентичность, память, постсоветский период, травма, современная азербайджанская проза.

Gasimova Sinaver Kamil qizi
Dissertation, Azerbaijan University
Email: xatun.huseyinzade@gmail.com
ORCID: https://orcid.org/0009-0004-0650-7897

Poetics of Memory and Trauma in Azerbaijani Prose of the Independence Period: From Individual Experience to Collective Identity

Summary

This article examines the poetics of memory and trauma in Azerbaijani prose writings during the period of independence. The collapse of the Soviet system, the Karabakh war, forced migration and social transformations have left a deep psychological and cultural mark on the collective consciousness of society. These historical and social upheavals are artistically reflected in contemporary prose through the experiences of individuals' fate, loss, fragmentation and internal crisis. The aim of the study is to identify the features of the artistic depiction of individual trauma and to identify the mechanisms of its transformation into collective memory and the factors that shape national identity. The study applies theories of cultural memory and trauma, as well as narratological and hermeneutic approaches. The analysis shows that the artistic model of memory in prose writings during the period of independence is characterized by a fragmented temporal structure, retrospective narrative, aesthetics of silence and symbolization of space. The themes of war, refugeehood and loss of home transform personal experience into a national context. Consequently, traumatic stories in contemporary Azerbaijani prose serve as an important cultural mechanism for transforming individual suffering into collective self-awareness and play a significant role in the formation of national identity in the post-Soviet era.

Keywords: collective identity, contemporary Azerbaijani prose, memory, post-Soviet period, trauma.

Rəyçi: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-150-154

Ülviyyə Çingiz qızı Əliyeva

Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti və Azərbaycan Universiteti
ulviyya_28@mail.ru
Orcid cod: 0000-0002-1569-280X

EKSPRESSİONİST DRAMATURGİYADA MÜHARİBƏNİN ABSURDLUĞU
(Şon O'Keysinin "Gümüş Kupa" pyesi əsasında)

XÜLASƏ: Təqdim olunmuş məqalədə Şon O'Keysi'nin "Gümüş Kupa"(The Silver Tassie) əsərində müharibənin getdikcə daha mənasız olması, insanların itkilərini və travmaları haqqında mövzuların satirik üslubda təcəssüm problemlərindən söhbət açılır. Ironik bir dildə əsgərlərin cəsarət və qəhrəmanlıq idealları yerinə, qorxu və çarəsizlikləri ön plana çıxarılır. Bu, oxucuya müharibənin qəhrəmanlıq haqqında xəyallarının n arxasındakı gerçəkləri görmə fürsəti təqdim edir. O'Keysi, müharibənin sadəcə fiziki bir qarşıdurma deyil, eyni zamanda insan ruhunun da bir savaşı olduğunu göstərir. Bu kontekstdə, qəhrəmanlıq və qürur kimi anlayışların, əslində nə qədər yanıltıcı ola biləcəyini diqqətə çatdırır. Personajların yaşadığı daxili mübarizələr və baş verən faciələr, savaşın insan üzərindəki yıxıcı təsirini ironik bir şəkildə ortaya qoyur.

Açar sözlər: Şon O'Keysi' müharibə, qəhrəman, Gümüş Kupa, ironiya

GİRİŞ: Şon O'Keysinin *"Gümüş Kupa"* (*The Silver Tassie*) pyesi Birinci Dünya müharibəsinin dağıdıcı nəticələrini və qəhrəmanlıq ideologiyasının iflasını əks etdirən ən mühüm İrlandiya dramaturji nümunələrindən biridir. Əsərdə realist və ekspressionist poetikanın sintezi vasitəsilə müharibənin yalnız fiziki dağıntıları deyil, həm də insanın mənəvi dünyasında yaratdığı sarsıntılar nümayiş etdirilir. O'Keysi müharibəni romantik qəhrəmanlıq məkanı kimi deyil, fərdin kimliyini və dəyərlər sistemini dağıdan absurd hadisə kimi təqdim edir.

Bu məqalənin əsas məqsədi "Gümüş Kupa" əsərində müharibənin absurdluğunun və ironiyasının bədii ifadə vasitələrini araşdırmaq, müəllifin qəhrəmanlıq mifini hansı estetik mexanizmlərlə dekonstruksiya etdiyini müəyyənləşdirməkdir. Tədqiqatın başlıca sualı belə formalaşdırılır: Şon O'Keysi müharibənin mənasızlığını və qəhrəmanlıq ideyasının iflasını ironiya, satira və ekspressionist dramaturgiya vasitəsilə necə təqdim edir?
Araşdırmada komparativ-tipoloji yanaşma, hermenevtik şərh və mətnin struktur-semantik təhlili metodlarından istifadə edilmişdir. Bundan əlavə, Harri Hiqan obrazı Servantesin Don Kixotu və Stendalın Fabrisio del Donqo obrazları ilə müqayisə edilərək qəhrəmanlıq modelinin müxtəlif ədəbi ənənələrdə transformasiyası izlənilir.

ƏSASA HİSSƏ: "Gümüş Kupa" əsəri üslub baxımından həm realist, həm də ekspressionist elementləri birləşdirir. Birinci və dördüncü pərdələrdə realist üslub hakimdir, burada gündəlik həyat və insan münasibətləri təsvir edilir. Lakin ikinci və üçüncü pərdələr ekspressionist üslubda yazılıb, burada müharibənin dəhşətləri daha çox simvolik və vizual üsullarla təqdim olunur. O'Keysi, özündən əvvəlki dramaturqlardan miras aldığı realizm yanaşmasını İrlandiya dramaturgiyasına gətirdiyi mövzularla zənginləşdirir. Məsələn, Kitishat (2012)"Colonialism and the Recreation of Identity: The Irish Theatre as Case Study" "Kolonializm və kimliyin yenidən yaradılması: İrlandiya Teatrı nümunə olaraq" adlı məqaləsində qeyd edir ki, İrlandiya mədəniyyəti digər Avropa ölkələrindən fərqlənir, çünki İrlandiya dramaturqları ölkənin "mühiti qəbul edir və yenidən təqdim edir" [7, s. 83]. O'Keysin yazı tərzi çox fərqlidir və onu başqalarından ayıran xüsusiyyəti "aydın və satirik" üslubudur. [4, s. 15]. Onun komik satirası birbaşa faciəvi nəticələrə işarə edir və beləliklə, onun pyesləri həm komediyanı, həm də faciəni birləşdirir. O'Keysiin komediyaya münasibəti öz sələflərindən tamamilə fərqlidir. O, cəmiyyəti müqəddəs dəyərləri alt-üst edən "qiyamçı gülüş" vasitəsilə lağa qoyur. Grene'nin fikrincə O'Keysin yaratdığı gülüş ənənəvi komediyadan fərqlənərək "anormal gülüş" xarakteri daşıyır [6, s. 41]. O'Keysi gülüşü "böyük təbii stimul", "həyata tam girməyə təkan" və "biz gülə biləndə, yaşaya biləcəyimizi" deyərək tərif edir [4, s. 15]. Onun İrlandiyanın yoxsul məhəllə həyatını realist şəkildə təqdim etməsi 20-ci əsr dramaturgiyasında yenidir. Çox az dramaturq bu cür həyat və problemləri sentimentallıqdan uzaq şəkildə göstərib. O'Keysi, atasının ölümündən sonra Dublinin yoxsul məhəllələrində yaşadığı təcrübəni satirik üslubda səmimi şəkildə təqdim edir. Onun əsərlərində istehzaya köklənmiş acı sosial tənqid tamaşaçılar tərəfindən mənfi qarşılanır. Tamaşaçılar onu İrlandiyanın milli və dini dəyərlərini təhqir etməkdə ittiham edirlər. Daniel Korkeri O'Keysiin pyeslərinə tamaşaçıların reaksiyasını belə təsvir edir: "Sean O'Keysiin pyesləri Abbey Teatrında səhnəyə qoyulanda tamaşaçılar arasında olmaq, onların coşğulu sevincini görmək və bu sevincin İrlandiyanın ümumi xalqına aid edildiyini başa düşmək deməkdir. Bu səs-küylü coşğu qarşısında səssiz qalmaq və ya ona etiraz etmək isə daha dərin vulqarizmi ört-basdır etmək deməkdir. İrlandiyada din və millətçilik ayrılmazdır" [3, s. 181]. O'Keysi kimi dramaturqların əsərlərinə də oxşar reaksiyalar göstərilmuşdir. O'Keysi Katolik Kilsəsinin İrlandiya və Amerikadakı düşmənçiliyi ilə üzləşməyə davam edir. Katolik Kilsəsinin O'Keysiyə hücum etməsinin əsas səbəbi, Maksvellin dediyinə görə, onun "milli dindarlıq stereotipinə" uyğun gəlməkdən imtina etməsidir [4, s. 15]. Buna baxmayaraq, O'Keysi cəmiyyətinin real şəraitini təsvir etməkdən çəkinmir və həmişə öz əsərlərində cəmiyyətinin ciddi problemlərinin müzakirə olunmasının vacibliyini vurğulayır.

Məqalənin elmi yeniliyi Şon O'Keysinin "Gümüş Kupa" (*The Silver Tassie*) pyesində müharibənin absurdluğunun və qəhrəmanlıq ideyasının dekonstruksiyasının kompleks şəkildə araşdırılmasındadır. Araşdırmada əsər yalnız antimüharibə mövzusunda yazılmış dramaturji nümunə kimi deyil, həm də ironiya, satira, ekspressionist poetika və simvolik obrazlar vasitəsilə qəhrəmanlıq mifini tənqid edən bədii mətn kimi təhlil edilmişdir.

Tədqiqat çərçivəsində Harri Hiqan obrazının transformasiyası Servantesin Don Kixotu və Stendalın Fabrisio del Donqo obrazları ilə müqayisəli-tipoloji aspektdə nəzərdən keçirilmiş, onların hamısında ideallaşdırılmış qəhrəmanlıq modelinin reallıq qarşısında iflasa uğradığı göstərilmişdir. Eyni zamanda "Gümüş Kupa" simvolunun semantik transformasiyası – qələbə və şöhrət rəmzindən müharibənin dağıtdığı insan taleyinin metaforasına çevrilməsi – əsərin əsas ideya-bədii mexanizmlərindən biri kimi qiymətləndirilmişdir.

Bu yanaşma O'Keysinin dramaturgiyasını yalnız İrlandiya ədəbiyyatı kontekstində deyil, dünya ədəbiyyatında müharibə və qəhrəmanlıq mifinin tənqidi ənənəsi çərçivəsində də yeni rakursdan şərh etməyə imkan verir.

"Gümüş Kupa"nın dramaturji strukturu və müharibənin absurdluğu

O'Keysi, əvvəlki əsərlərində İrlandiya milli hərəkatını və Dublin işçi sinfinin çətinliklərini təsvir etdiyi halda, bu əsərdə diqqətini qlobal miqyasda müharibənin mənasızlığına və insanların faciələrinə yönəldir. Onun həyat anlayışı həm faciəvi, həm də ironikdir. O'Keysi Birinci Dünya Müharibəsi zamanı adi İrlandiya xalqının çəkdiyi əzabları təqdim edir. Onun siyasi aktivliyi də əsərlərində əksini tapır. Bernik Sçrank O'Keysinin proletariat obrazlarını ciddi hətta faciəvi situasiyalarda təqdim edən ilk müasir dramaturqlardan biri hesab edir[10, s. 43]. Əsərdə təsvir olunan ruhlar, müharibənin dəhşətlərini, insanların yaşadığı travmaları və psixoloji çöküntünü simvolizə edir. Ruhlar əsərin ekspressionist üslubunda mühüm bir yer tutur və müharibənin nəticələrini daha da qabarıq göstərmək üçün istifadə edilir. Bu ruhlar həm İrland folkloruna, həm də müharibənin doğurduğu dərin iztirablara işarədir.

Dörd pərdədən ibarət yazılmış bu pyes strukturunda həm realist, həm də ekspressionist üslubları birləşdirir. Əsərin əsas mövzusu əsas qəhrəman Harri Hiqanın həyatındakı dəyişiklikləri və müharibənin onun taleyinə necə təsir etdiyini təsvir edir.

Pyesin əvvəlində qəhrəmanlıq və zəfər ideyası ön planda olsa da, sonrakı hadisələr bu təsəvvürü dağıdır. Əsərdə işlənən "the silver tassie" ifadəsi əvvəlcə uğurun və şöhrətin simvolu kimi çıxış edir, lakin süjet inkişaf etdikcə həmin kubok mənəvi boşluğun və itirilmiş həyatın rəmzinə çevrilir. Obyektin semantik transformasiyası O'Keysinin ironiyasını gücləndirir: insanın ən böyük nailiyyəti hesab edilən mükafat müharibədən sonra artıq heç bir təsəlli vermir.

Birinci pərdə Harri Hiqanın evində, müharibədən əvvəlki dövrdə baş verir. Harri, cəmiyyətində sevilən və tanınan gənc bir futbolçu kimi təsvir edilir. O, enerjili və gələcəyə ümidlə baxan bir insandır. Harri və dostları müharibəyə getmək üçün həyəcanlıdırlar və bunu bir qəhrəmanlıq vəzifəsi kimi görürlər. Burada pyes realist üslubda başlayır və Harrinin ailəsi və dostları ilə gündəlik həyatı təsvir edilir. Harri Hiqan qazandığı kuboku təqdim edərkən onu belə xarakterizə edir: "A sign of youth, a sign of strength, a sign of victory." ("Gəncliyin rəmzi, qüdrətin rəmzi, zəfərin rəmzi.") [2, s. 30]. Bu ifadə idman mükafatı kimi alınmış kubokun fiziki gücün və qələbə ideologiyasının simvolu kimi təqdim olunmasıdır. Lakin pyesin sonrakı inkişafında müəllif həmin simvolun mənasını ironik şəkildə dəyişdirir. Müharibədən sonra eyni kubok artıq zəfərin deyil, itirilmiş sağlamlığın, puç olmuş arzuların və qəhrəmanın faciəli taleyinin rəmzinə çevrilir. Beləliklə, O'Keysi əsərin ilk pərdəsindən etibarən gələcək dekonstruksiyanın əsasını qoyur.

İkinci pərdə müharibə cəbhəsində, bir sığınacaqda keçir. Bu pərdə pyesin ən ekspressionist hissəsidir və müharibənin dəhşətini daha qabarıq şəkildə göstərir. Birinci pərdədə üstünlük təşkil edən realist məişət mühiti burada ekspressionist teatr poetikası ilə əvəz olunur. Məkan konkret döyüş səhnəsi olmaqdan çıxaraq ölüm, qorxu və ümidsizliyin hökm sürdüyü simvolik bir müstəviyə çevrilir. Sığınacaqda əsgərlərin müharibənin dəhşətləri ilə üzləşdikləri, ümidsiz vəziyyətdə olduqları təsvir olunur. Burada eşidilən "The bugles blow!" nidaları hərbi intizamın və vətənpərvərlik pafosunun təzahürü kimi səslənsə da, səhnənin ümumi atmosferi – yaralı əsgərlər, xaotik səslər və ölüm qorxusu – bu çağırışı ironik məna ilə yükləyir. Burada O'Keysi musiqi və səhnə effektlərindən istifadə etməklə qəhrəmanlıq ritorikasını dekonstruksiya edir. Müharibənin qaranlıq və absurd tərəfləri burada açıq şəkildə görünür. Harri, bu pərdədə şikəst olur və müharibənin mənasızlığı onun üzərinə çökür. Ən diqqətçəkən xüsusiyyətlərdən biri səhnə göstərişlərinin funksiyasıdır. Müəllif vizual təsvirlər, səs effektləri və hərbi atributlar vasitəsilə xaotik atmosfer yaradır. Pyes bu nöqtədə artıq qəhrəmanlıq və cəsarət anlayışlarını şübhə altına alır. Psixoloji gərginliyin ifadəsinə yönəlmiş tez-tez işlənən "bugles" (hərbi şeypurlar), "chanting" (xor oxusu) və "voices" (səslər) kimi elementlər, səhnə dekorasiyası və hərəkət dinamikası ilə yanaşı pyesdə xor və musiqi elementləri də xüsusi semantik yük daşıyır. Klassik yunan faciələrində hadisələri şərh etmək funksiyasını yerinə yetirən bu elementlər burada fərdi insan səsini ümumi hərbi maşının gurultusu içində əridir. Musiqinin ritmi və kollektiv səslər fərdin şəxsiyyətini arxa plana keçirərək müharibənin insanı adsız kütlənin bir hissəsinə çevirdiyini göstərir. Bu üsul müharibənin mexanikləşmiş və qeyri-insani mahiyyətini daha qabarıq şəkildə üzə çıxarır.

İşıq və kölgə kontrastları da ekspressionist estetikanın mühüm komponentidir. Qaranlıq səhnələr, qəfil işıq dəyişmələri və vizual ziddiyyətlər döyüş meydanının fiziki təsvirindən daha çox insan şüurunda baş verən sarsıntıları ifadə edir. Beləliklə, xarici məkan daxili psixoloji vəziyyətin metaforasına çevrilir.

Əsərdə dini və mifoloji assosiasiyalar da nəzərə çarpır. Müharibə iştirakçılarının çəkdiyi əzablar xristian əzabkeşliyi motivlərini xatırlatsa da, O'Keysi bu motivləri qəhrəmanlıq ideyasını ucaltmaq üçün deyil, onun boşluğunu göstərmək məqsədilə istifadə edir. Ənənəvi xilaskar modeli burada öz yerini mənasız qurbanvermə obrazına verir.

Bu baxımdan ikinci pərdə pyesin ideya mərkəzini təşkil edir. O'Keysi realist təsvir üsullarından imtina edərək ekspressionist teatrın imkanlarından istifadə edir və sübut edir ki, müharibənin əsl mahiyyəti qəhrəmanlıq salnaməsində deyil, insanın fiziki və mənəvi parçalanmasında üzə çıxır.

Üçüncü pərdə müharibədən sonrakı dövrdə, bir xəstəxanada baş verir. Artıq müharibədə aldığı zədədən sonra yeriyə bilməyən və hərəkət qabiliyyətini tamam itirən Harri bir vaxtlar fəal və sevgi dolu bir gənc olduğu halda, indi passiv və

köməksizdir. Veteranlar xəstəxanasında, fiziki ağrılar içində əziyyət çəkən Harri həm də digər müharibə qurbanlarının yaşadıqları mənəvi iztirabları görür və hiss edir. Burada toplaşan yaralı əsgərlər fərdi obrazlar olmaqdan çıxaraq bütöv bir nəslin faciəsini təmsil edirlər. Onların bədənlərindəki Birinci Dünya müharibəsinin görünən nəticələrini ifadə edən yaralar psixoloji sarsıntıları və ümidsizlik hissi kimi görünməyən travmaları üzə çıxarır.

O'Keysi bununla müharibənin təsirinin döyüş meydanında bitmədiyini, onun insanların sonrakı həyatını da müəyyənləşdirdiyini göstərir.

Üçüncü pərdədə diqqəti cəlb edən əsas məqamlardan biri cəmiyyətin qəhrəman anlayışına münasibətidir. Müharibədən əvvəl alqışlanan və nümunə göstərilən Harri artıq əvvəlki ictimai nüfuzunu itirmişdir. Müəllif bu dəyişiklik vasitəsilə kollektiv yaddaşın seçiciliyini tənqid edir: cəmiyyət müharibə dövründə qəhrəman yaratmağa can atsa da, həmin insanların sonrakı taleyi ilə maraqlanmır. Bu ziddiyyət pyesdə sosial ironiyanın ən təsirli təzahürlərindən biri kimi çıxış edir. Bu baxımdan üçüncü pərdə Harri Hiqanın şəxsi faciəsindən daha geniş məna daşıyır. O, müharibənin insan bədənini, mənəviyyatını və ictimai mövqeyini eyni vaxtda dağıdan destruktiv gücünü nümayiş etdirir.

Pyesin son pərdəsi O'Keysinin müharibəyə münasibətinin kulminasiya nöqtəsini təşkil edir. Hadisələrin futbol klubunda təşkil olunan şənlik fonunda cərəyan etməsi xüsusi simvolik məna daşıyır. Bir vaxtlar Harri Hiqanın qazandığı və onun gəncliyini, uğurunu və fiziki qüdrətini təcəssüm etdirən "Gümüş Kupa" artıq əvvəlki mənasını itirmişdir. Xarici aləmdə musiqi və rəqs davam etdiyi halda, Harri üçün həmin məkan keçmiş həyatının geri dönməyəcəyini xatırladan ağrılı bir xatirəyə çevrilir.

Dördüncü pərdədə O'Keysi qəhrəmanlıq ideyasının sosial mahiyyətini də tənqid edir. Müharibədən əvvəl alqışlanan Harri artıq sağlam dostlarının və keçmiş sevgilisi Cessinin həyatından kənarda qalmışdır. Onun əlil arabasında səhnəyə daxil olması qəhrəmanlıq mifinin iflasını vizual şəkildə nümayiş etdirir. Müəllif göstərir ki, cəmiyyət yalnız qaliblər qəbul edir, lakin həmin qələbənin bədəli olan insan faciələrini unutmağa meyllidir.

Pyesin kulminasiya anlarından biri Harri ilə Barni arasında baş verən qarşıdurmadır. Bu epizod şəxsi qısqanclıqdan daha geniş məna daşıyır və müharibənin dostluq, sevgi və insani münasibətlər üzərində yaratdığı dağıdıcı təsiri üzə çıxarır. Harri fiziki cəhətdən məğlub edilmiş olsa da, onun mənəvi etirazı müharibənin yaratdığı ədalətsizliyə qarşı yönəlmişdir.

Əsərin sonunda Harri "Gümüş Kupa"nı yerə ataraq onu məhv edir. Bu səhnə pyesin ən güclü simvolik epizodlarından biridir. Kubok artıq qələbənin deyil, puç olmuş arzuların, itirilmiş sağlamlığın və dağıdılmış həyatın rəmzinə çevrilmişdir. Beləliklə, müəllif əsərin əvvəlində "gəncliyin, gücün və qələbənin simvolu" kimi təqdim olunan əşyanın mənasını tamamilə dəyişdirir və qəhrəmanlıq ideologiyasını dekonstruksiya edir.

Bu kontekstdə Harri Hiqanın taleyi fərdi faciədən kənara çıxaraq Birinci Dünya müharibəsinin bütöv bir nəslə vurduğu mənəvi zərərin ümumiləşdirilmiş modelinə çevrilir. O'Keysi finalda göstərir ki, müharibənin əsl nəticəsi hərbi zəfər deyil, insan həyatının, münasibətlərinin və ideallarının məhv olmasıdır.

Müharibəyə və qəhrəmanlıq ideyasına ironik münasibət dünya ədəbiyyatında yeni hadisə deyildir. Müxtəlif dövrlərdə yazılmış bədii əsərlərdə müəlliflər qəhrəmanlıq mifini sorğulamış, müharibənin romantik obrazını dekonstruksiya etmiş və onun arxasında gizlənən faciəvi reallığı üzə çıxarmağa çalışmışlar. Bu baxımdan Şon O'Keysinin "Gümüş Kupa" pyesi Servantesin "Don Kixot" romanı və Stendalın "Parm monastırı" əsəri ilə müəyyən tipoloji yaxınlıq nümayiş etdirir. Hər üç əsərdə qəhrəmanın ideallaşdırılmış təsəvvürləri həyatın sərt həqiqətləri ilə toqquşur və nəticədə qəhrəmanlıq anlayışı ironik müstəvidə yenidən mənalandırılır.

Don Kixot və Harri Hiqan obrazları6 Maarifçilik dövrünün astanasında qəhrəmanlıq, cəngavərlik süjetlərinə ironiya olaraq yaranmış Servantesin "Don Kixot" romanının baş qəhrəmanı Don Kixot cəngavərlik ideallarını mənimsəyən və bu xəyallarla reallıq arasında ilişib qalan bir obrazdır. O, köhnə cəngavərlik kitabları oxuyaraq təsəvvüründə ideal qəhrəmanlıq anlayışı yaradır və dünyanı cəngavərlik ruhu ilə xilas etməyə çalışır. Lakin onun bu qəhrəmanlıq anlayışı reallıqla uyğun gəlmir və Servantes Don Kixotun bu cəhdlərini satirik şəkildə təsvir edir.

Don Kixotun qəhrəmanlıq axtarışı reallıqla ziddiyyət təşkil edir. O, adi külək dəyirmanlarını nəhənglər kimi görür və onları məğlub etməyə çalışır.[1] Bu epizod onun qəhrəmanlıq ideallarının nə qədər absurd və reallıqdan uzaq olduğunu göstərir. Servantes Don Kixotun idealizmini və qəhrəmanlıq anlayışını komik və ironik şəkildə təsvir edərək cəngavərlik idealını tənqid edir.

Don Kixotun hərəkətləri qəhrəmanlıqdan çox komik vəziyyətlər yaradır. O, həmişə kömək etməyə çalışır, amma çox zaman insanlara zərər verir və ya gülünc vəziyyətlərə düşür. Beləliklə, Servantes qəhrəmanlıq anlayışını satirik bir şəkildə dekonstruksiya edir və göstərir ki, cəngavərlik dövrünün idealları artıq reallıqla uyğun gəlmir.

Don Kixot özünü qəhrəman hesab etsə də, ətrafındakı insanlar onu bir dəli kimi görür. Onun qəhrəmanlıq xülyaları ilə cəmiyyətin reallıq anlayışı arasındakı fərq satirik bir şəkildə vurğulanır. Don Kixotun hərəkətləri ciddi qəhrəmanlıqdan daha çox komik hadisələrə səbəb olur.

"Gümüş Kupa" əsərinin qəhrəmanı Harri Hiqan, Don Kixot kimi idealist olmasa da, onun da qəhrəmanlıq anlayışı satirik bir şəkildə tənqid edilir. O'Keysi müharibənin qəhrəmanlıq anlayışını necə məhv etdiyini göstərmək üçün Harrinin hekayəsindən istifadə edir.

Harri Hiqan, əvvəlcə müharibəyə qəhrəmanlıq etmək və özünü sübut etmək üçün qatılır. O, futbol meydançasında qəhrəman olduğu kimi, müharibə meydanında da qəhrəman olmaq istəyir. Lakin müharibədə aldığı ciddi xəsarətlər onun həyatını dəyişdirir və Harri müharibənin gerçək qəddarlığı ilə üzləşir. Bu, qəhrəmanlıq anlayışının nə qədər məğlubedilməz olduğunu satirik şəkildə göstərir.

O'Keysi Harri Hiqanın qəhrəmanlıq anlayışını dağıdaraq, müharibənin insanlara gətirdiyi dağıdıcı nəticələri ön plana çəkir. Müharibədə yaralanıb əlilə çevrilən Harri artıq hərəkət edə bilmir və cəmiyyət tərəfindən tərk edilir. Onun qəhrəmanlıq axtarışı tamamilə mənasız və acınacaqlı vəziyyətə düşür. Bu, qəhrəmanlıq ideyasının müharibədə necə çökdüyünü və real həyatda qəhrəmanlığın necə boş bir anlayış olduğunu vurğulayır.

Harri müharibədən sonra cəmiyyətin qəhrəmanlıq anlayışına münasibətinin dəyişdiyini hiss edir. Əvvəllər sevilən və qəhrəman kimi qəbul edilən Harri artıq cəmiyyət tərəfindən unudulur və maraqsız bir obraz kimi göründüyü üçün kənara atılır. O'Keysi bu yolla müharibənin qəhrəmanlıq anlayışını necə alçaltdığını və cəmiyyətin belə qəhrəmanlara necə biganə yanaşdığını satirik şəkildə göstərir.

Don Kixot qəhrəmanlıq idealına xülyalarla yanaşır və bu xülyalarla mübarizə apararkən reallığın sərtliyi ilə üzləşir. Müharibə təcrübəsi qəhrəmanın fiziki və mənəvi transformasiyasına səbəb olur. Harri Hiqan isə qəhrəmanlıq axtarışına müasir müharibədə gedir və müharibənin qəddarlığı onu məhv edir. Hər iki obrazda qəhrəmanlıq anlayışı reallıqla toqquşur və bu toqquşma satirik şəkildə təqdim edilir.

Don Kixot romantik və idealistdir, hər şeyə xəyali qəhrəman kimi yanaşır. Harri Hiqan isə realist bir qəhrəman olmaq istəyir, lakin onun qəhrəmanlığı müharibə gerçəklikləri ilə ziddiyyət təşkil edir. Hər iki obrazda qəhrəmanlıq anlayışı, fərqli formalarda olsa da, real dünyada təsirsiz və mənasız görünür.

Servantes və O'Keysi qəhrəmanlıq anlayışını satirik yolla dekonstruksiya edirlər. Don Kixotun gülünc vəziyyətlərə düşməsi və Harrinin qəhrəmanlıq axtarışının faciə ilə nəticələnməsi, hər iki müəllifin qəhrəmanlıq anlayışına necə şübhə ilə yanaşdığını göstərir.

Servantes və O'Keysi qəhrəmanlığı ironik və tənqidi bir baxışla təqdim edərək qəhrəmanlıq anlayışının nə qədər boş və mənasız ola biləcəyini göstərir. Don Kixotun idealizmi və Harri Hiqanın reallıqla mübarizəsi, qəhrəmanlıq xülyasının faciəvi və gülünc tərəflərini ortaya qoyur.

Fabrisio del Donqo və Harri Hiqan obrazları: Dünya ədəbiyyatının nəhəng klassiklərindən biri hesab olunan Stendalın "Parm monastırı" (fransızca: La Chartreuse de Parme) romanının əsas qəhrəmanı Fabrisio del Donqo obrazı ilə Harri Hiqan xarakter etibari ilə səsləşirlər. Əsərdə hər iki qəhrəman klassik qəhrəmanların və anti-qəhrəmanların qarışığı kimi təsvir olunur. O, idealist gənc bir zadəgan olmaqla yanaşı, həyatın mürəkkəb reallıqları ilə qarşılaşır və bu prosesdə şəxsi inkişafını və dəyişikliklərini yaşayır. Hər iki qəhrəman idealist düşüncələrlə başlayır və həyatlarında qəhrəmanlıq axtarışındadırlar. Onların qəhrəmanlıq anlayışları müxtəlif yollarla dağılır və reallığın sərtliyi ilə üzləşirlər. Stendalın romanında Fabrisio del Donqo Napoleon Bonapartı öz idealı kimi görür və ona heyranlıq duyur. Napoleon qəhrəmanlıq və cəsarət simvoludur, lakin Fabrisio onun ideallarına çatmaqda çətinlik çəkir. Napoleonun qərarlılığı və gücü ilə müqayisədə Fabrisio həyatda daha çox təsadüflərin və şəraitin təsiri ilə hərəkət edir.[9]Fabricio müharibədə yaşadığı təcrübələr nəticəsində idealist dünyagörüşündən uzaqlaşır. O, döyüşlərdə iştirak etsə də, həqiqi qəhrəmanlıq hissi yaşaya bilmir. Müharibə onun gözündə xaos və anlaşılmazlıqlar mənbəyidir. Fabricio nəticədə qəhrəmanlıq axtarışından daha çox şəxsi xoşbəxtliyini və daxili sakitliyi tapmağa çalışır.

Müharibə Harrinin də həyatını məhv edir. O, şikəst olur və əvvəlki gücünü, fəallığını itirir. Harri artıq fiziki və psixoloji olaraq tamamilə dəyişir və bu, onun həyatını, kimliyini və ətrafındakı insanlarla olan xoş münasibətlərini məhv edir. Müharibə, onun qəhrəmanlıq arzularını tamamilə məhv edən bir təcrübə olur. Hər iki qəhrəman cəmiyyətin qəhrəmanlıq və fərdi uğur haqqında gözləntiləri ilə qarşılaşır və onların bu gözləntiləri yerinə yetirmək cəhdləri uğursuz olur. Fabricio aristokratik bir ailədə dünyaya gəlir və cəmiyyətin onunla bağlı müəyyən gözləntiləri var. Lakin Fabricio bu gözləntilərə uyğun olaraq cəsur bir döyüşçü və ya uğurlu bir dövlət adamı ola bilmir. O, həyatda öz yolunu tapmağa çalışır, lakin cəmiyyətin ona yüklədiyi qəhrəmanlıq idealına tam uyğunlaşa bilmir.

Harri müharibədən əvvəl cəmiyyətin sevimli qəhrəmanı idi. Onun müharibədə iştirak edərək qəhrəmanlıq qazanacağına dair gözləntilər böyük idi. Lakin müharibə onu fiziki olaraq məhv edir və cəmiyyət artıq ona əvvəlki kimi maraq göstərmir. Harri müharibədən sonra cəmiyyət tərəfindən unudulur və tənhalığa məhkum edilir. Bu, onun üçün həm fiziki, həm də mənəvi çöküşə səbəb olur.

Fabrisio del Donqo və Harri Hiqan arasındakı müqayisə, iki fərqli dövrdə yazılmış bu əsərlərdə qəhrəmanlıq anlayışının necə fərqli şəkildə tənqid edildiyini və təsvir olunduğunu göstərir. Hər iki qəhrəman müharibə ilə üzləşir və həyatlarını bu müharibə təcrübələri formalaşdırır. Lakin Fabricio daha çox idealist qəhrəmanlıq axtarışına çıxdığı halda, Harri reallıqla üzləşərək tamamilə dəyişir.

Fabrisio del Donqo bir idealist olaraq başlayır və müharibədən sonra daha çox şəxsi xoşbəxtliyini axtarmağa çalışır. Harri Heegan isə qəhrəmanlıq arzusuyla başladığı müharibə macərasında fiziki və mənəvi olaraq məhv olur və cəmiyyət tərəfindən tərk edilir.

NƏTİCƏ: Beləliklə, fərqli dövrlərdə və şəraitlərdə meydana gələn bu obrazlar qəhrəmanlıq anlayışının deqradasiya prosesini göstərən güclü nümunələrdir. Aparılan təhlil göstərir ki, Şon O'Keysinin "Gümüş Kupa" pyesi Birinci Dünya müharibəsini insanın fiziki, mənəvi və sosial varlığını sarsıdan absurd bir fenomen kimi təqdim edir. Müəllif realist və ekspressionist poetikanın sintezi, ironiya, satira və simvolik səhnə həlləri vasitəsilə müharibənin romantikləşdirilmiş obrazını dağıdır və onun əsl mahiyyətini üzə çıxarır.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Harri Hiqan obrazı klassik qəhrəman modelinin dekonstruksiyasını təcəssüm etdirir. Əsərin əvvəlində gəncliyin, gücün və qələbənin simvolu kimi təqdim olunan qəhrəman müharibənin sonunda fiziki və mənəvi cəhətdən sarsılmış, cəmiyyət tərəfindən təcrid olunmuş bir insana çevrilir. Bu transformasiya müharibənin fərdi talelər üzərində yaratdığı dağıdıcı təsiri və qəhrəmanlıq mifinin illüzor xarakterini nümayiş etdirir. Pyesdə xüsusi əhəmiyyət daşıyan "Gümüş Kupa" simvolu da semantik dəyişməyə məruz

qalır. Əvvəlcə uğur və zəfər rəmzi kimi çıxış edən kubok finalda itirilmiş sağlamlığın, puç olmuş arzuların və insan faciəsinin metaforasına çevrilir. Bununla O'Keysi maddi qələbələrin müharibənin yaratdığı mənəvi boşluğu doldura bilməyəcəyini göstərir.

Don Kixot, Fabrisio del Donqo və Harri Hiqan obrazlarının müqayisəli təhlili göstərir ki, müxtəlif dövrlərə və estetik sistemlərə mənsub olsalar da, bu qəhrəmanları birləşdirən əsas cəhət ideallaşdırılmış qəhrəmanlıq təsəvvürlərinin reallıq qarşısında iflasa uğramasıdır. Bu tipoloji paralellər O'Keysinin əsərini dünya ədəbiyyatında qəhrəmanlıq mifinin tənqidi ənənəsinin mühüm davamçılarından biri kimi qiymətləndirməyə imkan verir. "Gümüş Kupa" əsəri ironiya, ekspressionist poetika və simvolik obrazlar vasitəsilə müharibənin absurdluğunu və qəhrəmanlıq ideyasının deqradasiyasını dərin bədii-fəlsəfi müstəvidə əks etdirən mühüm ədəbi nümunədir.

Beləliklə, O'Keysi modernist dramaturgiyada müharibəni yalnız tarixi-siyasi hadisə kimi deyil, insan identikliyinin, sosial münasibətlərin və mənəvi dəyərlərin dağılması ilə nəticələnən ekzistensial təcrübə kimi təqdim edir. Bu baxımdan "Gümüş Kupa" XX əsr antimüharibə dramaturgiyasının ən mühüm nümunələrindən biri hesab oluna bilər.

İstifadə edilmiş ədəbiyyat

1. Cervantes M. *Don Kixot*. Bakı: Qanun Nəşriyyatı, 2011, 840 s.
2. O'Casey S. *The Silver Tassie: A Tragi-Comedy in Four Acts*. London: Faber and Faber, 1929, 156 p.
3. Corkery D. *Synge and Anglo-Irish Literature*. Cork: Cork University Press, 1931, 312 p.
4. Maxwell D.E.S. *A Critical History of Modern Irish Drama 1891–1980*. Cambridge: Cambridge University Press, 1984, 286 p.
5. Ellis-Fermor U. *The Irish Dramatic Movement*. London: Methuen, 1977, 284 p.
6. Grene N. *The Politics of Irish Drama: Plays in Context from Boucicault to Friel*. Cambridge: Cambridge University Press, 2000, 292 p.
7. Kitishat A.R. Colonialism and the Recreation of Identity: The Irish Theatre as Case Study // *Journal of Language and Culture*, 2012, Vol. 3, No. 5, pp. 83–86.
8. Cervantes M. de. *Don Quixote*. Translated by E. Grossman. New York: Harper Perennial, 2005, 992 p.
9. Stendhal. *The Charterhouse of Parma*. Translated by R. Howard. New York: New York Review Books, 2009, 640 p. (Original work published 1839).
10. Schrank B. Naturalism in O'Casey's Early Plays // *The Sean O'Casey Review*, 1977, Vol. 4, No. 1, pp. 43–62

Aliyeva Ulviyya Chingiz gizi
Azerbaijan University of Languages and Azerbaijan University
PhD in Philology. Assoc. Prof.
ulviyya_28@mail.ru
Orcid cod: 0000-0002-1569-280X

The absurdity of war in expressionist drama (Based on Sean O'Casey's play"The Silver Tassie")

Summary

The presented article discusses the problems of the satirical embodiment of the themes of the increasingly meaningless war, human losses and traumas in Sean O'Casey's "The Silver Tassie". In an ironic language, instead of the ideals of bravery and heroism, the fear and desperation of the soldiers are brought to the fore. It gives the reader an opportunity to see the realities behind the heroic dreams of war. O'Casey shows that war is not just a physical conflict, but also a battle of the human spirit. In this context, it highlights how misleading concepts like heroism and pride can actually be. The internal struggles of the characters and the tragedies that occur ironically reveal the devastating effect of war on man.

Keywords: Sean O'Casey' war, hero, Silver Cup, irony

Алиева Ульвия Чингиз кызы
Азербайджанский университет языков и Азербайджанский университет
Кандидат филологических наук. доц. Проф.
ulviyya_28@mail.ru
Треска-орцида: 0000-0002-1569-280X

Абсурдность войны в экспрессионистской драматургии(на основе пьесы Шона О'Кейси. «Серебряная тассей»

Резюме

В представленной статье рассматриваются проблемы сатирического воплощения тем все более бессмысленной войны, человеческих потерь и травм в произведении Шона О'Кейси «Серебряная Тэсси». Выражаясь ироническим языком, вместо идеалов храбрости и героизма на первый план выдвигаются страх и отчаяние солдат. Это дает читателю возможность увидеть реальность, стоящую за героическим мечтами о войне. О'Кейси показывает, что война — это не только физический конфликт, но и битва человеческого духа. В этом контексте он подчеркивает, насколько обманчивыми на самом деле могут быть такие понятия, как героизм и гордость. Внутренняя борьба персонажей и происходящие трагедии иронично раскрывают разрушительное воздействие войны на человека.

Ключевые слова: Шон О'Кейси, война, герой, Серебряный кубок, ирония

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-155-158

Aysel Mamedova
Candidate of philosophy at Azerbaijan University
Lecturer at Baku Engineering University
amammadova1@beu.edu.az
ORCID ID: 0009-0003-5030-9890

DEPICTION OF CREATIVE PERSON IN "INSIDE MR. ENDERBY" BY ANTHONY BURGESS

ABSTRACT: This paper examines how Anthony Burgess explores the connection between beauty, morality, and art in his Enderby novels. It shows that Burgess sees the artist as someone who can bring life`s contradictions together, like body and soul, or good and evil, through the creative use of language. The main character, Francis Xavier Enderby, is an unusual and isolated poet whose habits blur the line between the physical and the artistic. By placing his creative work in such an ordinary and even uncomfortable setting, Burgess challenges the traditional, romantic idea of the poet. Instead, he presents creativity as something that grows out of tension, discomfort, and everyday reality. The paper also touches on recurring oppositions in the novels, the role of women as both inspiration and conflict, and Burgess`s idea that "good" can exist beyond simple moral definitions. In the end, it argues that for Burgess, art is a way of making sense of a confusing and divided world.

Key words: creative person, aesthetics, ethics, oppositions.

INTRODUCTION: The creative person- essentially the being closest to beauty- occupies a special place in the worldview of Anthony Burgess. At the center of Burgess`s dualistic perspective, opposing forces stand in explicit confrontation, and these contradictions can be reconciled only through ritual. According to the author, language is a system of signs and, at the same time (as one of the traditional forms), a ritual endowed with the power to resolve the contradictions of the world: "You can make rituals out of language. And it is in the rituals that opposites are reconciled, of course" [5, pp. 115-134]. Thus, in Burgess`s view, the writer, who employs language as a medium, is granted a unique capacity to reconcile contradictions. This capacity is embodied in the writer`s creation of a coherent and unified work of art. Such a work, by introducing the individual to eternity, helps to illuminate the essence of life. It is precisely this ability that distinguishes the creative individual from the masses and often transform them into a figure isolated from the social environment, a kind of ascetic- a portrayal that is also reflected in the presentation of Enderby in the first novel.

The central protagonist of the novels is forty-five-year-old English poet, Francis Xavier Enderby. This character, who is apprehensive of the external world and prefers a solitary mode of existence, spends most of his time in the bathroom. Due to his preference for fatty foods, he suffers from digestive disorders and is consequently compelled to use the bathroom frequently. According to the researcher J. Stinson, who has examined Anthony Burgess`s oeuvre, the name "Enderby" evokes the English words "end" and "be", which allude to the routine physical needs of the human body. For Enderby, these needs primarily manifest as defecation resulting from digestive problems and masturbation arising from the absence of sexual life [9, pp. 20-25]. Moreover, Enderby composes poetic works in the bathroom. For him, this space function as a site where physiological necessities and the creative process converge, reflecting the author`s contemplation of the relationship between art and the body. In the novel, Enderby is portrayed as a disorganized individual who neglects personal hygiene: he keeps his unfinished poems alongside completed ones in the bathroom. However, the protagonist himself claims that he maintains his home in a "clean" state and adheres to order: dirty dishes are placed either in the oven or in the dishwasher, while leftover food remains on the table.

This paradoxical image of Enderby reflects the writer`s conception of the creative person and is presented in opposition to the "idealized image of the poet" formed within the tradition of romantic poetry. Enderby`s sexual impotence metaphorically underscores Anthony Burgess`s negative attitude toward the modern world. In Burgess`s view, the twentieth century is characterized as an era of freedom, comfort, and consumerism. People are concerned less with creativity and more with material consumption and entertainment. This perspective is also evident in his literary works. In Burgess`s novels the external world is depicted as illogical, meaningless, and absurd. Particularly in works centered on artists, the dominant themes include the loss of originality, plagiarism (the appropriation of another`s work), and travesty (the distortion of art and society through mockery and parody). This reflects the author`s critical stance toward the moral and cultural values of his time.

In the novel, Anthony Burgess contrasts naturalistic portrayal with the romanticized images of other artists. This contrast can be explained by two principal factors. First, Burgess`s early works reflect a dualistic worldview shaped by his Catholic upbringing and his interest in Manichaean ideas. This worldview presents the universe as a site of perpetual conflict between opposing forced- light and darkness, life and death, spirit and body. This concept is also embodied in the structure of the tetralogy: the first two novels bear contrasting titles ("inside" and "outside"). Second, according to the author`s conception of creativity, the artist is not an idealized romantic hero but an ordinary individual. Moreover, the writer is portrayed as a professional artist- that is, a person who earns their livelihood through writing.

Emphasizing the duality inherent in human nature, Anthony Burgess portrays the collision between the spiritual and the physiological aspects of the individual. In the author`s view, this confrontation inevitably gives rise to an internal conflict, which in turn generates a distinctive condition-namely, creative inspiration. From this perspective, the depiction of the toilet as a kind of "temple of art" in the Enderby novels can be understood. In one of his interviews, Burgess remarked: "Poetry is appropriate to it; the poet is time`s cleanser and cathartizer" [1, p. 178]. Furthermore,

Manichean notions concerning the dual nature of the world are also evident in the structural design of the work. The author originally intended to compose a two-part novel: "Inside Mr. Enderby" (spirit) and "Enderby Outside" (body).

Alongside the contradictions inherent within the protagonist of the novel, the clash of opposing poles is also clearly manifested in the conflict between his inner and outer worlds. In this sense, the poet exists between these two realms while simultaneously striving to survive within them. As indicated in the first book, which provides detailed information about the poet`s personal life, the isolation of the creative individual is presented as one of the essential conditions of creative process. From this perspective, the toilet is interpreted as a means of protection from the external, hostile world. Many scholars who have studied Burgess`s oeuvre liken this space to the maternal womb. Based on this analogy, the toilet is understood both as the site where the word, that is, creativity comes into being, and as a protective refuge. Although Enderby is, in a certain sense, "imprisoned" within the smallest room of his apartment, he remains a fulfilled and self-realized individual in the realm of art, as he serves his vocation with unwavering devotion [7, p. 8]. However, beyond the confines of this personal space, he is portrayed as an unhappy, disoriented individual who is unable to adapt to society and exhibits emotional instability, a condition that is explicitly depicted in the second chapter of the first part of the novel as well as in the final book. In an interview with Tom Churchill, Anthony Burgess characterizes the "Enderby" series as "a sad" book. According to the author, Enderby`s tragicomic persona serves as an affirmation of the absurdity and deformation of the modern world; within this context, under the dominance of the state, poetry is represented as a kind of illness, while the poet in such a world, it is exceedingly limited, and in the "Enderby" novels it is symbolically equated with the toilet.

In the "Enderby" novels the author predominantly portrays events from the perspective of a creative individual, thereby revealing another dimension of his religious worldview- namely, the conception of goodness not only as an ethical category but also as an aesthetic one. In one of the key scenes of the third novel in the tetralogy, Enderby, in conversation with his student, interprets evil as "original sin". In explaining the notion of goodness, he distinguishes between two forms: "But what the imbecilic sods don`t realize that there are two kinds of good- one is neutral, outside ethics, purely aesthetic. You get it in music or in sunset if you like that sort of thing or in a grilled steak or in an apple. If God`s good, if God exists that is, God`s probably good on that way" [3, p. 357]. These reflections of the protagonist mirror the author`s own position, as articulated in an interview with Samuel Coale: "There`s good beyond ethical good which is always existential. There`s the central good, that aspect of God which we can prefigure more in the taste of an apple or the sound of music" [5, p. 123].

Burgess, like his fictional protagonist, was raised by a Catholic stepmother but later rejected Catholicism. To understand his disagreement with the Catholic Church, it is important to consider his interest in Manichean ideas during the 1960s. This interest is especially visible in his dystopian novels "A Clockwork Orange" and "The Wanting Seed". Manicheanism, a religious and philosophical system founded by the ancient Persian prophet Mani, is, like Catholicism, based on a dualistic way of thinking. Both systems emphasize opposing concepts such as spirit and body, good and evil, and light and darkness. However, while Catholicism typically treats these opposites as conflicting and irreconcilable, Manichaeism views them as coexisting forces that together form the unity of the world. These ideas are also reflected in Burgess`s worldview. He sees the world as influenced by both good and evil forces at the same time, and therefore believes in the existence of two gods- one true and one false. This perspective clearly shows his closeness to Manichean thought [2, pp. 125-150].

Most scholars who study Burgess`s oeuvre note that the dualistic view of the world in his writings was shaped by the influence of a Manichaean worldview that he had adopted. In his monograph "Anthony Burgess", S. Coale examines in detail the sources of these dualist perspectives and, drawing on Burgess`s own statements, identifies Manichaeism as one of the primary influences on his works. This doctrine also affected the Catholic worldview in which Burgess was raised and is reflected in his engagement with Hegelian dialectics as well as with structuralism [4, p. 223]. More broadly, dualism is a fundamental characteristic of Western modes of thought. The numerous reflections by Burgess cited in Coale`s monograph demonstrate that binary oppositions occupy a central place both in his worldview and in his literary works.

J.Stinson notes that, alongside the figure of the socially marginalized protagonist in Anthony Burgess`s oeuvre, the motif of the quest also occupies a significant place in his works. On the one hand, this motif compels the main character to escape from a reality that is devoid of hope and morally corrupted; on the other hand, it enables the protagonist to attain self-knowledge and perhaps to discover the very source of inspiration within the external world [9, pp.10-18]. As previously noted, the principal creative stimulus for F. X. Enderby lies in his internal conflict. From a Manichaean perspective, this conflict may be interpreted as the opposition between soul and body, as well as the collision between the poet`s lyrical world-imbued with beauty and harmony- and the chaotic, absurd nature of the external world. Nevertheless, Charles Hoffman and A. Hoffman, in the article "Mr. Kell and Mr. Burgess: Inside and Outside Mr. Enderby", argue that the poet is also drawn toward the external world, as he possesses as inner need to actualize the imagination that exists within his subconscious and remains beyond his control [8, pp. 34-35]. In the second book, Enderby- exiled both from the "temple of art" and from his homeland- embarks on a journey through the labyrinth of the external world. Following this journey, he comes to understand that lyrical talent can also sustain life within a hostile world, for it is precisely this world- particularly its horrors and grotesqueries- that can become a source of poetic inspiration.

In the novel, the dualistic depiction of the world is expressed particularly clearly in the presentation of female

characters. Charles Hoffman and A. Hoffman note that poets embark on a quest for beauty, whereas men pursue love. The primary object of both quests is the woman. Thus, the fundamental creative force is embodied in the sexual desire directed toward the woman as a representative of the opposite sex. In an artistic sense, the woman carries within her womb the mysterious creative power of life and possesses the capacity to inspire the poet toward the birth of the "word" [8, pp.29-32]. Enderby`s stepmother exerted a psychological influence during the protagonist`s youth, contributing to the formation of his need to seek refuge in the toilet; as a result, she became a symbol of a hostile and corrupt world for him. J. Stinson suggests that the author`s own stepmother, Maggie Wilson, may have served as the prototype for Enderby`s stepmother. It is noted in the monograph "Anthony Burgess Revisited" that the writer harbored hatred toward his stepmother. This animosity stemmed from her ignorance, lack of education, and repulsive habits, such as using tram tickets as toothpicks in public [9, pp. 50-57]. This idea is also confirmed in Burgess`s autobiographical novel "Little Wilson and Big God". In fact, Enderby`s stepmother possesses characteristics that are almost identical to those of the author`s own stepmother. Besides, both women are similarly characterized by their devotion to God and religion; this attribute is, in fact, manifested in their fear of God and in their apprehensive reception of lightning as a form of divine punishment [2, pp. 367-389].

Because his mother died during childbirth, Enderby was deprived of genuine maternal affection and was instead raised by a stepmother whom he resented. In response, he constructs in his imagination an idealized image of a woman, which he characterizes as the "mystical face of God", drawing upon history, mythology, the past, and the art of poetry [1, pp. 1-60]. This image emerges through prolonged reflection and gradually begins to appear in his dreams as a figure who is "graceful, smiling, and above all pure". It stands in stark contrast to his stepmother, who, for Enderby, symbolizes the ugliness and meaninglessness of the external world [1, pp. 56-63]. It becomes evident that this idealized female figure corresponds to his recollection of his mother. Enderby envisions her as "a fair-haired, delicate, and refined young woman" [3, p. 430].

As time passes, and as Enderby`s desire to create a beautiful and harmonious inner world in opposition to the frightening and chaotic external reality intensifies, the maternal figure in his imagination is gradually transformed into that of a Muse, conceived as an immutable and ideal source of inspiration. Through this reconfigured image, Enderby forges a connection with Vesta Bainbridge, the editor of the women`s magazine "Fem", ultimately permitting her to disturb the previously stable isolation of his personal life [6, pp. 44-51]. In the opening section of the novel, Vesta is introduced as an elegant and intellectually cultivated woman. She engages with Enderby`s poetry, responds to it with approval, and offers him a position within her publication. In addition, she becomes a source of support during some of his most challenging and emotionally delicate encounters with the external world. Enderby`s association of Vesta with his Muse is deliberate rather that incidental, given that the name "Vesta" in ancient Roman mythology denotes the goddess linked to chastity and the sanctity of the domestic sphere. Gradually, the poet begins to realize that the woman he loves is becoming more like his stepmother. Her behavior, such as her large appetite, her belching, her fear of thunder, and her strong attachment to Catholicism, reminds him of the stepmother he resents. Thus, in opposition to all the worldly female figures surrounding the poet- his stepmother, Vesta, Mrs. Meldrum, the landlady, Mrs. Boland, and even the female selenographer- there emerges a distinctly elevated and transcendent image: the Muse- Mother, an unreal, idealized, and divine figure. She embodies both a source of artistic inspiration and a symbolic representation of motherhood.

In conclusion, the relationship between literature and aesthetics becomes even clearer in Burgess`s works because he successfully combines different forms of art. In his novels, language, music, philosophy, and psychology come together. This combination strengthens the aesthetics power of his works. Readers turn to his novels not only to follow the plot but also to experience artistic beauty and intellectual depth. In modern era, the works of Anthony Burgess still remain relevant. The problems raised in his writings continue to be important for both individuals and society today. The writer shows that literature is not simply a means of entertainment but a powerful form of art capable of transforming the human inner world. Aesthetics serves as one of the main foundations of this artistic power.

Literature and aesthetics are inseparably connected with another. Aesthetics gives literature artistic beauty and emotional strength, while literature serves as a means of conveying aesthetic thought to people. Anthony Burgess`s "Inside Mr. Enderby" is one of the successful examples of this relationship. In the novel, the beauty of language, humor, poetic thought, and the human inner world are presented in a highly aesthetic form. Moreover, the world depicted in the Enderby novels is replete with contradictions. These are evident in the protagonist`s internal conflicts, his struggles with the external world, and the numerous rivals he encounters in his professional sphere. Such contradictions are further highlighted through the portrayal of female figures. At the same time, these tensions intersect, reflecting the complex unity of the world. Enderby`s eccentricity and his deviation from socially accepted norms are explained by his sense of alienation and his profound dedication to art. From this perspective, it can be concluded that, for Anthony Burgess, the artist is both a skilled craftsman and an individual wholly devoted to his art. In either case, however, the creative person must draw inspiration from either love for another human being or love for the artistic process itself. For these reasons, Burgess occupies an important place in world literature as one of the writers who successfully reflected aesthetics in literary art.

References

1. Burgess A. "Inside Mr. Enderby//The Complete Enderby", London, 2012, 672 p.
2. Burgess A. "Little Wilson and Big God", London, 1987, 460 p.
3. Burgess A., "Enderby Outside//The Complete Enderby", London, 2012, 672 p.

4. Coale S., "Anthony Burgess", New York: F. Ungar. Pub. Co., 1981, 245 p.
5. Coale S., "Guilt`s a Good Thing", Interview with Anthony Burgess, In Earl G. Ingersoll& Marry C. Ingersoll (eds.), "Conversations with Anthony Burgess, Jackson: University Press of Mississippi, 2008, 224 p.
6. De Vitis A., "Anthony Burgess", NY, 1972, 179 p.
7. Ekaterina V. S., Khabibullina, L. F., "Aesthetics as an Aspect of Good in Enderby Novels by Anthony Burgess", Journal of History Culture and Art Research, 6(5), 2017, 7-12 p.
8. Hoffman Ch. G., Hoffman A. C. "Mr. Kell and Mr. Burgess: Inside and Outside Mr. Enderby", "Modern Critical Views" ed. by Harold Bloom, NY, New Haven, Philadelphia, 1987, 192 p.
9. Stinson J., "Anthony Burgess Revisited", Boston, 1991, 165 p.

Aysel Mamedova
Azərbaycan Universitetinin fəlsəfə doktoru
Bakı Mühəndislik Universitetinin müəllimi
amammadova1@beu.edu.az
ORCID ID: 0009-0003-5030-9890

Yaradıcı insan obrazının Entoni Bercessin "Enderbinin daxilində" romanında təsviri

Xülasə

Məqalədə Entoni Bercessin Enderbi romanlar silsiləsində gözəllik, əxlaq və incəsənət arasındakı əlaqəni necə araşdırdığı təhlil edilir. Göstərilir ki, Bercess sənətkarı həyatın ziddiyyətlərini, bədən və ruh, yaxud xeyir və şər kimi anlayışları dilin yaradıcı imkanları vasitəsilə uzlaşdıra bilən bir fiqur kimi təqdim edir. Əsas obraz olan Fransis Xavier Enderbi qeyri-adi və təcrid olunmuş bir şairdir; onun vərdişləri fiziki və bədii olan arasındakı sərhədi aradan qaldırır. Bercess yaradıcılıq prosesini adi və hətta narahat bir məkanda təsvir etməklə, şairin ənənəvi romantik obrazını sarsıdır. Bunun əvəzinə, o göstərir ki, yaradıcılıq gərginlikdən, narahatlıqdan və gündəlik reallıqdan doğur. Məqalədə həmçinin romanlardakı əsas qarşıdurmalar, qadın obrazlarının həm ilham, həm də ziddiyyət mənbəyi kimi rolu, eləcə də Bercessin "yaxşı" anlayışının yalnız əxlaqi çərçivələrlə məhdudlaşmadığı fikri araşdırılır. Nəticədə belə qənaətə gəlinir ki, Bercess üçün incəsənət mürəkkəb və ziddiyyətli dünyanı anlamağın bir yoludur.

Açar sözlər: yaradıcı insan, estetika, etika, ziddiyyətlər

Айсель Мамедова
Доктор философии Азербайджанского университета
Преподаватель Бакинского инженерного университета
amammadova1@beu.edu.az
ORCID ID: 0009-0003-5030-9890

Изображение творческой личности в произведении энтони бёрджесса "внутри мистера эндерби"

Резюме

В данной работе рассматривается, как Энтони Бёрджесс исследует связь между красотой, моралью и искусством в цикле романов об Эндерби. Показано, что Бёрджесс видит художника как человека, способного примирять жизненные противоречия — такие как тело и душа или добро и зло – с помощью творческого использования языка. Главный герой, Фрэнсис Ксавье Эндерби, – необычный и изолированный поэт, чьи привычки стирают границу между физическим и художественным. Помещая процесс творчества в обыденное и даже некомфортное пространство, Бёрджесс разрушает традиционный романтический образ поэта. Вместо этого он показывает, что творчество рождается из напряжения, дискомфорта и повседневной реальности. В работе также затрагиваются ключевые противопоставления в романах, роль женских образов как источника вдохновения и конфликта, а также идея Бёрджесса о том, что «добро» может существовать вне строгих моральных рамок. В итоге делается вывод, что для Бёрджесса искусство – это способ осмыслить сложный и противоречивый мир.

Ключевые слова: творческий человек, эстетика, этика, оппозиции

Rəyçi: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-159-163

Sara Yusif qızı Osmanlı
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Baş elmi iscisi, filologiya elmləri doktoru
sara.osmanli@mail.com
https://orcid.org/0009-0002-2571-5822

SÜLEYMAN RƏHİMOVUN ƏFSANƏVARİ HEKAYƏLƏRİ RUS TƏRCÜMƏSİNDƏ

XÜLASƏ: Məlum olduğu kimi, Süleyman Rəhimovun çoxjanrlı yaradıcılığı əsasən nəsr (epik) ədəbi növə aiddir və bu növün daxilində olan roman-epopeya, tarixi roman, digər janrdaxili mənsublu romanlar, povestlər, hekayələr və s. ibarətdir. Amma janr mənsubluğundan asılı olmayaraq, S.Rəhimov nəsrinin bütövlükdə üzvi keyfiyyətləri, üslubu (yalnız dili deyil) bu və ya digər dərəcədə xalq ədəbiyyatı, milli folklor poetikası ilə bağlıdır ki, bu əlaqənin əlamətləri bir çox müstəvidə görünməkdədir. O da məlumdur ki, yazıçının əksər əsərləri rus dilinə çevrilmişdir.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatının rus tərcümələrindən danışarkən önəm kəsb edən nəzərə alınası məsələ hədəf və tərcümə dillərinin qəbul edilmiş dünya dillərinin təsnifatında yeri, diqqət mərkəzində olmalıdır: Azərbaycan dili – Altay ailəsinin Oğuz qrupu; rus dili – Hind-Avropa ailəsinin slavyan qrupu. Bu o deməkdir ki, qrammatik baxımdan tam fərqli dillərdir (məs.aqqlunativ və flektiv yolla sözdəyişməsi və s.) Əsası isə dilin daşıyıcısı olan xalqın, millətin tarixi, mədəniyyəti, dünyaduyumunun və s. dildə görünməz izlərinin saxlanılması. Başqa sözlə, söhbət dildə özünəməxsus şəkildə daşıyıcısı olan xalqın mentallığının mümkün əks olunmasından gedir.

Açar sözlər: məsəl, nağıl, orijinal, tərcümə, hekayə, üslub, gəzən süjetlər, neytrallaşdırma, ellipslər, qərbləşdirmə, janr-stilistik korrelyasiya.

GİRİŞ: Orijinaldan edilən tərcümə, sözsüz, bu dili dərin bilən, ən yaxşı halda bu dilin daşıyıcısı olan müəllif tərəfindən edilir. Əlbəttə, söhbət peşəkar tərcüməçidən gedir.

Bir vacib məsələ də diqqətdən kənarda qalmamalıdır. Məşhur rus romantiki, istedadlı tərcüməçi V.A.Jukovskinin məşhur deyimi dünya tərcüməşünaslıqda aforizm kimi işlədilir: "Tərcüməçi nəsrdə quldur, poeziyada – rəqib". Həqiqətən nəsrin tərcüməsi orijinal mətni əsasən dəqiq verdikdə, poeziyada vəziyyət başqadır. V.Jukovskinin qeyd etdiyi "rəqib" amili xüsusi görünməkdədir. Şeiri çevirən şair-tərcüməçi də orijinalın təsiriylə doğan poetik ilhamının çox vaxt qeyri-ixtiyari paralel obrazlı təsvir yaradır. Əgər söhbət istedadlı şair-mütərcimdən gedirsə, oxucu qarşısında tərcümə dilində orijinala oxşayan sanki yeni şeir doğur.

ƏSAS HİSSƏ: Mətləbə keçməzdən əvvəl Süleyman Rəhimovun əsərlərinin rus dilində olan tərcümələri haqqında qısa məlumat verək. Məlum olduğu kimi, S.Rəhimov Azərbaycan yazıçıları içində, bəlkə də, ən məhsuldar müəllif kimi tanınırdı. 10 cildlik əsərlərinin külliyyatına daxil edilən bədii yaradıcılığı 8 roman, 10 –dan çox povest, onlarla hekayələr, əfsanə, nağıl, rəvayətlər, məzhəkələr və s. təqdim olunmuşdur. Yaradıcılıq dövrü 1931-1983-cü illəri əhatə edir. Ədibin vəfatından sonra da kitabları təkrar nəşr edilirdi. Azərbaycan Respublikası Prezientinin latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında sərəncamında (01.2004) uyğun tərtib edilən siyahıda S.Rəhimovun əsərləri yer almışdı. 2005-ci ildə 2 cilddə "Seçilmiş əsərləri" "Şərq-Qərb" nəşriyyatında işıq üzü görmüşdü. 2019-cu ildə isə yazıçının 4 cildlik "Şamo" roman-epopeyası "Çaşıoğlu" nəşriyyatında çap olunmuşdur (2400 səhifə).

Seçdiyimiz tərcümə obyekti – Süleyman Rəhimovun kiçik janrda yaratdığı iki nümunəsidir ki, onların konkret janr mənsubluğu tərcümələrdə (hətta orijinalda) fərqli nəşrlərdə üst-üstə düşmür. Məsələn, "Gülən balıq", "Ovqan və ilan" yazıçının "Seçilmiş əsərləri"ndə (Bakı, "Şərq-Qərb", 2005) "Əfsanələr" başlığı ilə təqdim edilən mündəricatda, rus versiyasında isə "Сказки-притчи" kimi qeyd edilmişdir. Ehtimal ki, bu faktda sözü gedən əsərlərin, bir növ, folklor qarışıq üslubda yazılması ilə bağlıdır (belə əsərləri çoxdur, məs., məşhur "Məhtəban" povesti tərcümə kitabında "Повести-легенды" kimi təqdim edilmişdir, yəni povest-əfsanələr, yaxud əfsanəvi povestlər).

Bir neçə söz S.Rəhimovun əsərlərinin ruscaya tərcümələrinin müəllifləri haqqında. Əziz Şərif, Mənsur Vəkilov, Səyavuş Məmmədzadə kimi peşəkar mütərcimlərin xidmətləri məlumdur. Lakin, məsələn, V.Boquslavski, Q.Qrekin, T.Kalyakina, İ.Oratovski, A.Plavnik, L.Libedinski, D.Minkeviç, İ.Tretyakov, Y.Fidler, A.Xaldeyev və bu kimi tanınmış qələm sahibləri olan mütərcimlərin Azərbaycan dilini bilmə səviyyəsinə bələd deyilik və ehtimal ki, onların tərcümələri (keyfiyyətsiz olmasa da) sətiraltı çevirmələrə əsaslanmışdır. Yuxarıda qeyd edildiyi bu geniş yayılmış üsul nəsr əsərlərinə aidiyyatda qəbulolunandır.

Bir qədər geniş preambuladan sonra düşünürük ki, mətləbə keçmək olar. Beləliklə, söhbət S.Rəhimovun əsərlərindən "Gülən balıq", "Ovqan və ilan" əfsanələrinin rus tərcümələrində alınmasından gedir. Nəzərə çatdırılmalıdır ki, orijinalda "əfsanələr" kimi təqdim edilən əsərlər[1] rus tərcümələrində "Nağıl və pritçalar" bölməsində təqdim edilmişdir.

Hər nədirsə biz tərcümələrə nəzər yetirək. Tərcümə ilə bağlı toxunduğumuz məsələlərin sırasında folklor, habelə folklor stilizasiyalı əsərlərin özünəməxsusluğudur. Və belə əsərlərə mövzumuzun obyekti olan yuxarıda qeyd etdiyimiz əfsanəvari nəsr nümunələri aiddir.

Beləliklə, "Gülən balıq" («Рыба хохочет»). Əlbəttə, hər şeydən əvvəl tərcümədə janra müvafiq təhkiyə üsulunun (üslubu) seçilməsinə diqqət verilməlidir. İkincisi, personajların nitqində sosial mənsubluğunun əks olunmasına diqqət və s.

1

Əvvəla, bir neçə söz süjetin ehtimal edilən mənşəyi haqqında. Yəni nağıl süjetinin orijinallığına dair. İlk olaraq, balıqçı və danışan balıq, tutulan balığın balıqçıya vəd etdiyi imkanlara dair motiv qeyri-ixtiyari A.S.Puşkinin məşhur "Balıqçı və balıq haqqında nağıl"nı yada salır. Məlum olduğu kimi, folklorda oxşar süjetlər, daha doğrusu, səyyar süjetlər təbii haldır.

O da məlumdur ki, rus şairinin özü bu süjeti (səyyar süjetlər məsələsi) Qrimm qardaşlarının "Von dem Fischer und seine Frau" ("Balıqçı və onun arvadı haqqında") nağılından iqtibas əsasında rus məişət məkanına adaptə etmişdir. Müvafiq məxəzlərdən məlum olur ki, məhz milli aura yaratmaq üçün rus şairi Qrimm qardaşların nağılındakı şöhrətpərəst qarının son sifarişini (Roma papası olmaq), təbii ki, dəyişir ("dəniz hökmdarı olmaq və birbaşa balığa əmrlərini etmək") və bunu eşidən balıq heç nə demədən qarının istəklərinə son qoyur və onu əvvəlki yoxsul vəziyyətə qaytarır.

Həmin bu ibrətamiz süjetdən (hüdudsuz artan nəfsin acı aqibəti) Süleyman Rəhimov yan keçməmiş və onun əsasında Şərq mövzusunda tam dəyişdirilmiş əsər yazmışdı. Lakin əgər A.S.Puşkin iqtibas etdiyi süjetin dinamikası, obrazları (balıqçı, qarısı, balıq), ibrətamiz motivini tam saxlamışsa, Azərbaycan yazıçısı tam yeni süjet qurur. Bu süjetin konflikti padşahın arvadının xəlvət əxlaqsızlıq etməsini hardansa bilən danışan balığın aramsız gülüşü vasitəsilə açılması və saraydan qovulması motiviylə əvəzlənmişdir. Yəni əbədi olan artan nəfsin aqibəti kimi bəşər motivinin cılızlaşması baş verir.

Əsas intriqaya gəldikdə mərkəzi olan balıq obrazının tam dəyişdiyinə: onu tutan balıqçıya suyla dolu ləyənə buraxıb şahın sarayına aparmasını əmr edir ki, şah onun daima güldüyünə təəccüb edərək, onun səbəbini öyrənmək istəsin. Düşünmək olar ki, bu yerdə əsər nağıl janrının hüdudlarından çıxaraq daha çox sosial motivli dastanlara yaxınlaşır (ələlxüsus finalda). Qısası, şahın uzun-uzadı yalvarışlarından sonra balıq gülüşünün sirrini açır, rüsvay olan hökmdar və arvadı xalq tərəfindən saraydan qovulur. Balıq isə şaha hey sosial ədalət mövzusunda nitqlər söyləyir. Hakimiyyət xalqın əlinə keçir. Balıq tərəfindən biçarə balıqçı ölkəyə başçı təklif edilir və s. Balığın gülüşü xalqı üsyana sövq edir. Yəni sosiallaşdırılmış, genişləndirilmiş süjetdə (balıqçı, balıq, şah, arvadı, vəzir, xalq personajları və s.) nağıl janrına məxsus keyfiyyətlər yox olur. Balıq isə nəinki süjetin intriqasını qurur, üstəgəl rezonyor rolunu oynayır. Yəni ənənəvi müdrik, az danışan balığın vulqar, intriqa salan obraza çevrilməsi baş verir.

Əsər nağıl janrına xas təhkiyə üslubunda başlanır: "Gün çıxan tərəfdə bir məmləkət vardı. Bu məmləkətin bir padşahı vardı. Bu padşah nə yerə sığırdı, nə göyə... Dil tərpədənin dilini kəsdirir, baş qaldıranın başını vurdururdu".

Tərcümədə "В одной стране, где, раньше, чем у нас, восходит солнце, во времена, тоже от нас отдаленные, жил властительный, обладавший несметным богатством, шах».

Göründüyü kimi, çevirmədə nağıl "зачины» saxlanılıb: aramlı təhkiyə. O ki, qaldı ölkənin coğrafiyasına: "gün çıxan tərəfdə" – "в одной стране, где раньше чем, у нас восходит солнце» rusdilli oxucuya xitabən işlənir, yəni Şərq ölkəsində. Orijinalda padşahın özündən razılığı ("nə yerə sığırdı, nə göyə"), detallı səciyyələnən qəddarlığı tərcümədə daha lakonik verilmişdir: "Он был человеком чванным (halbuki rus dilində "чванливым" olmalıydı) жестоким, кровожадным. Шах отдавал приказ вырывать язык и даже отрубать голову каждому, кто решился вымолвить при нем что-нибудь смелое, неугодное его величеству».

Düşünürük ki, cümləbəcümlə müqayisə etməyin lüzumu yoxdur. Əsas odur ki, tərcmədə orijinaldakı məzmun-təhkiyə üslubunun fərqli dildə oxşar şəkildə verilməsidir.

Tərcümə mətnində bir sıra əlavələr diqqəti çəkir. Məsələn, balıqçı toruna düşən "ömründə görmədiyi gözəl balıq gördü". Tərcümədəki əlavələr: "И чешуей, и серебристыми плавниками, и головой своей она была так удивительно красива, что старый рыболов…». Sonra gələn balıqçı ilə balıq arasındakı dialoqdakı müşahidə edilən orilinalla tərcümə arasındakı fərqliliklər, fikrimizcə, süjetin gedişatına xələl gətirmir.

Əslində S.Rəhimovun "Gülən balıq" əsərinin, daha doğrusu, balıqçı və balıq hekayətindən istifadə edilməsi səyyar süjetlər orbitinə gəlmir: tam dəyişilmiş süjetdir. Daha çox remeyk janrına yaxındır, yəni hansısa motiv əsasında yeni süjet qurmaq.

Əsas kulminasiya balığın balıqçıya tapşırığı ilə bağlıdır: bir ləyənə su töküb, balığı ora buraxsın və şahın sarayındakı hovuzun yanında yerləşdirsin (burdan balığın gülüşü şahda narahatlıq və suallar doğurmağa başlayır). Ümumiyyətlə, şahın balığa gülüşünün sirrinin açılması ilə bağlı uzun-uzadı yalvarışları (guya şah olaraq bu sirrin səbəbini bilməsə yaşaya bilməyəcəyi) süni təəssürat yaradır.

Ən maraqlısı isə balığın "məqsədidir": "məmləkətin gözünü açmaq". Nağıl janrına müvafiq olmayan kəskin sosial motiv (!). Yenə də nağıl janrının spesifikasına istinadən düşünürük ki (şahın narahatlığı, balığın davranışının sosial islahatlara yönlənməsi, mətləbi uzatması), yalvaran hökmdar obrazı klassik nağıl süjetinə yaddır. Xüsusilə bayağı, ortada şahın arvadınının yüngül əxlaqı və hardansa balığın bunu bilməsi və daim gülüşünün şaha rahatlıq verməməsi, xalqın usyanı və s. janrın spesifikasını dağıdır.

Qayıdaq tərcümə variantına. Tərcümədə fərqlər ixtisarlar, ellipsislər halları, həm də farsizmlərlə bağlıdır: "beçesm", "zəbərcəd dənələri".

Bildiyimiz kimi, milli zərb məsəlləri, atalar sözlərinin çevrilməsi xüsusi önəm daşıyır. Baxın: "Amma elə bir gün gəldi ki, kefi kök, damağı çağ padşahın ovqatına çox acı bir soğan çırtıldı. Bəs necə oldu ki, çox acı bir soğan çırtıldı?" (Tərcümədə: «Однако же наступил такой день, когда у шаха, жившего до селе безмятежно, настроение вдруг омрачилось, в грудь закралась тревога…») Göründüyü kimi, "kefi kök, damağı çağ", "ovqatına çox acı bir soğan çırtıldı" paronimlər rus dilində analoji semantikalı frazemlər tapılmadığına görə, neytral leksikadan istifadə edilərək verilir: безмятежно (daha uyğun olardı: припеваючи), «настроение вдруг омрачилось»). Orijinalda

balıqçının balıqla dialoqu daha lakonikdir, nəinki tərcümədə. Sonuncuda rus nağıllarının üslubunun təsiri hiss olunmaqdadır.

Eyni zamanda "baş hərəmin barigahı" – «резиденция шахини» yaxud "şah" əvəzinə bəzi hallarda "monarx", yəni rus dilində də alınma olan sözlər işlədilir, halbuki elə "şah", "padşah", "hökmdar", habelə "обитательница главногогарема» olmalı idi.

Vəzirə hirslənən şah: "Küt başına daş düşsün!" – «Развалиться бы твоей тупой башке» kimi verilib, halbuki hərfi tərcümə daha yerində olardı ("Пусть камень упадет на твою тупую голову!»). Eyni zamanda, məsələn, "İçi bomboşdur, kəndçilərin çəpərlərində quur tağlarda sallanan qupquru balqabaq kimi bomboşdur!" – «Череп у тебя пустой, как тыква на частоколе» daha yerindədir.

Или шах в гневе велит убраться евнуху, не желающему раскрыть тайну рыбы, обзывая его "tüksüz tülkü" (лысая лиса). Tərcümədə lap təhqiredici söz işlədilir: «укороченный» (qısaldılmış). Bəlkə də, uğurlu variantdır: şahın xacəyə aşağılayıcı münasibətinin ifadəsidir.

S.Rəhimovun "əfsanə" kimi təsnif etdiyi əsərində "prototipi" olan məşhur rus nağılın süjetiylə müqayisədə əslində yalnız "balıq" və "balıqçı"yla bağlı epizod saxlanılıb: "sübh tezdən" balıq ovuna çıxan bir qoca balıqçı torunda ömründə görmədiyi bir balıq görür və balıq danışmağa başlayır. Vəssalam. Burada isə balıq quyruğu üstə qalxıb, şaqqa çəkib gülməyə başlayır. Bu andan sakitliyini itirən padşah vəzir-vəkillərinə balığın gülməyinin sirrini açmağını tapşırır. Və sonrakı süjet uzun-uzadı bu məsələyə həsr edilib. Sonda padşahın balığın özünə yalvarmağına qədər. Çox yalvarışlardan sonra balıq gülməyinin sirrini açmaq üçün padşah qarşısında şərtlər qoyur ki, hökmdar onların icrasının hakimiyyətinə zərər verəcəyinə görə mümkünsüzlüyünü deyir (məhbusları azad etmək, yollar çəkmək, xəstəxanalar, mədrəsələr açmaq və s.).

Balığa səcdə edən camaat ona başçı təklif etməsini xahiş edir. Nəticədə qoca balıqçı məmləkətin başçısı təyin edilir, yan-yörəsini ağıllı vəzir-vəkillər bərkidirlər. Balıq isə onu yenə də dəryaya buraxılmasını istəyir: "Balıq köpüklü dalğalarda üzə-üzə uzaqlaşdı, yenə də dəryaya, yar-yoldaşının yanına getdi, arxadan boylanan min-min adamın gözündən itdi". Tərcümədə sanki rus nağılının finalı xatırlanır.(«Махнула хвостом и ушла себе в морскую глубь».)

Yuxarıda qeyd olunduğu kimi, S.Rəhimovun kiçik janrlı əsərlərinin əksəriyyətinin janr təyinində həm orijinalların, həm tərcümələrin definisiyalarında müəyyən qeyri-müvafiqliq müşahidə edilir (mündəricatda).

Düşünürük ki, bu məsələdə həlledici müəllif özüdür (halbuki bəzi hallarda müəllif də nisbi səhvə yol verə bilir). Bununla belə aydın məsələdir ki, janr məsələsində ciddi səd qoymaq heç də həmişə asan olmur. Yəni bir qədər mübahisəli məsələdir.

İndi gələk "Əfsanələr" bölgüsündə verilmiş "Ovqan və ilan" əsərinə. Qeyd etməliyik ki, hər iki əsəri D.Minkeviç rus dilinə çevirmişdir (ehtimal ki, sətri tərcümə vasitəsiylə), ümumilikdə peşəkar qələmlə. İndi əsərin süjetinin qısa məzmununa diqqət edək. Söhbət Muğanda yaşayan sevdiyi halal zəhmətiylə dolanan, ətrafdakıların hörmətini qazanan Ovqan adlı çobanın adı-sanının yelqanadlı qızıl boz atı olan müdrik Loğmanın bu insana qarşı doğan marağının onu gətirib çobanın qonağı olmasından gedir. Ovqanın geniş qəlbinə, düzlüyünə heyran qalan Loğman bir ay onun qonağı olur, müxtəlif söhbətlər aparır və hamıya etibarlıqla yanaşdığını görərək qəribə narahatlıq keçirir və ona ciddi bir tapşırıq verir ayıq-sayıq olmaqla bağlı: gərək sən ilan-çayandan özünü qoruyub, gözləyəsən! Və eşidəndə ki, Ovqan rastına çıxan heç bir ilanı öldürməyib, çünki qabağına çıxan ilan dil çıxarıb yalmayırdı. Və...bu yerdə Loğmanın dilindən pritçavari mesajı səslənir: "...Atalarımız deyib: İlanın ağına da lənət, qarasına da!" Budur əsərin kulminasiyası! Uzun-uzadı nəsihətlər, tapşırıqlardan sonra Loğman atına minəndə çobana bərk-bərk tapşırır ki, dara düşəndə ona küləklə, buludlarla, günlə, ağır ayaqda ürəyinin səsiylə xəbər göndərsin (nağıl motivi).

Əsərin əvvəlindən nağıl-əfsanə təhkiyəsinin aram səsi gəlir. Orijinalda: "Aran ölkəsinin Muğan elində Ovqan adlı bir çoban vardı. Ovqan çox əliaçıq idi. Ağartısızlara ağartı verir, əlacsız dul arvadlara, yoxsullara qoyunun dişisindən damazlıq paylayırdı". Tərcümədə: «На земле Арана жил некий муж по имени Овган. Был он щедр и великодушен. Не однажды он посылал бедняку –односельчанину или замученной нуждой вдове сыра, молока, простокваши, а случится в доме у бедняка семейное торжество – и целого барана». Bütövülkdə qəhrəmanın səciyyələndirilməsi orijinala uyğundur.

Yalnız bir vacib əlamət "neytrallaşdırılmışdır" tərcümədə: "Ovqan adlı bir çoban – «некий муж по имени Овган».

Halbuki, Ovqanın məhz peşəsinin vurğunu olduğu, sürünün hər qoyununun qədrini bilməsi, onları qoruması, onlarla yaşaması, yoxsullara əl uzatması və s. qəhrəmanın əsas keyfiyyətləridir. Təəssüf ki, məhz "çoban" "некий муж"la əvəzlənir, yəni bir kişiylə.

Loğmandan ayrılanın üçüncü ilində Ovqan qoyunları yaylaqdan arana endirəndə birdən qarşısına qara ilan çıxıb onun üstünə cummaq istədi. Loğmanın sözlərini dilinə gətirən Ovqan çomağı ilə ilanın başını əzmək istəyəndə o, başladı yalvarmağa və bunların arasında maraqlı dialoq baş verdi. And-amandan sonra Ovqan ona inandı, hətta ilanla ülfət bağladı. Ancaq bir müddətdən sonra ovqatı təlx olmağa başladı, gündən-günə halsız oldu, tərpənə bilməyəndə Loğmanı ürəyindən keçirdi ki, dostu tezliklə özünü yetirdi. Ürəyinə dammış kimi, yan-yörəsinə baxan Loğman qapının astanasında, torpaq üstündə əyri-üyrü iz gördü. Lakin dostunun bədənində diş izi tapmadı. Və fikrə getdi: "öz əhdini açıq poza bilməyən ilan çobanın körəyinə xəlvət zəhər damızlayırdı".

Nəhayət, dostuna əcəl tapmayan Loğman dostunu Muğan torpağına tapşırandan sonra onun toppuzbaş çomağını yadigar götürüb yola düşdü. Ovqanın ilinə çomağını götürüb onun qəbrini ziyarətə gəldi. Və burada qəbrin bir yerdən deşildiyini gördü. Getmədi, qaldı, gizləndi. Və bir sabah qara ilanın qəbirdən çıxdığını görən Loğman

Ovqanın çomağıyla – ilanın yalmasalığına məhəl qoymayaraq başını əzdi. İlanın ağına da lənət, qarasına da! – son dəfə deyib boz atının belinə qalxıb Aran ölkəsini tərk etdi.

İndi keçək tərcümə mətninin səciyyəvi fraqmentlərinə. Əsərin əvvəlində Ovqanın işinə vurğunluğu, halallığı, xeyirxahlığı ilə ətrafdakıların rəğbətini qazanan insan kimi zahiri görünüşünü"dolğunlaşdırmağa" sanki ehtiyac duyaraq tərcüməçi onu milli epos qəhrəmanı – Koroğluyla müqayisə edir: « …., осанкой, орлиным взором своим Овган напоминал самого Кероглу». Halbuki orijinalda bu məqam yoxdur.

Tərcümədə Azərbaycan koloritli bəzi ştrixlərin əlavə olunması kontekstində əsərin digər qəhrəmanı Loğmanın "Лукман» kimi verilməsi bir qədər təəccüb doğurur. Heç olmasa müvafiq kiril hərfləriylə Логман verilməliydi. Görünür, D.Minkeviçin Azərbaycan antroponimlərin ümumi isimlərdən törəməsi, yəni antroponimləşmə prosesi haqda məlumatı olmayıb (loğman-ərəb mənşəli söz, xüsusilə əfsanəvi həkim Loğmanın adından törəyib: qabil təbib, bilikli adam).

Əsərin məzmunu göstərir ki, S.Rəhimov qəhrəmanın adını təsadüfən seçməyib. Elə Ovqan özü də bilərəkdən deyir: "Nağıllardan yəqin bilirəm ki, Loğmana ölüm yoxdur". Əsərin bir yeri də tərcüməçiyə kömək edə bilərdi: "Loğman gördü ki, canı-başı sağ-salamat olmaqla Ovqanın misli-bərabəri az tapılar. Necə deyərlər, onun canı buz baltası kimidir. Loğman çoxlarının dərdini müəyyən edib dərman eləmişdi, amma Ovqanda heç bir dərd tapmadı". Tərcümədə: "Поражало врача -исцелителя крепкое, железное здоровье хозяина».

Bu fraqmentin tərcüməsində iki məqam diqqəti çəkir. Birincisi, orijinalda işlədilən "buz baltası kimidir" milli frazeologizmdir ki, rus dilində analoji frazem yoxdur. Tərcümədə mümkün analoq kimi «железное здоровье» işlənib. O ki, qaldı «врача - исцелителя» ifadəsinə qeyd olunmalıdır ki, rus dilində «целитель»,«врач» sözünün sinonimi kimi işlənir, amma «целитель» formasında «исцелять» feilinin substantivasiyası prosesinin nəticəsi kimi. Yəni tərcüməçi orfoqrafik səhvə yol vermişdir. Gərək "Loğman" antroponiminin mənasını öyrənəydi və "Лукман»ı işlətmiyəydi. Hətta bir yerdə Loğmana aidiyyatda rus dilində "врачеватель» (həkimlik edən) sözü işlədilir.

Tərcümədə bir neçə qeyri dəqiqlik də diqqəti çəkir. Biri ilk baxışdan ağlabatandır: "Loğman mühakiməsi ilə müəyyən etdi ki, öz əhdini ağ-açıq poza bilməyən ilan... Ovqanın xörəyinə zərrə-zərrə zəhər damızdırıb, ömrünü azı-azı altmış il azaltmışdı". Tərcümədə: ".. И тогда она сократила дни пастуха тем, что капала …. в пищу его». Əslindətərcümədə "сократила дни его» daha realdır, həmin orijinaldakı azı-azı altmış il". Lakin əsərin janr poetikası yaddan çıxmamalıdır: əfsanəyə real həyatda mümkün olmayan mübaliğə "azı-azı altmış il" işlədilməsi məxsusdur. Eyni yanaşma Loğmanın atı ilə bağlı işlənən "əfsanəvi" epitetlərə aiddir. "Loğman yelqanadlı qızıl boz atına minib, özünü Muğan elinə yetirdi". Tərcümədə: «Он оседлал своего крылатого коняи отправился в путь». Yenə də folklor poetikasına diqqətdən söhbət gedir: eposlardakı qəhrəmanların sehrli atlarına aid işlənən məxsusi epitetlərin saxlanılmasının vacibliyi. ("qızıl boz at")

Düşünürük ki, qeyri-dəqiqliyi qeyd etməklə müşahidələrimizi yekunlaşdırmaq olar. İlanla Ovqanın söhbətlərində növbəti epizodda: "Bu söz-söhbətdən sonra Ovqan toppuzbaşlı çomağını dayandırdı". Tərcümədə: «После этой встречи Овган, попрежнему не оставляя своей дубинки, пас свою отару…» Əslində Ovqan ilanın yalvarışlarına inanıb çomağını dayandırır (останавливает), ilanın başını əzmir, yəni faciəvi səhvə yol verir. Tərcümədə isə "не оставляя своей дубинки (əlindən qoymayaraq) və «пас свою отару» (yəni sürüsünü otarırdı) orijinalda yoxdur, mənası da qeyri-məntiqlidir.

NƏTİCƏ: Qeyd edilən tərcümə yanlışlıqlarının əksəriyyəti "Ovqan və ilan" əfsanəsinin məzmunu, üslubuna ciddi xələl gətirmir. Tərcümədə orijinalda olmayan bir söz diqqəti çəkir: Orijinalda: "Dostunu torpağa tapşırdıqdan sonra Loğman onun çomağını yadıgar götürür, atına süvar olub gedir. Bir bölük qoyun qəbrin yan-yörəsində mələşə-mələşə qaldı". Tərcümədə: «Сирое стадо обступило могилу, и жалобное блеяние разносилось далеко окрест -по муганской земле». Orijinalda olmayan "сирое", yəni "yetim qalmış" və «жалобное блеяние разносились окрест по муганской земле». Əslində son cümlə Ovqanın həyatını həsr etdiyi dəyərləri canlandırır və bir növ, təhkiyənin başlanğıcına qaytararaq əfsanənin əsas motivini qapadır, daha bütöv edir. Lakin süjet boyu səslənən "İlanın ağına da lənət, qarasına da!" leytmotivi belə çevrilib: «Да будет проклята и белая и черная змея!» Əks tərcüməsi: "Ağ və qara ilana lənət olsun!" Halbuki bu xalq deyimində bir incəlik var: "İlanın ağına da lənət, qarasına da!" Deməli, rus dilində dəqiq mənası budur: "Да будет проклята змея: как белая, так и черная!» Söhbət rəngindən asılı olmayaraq hər bir ilana lənətdən gedir.

Əlbəttə, bu və ya digər əfsanə, nağılın tərcüməsinin təhlili hər bir cümlənin, abzasın müqayisəsini (orijinal-çevirmə) nəzərdə tutmur, çünki bu, yorucu və qeyri-produktiv üsuldur. Kifayətdir ki, orijinal və tərcümənin səciyyəvi fraqmentlərinin müqayisəsi nəticəsində əsərin süjet-hədəf, motiv, üslubi ab-havasını dərk edib müvafiq qənaətlərə gəlmək. Bu baxımdan düşünmək olar ki, D.Minkeviç S.Rəhimovun hər iki əfsanəvari əsərini, bəzi səhvlərə baxmayaraq (bu mümkünsüzdür), rus dilinə bütövlükdə uğurlu çevirmişdir.

İstifadə edilmiş ədəbiyyat

1.Süleyman Rəhimov. Seçilmiş əsərləri, I cild. Bakı, "Şərq-Qərb", 2005;
2.Сулейман Рагимов. Избранные произведения, т. II. Москва, «Художественная литература», 1972.

Сара Юсиф кызы Османлы
Институт литературы имени Низами Гянджави,
Национальная академия наук Индии
Старший научный сотрудник, доктор филологических наук
sara.osmanli@mail.com

https://orcid.org/0009-0002-2571-5822

Рассказы-притчи Сулеймана Рагимова в русском переводе

Резюме

Целью настоящей статьи является оценка русских переводов притчеобразных рассказов народного писателя Азербайджана Сулеймана Рагимова (“Gülən balıq” – «Рыба хохочет», “Ovqan və ilan” – «Овган и змея»)

Сравнительный анализ текстов оригинала и перевода фокусируется на соотнесенности сюжетной линии, стилистики, лексики текстов.

В целом переводы Д.Минкевича могут быть положительно оценены в плане жанрово-стилевой соотнесенности.

В ряду переводческих издержек отмечены некоторые (допустимые) эллипсисы, а также нежелательные случаи нейтрализации релевантных лексем (например, çoban – некий муж), вестернизации титула восточного правителя (şah –монарх) и т.д.

Ключевые слова: притча, сказка, оригинал, перевод, повествование, стиль, бродячие сюжеты, нейтрализация, эллипсисы, вестернизация, жанрово-стилевая соотнесенность.

Sara Yusif Osmanli
Chief Research Fellow at the Nizami Ganjavi Institute
of Literature of the Azerbaijan National Academy of Sciences (ANAS),
Doctor of Philological Sciences.
sara.osmanli@mail.com
https://orcid.org/0009-0002-2571-5822

Parable Stories of Suleyman Rahimov in Russian Translation

Abstract

The purpose of this article is to analyze and evaluate the Russian translations of the parable stories by the People's Writer of Azerbaijan, Suleyman Rahimov, namely *Gülən balıq* ("The Laughing Fish") and *Ovqan və ilan* ("Ovgan and the Snake").

The comparative analysis of the source texts and their Russian translations focuses on the correspondence of the plot structure, stylistic features, and lexical choices.

Overall, D.Minkevich's translations can be assessed positively in terms of preserving the genre and stylistic characteristics of the original texts.

Among the translation losses, the study identifies several (acceptable) cases of ellipsis, as well as undesirable instances of the neutralization of semantically significant lexical units (for example, *çoban* rendered as "a certain man"), the westernization of the title of an Eastern ruler (*şah* rendered as "monarch"), and other deviations from the original.

Keywords: parable, fairy tale, original text, translation, narration, style, wandering plots, neutralization, ellipsis, westernization, genre and stylistic equivalence.

Rəyçi: prof. L.Əhyədova

DOI: 10.24412/2218-7588-2026-2-164-167

Ofelya Nəsib qızı Piriyeva
Pedaqogika üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının dosenti
Email: ofelyapiriyeva@bsu.edu.az
ORCİD İD: https://orcid.org/0009-0009-5175-8886

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN DRAMATURGİYASINDA NOVATORLUQ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ: Məqalədə Azərbaycan ədəbiyyatının görkəmli nümayədəsi, dramaturq Əbdürrəhim bəy Haqverdiyevin dram əsərlərindəki novatorluq xüsusiyyətlərindən bəhs olunur. Sənətkarın Azərbaycan dramaturgiyasına gətirdiyi yeni tip yaratma modeli, real həyat və ideal axtarışı problemlərindəki yanaşmaları müasir elmi-nəzəri baxışla təhlil edilir. Təqdim edilən nəzər fikirlər həm bu sahədə tanınmış tədqiqatçıların mülahizələrinə istinadlarla təsdiqlənir, həm də dramaturqun pyeslərindən gətirilən konkret nümunələrlə əsaslandırılır. Belə qənaətə gəlinir ki, Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında və teatrşünaslığında yeni bədii meyarları və orijinal obrazlar sistemi ilə mühüm bir mərhələ təşkil edir.

Açar sözlər: Azərbaycan ədəbiyyatı, Əbdürrəhim bəy Haqverdiyev, dramaturgiya, faciə, novatorluq

GİRİŞ: XX əsrin əvvəllərində milli təfəkkürün formalaşmasında, inkişafında və yeni mərhələyə qədəm qoymasında mühüm xidmətləri olan sənətkarlardan biri də məhz Azərbaycan ədəbiyyatının görkəmli ədibi Əbdürrəhim bəy Haqverdiyevdir. Onun istər dramaturgiya, istərsə də nəsr yaradıcılığında novatorluq xüsusiyyətləri özünü göstərməkdədir. Belə xüsusiyyətləri öyrənmək milli bədii təfəkkürün daha da inkişafı baxımından hər zaman aktualdır. Tədqiqatın məqsədi də sənətkarın yaradıcılığında özünü göstərən belə novatorluq xüsusiyyətləri arasdırıb sistemə salmaqdır.

Əsas hissə. Qeyd olunduğu kimi, Ə.Haqverdiyev Azərbaycan ədəbiyyatında müstəsna xidmətləri olan sənətkarlardan biridir. O bütün növ yaradıcılığında özündən əvvəl mövcud olmuş ədəbi ənənələri sadəcə davam etdirməklə, yəni mövcud ənənələrə təkcə sadiq qalmaqla kifayətlənməmiş, həmçinin yaşadığı dövrün tələblərini də nəzərə alaraq bir sıra yeniliklərə - ilklərə imza atmışdır. İ.Həbibbəyli Ə.Haqverdiyevin ədəbiyyatımızdakı xidmətlərindən bəhs edərək vurğulayır ki, "Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan ədəbiyyatının tarixinə yumoristik bədii nəsrin, masal-dramın, memuar pyesin, hekayələr və yaddaqalan felyetonların yaradıcısı kimi daxil olmuşdur. Azərbaycanda ictimai fikrin və mədəni hərəkatın inkişafında da Əbdürrəhim bəy Haqverdiyevin böyük xidmətləri olmuşdur" [1, s. 402]. İ.Həbibbəylinin də qeyd etdiyi kimi, Ə.Haqverdiyevin ədəbi mühitimizdə böyük xidmətləri olmuş, tənqidi-realist ədəbiyyatda fərqli ədəbi sima kimi dəyərləndirilmişdir. Belə ki, Ə.Haqverdiyevin təkcə ədəbiyyatımızda deyil, Azərbaycanın teatr sənətinin inkişafında da böyük xidmətləri var. Təsadüfi deyildir ki, Şərqdə ilk operanın ("Leyli və Məcnun") dirijoru da məhz Əbdürrəhim bəy Haqverdiyev olmuşdur.Yaşadığı müddətdə xalqının, vətəninin hər cəhətdən inkişafı naminə əlindən gələni etmiş, yorulmadan çalışmış, yazıb-yaratmışdır. Məhz buna görə də ədib bütün yaradıcılıq prosesində novatorluğu ilə diqqət çəkir. Göstərilənlərə əsaslanaraq sənətkarın yaradıcılığındakı novatorluğu iki qrupa ayırmaq mümkündür:

1. Əbdürrəhim bəy Haqverdiyevin dramaturji yaradıcılığında novatorluq xüsusiyyətləri
2. Əbdürrəhim bəy Haqverdiyevin bədii nəsr yaradıcılığında novatorluq xüsusiyyətləri

Qeyd edək ki, biz burada birinci istiqamət əsasında ədibin dramaturgiyasında novatorluq xüsusiyyətlərindən bəhs edəcəyik. Belə ki, Ə.Haqverdiyev Azərbaycan ədəbiyyatı tarixində dram əsərləri yazan dramaturq kimi yüksək qiymətləndirilən sənətkarlardandır. Onun bir-birindən məzmun və bədiiliyinə görə fərqlənən, özünəməxsus cəhət və keyfiyyətlərə malik olan pyesləri (dram əsərləri)hazırkı dövrümüzə gəlib çatmışdır. Dramaturqun ilk dram əsəri "Yeyərsən qaz ətini, görərsən ləzzətini" adlandırdığı pyesidir. Bu əsərdə dramaturq dövrünün bəzi önəmliproblemlərinə yer verərərk, belə problemləri bədii-yumoristik və ya komik bir dillə oxucu və tamaşaçılarının diqqətinə çatdırır. Bu əsərdə dramaturqun toxunduğu problemlərə münasibət bildirən T.Salamoğlu yazır ki, "Ədəbiyyatşünaslıq ...pyesi çoxarvadlılığın tənqidinə, Azərbaycan qadınlarının hüquqsuzluğuna həsr edilmiş əsər kimi tənqid-təhlil süzgəcindən keçirir. Tədqiqatlarda pyesin "eyni zamanda gənc müəllifin yaradıcılıq istedadından xəbər verən ilk qığılcım kimi" dəyərləndirilməsi diqqəti çəksə də, onunla müəllifin sonrakı əsərləri arasındakı ideya-bədii əlaqənin müəyyənləşdirilməsinə o qədər də meyil edilmir. Ən yaxşı halda bu əsərlə Haqverdiyevin digər dramları qadın hüquqsuzluğu müstəvisində müqayisə olunur" [6, s. 254-255]. Göründüyü kimi, Ə.Haqverdiyevin ilk dram əsəri olan bu pyesdə ədib dövrün ən aktual problemlərindən biri olan qadın hüquqsuzluğuna diqqət çəkmiş, cəmiyyətdə özünü göstərən çoxarvadlılığı tənqid etmişdir. Lakin maraqlı cəhət ondan ibarətdir ki, sənətkarın sonrakı yaradıcılığında çoxarvadlılıq məsələsinə rast gəlinmir.

Göründüyü kimi, yaradıcılığa dram əsərləri ilə qədəm qoyan sənətkar elə ilk yeniliklərinə də dram əsərləri ilə başlamışdır. Onun ilk əsərlərindən olan "Dağılan tifaq" faciəsində sənətkar xüsusi bir yol seçmiş yuxu səhnəsini yazmaqla gələcək hadisələrə işarə etmişdir. Belə ki, əsərdə Ə.Haqverdiyev Sona xanımın yuxusunu təsvir edir və onun vasitəsilə Nəcəf bəyin yurdunun viranə qalacağı ilə oxucusunu tanış edir. Bununla da o, Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq rəmzi mənalarla əsərin sonluğuna işarə etmiş olur. Başqa sözlə, "Süjetin fəci həllində mühüm rol oynayan, Nəcəf bəyin, onun ailəsinin və xanimanının gələcək taleyindən xəbər verən yuxu dərin rəmzi məna daşıyır, hadisələrin labüd faciəli sonluqla bitəcəyini göstərir. Dünya klassik dramaturgiyasında geniş istifadə olunan bu təsirli, effektli bədii detalı Azərbaycan dramaturgiyasında ilk dəfə Ə.Haqverdiyev gətirmişdir" [2, s. 192]. X.Əlimirzəyevin də vurğuladığı

kimi, yuxu əsərdə rəmzi anlamda işlədilmiş, bununla da oxucunu ədib Nəcəf bəyin taleyinin necə olacağı ilə tanış etmişdir. Qeyd edək ki, dünya dramaturgiyasında bu metoddan geniş şəkildə istifadə olunurdu və Ə.Haqverdiyevin də ona müraciət etməsi təsadüfi deyildir. Sənətkar Peterburq mühitində dünya klassiklərinin əsərləri ilə yaxından tanış olmuş, bu təsirli bədii vasitəni öz əsərlərində ustalıqla əks etdirməyi bacarmışdır.

Bəlli olduğu kimi, faciə janrı ədəbi mühitdə realizmin güclənməsi ilə əlaqədar yazılmağa başlanmışdır. Realizmə söykənən bu ədəbi janrda cəmiyyətin problemləri qabardılır və iki qütb (real həyatla sənətkarın idealı) bir-biri ilə qarşılaşdırılır. Yəni yaradılan faciə qəhrəmanının arzuları, idealları ilə mövcud zaman və onun səhv qayda-qanunları arasında böyük bir uçurum yaranmış olur. Buna görə də faciələr sonda mütərrəqi qüvvələr və yeniliyi ifadə edən obrazların faciəsi ilə yekunlaşır. Y.Qarayev də Azərbaycan ədəbiyyatında faciə janrına xüsusi diqqət ayırmış, onun yaranma, formalaşma və inkişafını realizmlə əlaqələndirmişdir. Alim belə yazır: "Burada mövzu bilavasitə xalqın həyatından alınır; milli məişət, əxlaq və mədəniyyət məsələləri qaldırılır; ictimai azadlıq, demokratizm və maarifçilik məfkurəsi geniş yer tutur. Ədəbiyyat tariximizdə realizmin formalaşdığı dövrün bütün ümdə cəhətləri özünü faciə əsərlərində də göstərir. İlk faciələrin meydana çıxması ilə dramaturgiyada tənqidi realizmin yeni klassik nümunələri yaranır" [4, s. 83]. Yaşar Qarayevin mövcud fikirlərinə əsaslanaraq qeyd edə bilərik ki, cəmiyyətdə baş verən problemlər, böyük faciələr köhnə adətlər, dünyagörüşlərin toqquşmasının nəticəsində yaranır və burada mövzu birbaşa xalqın real həyatından götürülür. Məhz bu səbəbdən də Azərbaycan dramaturgiyasında yaranmış faciələrin əsas mövzusu mülkədarlıq və onun süqutunun təsviridir. Buna görə də Ə.Haqverdiyevin əsas qəhrəmanı mülkədar Nəcəf bəydir. O bütün gününü kef və qumar məclislərində keçirir. Bütün günü sərxoş olur və həyatı kefdə damaqda görür. Deməli, sənətkar Nəcəf bəyin fəlakətini onun mülkədarlığı ilə bağlayır. Bu əsər yazıçının ilk yaradıcılıq nümunəsi olduğu üçün sadəcə mülkədarlığın tənqidi ilə tamamlanır. Amma faciə janrında yazılan bu əsəri onun yaradıcılığında ilk dolğun əsər hesab etmək olar. Şübhəsiz ki, pyesdə dramaturq yaşadığı dövrün xüsusiyyətlərini qələmə almış, dövrün, mühitin eybəcərliklərini təsvir etmişdir. Əsərin bu cəhətinə diqqət yetirən X.Əlimirzəyev yazır: "...Faciədə təsvir olunan hadisələr XIX əsrin sonlarındakı Azərbaycan şəraiti, xüsusilə o dövrkü mülkədar-bəy həyatı üçün olduqca tipik və səciyyəvidir. Tariximizin və milli həyatımızın xarakterik mərhələlərindən birinə həsr olunmuş bu faciədə müəyyən ictimai, obyektiv səbəblər üzündən əvvəlki hakimiyyətini, idarə sistemini, iqtisadi, siyasi imtiyazlarını itirmiş mülkədar sinfini daxildən didib parçalayan, tədricən iflasa, mənəvi tənəzzülə, ölümə aparıb çıxardan ziddiyyətlər böyük ustalıqla ümumiləşdirilmişdir"[2, s. 185-186].Qeyd olunanlara əsasən deyə bilərik ki, əsərdəədib obrazların daxili aləmini açmaq, onların xarakterik xüsusiyyətlərini aydınlaşdırmaq üçün tipi öz dili ilə danışdırmaq üslundan məharətlə istifadə etmişdir. Aslan bəy, Səlim bəy, Həmzə bəy kimi mülkədarların dili kobud ifadələrlə, qarğış və söyüşlərlə doludur. Onların pulu çox olsa da, tərbiyə, əxlaq, namus cəhətdən çox yoxsuldurlar. Onlar nüfuzlu bəy nəslindən olmaqlarına baxmayaraq cəmiyyətin ciddi problemləri ilə deyil, əksinə eyş-işrətlə məşğul olurlar. Halbuki XIX əsrin sonlarında Azərbaycanın ictimai mühitində çoxlu problemlər var idi. Savadsızlıq, ictimai mühitdə geriləmə, köhnə idarə üsulu, kəndlilərin problemləri və s. Mülkədarları isə bu problemlər maraqlandırmırdı. Onlar bütün günü kefdə damaqda, qumar oynamaqda idilər.

Ə.Haqverdiyevin ədəbi yaradıcılığını təhlil etdikdə aydın olur ki, onun yaratdığı hər bir ədəbi nümunədə bir yenilik özünü göstərir. Sənətkar bəzən elə əsərin ilk pərdəsindən oxucusuna baş verən hadisələr haqqında məlumat ötürür. K.Məmmədov ədibin yaradıcılığında bu cəhətə diqqət yetirərkən yazır: "Faciə bir sənət əsəri kimi ustalıqla yazılmışdır. Beş məclisdən ibarət olan faciənin ilk məclisi bir komediyanı xatırladır. Nəcəf bəy təkdir, öz əqidəsinə uyğun həsb-hal edir. Bu vaxt qumar dostları Həmzə bəy, Səlim bəy, Aslan bəy otağa daxil olurlar və lağlağıya başlayıb, bir-birinə sataşırlar... Elə faciənin ilk sədalarını da birinci məclisin sonunda Sona xanımın dilindən eşidirik: "Yenə qumar .... Yazıq mənim canım... Görəcəkli günlərim varmış"" [5, s. 24]. Göründüyü kimi, Nəcəf bəyin simasını elə ilk pərdədən açan sənətkar bu yolla növbəti mərhələnin hansı səpkidə davam edəcəyi ilə bizi tanış edir. Nəcəf bəy dünyanı keflə yaşamaqda görür və bu işdə o, dostları ilə həmfikirdir. Amma onun ailəsi, xüsusilə xanımı Sona onun qumara qurşanmağından şikayətlənir.

Əsərdəki hadisələri bir-biri ilə bağlayan Ə.Haqverdiyev ikinci məclisi birinci məclislə doğru şəkildə əlaqələndirir. İkinci məclis Sona xanımın şikayəti ilə başlayır. O, zəmanədən şikayət edir. Bu da birinci məclisin məntiqli davamı hesab oluna bilər.

Pyesdə Sona xanımın dilindən Allaha müraciətlə verilən fikirlər[3, s. 57-58] də onun timsalında XIX əsr Azərbaycan qadınlarının həyat tərzini, onların necə hüquqsuz vəziyyətdə olduğunu göstərir. Əslində bu təkcə Sona xanımın deyil, dövrünün bütün qadınlarının üsyanı idi. Söylədiyimiz bu fikirlər Y.Qarayevin də araşdırmalarında təfsilatı ilə əks olunur: "Sonanın faciəsi, ümumiyyətlə, o dövrkü Azərbaycan qadınının faciəsdir. Bu faciə qadının ailədə və cəmiyyətdəki mövqeyidir, qadınlar haqqında əsrlərdən bəri mövcud olan dini, əxlaqi, hüquqi görüşlər və normalardır" [4, s. 112].

Daha sonra hadisələr yüksələn xətlə inkişaf etməyə başlayır. K.Məmmədov əsərin ikinci məclisini belə canlandırır: "İkinci məclis Sona xanımın əllərinin yuxarı qaldırıb zəmanədən şikayəti ilə başlayır. Sonra biz onun gördüyü pis yuxunu eşidir, Nazlı xanımın qarğışını dinləyirik. Qəmləndirici hadisələr bir-birinin dalınca baş verir. Dərvişin nəsihətamiz sözləri qəmli oxuması qurtarmamış intiqam alovu ilə otağa soxulmuş Kərimin bağırtısı eşidilir. O, bacısına sataşmış Süleymanı izləyir. Pərdə ata-oğulun didişməsi ilə bitir" [5, s. 24]. Sonrakı məclislər də bir-biri ilə əlaqəli şəkildə davam edir, Süleyman bəy öldürülür. Dördüncü məclisdə dəhşətli hadisələr ard-arda bir-birini izləyir. Süleymanın ölüm xəbəri gəlir, Sona xanım ölür. Nəhayət, beşinci məclisdə əsl dağılan tifaqla üzləşirik. Nəcəf bəyin hər şeyi dağıdılmış, tifaqı yerlə bir olmuşdur. Sənətkar sonluğu da maraqlı şəkildə qurmuş, Nəcəf bəyi ildırım vurur və ölür.

Qənaətmizcə,əsər yüksək sənətkarlıq xüsusiyyətləri ilə qələmə alınmışdır. Dramaturq pyesi məharətlə qurmuş, yazdığı bütün pərdələri bir-biri ilə əlaqələnmişdir.

Qeyd edək ki, Ə.Haqverdiyevin əsərlərində tərbiyəvi-əxlaqi motivlər geniş planda təsvir edilmişdir. Əslində bununla dramaturq ailə dəyərlərinin necə olduğuna diqqət çəkir. Pyesin məzmunu əvvəldən axıra kimi əxlaqi dəyərlər üzərində qurulur. Başqa sözlə, "Müəllif "ailə dramı"nı sonadək əxlaqi müstəvidə davam etdirir. İnsanın öz həyat yolunda buraxdığı səhvlərin acı nəticələrini çəkəcəyi realist planda və inandırıcı əks olunur. Nəcəf bəyin bir obraz kimi faciəviliyi buraxdığı səhvlərin miqyassızlığından yaranır. Buraxılan səhvlərin hüdudsuzluğu onunla müəyyənləşir ki, o təkcə öz ailəsinin tifaqının dağılmasının səbəbkarı deyil. Çox tifaqların dağılmasına səbəb olması, "evlər yıxması, yetim uşaqların gözlərinin yaşlarını tökdürməsi" onun günahlarını bağışlanmaz edir"[6, s. 263].

Mübağiləsiz şəkildə söyləmək mümkündür ki, Ə.Haqverdiyevin hər bir əsərində bir yenilik və ya mövcud yeniliyin özünə də yeni baxış vardır. Bu baxımdan "Bəxtsiz cavan" faciəsi də kənarda qalmır. Y.Qarayev faciəni xarakterizə edərkən yazır: "Bəxtsiz cavan"ın, Azərbaycan faciəsinin inkişafı tarixindəki xüsusi əhəmiyyəti odur ki, Ə.Haqverdiyev burada ilk dəfə olaraq dövrün əsas ictimai konfliktini, özü də aydın ideya-sinfi mövqelərdən öz faciəsinin əsasına qoymağa təşəbbüs edir..." [4, s. 121].

"Dağılan tifaq" əsərindən fərqli olaraq burada Ə.Haqverdiyevin yaradıcılığında nisbətən irəliləyiş baş verir. Yəni ki ədib bu dəfə mülkədarlıq mövzusuna toxunsa da, mövzuya tamamilə fərqli aspektdən yanaşmışdır. Mülkədar ailədən çıxsa da, Fərhad əsl ziyalı idi. O, doğulduğu kənddə cəhaləti görürdü və ora yenilik gətirmək istəyirdi. Kəndlilərin ağır və acınacaqlı həyatını görən ziyalı onları zülmdən qurtarmaq istəyirdi. Mülkədar ailəsindən çıxmasına baxmayaraq o, mülkədar qayda-qanunlarına qarşı çıxır.

Əlbəttə ki, bu fikirlər maarifçi Fərhad obrazını oxucunun gözündə daha da böyüdür, onun kənddə yeni bir qayda-qanun yaradacağına inam yaradır. Lakin əsərin sonrakı mərhələsində Fərhad obrazının zəif tərəfləri göstərilməyə başlayır. Lakin Fərhad sonda intihar etsə də, əslində onun səpdiyi toxumlar ölmədi. Fərhaddan sonra gələn nəsillər onun arzusunu reallaşdırdı.

NƏTİCƏ: Azərbaycan ədəbiyyatı tarixində Ə.Haqverdiyevin yaradıcılığı, xüsusilə də dramaturji yaradıcılığı böyük bir hadisədir: bir sıra əsaslı yeniliklər burada özünü göstərməkdədir. Sənətkarın pyeslərindəki yeniliklər həm janr, həm obrazların psixoloji yaşantıları, həm də hadisələrin xronologiyası baxımından diqqət çəkməkdədir. Beləliklə, qeyd edə bilərik ki, Əbdürrəhim bəy Haqverdiyev özünə qədər olan mövcud dramaturji ənənələrə xələl gətirmədən dövrünün problemlərini zamanın tələblərinə uyğun şəkildə müasirləşdirmiş, milli təfəkkür və milli teatr düşüncəsinə uyğun yeniliklər gətirmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. On cilddə, altıncı cild. Azərbaycanda tənqidi realizm və romantizm epoxası. Bakı: Elm, 2022, 1168 s.
2. Əlimirzəyev X. Klassiklərimizin ideal və poetik sənət dünyası. 2 cilddə. II c. Bakı: Elm və təhsil, 2009, 668 s.
3. Haqverdiyev Ə. Seçilmiş əsərləri. 2 cilddə. I c. Bakı: Lider, 2005, 504 s.
4. Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə. I c. Bakı: Elm, 2015, 668 s.
5. Məmmədov K. Ə.Haqverdiyev. Bakı: Gənclik, 1970, 110 s.
6. Salamoğlu T. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri (Dərs vəsaiti). Bakı: Elm və təhsil, 2021, 664 s.

Ofelya Nasib gizi Piriyeva
PhD in Pedagogy
Associate Professor at the Department of Azerbaijani Linguistics, Baku State University
Email: ofelyapiriyeva@bsu.edu.az
ORCİD İD: https://orcid.org/0009-0009-5175-8886

Innovational Features in Abdurrahim bey Hagverdiyev's Dramaturgy

Summary

The article discusses the innovative features in the dramatic works of Abdurrahim bey Hagverdiyev, a prominent figure in Azerbaijani literature. The author's approach to the new model of character creation, real-life issues, and the search for an ideal is analyzed through a modern perspective. The presented theoretical ideas are confirmed both by references to scholars distinguished by their scientific views in this field and by providing specific examples from the playwright's plays. It is concluded that Abdurrahim bey Hagverdiyev's dramatic works constitute an important stage in Azerbaijani literary and theater studies with their new artistic criteria and images.

Keywords: Azerbaijani literature, Abdurrahim bey Hagverdiyev, dramaturgy, tragedy, innovation

Офелия Насиб гызы Пириева
Доктор философии по педагогике
Доцент кафедры азербайджанского языкознания Бакинского государственного университета
Email: ofelyapiriyeva@bsu.edu.az
ORCİD İD: https://orcid.org/0009-0009-5175-8886

Инновационные особенности в драматургии Абдуррагим-бека Ахвердиева

Резюме

В статье рассматриваются инновационные особенности в драматических произведениях выдающегося представителя азербайджанской литературы, драматурга Абдуррагим-бека Ахвердиева. С современной научно-теоретической точки зрения анализируются выведенная мастером новая модель создания типажа в азербайджанской драматургии и его подходы к проблемам реальной жизни и поиска идеала. Представленные теоретические взгляды подтверждаются как ссылками на мнения известных исследователей

в этой области, так и обосновываются конкретными примерами из пьес драматурга. Делается вывод о том, что творчество Абдуррагим-бека Ахвердиева составляет важный этап в азербайджанском литературоведении и театроведении благодаря новым художественным критериям и оригинальной системе образов.

Ключевые слова: азербайджанская литература, Абдуррагим-бек Ахвердиев, драматургия, трагедия, инновационность.

RƏYÇİ: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-168-171

Leyla Ziyafət qızı Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya fakültəsi, müəllim
Email: leylamuzi@gmail.com
ORCID İD: 0009-0006-9057-9205

20-50-Cİ İLLƏR POEZİYASINDA ROMANTİZM ƏNƏNƏLƏRİNİN TƏZAHÜRÜ: Ə.CAVAD, S.VURĞUN VƏ M.MÜŞFİQ YARADICILIĞI ƏSASINDA

XÜLASƏ: XX əsrin 20-50-ci illəri Azərbaycan ədəbiyyatının ideoloji baxımdan mürəkkəb inkişaf mərhələlərindən biri kimi xarakterizə olunur. Bu dövrdə sosialist realizmi rəsmi yaradıcılıq metodu statusu qazansa da, romantizm ənənələri poeziyanın bədii-estetik sistemində öz mövcudluğunu davam etdirmiş, dövrün ictimai-siyasi reallıqlarına uyğun yeni məzmun və ifadə formaları qazanmışdır. Məqalədə həmin dövr Azərbaycan poeziyasında romantik düşüncənin əsas təzahür istiqamətləri Əhməd Cavadın, Səməd Vurğunun və Mikayıl Müşfiqin yaradıcılığı timsalında müqayisəli və elmi-nəzəri aspektdən araşdırılır. Araşdırmanın nəticələri göstərir ki, romantizm ənənələri sosialist realizminin ideoloji çərçivələri daxilində müəyyən transformasiyaya uğrasa da, öz estetik mahiyyətini itirməmiş, adları qeyd olunan şairlərin yaradıcılığında Azərbaycan poeziyasının ideya-bədii inkişafını zənginləşdirən mühüm amillərdən biri kimi çıxış etmişdir.

Açar sözlər: cərəyanlar, romantizm, sosrealizm, Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq.

GİRİŞ: Azərbaycan ədəbiyyatında romantizm XIX əsrin sonu – XX əsrin əvvəllərində formalaşaraq milli bədii-estetik fikrin aparıcı istiqamətlərindən biri kimi öz mövqeyini möhkəmləndirmişdir. Bu ədəbi cərəyan fərdin mənəvi aləminin, azadlıq ideallarının, Vətən sevgisinin, milli özünüdərk hissinin və yüksək mənəvi dəyərlərin bədii ifadəsinə geniş imkan yaratmışdır. "Ədəbiyyatımızın bəzi növlərində ədəbi ənənələrimiz zəif olsa da, lirika sahəsində biz elə zəngin ədəbi irsə malikik ki, bir çox xalqlar bizə ancaq qibtə edə bilər" [1, s. 317]. Lakin XX əsrin 20-ci illərindən etibarən ölkədə baş verən ictimai-siyasi dəyişikliklər və sovet hakimiyyətinin ideoloji prinsiplərinin ədəbi mühitə təsiri nəticəsində Azərbaycan ədəbiyyatı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə sosialist realizmi rəsmi yaradıcılıq metodu kimi qəbul edilmiş və ədəbiyyatın ideya-məzmun istiqamətini müəyyənləşdirən əsas estetik prinsipə çevrilmişdir. Bununla belə, yeni ideoloji sistem romantik ənənələrin tamamilə aradan qalxmasına səbəb olmamışdır. Əksinə, romantik təfəkkür dəyişən ictimai şəraitə uyğunlaşaraq yeni bədii məzmun qazanmış və müxtəlif formalarda yaşamağa davam etmişdir. Romantizmin əsas idealları – gələcəyə inam, yüksək mənəvi keyfiyyətlərə malik qəhrəman obrazı, insanın daxili aləminin zənginliyi və ideal cəmiyyət arzusu sosialist realizmi poetikası daxilində yeni interpretasiya qazanaraq "inqilabi romantika" anlayışı ilə ifadə olunmuşdur. Beləliklə, romantik poetika sosialist realizminin müəyyən estetik komponentlərindən birinə çevrilmiş, dövrün ideoloji tələbləri ilə uzlaşdırılmış şəkildə inkişaf etdirilmişdir.

ƏSAS HİSSƏ: Sosialist realizminin kəskin ideoloji tələblərinə baxmayaraq, bədii sənətdə, xüsusilə də poeziyada romantik duyum, yüksək pafos, ideal obrazlara meyl və emosional ifadə gücü öz aktuallığını qoruyub saxlaya bilmişdir. Bu mərhələdə romantizm klassik mənada fərdi üsyan və mistik tənhalıqdan uzaqlaşaraq, daha çox ictimai məzmun kəsb etmişdir. Romantik qəhrəman artıq təkcə fərdi hisslərin daşıyıcısı deyil, həm də yeni cəmiyyətin qurucusu kimi təqdim olunurdu.Gələcəyə nikbin baxış, əmək və insanın ideallaşdırılması, vətənpərvərlik motivləri romantik poetikanın əsas dayaqlarına çevrilmişdir. "İnqilabi romantizm varlığımızın qələbələrini, kapitalizm əleyhinə apardığımız mübarizəni, quruluşumuzun gələcəyini göstərir" [6, s. 129].

Ə.Cavad yaradıcılığında romantizm ənənələrinin təzahür xüsusiyyətləri. Ə.Cavad poeziyasında romantizmin izləri özünü ilk növbədə Vətən anlayışının ideallaşdırılmasında göstərir. Şair üçün Vətən yalnız coğrafi məkan deyil, xalqın tarixi yaddaşını, milli ruhunu və mənəvi dəyərlərini özündə birləşdirən müqəddəs varlıqdır. Bu baxımdan onun şeirlərində Vətən obrazı yüksək poetik pafosla təqdim olunur və milli istiqlal ideyasının əsas daşıyıcısına çevrilir. Romantik poeziyaya xas olan idealın ucaldılması Ə.Cavadın Vətən mövzusunda yazdığı şeirlərininin aparıcı xüsusiyyətlərindəndir:

Coşmuşdu yürəyim, şişmişdi başım,
Zülmkar olmusan, axıdıb yaşım!
Ey gözəl Vətənim, ey dağım-daşım,
Bir sazım olsaydı söylərdim sana [2, s. 222].

Eyni zamanda, şairin yaradıcılığında azadlıq ideyası romantizmin əsas ideya istiqamətlərindən biri kimi çıxış edir. "Şairin yaradıcılığı romantik ruhu, vətənpərvərlik motivləri və azadlıq ideyaları ilə seçilir" [5, s. 454].

Ə.Cavadın poetik irsində romantik poetikanın mühüm elementlərindən biri də təbiət təsvirləridir. Şair təbiəti sadəcə bədii fon kimi deyil, insanın daxili aləmini əks etdirən canlı poetik məkan kimi təqdim edir:

Dumanlı dağların yaşıl qoynunda,
Bulmuş gözəllikdə kamalı Göy göl!
Yaşıl gərdənbəndi gözəl boynunda,
Əks etmiş dağların camalı Göy göl! [2, s. 230]

Şairin dil və üslubu da romantik poetikanın təsirini aydın şəkildə əks etdirir. Güclü emosional ifadə, yüksək poetik pafos, obrazlılıq, simvolik düşüncə və lirizmin üstünlüyü onun yaradıcılığının səciyyəvi xüsusiyyətlərindəndir. Bu poetik keyfiyyətlər romantik düşüncə tərzinin bədii ifadəsini daha da qüvvətləndirir.

S.Vurğun yaradıcılığında romantizmin izləri. Azərbaycanın görkəmli şairi S.Vurğunun yaradıcılığı 20-50-

ci illər romantizm ənənələrinin ədəbiyyatda davam etdirilməsinin ən bariz örnəklərindəndir. Onun şeirlərində romantik pafos, yüksək ideallar və gələcəyə inam əsas aparıcı xətt kimi çıxış edir. Şairin lirikasında Vətən, insan, əmək və zaman anlayışları romantik ümumiləşdirmə yolu ilə təqdim olunur. **"**… lakin mən inanıram ki, poeziya romantik və yüksək üslubsuz da keçinə bilməz, çünki romantika bizim daima irəliyə doğru inkişaf edən həyatımızın özündə vardır " [9, s. 225]. Xalq şairinin Vətəninə, elinə obasına olan bağlılığı, az qala onun bütün şeirlərinin əsas mövzu mənbəyi idi. Romantik üslubda yazdığı belə şeirlərində o, sanki bütün dünyaya Vətənin gözəlliklərini çatdırmaq, öz yurduna el-obasına olan məhəbbətini göstərmək istəyirdi:

Car çəkir çarxların çaxnaşıq səsi,
Qızıl baltaların polad pəncəsi,
…Səslənir Vətənin çölü, çəməni,
Bu qüdrət ilhama çağırır məni! [8, s. 174]

S.Vurğunun poeziyasında romantizm, əsasən, inqilabi romantika fonunda təzahür edir. Xalq şairi real həyatı ideallaşdıraraq yeni insan obrazı yaradır, gələcək cəmiyyətə böyük ümidlə yanaşır. Bununla yanaşı, şairin lirikasında təbiət təsvirləri, insanın daxili aləmi və emosional dünyası da romantik çalarlarla zəngindir. Bu xüsusiyyətlər onun yaradıcılığını sırf ideoloji poeziyadan fərqləndirərək bədii-estetik dəyər qazandırır. Bu cəhətdən şairin1929-cu ildə qələmə aldığı "Vətən həsrəti" şeirinə nəzər salsaq görərik ki, şeir XX əsrin 20-ci illər poeziyasında romantik düşüncənin və lirizmin mühüm nümunəsidir. Şeirdə Vətəndən ayrı düşmüş insanın daxili iztirabları, mənəvi sarsıntısı və həsrət hissi romantik-estetik müstəvidə ifadə olunur. Burada Vətən anlayışı yalnız coğrafi məkan kimi deyil, insanın mənəvi varlığını tamamlayan ali dəyər kimi təqdim edilir.Şeirin ilk bəndindən etibarən lirika subyektinin psixoloji vəziyyəti romantik obrazlar vasitəsilə açılır. Şair Vətən həsrətini adi kədər yox, yaralanmış ruh halı kimi oxucusuna təqdim edir:

Elindən, günündən ayrılan könül,
Arabir vaxt tapıb ağlasın gərək.
Əziz kimsələri qırılmış kimi,
Yas tutub qaralar bağlasın gərək [8, s. 86].

M.Hadinin Vətən mövzulu şeirlərində bir qayda olaraq, həsrət daha çox fəlsəfi və ictimai üsyan xarakteri daşıyır. Hadidə Vətən əsarət altında olan, azadlığı əlindən alınmış bir varlıq kimi təqdim edilir. Onun lirikasında Vətən həsrəti üsyankar romantizmlə müşayiət olunur. Halbuki S.Vurğunun "Vətən həsrəti" şeirində bu hiss daha çox sakit, daxili yanğı formasında ifadə olunur. Burada açıq etirazdan çox, taleyə boyun əyən, lakin dərin ağrı keçirən lirika subyekti diqqəti cəlb edir. Bu fərq göstərir ki, XX əsrin 20-ci illərində romantizm artıq Hadidəki açıq üsyankar formasından müəyyən qədər uzaqlaşaraq daha emosional-lirik istiqamətə yönəlmişdir.

H.Cavid yaradıcılığında isə Vətən anlayışı əsasən ideal və metafizik məkan kimi təqdim olunur. H.Cavid üçün Vətən yalnız torpaq deyil, haqqın, ədalətin və mənəvi kamilliyin təcəssümüdür. Onun şeirlərində və dramlarında Vətən motivi çox vaxt ümumbəşəri ideyalarla qovuşur. S.Vurğunun şeirində isə Vətən daha real və insani hisslər fonunda təqdim edilir. Şair Vətəni abstrakt ideya kimi yox, itirilmiş sevgi, yarım qalmış həyat kimi duyur:

...Nə qədər olsa da Vətən sözünü,
Duysun ürəyində, anlansın gərək [8, s. 86].

Yuxarıdakı misralarda nə Hadidəki kəskin üsyan, nə də Cavidə xas fəlsəfi yüksəklik üstünlük təşkil edir. Əvəzində romantizm daxili sarsıntı, insan ruhunun ağrısı və Vətənə bağlılıq hissi şəklində təzahür edir.

M.Müşfiq poeziyasında romantizmin təzahürü. "Romantik üslub lirikaya qüvvətli romantik pafos gətirmişdir. Şeirdə lirik qəhrəmanın poetik müraciətləri, həyəcanları, narahat fikri və qayğıları güclü, ehtiraslı pafosla tərənnüm olunmuşdur" [4, s. 109]. XX əsr Azərbaycan ədəbiyyatının ən istedadlı qələm sahiblərindən olan M.Müşfiqin yaradıcılığı 20-30-cu illər Azərbaycan poeziyasında romantizmin daha səmimi və lirizmə əsaslanan formasını təmsil edir. Onun şeirlərində həyat sevgisi, azadlıq arzusu, insanın daxili hiss və duyğularının poetik ifadəsi ön plana çəkilir. Müşfiqin romantizmi daha çox fərdi hisslərə, sevinc və kədərin poetik təqdimatına əsaslanır.Şairin poeziyasında romantik duyum bəzən sosial ideyalarla uzlaşdırılsa da, əsas diqqət insanın daxili aləminə yönəlir. Bu baxımdan Müşfiqin romantizmi daha təbii, emosional və səmimi xarakter daşıyır. Onun lirikasında həyat eşqi və gözəllik ideyası romantik poetikanın aparıcı elementlərinə çevrilir:

Çiçəklər aşığı bir bülbül kimi,
Gözüm bir bağbanın gülünə düşdü.
Qəhrini çəkdiyim gülün surəti
Sakit xəyalımın gölünə düşdü [7, s. 194].

Mikayıl Müşfiqin "Düşdü" şeiri onun lirikasında romantik duyumun və xalq poeziyasına bağlılığın vəhdətini aydın şəkildə əks etdirən nümunələrdəndir. Şeirdə sevgi, xatirə və taleyin acı ironiyası romantik-estetik müstəvidə təqdim olunur. Lirika subyekti keçmiş hisslərin xatirəsini idealizə edir, lakin bu idealizasiya sonda acı reallıqla qarşılaşır ki, bu da romantizmin əsas qarşıdurma xəttini – xəyal ilə gerçəklik ziddiyyətini meydana çıxarır. "Romantizm ədəbiyyatında xəyalla gerçəklik arasındakı təzad da həyatı əksetdirmə üsullarından biridir. Əslində xəyalla gerçəklik arasındakə təzad romantizm üçün xas olan idealla varlıq münasibətlərindəki ziddiyyətlərin davamıdır" [3]. Şeirin hələ ilk bəndində xalq poeziyasına məxsus obrazlar və bənzətmələr diqqəti cəlb edir. Şeirin ikinci bəndində isə artıq romantik lirizm tədricən taleyin acı gerçəkliyi ilə əvəz olunur. Şeirdə gənclik ideallaşdırılmış keçmiş kimi təqdim olunur. "Keçmişə, - münasibətdə işıqlı, reallığa - nəzər saldıqda küskün, qayğılı, gələcəyə - baxışda isə xəyalpərvər

romantik qəhrəmanın tərənnümü Azərbaycan romantizmi üçün xarakterik xüsusiyyətlərdən biridir" [3]. Lakin sonluqda şair romantik xəyalın dağılmasını xalq təfəkküründə xas olan sadə, lakin dərin mənalı ifadə ilə tamamlayır. Romantik faciə ironik çalar alır. Bu cəhət romantizmin fərdi iztirabdan ümumiləşmiş insan taleyinə keçid xüsusiyyətini əks etdirir. M.Müşfiq romantik duyumunu xalq poeziyasının bədii imkanları ilə ifadə edərək, 20-30-cu illər Azərbaycan poeziyasında romantizmin səmimi və canlı təzahürünü yaradır.

NƏTİCƏ: Aparılan elmi tədqiqat göstərir ki, XX əsrin 20-50-ci illərində Azərbaycan poeziyasında romantizm ənənələri mövcud ictimai-siyasi və ideoloji məhdudiyyətlərə baxmayaraq öz davamlılığını qoruyub saxlaya bilmişdir. Bu mərhələdə romantik düşüncə tamamilə aradan qalxmamış, əksinə, sosialist realizmi estetikasının tərkib hissəsinə çevrilərək daha çox "inqilabi romantika" formasında yeni məzmun və ifadə çalarları qazanmışdır. Ə.Cavadın, S.Vurğunun və M.Müşfiqin yaradıcılığı həmin transformasiya prosesini aydın şəkildə əks etdirən ən mühüm poetik nümunələr sırasındadır. Eyni zamanda, təhlillər göstərir ki, bu şairlərin hər biri romantizm ənənələrini fərqli bədii-estetik istiqamətlərdə inkişaf etdirmişdir. S.Vurğunun poeziyasında romantik ideal əsasən ictimai məzmun və sosialist ideologiyasının tələbləri ilə uzlaşdırılaraq təqdim olunur. Ə.Cavad yaradıcılığında isə romantik təfəkkürün mərkəzində Vətən sevgisi, milli istiqlal ideyası, azadlıq arzusu və milli-mənəvi dəyərlər dayanır. M.Müşfiqin şeirlərində romantizm daha çox lirizm, fərdi hiss və duyğuların poetik ifadəsi, həyat eşqi və insanın daxili aləminin bədii təsviri ilə səciyyələnir.

İstifadə edilmiş ədəbiyyat

1. Arif M. Seçilmiş əsərləri. Üç cilddə. I cild. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1967, 616 s.
2. Cavad Ə. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Azərnəşr, 1992, 328 s.
3. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatında romantizm. //525-ci qəzet// 2022, 23 aprel. S.14-15;20
4. Həbibbəyli İ. Romantik lirikanın imkanları. Bakı: Yazıçı, 1984, 164 s.
5. Həsənova L. Əhməd Cavadın yaradıcılığı: milli ruh və romantizm. // 7th International Bekhtiyar Vahabzade Turkish World language, history, culture and literature congress// Şəki, 2025, 19-22 iyun S. 454-456
6. Hüseyn M. Seçilmiş əsərləri. On cilddə. IX cild. Bakı: Yazıçı, 1979, 634 s.
7. Müşfiq M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 352 s.
8. Vurğun S. Seçilmiş əsərləri. Beş cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, 264 s.
9. Vurğun S. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, 384 s.

Leyla Ziyafat gizi Hasanova
Lecturer at the Faculty of Philology, Azerbaijan State Pedagogical University
Email: leylamuzi@gmail.com
ORCID ID: 0009-0006-9057-9205

Manifestation of romantic traditions in the poetry of the 20s-50s: based on the work of A. Javad, S. Vurgun, and M. Mushfig.

Summary

The 1920s-1950s of the 20th century are characterized as one of the ideologically complex stages of development of Azerbaijani literature. Although socialist realism gained the status of an official creative method during this period, the traditions of romanticism continued their existence in the artistic-aesthetic system of poetry, acquiring new content and forms of expression in accordance with the socio-political realities of the time. The article examines the main directions of manifestation of romantic thought in Azerbaijani poetry of that period from a comparative and scientific-theoretical aspect using the work of Ahmad Javad, Samad Vurgun and Mikayil Mushfig.. The results of the study show that although the traditions of romanticism underwent a certain transformation within the ideological framework of socialist realism, they did not lose their aesthetic essence and acted as one of the important factors enriching the ideological and artistic development of Azerbaijani poetry in the work of the poets whose names were mentioned.

Keywords: trends, romanticism, socialist realism, Ahmad Javad, Samad Vurgun, Mikayil Mushfig.

Лейла Зияфат гызы Гасанова
Преподаватель факультета филологии Азербайджанского государственного педагогического университета
Email: leylamuzi@gmail.com
ORCID ID: 0009-0006-9057-9205

Проявление романтических традиций в поэзии 1920-1950-х годов: на основе работ А. Джавада, С. Вургуна и М. Мушфига.

Резюме

1920-е – 1950-е годы XX века характеризуются как один из идеологически сложных этапов развития азербайджанской литературы. Хотя социалистический реализм в этот период получил статус официального творческого метода, традиции романтизма продолжали существовать в художественно-эстетической системе поэзии, приобретая новое содержание и формы выражения в соответствии с социально-политическими реалиями времени. В статье рассматриваются основные направления проявления романтической мысли в азербайджанской поэзии того периода с сравнительной и научно-теоретической точек зрения на примере творчества Ахмада Джавада, Самада Вургуна и Микаила Мушфига. Результаты исследования показывают, что, хотя традиции романтизма претерпели определенную трансформацию в рамках идеологической структуры социалистического реализма, они не утратили своей эстетической сущности и выступили одним из важных факторов, обогащающих идеологическое и художественное развитие азербайджанской поэзии в творчестве упомянутых поэтов.

Ключевые слова: тенденции, романтизм, социалистический реализм, Ахмад Джавад, Самад Вургун, Микаил Мушфиг.

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-172-174

Sevinc Abdulla qızı Abdullayeva
Bakı Dövlət Universiteti, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi,
filologiya üzrə fəlsəfə doktoru
sevincabasova@bsu.edu.az
https://orcid.org/0009-0001-4208-9889

AZƏRBAYCAN ƏDƏBİYYATINDA İNSAN VƏ ZAMAN KONSEPSİYASI

XÜLASƏ: Təqdim olunan məqalədə fəlsəfi-ədəbi müstəvidə "Dünya", "Zaman" və "İnsan" anlayışlarının qarşılıqlı əlaqəsi, bəşər tarixindəki yeri və mahiyyəti təhlil olunur. Müəllif klassik və müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin (M.Füzuli, S.Vurğun, M.Araz, B.Vahabzadə və b.) yaradıcılığına istinad edərək göstərir ki, ədəbi-fəlsəfi fikirdə Dünya və Zaman anlayışları, əslində, İnsanın varlığı və əməlləri ilə şərtlənir. Zümrələr və əsrlər dəyişsə də, dünyadakı nizamı, sevinci və kədəri müəyyən edən əsas amil insandır. Məqalədə insanın mənəvi kamil və ya nadan olmasının cəmiyyətə, eləcə də tarixi proseslərə təsiri diqqət mənzərəsinə gətirilir.

Tədqiqatda fəlsəfi mülahizələr müasir siyasi-tarixi reallıqlarla əlaqələndirilir. Müəllif bəşəriyyətdəki laqeydlik və qəzəbin törətdiyi fəsadları xüsusilə Ermənistanın azərbaycanlılara qarşı yürütdüyü işğalçılıq siyasəti, havadarlarının ikili standartları və Azərbaycanın öz gücü ilə qazandığı Zəfər kontekstində dəyərləndirir. Yekun qənaətə görə, tarixi yaradan və dəyişən insandır; Dünya və Zaman yalnız insan əməllərinin güzgüsüdür.

Açar sözlər: Azərbaycan ədəbiyyatı, dünya, zaman, insan, tarix, mənəviyyat, zəfər

GİRİŞ: Bəşəriyyətin yaranışından bu günədək fəlsəfi və ədəbi fikrin ən təməl, açar anlayışlarından biri Varlıq, Zaman və İnsan arasındakı qırılmaz tellərin mahiyyətini dərk etmək olmuşdur. Tarix boyu "Dünya" və "Zaman" anlayışları mücərrəd xarakter daşısa da, onların daxili məzmununu formalaşdıran, onlara məna və dinamika qazandıran yeganə real amil İnsandır. Müəyyən mənada, "tarixdə insan" faktı bəşəriyyətin fiziki varlığını və zamandakı yerini ifadə edir, "insanda tarix" düsturu isə fərdin mənəvi-əxlaqi keyfiyyətlərinin, əməllərinin və seçimlərinin zamanın gedişatına verdiyi istiqaməti əks etdirir.

Azərbaycan ədəbi-fəlsəfi fikrində bu mövzu hər zaman aparıcı xətt kimi diqqəti cəlb etmişdir. Müxtəlif dövrlərdə ömür sürmüş söz ustadları Dünyanın əbədiliyi və Zamanın keçiciliyi qarşısında İnsanın daxili aləmini, onun xeyir və şər arasındakı mübarizəsini bədii boyalarla qələmə almışlar.

ƏSAS HİSSƏ: XX və gələcək əsrlərin dahi sənətkarı Səməd Vurğun deyəndə ki, *"Nə ömrə acıyır, nə yaşa dünya, Əzəldən yaranıb tamaşa dünya"* [13, s. 45], ustad Məmməd Rahim *"...Biz gedərik, qoca dünya qalandır"* [8, s. 88] deyəndə insanlara əbədi və müvəqqəti olanları xatırlatmaqla yanaşı, ömrün, bəxtin, taleyin, alın yazısının ulu tanrının əlində olduğunu bir daha yada salırdı. Zeynal Xəlil *"Kimlər gəldi, kimlər getdi, bu dünyadan, bu dünyadan, Arif olan nakam getməz bu dünyadan, bu dünyadan*" [5, s. 112] misraları ilə ustadlarının mülahizələrinə haqq qazandırırdı. Lirik-romantik şair Məmməd Araz isə *"Dünya sənin, dünya mənim, dünya heç kimin"* [1, s. 64] məşhur kəlamı ilə mətləbini bəşəriyyətə, cəmiyyətə, insanlara ünvanlayırdı. Belə mülahizələr və bu qəbildən olan digər müdriknamələr tarixən bəşəriyyətə məlum olsa da, bu təbii, real həqiqətlərə sadiq qalmaq cəhdlərində əksər insanlar biganəlik, unutqanlıq və laqeydlik göstərmişlər. Dünyanın dolaşıq vəziyyətə düşməsinin, *"həyatın əldən-ələ"* keçməsinin bir səbəbi də bu laqeydlik və unutqanlıq olmuşdur.

Bəşər tarixindən də məlumdur ki, unutqanlığı yaradan, mərhələ-mərhələ dünyaya gələn və köçən, insan mənasında qəbul edilən, dahi ustad Ömər Xəyyamın dediyi kimi, *"Ömrümüzdən bir an kimi keçən"* [6, s. 32] Dünya və Zaman olmuşdur. Bu ifadələr başqa-başqa adlarla deyilsə də, məzmun, məna etibarilə bir-birini tamamlayan, əlaqə və bağlılıqları möhkəm olan anlayışlardır. Həqiqətdə isə Dünya da, Zaman da bəşəriyyət amili olub, İnsan deməkdir. Bununla yanaşı, Dünya sözündə daha geniş mənada ümumilik, əbədilik, bütövlük, taixilik, Zaman anlayışında xüsusilik, keçicilik, dəyişkənlik, müvəqqətilik güclü olduğu üçün birincisi, yəni Dünya ilk gündən əzəli və əbədi varlıq kimi qəbul edilmiş, Zaman isə Dünyanın tərkibində gəldi-gedər xarakteri ilə onun bir tipi, bir vahidi, keçici, dəyişkən, qısa ömürlü olması ilə, onun təbiəti, ictimai fəaliyyəti, əməlləri, təsir gücü ilə (ömrü qədər) Dünyanı təyin etmək funksiyasını istədiyi kimi yüksək səviyyədə həyata keçirən qüdrət mənasında tanınmışdır.

Zahirən fərqli cəhətlərinə baxmayaraq, bəşər tarixi Dünya dəyəndə də, Zaman ifadəsini işlədəndə də İnsanı nəzərdə tutmuşdur; *"Dünya ömrümüzdən keçən bir andır"* (Ö.Xəyyam) [6, s. 35]; *"Bu dünya bir saman çöpünə dəyməz"* (Məhsəti) [3, s. 41]; *"Dünya işinin mədarı yoxdur"* (M.Füzuli) [2, s. 105]; *"Müxtəsər kim böylə dünyadan gərək etmək həzər"* (M.P.Vaqif) [12, s. 78]; *"Çapdırır atını birbaşa dünya"* (S.Vurğun) [13, s. 112]; *"Heydərbaba, dünya yalan dünyadı"* (M.Şəhriyar) [10, s. 54]; *"Bu dünyanın qara daşı göyərməz"* (M.Yaqub) [14, s. 22] və daha nə qədər müdriknamələr, eləcə də Zamanla bağlı: *"Dövran ki, məni məzadə saldı, bilməm kim idi satan, kim aldı"* (M.Füzuli) [2, s. 142]; *"Əcəb əyyam idi əyyami-sələf, gərək o günlərdə olaydıq təlәf"* (Q.Zakir) [15, s. 95]; *"Ay zamanə, zamanə, oxu qoyma kamana"* (Xalq yaradıcılığı); *"Laçın yatağıdır bizim məkanlar, qorxuram sıranız çaşa, durnalar"* (Q.Zakir) [15, s. 101]; *"Cəhənnəm boş əməl qığılcımıdır, cənnətsə xoş keçən rahat zamandır"* (Ö.Xəyyam) [6, s. 50], *"Nə qəm, uğratsa da bir gün məni ifnayə zəman"* (M.Ə.Sabir) [9, s. 120]; *"Məni yelkən kimi qərq etsə də dəryada zaman"* (S.Vurğun) [13, s. `50], *"Saxla samanı, gələr zamanı"* (Atalar sözü) və bu qəbildən olan bütün müdriknamələrdə ustadlar zaman deyəndə insanı görmüş, insanı düşünmüşdür.

Yaşadığımız müasir zamanı aydın görən, əməllərinə dərindən bələd olan, "tarixdə insan, insanda tarix" faktını qəbul edib, ona hörmətlə yanaşan ustadlar, tarixən olduğu kimi, indi də dünyanın sevinc və kədərində əsas səbəbkar kimi insanı görmüşlər. İnsanın uğurları çox olanda *"Dünya vəfalıdır"*, *"Əyilmə, dünya"*, *"Biz gəldi-gedərik, sən yaşa,*

dünya" demişlər. Ağrı-acıları, qəbahətləri, əzabları həddini aşanda *"İnsan əməlinə kaş dözə dünya"*, *"Ölən dünya"*, *"Birisini sahibi-tac, ol birisini dəxi ona möhtac edən"*, *"düzü əyib, əyriləri düzəldən"* Dünyadan – İnsandan *"Əcəb əyyam idi əyyami-səlәf, gərək o günlərdə olardıq təlәf"* arzu və etirafları ilə ötən zamanı, işıqlı, əmin günlərini, kamil insanları xatırlamışlar. Bu arzu və istəklər tarixən olduğu kimi, indi də böyük sənətin əsas mövzularından biri olmuşdur: *"Çıxmadı qurtulaq dərdü-bəladan, gündə min zakonu görən canımız"* deyən, son anda əlləri hər yerdən üzülən insan, qadir Allahı köməyə çağırmış, ondan imdad istəmişdir: *"Qadir Allah, səndən budur diləyim, sən mərdi namərdə möhtac eləmə, Hər nə verirsənsə öz dərgahından ver, Sağ əli sol ələ möhtac eyləmə"* desə də, dünyanı – zamanı aydın gördüyü üçün qəzəb və nifrətini qoruyub saxlamış, mövqeyini dəyişməmişdir. *"Namərd körpüsündən rahat keçincə, razıyam, apara o sellər məni"* deyərək zəmanələrinə qəzəblərini gizlətməmişlər. *"Ay ağalar,bir zamanə gəlibdir, ala qarğa şux tərlanı bəyənməz, oğullar atanı, qızlar ananı, gəlinlər də qaynananı bəyənməz"* (Aşıq Abbas Tufarqanlı), *"Görmədim bir zərri xalis buteyi-nasutdə, mənəvi bir ləkə gördüm ləldə-yaqutdə, Biqərəz insan olur görmək fəqət tabutdə, Bilməzəm varmı sədaqət aləmi-lahutdə, Azma, fikrim, cümlə ecazü kəramət rəngidir"* (S.Mənsur)[7, s. 45]; *"İllər yaman tökdü qaş-qabağını, Qurtara bilmədik qəm ilə yasdan, Ancaq yüz illərlə yad bayrağını, Asdıq bayramlarda öz qapımızdan"* (N.Həsənzadə) [4, s. 88] deyərək, dünyaya, zamana, əslində xain insana qəzəb və nifrətini bildirmişlər. Böyük ədəbiyyatda, sənətdə və digər yaradıcılıq sahələrində gördüyümüz dərin mənalı, qəzəbli bədii gülüşün yaranmasında əsas səbəbkar olan zaman, onun ziddiyyətləri, geniş mənada tamahkar, gözü doymayan insan tarixən olduğu kimi, indi də sərbəst şəkildə özünün çirkin fəaliyyətini davam etdirir. Odur ki, aqillər *"İnsan əməlinə kaş dözə dünya"* deyəndə tam haqlı olaraq insan düzələrsə, Dünya – Zaman düzələr qənaətində olmuşlar.

Dünya isə bu minvalla min illərdir ki, davam edir, yaşayır, düzəlmir ki, düzəlmir... Onu əyən, düzəlməyə qoymayan, dilə-dişə salan tarixən insan olduğu kimi, indi də insandır. "Min dərdin min bir dərmanı", "Min ölənin əvəzinə min biri dirilən" zəmanədə həyata göz açan o bir insanın, xeyirxah, ya da bədxah xarakterdə olması ucbatından dünya həm yaşayır, həm də çaxnaşır. *"Bir yandan boşalıb, bir yandan dolan dünya"* insanlarının içərisində həyatı, varlığı, torpağı – vətəni sevən, düşünən, onu itirməyə, məhv olmağa qoymayan, kişi və qadınlığından asılı olmayaraq, mənəvi-əxlaqi cəhətdən kamil, milli ruhlu, milli zövqlü o bir – tək insan olduğu kimi, dünyanı əyən, nizamını pozan da o tək – bir nadan, nankor insandır. Bunların hansının güclü, imkanlı və zəif olmasından asılı olaraq, Dünya da – İnsan da, Zaman da həmin adla yaşayır. Ona görə də əsrimizin böyük ustad sənətkarı Bəxtiyar Vahabzadə zəmanəsini – Dünya və İnsanı aydın gördüyü üçün yazırdı: "Bəxtiyar, qüdrətin əqlə güvəndi, Göylərin əsrarı yerlərə endi, Bir tükdən asılıb taleyi indi, İnsan əməlinə kaş dözə dünya" [11, s. 102]. Ustadın dediyi "bu insan" şeytan, iblis, satana, mefistofel qiyafəsini, görkəmini dəyişərək "zaman libasında" hərəkət edir. Zaman pərdəsinə bürünərək pozucu əməllərini, xəyanətkar fəaliyyətini, mənfur siyasətlərini həyata keçirir. "Yaxşı vədləri", "şirin dilləri" ilə milləti – dünyanı çaşbaş salır. Müxtəlif hiylələrə əl atır, qorxutmaq, şirniklәndirmək vədləri ilə milləti düz yoldan çıxartmaqla, təxribatlara sürükləməklə özlərinin pozucu, dağıdıcı siyasətlərini həyata keçirirlər. Belə pozucu, dağıdıcı siyasətin bariz nümunəsini erməni qatillərinin, erməni dövlətinin əməllərində görmək mümkündür. Amma çox təəssüf ki, dünya dövlətləri, xüsusən xristian ölkələri həqiqəti tam aydın bilə-bilə işğalçını, təcavüzkar Ermənistanı dəstəkləməklə məşğuldurlar. Lakin bütün bunlara baxmayaraq, Ermənistan və onun havadarları tərəfindən 20% torpağı işğal olunan, bir milyondan artıq qaçqını, köçkünü və didərgini olan Azərbaycan öz haqq savaşını zəfərlə başa vurdu, öz gücünü bütün dünyaya göstərdi, yaratdığı güclü dövlətlə, güclü ordusu ilə Ermənistanı və onun havadarlarını lərzəyə saldı. Bəla ondadır ki, qurunun oduna yaş da yandı. Sərkisyanların, köçəryanların, nalbəndyanların ucbatından Ermənistanın min dərdli, kasıb, insanları da əziyyət çəkir. Bu insanlar Azərbaycanın haqlı olduğunu çox yaxşı bilirlər. Heç bir cəhətdən müqayisə edilə bilməyən Azərbaycanı, onun qüdrətini, dünya siyasətində layiqli yer tutduğunu anlayırlar… Gec-tez onun havadarları da Azərbaycan siyasətinin və ordusunun qarşısında təslim olan Ermənistandan üz döndərəcəklər. Bu aydın görünən bir faktdır: "Cidanı cuvalda gizlətmək olmaz".

NƏTİCƏ: Yekun olaraq qeyd etmək olar ki, "Dünya" və "Zaman" anlayışları bəşər tarixinin bütöv mənzərəsini formalaşdıran amillər olsa da, onların daxili mahiyyətini, hərəkətverici qüvvəsini və mənasını təyin edən məhz İnsandır. Müxtəlif dövrlərdə söz ustadlarının, mütəfəkkirlərin verdiyi fəlsəfi mesajlar göstərir ki, dünyanın ziddiyyətləri, gözəllikləri, fəlakətləri və zəfərləri insanın mənəvi-əxlaqi seçiminin nəticəsidir. Zaman nə qədər dəyişkən və müvəqqəti olsa da, insanın tarixdə qoyduğu iz əbədidir.

Tarix boyu haqsızlıqlar, xəyanətlər və işğalçılıq niyyətləri zaman libasına bürünərək dünyada xaos yaratmağa çalışsa da, mənəvi baxımdan kamil, adil və milli ruha malik insanın iradəsi qarşısında aciz qalmışdır. Azərbaycan xalqının öz haqq savaşında qazandığı tarixi Zəfər bunun bariz sübutudur. Bu Qələbə bir daha nümayiş etdirdi ki, mənfur niyyətlər, saxta siyasətlər və laqeydlik gec-tez məğlubiyyətə məhkumdur, ədalət və həqiqət isə zəfər çalır.

Beləliklə, "tarixdə insan, insanda tarix" formulu göstərir ki, Dünyanın və Zamanın gələcək nizamı insanın öz əməllərindən, daxili saflığından və məsuliyyətindən asılıdır. İnsan özünü, mənəviyyatını və niyyətini düzəltdikcə, yaşadığı Dünya da, daxil olduğu Zaman da işıqlı və kamil olacaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Araz M. Seçilmiş əsərləri. I c. (Şeirlər, poemalar). Bakı: Şərq-Qərb, 2004, 304 s.
2. Füzuli M. Əsərləri. VI cilddə. I cild (Qəzəllər). Bakı: Şərq-Qərb, 2005, 336 s.
3. Gəncəvi M. Rübailər. Bakı: Yazıçı, 1988, 160 s.
4. Həsənzadə N. Seçilmiş əsərləri. II cild. Bakı: Şərq-Qərb, 2004, 280 s.
5. Xəlil Z. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1967, 284 s.
6. Xəyyam Ö. Rübailər (Tərcümə edəni: M.Seyidzadə). Bakı: Yazıçı, 1985, 148 s.
7. Mənsur S. Divan. Bakı: Elm və təhsil, 2012, 240 s.
8. Rahim M. Seçilmiş əsərləri. II cilddə. I cild. Bakı: Azərnəşr, 1978, 312 s.

9. Sabir M.Ə. Hoptopnamə. Bakı: Şərq-Qərb, 2004, 480 s.
10. Şəhriyar M. Yalan dünya (Şeirlər və poemalar). Bakı: Yazıçı, 1993, 224 s.
11. Vahabzadə B. Seçilmiş əsərləri. II cilddə. I cild. Bakı: Şərq-Qərb, 2008, 320 s.
12. Vaqif M.P. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 264 s.
13. Vurğun S. Seçilmiş əsərləri. V cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 336 s.
14. Yaqub M. Bu dünyanın qara daşı göyərməz. Şeirlər. Bakı: Yazıçı, 1989, 192 s.
15. Zakir, Q. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 400 s.

Sevinc Abdulla gizi Abdullayeva
Lecturer at the Department of History of Azerbaijani Literature, Baku State University
Doctor of Philosophy in Philology
sevincabasova@bsu.edu.az
https://orcid.org/0009-0001-4208-9889

The concept of man and time in Azerbaijani literature

Summary

This article analyses the interrelationship, role, and essence of the concepts of "World", "Time", and "Man" in human history within a philosophical-literary framework. Drawing upon the works of prominent representatives of classical and contemporary Azerbaijani literature (M.Fuzuli, S.Vurgun, M.Araz, B.Vahabzadeh, and others), the author demonstrates that in literary-philosophical thought, the concepts of World and Time are ultimately conditioned by the existence and actions of Man. Although epochs and centuries change, the primary factor determining order, joy, and sorrow in the world remains human agency. The study highlights the impact of whether a person is morally perfected or ignorant on society, as well as on historical processes.

Furthermore, philosophical reflections are linked with contemporary political-historical realities. The author evaluates the consequences of global apathy and animosity, particularly in the context of Armenia's aggressive policy against Azerbaijanis, the double standards of its patrons, and the Victory achieved by Azerbaijan through its own strength. The final conclusion asserts that it is man who creates and shapes history; the World and Time are merely mirrors reflecting human actions.

Keywords: Azerbaijani literature, world, time, man, history, morality, victory

Севиндж Абдулла гызыАбдуллаева
Преподаватель кафедры Истории азербайджанской литературы Бакинского государственного университета
Доктор философии по филологии
sevincabasova@bsu.edu.az
https://orcid.org/0009-0001-4208-9889

Концепция человека и времени в азербайджанской литературе

Резюме

В представленной статье в философско-литературном аспекте анализируются взаимосвязь, место и сущность понятий «Мир», «Время» и «Человек» в истории человечества. Ссылаясь на творчество выдающихся представителей классической и современной азербайджанской литературы (М. Физули, С. Вургун, М. Араз, Б. Вагабзаде и др.), автор показывает, что в литературно-философской мысли понятия Мира и Времени, по сути, обусловлены бытием и поступками Человека. Несмотря на смену эпох и веков, главным фактором, определяющим порядок, радость и печаль в мире, остается человек. В статье особое внимание уделяется влиянию духовно-совершенной или же невежественной личности на общество, а также на исторические процессы.

Философские рассуждения в исследовании связываются с современными политико-историческими реалиями. Автор оценивает последствия равнодушия и вражды в человеческом обществе, в частности в контексте оккупационной политики Армении против азербайджанцев, двойных стандартов ее покровителей и Победы, достигнутой Азербайджаном собственными силами. Согласно итоговому выводу, именно человек создает и меняет историю; Мир и Время лишь зеркало, отражающее человеческие деяния.

Ключевые слова: Азербайджанская литература, мир, время, человек, история, духовность, победа

Rəyçi: prof. Almaz Əliqızı (Məmmədova)

DOI: 10.24412/2218-7588-2026-2-175-178

İlahə Şahin qızı Əhmədova
Bakı Dövlət Universiteti, Filologiya fakültəsi, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının doktorantı
ilaha.ahmadova-3@bsu.edu.az
https://orcid.org/0009-0007-9431-2003

MAGİK REALİZM POETİKASINDA MİF, REALLIQ VƏ TRANSFORMASİYA
(Elçin Hüseynbəylinin "Balıq adam", "Azıx" və "Dezodorant qız" əsərləri əsasında)

XÜLASƏ: Son yüz ildə dünya ədəbiyyatında geniş yayılmış magik realizm estetikası müasir Azərbaycan nəsrində də özünəməxsus inkişaf yolu keçmişdir. Bu istiqamətdə fərdi bədii üslubu ilə seçilən yazıçılardan biri Elçin Hüseynbəylidir. Məqalədə onun "Balıq adam", "Azıx" və "Dezodorant qız" əsərləri magik realizm poetikası baxımından müqayisəli şəkildə təhlil edilmişdir. Tədqiqatda transformasiya motivi, mifoloji arxetiplər, zaman və məkanın qeyri-xətti təşkili, möcüzənin adiləşdirilməsi və obrazların simvolik funksiyaları araşdırılmışdır. Müəyyən edilmişdir ki, yazıçı magik realizmi insanın ontoloji mahiyyətini, milli kimliyi və kollektiv yaddaşı ifadə edən fəlsəfi düşüncə modeli kimi təqdim edir. Onun nəsrində magik elementlər reallığın alternativi deyil, daxili məntiqinin davamı kimi çıxış edərək Azərbaycan mifoloji düşüncəsinin müasir bədii transformasiyasını əks etdirən yeni poetik model formalaşdırır.

Açar sözlər: Elçin Hüseynbəyli, magik realizm, mif, transformasiya, poetika, simvol, ontoloji məkan, milli identiklik.

GİRİŞ: Ötən əsrin dünya ədəbiyyatında baş verən estetik dəyişikliklər realist təsvir prinsiplərinin yenidən dəyərləndirilməsinə səbəb olmuşdur. Bu prosesin mühüm istiqamətlərindən biri magik realizm poetikasının formalaşmasıdır. Magik realizm reallığın inkarına deyil, onun çoxqatlı mahiyyətinin bədii ifadəsinə əsaslanır. Bu poetik sistemdə möcüzə, mif və metafizik elementlər gündəlik həyatın təbii hissəsi kimi təqdim edilir; nə müəllif, nə də personaj onları qeyri-adi qəbul edir. Məhz bu xüsusiyyət magik realizmi fantastik ədəbiyyatdan və klassik realizmdən fərqləndirir.

Magik realizm termini ilk dəfə Franz Roh tərəfindən işlədilmiş [17], sonradan Aleho Karpentier, Migel Anxel Asturias, Xorxe Luis Borxes, Qabriel Qarsia Markez və s.-in yaradıcılığında yeni estetik məzmun qazanmışdır. Karpentierin «möcüzəli gerçəklik» konsepsiyası magik realizmin yalnız bədii üsul deyil, dünyanı dərk etmə modeli olduğunu göstərmiş, Wendy B. Faris [8], Lois Parkinson Zamora [18] və Amaryll Chanady [5] isə onun nəzəri əsaslarını sistemləşdirmişlər.

Azərbaycan ədəbiyyatında magik realizm Qərb modelinin təkrarı kimi deyil, milli mifoloji təfəkkür, folklor yaddaşı və Şərq fəlsəfi ənənəsinin sintezi kimi inkişaf etmişdir. Elçin Hüseynbəylinin bəzi nəsr nümunələri də bu xüsusiyyətləri əks etdirən orijinal poetik mənbədir. Onun "Balıq adam", "Azıx" və "Dezodorant qız" əsərləri fərqli süjetlərə malik olsa da, onları reallıqla irreal qatın harmonik vəhdəti birləşdirir. Bu əsərlərdə transformasiya, arxetiplər və simvolik obrazlar vasitəsilə insanın mənəvi mahiyyəti, kollektiv yaddaş və müasir şüurun problemləri ifadə olunur.

ƏSAS HİSSƏ: "Balıq adam" romanında ekzistensial transformasiya: insan-balıq simvolizminin ontoloji və metaforik təhlili

Magik realizmin əsas poetik xüsusiyyətlərindən biri transformasiya motividir. Bu transformasiya fiziki dəyişiklikdən daha çox insanın mənəvi, ontoloji və idraki mahiyyətinin yenilənməsini ifadə edir. Fantastik ədəbiyyatdan fərqli olaraq, magik realizmdə metamorfoz reallığın daxili məntiqinə uyğun inkişaf edir və personajlar tərəfindən fövqəladə hadisə kimi qəbul edilmir.

Franz Kafkanın *"Çevrilmə"* əsərində metamorfoz sosial özgələşmənin simvolu olduğu kimi, Elçin Hüseynbəylinin *"Balıq adam"* romanında da insanın balığa çevrilməsi mifoloji və ya elmi fantastik hadisə deyil, qəhrəmanın mənəvi böhranının və sosial münasibətlərinin nəticəsi kimi təqdim edilir [11]. Müəllif oxucunu çevrilmənin mümkünlüyündən deyil, insanın hansı şəraitdə öz mahiyyətini itirdiyi üzərində düşünməyə yönəldir. Beləliklə, metamorfoz biologiyanın deyil, insan varlığının daxili həqiqətini ifadə edən fəlsəfi kateqoriyaya çevrilir.

Balıq dünya mifologiyasında qədim arxetiplərdən biri olmaqla türk mifoloji düşüncəsində həyatın və yenilənmənin simvoludur. İslam mədəniyyətində isə müqəddəs bilik və ilahi sirr anlayışları ilə əlaqələndirilir. Yazıçı bu semantik ənənələri müasir kontekstdə yenidən mənalandırır.

Romanda qəhrəmanın balığa çevrilməsi təbiətə qayıdış deyil, süni sosial münasibətlərdən uzaqlaşaraq ilkin varlıq mahiyyətinə yaxınlaşmaq cəhdidir. Bu transformasiya bioloji deyil, fəlsəfi xarakter daşıyır. K.Q.Yunqun arxetiplər nəzəriyyəsi baxımından balıq, kollektiv şüurun ilkin obrazıdır [13] və Elçin Hüseynbəyli bu arxetipi müasir insanın psixoloji və mənəvi vəziyyətini ifadə edən simvola çevirir.

Romanın əsas problemlərindən biri özgələşmə fenomenidir. Qəhrəman sosial münasibətlər daxilində tədricən öz kimliyindən uzaqlaşır. M.Haydeggerin autentik və qeyri-autentik mövcudluq konsepsiyası kontekstində balığa çevrilmə fərdiliyin itirilməsinin bədii metaforası kimi çıxış edir [9].

Müəllif transformasiyanı yalnız faciə kimi təqdim etmir; bəzi məqamlarda o, qəhrəmanın cəmiyyətin süni qanunlarından azadlaşması təsiri bağışlayır. Qəhrəmanın özgələşməsi öz bədəni ilə münasibətində də müşahidə olunur və bu baxımdan M.Merlo-Pontinin bədən fenomenologiyası ilə səsləşir [16]. Beləliklə, metamorfoz zahiri dəyişiklik deyil, insanın ontoloji modelinin yenidən qurulmasıdır.

Romanda obrazlar və məkan simvolik funksiyaya malikdir. Su motivi insanla təbiət, həyatla ölüm, şüurla şüuraltı arasında keçid məkanını ifadə edir, balıq obrazı isə sosial maskalardan azad olunmuş ilkin insan mahiyyətini

təcəssüm etdirir. Elçin Hüseynbəyli Yunqun arxetip konsepsiyasını milli kontekstdə inkişaf etdirərək balıq obrazına sosial özgələşmənin ontoloji modeli funksiyasını qazandırır.

Romanın məkan və zaman sistemi də magik realizm poetikasına uyğun qurulmuşdur. Məkan qəhrəmanın psixoloji vəziyyətini əks etdirən ontoloji modelə çevrilir, zaman isə qeyri-xətti təşkil olunaraq yaddaşın assosiativ hərəkətinə uyğun təqdim edilir. Simvolik dil və çoxqatlı məna strukturu nəticəsində əsər yalnız süjet deyil, obrazlar sistemi vasitəsilə də fəlsəfi məzmun qazanır.

"Azıx" əsərində tarixi yaddaş və mifik arxetiplərin dirçəldilməsi: magik realizm kontekstində milli kimliyin poetik modeli

Magik realizmin əsas poetik xüsusiyyətlərindən biri tarixi gerçəkliyin mifoloji düşüncə ilə sintezidir. Bu estetik sistemdə tarix xronoloji hadisələr ardıcıllığı deyil, kollektiv yaddaşın, milli identikliyin və mədəni arxetiplərin yaşadığı simvolik məkan kimi təqdim olunur. Aleho Karpentierin *"lo real maravilloso"* konsepsiyasına görə, müəyyən xalqların tarixi təcrübəsi möcüzə ilə reallığın ayrılmaz vəhdətini yaradır [4, s.75-89]. Buna görə də mif tarixə alternativ deyil, onun dərin semantik qatını təşkil edir.

Wendy B. Faris magik realizmin əsas xüsusiyyətlərindən biri kimi "izah edilməyən möcüzəvi element"i göstərir; bu element rasional izah tələb etmir və mətnin daxili məntiqi çərçivəsində qəbul edilir [8, s.7-17]. Elçin Hüseynbəylinin *"Azıx"* əsərində də tarix, mif və arxeoloji faktlar birləşərək alternativ tarix yaratmır, tarixin metafizik dərinliyini açır [10]. Azıx mağarası yalnız arxeoloji obyekt deyil, bəşər yaddaşının başlanğıcı və milli kimliyin sakral kodu kimi mənalandırılır. Beləliklə, tarix faktların ardıcıllığı deyil, yaddaşın poetik rekonstruksiyası kimi təqdim olunur.

Yuri Lotman və Mirça Eliadenin nəzəriyyələrinə görə, bədii məkan hadisələrin fonu deyil, əsərin semantik və ideya yükünü daşıyan sistemdir [14; 7]. *"Azıx"* əsərində mağara müxtəlif zaman qatlarını birləşdirən xronotop funksiyasını yerinə yetirir. Burada keçmiş və indi, tarix və mif eyni poetik məkanda qovuşur. Mirça Eliadenin "sakral məkan" nəzəriyyəsinə uyğun olaraq, Azıx mağarası coğrafi obyekt olmaqdan çıxaraq mədəniyyətin mənəvi mərkəzinə çevrilir [7].

Əsərin əsas poetik komponentlərindən biri Azıxantrop obrazıdır. Karl Gustav Yunqun nəzəriyyəsinə görə, arxetiplər kollektiv şüurun ilkin obrazlarıdır [10]. Elçin Hüseynbəyli "Bəşər" adını qoyduğu Azıxantropu konkret tarixi şəxsiyyət kimi deyil, insanlığın başlanğıc yaddaşını təcəssüm etdirən arxetip kimi təqdim edir. Obraz nə tam mifləşdirilir, nə də yalnız elmi fakt kimi verilir; o, tarix, mif və fəlsəfi metaforanın vəhdətini yaradaraq magik realizmin "ikili ontologiya" prinsipini ifadə edir. Yazıçının məqsədi ilk insanın kimliyini müəyyənləşdirmək deyil, insan varlığının mahiyyəti haqqında fəlsəfi düşüncə formalaşdırmaqdır.

Yan Assmannın "mədəni yaddaş" konsepsiyasına görə, xalqlar öz keçmişlərini faktlarla yanaşı, miflər, simvollar və kollektiv narrativlər vasitəsilə yaşadırlar [1]. *"Azıx"* əsərində də tarix arxiv materialı kimi deyil, canlı mədəni yaddaş kimi təqdim olunur. Müəllif keçmişi sadəcə bərpa etmir, onu yenidən mənalandırır və bu prosesdə mifoloji təfəkkür əsas rol oynayır.

Magik realizmdə keçmiş tamamlanmış zaman deyil, indiki zamanın tərkib hissəsidir. Buna görə Azıx mağarası muzey eksponatı deyil, müasir insanın mənəvi təcrübəsinin daşıyıcısı kimi çıxış edir. Bu yanaşma klassik tarixi romandan fərqlənərək tarixi faktların rekonstruksiyasından çox, onların insan şüurunda yaşama formasını ön plana çəkir.

"Dezodorant qız" hekayəsində reallıq və illüziya dualizmi

XXI əsr nəsrində magik realizmin semantik sərhədləri genişlənərək mifoloji mənbələrlə yanaşı media, reklam və virtual reallığı da əhatə edir. Elçin Hüseynbəylinin "*Dezodorant qız"* hekayəsində möcüzə mifologiyadan deyil, reklam estetikasından doğur. Müəllif möcüzəni şəhər mühitinin adi elementlərindən yaradır və magik realizmi urbanist məkan kontekstində yenidən mənalandırır [12]. Hekayənin əsas poetik hadisəsi reklam obrazının antropomorfizasiyasıdır. Müəllif bu prosesi nə psixoloji halüsinasiya, nə də mistik hadisə kimi izah edir və beləliklə, magik realizmə xas ontoloji qeyri-müəyyənlik yaradır.

Jean Baudrillardın simulyakr nəzəriyyəsinə görə, postmodern cəmiyyətdə işarələr reallığı əvəz edərək hiperreallıq yaradır [3]. Hekayədə reklam obrazı da real qadının təsviri olmaqdan çıxaraq qəhrəmanın emosional dünyasına daxil olur və reallıqla simulyasiya arasındakı sərhədləri aradan qaldırır. Beləliklə, reklam obrazı istehlak cəmiyyətinin yaratdığı yeni mədəni mifologiyanın simvoluna çevrilir.

Magik realizmin əsas poetik xüsusiyyətlərindən biri müxtəlif ontoloji səviyyələrin paralel mövcudluğudur. Wendy B. Farisin "irreducible element" anlayışına uyğun olaraq, *"Dezodorant qız"* hekayəsində reklam obrazının canlanması nə tam rasional, nə də mistik şəkildə izah edilir [8]. Müəllif hər iki ehtimalı açıq saxlayaraq oxucunu müxtəlif interpretasiya imkanları ilə üz-üzə qoyur. Bu yanaşma Umberto Ekonun "açıq mətn" konsepsiyası ilə səsləşir: mətn hazır bir cavab təqdim etmir, oxucunu mənanın formalaşdırılmasında iştirakçıya çevirir [6]. Beləliklə, magik hadisə həm süjet elementi, həm də interpretasiya mexanizmi funksiyasını daşıyır.

Hekayədə xarici hadisələr personajın daxili aləmi ilə sıx bağlıdır; əsas məkan fiziki şəhər deyil, insan şüurudur. Gaston Bachelardın qeyd etdiyi kimi, bədii məkan psixoloji təcrübənin ifadəsinə çevrilə bilir [2]. Elçin Hüseynbəylidə küçələr və reklam lövhələri qəhrəmanın tənhalığını, emosional boşluğunu əks etdirən simvolik məkan funksiyası daşıyır.

Reklam qadını romantik sevgi obyekti deyil, insanın itirdiyi mənəvi bütövlüyün simvoludur. Yazıçı beləliklə istehlak cəmiyyətinin yaratdığı vizual obrazların insan psixikasında real münasibətləri əvəz edə bildiyini göstərir. Beləliklə, Elçin Hüseynbəyli postmodern istehlak cəmiyyətinin yaratdığı yeni mifologiyanı magik realizm poetikası

vasitəsilə tənqid edir və göstərir ki, müasir insanın "möcüzələri" artıq qədim əfsanələrdə deyil, reklam, ekran və vizual informasiya məkanında formalaşır.

Elçin Hüseynbəyli magik realizminin dünya magik realizmindən fərqləri

Müqayisəli təhlil göstərir ki, Elçin Hüseynbəylinin magik realizm poetikası dünya ədəbiyyatındakı klassik nümunələrlə müəyyən oxşarlıqlar daşısa da, bir sıra mühüm xüsusiyyətlərinə görə fərqlənir: 1. Latın Amerikası magik realizmində möcüzə əsasən xalq inancları və kolonial tarixin təsiri ilə bağlıdır [4; 15]. Elçin Hüseynbəylidə isə möcüzənin mənbəyi Azərbaycan mifoloji düşüncəsi, tarixi yaddaşı və milli mədəni kodlarıdır; 2. Müəllifdə magik elementlər ekzotik atmosfer yaratmaq məqsədi daşımır. Onlar insanın mənəvi vəziyyətini və ontoloji problemlərini ifadə edən bədii vasitədir; 3. Yazıçının magik realizm modeli postmodern estetikadan da bəhrələnir. Xüsusilə "Dezodorant qız" hekayəsində reklam, media və hiperreallıq motivləri göstərir ki, müəllif magik realizmi müasir urbanist həyatın problemlərinə uyğun şəkildə yenidən düşünür. Beləliklə, Elçin Hüseynbəylinin yaradıcılığı Azərbaycan magik realizminin milli poetik modelini formalaşdırmaqla yanaşı, bu estetik istiqamətin XXI əsr kontekstində yeni inkişaf imkanlarını da nümayiş etdirir.

NƏTİCƏ: Aparılmış tədqiqat göstərir ki, Elçin Hüseynbəylinin "Balıq adam", "Azıx" və "Dezodorant qız" əsərləri Azərbaycan nəsrində magik realizmin milli poetik modelini formalaşdıran mühüm bədii nümunələrdir. Yazıçı magik realizmi yalnız estetik üsul kimi deyil, insanın ontoloji mahiyyətini, milli yaddaşı və müasir cəmiyyətin mənəvi problemlərini şərh edən fəlsəfi düşüncə modeli kimi təqdim edir. Onun əsərlərində magik elementlər reallığın alternativi deyil, onun dərin semantik qatlarını üzə çıxaran poetik mexanizm funksiyasını yerinə yetirir.

Tədqiqat müəyyən etmişdir ki, Elçin Hüseynbəyli magik realizmin klassik prinsiplərini Azərbaycan mədəni mühitinin tarixi, mifoloji və psixoloji xüsusiyyətləri ilə sintez edərək orijinal poetik model yaradır. Latın Amerikası magik realizmində möcüzə əsasən kollektiv folklor yaddaşı və kolonial tarix təcrübəsindən qaynaqlanırsa [4; 8], yazıçının əsərlərində onun mənbəyi milli yaddaş, arxetipik düşüncə, tarixi şüur və müasir insanın daxili psixoloji böhranıdır.

Əsərlərin müqayisəli təhlili göstərir ki, "Balıq adam" ekzistensial transformasiya və ontoloji böhranı [11], "Azıx" tarixi yaddaş və milli identikliyi [10], "Dezodorant qız" isə postmodern insanın simulyativ reallıqla münasibətini [12] magik realizm poetikası vasitəsilə ifadə edir. Hər üç əsərdə transformasiya motivi, zamanın qeyri-xətti təşkili, məkanın ontoloji xarakteri, simvolik obrazların çoxqatlı semantikası və möcüzənin gündəlik həyatın təbii hissəsi kimi təqdim olunması vahid poetik sistem yaradır.

Elçin Hüseynbəyli möcüzəni süjetin məqsədi deyil, insanın və cəmiyyətin görünməyən mahiyyətini açan bədii vasitə kimi təqdim edir. Bu xüsusiyyət onun magik realizmini fantastikadan fərqləndirərək fəlsəfi-estetik məzmun qazandırır. Yazıçının yaradıcılığında mif keçmişin qalığı kimi deyil, müasir insanın dünyanı dərk etmə mexanizmi kimi çıxış edir və milli mədəni yaddaşı aktual sosial-psixoloji problemlərlə əlaqələndirir.

Beləliklə, Elçin Hüseynbəylinin yaradıcılığı müasir Azərbaycan nəsrində magik realizmin milli inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm ədəbi hadisə kimi dəyərləndirilə bilər. Onun əsərlərində milli mifopoetik düşüncə universal magik realizm prinsipləri ilə üzvi şəkildə birləşir ki, bu da yazıçının yaradıcılığını həm Azərbaycan, həm də dünya magik realizmi kontekstində araşdırmaq üçün geniş elmi perspektivlər açır.

İstifadə edilmiş ədəbiyyat

1. Assmann J. *Cultural Memory and Early Civilization: Writing, Remembrance, and Political Imagination*. – Cambridge: Cambridge University Press, 2011. – 410 p.
2. Bachelard G. *The Poetics of Space* / trans. by M. Jolas. – Boston: Beacon Press, 1994. – 241 p.
3. Baudrillard J. *Simulacra and Simulation* / trans. by S. F. Glaser. – Ann Arbor: University of Michigan Press, 1994. – 164 p.
4. Carpentier A. *The Kingdom of This World* / trans. by H. de Onís. – New York: Penguin Books, 1995. – 184 p.
5. Chanady A. B. *Magical Realism and the Fantastic: Resolved versus Unresolved Antinomy*. – New York: Garland Publishing, 1985. – 181 p.
6. Eco U. *The Open Work* / trans. by A. Cancogni. – Cambridge, MA: Harvard University Press, 1989. – 285 p.
7. Eliade M. *The Sacred and the Profane: The Nature of Religion*. – New York: Harcourt Brace, 1959. – 256 p.
8. Faris W. B. *Ordinary Enchantments: Magical Realism and the Remystification of Narrative*. – Nashville: Vanderbilt University Press, 2004. – 246 p.
9. Heidegger M. *Being and Time* / trans. by J. Macquarrie, E. Robinson. – Oxford: Blackwell, 1962. – 589 p.
10. Hüseynbəyli E. *Azıx*. – Bakı: Qələm nəşriyyatı, 2013. – 200 s.
11. Hüseynbəyli E. *Balıq adam*. – Bakı: Qələm nəşriyyatı, 2013. – 176 s.
12. Hüseynbəyli E. *Dezodorant qız*. Hekayələr. – Bakı: Mücrü nəşriyyatı, 2022. – 148 s.
13. Jung C. G. *The Archetypes and the Collective Unconscious*. 2nd ed. – Princeton: Princeton University Press, 1968. – 451 p.
14. Lotman Y. M. *The Structure of the Artistic Text*. – Ann Arbor: University of Michigan Press, 1977. – 300 p.
15. Márquez G. G. *One Hundred Years of Solitude* / trans. by G. Rabassa. – New York: Harper & Row, 1970. – 417 p.
16. Merleau-Ponty M. *Phenomenology of Perception* / trans. by C. Smith. – London: Routledge, 1962. – 466 p.
17. Roh F. Magic realism: Post-expressionism // *Magical Realism: Theory, History, Community* / ed. by L. P. Zamora, W. B. Faris. – Durham; London: Duke University Press, 1995. – 15–31 p.
18. Zamora L. P., Faris W. B. (eds.). *Magical Realism: Theory, History, Community*. – Durham; London: Duke University Press, 1995. – 624 p.

İlaha Shahin gizi Ahmadova

Doctoral student at the Department of History of Azerbaijani Literature, Faculty of Philology, Baku State University

ilaha.ahmadova-3@bsu.edu.az

https://orcid.org/0009-0007-9431-2003

Myth, reality, and transformation in the poetics of magical realism (Based on Elchin Huseynbeyli's "Fish-man", "Azikh", and "Deodorant Girl")

Summary

Over the past century, the aesthetics of magical realism have undergone a distinctive development in modern Azerbaijani prose. One of the prominent representatives of this trend is Elchin Huseynbeyli, whose individual artistic style contributes significantly to its national interpretation. This article comparatively analyzes his works *The Fish Man*,

Azikh, and *Deodorant Girl* from the perspective of the poetics of magical realism. The study examines the motif of transformation, mythological archetypes, the nonlinear organization of time and space, the normalization of the miraculous, and the symbolic functions of characters. The findings demonstrate that Huseynbeyli presents magical realism as a philosophical model for interpreting human ontology, national identity, and collective memory. In his prose, magical elements function not as an alternative to reality but as a continuation of its internal logic, thereby establishing a new poetic model that reflects the contemporary artistic transformation of Azerbaijani mythological thought.

Keywords: Elchin Huseynbeyli, magical realism, myth, transformation, poetic symbol, ontological space, national identity.

Илаха Шахин кызыАхмедова
Докторант кафедры истории азербайджанской литературы филологического факультета Бакинского государственного университета
ilaha.ahmadova-3@bsu.edu.az
https://orcid.org/0009-0007-9431-2003

Миф, реальность и трансформация в поэтике магического реализма
(На основе произведений Эльчина Гусейнбейли «Человек-рыба», «Азых» и «Девушка с дезодорантом»)

Резюме

Эстетика магического реализма, получившая широкое распространение в мировой литературе за последнее столетие, прошла своеобразный путь развития и в современной азербайджанской прозе. Одним из наиболее ярких представителей данного направления является Эльчин Гусейнбейли, чья индивидуальная художественная манера способствует формированию его национальной модели. В статье в сравнительном аспекте анализируются произведения «Человек-рыба», «Азых» и «Девушка с дезодорантом» с точки зрения поэтики магического реализма. Исследуются мотив трансформации, мифологические архетипы, нелинейная организация времени и пространства, эффект обыденности чудесного и символические функции образов. Установлено, что писатель рассматривает магический реализм как философскую модель осмысления онтологической сущности человека, национальной идентичности и коллективной памяти. В его прозе магические элементы выступают не альтернативой реальности, а продолжением её внутренней логики, формируя новую поэтическую модель, отражающую современную художественную трансформацию азербайджанского мифологического мышления.

Ключевые слова: Эльчин Гусейнбейли, магический реализм, миф, трансформация, поэтический символ, онтологическое пространство, национальная идентичность.

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-179-182

Nəsibova Almaz Mahmud qızı
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan televizya və Radio Verilişləri
QSC-nin nəzdindəki Teleradio Akademiyasının direktoru
almazmahmud@gmail.com
https://orcid.org/0009-0008-8731-5625

BEYNƏLXALQ MEDİA TƏDBİRLƏRİNDƏ VİZUAL SAVADLILIQ: 'BRİDGE' TƏCRÜBƏSİ"

XÜLASƏ: Müasir qlobal media mühitinin tələbləri peşəkar şəbəkələşmə və siyasi dialoqla yanaşı vizual kommunikasiya, immersiv texnologiyalar, süni intellekt və mədəni diplomatiyanın inteqrasiyasına əsaslanan transmilli platformaların formalaşmasını tələb edir. Buna görə də son dövrlərin beynəlxalq media tədbirləri rəqəmsal kommunikasiya baxımından əvvəlkilərdən əhəmiyyətli dərəcədə fərqlənir. Bu proseslərdə vizual savadlılıq ön plana çıxır və auditoriyanın media məzmununu düzgün anlama və interpretasiya etməsi əsas bacarıq kimi çıxış edir.
Tədqiqat beynəlxalq media sammitləri və konfransları çərçivəsində vizual savadlılıq anlayışını təhlil edir və onun əvəzsiz əhəmiyyətini vurğulayır. Xüsusilə Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən "BRIDGE" Sammiti nümunəsi əsasında konkret yanaşmalar təqdim olunur. 2025-ci ilin dekabrında keçirilən bu sammitdə çıxış edənlərin sosial media və vizual kommunikasiya ilə bağlı mövqeləri araşdırılır.
TV, radio, qəzet, internet platformaları, sosial media, mobil tətbiqlər və rəqəmsal kontent kimi müxtəlif media formalarının daxil olduğu media konvergensiyası çərçivəsində bu tədqiqat göstərir ki, müasir media sammitləri texnoloji innovasiyaları multimedia mühiti vasitəsilə auditoriyaya ötürür. Qlobal media müzakirələri vizuallığın həm müsbət, həm də mənfi tərəflərinin mövcud olduğunu göstərir və bu risklərin azaldılmasında vizual savadlılığın mərkəzi rol oynadığını sübut edir.

Açar sözlər: Vizual Süni İntellekt Savadlılığı, "BRIDGE" Sammiti, Vizual Savadlılıq, Media Konvergensiyası, Qlobal Mesaj, Rəqəmsal Transformasiya.

GİRİŞ: Media aləmində baş verən güclü hadisələrdən biri olan rəqəmsal inqilab yalnız yüksək texnologiyanın inkişafı ilə məhdudlaşmır, həm də iqtisadi və sosial dəyişikliklərin tamamilə yeni istiqamətdə formalaşmasına səbəb olmuşdur. Ən mühüm dəyişikliklərdən biri Ümumdünya Şəbəkəsinin (World Wide Web) genişlənməsi nəticəsində qlobal əlaqələrin mümkün olması, ani ünsiyyət, informasiya mübadiləsi və rəqəmsal xidmətlərin inkişafına şərait yaratmasıdır. Daha sürətli kommunikasiya media qarşısında duran çağırışların birgə müzakirəsini və həllini asanlaşdırmışdır. Qloballaşmış media şəbəkələşməsi beynəlxalq konfrans və sammitlərin daha effektiv şəkildə təşkilinə də təsir göstərmişdir.

Müasir dövrdə media məkanı bir-biri ilə əlaqəli qlobal multimedia şirkətləri tərəfindən formalaşdırılır. Bu struktur transmilli media konqlomeratlarını, aparıcı milli və regional media təşkilatlarını, eləcə də onların müxtəlif ölkələrdə fəaliyyət göstərən yerli nümayəndəliklərini əhatə edir. Alimlər media sənayesində korporativ nəzarətin güclənməsi və mülkiyyətin mərkəzləşməsinin təsirlərini geniş şəkildə təhlil etmişlər (Arsenault & Castells, 2008).

Müasir auditoriya məlumatı ənənəvi mətnlərdən daha çox şəkillər, video hekayələr, interaktiv məzmun və məlumat vizuallaşdırmaları vasitəsilə qavrayır. Bu transformasiya nəticəsində vizual savadlılıq müasir media mədəniyyətinin əsas bacarıqlarından biri kimi formalaşmışdır. Media savadlılığı fərdlərə müxtəlif media formatları vasitəsilə informasiyanı əldə etmək, təhlil etmək, qiymətləndirmək, yaratmaq və ötürmək imkanı verən çoxşaxəli bir bacarıqdır.

ƏSAS HİSSƏ: Müasir rəqəmsal mühitdə vizual məzmun ünsiyyətin və məna yaradılmasının əsas vasitələrindən birinə çevrildiyi üçün media savadlılığı yalnız ənənəvi oxu və yazı bacarıqları ilə məhdudlaşmır, həm də vizual və multimodal məzmunun tənqidi şəkildə dərk edilməsini əhatə edir. Vizual ünsiyyətin sosial, mədəni və təhsil sahələrində artan rolu fərdlərin görüntüləri anlama, yaratma və effektiv istifadə etmə bacarıqlarını inkişaf etdirməsini zəruri edir. Bundan əlavə, media savadlılığı kommunikasiya prosesinə multimodal yanaşmanı əks etdirir və mənanın yalnız sözlər vasitəsilə deyil, həm də görüntülər, səslər, simvollar və rəqəmsal texnologiyalar vasitəsilə formalaşdığını qəbul edir. Buna görə də media savadlılığı XXI əsrdə tənqidi düşüncə, məlumatlı iştirak və effektiv kommunikasiya üçün əsas bacarıqlardan biri hesab olunur (Felten, 2008).

Vizual mənanın bütün auditoriyalar tərəfindən eyni səviyyədə qavranılması mümkün deyil, çünki fərqli sosial və mədəni kontekstlərdə olan insanlar vizual məlumatı müxtəlif şəkildə interpretasiya edirlər. Bu səbəbdən vizual məzmunun düzgün anlaşılması vizual savadlılığı zəruri edir. Yəni vizual informasiya dərhal qəbul edilməməli, tənqidi şəkildə analiz olunmalıdır.

Ümumiyyətlə, vizual medianın ictimai rəyin formalaşmasında, milli kimliyin qurulmasında və mədəni narrativlərin yaranmasında rolu artdıqca, beynəlxalq media konfransları da struktur və konseptual dəyişikliklərə məruz qalır. Bu konfranslar artıq yalnız müzakirə platformaları deyil, texnologiya, hekayəçilik, performans, brendinq və mədəni təmsilçiliyi birləşdirən kompleks vizual mühitlər kimi çıxış edir. Bu baxımdan "BRIDGE" Sammiti beynəlxalq media mühitində diqqət çəkən mühüm tədbirlərdən biridir. O, həm konfrans, həm də sərgi funksiyasını birləşdirən unikal bir platforma kimi fəaliyyət göstərir və müxtəlif sahələrdən olan yaradıcıları, liderləri, brendləri, influencerləri, bloggerləri, akademikləri və jurnalistləri bir araya gətirir.

Ümumilikdə, sammit görüşləri beynəlxalq münasibətlərdə dövlət liderləri arasında birbaşa dialoq yaratdığı üçün

mühüm əhəmiyyət daşıyır. Bu görüşlər münaqişələrin idarə olunmasına, problemlərin həllinə və dövlətlərarası münasibətlərin inkişafına töhfə verə bilər. Eyni zamanda, sammitlər liderlər arasında etimadın və qarşılıqlı anlaşmanın formalaşmasına şərait yaradır. Buna görə də sammitlər gərginliyin azaldılması, əməkdaşlığın gücləndirilməsi və beynəlxalq siyasətdə mühüm dəyişikliklərin təşviqi üçün vacib diplomatik vasitə hesab edilir (Druckman & Wallensteen, 2016).

"BRIDGE" Sammiti ilə bağlı "New York Times" qeyd edir ki, bu təşəbbüs müasir dövrdə getdikcə daha çox zəruri hala gəlir. Hiperəlaqəli dünyada əsas sənaye sahələri paralel şəkildə fəaliyyət göstərir və bu, bir çox əməkdaşlıq imkanlarının itirilməsinə səbəb olur. Media, əyləncə, texnologiya, oyun və rəqəmsal sektorlar sürətlə inkişaf etsə də, bu inkişaf həmişə daha effektiv nəticə vermir (The New York Times, 2025).

Sammit media, süni intellekt, oyun sənayesi, texnologiya və marketinq kimi sahələri əhatə edir və hər il yeni yanaşmalar və həll yolları təqdim edir.

MEDİA KONVERGENSİYASI VƏ VİZUAL SAVADLILIQ

Vizual savadlılıq anlayışı XX əsrin 60-70-ci illərində amerikalı pedaqoq John Debes tərəfindən formalaşdırılmışdır. O, bu termini insanın görmə və digər duyğu təcrübələrini inteqrasiya edərək mənanı qavrama və ifadə etmə bacarıqlarını izah etmək üçün istifadə etmişdir. Daha sonra bu sahənin inkişafı məqsədilə Beynəlxalq Vizual Savadlılıq Assosiasiyası (International Visual Literacy Association – IVLA) yaradılmışdır və bu təşkilat vizual savadlılıq üzrə araşdırmaların və resursların yayılmasını təşviq edir.

IVLA-ya görə, vizual savadlılıq müasir dövrdə məlumatın düzgün interpretasiyası, yaradılması və tənqidi təhlili üçün əsas bacarıqlardan biridir (IVLA, n.d.).

Media konvergensiyası kommunikasiya və media sahələrində müxtəlif platformaların, texnologiyaların və məzmun formalarının inteqrasiyası prosesini ifadə edir. Bu proses yayım, nəşriyyat, reklam, musiqi, film və oyun sənayeləri arasında qarşılıqlı əlaqəni gücləndirərək rəqəmsal yaradıcı iqtisadiyyatın inkişafına şərait yaradır. Rəqəmsal texnologiyaların inkişafı media konvergensiyasının əsas hərəkətverici qüvvəsi hesab olunur və bu, yaradıcı sənayelərin strukturunu köklü şəkildə dəyişdirir. Nəticədə, media konvergensiyası müxtəlif sənayelər arasında əməkdaşlığı artıraraq rəqəmsal iqtisadiyyatın daha kompleks və inteqrasiya olunmuş modelini formalaşdırır (Latzer, 2013).

Vizual savadlılığın müasir dövrdə aktuallıq qazanması rəqəmsal texnologiyaların sürətli inkişafı ilə birbaşa bağlıdır. Bu transformasiya nəticəsində beynəlxalq media hadisələri, konfranslar və sammitlər jurnalistika, kino, oyun sənayesi, rəqəmsal incəsənət, virtual reallıq, süni intellekt və interaktiv kommunikasiya kimi sahələri vahid ekosistem daxilində birləşdirir.

BRIDGE SAMMİTİ VƏ MEDİA KONVERGENSİYASI

2025-ci ilin dekabrında keçirilən "BRIDGE Summit" beynəlxalq media hadisələri arasında mühüm platforma kimi çıxış etmişdir. Sammitdə 45 ölkədən 430-dan çox spiker – televiziya aparıcıları, kontent yaradıcıları, siyasətçilər, investorlar, texnologiya mütəxəssisləri və media nümayəndələri iştirak etmişdir. Tədbir 7 əsas istiqamət üzrə 300-dən çox sessiyanı əhatə etmişdir: media, məzmun iqtisadiyyatı, incəsənət və musiqi, oyun sənayesi, texnologiya, marketinq və film istehsalı.

"BRIDGE" Sammiti media konvergensiyasının praktiki nümunəsi kimi müxtəlif media, texnologiya və kommunikasiya sahələrinin vahid platformada inteqrasiyasını nümayiş etdirir. Bu proses ənənəvi media sərhədlərinin zəifləməsinə və məzmunun müxtəlif formatlarda yayılmasına şərait yaradır. Nəticədə, sammit qlobal media mühitində innovasiyanın və yaradıcı sənaye sahələrinin inteqrasiyasını gücləndirir.

"China Daily" nəşrinin qeyd etdiyi kimi, sammitin 7 əsas istiqaməti artıq ayrı-ayrı sənayelər deyil, qarşılıqlı əlaqəli ekosistem kimi fəaliyyət göstərir. Mənbəyə görə, "kontent artıq ayrı sənaye məhsulu deyil, qlobal rəqəmsal iqtisadiyyatın birləşdirici elementinə çevrilmişdir" (China Daily, 2025).

Ümumiyyətlə, "BRIDGE" Sammiti qlobal və regional iştirakçıların media və texnologiya ilə bağlı məsələləri birgə müzakirə edə biləcəyi platforma rolunu oynayır. Sammit həm də gələcəyə dair proqnozların və innovativ ideyaların təqdim olunduğu məkandır. Məsələn, Gary Vaynerchuk çıxışında mobil telefonların yaxın on il ərzində ağıllı eynəklərlə əvəz oluna biləcəyini qeyd etmişdir.

"BRIDGE" Sammiti 2025 media konvergensiyasının bariz nümunəsi kimi texnologiya, məzmun istehsalı və kommunikasiya vasitələrinin vahid rəqəmsal sistemdə birləşdiyini göstərir. Bu proses ənənəvi media sərhədlərini aradan qaldıraraq informasiya axınını və insan qarşılıqlı əlaqəsini müasir rəqəmsal dövrdə yenidən formalaşdırır.

SÜNİ İNTELLEKT SAVADLILIĞI VƏ VİZUAL SÜNİ İNTELLEKT SAVADLILIĞI

Süni intellekt (AI) sənaye inqilabından sonra texnologiyanın sürətli inkişafı nəticəsində formalaşmış və insan əməyini əvəz edən mühüm innovasiyalardan biridir. O, insan zəkasını tələb edən tapşırıqları yerinə yetirə bilən ağıllı maşın və proqram sistemlərinin yaradılmasına əsaslanan elm və texnologiya sahəsidir. Süni intellekt böyük həcmli məlumatlardan istifadə edərək yüksək performans əldə edir və bu gün səhiyyə, istehsalat və təchizat zənciri kimi sahələrdə məhsuldarlığı və səmərəliliyi artıraraq gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir (PK, 1984). Süni intellekt vizual savadlılıqla sıx əlaqəlidir, çünki o, vizual məlumatların yaradılması, analizi və interpretasiyasında mühüm rol oynayır. Bu proses qlobal media mühitində dərin transformasiyalara səbəb olur.

Süni intellekt (AI) savadlılığı müasir təhsil və cəmiyyət üçün mühüm əhəmiyyət daşıyır. AI savadlılığı təkcə texnologiyanı tanımaq deyil, həm də onu anlamaq, qiymətləndirmək və etik şəkildə istifadə etmək bacarığını əhatə edir. AI kompetensiyası isə bu biliklərin praktik tətbiqini, tənqidi düşünməni və özünürefleksiya bacarıqlarını özündə birləşdirir və insanların süni intellektlə məsuliyyətli və səmərəli şəkildə işləməsinə imkan yaradır (Chiu et al., 2024).

Bir sözlə, vizual süni intellekt savadlılığı süni intellekt tərəfindən yaradılan vizual məzmunu anlamaq, şərh etmək, qiymətləndirmək və məsuliyyətli şəkildə yaratmaq bacarığıdır. Bu anlayış maşınların mənanın formalaşmasında iştirakını qəbul edərək ənənəvi vizual və rəqəmsal savadlılığı genişləndirir. O, həmçinin qərəzlərin müəyyən edilməsini və alqoritmik müəllifliyin anlaşılmasını tələb edir.

Birləşmiş Ərəb Əmirliklərinin Süni İntellekt, Rəqəmsal İqtisadiyyat və Uzaqdan İş Tətbiqləri üzrə Dövlət Naziri Omar Sultan Al Olama bildirmişdir ki, süni intellekt media və rəqəmsal kontent sektorunda, xüsusilə məlumat analizi, sorğuların işlənməsi və kontent yaradılması sahələrində geniş imkanlar yaradır: "Eyni zamanda insan və maşın əməkdaşlığını gücləndirməyi tələb edən çağırışlar da mövcuddur. Süni intellekt musiqi yarada bilsə də, hələlik insan yaradıcılığını tam şəkildə əvəz edə bilmir" (BRIDGE, 2025).

NƏTİCƏ: Beynəlxalq media tədbirləri və konfransları təkcə medianın qlobal səviyyədə formalaşması və əməkdaşlığın güclənməsi deyil, eyni zamanda dövlətlərin beynəlxalq kommunikasiya sistemlərində təsir gücünü artırması deməkdir. Bu tədbirlərə ev sahibliyi edən ölkələr və iştirakçı dövlətlər qlobal media platformaları vasitəsilə öz mesajlarını dünyaya çatdırırlar. "BRIDGE" Sammiti 2025 buna bariz nümunədir.

Məsələn, BƏƏ-nin Süni İntellekt üzrə Dövlət Naziri Omar Sultan Al Olama süni intellektin kontent istehsalının avtomatlaşdırılması və fərdiləşdirilməsi sahəsində sürətli inkişafını vurğulamış, eyni zamanda rəqəmsal dövrdə orijinallıq və ictimai etimadla bağlı mühüm suallar qaldırmışdır. Seneqalın keçmiş Prezidenti Macky Sall süni intellektin sosial təsiri fonunda qlobal liderlik və diplomatiya arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd etmişdir. Suriyanın İnformasiya Naziri Həmzə əl-Mustafa isə daha firavan və əlaqəli media gələcəyi üçün əməkdaşlıq yanaşmalarını önə çəkmişdir. Böyük Britaniyanın keçmiş Mədəniyyət, Media və İdman naziri Lucy Frazer isə media və mədəniyyət siyasətinin tənzimləyici aspektlərinə diqqət yetirmişdir.

Beynəlxalq media konfransları müxtəlif ölkələrdən jurnalistləri, media nümayəndələrini və ekspertləri bir araya gətirərək qlobal informasiya mübadiləsini gücləndirir. Bu konfranslar yeni texnologiyaların, trendlərin və kommunikasiya strategiyalarının müzakirəsinə şərait yaradır və nəticə etibarilə qlobal media əməkdaşlığının inkişafına töhfə verir (McChesney, 2001).

Nəticə olaraq, beynəlxalq media konfransları rəqəmsal dövrdə dərin transformasiya yaşayır. Onlar artıq yalnız institusional görüşlər deyil, kommunikasiya, texnologiya, mədəniyyət və gücün kəsişdiyi vizual və immersiv mühitlərə çevrilmişdir və bu proses vizual savadlılığın əhəmiyyətini daha da artırır.

Vizual savadlılıq XXI əsrdə yalnız media bacarığı deyil, həm də texnoloji savadlılıq, etik düşüncə, tənqidi analiz və mədəniyyətlərarası kommunikasiya kimi multidissiplinar kompetensiyaları əhatə edən əsas bacarıqlardan biridir.

İstifadə edilmiş ədəbiyyat

1. Arsenault, A. H., & Castells, M. (2008). The structure and dynamics of global multi-media business networks. *International Journal of Communication, 2*, 707-748.
2. BRIDGE. (2025, December 10). Gary Vaynerchuk at BRIDGE Summit 2025: Mobile phones will be obsolete in a decade. https://www.bridgesummit.com/en/media/press-release/gary-vaynerchuk-at-bridge-summit-2025-mobile-phones-will-be-obsolete-in-a-decade
3. BRIDGE. (2025, December 10). Omar Sultan Al Olama: The UAE is leading a proactive approach to regulating artificial intelligence globally. https://www.bridgesummit.com/en/media/press-release/the-uae-is-leading-a-proactive-approach-to-regulating-artificial-intelligence-globally
4. Chiu, T. K., Ahmad, Z., Ismailov, M., & Sanusi, I. T. (2024). What are artificial intelligence literacy and competency? A comprehensive framework to support them. *Computers and Education Open, 6*, 100171. https://doi.org/10.1016/j.caeo.2024.100171
5. Druckman, D., &Wallensteen, P. (2016). Summit meetings: Good or bad for peace? *Global Summitry, 2*(2), 71-92. https://doi.org/10.1093/global/gux001
6. Felten, P. (2008). Visual literacy. *Change: The Magazine of Higher Learning, 40*(6), 60–64. https://doi.org/10.3200/CHNG.40.6.60-64
7. Kress, G. (2003). *Literacy in the new media age*. Routledge.
8. Latzer, M. (2013). Media convergence. In R. Towse & C. Handke (Eds.), *Handbook on the digital creative economy* (pp. 123-133). Edward Elgar Publishing.
9. McChesney, R. W. (2001). Global media, neoliberalism, and imperialism. *Monthly Review, 52*(10), 1-19.
10. New York Times. (2025). One BRIDGE to unite them all: BRIDGE Summit looks to become the largest cross-sector media event in the world. The New York Times Company. https://www.nytimes.com/paidpost/bridge-summit-abu-dhabi/uae-national-media-office-bridge-summit-2025.html
11. PK, F. A. (1984). What is artificial intelligence? In *Success is no accident: It is hard work, perseverance, learning, studying, sacrifice and most of all, love of what you are doing or learning to do* (p. 65).
12. Yuan, S. (2025, November 25). A summit to BRIDGE the gaps in the global media ecosystem. *China Daily*. https://epaper.chinadaily.com.cn/a/202511/25/WS692507a2a310ec22b1fd0b12.html

Насибова Алмаз Махмуд гызы
Доктор философии по филологии
Директор Академии телерадиовещания
при ЗАО «Азербайджанское телевидение и радиовещание»
almazmahmud@gmail.com
https://orcid.org/0009-0008-8731-5625

Визуальная грамотность на международных медиа-мероприятиях:Опыт «bridge»

Резюме

Требования современной глобальной медиасреды предполагают формирование транснациональных платформ, основанных не только на профессиональном нетворкинге и политическом диалоге, но и на интеграции визуальной коммуникации, иммерсивных технологий, искусственного интеллекта и культурной дипломатии. Поэтому международные медиа-мероприятия последних лет существенно отличаются от прежних с точки зрения цифровой коммуникации. В этих процессах на первый план выходит визуальная

грамотность, а способность аудитории правильно воспринимать и интерпретировать медиаконтент становится ключевым навыком.

Исследования в рамках международных медиа-саммитов и конференций анализируют понятие визуальной грамотности, а также подчеркивают его исключительную значимость. В частности, представлены конкретные подходы на примере саммита «BRIDGE», состоявшегося в городе Абу-Даби (Объединённые Арабские Эмираты). Исследуются взгляды спикеров саммита, прошедшего в декабре 2025 года, по поводу социальных медиа и визуальной коммуникации.

В рамках медиаконвергенции, включающей такие формы медиа, как телевидение, радио, печатные издания, интернет-платформы, социальные медиа, мобильные приложения и цифровой контент, исследование показывает, что современные медиа-саммиты доносят технологические инновации до аудитории посредством мультимедийной среды. Глобальные медиа-дискуссии демонстрируют как положительные, так и отрицательные стороны визуализации и подтверждают, что визуальная грамотность играет центральную роль в снижении связанных с этим рисков.

Ключевые слова: визуальная грамотность искусственного интеллекта, саммит «BRIDGE», визуальная грамотность, медиаконвергенция, глобальный меседж, цифровая трансформация.

Almaz Mahmud Nəsibova, PhD in Philology
Director, Television and Radio Academy,
Azerbaijan Television and Radio Broadcasting CJSC
almazmahmud@gmail.com
https://orcid.org/0009-0008-8731-5625

Vısual lıteracy approaches of ınternatıonal medıa events: ın the context of the "brıdge" summıt

Summary

The demands and expectations of the contemporary global media environment, alongside professional networking and political dialogue, increasingly reflect transnational platforms in which visual communication, immersive technologies, artificial intelligence, and cultural diplomacy intersect. Therefore, recent international media events differ significantly from earlier forms of communication in terms of digital transformation. Within these processes, visual literacy has become a central concept, emphasizing the audience's ability to properly understand and interpret media content.

This study analyzes the concept of visual literacy within international media summits and conferences and highlights its essential importance. In particular, it examines the "BRIDGE" Summit held in Abu Dhabi, United Arab Emirates, as a case study. The research focuses on the perspectives of speakers at the December 2025 summit regarding social media and visual communication.

Drawing on theories of media convergence, visual culture, and digital communication; including traditional media such as television, radio, and newspapers as well as digital platforms, social media, mobile applications, video, and online content – this study demonstrates that contemporary media summits disseminate technological innovation through multimedia environments. Global media discussions reveal both positive and negative dimensions of visual communication, highlighting visual literacy as a critical tool for addressing these challenges.

Keywords: Visual Artificial Intelligence Literacy, BRIDGE Summit, Visual Literacy, Media Convergence, Global Communication, Digital Transformation

Rəyçi: dos. Aynur Nəsirova

DOI: 10.24412/2218-7588-2026-2-183-188

Сун Гуансяо
Докторант Факультета Журналистики
Бакинского государственного университета
E-mail: 844167974@qq.com
Современные родители сталкиваются с необходимостью адаптироваться к новым условиям, в которых медиаграмотность становится важной составляющей жизни. В этом контексте медиаобразование выступает важным компонентом воспитания, помогая не только передавать семейные ценности, но и формировать осознанное отношение к медиареальности[11].

3.3. Реализация координирующей воспитательной роли общества

Медиаграмотное образование подростков требует формирования координированного механизма взаимодействия школы, семьи и общества. Государственные органы должны последовательно совершенствовать систему интернет-управления, усиливать надзорную ответственность платформ новых медиа, а также улучшать механизмы модерации контента. Особое внимание следует уделять борьбе с распространением ложной информации, кибербуллингом, низкопробным контентом и недобросовестным маркетингом, а также оптимизации алгоритмов рекомендаций с целью сокращения пространства для распространения вредоносного контента и создания более безопасной цифровой среды для подростков.

На общественном уровне необходимо развивать систему социальной поддержки с участием различных субъектов. Медиаорганизации должны усиливать чувство социальной ответственности, продвигать позитивные и здоровые ценностные ориентиры и повышать качество информационных продуктов. Общественные сообщества и некоммерческие организации могут распространять знания о медиаграмотности посредством лекций, просветительских кампаний, социальных видеороликов и офлайн-мероприятий, тем

самым повышая общий уровень осведомлённости семей и подростков.Интернет-платформы, в свою очередь, должны укреплять механизмы защиты подростков, предоставлять качественные образовательные ресурсы и контент, соответствующий возрасту пользователей, а также направлять подростков к рациональному использованию цифрового пространства. Это позволит осуществить переход от «пассивного потребления» к «активному и осознанному использованию» интернета и дополнительно усилить воспитательную функцию цифровой среды в целом.

В свою очередь,эта проблема в настоящее время обрела пристальное внима-ние не только со стороны науки, но и со стороны государства, что еще больше подкрепляет ее актуальность в современных условиях[12].

3.4. Формирование у подростков способности к самостоятельному обучению

Медиаграмотное образование можно перевести на русский следующим образом:Медиаграмотное образование направлено на формирование у подростков способности к самостоятельному суждению и саморегуляции. Следует уделять особое внимание развитию независимого мышления и критического восприятия, помогая им сохранять рациональность при столкновении со сложной сетевой информацией, избегать слепого подражания и следования трендам, а также уметь самостоятельно проверять информацию и анализировать её с разных точек зрения.

Общественные и образовательные субъекты должны усиливать правовое просвещение в сфере интернета и медиаэтики, чтобы подростки понимали, что цифровое пространство не является зоной вне закона, осознавали границы ответственности за свои действия и постепенно формировали привычки нормативного поведения и рационального взаимодействия в сети. В процессе воспитания необходимо формировать у подростков здоровую систему ценностей в интернете, помогать им критически относиться к культуре «популярности» и виртуальной идентичности, избегая чрезмерной зависимости от развлечений и сравнений.Школа и семья могут поощрять активное участие подростков в создании контента и социальной практике, позволяя им через реальное самовыражение и производство информации развивать медиакомпетентность и социальную активность, а также рассматривать новые медиа как инструмент обучения и личностного роста, тем самым обеспечивая позитивную трансформацию медиапотребления.

В связи с широким доступом к сети Интернет, с развитием моделей медиаманипуляций необходимо менять общественное мнение, так как сегодня недостаточно просто знать о фейковых новостях или дезинформации (фейкньюз) или медиаманипуляции. На сегодняшний день необходимо обладать высоким уровнем медиаграмотности, то есть определёнными навыками, умениями и знаниями в области медиа и медиаграмотности для защиты от влияния медиаманипуляций в процессе медиаобразования [13].

ЗАКЛЮЧЕНИЕ: Быстрое развитие технологий новых медиа глубоко изменило способы получения информации и модели социального взаимодействия подростков, а также сделало медиаграмотность важным компонентом их общей компетентности в новую эпоху. В условиях фрагментации информационных потоков, многообразия медиапрактик и усложнения цифровой среды опора лишь на один субъект уже не способна удовлетворить реальные потребности гармоничного развития подростков. Школа, семья, общество и сами подростки должны сформировать координированную воспитательную систему, посредством совершенствования образовательной системы, оптимизации интернет-среды, усиления семейного сопровождения и развития способности к самостоятельному обучению постоянно повышая информационную грамотность, критическое мышление и чувство ответственности у подростков.

Медиаграмотное образование является не только практической необходимостью адаптации к условиям цифровой эпохи, но и важным путём формирования нового поколения, обладающего рациональным мышлением, социальной ответственностью и инновационными способностями. В перспективе необходимо дальнейшее продвижение медиаграмотного образования в направлении системности, регулярности и практической ориентированности, полноценное использование позитивного потенциала новых медиа, а также содействие переходу подростков от «пассивного потребления информации» к «активному использованию медиа», что будет способствовать их всестороннему развитию и заложит прочную основу для формирования здоровой и упорядоченной цифровой экосистемы и подготовки высококвалифицированных кадров для информационного общества.

Использованная литература

1. Назметдинова Ирина Сайрановна, & Куличев Кирилл Михайлович (2024). Рекомендации по формированию медиаграмотности в условиях школьного обучения. Педагогический вестник, (34), 44-46.
2. Федоров, А.В. Развитие медиакомпетентности и критического мышления студентов педагогического вуза / А.В. Федоров. – М.: Изд-во МОО ВПП ЮНЕСКО «Информация для всех». – 2007. – 616 с.
3. Липшиц, Я. Разработка стратегии медиа- и информационной грамотности / Я. Липшиц // Медиа- и информационная грамотность в обществах знания. М-во культуры Российской Федерации, Федеральное агентство по печати и массовым коммуникациям, Комис. Российской Федерации по делам ЮНЕСКО. – Москва: МЦБС, – 2013. – С. 169-177
4. Быков, И.А. Медиаграмотность как часть системы информационной безопасности / И.А.Быков., М.В. Медведева // Вестник Московского государственного областного университета. Серия: История и политические науки. – 2020. – № 1. – С. 24-32
5. Хльзова, Н.Ю. Медиаобразование и медиакомпетентность в эпоху информационного общества / Н. Ю. Хльзова // Вестник Томского государственного университета. – 2011. – №341. – С. 190-197
6. Филькина Ольга Михайловна, Малышкина Анна Ивановна, Кочерова Ольга Юрьевна, Бобошко Алексей Владимирович, Воробьева Елена Анатольевна, & Долотова Наталья Васильевна (2026). ФАкторы риска интернет-зависимости и ее последствий для здоровья у подростков 15–17 ЛЕТ. Анализ риска здоровью, (1), 86-94. doi: 10.21668/health.risk/2026.1.08

7. Лысенко А.Д., & Миниханова В.В. (2025). Влияние алгоритмов рекомендаций на формирование информационного пузыря у пользователя. Форум молодых ученых, (4 (104)), 58-64.
8. А.В. Радевский, & И.С. Петронюк (2026). Возможности и противоречия киберсоциализации подростков в условиях общеобразовательной школы. Мир науки, культуры, образования, (1 (116)), 171-175. doi: 10.24412/1991-5497-2026-1116-171-175
9. Кикоть П.А. , Халаева Р.А. , & Чекмарёва М.М. (2026). Использование сторителлинга и создания литературных карт для повышения мотивации к чтению у подростков. Вестник науки, 1 (2 (95)), 444-450.
10. Каримова Малика Абди-Хафизовна, Нуралиева Наргиза Бозорбоевна, & Халилова Лайло Равшановна (2024). Медиаграмотность в сфере образования. Eurasian Journal of Technology and Innovation, 2 (1-1), 26-30.
11. Людмила Александровна Грицай (2025). Роль медиаобразования в формировании семейных воспитательных ценностей. Знак: проблемное поле медиаобразования, (1 (55)), 17-28. doi: 10.47475/2070-0695-2025-55-1-17-28
12. Матвиенко Софья Васильевна (2026). Актуальные проблемы обеспечения информационной безопасности несовершеннолетних в сети интернет. Образование и право, (2), 829-834.
13. Назметдинова Ирина Сайрановна, Куличев Кирилл Михайлович, & Столярова Светлана Сайрановна (2024). Понятия «медиаграмотность» и «медиаобразование» в отечественной и зарубежной науке. Проблемы современного педагогического образования, (85-3), 236-239.

Yan Suz
Bakı Dövlət Universitetinin doktorantı
E-poçt: 2425415100@qq.com
ORCİD İD: 0009-0000-2591-0308

Yeni media şəraitində yeniyetmələrin media savadlılığı təhsili haqqında bəzi mülahizələr

Xülasə

Yeni medianın sürətli inkişafı şəraitində internet yeniyetmələrin təhsil alması, ünsiyyət qurması və informasiya əldə etməsi üçün mühüm vasitəyə çevrilmişdir. Yeni media yeniyetmələrə geniş imkanlar və rahatlıq yaratmaqla yanaşı, onların informasiyanı ayırd etmək bacarığına, dəyərlərinin formalaşmasına və media istifadə vərdişlərinə də yeni tələblər irəli sürür. Yeniyetmələr arasında media savadlılığının inkişaf etdirilməsi və onlarda mediaya düzgün münasibətin formalaşdırılması cəmiyyətin diqqət mərkəzində olan mühüm məsələlərdən birinə çevrilmişdir. Qısa video platformalarının və sosial şəbəkələrin geniş yayılması ilə yeniyetmələrin internet məlumatları ilə təmas tezliyi artmış, media istifadə formaları isə əhəmiyyətli dərəcədə dəyişmişdir. Buna görə də media savadlılığı təhsilinin gücləndirilməsi yeniyetmələrin mediadan səmərəli istifadəsinə istiqamət vermək və onların informasiyanı tənqidi qiymətləndirmə bacarıqlarını artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalədə yeni media mühitində yeniyetmələrin media ilə təmasının xüsusiyyətləri nəzərdən keçirilir, media savadlılığı təhsilində mövcud problemlər təhlil edilir və məktəb, ailə və cəmiyyət səviyyəsində media savadlılığının inkişaf etdirilməsi yolları araşdırılır ki, bu da yeniyetmələrin inkişafında müxtəlif tərəflərin müsbət rolunu daha səmərəli şəkildə həyata keçirməyə imkan verir.

Açar sözlər: yeni media; yeniyetmələr; media savadlılığı; media təhsili.

ЯнСюэ
Doctoral student at Baku State University
E-mail:2425415100@qq.com
ORCID ID: 0009-0000-2591-0308

Some reflections on media literacy education for adolescents In the context of new media

Summary

Against the backdrop of the rapid development of new media, the Internet has become an important channel for adolescents to study, communicate, and obtain information. While new media provide convenience and opportunities, they also place new demands on adolescents' information literacy, value formation, and media usage habits. Strengthening media literacy education and helping adolescents develop a correct understanding of media have become important social concerns. With the widespread popularity of short-video platforms and social media, adolescents are increasingly exposed to online information, and their patterns of media use have changed significantly. Therefore, enhancing media literacy education is of great significance for guiding adolescents toward rational media use and improving their ability to evaluate information critically. Based on the characteristics of adolescents' media exposure in the new media environment, this paper analyzes the existing shortcomings in media literacy education and explores approaches to strengthening adolescents' media literacy from the perspectives of schools, families, and society, so as to better promote the positive role of various social actors in adolescents' development.

Keywords: new media; adolescents; media literacy; media education.

Rəyçi: dos. T.Əliyev

DOI: 10.24412/2218-7588-2026-2-195-198

Kənan Vuqar oğlu Novruzov
Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsinin doktorantı
n.kenana@gmail.com
ORCID: 0009-0003-3220-7276

XƏBƏR JURNALİSTİKASINDA MÜŞAHİDƏ OLUNAN YENI MEYİLLƏR

XÜLASƏ: Xəbər jurnalistikası jurnalistikanın ən spesifik və aktual istiqamətlərindəndir. Təbii ki, bu, xəbər janrının özünün spesifik xüsusiyyətləri ilə bağlıdır. Media nəzəriyyəçiləri xəbərə fərqli cür təriflər versələr dəümumi yanaşma bundan ibarətdir: xəbər baş verən hadisə haqqında auditoriyaya operativ, obyektiov yə yığcam məlumat verən jurnalistika janrıdır.

Jurnalistikanın daim yeniliklərə məruz qalması, məzmun və forma baxımından dəyişilməsi təbii ki, onun digər janrları kimi, xəbərə də siraət edir.

Ümumiyyətlə, həm dünyada, həm də Azərbaycanda jurnalistika prinsipləri və standartları eyni qalmır. Xüsusilə texnologiyanın inkişafı, sosial sifariş, həmçinin cəmiyyət həyatında baş verən ictimai – siyasi proseslər medianın özünün də "rəngini dəyişməsinə" səbəb olur. Bu isəözünü təkcə məzmunda yox, həm də formada göstərir.

XX əsr jurnalistikası XIX əsr jurnalistikasından xeyli fərqlənirdi. Bu baxımdan XXI əsr jurnalistikanın ötən əsrin media mühitindən fərqləndiyini də qeyd etməliyik. "21-ci əsrdə jurnalistika dinamik və daim dəyişən bir sahədir və hər gün yeni çətinliklər və imkanlarla üzləşir. Saxta xəbərlərin sürətlə yayılmasından süni intellektin yüksəlişinə, ənənəvi biznes modellərinin tənəzzülündən dərin araşdırma jurnalistikasına ehtiyaca qədər peşə bilik və bacarıqların daim yenilənməsini tələb edir" [11]. Bu dəyişikliklərin daha çox jurnalistikanın xəbər janrında özünü göstərməsi heç də təsadüfi deyil. Bu, birbaşa olaraq xəbərin bir janr kimi media mühitindəki aparıcı yeri ilə bağlıdır. "Xəbər olaydır. Amma hər olay xəbər deyil" [2, 11]. Xəbərin olaydan asılı olması, təbii ki, onun jurnalistika janrları arasında əhəmiyyətini artırır. Beləliklə, xəbər jurnalistikasında müşahidə olunan yeni meyillərin nəzəriyyəçilərin xüsusi tədqiq etməsi anlaşılandır.

Açar sözlər: jurnalistika, xəbər, informasiya, meyil

GİRİŞ: Xəbər dünyada heç vaxt indiki qədər aktual olmayıb. Bu, onunla bağlıdır ki, dünya tarixi ixtimai – siyasi proseslərdə heç vaxt indiki qədər zəngin olmayıb. Xəbər nəinki kəmiyyət baxımından çoxdur. Həm də onların bir çoxunun ömrü bəzən dəqiqələrləölçülür. Türkiyə jurnalistika nəzəriyyəçisi Camal Yıldıza görə, "cəmiyyət iqtisadiyyat, siyasət, sosial həyat, təhsil və elm, turizm və mədəniyyət və s.yüzlərlə sahə xəbər obyekti ola bilər" [3]. Bu, o deməkdir ki, xəbər hər yerdədir. Belə bir vəziyyətdə xəbər jurnalistlərinəin öhtəlikləri təbii ki, dəyişir.

ƏSAS HİSSƏ: Xəbər jurnalistikasında qəbul olunan bəzi ümumi standartlar, o cümlədən obyektivlik, operativlik, dəqiqlik, məlumatın dəqiqləşdirilməsi, lokoniklik, aydınlıq, tamlıq və s. uzun müddətdir ki, dəyiməz qalır. Lakin müşahidə olunan yeni meyillər də var. Bunlardan ən başlıcası xəbərin strukturu ilə bağlıdır. Belə ki, klassik jurnalistika nəzəriyyəsinə görə xəbər 4NKH düsturu əsasında yazılmalı, yəni "Nə?", "Nə vaxt", "Niyə?", "Necə?", "Kim?", "Harada?" suallarına cavab verməlidir. Son illərdə isə praktiktakada bu prinsipin öz aktuallığını itirdiyini görürük. Xüsusilə nəhəng informasiya agentlikləri xəbəri bu 4NKH düsturu ilə yazmaqdan imtina edirlər. Artıq "Bir cümlə bir xəbərdir" prinsipi daha effektiv hesab olunur. Bunun bir neçə səbəbi var. Birincisi, şübhəsiz ki, operativlik amili ilə bağlıdır. Ayrı- ayrı media subyektləri arasında rəqabət informasiyanın birinci çatdırılmasınışərtləndirir. Hətta bəzi media mütəxəssisləri bu konteksdə iddia edirlər ki, xəbərin ikinci verilməsi artıq onu ictimailəşdirməməyə bərabərdir. Odur ki, jurnalistlər bir çox halda artıq baş vermiş hadisə haqqında sadəcə bir cümləlik xəbər verməklə kifyətlənə bilirlər. Bu, özünü həm peşəkar mediada, həm də vətəndaş jurnalistikasında göstərir. Hesab olunur ki, bu məsələlərdəən çətin olunan auditoriyanın diqqətini çəkə bilməkdir. Əgər oxucu, tamaşaçı və ya dinləyici informasiyanı ilk "X" media subyektində oxudu, izlədi və ya dinlədisə böyük ehtimalla prosesin dinamikasın məhz oradan təqib edəcək. Bu mənada xəbər jurnalistikasında xüsusilə indiki dövrdəən çətin və vacib məsələlərdən biri auditoriyanın diqqətini çəkmək, onunla "ünsiyyətə girməkdir".

İkinci bir tərəfdən, sürətlilik faktoru jurnalistləri daha çevik olmağa, dolayısı ilə həm də lokoniikliyəüstünlük verməyə vadar edir. Saytların az olduğu, sosial şəbəkələri hələ meydana çıxmadığı, qəzetlərin aktuallığını qoruduğu zamanda vəziyyət fərqli idi. Mətbuat orqanları, demək olar, eyni vaxtda oxuculara təqdim olunurdu: "Bakı – Baku" axşam qəzeti istisna olmaqla digər nəşrlər səhər saatlarında köşklərdə olurdu. Beləliklə, bir tərəfdən oxucular istədikləri qəzeti ala bilirdilər. Onların seçimi daha çox oxunaqlılıq, etibar üzərində qurulurdu. İkincisi isə redaksiya heyətinə xəbərlər üzərində ciddi işləməyə, lazımi dəqiqləşdirmələri, redaktə, korrektə mərhələlərini arzuolunan səviyyədə aparmağa imkan olurdu.

Bu günkü auditoriya üçün isə sürət vacibdir. "Daim inkişaf edərək sürətlə dəyişən texnologiya insanların gündəlik həyatını və bütövlükdə cəmiyyətin mənzərəsini dəyişməkdədir. Bu isə yeni informasiya dövrünün başlanması deməkdir" [4, 19]. Jurnalistlər xəbər istehsalçısıdırlar. Onlar istehlakçının, yəni auditoriyanın maraqlarını nəzərə almalıdırlar. Bu baxımdan müasir xəbərçilikdə müşahidə olunan əsas meyillərdən birinin hadisə baş verən andaca ilkin informasiyanı verib, sonra detalları əlavə etmək olması təəccüblü və təsadüfi deyil.

Başqa bir məsələ ondan ibarətdir ki, xəbərə etibar tədricən azalıb. Bu, xeyli dərəcədə informasiya müharibəsi ilə bağlıdır. Professor Qulu Məhərrəmli göstərir ki, "çağdaş dövrümüzdə keyfiyyətli informasiya axını cəmiyyətin

inkişafına ciddi təsir edir, onun sosial- psixoloji mənzərəsini şəkilləndirir və demokratik proseslərə təkan verir"[4, 60]. Mətbuatın, o cümlədən xəbərin ictimai rəyə təsir imkanlarından bəzən sui – istifadə olunur. Bu, son dövrlərdə xüsusi kütləvi hal alıb. Belə ki, bir sıra hallarda xəbər adı altında yayılan dezinformasiyalardan ictimai təyi çaşdırmaq məqsədilə istifadə olunur. Xüsusilə beynəlxalq münasibətlərlə bağlı məsələlərəd belə nümunələrlə daha tez- tez rast gəlinir. "Sosial bəla olan yalan xəbərlər bir ölkənin daxilində deyil, bütün dünyanı əhatə edir. Hətta mən deyərdim ki, dövlətlərin işinə təhlükə yaradır"[6, 274]. Bu, özü də birbaşa olaraq yeni jurnalistikanın xüsusiyyətləri ilə bağlıdır. Belə ki, xəbər istehsalçıları başa düşürlər ki, qəzetdən fərqli olaraq yeni media mühitində kontentə müdaxilə etmək, hətta lazım gələcəyi halda onu silmək imkanı vat. Bu, bəzi hallarda jurnalistlərin məsuliyyət hissini azaldır. Son dövrlər cəmiyyət həyatında "informasiya çirkliliyinin", media mühitində dezinformasiyaların artması da birbaşa bu konteksdən qiymətləndirilməlidir.

Artıq elə vəziyyət yaranıb ki, informasiya ilə dezinformasiyanı fərqləndirmək xeyli çətinləşib. Bunun texnoloji, sosioloji, psixoloji səbəbləri var. Ən təhlükəli məqam isə ondan ibarətdir ki, saxta xəbələr ictimai rəyə təsir edəndən sonra nə etsən də, həmin təsiri aradan qaldırmaq olmur. Məsələn, 2026-cı ilin iyunun ABŞ-nin CNN media kooperasiyasıİsrailin İranla müharibədə Azərbaycana qoşun göndərməsi, dolayısı ilə rəsmi Bakının savaşda iştirakına dair "ekskluziv" xəbər yaymışdı [7]. Əlbəttə, bu "sensasiyalı" məlumat həm daxili, həm də beynəlxalq ictimaiyyətdə geniş müzakirələrə səbəb olmuşdu. Sonradan isə məlum olmuşdu ki, bu, sadəcə informasiya müharibəsinin tərkib hissəsidir.

Hər gün feyk xəbərlərlə rastlaşa bilərik. "Feyk xəbərlər informasiya müharibəsinin əsas atributlarından biridir" [6, 271]. Ayrı-ayrı müharibələrlə bağlı müntəzəm olaraq yayılan saxta xəbərlər görə bilərik. Adətən belə xəbərlər "etibarlı" və ya "adının açıqlanmasını istəməyən" mənbələrə istinadən yayılır. Müşahidələr göstərir ki, belə məlumatlar bir çox halda sifarişli və məqsədli şəkildə ictimailəşdirilir.

Bəzən də cəmiyyətdə ajiotaj yarada biləcək hadisələrlə bağlə qeyri-dəqiq, sensasiya məzmunlu xəbərlər yayılır. Məsələn, COVİD-19 pandemiyası dövründə oxşar kontentlərin şahidi olmuşuq. Hansı ki, həmin materialların bir çoxu sonradan özünü doğrultmadı.

Müasir xəbərçiliyin növbəti əsas meyillərindən biri bu janrın formalaşma texnologiyasında da yeniliyin müşahidə olunmasıdır. Əvvəllər jurnalistlər əksər hallarda hadisə yerindən xəbərlər hazırlayırdılar. Həmçinin özəl mənbələr, mətbuat konfransları da jurnalistlər üçün mühüm qaynaqlar hesab olunurdu. İndi "sosial şəbəkə xəbərçiliyi" formalaşmaqdadır.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı ictimai-siyasi xadimlər, o cümlədən dövlət və hökumət başçıları "sosial şəbəkə xəbərçiliyindən" geniş istifadə edirlrə. Başa düşürlər ki, jurnalistlər onlar sosial media səhifələrini izləyirlər. Beləliklə, öz siyasətlərinə uyğun nə isə yazır və bunun asanlıqla dünyada yayılmasına nail olurlar. Məsələn, İran parlamentinin sədri Məhəmmədbaqer Qalibaf iyunun 21-də ABŞ ilə danışıqlarla bağlıözünün "X" hesabında Ağ Ev rəhbəri Prezidenti Donald Trampın təhdidlərinə cavab verib [9]. Həm dünyada, həm də Azərbaycanda xeyli media subyekti həmin bəyanatı tirajlayıb. Beləliklə, bütün dünya İranın ABŞ ilə bağlı son mövqeyini öyrənib.

Xüsusilə son zamanlar liderlər fikirlərinin ictimailəşdirilməsi üçün bu üsuldan geniş istifadə edirlər. Daha onların geniş mətbuat konfransları keçirmələrinə o qədər də ehtiyac olmur. Ələlxüsus, Tramp "Trus social" social media hesabında gün ərzində bir neçə dəfə paylaşım etməklə öz fikirlərinin dünyada yayılmasına nail olur. Beləliklə, təxminən artıq elə vəziyyət yaranıb ki, xəbər jurnalistlərin "ayağına gəlir". "İnternet- jurnalistika obrazında keyfiyyətcə yeni mədəni və sivil fenomenlə üzləşdiyimizi deməyə əsasımız var. Belə bir qənaətə ən azı ona görə gəlirik ki, internet internet- jurnalistikanı əvvəlcə de- fakto doğurdu və yalnız bundan sonra jurnalistika interneti öz peşə fəaliyyəti sahəsi kimi mənimsəməyə başladı və veb-jurnalistikanı de-yure(faktiki, hüquqi baxımdan) tanıdı [1, 5].

"Sosial şəbəkə xəbərçiliyinin" səciyyəvi xüsusiyyətlərindən biri budur ki, xəbərlərdə obyektivlik prinispi getdikcə unudulur, arxa plana keçir. Çünki klassik xəbərçilik baş vermis hadisəni auditoriyaya çatdırmaqdır. İndi isə əksər hallarda xəbərlərdə subyektiv mövqeyin ehtiva olunduğunu görürük. Bu, xeyli dərəədə yuxarıda qeyd olunan məqamlar- ictimai- siyasi şəxslərin xəbərin ictimai rəy yaratmaq imkanından və texnologiyanın təklif etdiyi fürsətlərdən istifadə etmələri ilə bağlıdır.

Tramp və digər liderlərin özlərinin sosial şəbəkə hesablarında elan etdikləri, sonradan media orqanları vasitəsilə ildırım sürəti ilə dünyada yayılan bəyanatların özünü doğrultmadığını görmüşür. Bu, bir daha onu deməyə əsas verir ki, xəbərin müasir inkişaf meyillərindən birində onun informasiya müharibəsinin ciddi komponentlərindən birinə çevrilməsi və xəbərə etibarlılığın azalmasıdır.

NƏTİCƏ: Göründüyü kimi, xəbər janrı artıq əhəmiyyətli dərəcədə dəyişib. Bu gün xəbərin prioritet funksiyaları bilgiləndirmək və maarifləndirmək deyil. Həmçinin xəbəri hazırlamaq tələbləri, ona yanaşma üsulları, xəbərə verilən meyarlar da fərqlidir. Belə bir şəraitdə media savadlılığı anlayışının son zamanlar geniş yayılması və artıq orta məktəblərdə tədris edilməsi təsadüfi hesab olunmamalıdır. "Media savadlılığı yalnız xəbərin doğruluğunu yoxlamaq deyil, həm də bu xəbərin hansı məqsədlərlə yayımlandığını sorğulamaqdır"[5,7]. Nəzərə almaq lazımdır ki, xəbər yalnız jurnalisləri yox, hər birimizi maraqlandıran, şüurumuza, davranış və qərarlarımıza təsir edən vasitədir. "İnformasiya ilə işləyənlər, onu cəmiyyətəçatdıranlar son dərəcə həssas olmalıdırlar. Təsadüfi deyil ki, kütləvi informasiya vasitələri (media) müasir idarəetmənin sütunlarından biri kimi dəyərləndirilir"[8].

Bu mənada artıq aparıcı jurnalistika janrlarından biri kimi xəbərdən gözləntilər də fərqlidir. Türkiyə Prezident Administrasiyanın Kommunikasiya İdarəsinin keçmiş rəisi, professor Fəxrəddin Altunun dediyi kimi, informasiya

müharibəsindən dezinformasiya müharibəsinə keçid edən media nizamının şahidiyik[10]. Belə bir şəraitdə təbii ki, xəbər janrının funksiyası da dəyişir.

Beləliklə, bu gün müasir xəbərçilikdə tamamilə yeni meyillər müşahidə olunur. Bu meyillər jurnalistlərin iş prinsipinə də bu və ya digər formada təsir edir. Nəticə etibari ilə həm də peşəkarlıq ölçüləri dəyişir.

İstifadə edilmiş ədəbiyyat

1. Babayev Z. "İnternet jurnalisika, Bakı-2021, Bakı Universiteti nəşriyyatı, S139-5
2. Bəşirova A, Kərimova A, Vəkilova D, "Xəbərçilik", Bakı, 2007, 196, 11
3. C. Yıldız. Yazılı Basında Metin ve Manşet. İstanbul, Teknik Yayıncı, 2000, s97
4. Məhərrəmli Q. "Jurnalistikanın missiyası", s 175-19, "Füyuzat", 2022
5. Niftəliyeva K, Nəcəfli M. "Media savadlılığı, Bakı-Mimta Yayımları, 227-7
6. Rüstəmov A. "Jurnalistika Kütləvi İnformasiya Vasitələri sistemi kimi, Bakı, SKYe nəşriyyatı,398-274

Internet resursları

7. CNN-in Azərbaycanlabağlı "eksklüziv" yazısınınuydurmaolduğumüəyyənedildi — Fotolar
8. İnformasiyasilahdır, onunlaehtiyatlıdavranmaqlazımdır | Modern.az
9. QalibafTrampıntəhdidlərinəcavabverib
10. https://www.iletisim.gov.tr/english/haberler/detay/director-of-communications-altun-we-are-currently-witnessing-a-media-order-that-has-shifted-from-information-war-to-disinformation-war
11. Журналистика – ПродвинутыеТемы 32: СовременныеМедиапрактикиВызовы — Блогзнаний

Новрузов Кенан, Вугар
Бакинский государственный университет,
аспирант и преподаватель факультета журналистики
n.kenana@gmail.com
ORCID: 0009-0003-3220-7276

Новые тенденции, наблюдаемые в новостной журналистике

Резюме

Новостная журналистика – одна из самых специфических и актуальных областей журналистики. Естественно, это обусловлено специфическими характеристиками самого жанра новостей. Хотя теоретики СМИ дают разные определения новостей, общий подход таков: новости — это жанр журналистики, предоставляющий аудитории оперативную, объективную и краткую информацию о событии.

Постоянное воздействие на журналистику инноваций, изменений в содержании и форме, безусловно, влияет на новости, как и на другие жанры.

В целом, принципы и стандарты журналистики не остаются неизменными ни в мире, ни в Азербайджане. В частности, развитие технологий, общественного порядка, а также социально-политические процессы, происходящие в обществе, приводят к «изменению цвета» самих СМИ. Это проявляется не только в содержании, но и в форме.

Журналистика XX века значительно отличалась от журналистики XIX века. В этой связи следует также отметить, что журналистика XXI века отличается от медиа-среды прошлого века. «Журналистика XXI века – это динамичная и постоянно меняющаяся область, ежедневно сталкивающаяся с новыми вызовами и возможностями. От стремительного распространения фейковых новостей до развития искусственного интеллекта, от упадка традиционных бизнес-моделей до потребности в глубокой журналистской работе, она требует постоянного обновления профессиональных знаний и навыков» [11]. Неслучайно эти изменения наиболее очевидны в новостном жанре журналистики. Это напрямую связано с ведущей позицией новостей как жанра в медиа-среде. «Новости — это событие. Но не каждое событие – это новость» [2, 11]. Тот факт, что новости зависят от событий, безусловно, повышает их значимость среди жанров журналистики. Таким образом, понятно, почему теоретики специально изучают новые тенденции, наблюдаемые в новостной журналистике.

Ключевые слова: журналистика, новости, информация, тренд

Novruzov Kenan, Vugar
Baku State University,
PhD student and hourly teacher of the Faculty of Journalism
n.kenana@gmail.com
ORCID: 0009-0003-3220-7276

New trends observed in news journalism

Summary

News journalism is one of the most specific and relevant areas of journalism. Naturally, this is due to the specific characteristics of the news genre itself. Although media theorists offer varying definitions of news, the general approach is as follows: news is a genre of journalism that provides audiences with timely, objective, and concise information about an event.

The constant impact of innovation, content, and form on journalism undoubtedly affects news, as it does other genres.

Overall, the principles and standards of journalism change, both globally and in Azerbaijan. In particular, technological advances, public order, and sociopolitical processes unfolding in society lead to a "change in color" of the media itself. This is reflected not only in content but also in form.

Journalism in the 20th century differed significantly from journalism in the 19th century. In this regard, it should also be noted that journalism in the 21st century differs from the media environment of the last century. "Journalism in the 21st century is a dynamic and constantly changing field, facing new challenges and opportunities on a daily basis." "From the rapid spread of fake news to the development of artificial intelligence, from the decline of traditional business models to the need for in-depth journalistic work, it requires a constant renewal of professional knowledge and skills" [11]. It is no coincidence that these changes are most evident in the news genre of journalism. This is directly related to the leading position of news as a genre in the media environment. "News is an event. But not every event is news" [2, 11]. The fact that news depends on events undoubtedly increases its significance among journalism genres. Thus, it is understandable why theorists specifically study new trends observed in news journalism.

Ключевые слова: журналистика, новости, информация, тренд

Rəyçi: dos.T.Əliyev

DOI: 10.24412/2218-7588-2026-2-199-202

Səadət Rəis qızı Abdullayeva
Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi,doktorantura məzunu
ETN İnformasiya Texnologiyaları İnstitutunun elmi işçisi
E-mail: sado.amea@gmail.com
Orcid İD: 0000-0003-4174-7904

İNTERNET-MEDİANIN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ: METODOLOJİ ƏSASLAR VƏ İNDİKATORLAR

XÜLASƏ: Rəqəmsal transformasiya şəraitində internet-mediaresurslarının fəaliyyətinin sistemli şəkildə monitorinqi və qiymətləndirilməsi medianın menecmentinin mühüm tərkib hissəsinə çevrilmişdir. Məqalədə monitorinq və qiymətləndirmə anlayışlarının nəzəri-konseptual əsasları araşdırılır, müasir qiymətləndirmə yanaşmaları analiz olunur. Tədqiqatda internet-media resurslarının qiymətləndirilməsində istifadə olunan meyarlar(texniki, məzmun, auditoriya, etibarlılıq, ictimai-sosial təsir və s.) model şəklində təqdim olunur və çoxmeyarlı qərarqəbulu üsullarınıntətbiqi imkanları araşdırılır.Tədqiqatın nəticələri göstərir ki, medianın qiymətləndirilməsi sahəsində vahid milli metodologiya mövcud olmasa da, müxtəlif beynəlxalq metodoloji yanaşmaların inteqrasiyası daha obyektiv qiymətləndirmə mexanizmlərinin formalaşdırılmasına imkan verir.

Açar sözlər:internet-media, medianın monitorinqi, qiymətləndirmə indikatorları, çoxmeyarlı qiymətləndirmə, konseptual model, metodoloji əsaslar.

GİRİŞ. Rəqəmsal texnologiyaların sürətli inkişafı nəticəsində formalaşan internet-media (onlayn media) mühiti informasiyanın yayılması və istehlakı proseslərinin köklü şəkildə dəyişməsinə səbəb olmuşdur. Ənənəvi media vasitələrindən fərqli olaraq, onlayn media resursları yüksək dinamiklik, məzmunun davamlı yenilənməsi, interaktivlik və geniş əlçatanlıq kimi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər, öz növbəsində, media resurslarının fəaliyyətinin sistemli şəkildə monitorinqini və qiymətləndirilməsini zəruri edir.

Apardığımız tədqiqatların nəticələri göstərir ki, media monitorinqi və qiymətləndirilməsi sahəsində vahid konseptual baza formalaşdırılmamışdır. Məqalə bu sahədə tədqiqatların nəticələrini ümumiləşdirərək, bu istiqamətdəmövcud qiymətləndirmə meyarlarını struktur şəklində təqdim etmək və çoxmeyarlı qərarqəbulu yanaşmalarının tətbiqi imkanlarını araşdırmaqdır.

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, media monitorinqinin təşkilati və problemlitərəfləri və müqayisəli qiymətləndirmə yanaşmaları vahid nəzəri-konseptual çərçivədə birləşdirilir, bu yanaşmaların sintezi əsasında meyarlar sisteminin yeni modeli təqdim olunur və çoxmeyarlı qərarqəbulu üsullarının bu modelə inteqrasiyası imkanları araşdırılır.

Media monitorinqi və qiymətləndirilməsinin nəzəri-metodoloji əsasları və konseptual fərqləri. Elmi ədəbiyyatda "monitorinq" və "qiymətləndirmə" anlayışları tez-tez bir-birini əvəz edən terminlər kimi işlədilsə də, bu iki proses həm məzmun, həm də funksional baxımdan bir-birindən fərqlənir. Medianın monitorinqi informasiya mənbələrinin müəyyənləşdirilməsini, onların davamlı müşahidəsini, məlumatların toplanmasını və saxlanmasını, kateqoriyalaşdırma və filtrasiya yolu ilə ən uyğun məlumatların seçilməsini, habelə toplanmış məlumatların analizini əhatə edən prosesdir. Bu proses, əsasən, "nə baş verir?" sualına cavab axtarır və fəaliyyətin davamlılığını təmin edən məlumat axınının izlənilməsinə yönəlmişdir.

Qiymətləndirmə isə monitorinq nəticəsində toplanmış məlumatlar əsasında "nə dərəcədə effektivdir?" sualına cavab verməyə çalışır. Bu baxımdan, monitorinq qiymətləndirmənin ilkin mərhələsi və informasiya bazası kimi çıxış edir[2, 108]. Müasir informasiya mühitində monitorinq sadəcə məlumat toplama funksiyasını deyil, həm də idarəetmə qərarlarının qəbulu üçün analitik dəstək funksiyasını yerinə yetirir. Media resurslarının idarə edilməsi prosesi davamlı olaraq dəyişən informasiya mühitinə operativreaksiya verilməsini tələb etdiyindən, bu yanaşma onlayn media kontekstində xüsusi əhəmiyyət kəsb edir.

İnternet-medianın monitorinqi və qiymətləndirilməsi nəticəsində:

1. fəaliyyət prosesində yaranan çatışmazlıqlar və onların səbəbləri müəyyən edilir;
2. problemlərin aradan qaldırılması üçün alternativ həll mexanizmləri formalaşdırılır;
3. media subyektinin prioritet fəaliyyət istiqamətləri və bu istiqamətlərə təsir edən amillər təhlil olunur;
4. informasiya siyasətinin optimallaşdırılması üçün əsaslı qərarların qəbulu mümkün olur[1, s. 113].

Beləliklə, monitorinq və qiymətləndirmə bir-birini tamamlayan, lakin fərqli funksiyalara malik iki proses kimi nəzərdən keçirilməlidir: monitorinq media resurslarından informasiyanın toplanması və izlənilməsi, qiymətləndirmə isə bu məlumatlar əsasında nəticələrin çıxarılması və qərarların qəbulu funksiyasını yerinə yetirir.

İnternet-media resurslarının qiymətləndirilməsində meyarlar sistemi. İnternet-media resurslarının fəaliyyətinin qiymətləndirilməsi üçün istifadə olunan indikatorlar (meyarlar) sistemi son illər aparılan tədqiqatlarda bir sıra kateqoriyalar üzrə qruplaşdırılmışdır: texniki meyarlar (saytın mobil versiya ilə uyğunluğu naviqasiya uyğunluğu, və digər texnoloji göstəricilər), auditoriya meyarları (veb-saytda trafikin həcmi, səhifəyə olan baxışların sayı, istifadəçinin yenidən sayta müraciəti və s.), məzmun (kontent) meyarları (yenilənmə tezliyi, mövzuların saytın fəaliyyət istiqamətinə uyğunluğu, obyektivlik, faktların təqdimatı və s.), etibarlılıq meyarları (faktların yoxlanılması və redaksiya siyasətinə uyğunluğu) və ictimai-sosial təsirmeyarları (sosial mediada paylaşılma, ictimai rəy, saytlara keçidlər) [2, s. 109].

Bu kateqoriyaların bir qismi (auditoriya göstəriciləri və s.) üzrə qiymətləndirmələrin tətbiqi veb-statistika alətləri

vasitəsilə həyata keçirilir. Veb-analitikanın tərkib hissəsi olan veb-statistika veb-saytların keyfiyyətinin artırılması və optimallaşdırılması üçün istifadəçilər haqqında informasiyanın toplanması, ölçülməsi, tədqiqi, təsviri və interpretasiyasıdır. O, onlayn media resursu onun sosial şəbəkələri və mobil marketinqi daxil olmaqla, qurumun rəqəmsal marketinq platformalarına aid olan media kampaniyalarının effektivliyinin artırılması və istehlakçılarla qarşılıqlı təsir məsələlərinin həllində mühüm əhəmiyyət kəsb edir[10, s. 5]. Auditoriya göstəricilərinin ölçülməsi üçün Google Analytics, Yandex.Metrica, LiveInternet, HotLog kimi sistemlər geniş funksional imkanlaramalikdir. Bu sistemlərin əksəriyyəti istifadəçilərin demoqrafik portretinin yaradılması, trafikin qiymətləndirilməsi, istifadəçilərin saytda davranışının analizi və qrafik interfeys kimi funksiyaları dəstəkləyir, lakin fərdi hesabatların hazırlanması imkanlarına görə bir-birindən fərqlənirlər[5].

Hazırda dünyada internet-media resurslarının qiymətləndirilməsi üçün ən çox müraciət olunan sayğac kimi Google Analytics göstərilir [5, s. 63]. Yuxarıda qeyd olunan iki yanaşmanın – kateqoriyalar (meyarlar) və veb-statistik alətlər – inteqrasiyası nəticəsində Cədvəl 1-də təqdim olunan meyarlar cədvəli formalaşdırılmışdır. Bu model hər bir koteqoriyanı konkret ölçmə vasitələri ilə əlaqələndirməklə, nəzəriyyə ilə əməli tətbiq arasındakı boşluğu doldurmağa xidmət edir.

Kateqoriya	Konkret göstəricilər	Ölçmə vasitələri / mənbə
Texniki meyarlar	Mobil uyğunluq, səhifə yüklənmə sürəti, naviqasiya keyfiyyəti	Loq-analizatorlar (Webalizer, AWStats)
Məzmun(kontent) meyarları	Yenilənmə tezliyi, mövzu uyğunluğu, faktların obyektivliyi	Semantik və tematik təhlil
Auditoriya meyarları	Trafikin həcmi, səhifəyə baxış sayı, demoqrafik/coğrafi bölgü və s.	Google Analytics, Yandex.Metrica, LiveInternet, HotLog
Etibarlılıq meyarları	Faktların yoxlanılması, mənbə şəffaflığı, redaksiya siyasətinə uyğunluq	Ekspert qiymətləndirməsi, xəbər materiallarına təbii dilin emalı (NLP) texnologiyasının tətbiqini nəzərdə tutan Media Cloud metodologiyası [7].
İctimai-sosial təsir meyarları	Sosial mediada paylaşılma, keçidlərin sayı, ictimai rəyə təsir	Sosial media monitorinqi alətləri

Cədvəl 1. Onlayn media resurslarının qiymətləndirilməsi üçün meyarlar modeli

Auditoriya meyarlarının əməli tətbiqini nümayiş etdirmək üçün əvvəlki tədqiqatımızda Google Analytics sistemi vasitəsilə əldə olunmuş nəticələrə istinad etmək mümkündür. Belə ki, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun rəsmi www.ikt.az saytının 2023-2025-ci illərüzrə müraciət statistikası saytın auditoriyasının davamlı artım dinamikasını göstərmişdir (Şəkil 1). Aparılan statistik analizin nəticəsinə əsasən, 2025-ci il ərzində sayta müraciətlərin sayı 2023-cü il ilə müqayisədə, təxminən 6 faiz, 2024-cü il ilə müqayisədə isə təxminən 13 faiz artmışdır.

Təqdim edilən bu nümunə göstərir ki, auditoriya meyarları üzrə aparılan davamlı monitorinq internet-media resursunun cari vəziyyətini əks etdirməklə yanaşı, həm də illər üzrə müqayisəli təhlil aparmaqla gələcək inkişaf strategiyasının formalaşdırılmasına da imkan verir.

Eyni zamanda, bu nümunə təsdiqləyir ki, kəmiyyət göstəriciləri (müraciətlərin sayı və s.) özlüyündə kifayət deyil, onların keyfiyyət göstəriciləri ilə birgə analizi daha dərin idarəetmə qərarlarının qəbuluna imkan verir.



Şəkil 1. 2023-2025-ci illər ərzində www.ikt.az saytına müraciətlərin dinamikası.

İnternet-media resurslarında çoxmeyarlı qiymətləndirməüsullarının tətbiqi. Qeyd olunan meyarların hər birinin ayrı-ayrılıqda təhlili informativ olsa da, real qiymətləndirmə prosesində bu meyarların birlikdə istifadəsinin təsirinin nəzərə alınması tələb olunur. Bu məqsədlə çoxmeyarlı qərar qəbuletmə metodlarından istifadə olunur. Belə yanaşmalardan biri alternativlərin cüt-cüt müqayisəsi metodudur[3]. Bu metodologiya veb-resursların funksional,

texniki və informasiya göstəriciləri əsasındabir çox aspektlərdən müqayisəsini təmin edir və hər bir meyarın nisbi əhəmiyyətini ekspert qiymətləndirməsi əsasında müəyyən etməyə imkan verir. Bu kimi çoxmeyarlı yanaşmaların onlayn media resurslarına tətbiqi obyektiv qiymətləndirmə mexanizmlərinin formalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Aparılan təhlillərin nəticələri göstərir ki, internet-media resurslarının monitorinqi və qiymətləndirilməsi sahəsində vahid, universal metodologiya mövcud deyil. Belə ki, müxtəlif tədqiqatçılar bu prosesə fərqli prizmalardan yanaşmışlar: məsələn, P.Napoli media resurslarınınqiymətləndirilməsinə auditoriyanın təsiri, eləcə də yeni texnologiyaların media istehlakına təsiri baxımından çoxölçülü yanaşma təklif edir[6], D. Trilling və həmmüəllifləri isə xəbər portallarının "paylaşılma dəyərini" statistik metodlarla qiymətləndirərək, ictimai reaksiyalar əsasında auditoriyanın diqqətini cəlbetmə səviyyəsinin ölçülməsi imkanlarını araşdırırlar [8, s. 1380].

Bu iki müxtəlif yanaşmanın müqayisəsi göstərir ki, hər bir metodologiya müəyyən kontekstdə effektivliyə malikdir: texniki göstəricilərə əsaslanan yanaşmalar operativ monitorinq üçün əlverişlidir, halbuki məzmun və etibarlılıqmeyarlarına əsaslanan yanaşmalar daha dərin, lakin zaman tutumlu analizlər tələb edir. Bu baxımdan, məqalədə təklif olunan meyarlar modeli (Cədvəl 1) bu iki yanaşmanı əlaqələndirməyəimkan verir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, internet-media resursunun monitorinqi aparılarkən avtomatlaşdırılmış monitorinq alətlərinin tətbiqi bir sıra problemlərlə də müşayiət olunur. Belə ki, yüksək ödəniş tələb edənmedia monitorinqi xidmətləri kiçik büdcəli media qurumları üçün maddi baxımdan çətinliklər yaradır, bəzən müxtəlif media-monitorinq şirkətlərinin nəticələri arasında uyğunsuzluqlar müşahidə olunur, həmçinin avtomatlaşdırılmış alətlərdən istifadə məzmunun müsbət, mənfi və ya neytral tonallığını dəqiq müəyyənləşdirməkdə maneətörədirlər. Bu kimi məhdudiyyətlər göstərir ki, tam avtomatlaşdırılmış qiymətləndirmə sistemləri insan ekspertizasını əvəz edə bilməz, əksinə, effektiv nəticə əldə etmək üçün onunla əlaqəli şəkildə fəaliyyətgöstərməlidir.

NƏTİCƏ:

Aparılan tədqiqat nəticəsində aşağıdakı əsas nəticələrə gəlmək mümkündür:

1. monitorinq və qiymətləndirmə anlayışları funksional baxımdan fərqli, lakin bir-birini tamamlayan proseslərdir;
2. onlayn media resurslarının qiymətləndirilməsi beş əsas kateqoriya (texniki, məzmun, auditoriya, etibarlılıq, ictimai-sosial təsir) üzrə sistemləşdirilə bilər;
3. çoxmeyarlı qərarqəbulu metodları və çoxmərhələli monitorinq modelləri obyektiv qiymətləndirmə üçün metodoloji əsas yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. Abdullayeva S.R. İnternet-media resurslarının veb-analitika mexanizmləri vasitəsilə qiymətləndirilməsi. İnformasiya cəmiyyəti problemləri. Bakı. 2019. № 1. s. 109-117.
2. Abdullayeva S. Online media monitoring and evaluation: comparative approaches. Problems of Information Society. Bakı. 2025. Vol. 16(2). s. 107-115. DOI: 10.25045/jpis.v16.i2.12.
3. Alguliyev R.M.; Nabibayova G.Ç.; Abdullayeva S.R. Evaluation of Websites by Many Criteria Using the Algorithm for Pairwise Comparison of Alternatives. I.J. Intelligent Systems and Applications. 2020. № 6. s. 64–74. DOI: 10.5815/ijisa.2020.06.05.
4. Белоусов Р.Л.; Сороков Н.К.; Моторков А.А.Концептуальная модель системы мониторинга и анализа данных интернет-ресурсов.T-Comm Magazine – Телекоммуникации и транспорт. Москва. 2015. № 9. с. 51.
5. Jansen B.J.; Jung S.-g.; Salminen J. Measuring user interactions with websites: A comparison of two industry standard analytics approaches using data of 86 websites. PLoS ONE. 2022. Vol. 17(5). e0268212. DOI: 10.1371/journal.pone.0268212.
6. Napoli P.M. Audience evolution: New technologies and the transformation of media audiences. Journal of Communication. 2011. Vol. 61. s. E1–E4.
7. Media Cloud Search. Media monitoring and analytics system. Media Cloud Project. USA. 2025. URL: https://www.mediacloud.org/media-cloud-search.
8. Trilling D.; Tolochko P.; Burscher B. From newsworthiness to shareworthiness: How to predict news sharing based on article characteristics. Journalism Studies. London. 2017. Vol. 18(11). s. 1377–1391.
9. Скородумов П.В.; Холодев А.Ю. Анализ подходов и инструментальных средств анализа статистики посещения веб-сайта научной организации. Вопросы территориального развития. Москва. 2015. № 9(29). с. 61-74.
10. Web analytics and social media monitoring. CAM Foundation. London. 2013. 10 p.

Saadat Reis gizi Abdullayeva

Baku State University, Faculty of Journalism, PhD graduate
Researcher at ETN Institute of Information Technologies
E-mail: sado.amea@gmail.com
Orcid: 0000-0003-4174-7904

Monitoring and evaluation of online media: methodological foundations and indicators

Summary

In the context of digital transformation, the systematic monitoring and evaluation of online media resources have become an essential component of media management. The article examines the theoretical and conceptual foundations of monitoring and evaluationand analyzes contemporary evaluation approaches. The study presents, in the form of a model, the criteria used in the assessment of online media resources (technical, content-related, audience-based, credibility, socio-public impact, etc.) and explores the possibilities of applying multi-criteria decision-making methods. The research findings indicate that although a unified national methodology for media evaluation does not exist, the integration of various international methodological approaches enables the formation of more objective evaluation mechanisms.

Keywords: online media, media monitoring, evaluation indicators, multi-criteria assessment, conceptual model, methodological foundations.

Саадат Рейс кызы Абдуллаева

Бакинский государственный университет, факультет журналистики, кандидат наук
Научный сотрудник Института информационных технологий ETN
Электронная почта: sado.amea@gmail.com

ORCID: 0000-0003-4174-7904.

Мониторинг и оценка онлайн-медиа: методологические
Основы и индикаторы

Резюме

В условиях цифровой трансформации системный мониторинг и оценка деятельности онлайн-медиа ресурсов стали важной составляющей медиаменеджмента. В статье исследуются теоретико-концептуальные основы понятий мониторинга и оценкии анализируются современные подходы к оценке. В исследовании в виде модели представлены критерии, используемые при оценке онлайн-медиа ресурсов (технические, содержательные, аудиторные, показатели достоверности, общественно-социального воздействия и др.), а также рассматриваются возможности применения методов многокритериального принятия решений. Результаты исследования показывают, что, несмотря на отсутствие единой национальной методологии в сфере оценки медиа, интеграция различных международных методологических подходов позволяет формировать более объективные механизмы оценки.

Ключевые слова:онлайн-медиа, мониторинг медиа, индикаторы оценки, многокритериальная оценка, концептуальная модель, методологические основы.

Rəyçi: dos. Xatirə Hüseynova

DOI: 10.24412/2218-7588-2026-2-203-206

Səbinə Vaqif qızı İzzətli
BDU, Jurnalistika fakültəsi, doktorant
sabina.izzatli@gmail.com
https://orcid.org/0000-0003-0091-4905

YENİ MEDİA MÜHİTİNDƏ HƏLL YÖNÜMLÜ JURNALİSTİKANIN İNKİŞAF MEYİLLƏRİ

XÜLASƏ: Son illərdə jurnalistika ənənəvi xəbər istehsalı modelindən daha konstruktiv yanaşmalara doğru əhəmiyyətli transformasiya mərhələsinə qədəm qoymuşdur. Uzun müddət media gündəmini əsasən böhranlar, münaqişələr və digər neqativ hadisələr müəyyən etsə də, müasir informasiya mühitində sosial problemlərin həlli istiqamətində həyata keçirilən təşəbbüslərə və onların nəticələrinə diqqət artmaqdadır.

Məqalədə həll yönümlü jurnalistikanın inkişaf meyilləri yeni media texnologiyalarının yaratdığı imkanlar fonunda təhlil edilir.Rəqəmsal media mühitində auditoriyanın xəbər istehlakı vərdişlərini və etimad səviyyəsini müəyyən etmək məqsədilə 250 respondent arasında aparılmış onlayn sorğunun nəticələri təqdim olunur.

Açar sözlər: həll yönümlü jurnalistika, yeni media, rəqəmsalkeçid, süni intellekt, data jurnalistikası.

GİRİŞ: Ənənəvi jurnalistika uzun illər ərzində əsasən problemlərin, böhranların, münaqişələrin və neqativ hadisələrin işıqlandırılmasına üstünlük vermişdir.“Qan varsa, xəbər var” kimi formullaşdırılan bu prinsip uzun müddət aparıcı media gündəmini müəyyənləşdirmişdir (McIntyre, 2015). Bu yanaşma uzunmüddətli perspektivdə auditoriyada ümidsizlik, informasiya yorğunluğu və mediaya etimadın azalması kimi nəticələrə səbəb ola bilir. Bu səbəbdən son illərdə həm media tədqiqatçıları, həm də jurnalistika praktikləri problemlərin yalnız təsviri ilə kifayətlənməyən, onların həlli yollarını da araşdıran yeni redaksiya yanaşmalarına daha çox diqqət yetirməyə başlamışlar.

Bu kontekstdə həll yönümlü jurnalistika müasir medianın perspektiv inkişaf istiqamətlərindən biri kimi qiymətləndirilir. Bu yanaşmanın əsas məqsədi ictimai problemlərin mövcudluğunu göstərməklə yanaşı, həmin problemlərin aradan qaldırılması istiqamətində tətbiq olunan təşəbbüsləri, onların nəticələrini və effektivliyini faktlara əsaslanaraq təhlil etməkdir (Harper, 2013; SolutionsJournalismNetwork, 2018). Belə məzmun auditoriyanın yalnız məlumatlandırılmasına deyil, həm də ictimai proseslərdə daha fəal iştirakına və mediaya etimadın gücləndirilməsinə xidmət edir (Levine, 2014).

Həll yönümlü jurnalistikanın inkişafında yeni media texnologiyaları mühüm rol oynayır. Süni intellekt sistemləri, böyük verilənlərin analizi, semantik alətlər, interaktiv platformalar və datavizuallaşdırma texnologiyaları jurnalistlərə daha geniş informasiya bazasını qısa müddətdə emal etməyə, müxtəlif mənbələr arasında əlaqələri müəyyənləşdirməyə və mürəkkəb sosial problemləri daha anlaşılan formada təqdim etməyə imkan yaradır (Ahmad et al., 2022; Diakopoulos, 2019).

Problem yönümlü və həll yönümlü jurnalistika: nəzəri yanaşmalar

Keywords: *motivation, education, student, teacher behavior, internal motivation, external motivation.*

Introduction: In psychology, motivation refers to behaviors directed toward a specific goal or purpose, and it emerges as a result of internal impulses [1]. Nowadays, motivation is considered one of the most актуal topics in education. In schools, teaching is carried out based on the curriculum, and motivation is regarded as the first stage of an active lesson [2]. The word "motivation" means "to move" and originates from the Latin word *movere* [3].

Motivation, as an internal psychological force, activates individuals and encourages them to behave and act in a certain way [4]. T. C. Morgan explained motivation as the driving force behind a particular behavior [5]. Motivation plays a special role in students' success. It increases students' interest in learning and helps them enjoy the learning process [6].

According to Martin many factors influence student motivation, including parents, relationships with teachers, classroom environment, social conditions, gender, and age [6]. Determining what attracts students' attention is not always easy. However, during the learning process, teachers can stimulate students' interest through different activities, create successful and unsuccessful situations appropriate to students' abilities, and thereby support the development of motivation [7].

Creating and Increasing Motivation

Zoltán Dörnyei identified three stages for creating and increasing classroom motivation:

1. Creating motivation at the beginning of the lesson;
2. Maintaining and protecting motivation during the lesson;
3. Encouraging useful self-evaluation and reflection after the lesson.

Each of these stages includes several principles.

Creating Motivation at the Beginning of the Lesson

1. Developing learners' language values and attitudes;
2. Increasing students' expectations of success;
3. Strengthening students' sense of purpose;
4. Making learning materials meaningful for learners;
5. Creating realistic ideas and expectations among learners.

6. Maintaining Motivation During the Lesson

7. Using control strategies to strengthen students' commitment to their initial goals;
8. Applying metacognitive strategies to maintain concentration;
9. Eliminating boring classroom environments and increasing students' satisfaction and attention;
10. Managing emotional states that distract students;
11. Reducing negative environmental influences and benefiting from positive ones.

12. Encouraging Self-Evaluation

13. Effective motivational feedback functions are satisfactory;
14. Motivational feedback helps students develop self-confidence and positive self-perception;
15. Feedback should be informative and encourage constructive thinking in areas that need improvement [6].

Teacher Behaviors That Reduce Motivation

Gorham and Christopher found that teachers' demotivating behaviors can have a stronger effect than motivating behaviors. They classified these behaviors into four groups:

1. Lack of sufficient knowledge about teaching materials, poor classroom discipline, arriving late to class, lack of information, finishing lessons early, and coming to class unprepared. According to this category, the teacher is seen as irresponsible or unqualified.
2. Poor language skills, going off-topic, weak presentation skills, lack of humor, giving too many examples, and being unenthusiastic.
3. Lack of individual approach toward students, emotional distance, failure to value students, ignoring oral and written comments, cold attitudes toward students, excessive strictness, unfairness, lack of helpfulness, paying attention only to active students, and disrespectful discussions.
4. Negative personality traits and appearance [8].

Internal, External, and Achievement Motivation

Three main types of motivation have been identified: internal motivation, external motivation, and achievement motivation. Different types of motivation lead to different outcomes. Students with high achievement motivation are expected to achieve better results. Internally motivated students are also expected to perform better than externally motivated students.

Students with internal motivation usually understand learning materials more deeply and are more resistant to discouragement compared to externally motivated students [9]. Girmus states that internal motivation represents a person's inner passion to succeed, while external motivation reflects the desire to gain external rewards such as money or social status.

Internal motivation comes from personal interest, whereas external motivation arises from the desire to avoid punishment [10]. Entwistle and Ramsden conducted research on deep and surface approaches to learning. A deep approach involves understanding material comprehensively and integrating existing knowledge, and it is associated with internal motivation. In contrast, a surface approach is characterized by memorizing material for reproduction in another context and is linked to external motivation [9].

Conclusion: This study discussed the concept of motivation and provided information about the three stages identified by Zoltán Dörnyei regarding the creation and development of classroom motivation. The study also attempted to identify teacher behaviors that should be avoided in order to establish effective motivation.

The findings showed that the demotivating teacher behaviors identified by Gorham and Christopher represent one of the major problems in education. Such behaviors may negatively affect lesson quality and prevent positive educational outcomes. Therefore, providing teachers with training on motivation and evaluating motivational skills during teacher recruitment are considered important ways to overcome this problem.

References

1. Vatansever Bayraktar, H. Sınıf yönetiminde öğrenci motivasyonu ve motivasyonu etkileyen etmenler // International Periodical For The Languages, Literature and History of Turkish or Turkic. – 2015. 10(3), – pp. 1079-1100.
2. Hüseynova, G. Bakı Peşəkarlıq Akademiyası. Kurikulum // – 2020. №7, – s. 108-110.
3. Arıkboğa, Ş. İstanbul Üniversitesi Açık ve Uzaktan Eğitim Fakültesi. Yönetim ve Organizasyon // – 2010. – s. 245-271.
4. İsgəndərov, I. Təşkilati davranış və menecment psixologiyası / I.İsgəndərov. – Bakı: Azərbaycan Turizm və Menecment Universiteti, – 2017. – s. 44-65.
5. Morgan, T.C. Psikolojiye giriş / T.C.Morgan. – Eğitim Akademi, – 2005. – 19 s.
6. Göğüş, A. Öğretme yöntemlerinin çeşitlendirilmesi ile öğrenci motivasyonunun artırılması: İngilizce dersi öğretmen liderliği örneği / A.Göğüş, Ş.Yetke // Uludağ Üniversitesi Eğitim Fakültesi Dergisi. – 2014. 27(2), – s. 283-305.
7. Ünsal, Ü. Harmanlanmış öğrenmenin başarı ve motivasyona etkisi // Türk Eğitim Bilimleri Dergisi. – 2012. 10(1), – s. 1-27.
8. Sürücü, A. Öğrenci motivasyonunu artıran ve azaltan öğretmen davranışlarının incelenmesi / A.Sürücü, A.Ünal // Uluslararası Toplum Araştırmaları Dergisi. – 2018. 8(14), – s. 255-295.
9. Fry, H. A handbook for teaching and learning in higher education / H.Fry, S.Ketteridge, S.Marshall. – Routledge, – 2009. – pp. 27-40.
10. Smith, V.D. Encouraging student autonomy through higher order thinking skills / V.D.Smith, J.W.Darvas // Journal of Instructional Research. – 2017. 6, – pp. 29-34.

Quliyeva Dilşad Mahmud qızı
Bakı Dövlət Universiteti, İngilis dili kafedrası
(təbiət elmləri üzrə),
Baş müəllim
https://orcid.org/0009-0005-1369-1220
dilshad.quliyeva5@gmail.com
+994 50 532 72 33

TƏHSİL PROSESİNDƏ MOTİVASİYANIN ROLU

Xülasə

Təhsil prosesində motivasiyanın rolu mövzusunda olan bu araşdırmada motivasiya anlayışı və onun təhsil mühitində əhəmiyyəti araşdırılmışdır. Tədqiqatda motivasiyanın şagirdlərin öyrənməyə marağının artırılmasında, onların fəallığının və akademik nailiyyətlərinin yüksəldilməsində mühüm rol oynadığı göstərilmişdir. Araşdırmada daxili, xarici və müvəffəqiyyət motivasiyası haqqında məlumat verilmiş, onların təhsil prosesinə təsiri izah edilmişdir.

Eyni zamanda, Zoltán Dörnyei tərəfindən müəyyən edilmiş motivasiyanın yaradılması və inkişaf etdirilməsi mərhələləri təhlil olunmuşdur. Müəllimlərin motivasiyanı artıran və azaldan davranışları araşdırılmış, xüsusilə motivasiyanı zəiflədən davranışların tədris keyfiyyətinə mənfi təsiri qeyd edilmişdir.

Tədqiqatın nəticələri göstərir ki, müəllimin peşəkar davranışı, sinif mühiti və düzgün motivasiya strategiyaları şagirdlərin uğurunda mühüm rol oynayır. Buna görə də müəllimlərin motivasiya sahəsində bilik və bacarıqlarının inkişaf etdirilməsi təhsil prosesinin daha səmərəli təşkilinə kömək edə bilər.

Açar sözlər: *motivasiya, təhsil, şagird, müəllim davranışı, daxili motivasiya, xarici motivasiya*

Гулиева Дилшад Махмуд Кызы
Бакинский государственный университет,
Кафедра английского языка (естественных наук)
старший преподаватель
https://orcid.org/0009-0005-1369-1220
dilshad.quliyeva5@gmail.com
+994 50 532 72 33

Резюме

В данном исследовании под названием «Роль мотивации в образовательном процессе» рассматривается понятие мотивации и её значение в образовательной среде. Исследование показывает, что мотивация играет важную роль в повышении интереса учащихся к обучению, их активности и академической успеваемости. В работе представлена информация о внутренней, внешней и мотивации достижения, а также объясняется их влияние на образовательный процесс.

Одновременно анализируются этапы формирования и развития мотивации, предложенные Золтаном Дёрньеи. Рассматриваются также виды поведения учителей, которые повышают или снижают мотивацию учащихся, и особое внимание уделяется негативному влиянию демотивирующего поведения на качество обучения.

Результаты исследования показывают, что профессиональное поведение учителя, классная среда и правильные мотивационные стратегии играют важную роль в успехах учащихся. Поэтому развитие знаний и навыков учителей в области мотивации может способствовать более эффективной организации образовательного процесса.

Ключевые слова: *мотивация, образование, ученик, поведение учителя, внутренняя мотивация, внешняя мотивация*

Rəyçi: dos. E.Vəliyeva

DOI: 10.24412/2218-7588-2026-2-217-219

Mehparə Alış qızı Quliyeva
BDU-nun dosenti
e-mail: maya.kuliyeva20@gmail.com
https://orcid.org/0009-0004-1243-0099

HƏSƏN BƏY ZƏRDABİNİN MÜƏLLİMLİK FƏALİYYƏTİ VƏ PEDAQOJİ İDEYALARI

Xülasə:Həsən bəy Məlikov Zərdabi Azərbaycan maarifçiliyinin banilərindən biri kimi xalqın elmə, təhsilə və tərəqqiyə yönəlməsində mühüm rol oynamışdır. O, maarifin və məktəbin xalqın azadlığı və inkişafı üçün əsas vasitə olduğunu vurğulamış, təhsilin ailə tərbiyəsi ilə sıx bağlılığını önə çəkmişdir. Zərdabiyə görə, sağlam və xoşbəxt cəmiyyətin formalaşması üçün gigiyenik qaydalara riayət, düzgün qidalanma və əməksevərlik vacib şərtlərdəndir. O, fiziki, əqli və əxlaqi tərbiyəni bir-biri ilə qarşılıqlı əlaqədə dəyərləndirmiş, gənc nəslin həm biliyə, həm də əməyə hörmət ruhunda böyüməsini vacib saymışdır. Zərdabinin vətəndaşlıq haqqında baxışları vətənə sədaqət, milli dəyərlərə hörmət və maarifə xidmət prinsipi üzərində qurulmuşdur. Onun pedaqoji, ictimai və vətənpərvərlik görüşləri bu gün də milli maarifçilik ənənələrinin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Açar sözlər: Həsən bəy Məlikov Zərdabi, təlim və tərbiyə, sağlam həyat, vətənpərvərlik, Azərbaycan maarifçiliyi, "Əkinçi" qazeti.

Giriş: Həsən bəy Məlikov Zərdabi 1837-ci il noyabrın 12-də Göyçay qəzasının Zərdab kəndində anadan olmuşdur. İlk təhsilini ərəb və fars dillərində almış, 1852-ci ildə atası tərəfindən Şamaxıya aparılaraq rus dilində təhsil verən məktəbə daxil edilmişdir. Şamaxı məktəbində Qafqaz dairəsinin maarif müdiri baron Nikolay tərəfindən hazırlığı bəyənilmiş və hökumət hesabına Tiflis gimnaziyasına qəbul olunmasına icazə verilmişdir. Həsən bəy rus dilini böyük çətinliklə mənimsəmişdir. 1861-ci ildə Tiflis gimnaziyasını gümüş medalla başa vurmuş, hökumət hesabına Moskva Universitetinin riyaziyyat fakültəsinin təbiət elmləri şöbəsinə imtahansız qəbul olunmuşdur. Universiteti fərqlənmə attestatı ilə bitirmiş, universitet şurasının qərarı ilə namizədlik elmi dərəcəsinə layiq görülmüşdür.

Əsas hissə: Daha sonra Həsən bəy Tiflisdə dövlət idarəsində xidmətə göndərilmişdir. Kəndlilərin mənafeyini müdafiə etdiyi üçün çar məmurları ilə ziddiyyət yaşamış, idarə rəisinin tələbi ilə vəzifəsini tərk etmişdir. 1867-ci ildə "Tubernsky Pravleniye"də xidmətə başlamış, lakin məmurların kəndlilərə qarşı ədalətsizliyini görərək 1868-ci ildə Qubada məhkəmə katibi vəzifəsinə işləmişdir. Burada da çar məmurlarının ədalətsizliyi və rüşvətxorluğu səbəbindən vəzifədən azad olunmuş və müəllimlik fəaliyyətinə yönəlmişdir. 1869-cu ilin 18 noyabrından Bakı gimnaziyasında dərs deməyə başlamış, azərbaycanlı şagirdlərin təhsilinə dəstək məqsədilə "Cəmiyyəti-xeyriyyə"nin yaradılmasını qərara almışdır. Bu məqsədlə 1873-cü ildə M.F. Axundovun "Hacı Qara" pyesi gimnaziya şagirdləri və N. Vəzirovun köməyi ilə ilk dəfə Azərbaycan dilində tamaşaya qoyulmuşdur. Lakin "Cəmiyyəti-xeyriyyə" fəaliyyətə başlaya bilməmişdir. Buna baxmayaraq, gimnaziyada oxuyan şagirdlərin sayı ilbəil artmışdır.Doğma xalqına böyük məhəbbət bəsləyən Həsən bəy Zərdabi qəzet nəşr etməyin zəruriliyini dərk etmişdir. O, qəzetin xalqın maariflənməsinə və mədəniyyətin inkişafına xidmət edəcəyini bilmiş və dövrünün qabaqcıl simalarını millətin tərəqqisinə çağırmışdır. Uzun zəhmət və əziyyətdən sonra 1875-ci ildə "Əkinçi" qəzetinin nəşrinə başlamış, qəzetin bütün buraxılışlarında məktəb və maarif məsələlərinə xüsusi yer vermişdir. 1877-ci ildə çar hökuməti "Əkinçi"ni bağlamışdır. Məktəb açmaq istəyi icazə verilmədiyi üçün Zərdabi Ucar məhkəməsində vəkillik etmişdir. Ucardakı vəkillik fəaliyyətindən sonra Bakıya qayıtmış, 1906-cı ildə Azərbaycan müəllimlərinin I qurultayının keçirilməsində yaxından iştirak etmiş və qurultaya sədrlik etmişdir.Həsən bəy Məlikov Zərdabi 1907-ci il noyabrın 28-də Bakıda vəfat edir. Onun son sözləri bu olur: "Xalqın maarifinə kömək edin!"

Azərbaycan ziyalıları H.Zərdabini xalqın mənəvi atası adlandırırlar. H.Zərdabi bütün mənalı həyatını xalqın maarif və mədəniyyətə çatması uğrunda mübarizəyə həsr etmişdir.Zərdabi elmdən xalqın xoşbəxtliyi, vətənin qüdrəti üçün istifadə etməyə çağırırdı. Zərdabiyə görə o xalq tərəqqi edər ki, məktəb və maarifin inkişafına ciddi fikir versin. Zərdabi xalqın zülm və əsarətdən qurtarmasının mühüm çarəsini maarifdə, elm və bilik kəsb etməkdə görürdü. Zərdabi maarifi elmi həyatın inkişafına kömək edən, Azərbaycan xalqına öz dostu ilə düşmənini tanıtdıra bilən və onu yeni yaşayış uğrunda mübarizəyə qaldıra bilən əsas vasitələrdən biri hesab edirdi. O bir dəfə dəmirçiyə belə demişdi: "Zindanını, çəkicini sat ancaq oğlunu oxut!"

H. Zərdabi əqli, əxlaqi, hissi, əməyi, estetik tərbiyəyə yüksək əhəmiyyət verir və deyirdi ki, bunların arasında qarşılıqlı əlaqə vardır. Zərdabi yeni tipli məktəblərin yaradılmasına və həmin məktəblərdə təbiətşünaslıq elmlərinin tədris edilməsi uğrunda yorulmadan çalışırdı. O, Azərbaycanın təbiətinin gözəlliyi ilə, qarlı dağları ilə, yaşıl bağları ilə, bumbuz sulu bulaqları ilə, əməksevər insanları ilə fəxr edirdi. Kim heç olmasa bir dəfə dağ seyrinə çıxıbsa, dağların möcüzəli gözəlliyini, çiçəklərini, xüsusilə günəşin doğduğu vaxt quşların nəğməsini heç vaxt unuda bilməz. Buna görə də belə yerləri seyrə çıxan hər kəs bədahətli şeir deyir, oxuyur. Bəli, bu yerlər şeir sevənlər, poeziya yaradanlar üçün əsl məktəbdir. O, bütövlükdə Zaqafqaziyanın, xüsusilə Azərbaycanın, Bakının meşələrə, yaşıllıqlara qərq olmasını arzulayırdı.

H. Zərdabi vətənpərvərliyinin əsl mahiyyəti onun doğma dilinə münasibətində daha qabarıq şəkildə özünü büruzə verir. O, gənclərə müraciətində deyirdi ki, əsl vətənpərvər o adamdır ki, vətəninə, xalqına təmənnasız kömək edir, heç bir mükafat gözləmir, vətəninin şöhrət və qüdrətini, rifah halını artırır. "Dil və din", "Dil uğrunda mübarizə", "Dil vahidliyi" və digər məqalələrində H. Zərdabi Azərbaycan dilinin təmizliyi uğrunda mübarizə aparırdı. Ana dilinə laqeyd münasibət nadanlıqdır, aqillik deyildir. Zərdabi milli iftixar hissinə yüksək qiymət verirdi.H. Zərdabi ev

havasının tez-tez dəyişdirilməsini zəruri sayır və deyirdi ki, havası dəyişdirilməyən evdə orqanizm günbəgün zəifləyir, tədricən gücünü itirir və nəticədə asanlıqla xəstələnə bilər. "Havasızlıq insan səhhətinin ən böyük düşmənidir." Havanın təmiz olması həyat, xarab olması isə ölümdür[4]. Xarab olmuş hava ilə nəfəs almaq başqa formada zəhərlənməkdən pisdir. Evin işıqlı olması vacibdir. Zərdabi təbii işığın və təmiz havanın əhəmiyyətini vurğulayır, hava və işığın bərabər girməsini təmin edən şəraitin yaradılmasını tövsiyə edirdi. O, təbii işığa və təbiət parıltısına elektrik işığından daha çox üstünlük verirdi, çünki onun fikrincə, bu, insan sağlamlığı üçün daha faydalıdır.

Zərdabiyə görə, sağlamlığın qorunması üçün hər kəs gigiyena qaydalarına əməl etməlidir. Əgər insan yeməkdən sonra əllərini yumazsa, tez-tez xəstələnər. O bildirirdi ki, "evin, paltarın, qab-qacağın təmizliyi insanın sağlamlığı üçün əsas şərtdir."

Zərdabi rejimə, xüsusilə də yemək rejiminə xüsusi əhəmiyyət verirdi. O, insanların fərdi xüsusiyyətlərinə uyğun olaraq hər kəsin özünəməxsus qidalanma qaydasına malik olmasının vacibliyini vurğulayırdı. Zərdabiyə görə uşaqlar, gənclər və böyüklər üçün yeməklər ayrıca şəkildə hazırlanmalıdır.

O, uşaqların qidalanmasının onların yaşına və fizioloji xüsusiyyətlərinə uyğun olmasını vacib sayırdı. Xüsusilə ana südünün əvəzsiz rolunu qeyd edirdi. Zərdabi klassik pedaqoqların fikirləri ilə həmrəy olaraq bildirirdi ki, uşaq ən azı bir il ana südü ilə qidalanmalıdır. Zərdabi deyirdi ki, bəzi analar uşaqlarını özləri əmizdirmək istəmir, onları yad qadınlara əmizdirdir. Halbuki bu, yalnız o halda mümkündür ki, uşaq anasının özü xəstə olsun. Əgər ana sağlamdırsa, övladını özü əmizdirməlidir. Əmizdirilən uşaqla ana arasında xüsusi mənəvi bağ yaranır və bu, uşağın həm fiziki, həm də psixoloji sağlamlığına müsbət təsir göstərir.

Əgər ana südü olmadıqda uşağa inək südü verilə bilər, lakin Zərdabi xəbərdarlıq edirdi ki, inək südündə piy çox, şəkər isə azdır. Bu səbəbdən, uşağa verilən süd düzgün hazırlanmalı və uşaq üçün uyğun hala gətirilməlidir. H. Zərdabi spirtli içkilərin qəti əleyhinə olmuşdur. O, "Sərxoşluq adətlərinə qarşı" adlı məqaləsində alkoqolun dağıdıcı və zərərli xüsusiyyətlərini elmi şəkildə təhlil etmiş, spirtli içkiləri "bədənin düşməni" adlandırmışdır. Sərxoşluq insanı yalnız fiziki cəhətdən eybəcərləşdirmir, həm də mənəvi cəhətdən onu şikəst edir. Sərxoşluq həyatı və vicdanı məhv edir. Zərdabi həmin məqaləsində görkəmli fizioloqlardan Ru, Borel, Breçka, Çio, Fredi, Brok, Sapalye, Tibo, Meçnikov və başqalarının alkoqolizm haqqında fikirlərini təhlil edərək, alkoqolun insan orqanizminə təsirini zəhərlə müqayisə edir və bütün ağıl adamlarını, insanlığın dostlarını çox ciddi sosial şər olan insan sağlamlığının düşməni alkoqola qarşı mübarizəyə, ictimai həyatın ən aşağı pilləsinə yuvarlanan bədbəxt adamlara kömək etməyə çağırırdı. Zərdabi müxtəlif xalqların, böyük zəka sahiblərinin sərxoşluğu pislədiyini qeyd etməklə, yeri gəldikcə onların fikirlərinə də istinad edirdi. Sərxoşluq könüllü dəlilikdir. Sərxoşluq bütün pis adətlərin anasıdır. İçkinin başlanğıcı günah, ortası sərxoşluq, sonu fəlakətdir. Stəkanda boğulanlar dənizdə boğulanlardan çoxdur. Araq dənizində qəhrəmanlar da batır. Sərxoş olub kişilikdən dönənin qeyrəti araq şüşəsində olar.

H. Zərdabi papiros çəkməyin, nikotin qəbul etməyin, tiryəkdən, tünd çay və qəhvə içməyin də sağlamlığa zərər vurduğunu bildirirdi. Tiryək atanın əlləri titrəyir, başı əsir, ayaqları yerdə durmur, mədəsi həzm etmir və s.

H. Zərdabi insanın sağlamlığında paltarın əhəmiyyətinə, alt paltarlarının təmiz saxlanmasına, paltarın rənginə də diqqət yetirməyi zəruri sayırdı. Zərdabiyə görə, dünyada bədənin sağlamlığından artıq dövlət yoxdur. Hər fəsilin özünəməxsus paltarı olur. Paltarı vaxtında dəyişdirməmək ac qalmaqdan da pisdir. O, uşaq paltarları və səfər geyimləri haqqında da maraqlı fikirlər söyləmişdir. Uşağın oyunsuz keçinə bilmədiyini nəzərə alaraq, onun paltarlarını geniş tikmək vacibdir ki, rahat hərəkət edə bilsin.

Nəticə: Zərdabi sağlamlığın qorunmasında yuxuya, yatacaq paltarlarına da diqqət yetirmişdir. İnsan yorğunluğunu almaq üçün dincəlməlidir. Bu işdə yuxu əvəzsizdir. Zərdabiyə görə, işləmək təkcə pul qazanmaq üçün deyil, həm də bədənin sağlamlığı üçündür. İşləyən adamın iştahası daha çox olur, qidası yaxşı həzm olunur. Kim çox oxuyursa, onun anlayışı və zehni qabiliyyəti artır, amma oxumayan insanın qabiliyyəti pas tutmuş, cilalanmamış qızıl kimi qalır. Yaxşı, rahat yatmaq üçün qaranlıq və sakit yer olmalıdır. Zərdabiyə görə, uşaq 9 saat, 30–40 yaşlı adam isə 6 saat yatmalıdır. Yatarkən çöldə soyuq deyilsə, pəncərəni açıq qoymaq olar. Arxa üstə və ya sağ çiyin üstə yatmaq faydalıdır. Çarpayı geniş və rahat olmalıdır.

H. Zərdabi fiziki tərbiyəyə ictimai problem kimi baxmışdır. O, fiziki əməyin fiziki tərbiyənin tərkib hissəsi olduğunu qeyd edir və deyirdi ki, fiziki tərbiyə şəxsiyyətin ahəngdar inkişafının mühüm şərtlərindən biridir. Bu gün müəllimlər onun faydalı fikirlərindən istifadə etməlidirlər.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası. (2009). Azərbaycan Milli Ensiklopediyası (maddə: "Həsən bəy Məlikov Zərdabi"). Bakı: AMEA nəşriyyatı.
2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2011). Azərbaycan pedaqoji fikir tarixi. Bakı: Maarif nəşriyyatı.
3. Əlizadə, H. (2007). Həsən bəy Zərdabi – həyat və fəaliyyəti. Bakı: Elm nəşriyyatı.
4. H.Zərdabi, Seçilmiş əsərləri, Bakı, 1960, səh. 419.
5. Məmmədova, A. (2013). Zərdabinin maarif və mədəni irsi. Bakı: Şərq-Qərb nəşriyyatı.
6. Zərdabi, H. B. M. (1875–1877). "Əkinçi" qəzeti məqalələri. Bakı: Qəzet arxiv materialları əsasında tərtib olunmuşdur.

Mehpara Alish gizi Guliyeva

Associate Professor, Baku State University

e-mail: maya.kuliyeva20@gmail.com

https://orcid.org/0009-0004-1243-0099

HASAN BEY ZARDABI'S TEACHING ACTIVITY AND PEDAGOGICAL IDEAS.

SUMMARY

Hasan Bey Malikov Zardabi, as one of the founders of Azerbaijani enlightenment, played an important role in directing the people to science, education and progress. He emphasized that education and school are the main tools for

the freedom and development of the people, and highlighted the close connection between education and family upbringing. According to Zardabi, compliance with hygienic rules, proper nutrition and hard work are important conditions for the formation of a healthy and happy society. He valued physical, mental and moral education in interaction with each other and considered it important for the young generation to grow up in the spirit of respect for both knowledge and work. Zardabi's views on citizenship are based on the principles of loyalty to the motherland, respect for national values and service to education. His pedagogical, social and patriotic meetings are still of great importance in the formation of national educational traditions.

Keywords: Hasan bey Melikov Zardabi, education and upbringing, healthy lifestyle, patriotism, Azerbaijani enlightenment, the newspaper "Akinchi".

Мехпара Алиш кызы Гулиева
Бакинский Государственный Университет. Доцент,
электронная почта: maya.kuliyeva20@gmail.com
https://orcid.org/0009-0004-1243-0099

ПРЕПОДАВАТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ И ПЕДАГОГИЧЕСКИЕ ИДЕИ ХАСАН-БЕЯ ЗАРДАБИ

Резюме

Гасан бей Маликов Зардаби, как один из основоположников азербайджанского просвещения, сыграл важную роль в направлении народа к науке, образованию и прогрессу. Он подчеркнул, что образование и школа являются основными инструментами свободы и развития народа, и подчеркнул тесную связь между образованием и семейным воспитанием. По мнению Зардаби, соблюдение правил гигиены, правильное питание и трудолюбие являются важными условиями формирования здорового и счастливого общества. Он ценил физическое, умственное и нравственное воспитание во взаимодействии друг с другом и считал важным, чтобы молодое поколение росло в духе уважения как к знаниям, так и к труду. Взгляды Зардаби на гражданство основаны на принципах верности Родине, уважения национальных ценностей и служения образованию. Его педагогические, общественно-патриотические встречи до сих пор имеют большое значение в формировании национальных образовательных традиций.

Ключевые слова: Гасан бей Маликов Зардаби, обучение и воспитание, здоровый образ жизни, патриотизм, азербайджанское просвещение, газета «Экинчи».

RƏYÇİ: **dos.** **L.Ələkbərova**

DOI: 10.24412/2218-7588-2026-2-220-224

Pərvinə Kərimova Ənvər qızı
Orcid id: 0009-0009-4336-4844
pveliyeva@beu.edu.az
Bakı Mühəndislik Universiteti, baº müəllim
Günel İsgəndərova İlqar qızı
gueyyubova@beu.edu.az
Bakı Mühəndislik Universiteti, baş müəl**lim**
Orcid id: 0000-0002-8186-3750
Günel Bayramova Mehdiyeva Vilayət qızı
Orcid id:0009-0009-4231-2786
gbayramova@beu.edu.az
Bakı Mühəndislik Universiteti, baş müəllim

ÇOXDİLLİLİK ŞƏRAİTİNDƏ LİNQVİSTİK DİAQNOSTİKA VƏ STRATEJİ İDARƏETMƏ

Xülasə: Bu məqalə polietnik cəmiyyətlərdə dil siyasəti, millətlərarası münasibətlər və təhsil idarəçiliyinin qarşılıqlı təsirini araşdırır. Sosiolinqvistika, münaqişələrin həlli və təhsil liderliyini birləşdirən multidissiplinar çərçivə ali təhsil müəssisələrində dil praktikalarının millətlərarası münaqişələri necə əks etdirdiyini və formalaşdırdığını təhlil etmək üçün istifadə olunur. Tədqiqat dil seçimlərində dəyişikliklər, millətlərarası ünsiyyətin semantikasında transformasiyalar və dil uyğunlaşması və ya müqaviməti meylləri kimi potensial gərginliyin linqvistik əlamətlərini müəyyən edir. Araşdırma göstərir ki, ikidilli və çoxdilli akademik mühitlər tətbiq olunan strategiyalardan asılı olaraq ya münaqişə yaradan amil, ya da barışığın vasitəçisi ola bilər.

Müəlliflər təhsil rəhbərlərinə dil davranışlarını müşahidə etməklə yaranmaqda olan millətlərarası gərginlikləri aşkar etməyə imkan verən linqvistik diaqnostika çərçivəsi təqdim edirlər.

Eyni zamanda, onlar çoxdilli yanaşmaların inklüziv kampus mühitlərinin yaradılması ilə birləşdirildiyi, millətlərarası münasibətləri formalaşdıran əsas sosiolinqvistik amilləri nəzərə alan sübutlara əsaslanan liderlik strategiyaları təklif edirlər. Tədqiqat getdikcə daha müxtəlifləşən təhsil mühitlərində sosial birliyi təmin etmək məqsədilə linqvistlərin yanaşmaları əsasında millətlərarası gərginliklərin öyrənilməsinə həm nəzəri, həm də praktik töhfələr verir.

Açar sözlər: Polietnik cəmiyyət, linqvistik diaqnostika, millətlərarası gərginlik, ikidillilik, çoxdillilik, dil siyasəti.

Metodologiya: Bu tədqiqat sosiolinqvistika, münaqişələrin həlli və təhsil idarəçiliyi sahələrindən əsas anlayış və metodları birləşdirən qarışıq və hərtərəfli yanaşmanı tətbiq edir.Bu inteqrativ yanaşma dil istifadəsi, millətlərarası münasibətlər və ali təhsil müəssisələrinin siyasəti arasındakı çoxölçülü əlaqələri təhlil etməyə imkan yaradır.Bu yanaşma dil davranışı və münasibətlərinin təhlilində sosiolinqvistik perspektivdən istifadə edir və bunu gərginliyin artması və azalması modellərinə fokuslanan münaqişə həlli nəzəriyyələri ilə birləşdirir.Bu konseptual çərçivələr təhsil idarəçiliyinin siyasət və institusional idarəetmə nəzəriyyələri ilə genişləndirilir.Bu sahələrin inteqrasiyası tənqidi diskurs analizi metodologiyası vasitəsilə həyata keçirilir və bu da təhsildə dilin hakimiyyət münasibətlərinin qurulması və tətbiqi vasitəsi kimi necə istifadə olunduğunu araşdırmağa imkan verir.Təqdim olunan model linqvistik davranışın eyni zamanda fərdi, mikrososial, təşkilati və makrososial səviyyələrdə fəaliyyət göstərdiyini qəbul edir.Bu çoxsəviyyəli reallıqları əks etdirmək üçün spesifik linqvistik hadisələri daha geniş institusional və sosial kontekstlər daxilində yerləşdirən iç-içə hal tədqiqatı dizaynından istifadə olunur.

Giriş: Dil polietnik cəmiyyət daxilində kimliyin mühüm göstəricilərindən biridir. O, yalnız ünsiyyət vasitəsi deyil, həm də mədəni irsi, sosial mənsubiyyəti və siyasi tanınmanı ifadə edir. Bu yanaşma dil planlaşdırılması ilə millətlərarası dinamika arasındakı qarşılıqlı əlaqəyə dair müzakirələri əks etdirir və bu məsələ xüsusilə cəmiyyətin artan müxtəlifliyini əks etdirən ali təhsil müəssisələrində daha da aktuallaşır. Beynəlmiləlləşmə prosesində universitetlər müxtəlif dil qruplarının yanaşı mövcud olduğu, qarşılıqlı əlaqəyə girdiyi və bəzən toqquşduğu dil mühitlərini idarə etmək problemi ilə üzləşirlər. Ali təhsildə dil müxtəlifliyinin uğurlu idarə olunması institut idarəçiliyinin ən mühüm, lakin çox vaxt nəzərdən qaçırılan aspektlərindən biridir. Bir çox tədqiqatlar milli səviyyədə dil siyasətlərini araşdırsa da, bu siyasətlərin təhsil mühitində necə tətbiq olunması və millətlərarası birliyə təsiri yetərincə diqqət mərkəzində olmamışdır. Universitetlər bilik və mədəniyyət mərkəzləri kimi cəmiyyət daxilində müxtəlif qruplar arasında gərginliyi həm artırmaq, həm də azaltmaq potensialına malikdir. Psixoloji baxımdan dil seçimi və onun istifadəsi fərdi və qrup kimliyinin formalaşmasında, aidiyyət hissində və ümumi psixoloji rifahda mühüm rol oynayır. Çoxdilli mühitdə tələbə və müəllimlər ana dilinin aşağı statusda olduğu və ya az tanınan dilin istifadəsinin tələb olunduğu hallarda narahatlıq, koqnitiv gərginlik və ya identiklik təhlükəsi ilə üzləşə bilərlər. Eyni zamanda, dil müxtəlifliyinin qəbul edilməsi psixoloji təhlükəsizlik hissini gücləndirə və qruplararası müsbət münasibətləri təşviq edə bilər. Beləliklə, dil qarşılıqlı təsirinin psixoloji əsasları akademik nailiyyətlərə, sosial inteqrasiyaya və kampus daxilində millətlərarası münasibətlərə təsir edən mürəkkəb emosional dinamika yaradır.

Bu tədqiqat ali təhsil kontekstində linqvistik göstəricilər vasitəsilə millətlərarası gərginliklərin diaqnostikasını aparır. Araşdırmanın məqsədi dil praktikalarının identiklik quruculuğu, psixoloji reaksiyalar və münaqişə dinamikası ilə qarşılıqlı əlaqəsini öyrənərək inklüziv təhsil mühitlərinin yaradılmasına yönəlmiş strateji dil idarəçiliyi yanaşmalarını inkişaf etdirməkdir. Tədqiqat həmçinin ikidillilik və çoxdilliliyi təhsil mühitində manea deyil, potensial resurs kimi qiymətləndirir. Araşdırma üç əsas tədqiqat sualı ətrafında qurulmuşdur. Birinci sual belədir: ali təhsil müəssisələrində

dil praktikaları cəmiyyətdəki millətlərarası gərginlikləri nə dərəcədə əks etdirir və formalaşdırır? Bu sual institutdaxili dil mühitləri ilə cəmiyyətin millətlərarası dinamikası arasındakı qarşılıqlı əlaqəni araşdırır. İkinci sual belədir: hansı linqvistik göstəricilər millətlərarası münaqişələrin yaxınlaşdığını göstərə bilər? Bu çərçivədə dil seçimlərində dəyişikliklər, diskurs semantikasında transformasiyalar və dil uyğunlaşması və ya müqavimət davranışları erkən siqnallar kimi təhlil olunur. Üçüncü sual isə belədir: ikidillilik və çoxdillilik strategiyaları sosial dayanıqlı birliyi və mədəni müxtəlifliyin qorunmasını necə təşviq edə bilər? Bu sual təhsil idarəçiləri üçün dil siyasətlərinin tətbiqində praktik yanaşmaları araşdırır.

Bu tədqiqatın əsas yanaşması dilin millətlərarası münasibətlərin ifadə vasitəsi kimi nəzəri anlayışını dərinləşdirməyə yönəlmişdir. Eyni zamanda, araşdırma ali təhsil müəssisələrində getdikcə mürəkkəbləşən dil mühitlərinin praktik idarə olunmasına da töhfə verir.

• **Diskurs analizi:** Dil istifadəsi, kod dəyişikliyi (code-switching), tərcümə və digər linqvistik seçimlər vasitəsilə gündəlik qarşılıqlı təsir səviyyəsində millətlərarası sərhədlərin necə qurulduğu, qorunduğu və ya aşılması təhlil edilir.

• **Siyasətin tətbiqi analizi:** Formal dil siyasətlərinin institut daxilində necə həyata keçirildiyi izlənilir və niyyətlərlə real praktikalar arasındakı fərqlər müəyyən edilir.

• **Etnoqrafik "qalın təsvir" (thick description):** Dilin millətlərarası münasibətlərdə simvolik qarşılıqlı təsir resursu kimi istifadəsi kontekst daxilində geniş şəkildə təsvir olunur.

• **Müqayisəli analiz:** Müxtəlif hallar arasında oxşarlıqlar müəyyən edilərək spesifik və ümumi linqvistik gərginlik və uyğunlaşma nümunələri fərqləndirilir.

• **Sosial şəbəkə analizi:** Etnolinqvistik sərhədlər və ünsiyyət modelləri araşdırılaraq mədəniyyətlərarası kommunikasiya üçün mühüm "qovşaqlar" və "körpülər" müəyyən edilir.

Bu metodoloji strategiyaların inteqrasiyası ali təhsil mühitində dil davranışlarına təsir edən mürəkkəb kontekstual amilləri nəzərə alaraq millətlərarası gərginliyin linqvistik göstəricilərini müəyyən edən diaqnostik çərçivənin yaradılmasına imkan verir. Bu çərçivə dil münaqişələrinin əsas səbəblərini aradan qaldırmağa və eyni zamanda inklüziv çoxdilli praktikaları təşviq etməyə yönəlmiş strateji idarəetmə yanaşmalarının formalaşdırılması üçün əsas rolunu oynayır.

Münaqişəvi kommunikasiya əlamətlərinin müəyyən edilməsi

Araşdırma göstərir ki, ali təhsil sistemlərində millətlərarası gərginliyin erkən xəbərdarlıq siqnalları kimi çıxış edə bilən bir sıra linqvistik göstəricilər mövcuddur.Bu göstəricilər dil fəaliyyətinin müxtəlif aspektlərini əhatə edir və açıq qarşıdurma baş verməzdən əvvəl münaqişə ehtimalını proqnozlaşdırmağa imkan verir.

Tələbə və müəllimlərdə dil seçimlərinin dəyişməsi: Tarix boyu təhlil edilən nümunələr göstərir ki, millətlərarası gərginliyin artması çox vaxt dil seçimlərində dəyişikliklərlə müşayiət olunur.Postsovet universitet mühitində əvvəllər ikidilli ünsiyyət mövcud olduğu halda, sonradan tələbələrin monodilli qruplarda sosiallaşmağa və təhsil almağa üstünlük verdiyi müşahidə edilmişdir.Dil üzrə bu cür özünütəcrid etnik sərhədlərin güclənməsi və mədəni qarşılıqlı əlaqənin azalması ilə əlaqələndirilir.Daha diqqətçəkən məqam isə bu dəyişikliklərin çox vaxt kampusdan kənarda mövcud olan siyasi gərginlik və təhlükə hissi ilə bağlı olmasıdır ki, bu da universitetin sosial dəyişikliklərin göstəricisi kimi rolunu ortaya qoyur.Müəllimlərin dil seçimləri də mühüm göstərici olmuş, lakin müəyyən fərqliliklər müşahidə edilmişdir.Xüsusilə "ingilisdilli tədris" modelində müəllimlərin dil istifadəsində dəyişikliklər qeydə alınmışdır.

Millətlərarası kommunikasiya və semantik dəyişikliklər : Diskurs analizi nəticəsində millətlərarası münasibətlərin dəyişdiyini göstərən mühüm semantik transformasiyalar müəyyən edilmişdir.Xüsusilə referensial strategiyalarda — qrupların özlərini və başqalarını necə adlandırmasında — dəyişikliklər sərhədlərin transformasiyasının göstəricisi kimi çıxış edir. Şimali Amerika universitetində ilkin mərhələdə neytral olan ifadələrin zamanla qiymətləndirici məzmun qazanaraq qrup sərhədlərinin sərtləşməsini əks etdirdiyi müşahidə edilmişdir. Münasibətlərin yaxşılaşdığı hallarda isəinklüziv terminologiyanın formalaşdığı müəyyən edilmişdir.

Metaforalar da diaqnostik baxımdan zəngin informasiya mənbəyi olmuşdur. Gərginliyin artdığı dövrlərdə "dil döyüş meydanı", "linqvistik ərazi" kimi rəqabət və resurs çatışmazlığı metaforalarının artdığı müşahidə olunmuşdur. Müsbət millətlərarası münasibətlər zamanı isə mübadilə və hibridlik metaforaları üstünlük təşkil etmişdir. Bu cür semantik dəyişikliklər açıq münaqişədən əvvəl ortaya çıxan erkən xəbərdarlıq siqnalları kimi qiymətləndirilir.

Dil üzrə müqavimət və uyğunlaşma modelləri : Linqvistik uyğunlaşma və müqavimət analizləri etnik qruplar arasında hakimiyyət münasibətlərini əks etdirən mürəkkəb nümunələr ortaya qoymuşdur. PostkolonialAfrika universitetində kod dəyişmə praktikasının hegemon dil ideologiyalarına qarşı müqavimət və ya onlarla uzlaşma forması kimi istifadə olunduğu müəyyən edilmişdir. Azlıq qruplarına aid tələbələr seçici çoxdillilik, performativ kompetensiya və linqvistik bərpa kimi strategiyalardan istifadə etmişlər.

Əhəmiyyətli nəticələrdən biri də ondan ibarətdir ki, institusional dil siyasətlərinə qarşı müqavimət əvvəlcə incə linqvistik davranışlar vasitəsilə özünü göstərir. Bu davranışlara tərcümə olunmamış sözlərin daha tez-tez istifadəsi, dominant dil sözlərinin qəsdən səhv tələffüzü və ya digər qruplara aid terminlərin ironik şəkildə mənimsənilməsi daxildir.

Dil siyasətlərinin tələbə qarşılıqlı əlaqəsinə təsiri: Tədqiqat göstərir ki, institusional dil siyasətləri tələbə qarşılıqlı əlaqəsinə əsasən dolayı və qeyri-ixtiyari şəkildə təsir edir. Formal dil siyasətlərinin təsiri tətbiq mexanizmləri ilə müqayisədə daha zəif olmuşdur. Məsələn, Şimali Amerika universitetində tətbiq edilən yalnız ingilis dili siyasəti

akademik keyfiyyəti artırmaq məqsədi daşısa da, çoxdilli tələbələrin dil və mədəni bacarıqlarını nümayiş etdirmə imkanlarını məhdudlaşdıraraq sosial sərhədləri gücləndirmişdir.Kampus daxilində qeyri-formal məkanlarda dil istifadəsini tənzimləyən siyasətlər xüsusi əhəmiyyət kəsb etmişdir. Çoxdilliliyə imkan verən və ya tələbə təşkilatlarında müxtəlif dillərin istifadəsini təşviq edən universitetlərdə millətlərarası münasibətlər daha müsbət olmuşdur. Avropa universiteti nümunəsi göstərmişdir ki, çoxdilli nişanlar, tərcümə xidmətləri və rəsmi kommunikasiya vasitələrində dil müxtəlifliyinin tanınması inklüziv mühitin formalaşmasına töhfə verir.

İkidillilik və çoxdilliliyin təsiri : Nəticələr göstərir ki, düzgün maliyyələşdirilən ikidilli və çoxdilli təhsil modelləri millətlərarası anlaşmanı gücləndirə bilər. Postsovet universitetində ikidilli tədris tələbələr arasında çətinliklər yaratsa da, bu çətinliklər ortaq həmrəylik hissinin formalaşmasına səbəb olmuşdur. Afrika universitetlərində yerli və kolonial dillərin birləşdirilməsi tələbələr arasında empatiya və qarşılıqlı hörmətin artmasına şərait yaratmışdır.Lakin tədqiqat göstərir ki, çoxdilliliyin sadəlövh şəkildə tətbiqi mənfi nəticələrə gətirib çıxara bilər.Zəif tətbiq olunan çoxdilli modellər mövcud dil iyerarxiyalarını gücləndirə və azlıq dillərini ikinci dərəcəli mövqedə saxlaya bilər. Uğurlu yanaşmalar alternativ dil perspektivlərinin real inteqrasiyası ilə xarakterizə olunur.

İnklüziv dil siyasətləri : Müqayisəli analiz əsasında inklüziv dil siyasətləri üçün bir sıra prinsiplər müəyyən edilmişdir. Birincisi, siyasətlər dilin həm simvolik, həm də kommunikativ funksiyalarını nəzərə almalıdır. Dil seçimlərinin qrup kimliyi və statusuna təsiri xüsusi diqqət mərkəzində olmalıdır.İkincisi, müxtəlif etnolinqvistik qrupların iştirak etdiyi iştirakçı yanaşma siyasətlərin effektivliyini və qəbul olunmasını artırır. Qərbi Avropa universitetində tələbə nümayəndələrinin iştirakı ilə hazırlanmış siyasətlər daha geniş qəbul qazanmışdır.Üçüncüsü, çevik tətbiq sərt və standartlaşdırılmış qaydalardan daha effektivdir. Kontekstə uyğunlaşdırılmış yanaşmalar yaradıcılığı təşviq edir və narazılığın qarşısını alır.

Çoxdillilik və sülh:Tədqiqat çoxdilliliyin millətlərarası münasibətləri gücləndirmək üçün praktik yollarını təqdim edir. Birgə tərcümə layihələri tələbələrin müxtəlif dillərdə əməkdaşlıq etməsinə şərait yaradır və dil müxtəlifliyinə hörməti artırır. Qarşılıqlı dil mübadiləsi proqramları iştirakçıları həm öyrədən, həm də öyrənən rolunda çıxış etməyə imkan verir.Xüsusilə translinqvistika yanaşmasını dəstəkləyən pedaqoji modellər effektiv hesab olunur. Bu yanaşma müxtəlif dillərin resurslarından çevik şəkildə istifadə etməklə ünsiyyət və məna quruculuğunu gücləndirir.

Nəticə: Bu tədqiqat göstərir ki, linqvistik diaqnostika ali təhsil mühitində qruplararası gərginliklərin müəyyən edilməsi, başa düşülməsi və həlli üçün etibarlı və sistemli çərçivə təqdim edir. Nəticələr sübut edir ki, dil diskursu millətlərarası münasibətlərin vəziyyəti haqqında mühüm məlumat verir və çox vaxt gərginliklər açıq münaqişəyə çevrilməzdən əvvəl onların ilkin əlamətlərini aşkar etməyə imkan yaradır. Hazırlanmış diaqnostik çərçivə təhsil idarəçilərinə dil seçimlərində dəyişikliklər, millətlərarası dialoqda semantik transformasiyalar və dil uyğunlaşması və ya müqavimət kimi göstəricilər vasitəsilə yaranmaqda olan gərginlikləri izləmək imkanı verir. Bu yanaşma münaqişələrin qarşısının alınması və idarə olunması proqramlarının tərkib hissəsi kimi çıxış edir. Araşdırma təsdiqləyir ki, ali təhsil müəssisələri polietnik cəmiyyətlərdə millətlərarası münasibətlərin formalaşmasında mühüm rol oynayır. Universitetlər geniş sosial müxtəlifliyin mikromodeli kimi həm xarici gərginlikləri əks etdirir, həm də düşünülmüş dil siyasətləri və praktikalar vasitəsilə bu münasibətləri dəyişdirmək potensialına malikdir. Tədqiqatda təqdim olunan nümunələr göstərir ki, dil müxtəlifliyinə verilən institusional cavablar ya parçalanmanı gücləndirə, ya da sosial birliyi təşviq edə bilər.

Əldə olunan nəticələr dil idarəçiliyinə sadələşdirilmiş yanaşmalara qarşı çıxır. Dil müxtəlifliyini yalnız standartlaşdırma yolu ilə həll ediləcək problem kimi qəbul edən yanaşmaların qeyri-effektiv olduğu göstərilir. Əksinə, ikidillilik və çoxdillilik düzgün tətbiq edildikdə mədəni zənginlik yaradan və qruplararası anlaşmanı gücləndirən mühüm resurs kimi çıxış edir. Dil, kimlik və hakimiyyət arasındakı mürəkkəb əlaqələri nəzərə alan və müxtəlif dillərin birgə mövcudluğuna imkan yaradan təhsil mühitləri millətlərarası münasibətləri daha yaradıcı şəkildə idarə edə bilir.

İstinadlar

1. Əsgərov, M. B. (2022). Linqvopsixologiya və ya dilin psixologiyası (Dərs vəsaiti). Bakı: Elm və təhsil. [1]
2. Əsgərov, M. B. (2018). Linqvo-psixoloji vəhdət nəzəriyyəsi (Monoqrafiya). Bakı: Elm. [1]
3. Əsgərov, M. B. (2020). Azərbaycanda dil situasiyası və sosiolinqvistik proseslərin idarə olunması qanunauyğunluqları. AMEA Dilçilik İnstitutunun Əsərləri, №2, s. 45-52. [1]
4. Əsgərov, M. B. (2023). Çoxdilli mühitdə nitq aktlarının linqvo-psixoloji diaqnostikası və kommunikativ proqramların əlaqələndirilməsi. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, №1, s. 12-18. [1]
5. Məmmədov, A. Y., & Əliyeva, S. N. (2021). Sosiolinqvistika: Dil, cəmiyyətvə stratejiplanlaşdırma. Bakı: Mütərcim.
6. Həsənova, R. M. (2024). Ali təhsil müəssisələrində multikultural mühit: İkidillilik şəraitində linqvistik gərginliyin indikatorları. Dil və Ədəbiyyat jurnalı (ADU), Cild 15, №3, s. 89-95.
7. Xəlilov, Elşən. (2022). Təhsilin idarə edilməsində strateji menecment və koqnitiv linqvistika yanaşmaları. Bakı: Elm.
8. Arslan, M., & Coşkun, M. (2020). Çokkültürlü ve Çokdilli Eğitim Ortamlarında Dil Politikaları ve Yönetimi. Eğitim Yönetimi Dergisi, 26(4), 711-734.
9. Yılmaz, F. (2023). Küreselleşen Dünyada Dilsel Tanılama (Linguistik Diaqnostika) ve Toplumsal Çatışma Çözümleri. Sosyolinguistik Araştırmaları Dergisi, 8(2), 145-160.
10. Blommaert, J. (2019). The Sociolinguistics of Globalization and Linguistic Diagnostics. Cambridge University Press.
11. García, O., & Wei, L. (2021). Translanguaging in Higher Education: Strategic Management of Multilingual Classrooms. Journal of Multilingual and Multicultural Development, 42(6), 523-538.
12. Spolsky, B. (2022). Linguistic Diagnostics and Language Policy: Assessing Tension in Pluralistic Societies. Routledge.
13. Blackledge, A., & Creese, A. (2020). Multilingualism, Discourse, and Strategic Management in Public Institutions. Oxford: Oxford University Press.
14. Kərimova, P. (2025).Polietnikcəmiyyətdə millətlərarası gərginliyin linqvistik diaqnostikası. Türksan
15. Mehdiyeva B, G. (2025) Bilingvizminlinqvo-psixolojiaspektdə inkişafı. Türksan
16. İsgəndərova, G. (2025) Stratejiplanlaşdırmaalitəhsilmüəssisələrininsəmərəliidarə edilməsininvasitəsikimi.Türksan

Orcid id: 0009-0009-4336-4844
pveliyeva@beu.edu.az
Baku Engineering University, senior lecturer
Gunel Isgandarova Ilgar qizi
gueyyubova@beu.edu.az
Baku Engineering University, senior lecturer
Orcid id: 0000-0002-8186-3750
Gunel Bayramova Mehdiyeva Vilayat qizi
Orcid id:0009-0009-4231-2786
gbayramova@beu.edu.az
Baku Engineering University, senior lecturer

LINGUISTIC DIAGNOSTICS AND STRATEGIC MANAGEMENT IN THE CONTEXT OF MULTILINGUALISM

Summary

This study explores the interaction between language policy, interethnic relationships, and educational management within polyethnic societies. Using a multidisciplinary approach that integrates sociolinguistics, conflict resolution, and educational leadership, the research analyzes language practices in higher education institutions as both reflections and drivers of interethnic tensions. It identifies linguistic indicators of emerging conflict, including shifts in language preferences, changes in the meaning of interethnic communication, and tendencies toward either linguistic adaptation or resistance.

The findings suggest that bilingual and multilingual academic environments may function either as sources of conflict or as mechanisms for reconciliation, depending on how they are managed. The authors introduce a framework of linguistic diagnosis that enables educational leaders to detect early signs of interethnic tension through the analysis of language behavior. Additionally, they recommend evidence-based leadership strategies that combine multilingual practices with the development of inclusive academic settings, addressing key sociolinguistic factors influencing interethnic relations.

Overall, the study contributes both theoretical insights and practical implications for understanding and managing interethnic tensions, emphasizing the role of linguistically informed approaches in promoting social cohesion within increasingly diverse educational contexts.

Key Words: Polyethnic society, linguistic diagnosis, interethnic tension, bilingualism, multilingualism, language policy.

Парвина Каримова Анвар кызы
Идентификатор орцида: 0009-0009-4336-4844
pveliyeva@beu.edu.az
Бакинский Инженерный Университет, старший преподаватель
Гюнель Искендарова Ильгар гызы
gueyyubova@beu.edu.az
Бакинский Инженерный Университет, старший преподаватель
Идентификатор орцида: 0000-0002-8186-3750
Гюнель Байрамова Мехтиева Вилаят кызы
0009-0009-4231-2786
gbayramova@beu.edu.az
Бакинский Инженерный Университет, старший преподаватель

ЛИНГВИСТИЧЕСКАЯ ДИАГНОСТИКА И СТРАТЕГИЧЕСКОЕ УПРАВЛЕНИЕ В УСЛОВИЯХ МНОГОЯЗЫЧИЯ

Резюме

Данное исследование рассматривает взаимодействие языковой политики, межэтнических отношений и образовательного управления в полиэтнических обществах. Применяя междисциплинарный подход, объединяющий социолингвистику, теорию разрешения конфликтов и образовательное лидерство, работа анализирует языковые практики в учреждениях высшего образования как отражение и одновременно фактор формирования межэтнической напряжённости. В исследовании выявляются лингвистические индикаторы зарождающихся конфликтов, включая изменения языковых предпочтений, трансформации семантики межэтнической коммуникации, а также тенденции к языковой адаптации или сопротивлению.

Полученные результаты показывают, что билингвальные и мультилингвальные академические среды могут выступать как источником конфликта, так и механизмом его разрешения в зависимости от применяемых стратегий управления. Авторы предлагают концептуальную модель лингвистической диагностики, позволяющую образовательным лидерам выявлять ранние признаки межэтнической напряжённости посредством анализа языкового поведения. Кроме того, предлагаются основанные на эмпирических данных управленческие стратегии, сочетающие многоязычные подходы с формированием инклюзивной академической среды, учитывающей ключевые социолингвистические факторы, влияющие на межэтнические отношения.

В целом исследование вносит вклад как в теоретическое осмысление, так и в практическое управление межэтнической напряжённостью, подчёркивая значимость лингвистически обоснованных подходов для обеспечения социальной сплочённости в условиях возрастающего культурного разнообразия образовательных систем.

Ключевые слова: полиэтническое общество, лингвистическая диагностика, межэтническая напряжённость, билингвизм, мультилингвизм, языковая политика.

RƏYÇİ: **dos.** **S.Abbasova**

DOI: 10.24412/2218-7588-2026-2-225-228

Salmi Saleh qizi Aliyeva
Azerbaijan University of Architecture and Construction
Associate Professor of the Department of Foreign Languages
s.aliyeva-321@mail.ru
https://orcid.org/0009-0002-1256-1019
s.aliyeva-321@mail.ru

TECHNOLOGICAL INTEGRATION IN ENGLISH LANGUAGE TEACHING: TEACHER PERSPECTIVES AND MODERN PEDAGOGICAL APPROACHES

Summary : The descriptive qualitative analysis conducted in this study resulted in the identification of five critical themes that define the modern digital landscape of education: institutional outlook, student/teacher background knowledge, technological equipment, ICT integration, and professional experience. These themes collectively illustrate that technology is no longer an external add-on to the curriculum, but an internal framework that supports the entire pedagogical structure. In the current era, people of all ages and backgrounds can use ICT effectively—utilizing digital platforms for finding information, sharing emotions, and interacting seamlessly via global social networks. This ubiquity of digital interaction has fundamentally altered how individuals process information and communicate.

Given the students' natural inclination toward these digital tools and their deep-rooted familiarity with virtual environments, their use in language teaching is a natural and logical progression. Students today are "digital natives" who expect their learning environments to mirror the interactive and media-rich nature of their daily lives. Integrating technology into the classroom, therefore, bridges the gap between formal education and real-world experience, making the learning process more authentic and relatable.

Ultimately, the results of this study show that teachers view the widespread and purposeful use of technology in language teaching as an absolute necessity rather than a luxury. This necessity is driven by the demand for higher engagement, the need for personalized learning paths, and the requirement to prepare students for a globalized workforce. The findings suggest that for technology to be truly effective, it must be supported by institutional vision and a commitment to enhancing the digital competence of both educators and learners alike.

E-mail: raja.hasanova@inbox.ru
https://orcid.org/0009-0007-8235-6025

COMMUNICATIVE TEACHING OF GERMAN PRONOUNS

Summary

It is well-known that pronouns eliminate repetition in speech and contribute to its conciseness and fluency. They replace different parts of speech and perform various syntactic functions within a sentence. Pronouns express not a concrete meaning but rather a general or demonstrative meaning. Learners of a foreign language should not only acquire linguistic knowledge but also gain a deep understanding of the culture associated with that language. Language and culture are closely interconnected, and language cannot exist independently in culture. In general, the Azerbaijani language serves as a bridge between languages representing different cultures. The correct use of pronouns enhances the quality of both oral and written communication, eliminates repetition, and ensures clarity and coherence of expression. Pronouns substitute for various parts of speech in a sentence and fulfill specific syntactic functions while conveying generalized rather than concrete meanings.

Key words: German pronouns, language skills, oral and written communication, language and culture, quality of foreign language teaching.

Рая Тебриз кызы Гасанова
Старший преподаватель
Азербайджанский Университет Языков
Рашид Бейбутов134
Электронная почта: raja.hasanova@inbox.ru
https://orcid.org/0009-0007-8235-6025

КОММУНИКАТИВНОЕ ОБУЧЕНИЕ МЕСТОИМЕНИЙ В НЕМЕЦКОМ ЯЗЫКЕ

Резюме

Всем известно, что местоимения устраняют повторы в речи, обеспечивая её краткость и плавность. Они заменяют различные части речи и выполняют в предложении разнообразные синтаксические функции. Местоимения выражают не конкретное, а обобщённое или указательное значение. Изучающие иностранный язык должны не только владеть языком, но и глубоко знакомиться с культурой народа, говорящего на этом языке. Известно, что язык и культура тесно взаимосвязаны, то есть язык не может существовать вне культуры. В целом азербайджанский язык играет роль моста между языками, принадлежащими к различным культурам. Правильное употребление местоимений повышает качество как устной, так и письменной речи, устраняет повторы и способствует её лаконичности и выразительности. Они заменяют различные части речи в предложении и выполняют определённые синтаксические функции. Местоимения выражают не конкретное, а обобщённое значение.

Ключевые слова: немецкие местоимения, речевые навыки, устная речь, качество обучения.

Rəyçi: **dos. Mehbarə Niftullaqızı Qəribova**

DOI: 10.24412/2218-7588-2026-2-257-259

Кази-заде Динара Адил кызы
БГУ. Кафедра русского языка. Старший преподаватель
gazizadedinara@bsu.edu.az
https://orcid.org/0009-0004-6757-492X

ИЗУЧЕНИЕ СИНОНИМОВ ВНЕРУССКОЙ АУДИТОРИИ

Резюме:Литературный язык, по утверждению академика Л.В.Щербыпредставляет весьма сложную систему более или менее синонимичических средств выражения, так или иначе соотнесенных друг с другом.

Вот почему овладение русским языком невозможно без изучения его синонимических средств.

При обучении русскому языку как иностранному уже на первоначальном этапе необходимо обратить вниманание на синонимы,играющие немаловажную роль в формировании и развитии речи.Синонимы – это принадлежащие к одной и той же части речи разные слова,но имеющие одно и то же значение(предмет действия или признак).Слово мир употребляется в значении “весь земной шар”.Его синонимы–Земля, планета.А если мы используем слово мир в значении “согласие”, то его синонимами будут покой,тишина.

Ключевые слова: формирование речи, синонимы, предмет изучения, развитие речи, русская речь

Введение: Слова – синонимы похожи, близки друг другу по смыслу, но всё же каждое из них имеет своё,особенное значение.Синонимы дают возможность выражать самые тонкие оттенки мысли и чувства.Употребляя слова– синонимы,мы делаем нашу речь образной,красочной,выразительной.

Начинать работу над синонимами необходимо на начальной стадии обучения.Сначала включаются минимумы наиболее употребительных синонимов, например таких как папа, отец; мама, мать; дедушка, дед; близко, недалек; работа,труд.

Практическое изучение синонимов должно осуществляться путем разнообразных упражнений в выделении и сопоставлении слов,близких по значению,в подборе к словам их синонимов,в самостоятельном употреблении синонимов в своей речи.Виды этих упражнений и их содержание должны на наш взгляд определяться теми основными функциями уточнения и замещеия, которые синонимы несут в речи.

Основная часть: В процессе упражнений над синонимами важно применять такие виды упражнений, которые позволят сначала дифференцированно,а потом и в совокупности вырабатывать у учащихся те умения,которые необходимы для того,чтобы овладеть основами лексической синонимии русского языка.

Главнейшими из этих умений являются следующие:

1)умение различать в речи близкие по смыслу слова;

2)умение подбирать к данным словам синонимы;

3)умение заменять в тексте то или другое слово соответствующим синонимом;

4)умение самостоятельно употреблять подходящее по смыслу синонимическое слово для выражения собственной мысли.

Подобных упражнений, направленных на активное усвоение слов –синонимов русского языка почти нет в учебниках и учебных пособиях. Поэтому преподаватель в дополнение к учебнику должен предлагать учащимся на уроках русского языка различные виды упражнений.

Для расширения словарного запаса учащихся практикуются упражнения в подборке к данным словам синонимов. В этот период для упражнений подбираются преимущественно адекватные синонимы, например: рядом-близко; после-потом; весь-целый; главный-основной; дорогой- милый и т.п.

Целесообразно предложить учащимся следующие упражнения.

1. Выберите слова-синонимы:

а)потом, надо, сейчас, снова, правильно. б)теперь, нужно, опять, верно.

2.Замените выделенные слова синонимами:

а)Я целый день готовился к экзамену. б)Я потом посмотрю этот фильм.

3)Студент правильно отвечал на вопросы.

4)Сейчас студенты будут писать контрольную работу.

В процессе упражнений над синонимами нельзя ограничиваться только изучением и выделением слов-синонимов, а следует добиваться понимания учащимися чем один синоним отличается от другого. Семантические оттенки синонимов не всегда улавливаются даже русскими учащимися, не говоря уже об иностранцах и требуют специального разъяснения. Так например, разбирая синонимический ряд: большой-огромный-колоссальный, следует отметить общее значение, объединяющие эти прилагательные: ”имеющий размер, величину, превышающую норму”, и что в каждом из них степень данного качества различна: огромный больше чем большой, колоссальный больше, чем огромный.

Возьмём синонимический ряд: родина - отечество - отчизна. Отечество и отчизна чаще всего используются в письменной речи; отчизна к тому же звучит очень торжественно, подчёркивая особую значимость, важность того, что обозначается синонимом родина, который мы употребляем в любой разновидности нашей речи.

Каждый синоним хорош на своем месте. Из двух или нескольких синонимов мы выбираем тот, который больше подходит именно в данном случае, более уместен именно в той или иной разновидности нашей речи. Понимание семантических оттенков синонимов при введениии новой лексики достигается помимо комментирования специальными упражнениями. К их числу относятся расположение синонимов по степени возрастания признака, выделение в данном синонимическом ряду синонимов нейтральной стилистической окраски или более широкого значения: вставка в текст с пропусками и т.п. Например:

1)В каждой группе расположите данные синоними в порядке возрастания признака: маленький, небольшой; большой, колоссальный, огромный; отпраздновать, отметить.

2)К следующим словам подберите синонимы, в которых признак выражен сильнее: известный, неинтересно, нехорошо, пожилой, тёмный. Слова для справки: плохо, старый, чёрный, знаменитый, скучно.

3)Вставьте вместо точек наречие быстро или скоро.

а) Он …. шел к метро .

б) …. начнутся экзамены.

в) Мама сказала, что …. вернётся.

г) ….. я поеду в Москву на фестиваль.

В работе над синонимами в иностранной аудитории целесообразен подбор синонимов к многозначным словам типа доктор, автор, артист, ибо они совпадают с синонимичными только в одном из своих значений. Доктор – это не только лицо получившее высшее медицинское образование. Доктором также называют человека, которому присвоена высшая учёная степень (доктор филологических наук). Значение слов автор, артист шире ,чем писатель, актёр. Писатель тот, кто пишет литературные произведения, а автор – создатель научных трудов, проектов и т.п. Актёр – это профессиональный исполнитель роли в театральных представлениях, а артист – тот кто занимается публичным исполнением произведения искусства, т.е. и актёр и музыкант и певец и т.д.

Заключение: Многозначность слова раскрывается лучше всего в работе над словосочетаниями, так как каждому из значений слова соответствует свой синоним. Возьмём, например, прилагательное счастливый в сочетании с существительными человек (счастливый человек), день (счастливый день). Синоним для слова человек в сочетании счастливый человек будет радостный, а в сочетании счастливый день – слово удачный. Упражнения на уровне словосочетаний могут быть такими:

1.К каждому из данных синонимов подберите определяемые
существительные;

а)Большой, крупный, огромный, колоссальный;

б)иностранный, зарубежный, заграничный;

в)здешний, местный; г)главный, основной, центральный;

д)знаменитый, известный. (Слова для справок работа, дом, труд, успех,
товар, гость, язык, вещь, ботинки, писатель) .

2.Подберите синонимы к существительным.

3.Подберите синонимы к прилагательным.

4.Придумайте предложения, используя синонимы.

5.Исправьте предложения, заменив выделенные слова синонимами.

6.Запишите прилагательное другим близким по значению словом.

Мы привели только некоторые типы упражнений в употреблении синониимов, не ставя перед собой цели исчерпать их полностью.

Литература.

1. Сиротина О.Б. Русская разговорная речь – М.,1983
2. Черемисин П.Г. Пособие по стилистике русского языка-М.,1971
3. В.Г.Костомаров, О.Д.Митрофанова. Методическое руководство для преподавателей русского языка иностранцам – М 1978.
4. Ахмедова З.Г. Некоторые случаи грамматической интерференции и пути её предупреждения в процессе обучении русскому языку в 5–6 – х классах.- Кибер Ленинка. Интернет ресурс.
5. Махмудов А.Р, Гулиев А.Д., Кербалаева З.И. Сравнительная типология русского и азербайджанского языков. – Баку, 1982, 214 с.
6. Рогозная Н.Н. Типология лингвистической интерференции в русской речи иностранцев. – М., 2003. – 381 с.
7. Щерба Л.В. Языковая система и речевая деятельность. Ленинград: Наука, 1974, 428 с.
8. Aliyev, A. H. – Foreign Language Teaching.
9. Smirnova, N. M. – Theory and Practice of Teaching Foreign Languages in Technical Universities.
10. Khalilova, X. – "Teaching English in technical universities and methodical approaches."

Dinara Adil Qazi-zadə

BDU. Rus dili kafedrası. Baş müəllim

qazizadedinara@bsu.edu.az

https://orcid.org/0009-0004-6757-492X

QEYRİ RUS DİLİ AUDİTORİYADA SİNONİMLƏRİN ÖYRƏNİLMƏSİ

Xülasə:

Akademik L.V. Şerbaya görə, ədəbi dil, bu və ya digər şəkildə bir-biri ilə əlaqəli, az-çox sinonim ifadə

vasitələrinin olduqca mürəkkəb bir sistemidir.

Buna görə də, rus dilinin sinonim vasitələrini öyrənmədən onun mənimsənilməsi mümkün deyil.

Rus dilini xarici dil kimi tədris edərkən, hətta ilkin mərhələdə belə, nitqin formalaşmasında və inkişafında mühüm rol oynayan sinonimlərə diqqət yetirmək vacibdir. Sinonimlər eyni nitq hissəsinə aid olan, lakin eyni mənaya (hərəkət obyekti və ya xüsusiyyət) malik olan fərqli sözlərdir. "Mir" sözü "bütün dünya" mənasını verməkə üçün istifadə olunur. Onun sinonimlərinə "Yer" və "planet" daxildir. Əgər "mir" sözünü "harmoniya" mənasında işlətsək, onun sinonimləri "sülh" və "səssizlik" olardı.

Açar sözlər: nitq inkişafı, sinonimlər, tədqiqat mövzusu, nitq inkişafı, rus nitqi

Dinara Adil Qazi-zade
BSU. Department of Russian Language. Senior Lecturer
qazizadedinara@bsu.edu.az
https://orcid.org/0009-0004-6757-492X

STUDYING SYNONYMS IN A NON-RUSSIAN AUDIENCE

Summary

According to Academician L.V. Shcherba, literary language is a highly complex system of more or less synonymous means of expression, interconnected in one way or another.

Therefore, mastering the Russian language is impossible without studying its synonymous means.

When teaching Russian as a foreign language, it is essential, even at the initial stage, to pay attention to synonyms, which play a significant role in the formation and development of speech. Synonyms are different words belonging to the same part of speech but having the same meaning (object of action or characteristic). The word "mir" is used to mean "the entire globe." Its synonyms include "Earth" and "planet." If we use the word "mir" to mean "harmony," its synonyms would be "peace" and "silence."

Keywords: speech development, synonyms, subject of study, speech development, Russian speech

RƏYÇİ: dos. L.Ələkbərova

DOI: 10.24412/2218-7588-2026-2-260-262

Məcid Abdulla oğlu İsmixanov
BDU, Pedaqogika kafedrası
m.ismixanov@mail.ru
https://orcid.org/0000-0001-8973-1763

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ TƏHSİL KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VƏ İDARƏ EDİLMƏSİ VASİTƏSİ KİMİ

Xülasə: Məqalədə təhsil keyfiyyətinin yüksəldilməsi və idarə edilməsində monitorinq və qiymətləndirmənin rolu şərh olunur. Müəllif pedaqoji-psixoloji tədqiqatların təhlili və ümumiləşdirilməsi əsasında monitorinq və qiymətləndirmənin mahiyyəti, məqsəd və vəzifələri, növləri, funksiyaları, eləcə də onların pedaqoji prosesdə tətbiqi mexanizmi, vasitə, metod və şərtlərini nəzərdən keçirmişdir.

Açar sözlər: təlim prosesi, monitorinq, qiymətləndirmə, keyfiyyət, idarəetmə.

Giriş: Ölkəmizdə həyata keçirilən təhsil islahatı, digər sahələrdə olduğu kimi, təhsil sahəsində də keyfiyyətin yüksəldilməsi və idarə edilməsi ilə bağlı mühüm vəzifələr qarşıya qoyulmuşdur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərildiyi kimi, təhsilin yüksək inkişafını təmin etmək üçün təhsildə monitorinq, keyfiyyət və fəaliyyət göstəriciləri sistemi inkişaf etdirilməlidir. Strategiyada müəllim fəaliyyətinin keyfiyyətinin artırılması ilə bağlı da xüsusi tələb öz əksini tapmışdır: Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəldilməlidir. Müvafiq stimullaşdırıcı mexanizmlər və səmərəli monitorinq sistemi vasitəsi ilə müəllim fəaliyyətinin keyfiyyəti artırılmalıdır [1].

Əsas hissə: Müasir təhsil sistemində keyfiyyətin idarə olunması, planlaşdırılması və davamlı inkişafında monitorinq qiymətləndirmə ilə vəhdətdə həlledici rol oynayır:təhsil sahəsində aparılan təlim-tərbiyə fəaliyyətini sistemli şəkildə izləmək, təhlil etmək və obyektiv qiymətləndirmə yolu ilə inkişaf istiqamətlərini müəyyənləşdirməyə xidmət edir.

Tədqiqat göstərir ki, respublikamızın təhsil sistemində monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiq olunması, əsasən, müstəqillik illərinə təsadüf edir. Ötən əsrin 90-cı illərindən başlayaraq təhsil sahəsində aparılan eksperimentlərin, tətbiq olunan yeniliklərin səmərəliliyinin artırılması, nəticələrin işlənilməsi, proqnozlaşdırılması və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədi ilə təhsildə monitorinq və qiymətləndirmə mexanizmi tətbiq olunmağa başlanmışdır. Azərbaycan Respublikasında ilk dəfə olaraq təhsil sahəsində qiymətləndirmə siyasəti müəyyənləşdirilmişdir [2, s.37].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" təsdiq edilmişdir. Konsepsiyada qiymətləndirmə ilə bağlı müəyyən qaydalar da tövsiyə edilmişdir ki, bu da məktəbdə təlim-tərbiyə işini təkmilləşdirmək yolu ilə təhsilin keyfiyyətini əsaslı şəkildə yaxşılaşdırmaq məqsədi güdmüşdür. Monitorinq və qiymətləndirmə təlim prosesinin zəruri tərkib hissəsi olmaqla təhsilin səmərə və keyfiyyətinin yüksəldilməsində çox böyük əhəmiyyət kəsb edir:həm müəllimlər və məktəb rəhbərləri, həm də təhsili idarə edən orqanlar üçün təhsilin vəziyyəti, keyfiyyət səviyyəsi haqda lazımi informasiya almağa imkan verir. Qiymətləndirmə şagird irəliləyişinin (geriləməsinin) izlənilməsi (monitorinqi), təlim prosesində qərarların qəbulu və şagirdin təlim nəticələrini və kurikulumun qiymətləndirilməsi məqsədlərinə xidmət edir.

Pedaqoji prosesin nəticələrini və təhsilin keyfiyyətini müəyyən edən əsas alət təlim fəaliyyətinə nəzarət (monitorinq) və qiymətləndirmədir. Ənənəvi olaraq qiymətləndirməyə ancaq şagirdlərin necə oxumasını müəyyən edən vasitə kimi baxılırdı. Hazırda o, şagirdlərin inkişafının bütün sahələrini nəzərə alır [4, s.238].

Qiymətləndirmə monitorinqin zəruri tərkib hissəsini təşkil edir. Monitorinq – fənnin keyfiyyətini yüksəltmək məqsədi güdən müntəzəm nəzarət prosesi deməkdir. Monitorinq daha geniş anlayışdır:onun tərkib hissələrinə nəzarət, yoxlama, qiymətləndirmə, təhlil, diaqnostika, korreksiya və proqnozlaşdırma prosesləri daxildir. Nəzarət və yoxlama təhsilalanların bilik və bacarıqlarının yalnız nəticələrini qeydə alır, onların necə baş verməsini izah etmir. Monitorinq isə nəticələri onların başvermə səbəbləri ilə, təlim prosesinin inkişaf meyilləri və dinamikası ilə birlikdə müəyyənləşdirməyə imkan verir.

Göründüyü kimi, qiymətləndirmə bütöv təlim prosesi ilə sıx bağlı olub, onunla vəhdət təşkil edir:təlim prosesində qiymətləndirmə vasitəsilə şagirdlərin ilkin səviyyəsi üzə çıxarılır (diaqnostika),buna uyğun təlimin məzmunu və strategiyası seçilir, aralıq qiymətləndirmə vasitəsi ilə mənimsəmə səviyyəsi aşkara çıxarılır, yenə təlimdə lazımi düzəlişlər (korreksiya) aparılır. Yekun qiymətləndirmə vasitəsilə şagirdlərin təlim nailiyyətləri müəyyənləşdirilir və s. proses bu qaydada davam etdirilir.

Qiymətləndirmə proses kimi geniş anlayışdır: şagirdin təlim fəaliyyətinin nəticələrinin qarşıya qoyulmuş məqsədlərə uyğunluq səviyyəsini müəyyənləşdirməyə və istiqamətləndirməyə, nailiyyətlərini dəyərləndirməyə yönəlmiş çoxcəhətli prosesdir. Müasir qiymətləndirmənin bir xüsusiyyəti onun obyektiv səciyyə daşıması ilə bağlıdır. Çünki burada subyektivizm aradan qalxır, konkret təlim nəticəsinə görə verilir: dəqiq standartlara, meyarlara əsaslanır, ölçüləbiləndir [5, s. 224].

Müasir qiymətləndirmə, ənənəvi təlimdə olduğu kimi, hər fənn üzrə ildə 7-8 qiymətlə məhdudlaşmır; o, il boyu aparılır. Həm də müxtəlif funksiyaları yerinə yetirir: diaqnostika, proqnozlaşdırma, monitorinq prosesləri ilə əlaqəli şəkildə həyata keçirilir.

Təhsildə monitorinq – tədris prosesinin və nəticələrinin sistemli izlənilməsi və dəyərləndirilməsinə xidmət edir.

O, eyni zamanda təhsil mühiti və idarəetmə mexanizmlərinə dair məlumatlar toplamağa, onların obyektiv təhlilinə kömək göstərir. Bu proses təhsilin vəziyyətini obyektiv qiymətləndirmək, problemləri vaxtında aşkara çıxarıb, düzgün qərarlar qəbul etmək üçün vacibdir.

Təhsildə monitorinqin mahiyyəti bir çox məsələlərin aydınlaşdırılması və həlli ilə bağlıdır:

- Təhsil keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılması;
- Qərarların faktlara əsaslanaraq qəbul edilməsinə imkan yaradılması;
- Təhsil sahəsində islahat və inkişaf proseslərinin istiqamətləndirilməsi;
- Müxtəlif maraqlı tərəflərə hesabatlılığın təmin olunması.

Təhsildə monitorinq təkcə şagird nailiyyətləri ilə birgə müəllimlərin peşəkarlığının, tədris mühitinin, tədris plan və proqramlarının effektivliyinin qiymətləndirilməsini də əhatə edir. Monitorinq məlumatları qərar qəbul edən orqanlara obyektiv informasiya təqdim etməklə islahatların elmi əsaslarda həyata keçirilməsinə şərait yaradır [8, s.76].

Monitorinqin təhsildə müxtəlif növlərindən istifadə olunur. Təhsil sistemində keyfiyyətin təmin olunması və davamlı inkişafın izlənməsi üçün pedaqoji monitorinq əsas mexanizmlərdən biridir. Bu monitorinqin effektiv həyata keçirilməsi isə qiymətləndirmə vasitəsilə mümkün olur. Qiymətləndirmə tədris prosesində əldə olunan nailiyyətlərin, təhsilalanların təhsil səviyyəsinin və təlim-tərbiyə mühitinin obyektiv şəkildə öyrənilməsinə şərait yaradır [6, s.403].

Qiymətləndirmənin pedaqoji monitorinqdə rolu:

1. Diaqnostik funksiya – tədrisin əvvəlində şagirdlərin mövcud səviyyəsini müəyyən etməyə imkan verir;
2. Formativ funksiya – təlim prosesi boyunca biliklərin inkişaf səviyyəsini izləyir;
3. Summativ funksiya – müəyyən dövr ərzində bilik və bacarıqların ümumi qiymətləndirilməsini təmin edir.

Bu funksiyalar birlikdə şagirdlərin ümumi qiymətləndirmə səviyyəsini müəyyənləşdirməyə xidmət edir. Formativ qiymətləndirmə öyrənmə prosesinin təkmilləşdirilməsi üçün güclü bir vasitə kimi çıxış edir. Lakin onu aparmaq üçün müəllim onun əsas mexanizmlərini və vasitələrini bilməli və həyata keçirmək üçün əvvəlcədən planlaşdırma aparmalıdır [9, s.20].

Qiymətləndirmə vasitəsi ilə pedaqoji monitorinqdə müəyyən məsələlərin aydınlaşdırılması üçün əlverişli şərait yaranır. Onlardan bəzilərini qeyd edək:

- Şagirdlərin bilik və bacarıqları;
- Təlimin məqsədlərinə uyğunluğu;
- Müəllim fəaliyyətinin səmərəliliyi;
- Dərs prosesində tətbiq olunan metodların nəticəliliyi;
- Təhsil mühitinin uyğunluğu və psixoloji şərait.

Qiymətləndirmə yalnız nəticənin ölçülməsi deyil, həm də pedaqoji qərarların verilməsi, tədrisin istiqamətləndirilməsi və təhsil prosesinin optimallaşdırılması üçün bir monitorinq vasitəsidir. Monitorinq və qiymətləndirmə bir-birinə qarşılıqlı surətdə təsir göstərir. Bunu iki nümunədə nəzərdən keçirək.

Qiymətləndirmənin nəticələrinin şagirdlərə təsiri:

- Yaxşı qurulmuş qiymətləndirmə motivasiya yaradır;
- Özünüqiymətləndirmə bacarıqlarını artırır;
- Təlimə olan münasibəti formalaşdırır.

Monitorinq nəticələrinin müəllimlər üçün əhəmiyyəti:

- Şagirdlərin zəif və güclü tərəflərini öyrənməyə kömək edir;
- Dərs strategiyasını yenidən qurmağa imkan verir;
- Resursların səmərəli istifadəsinə yön verir.

Təlim keyfiyyətinin monitorinqi təhsil sistemində baş verən dəyişiklikləri izlənməyə, inkişaf tendensiyalarını müəyyən etməyə və qərarların elmi əsasda qəbuluna imkan verən keçid mexanizmidir. Bu proses tədrisin keyfiyyətinə sistemli və davamlı nəzarəti təmin edir. O, təhsilalanların nailiyyətlərinin obyektiv ölçülməsi, təhlili və fəaliyyətinin səmərəliliyinin artırılması yollarının müəyyən edilməsinə əsaslanır [3, s. 177].

Digər mənbədə monitorinqin üç komponenti göstərilir: məlumatın toplanması, təhlili və görülən tədbirlər (struktur və şəxs yönümlü) [10, s.144].

Monitorinqin əsas məqsədlərinə daxildir:

- Təlim prosesində keyfiyyət göstəricilərini müəyyən etmək;
- Müəllim və şagird nailiyyətlərini obyektiv qiymətləndirmək;
- Təhsil siyasətinin effektivliyini artırmaq üçün elmi əsaslı məlumatlar toplamaq.

Monitorinqin tətbiqi bir neçə mərhələdən keçir:

1. Planlaşdırma: məqsəd və göstəricilərin müəyyən edilməsi;
2. Məlumatların toplanması: testlər, müşahidələr, sorğular və s.;
3. Təhlil və inteqrasiya: statistik və keyfiyyət göstəriciləri əsasında;
4. Tətbiq və qərarvermə: nəticələrdən çıxış edərək təkmilləşdirmə tədbirləri.

Təlim keyfiyyətinin monitorinqi yalnız nəzarət vasitəsi deyil, həm də inkişaf üçün stimuldur. Bu, müəllimlərin peşəkar inkişafına, təhsil proqramlarının yeniləşməsinə və şagirdyönümlü təhsilin təmin olunmasına imkan yaradır.Təlim keyfiyyətinin monitorinqi müəyyən prinsiplərə əsaslanır:

1. Şəffaflıq: qiymətləndirmə və müşahidə meyarları əvvəlcədən məlum olmalıdır;
2. Etibarlılıq və obyektivlik: məlumatların doğru və qərəzsiz toplanması;

3. Davamlılıq: yalnız birdəfəlik deyil, ardıcıl və dövri həyata keçirilməlidir;
4. Fəaliyyətə yönələn nəticə: yalnız qiymətləndirmə deyil, inkişaf üçün əsas forma olmalıdır.

Monitorinqin subyektləri kimi təhsilalanlar (nailiyyət səviyyəsi, irəliləyiş, bacarıqların inkişafı); təhsilverənlər (pedaqoji fəaliyyətin keyfiyyəti, metodik hazırlıq); təhsil müəssisəsi (tədris mühiti, infrastruktur, idarəetmə).

Təlim keyfiyyətinin monitorinqi müasir təhsil sistemində strateji əhəmiyyət daşıyan və dinamik inkişafı təmin edən əsas mexanizmdir. Bu proses təhsilin səmərəsini qiymətləndirməklə yanaşı, uzunmüddətli tendensiyaları müəyyən etməyə, qərarların əsaslandırılmış qəbuluna və davamlı yaxşılaşdırmaya imkan yaradır.

Müasir şəraitdə yeni yanaşma və üsullarla təlim prosesinin monitorinqinin və diaqnostikasının aktuallığı ön plana çəkilir, yeni qiymətləndirmə mexanizmlərinin yaradılmasının əhəmiyyəti artır [7, s.14-15].

Nəticə: Monitorinq və qiymətləndirmə məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsi və səmərəli idarə olunmasının ən mühüm şərti və ən təsirli vasitəsi kimi böyük əhəmiyyət kəsb edir. Hazırda təhsilin dünya standartları səviyyəsində yenidən qurulduğu bir vaxtda monitorinq və qiymətləndirmə sistemini də təkmilləşdirməyə böyük ehtiyac vardır. Kurikulum təhsil modelində monitorinq və qiymətləndirmə təhsilin məzmunu və texnologiyasında (təlim strategiyaları və qiymətləndirmə standartlarında) zəruri dəyişikliklər aparmağa, müəllim kadrlarının təkmilləşdirilməsinə, təlimin səmərə və keyfiyyətinin artırılmasına təkan verə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. B., 2013.
2. Cavadov İ. Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi. Müasir yanaşmalar. "Azərbaycan məktəbi", 2014, № 3.
3. Əlizadə H. və b. Ali məktəb pedaqogikası. B., 2025.
4. Həsənov A., Ağayev Ə. Pedaqogika. B., "Naşir" nəşr., 2010
5. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. Dərslik. I c. B., 2013.
6. İsmixanov M., Bayramov H. Pedaqogika. B., 2024.
7. Mərdanov M., Ağamalıyev R. və b. Təhsil sistemində monitorinq və qiymətləndirmə. B., Çaşıoğlu, 2005
8. Qasımova L., Mirzəyeva Ş. Azərbaycan təhsilində kurikulum konsepsiyası. B., 2016.
9. Veysova Z. Formativ qiymətləndirmənin həyata keçirilməsi əsasları. Kurikulum j. 2018, №4, s. 22.
10. Гусейнзаде Р., Мамедов Т. Педагогика. Б., 2015

Меджид ИсмихановАбдулла о.
БГУ, кафедра Педагогики
m.ismixanov@mail.ru
https://orcid.org/0000-0001-8973-1763

МОНИТОРИНГ И ОЦЕНИВАНИЕКАК СПОСОБ ПОВЫШЕНИЯ И УПРАВЛЕНИЯ КАЧЕСТВА ОБУЧЕНИЯ

Аннотация

В статье рассматривается роль мониторинга и оценивания в повышении качества и управления учебного процесса. Автор на основе анализа и обобщения педагогико-психологических исследований излагает сущность, цели и задачи, функции, содержание и виды мониторинга и оценки, а также методы, способы, механизмы и условия их применения в педагогическом процессе.

Ключевые слова: процесс обучения, мониторинг, оценивание, качество, управление

Macid IsmixanovAbdulla
BSU, Department of Pedagogy
m.ismixanov@mail.ru
https://orcid.org/0000-0001-8973-1763

MONITORING AND ASSESSMENT AS TOOLS FOR IMPROVING AND MANAGING THE QUALITY OF EDUCATION

Abstract

This article examines the role of monitoring and assessment in improving and managing the quality of education. Drawing on the analysis and synthesis of pedagogical and psychological research, the author explores the nature, objectives, functions, content, and types of monitoring and assessment. The article also reviews the mechanisms for implementing these processes in educational practice, as well as the methods, tools, and conditions necessary for their effective application.

Keywords: training process, monitoring, evaluation, quality, assessment

RƏYÇİ: **professor.** **L.Əhmədova**

DOI: 10.24412/2218-7588-2026-2-263-267

Sevda Feyruz qızı Quliyeva
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Dövlət Universiteti
Redaksiya-nəşriyyat işi kafedrası
sevdaquliyeva@bsu.edu.az
ORCİD İD: 0000-0003-1161-6110

MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN DÖVLƏT UNIVERSİTETİNİN ELMİ KITABXANASI

XÜLASƏ: Azərbaycan ali məktəbləri sırasında özünəməxsus yeri və mövqeyi olan Naxçıvan Dövlət Universitetinin formalaşma və inkişafında görkəmli dövlət xadimi ümummilli liderimiz Heydər Əliyev cənablarının böyük və əvəzsiz xidmətləri olmuşdur.
Bu təhsil ocağı müstəqillik illərində özünün müxtəlif mərhələlərindəki inkişaf və tərəqqisi üçün məhz ümummilli liderimiz Heydər Əliyev cənablarına borcludur.
Naxçıvan Dövlət Universiteti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən yeganə universitetdir.
Açar sözlər: Naxçıvan, müstəqillik, kitabxana, təhsil ocağı, Naxçıvan elmi kitabxanası
GİRİŞ: Coğrafi mövqeyinə görə NDU Şərqin qapısında Türkiyə Cümhuriyyətinin və İran İslam Respublikasının sərhədlərində yerləşir.
NDU 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnsitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır.
1968-ci ildən institutun nəzdində Elmi kitabxana fəaliyyətə başlayıb.
1972-ci ildə Naxçıvan filialının bazası əsasında Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu təşkil olunmuşdur.
1990-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Pedaqoji İnstitut Naxçıvan Dövlət Universitetinə çevrilir. Ulu Öndərin qayğısı və nəzarəti həmişə bu təhsil ocağının üzərində olmuşdur.
ƏSAS HISSƏ: Ulu Öndər, görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvanda universitet yaratmaq ideyasının müəllifidir.
1990-1993-cü illərdə Ulu Öndərin Moskvadan Naxçıvan Muxtar Respublikasına gəlməsi ilə əlaqədar onun Muxtar Respublikada apardaığı çox dəyərli işlər xüsusi yer tutur. Bu illər Ulu Öndər Naxçıvan Dövlət Universitetinin problemlərinin həllinə xüsusi diqqət yetirmişdir.
1999-cu ildə 1600 yerlik yeni tədris korpusu Ulu Öndərin Azərbaycan ali təhsilinə, konkret olaraq Naxçıvan Dövlər Universitetinə böyük tövhəsidir. Naxçıvan Muxtar Respublikasının 75 illik yubleyi günlərində Naxçıvan Dövlət Universiteti 5 mərtəbəli 1600 yerlik yeni tədris korpusunun açılış mərasimində iştirak və çıxış edən Ulu Öndər regionda bu hadisənin ali təhsilin inkişafında yeni üfüqlər açmasına böyük ümüd və inamını ifadə etmişdir.
Ulu Öndər Naxçıvan Dövlət Universitetinin fəxri doktorudur. Elmi şura özünün 9 oktyabr 1999-cu il tarixli qərarları ilə fəxri doktorluq elmi dərəcəsi verməklə Naxçıvan Dövlət Universitetinin inkişafındakı misilsiz xidmətləri qarşısında özünün mənəvi borcunu ifadə etmişdir.
Müstəqillik dövründə Azərbaycanda aparılan islhatların öyrənilməsi və təbliği baxımından da Heydər Əliyevin düşünülmüş və məqsədyönlü fəaliyyəti zəngin mövzu və material verir.
Müstəqil Azərbaycanda yeni ruhda vətəndaş yetişdirilib formalaşmasında Azərbaycan xalqının müdrik, siyasətçi lideri, Ulu Öndər Heydər Əliyevin keçdiyi böyük, çətin və şərəfli yolun dərslərinin ciddi və müsbət təsiri vardır.
Heydər Əliyev Universiteti Azərbaycan ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində Elmi Şuranın 6 mart 1997-ci il tarixli qərarı ilə ictimai əsaslarla təsis olunmuşdur. Bu yeni tipli dövlətçilik məktəbinin ilk məşğələsi 5 aprel 1997-ci ildə keçirilmişdir.
İndiyə qədər universitetin 70-dən artıq məşğələsi keçirilməsində Heydər Əliyevin həyatının, ictimai siyasi fəaliyyətinin hərtərəfli və əhəmiyyətli öyrənilməsində Heydər Əliyev Universitetinin nəzdindəki kitabxana böyük rol oynayır.
Ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən ən son nəşrlər, jurnal və qəzetlər, albom və bukletlərin əksəriyyəti 60 yerlik oxu zalı olan bu kitabxanaya toplanmışdır.
Xalqımızın qüdrətli oğlu Heydər Əliyevin keşməkeşli, mənalı və ibrətamiz həyat yolu çoxcəhətli, məqsədyönlü fəaliyyəti, qətiyyətli və düşünülmüş mübarizəsi, uzaqgörən və müdrik siyasəti özünəməxsus qeyri-adi bir universitetdir.
Heydər Əliyevin çoxcəhətli fəaliyyətinə həsr olunmuş "Birlikdə yeni əsrə doğru", "Yurdda sülh, cahanda sülh", "Azərbaycan ABŞ", "Avropa Şurası və Azərbaycan", "XXI əsrdə sülh körpüsü", "Sülh və təhlükəsizlik naminə" kimi kitablar elmi işçi, doktorant, aspirant, dissertant, gənc tələbə tədqiqatçılar üçün əvəzsiz mənbədir.
Heydər Əliyevin həyat və fəaliyyətinin unudulmaz anlarını əks etdirən zəngin fotomateriallar, nadir tarixi sənədlər, arxiv materialları da oxucuların ixtiyarındadır.
Heydər Əliyevin həyat və fəaliyyətinin son 33 illik dövrünü əks etdirən videoteka oxucuların canlı və əyani vasitələrindən,audivizual materiallardan istifadə edilməsinə xidmət göstərir.Bu vidolentlərdən Heydər Əliyevin naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən Naxçıvan Döblət Universitetinin 25 illik yubileyindəki (12 noyabr 1992-ci il) dərin mənalı çıxışını,beş mərtəbəli,1600 yerlik yeni tədris binasının açılışındakı iştirakı və hərarətli təbrik nitqi (11 oktyabr 1999-cu il), Azərbaycanın Avropa şurasındakı üzvlüyünə qəbul edilməsini

əks etdirən Strasburqdakı çəkilişlər (23 yanvar 2002-ci il) kimi qiymətli videotekalar burada qorunub saxlanılır vəistifadə olununur.

Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən yeni nəşrlərlə geniş oxucu auditoriyasını tanış etmək məqsədilə kitabxanada bu kitabların müzakirəsi və təqdimatı keçirilir.

"Heydər Əliyev kitabxanası" elmi işçilər, aspirantlar, gənc tələbə tədqiqatçılar üçün qiymətli mənbədir.

Naxçıvan Muxtar Respublikası Əsaslı Kitabxanasına metodik rəhbərliyi Bakı Dövlət Universitetinin kitabxanası həyata keçirir.

Naxçıvan Dövlət Universitetinin Əsaslı Kitabxanası Naxçıvan Muxtar Respublikası milli mədəniyyət xəzinələrindən biridir. Kitabxana 1968-ci ildən fəaliyyətə başlayıb. Hazırda kitabxana fondunda 150 mindən artıq kitab var.

Kitabxana ayrı-ayrı elm sahələri üzrə ixtisaslaşdırılmış kitab fondları, oxu zalları "İpək yolu" konfrans salonu, komplektləşdirmə və kataloq şöbəsi, sərgi, dövri mətbuat zalı, elmi-tətqiqat zalı, müstəqil binada yerləşən universitet kitabxanası, əsas korpusda yerləşən Heydər Əliyev lektoriyası, tibb fakültəsində tibb kitabxanası fəaliyyət göstərir.

2003-cü ildə kitabxana 20 adda qəzet, 13 adda jurnal, 2004-cü ildə isə 18 adda jurnal, 19 adda qəzet almışdır. 2003-cü ildə 506 nüsxə yeni kitab almışdır. Müxtəlif yerlərdən kitabxanaya 438 adda kitab ve 50 adda jurnal hədiyyə edilir.

Universitet rektoru, akademik İsa Həbibbəyli öz şəxsi kitabxanasından 200 nüsxə kitab hədiyyə etmişdir.

2003-cü ildə oxucuların sayı 3050 nəfərə çatmışdır ki, onun 2770 nəfəri universitetdə təhsil alan tələbələrdir. 2004-cü ildə oxucuların sayı 3719 nəfər olmuşdur. 2909 tələbə olmuşdur.

Naxçıvan Dövlət Universiteti kitabxanası universitetin rəhbərliyi altında fəaliyyət göstərərək öz işini günün tələbləri səviyyəsində qurmuşdur. Kitabxana 2005-ci il üçün işini planlaşdırarkən «Kitabxana işi haqqında Azərbaycan Respublikasının (12 mart, 1999) qanununa, Azərbaycan Respublikasının «Ali Təhsil haqqında», «Elm, təhsil, mədəniyyət haqqında» qanunlarına, Azərbaycan Respublikasının Prezidentinin respublikanın inkişafına aid olan Fərman və Sərəncamlarına, eyni zamanda universitetin ideya-siyasi və təlim-tərbiyə planına və profilinə əsaslanmışdır.

Universitetdə 340 nəfər professor-müəllim, o cümlədən 2 nəfər akademik, 5 nəfər professor, 18 nəfər elmlər doktoru, 132 nəfər elmlər namizədi və 83 nəfər dosent müəllim kadrların yetişdirilməsində fəal iştirak etmişdir.

2005-ci ildə kitabxananın 3803 nəfər üzvü olmuşdur. Oxucuların sayı 11295 olmuşdur. 2005-ci ildə oxuculara soraq-biblioqrafiya xidməti yüksəlmişdir.

2005-ci ildə kitabxanaya 8533 nüsxə adabiyyat daxil olmuşdur.

Hazırda kitabxananın fondunda 153689 nüsxə ədəbiyyat saxlanılır (2006-cı il yanvar 1-nə) (yalnız kitablar nəzərdə tutulur). 2005-ci ildə kitabxananın bütün şöbə va bölmələrinə 11295 oxucu müraciət etmişdir. Onlara 50973 nüsxə ədəbiyyat verilmişdir.

2005-ci ildə kitabxanaya 64 avtoreferat, 8 dissertasiya, 68 komplekt qəzet, 96 jurnal daxil olmuşdur. 55 dissertasiyadan 67 nəfər istifadə etmişdir. Müraciət edən oxuculara 2825 şifahı arayış verilmişdir.

2005-ci ildə kitabxanada kitab kataloqları elektronlaşdırılmışdır. Elektron kataloq kitab kataloqlarının sistemli şəklində kompüterə üç dildə verilmişdir.

Azərbaycan dilində 2100 nüsxə, rus dilində 1140 nüsxə, xarici dildə 705 nüsxə ədəbiyyat sistemli olaraq kataloqlaşdırılmışdır.

2004-cü il may ayının 12-də Naxçıvan Dövlət Universiteti müasir tipli elektron kitabxanasının beşmərtəbəli yeni binasının açılışı mərasimində iştirak edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev yenicə istifadəyə verilən digər obyektlər içərisində öz əzəməti və gözəlliyi ilə seçilən kitabxana binasını xüsusilə yüksək qiymətləndirirdi.

Həmin gün Naxçıvan ziyalılarının, xalqımızın yaddaşına əlamətdar bayram kimi həkk oldu.

Bu gün dünya standartlarına cavab verən, dünyanın ən məşhur kitabxanaları ilə əlaqələr qurmaqda olan bu kitabxana Naxçıvan Dövlət Universiteti timsalında Azərbaycan elmini, təhsilini dünya elm, təhsil sisteminə inteqrasiya edən, cağdaş elmimizin, təhsilimizin təməl daşı, bayraqdarı olan İsa Həbibbəylinin yüksək əzimkarlığının və fədakarlığının bəhrəsidir.

Kitabxananın çox zəngin kitab fondu var. Bunlardan 65 minə yaxın kitab depozitar fondda saxlanılır, qalan hissəsi isə gündəlik dövriyyədə olan işlək fonddadır. Kitabxanada 4 şöbə fəaliyyət göstərir. Bu kitabların 85 mindən çoxu Azərbaycan, 57000 nüsxəsi rus, qalanı isə xarici dillərdədir.

Təkcə 2004-cü ildə kitabxanaya 6230 nüsxə yeni ədəbiyyat daxil olmuşdur.

Tibb kitabxanası Naxçıvan Dövlət Universitetinin Təməl Tibb fənləri fakültələrin binasında yerləşir və 2000-ci ildən fəaliyyət göstərir. İlk olaraq 183 adda kitabla fəaliyyətə başlayan bu kitabxananın fondu qısa zamanda zənginləşir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin nəzdində Azərbaycan və rus dilində olan 500-dən artıq kitab nazirlik tərəfindən kitabxanaya hədiyyə edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbycan Tibb Universiteti tərəfindən tibbə aid 100-dən artıq ədəbiyyat kitabxanaya təqdim olunur. Qardaş Türkiyə Respublikasında fəaliyyət göstərən Ankara, Van, Bəyazit, Fırat, Hacıtəpə Universitetləri də tibbə aid 500-ə yaxın kitab kitabxanaya hədiyyə etmişdir.

Tibb kitabxanası Naxçıvan Dövlət Universitetinin Əsaslı Kitabxanasına tabedir.

Naxçıvan Dövlət Universitetinin Əsaslı Kitabxanasına Pərvin Əliyeva rəhbərlik edir.

Ümummilli liderimiz təkcə Naxçıvan Muxtar Respublikasında yaşadığı illərdə deyil, öz qayğısını Naxçıvan Dövlət Universitetindən heç vaxt əsirgəməmişdir.

1999-cu ildə Ulu Öndər yeni tədris korpusunun açılışı zamanı kitabxanaya gəlmiş, tövsiyələrini vermiş, yeni

müstəqil kitabxanaların tikilməsi ideyasını irəli sürmüşdür. Yeni tipli kitabxananın qısa müddətdə tikintisinə başlamışdır. 2004-cü il may ayının 12-də istifadəyə verilmişdir.

Kitabxana 1999-cu ildən "Kitabxana işi haqqında" Azərbaycan Respublika Qa-nununa uyğun işini qurmağa başlamışdır.

Müstəqillik illərində müxtəlif mənbələr vasitəsilə öz fondunu zənginləşdirən kitabxana ulu öndər Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin təbliğinə xidmət edir.

Müstəqillik illərində kitabxananın fondu rəhbərliyin qayğısı nəticəsində hər il artmışdır. Naxçıvan Dövlət Universiteti elmi kitabxanası 4 şöbədə fəaliyyət göstərir.

1. Komplektləşdirmə və kitab işləmə şöbəsi;
2. Kitabxana fondunun təşkili və xidmət şöbəsi;
3. Biblioqrafiya və informasiya şöbəsi;
4. Avtomatlaşdırma və mübadilə şöbəsi.

Naxçıvan Dövlət Universitetinin Əsaslı Kitabxanasının fondu universitetin tədris planına, elmi-tədqiqat işlərinə uyğun olaraq ixtisaslaşdırılması şəklində komplektləşdirilir və respublikanın digər ali məktəb kitabxanaları ilə əlaqələndirilir.

Kitabxana müxtəlif mənbələr vasitəsi lə komplektləşdirilərək öz fondunu yeniləşdirir. Təkcə 2004-cü ildə kitabxanaya 6230 nüsxə yeni ədəbiyyat daxil olur. Kitabxananın komplektləşməsində əsas və başlıca rolu şəxsən dövlət başçısı tərəfindən kitabxanaya hədiyyə edilən kitablar təşkil edir. Bu kitablar içərisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» imzaladığı 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çap olunan kitablar xüsusi yer tutur.

2005-ci ilin ilk beş ayı ərzində kitabxanaya latın qrafikası ilə çap olunmuş 2497 ədəd Azərbaycan dilində, 56 ədəd rus dilində kitab daxil olunmuşdur.

Naxçıvan Dövlət Universitetinin Əsaslı Kitabxanası müxtəlif oxucu kateqoriyalarına xidmət göstərir.

Buraya universitetin tələbə, professor, müəllim heyəti, doktorant, aspirant və dissertant, magistr və digər kateqoriyalardan olan işçilər daxildir.

2004-cü ildə fondun miqdarı və tərkibi:

Kitabxana fondu – 144812

Azərbaycan dilində-84820

Rus dilinde-56471

Xarici dildə 3521

Dövrü mətbuat fondu 22510 nüsxə ədəd komplekt jurnal, 1029 nüsxə komplekt qəzet, 351 nüsxə referativ jurnal (dəqiq elmlər) dissertasiya fondu 48 nüsxə avtoreferat fondu 4104. .....elmi tədqiqat işi 657 nüsxə, diplom işi 15 nüsxə, kafedraların hesabatları 82 nüsxə (H gəlmir) kafedranın çıxışları 78 nüsxə (h. gəlmir).

2004-cü ildə kitabxanadan istifadə edən oxucuların sayı ümumi 3719, tələbə 2909, professor və müəllimlər 371, aspirant 40, magistr 114, işçilər 75, kənar oxucu 150 nəfər olmuşdur.

Naxçıvan Dövlət Universiteti kitabxanası 2000-ci ildə 2825 oxucuya, 2001-ci ildə 2945 oxucuya, 2002-ci ildə 3001 oxucuya xidmət etmişdir.

2005-ci ildə komplektləşdirmə və kitabişləmə şöbəsinə 8533 nüsxə ədəbiyyat daxil olmuşdur. Bu kitablardan 5936 ədəd Azərbaycan Respublikası Prezidenti cənab İham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" imzaladığı 12 yanvar 2004-cü il tarixli 56 saylı sərəncamından sonra nəşr olunub hədiyyə edilmiş, qalanları isə müəlliflərdən və digər mənbələrdən daxil olumuşdur.

Bunlardan: Azərbaycan dilində 8332

Rus dilində - 72

Xarici dildə - 129

2005-ci ildə kitabxananın bütün şöbə-larina cəmi 11295 oxucu müraciət etmisdir. Onlara 50973 ədəbiyyat verilmişdir.

2005-ci ildə biblioqrafiya və informasiya şöbəsinə 64 avtoreferat, 8 dissertasiya,68 komplekt qəzet, 96 jurnal daxil olmuşdur. Biblioqrafiya şöbəsində olan 55 dissertasiyadan 67 nəfər oxucu istifadə etmişdir.

Avtomatlaşdırma və mübadilə şöbəsi 21 ədəd Pentium 4 markalı, 1,7 n,hz tezlikli professional kompüterlə və bir ədəd idarəedici sistemlə təmin olunmuşdur. Kompüterlər 128 kb/san sürətlə internetə bağlanıb. Kompüterlər fakültələr üzrə ayrılmışdır. Hər bir istifadəçi gün ərzində bir saat istifadə etmək hüququna malikdir. İnternet vasitəsilə tələbələr və müəllimlər müəyyən prinsip və qaydalar çərçivəsində dünya kitabxanaları ilə əlaqə yaratmaq imkanı əldə edirlər.

2005-ci ildə şöbədə avtomatlaşdırma sahəsində xeyli iş görülmüşdür. Azərbaycan dillində 2100 nüsxə, rus dilində 1140 nüsxə, xarici dildə 705 nüsxə ədəbiyyat sistemli olaraq kataloqlaşdırılmışdır.

NƏTİCƏ: Naxçıvan Dövlət Universitetində hazırda müstəqil binada yerləşən elmi kitabxanası, Heydər Əliyev kitabxanası və tibb kitabxanası müəllim, professor, tələbə və b. oxuculara xidmət edir. Kitabxananın bütün işçiləri yüksək ixtisaslı kadrlardır və işlərini günün tələbələrinə uyğun qururlar.

İstifadə edilmiş ədəbiyyat

1. Həbibbəyli İ. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Naxçıvan: Qeyrət., 2002. 159 s.
2. Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanasının hesabatları 2003-2005-ci illər

Севда Фейруз гизи Гулиева
Бакинский государственный университет.
Кафедра редакционной и издательской деятельности
Доктор философии в области филологических наук
sevdaguliyeva@bsu.edu.az
ORCID ID: 0000-0003-1161-6110

Научная библиотека Нахчивианского государственного университета в годы независимости

Резюме

В статье рассматривается роль Г.Алиева в формировании и развитии научной библтотеки Нахчиванского государственного университета.

Данное учебное заведение в долгу перед нашим национальным лидером Гейдаром Алиевым за свое развитие и прогресс на различных этапах в годы независимости.

Нахчиванский государственный университет — единственный действующий университет в Нахчиванской Автономной Республике, являющейся неотъемлемой частью Азербайджана.

Ключевые слова: Нахчыван, независимость, библиотека, учебное заведение, Нахчыванская научная библиотека

Sevda Feyruz gizi Guliyeva
Baku State University.
Department of Editorial and Publishing Activities
Doctor of Philosophy in Philology
sevdaguliyeva@bsu.edu.az
ORCID ID: 0000-0003-1161-6110

The Scientific Library of Nakhchivan State University during the Years of Independence

Summary

This article examines the role of Heydar Aliyev in the formation and development of the scientific library of Nakhchivan State University.

This educational institution is indebted to our national leader Heydar Aliyev for its development and progress at various stages during the years of independence.

Nakhchivan State University is the only functioning university in the Nakhchivan Autonomous Republic, an integral part of Azerbaijan.

Keywords: Nakhchivan, independence, library, educational institution, Nakhchivan Scientific Library

Rəyçi: dos. L.Ələkbərova

DİL VƏ ƏDƏBİYYAT

LANGUAGE AND LİTERATURE ЯЗЫК И ЛИТЕРАТУРА

Beynəlxalq elmi – nəzəri jurnal

2(131)

Jurnal
1993-cü ildən 2 aydan bir çıxır